AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

İLQAR HÜSEYNOV
NİGAR ƏFƏNDİYEVA

# QƏDİM DÜNYA MƏDƏNİYYƏTİ

**DƏRSLİK**

BAKI 2009

63.3(0)3
H 95

Dərslik Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “Tətbiqi kulturologiya” kafedrasının müdiri, kulturologiya elmləri doktoru İlqar Həsrət oğlu Hüseynov və kulturologiya elmləri doktoru Nigar Timuçin qızı Əfəndiyeva tərəfindən hazırlanmışdır.

***Redaktor:*** Pərviz Rzaquliyev, ETRTMM-nin əməkdaşı, *azerbaijan books@mail.ru*
*Elmi Rəyçilər:* Ağalar Abbasbəyli, tarix elmləri doktoru, BDU-nun “Beynəlxalq münasibətlər” Əlikram Tağıyev, f.e.d., AMEA-nın şöbə Ramiz Zöhrabov, sənətşünaslıq doktoru, Niyazi Mehdi f.e.d., professor.
*Dizayn*: *Rəşad Rzaquliyev, rashad156@mail.ru*

**İlqar Hüseynov, Nigar Əfəndiyeva.**
**Qədim dünya mədəniyyəti. Dərslik. Azərbaycan dilində.**

“Qədim dünya mədəniyyəti” adlı dərslik Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tarixində yenilik kimi qiymətləndirilə bilər. Dərslikdə bəşəriyyətin min illərlə yığıb saxladığı, zənginləşdirdiyi, bir-birinə verdiyi və gələcək nəsillərə çatdırdığı mənəvi sərvətlərin və dəyərlərin öyrənilməsi və mənimsənilməsi problemləri müqayisəli kulturologiya baxımından araşdırılır, milli adət və ənənələr, dini xüsusiyyətlər, beynəlxalq mədəni əlaqələr, qədim dövr mədəniyyəti və incəsənətinin tarixi-mədəni-ədəbi abidələrinin tədqiqinə geniş yer verilir. Dərsliyə 400-dən çox abidənin fotoşəkili daxil edilmiş, onlardan hər birinə annotasiya verilmişdir. Dərslik ali və orta ixtisas məktəblərinin professor-müəllim heyəti və tələbələri, mədəniyyət və incəsənət işçiləri, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulur.

Naşir - Pərviz Rzaquliyev, azerbaijan_books@mail.ru
“Mars-print” NPM, 2009.
432 səh., 60x84/16, tiraj-1000.

ISBN 978-9952-8087-1-2 © İlqar Hüseynov

# MÜNDƏRİCAT

GİRİŞ
İBTİDAİ DÖVRÜN MƏDƏNİYYƏTİ
QƏDİM MİSİR MƏDƏNİYYƏTİ
HET MƏDƏNİYYƏTİ
FƏLƏSTİN
MESOPOTAMİYA MƏDƏNİYYƏTİ
QƏDİM FİNİKİYA
QƏDİM ASSURİYA MƏDƏNİYYƏTİ
QƏDİM URARTU DÖVLƏTİ
QƏDİM MİDİYA DÖVLƏTİ
QƏDİM MANNA DÖVLƏTİ
QƏDİM İRAN MƏDƏNİYYƏTİ
QƏDİM AZƏRBAYCAN MƏDƏNİYYƏTİ
QƏDİM HİNDİSTAN MƏDƏNİYYƏTİ
QƏDİM ÇİN MƏDƏNİYYƏTİ
ORTA ASİYA XALQLARI
İSKİTLƏR (SKİFLƏR)
QƏDİM YUNAN MƏDƏNİYYƏTİ
QƏDİM ROMA MƏDƏNİYYƏTİ
XÜLASƏ
ЗАКЛЮЧЕНИЕ
SUMMARY
“QƏDİM DÜNYA MƏDƏNİYYƏTİ” FƏNNİ ÜZRƏ ƏDƏBİYYAT
ЛИТЕРАТУРА

# GİRİŞ

Müasir dövrdə qədim dünya mədəniyyəti və incəsənətinin öyrənilməsi, tədqiqi və tətbiqi mövcud sivilizasiyalar və insan cəmiyyətləri üçün aktuallıq kəsb edir. Bu baxımdan qədim dünya mədəniyyəti və incəsənətinin kulturologiya elminin tədqiq obyekti kimi ön plana çəkilməsi dövrün zəruri tələbi kimi əsas prioritetə çevrilir. Müasir cəmiyyətin inkişafında insanın kamil bir şəxsiyyət kimi formalaşmasında kulturologiya elminin böyük əhəmiyyəti vardır. Kulturologiya - ümumbəşəri və milli mədəni proseslərin obyektiv qanunauyğunluqlarını, insanların maddi və mənəvi həyatının mühüm hadisələrini özündə ehtiva edir. Bu elm insanların maddi maraq və tələbatlarının yaranıb formalaşdığı ilkin şərtləri və amilləri öyrənir, mədəni dəyərlərin yaradılması, artırılması, qorunub gələcək nəsillərə ötürülməsini həyata keçirir. Bu elmi zamanın özü yaratmışdır. Bir çox dünyəvi elmləri, o cümlədən, tarix, fəlsəfə, sosiologiya, etika, estetika və. s. özündə birləşdirən kulturologiya təbii ki, bu elmləri zaman-zaman öz süzgəcindən keçirmişdir. Kulturologiya özündə çox mühüm olan həyat layihələrini açıqlayan, eyni zamanda mədəni cəmiyyətin əsas komponentlərini özündə əks etdirən və insanşünaslığa xidmət edən nəhəng bir sahədir.

Kulturologiya müxtəlif cəmiyyətlərdə mədəni həyatı öyrənir və bununla da əsas mədəni-tarixi tiplərin nailiyyətlərini və xüsusiyyətlərini aydınlaşdırmağa səy edir. Kulturoloqların mühüm vəzifəsi qloballaşan müasir dövrün sosial-mədəni tendensiya və proseslərini düzgün və hərtərəfli təhlil etməkdir. Qeyd edək ki, kulturologiyanın obyektləri canlı insanlar, mədəniyyətin yaradıcı və daşıyıcıları, həmçinin mədəni hadisələr, proseslər və müəssisələrdir.

Kulturologiya mədəniyyəti, sivilizasiyanı, onun tarixini, insanla mədəniyyətin qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini öyrənir, insanın həyatda öz yerini tapmasında səmərəli rol oynayır. Kulturologiya bir tərəfdən mədəniyyəti, mədəniyyət tarixini, insanla mədəniyyətin qarşılıqlı əlaqəsini, digər tərəfdən isə insanın ona təsirini və əks-təsirini öyrənir. Kulturologiya bir elm kimi XX əsrin əvvəllərində meydana gəlmişdir. Onun yaranmasında ABŞ alimi Lesli Uayt (1900-1975) xüsusi rol oynamışdır. Lesli Uayt öz nəzəriyyəsini "Kulturologiya" adlandırmışdır. Lesli Uaytın bu elmi tədqiqatı "insan və mədəniyyət" anlayışlarını əhatə etdiyindən kulturologiya dünya elmi ictimaiyyətinin diqqət mərkəzinə çevrilmişdir.

Kulturologiya dünyaya, sosial reallığa, mədəni-mənəvi aləmə, insanın oradakı yeri və roluna bir küll halında baxır. Universal dəyərləri, keçmişin mənəvi irsini, cəmiyyətin mövcud bədii-mənəvi komponentlərini real gerçəklik baxımından təhlil edir. Kulturologiyanın elmi mənası bundan ibarətdir ki, o, mədəniyyətləri və sivilizasiyaları dərindən və hərtərəfli şəkildə öyrənir, onun məzmun və mahiyyətini üzə çıxarır, hansı səviyyələrdə və formalarda mövcud olduğunu müəyyən edir.

Kulturologiya dünyada gedən prosesləri, həm də xalqımızın mənəvi-əxlaqi dəyərlərinin qorunub saxlanılmasını, inkişaf etdirilməsini və gələcək nəsillərə çatdırılmasını öz qarşısına bir vəzifə kimi qoyur. Kulturologiya həm də müxtəlif sivilizasiyaların biri-birinə münasibətini, insan faktorunun təbiətə, istehsala, ətraf mühitə və s. amillərlə qarşılıqlı əlaqəsini araşdırır və onun inkişaf meyllərini öyrənir. Bu baxımdan informasiya-kommunikasiya və rəqəmsal texnologiyaların tətbiqi, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdəki mədəniyyət sənayesinin təşəkkülü kulturoloji prosesləri qloballaşan dünyada ön plana çəkir. Dünyada gedən bu tendensiyalardan baş çıxara bilən kulturoloq kadrların hazırlanması ölkəmiz üçün böyük aktuallıq kəsb edir.

Mədəniyyət insanın ictimai şüuru və yaradıcılığı əsasında formalaşan bir anlam olsa da o, həm də hər bir yaradıcı fərdin meydana gətirdiyi yenilikləri, oxşar yaradıcılıqların daima təkrarlanan mənəvi mühitidir. Bu mühit həm yaradıcılığa həm də milli mentalitetin inkişafına təsir edən müxtəlif amillərlə zəngindir. Məhz bu zənginliklər “mədəniyyətşünaslıq” və ya “kulturologiya” kimi anlamların yaranmasına, onların ictimai şüurda möhkəm yer tutmasına şərait yaradır.

İctimai-siyasi quruluşların xüsusiyyətlərindən asılı olaraq mədəniyyət və kulturologiya anlayışlarına müxtəlif mövqelərdən yanaşılmışdır. XX əsrin əvvəllərində yaşamış türk alimi Ziya Göyalpa görə “kültürlə mədəniyyət” bir-biri ilə fərqlənən anlayışlardandır. Ziya Göyalpın fikrincə “kültür milli olduğu halda, mədəniyyət uluslararasıdır-beynəlmiləldir. Kültür yalnız bir millətin din, əxlaq, hüquq, ağıl, estetik, dil, iqtisadiyyat və texnika ilə bağlı yaşayışlarının uyumlu-ahəngdar bir bütünüdür. Mədəniyyət isə eyni inkişaf səviyyəsində olan bir çox millətlərin toplumsal ictimai həyatlarının ortaq bir bütünüdür...”[1]

Kulturologiya insanşünaslığa xidmət edən və qloballaşan dünyada cəmiyyətimizin gələcək inkişafı üçün son dərəcə aktual olan elmlərdən ən vacibidir. Bu elm bəşəriyyətin min illərlə yığıb saxladığı, zənginləşdirdiyi, bir-birinə verdiyi və gələcək nəsillərə çatdırdığı mənəvi sərvətlərin və dəyərlərin öyrənilməsi və mənimsənilməsi üsulları haqqında bir elm olub, bu mənəvi dəyərlərin quruluşu, ondan

---

[1] Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, “Maarif”, 1991, s. 40.

istifadə olunması, inkişafı, fəaliyyəti və s. məsələləri öyrənir. Bu gün insan tərəfindən mədəniyyət fenomeninin kəşfi, onun mexanizminin açılması, cəmiyyətin intellektual səviyyəsinin yüksəldilməsini tələb edir. Bu həm də insanın özünün cəmiyyətdəki yerinin və rolunun müəyyən edilməsinə, bir mədəniyyətin digərindən fərqlənməsinə kömək edir. Kulturologiya insanın mənəvi aləmini, şəxsiyyətin müəyyən sosio-kultur rolunu, insanın mədəni təkmilləşməsi, həyat tərzini, mentalitetini, əxlaqi-mənəvi keyfiyyətlərini və dəyərlərini, insanla elmin qarşılıqlı münasibətini və s. öyrənir. Bu mənada qloballaşan dünyada kulturologiya Azərbaycan cəmiyyəti üçün olduqca zəruri bir elmdir. Bu elm mövcud cəmiyyətdə yeridilən mədəniyyət siyasətinin əsas prioritetlərini müəyyən edir. Mədəniyyət üçün prioritet olan kulturologiya sahəsi bu gün bəşəriyyətin min illərlə yığıb saxladığı, zənginləşdirdiyi və gələcək nəsillərə layiqli səviyyədə çatdırdığı mənəvi sərvətlər toplusudur ki, bu toplunu qorumağa isə biz hamımız borcluyuq.

# İBTİDAİ DÖVRÜN MƏDƏNİYYƏTİ VƏ İNCƏSƏNƏTİ

Yer üzündə yaşamış insanlar öz həyat tərzləri ilə bağlı tarixi-kulturoloji iz qoyub getmişlər. Keçmişə aid olan maddi mənbələr (əşyalar), yazılı qaynaqlar bu günə qədər qalır və tarixi, kulturoloji baxımdan öyrənməyə imkan verir. Maddi mənbələr əsasən yaşayış yerlərindən və qəbir abidələrindən əldə edilir. Yazılı qaynaqlar, kitabələr isə qayalar, daşlar, sümük və gil lövhələr, papirus və s. əşyalar üzərindədir.

Maddi mədəniyyət abidələri (yaşayış yerləri, qəbir abidələri, qayaüstü təsvirlər və s.) və tədqiqat nəticəsində əldə edilmiş materiallar (əmək alətləri, silahlar, bəzək əşyaları və s.) qədim keçmişi öyrənmək üçün çox əhəmiyyətli tarixi-kulturoloji mənbələrdir. Bu abidələr vasitəsilə qədim insanların yaşayış evləri, istifadə etdikləri əmək alətləri, adət-ənənələri, dini görüşləri haqqında məlumatlar əldə edilir, onların yaşayış və məişət tərzi, məşğuliyyəti və ictimai münasibətləri kulturoloji baxımdan öyrənilir.

Müxtəlif tipli qəbir abidələri-daş qutu qəbirlər, torpaq qəbirlər, kurqanlar, küp qəbirlər, taxta qutu, katakomba və onlardan əldə edilmiş materiallar qədim insanların adət-ənənələri, dünyagörüşləri, dini inancları və s. haqqında geniş kulturoloji məlumatlar verir.

Qəbir abidələri insanlar arasında müxtəlif dəfn mərasimlərinin mövcud olduğunu göstərir. Mərhumun qırmızı oxra ilə boyanması, parçalanaraq, yandırılaraq dəfn edilməsi adətləri olmuşdur. Dəfn adətləri və qəbir avadanlıqları qədim insanların axirət dünyasına inamlarının olduğunu göstərir.

Təqribən beş min il bundan əvvəl bəzi xalqlarda yazı meydana gəlmişdir. Papirus, gil lövhələr, ağac, daş, dəri, parça, kağız və s. üzərində yazılı tarixi mənbələr dövrümüzə qədər gəlib çıxmışdır. Hələ qədimdə əl ilə kitablar yazılmışdı. İsgəndəriyyə kitabxanasında 700 min cild əlyazmasında kitab olmuşdur. İndiyə qədər qalmış yazıların çoxu oxunmuşdur, lakin hələ də alimlərin oxuya bilmədiyi bəzi yazılı mənbələr var. Alimlər bu yazılı tarixi mənbələr (sənədlər) əsasında tarixi-kulturoloji biliklər əldə edirlər.

Qədim Şərq ölkələri geniş coğrafi ərazidə təmsil olunmuşdu. Ən qədim Şərq dövlətləri Misir, İkiçayarası (Mesopotamiya), Aralıq dənizinin şərqində, Kiçik Asiya, İran, Hindistan, Çin və digər ölkələrin ərazisində meydana gəlmişdi. Qədim ölkələrin siyasi və ictimai-iqtisadi problemlərinin, mədəniyyət və etnik proseslərinin öyrənilməsi bu ölkələrin ayrı-ayrılıqda tarixi, ümumi, fərdi və özünəməxsus cəhətləri barədə təsəvvür yaratmağa imkan verir. Fərqli cəhətlərinə baxmayaraq, qədim Şərq ölkələri vahid orqanizm idi, biri digəri ilə siyasi, iqtisadi, mədəni və etnik təmasda inkişaf tapırdı.

Qədim Şərq dövlətləri bir neçə inkişaf mərhələsi keçmişlər. İlkin mərhələni sinifli cəmiyyət və dövlətin meydana gəlməsi dövrü təşkil edir. Bu mərhələnin e.ə. IV minilliyin sonu - III minilliyin xronoloji çərçivəsində müəyyənləşdirmək olar. Bu zaman Şərqin erkən dövlət qurumları meydana gəlmiş və bəziləri həmin dövrdə də tənəzzülə uğramışlar. Bununla yanaşı, quldarlıq ictimai-iqtisadi münasibətlərin ilk ünsürləri özünü büruzə vermiş, işğalçılıq siyasətinin əsası qoyulmuş, xarici və daxili ticarət inkişaf etmişdi. Orta mərhələ yeni, əvvəlki dövrə nisbətən sayca daha çox dövlət qurumlarının meydana gəlməsi, işğalçılıq müharibələrinin güclənməsi, quldarlıq istehsal üsulunun bərqərar olması, siyasi, iqtisadi və mədəni əlaqələrin genişlənməsi və nəhayət, bu dövrün dövlətlərinin tənəzzülə uğraması ilə səciyyələnir. Eyni zamanda, "imperiya" xüsusiyyətli dövlətlərin yaradılmasına meyl artır. Bu mərhələ xronoloji cəhətdən e.ə. II və I minillikləri əhatə edir. Bundan sonrakı mərhələdə rəqabət aparan dövlət və sülalələr meydana gəlir, quldarlıq quruluşunun böhranı başlayır və feodalizm ünsürləri üzə çıxır. Eyni zamanda, bir sıra qədim dövlətlər siyasi təsir dairəsini genişləndirmək uğrunda mübarizə aparır. Bu mərhələ e.ə. IV əsrdən eramızın III-IV əsrlərinə qədər davam edir.

İbtidai-icma quruluşunun dağılması və sinifli cəmiyyətin meydana gəlməsi ilk dəfə qədim Şərqdə baş vermişdir. Quruluşa xas olan bir sıra təsərrüfat formaları, dini təsəvvürlər, adət-ənənələr, incəsənət formalarının izləri sonrakı tarixi mərhələlərdə də öz əksini saxlamışdır.

Dövlət də ilk dəfə Qədim Şərqdə meydana gəlmişdir. Dövrün ideologiyasının əyani vasitəsi olan dini "idarələr"-məbədlər ilk dəfə Qədim Şərqdə meydana gəlmişdi. Sadə məbədlər ilə yanaşı əzəmətli, bir neçə mərtəbəli zikkuratlar (qülləli məbədlər) inşa edilirdi. Məbədlərdə xidmət edən kahinlər təbəqəsi yaranmışdı.

Ön Qafqaz və Orta Asiya ölkələrində dövlətlərin meydana gəlməsi bu mərhələnin müxtəlif dövrlərinə təsadüf edir.

Qədim Şərqdə mədəniyyət və incəsənətin müxtəlif sahələri inkişaf etmişdi. Əfsanəvi nağıllar janrı, tarixi-əfsanəvi ədəbiyyat nümunələri, ədəbiyyat, fəlsəfi fikirlər, təsviri sənət, elmi istiqamətlər qədim Şərq xalqlarının fəaliyyətinin və bədii yaradıcılığının bəhrəsi olmuşdur. Xüsusilə Babil, Hind, Misir, Fələstin ölkələrindən bu sahəyə aid zəngin təsviri sənət nümunələri dövrümüzə gəlib çatmışdır.

İlk yazı növü - piktoqrafiya (şəkli yazı, heroqlif) qədim Şərqdə icad edilmişdir. Qədim şumerlər, hindlilər, elamlar pıktoqrafik yazı sistemini yaratmış və bundan təsərrüfat hesabı aparmaq uçun istifadə etmişlər. E.ə. IV minilliyin sonunda piktoqrafiya artıq tətbiq olunurdu. Piktoqrafiyanın ümumi oxşar cəhətlərinə baxmayaraq, onu işlədən hər bir xalqın ayrılıqda müstəqil yazı yaradıcılığı olmuşdur.

Şəkli yazı mürəkkəb fikirləri ifadə edə bilmirdi. Elamda şəkli yazı əsasında xətti yazı yaradılmışdı.

Artıq burada hər bir işarənin heca oxunuşu vardı. Şumerdə şəkli yazının inkişaf mərhələsini mixi yazı işarələri təşkil edirdi. İşarələr bəzi hallarda şəkli (ideoqrafik) oxunuşu saxlamış, digər hallarda isə heca kimi tələffüz olunurdu. E.ə. III minilliyin ortalarında artıq mixi yazıdan geniş istifadə edirdilər. Bu yazı sisteminin yaradıcısı şumerlər idi. Mixi yazılar müəyyən dəyişiklik ilə qonşu xalqlar, o cümlədən akkadlar, elamlar, hürrilər, urartlar, farslar və başqaları tərəfindən mənimsənilmiş, təsərrüfat və salnamə mətnlərinin tərtib edilməsində istifadə olunmuşdur. Şumer mixi yazıları akkadlılar tərəfindən təkmilləşdirilmişdi. Şumer-Akkad mixi işarələrinin sayı 600-dən çox olmuşdur. Hər işarənin bir neçə hecalı mənası var idi. Qonşu xalqlar mixi yazıları öz dillərinə uyğunlaşdırmış, işarələrin sayını azaltmışdılar.

Şərq tarixinin son dövründə ən geniş yazı sistemi arami yazısı olmuşdu. Arami dili Şərqdə beynəlxalq dilə çevrilmişdi.

Coğrafi baxımdan qədim Yunanıstan və Roma qərbdə, Avropa qitəsində yerləşirdi. Bunlardan şərqdə və cənub-şərqdə yerləşən ölkələr müvafiq surətdə Asiya və Afrika qitələrinə mənsub idilər. Hələ qədim zamanlarda Yunanıstan və Roma tarixi və publisist ədəbiyyatı Asiya əhalisini "Şərq xalqları" və "barbarlar", ərazisini isə "Şərq ölkələri" adlandırırdı. "Şərq" anlayışı sadəcə olaraq coğrafi məfhum kimi işlədilirdi. Hazırda "Qədim Şərq" elmi anlayışı yunanların və romalıların tanış olduğu ərazidən daha geniş ölkələri özündə cəmləşdirir və onlara ilk zamanlar məlum olmayan ən qədim dövlətlərin tarixini əhatə edir. Antik ölkələr Misir, Aralıq dənizinin şərq sahili, Anadolu (Kiçik Asiya), Ön Qafqaz, İkiçayarası (Mesopotamiya), Orta Asiyanın cənub və qərbi, Hindistan ilə az-çox tanış idilər. Bəzi qədim Yunanıstan və Roma tarixçiləri adı çəkilən ölkələrin tarixi, əhalisinin adət-ənənələri, mədəniyyəti və incəsənəti barədə müəyyən məlumatlar saxlamışlar. Lakin Çin və digər Uzaq Şərq ölkələri haqqında onların heç bir təsəvvürü olmamışdır.

Bəşər tarixində Misir, Finikiya, Suriya, Fələstin, Het, Urartu, Mesopotamiyada - Şumer, Akkad, Babilistan, Assuriya, İranda-Aratta, Kuti, Lullubi, Elam, Manna, Midiya, Mada, Haxamaniş, Parfiya, Atropatena, Ön Qafqazda - Albaniya, İberiya, Orta və Uzaq Şərqdə - Hindistan, Koreya, Vyetnam, Yaponiya və İndoneziya kimi ilk dövlətlər bu dövr ərzində meydana gəlmiş, sonra süquta uğramışlar.

Qədim Şərq ilk elmi biliklərin vətəni olmuşdur. Antik ölkələr qədim Şərq mədəniyyətinin müəyyən təsirinə məruz qalmışdı.

İbtidai icma quruluşu bəşər tarixinin ən uzun bir dövrünü əhatə edir. Avropa, Asiya və Afrikanın isti iqlim sahələrində ilk dəfə insan əmələ gəlmiş və insan cəmiyyəti təşəkkül tapmağa başlamışdır. İbtidai icma quruluşunun tarixi insanın heyvanlar aləmindən ayrılması ilə başlanır. Müasir insana yaxın olan ən qədim insan tipi "Cənub meymunları" (Avstralopitek) olmuşdur. Bu insan tipinə aid qalıqlar Afrikada (Keniya və Tanzaniyada) Rudolf gölü ətrafında tapılmışdır. Gürcüstan və Azərbaycan respublikalarının sərhədində olan Udabno kəndi yaxınlığında insanabənzər meymunların qalıqları aşkar edilmişdir. İbtidai icma quruluşu Daş, Tunc və Dəmir dövrlərinə bölünür.

Daş dövrü aşağıdakı dövrlərə bölünür:

1. Paleolit (Qədim daş) dövrü;
2. Mezolit (Orta daş) dövrü;
3. Neolit (Yeni daş) dövrü.

Paleolit (Qədim daş) dövrü e. ə. 12-ci minillikdə başa çatmışdır. İnsanın əmələ gəlməsi və insan cəmiyyətinin təşəkkülü 2.6-3 milyon il bundan əvvəl başlanmışdır. İlk insanlar təbii mağaralarda və açıq havada yaşamışlar. Alimlər ən qədim insanların sümüklərinin qalıqlarına əsaslanaraq onların xarici görkəmini müəyyən edə bilmişlər. Ən qədim insanlar iri meymuna oxşayırdılar. Onların əlləri dizlərinə qədər uzanır, ayaq üstə gəzir, ov edir, yem toplayır, müdafiə olunurdular. Onların alnı ensiz və maili idi. Beyni müasir insan beynindən kiçik idi. İlk insanların beyninin tutumu 600-700 $sm^3$ həcmində olmuşdur. İnsanın əmək fəaliyyətinə başlaması onun beyninin inkişafına, nitqinin yaranmasına, qamətinin düzəlməsinə kömək etmişdir. Paleolit dövrünün ən qədim insan məskəni və insan qalığı Afrikada (Tanzaniyada) Oldovay dərəsində tapılmışdır. İndoneziyada Yava adasında Trinil şəhəri yaxınlığında pitekantrop, Çində sinantrop, Almaniyada Heyderberq və Neandertal vadisində Neandertal, Azərbaycan Respublikasının Füzuli şəhəri yaxınlığında, Quruçay vadisinin sol yamacında Azıx mağarasında Azıxantrop adamının qalıqları aşkar edilmişdir.

Qədim insanların vəhşi heyvanlar kimi iti caynaqları və dişləri yox idi. Onlar vəhşi heyvanlardan qorunmaq üçün daş və dəyənəklərdən istifadə edirdilər. İnsanın ilk əmək aləti sivri daş, dəyənək və yerqazan çubuq olmuşdur. Əmək alətinin hazırlanması nəticəsində insanın əmək fəaliyyəti başlandı. İnsanın tədricən, ardıcıl əmək fəaliyyəti onun bütün orqanizminin dəyişməsinə səbəb oldu. Ən çox insanın əli, onunla birlikdə beyni inkişaf etdi. Alimlər əmək alətləri hazırlamaq bacarığı olan insanları "bacarıqlı insan" adlandırırdılar.

İnsanın ilk məşğuliyyəti yığıcılıq və ovçuluq idi. İnsanlar meyvə və bitki köklərini və toxumlarını, quş yumurtalarını toplamaqla məşğul olurdular. Bu məşğuliyyət yığıcılıq adlanır. Qədim insanların yaşayışını təmin edən əsas vasitələrdən biri də ovçuluq olmuşdur. Ovçuluq insanın əsas məşğuliyyət sahəsinə çevrildikdən sonra yığıcılıq ikinci dərəcəli rol oynamağa başladı.

İnsanlar vəhşi heyvanlardan müdafiə olunmaq, birgə qida əldə etmək üçün kollektivlərdə birləşdilər.

İnsanların tarixi birliyinin ilk forması olan ibtidai insan sürüsü meydana gəldi. İbtidai insan sürüsü sabit deyildi. Onlar bir-biri ilə qarışır və ayrılırdılar.

İnsanlar əmək prosesində topladıqları təcrübəni inkişaf etdirərək, nəsildən nəslə ötürmüşlər. Onlar əvvəlki əmək alətlərini təkmilləşdirir, hər il yeni-yeni əmək alətləri hazırlayırdılar. Bir neçə yüz min il bundan əvvəl insanlar daşdan əl çapacağı, qaşov, bıçaq, sümükdən biz, iynə hazırlamışdılar. İnsanlar 20-30 min il bundan əvvəl harpun düzəltdilər. Alətlər içərisində üstünlüyü daş alətlər tutduğuna görə bu dövr daş dövrü adlanır. Daş dövrü iki milyon ildən artıq davam etmişdir.

Qədim insanın həyatında od böyük rol oynamışdır. İnsanlar ildırımın çaxması, üzvü maddələrin qızışıb yanması nəticəsində baş verən yanğından od əldə etmişlər. İnsan əmək fəaliyyəti nəticəsində süni od əldə etməyi öyrəndi. İnsan daşı daşa vuranda qızışıb qığılcım çıxmasını, ağacı deşəndə istinin yaranmasını müşahidə etmişlər. Azıx mağarasında 700 min il yaşı olan ocaq yeri aşkar olunmuşdur. Odun əldə edilməsi insanın heyvanlar aləmindən ayrılmasını sürətləndirdi.

Mükəmməl əmək alətləri və oda yiyələnən insanlar daha geniş ərazilərə yayılmağa başladılar. Afrika, Asiya və Avropada məskən salmış insanlar sonralar Amerika və Avstraliyaya yayılmışlar. Son tədqiqatlar təsdiq edir ki, Berinq boğazının ayırdığı Uzaq Şərqlə Alyaska yarımadası əvvəllər bitişik olub. Təqribən 11 min il bundan əvvəl Orta Asiyadan köçmüş insanlar Amerikaya gedib çıxmışlar.

Təqribən 100 min il bundan əvvəl yer üzündə kəskin soyuqlar düşdü və axırıncı buzlaşma başlandı. Qalınlığı 2 km-ə qədər olan buzlaqlar cənuba irəliləyirdi. Heyvanların bir qismi cənuba çəkildi, bir qismi yeni iqlimə uyğunlaşdı, bir qismi isə məhv oldu. İnsanlar tundranın və soyuq çöllərin iqliminə uyğunlaşdılar. Bu dövrün insanları pusquda duraraq vəhşi heyvanları üstü ağac budaqları ilə örtülmüş çuxura, ya da uçuruma salıb ovlayırdılar.

İlk paltarı dəridən olan insan təbii mağaralarda məskunlaşmışdı. Düzən yerlərdə mamont sümüyündən və dəridən yurd tikirdilər. Milyon illər ərzində insanın şüuru və nitqi inkişaf etdi. Paleolit dövrünün sonunda təqribən 40 min il bundan əvvəl neandertal tipli insanlar müasir tipli insana çevrilməyə başladılar. Alimlər bu insan tipini “ağıllı insan” (homo sapiyens) adlandırdılar. “Ağıllı insanın” beyni “bacarıqlı insanın” beynindən iki dəfə böyük idi, aydın nitqə malik idi, məntiqi düşünməyi bacarırdı, düz qamətli, hündürboylu idi. Təbii şəraitdən asılı olaraq, yəni isti, sərt küləklər, şaxtaların təsiri ilə “ağıllı insanın” zahiri görünüşündə fərqlər yarandı, ağ irq (avropoid), qara irq (neqroid), sarı irq (monqoloid) meydana gəldi. İbtidai insan sürüləri tədricən qəbilə (nəsil) icmasına çevrildi. Təqribən 30 min il bundan əvvəl nəsli icma və ya qəbilə meydana gəldi. Qan qohumluğu ilə bir-birinə bağlı olan, əmlakı ümumi olan, birgə yaşayan və birgə fəaliyyət göstərən insan kollektivinə qəbilə deyilir. Qəbilə ibtidai insan sürüsünə nisbətən sabit idi. Qəbilədə kişilər ov edir, balıq tutur, əmək aləti düzəldirdilər. Qadınlar uşaq saxlayır, yeməli bitki yığır, dəridən paltar tikir, yemək hazırlayır və s. işlər görürdülər. Qəbilədə əsas işləri qadınlar yerinə yetirirdi. Ona görə də qohumluq ana xətti ilə müəyyən edilirdi. Qəbilənin ilk dövründə ana nəsli (matriarxat) hökmran idi. Qəbiləni ağsaqqallar idarə edirdi. Onlar əmək alətlərinin hazırlanması, qidanın toplanması və bölüşdürülməsinə, gənclərə ovçuluğun öyrədilməsinə rəhbərlik edirdilər.

Qədim insanların birlikdə çalışdıqları nə ümumi əmlaka birlikdə sahib olduqları bu cür yaşayış qaydası ibtidai icma quruluşu adlanırdı. İbtidai icma quruluşunda qədim insanlar kiçik kollektivlərdə yaşayırdılar, birgə işləyir, ümumi əmlaka malik idilər, istismar yox idi, əmək məhsulu bərabər bölüşdürülürdü. Bu quruluşda yaşayanları ibtidai insanlar adlandırırdılar.

MEZOLİT (yunanca “mezos” orta, “litos” daş deməkdir) dövrü e. ə. XII-VIII minillikləri əhatə edir. Bu dövrdə havalar istiləşdi, buzlaqlar əridi və şimala çəkildi, buzlar əriyən yerlərdə kolluqlar, meşələr əmələ gəldi. Heyvanlar da şimala tərəf yayıldı. İnsanlar heyvanların ardınca gedir, Avropanın şimalında çayların və göllərin kənarında məskunlaşırdılar. Bu dövrdə ox, kaman, ox ucluğu və s. kəşf edildi. Çaylardan və göllərdən keçmək üçün ağacdan sal düzəldilirdi, ağacın gövdəsini oyub qayıq qayırırdılar. İnsanlar əvvəlcə iti, sonra isə qara mal, qoyun və digər heyvanları əhliləşdirməyə başladılar. Mezolit dövründə ilkin əkinçilik vərdişləri meydana gəldi.

Paleolitin sonu və Mezolit dövründə bir neçə qəbilə birləşib tayfa əmələ gətirirdi. Tayfa üzvləri eyni ərazidə yaşayır, bir dildə danışırdılar. Tayfaya daxil olanların ümumi adətləri var idi. Tayfanın işini ağsaqqallar şurası idarə edirdi.

NEOLİT (yunanca “neos” yeni, “litos” daş deməkdir) dövrü daş dövrünün son mərhələsini - e.ə. VIII-VI minillikləri əhatə edir. Daş əmək aləti daha da təkmilləşdirilir. Cilalanmış və ağac sapı olan daş baltalar əvvəlki əmək alətlərindən daha məhsuldar idi. Belə əmək alətləri ilə ağac kəsmək və təmizləmək daha asan olurdu.

İnsan toxumun yerə düşməsini, onun cücərməsini, inkişafını və məhsul verməsini dəfələrlə müşahidə etmişdir. İnsanlar sahələri kolluq və meşəlikdən təmizləyir, əkinçiliklə məşğul olmağa başlayırlar. Qadınlar ağaca buynuzdan, yaxud daşdan ucluq düzəldib toxa adlanan əkinçilik aləti ilə yeri şumlayır və taxıl əkirdilər. Ən qədim əkinçilərin əmək aləti toxa idi. Belə əkinçiliyə toxa əkinçiliyi deyirdilər. Sünbülü iti daş qəlpələri taxılmış buynuz və sümükdən düzəldilmiş oraqla biçirdilər. Toxa əkinçiliyi yığıcılığa nisbətən

qəbiləni daha çox qida ilə təmin edirdi. Beləliklə, yığıcılıqdan əkinçilik meydana. gəldi.

İnsanlar ilk dəfə iti əhliləşdirmişlər. İt və oxla ov uğurlu olurdu. İt ovu axtarıb tapır, insan ovu uzaqdan oxla vura bilirdi. Bu da qəbilədə qida bolluğu yaradırdı. İnsanlar quzu, çəpiş, donuz balası, buzovu və digər heyvan balalarını kəsmədilər, onları saxlayıb böyütdülər. Beləliklə, ovçuluqdan maldarlıq meydana gəldi. İnsanlar indiyə kimi təbiətdə olan heyvanları ovlayır, balıq tutur, bitki toplayırdılar. Əkinçilik və maldarlıq yaranandan sonra insanlar özləri əkir, taxıl toplayır, heyvan saxlayır, öz tələbatlarını ödəyirdilər. Yığıcılıq və ovçuluq artıq yardımçı təsərrüfat sahələrinə çevrildi.

Neolit dövründə insanlar cilalı daş baltalardan, balıqçılıqda tordan, harpundan, qarmaqdan istifadə etmiş, əkinçiliyin inkişafı ilə oturaq həyat tərzinə keçmişdi. Neolit dövründə gil (saxsı) qablar istehsalı, əyiricilik, toxuculuq meydana gəlmişdir. Kətan nə yun liflərindən sap əyirir, sapdan parça toxuyur, parçalardan dəriyə nisbətən yüngül və rahat paltar tikirdilər. Alimlər bu yenilikləri "neolit inqilabı" adlandırmışlar.

Avropanın şimalında meşə zolağında ovçu və balıqçı tayfalar su yaxınlığında, çay kənarlarında məskən salırdılar. Sibirdə ən qədim neolit mədə-niyyəti V minilliyə aiddir. Türkmənistanda Çeytun əkinçilik məskəni, Anadoluda Çayönü və "Çatal hüyük" mədəniyyətləri Neolit dövründə yaranmışdır. E.ə. VII minillikdə ehtimal ki, Zaqros dağlarında əkinçilik və maldarlıq meydana gəlmişdir. Zaqros dağları və Anadolu buğdanın və arlanın vətəni olmuş və buradan dünyanın digər ərazilərinə yayılmışdır.

Eneolit ("eneos" - latınca mis, "litos" isə yunanca daş deməkdir, mis-daş) dövrü e.ə. VI-IV minillikləri əhatə edir. Bəşər tarixində metal əsri mis dövrü ilə başlayır. İnsanın istifadə etdiyi ilk metal mis olmuşdur. Mis emalının qədim izləri Ön Asiyada təqribən 7 min il bundan əvvəl Anadoludakı Çayönü, Çatal hüyük məskənlərində və Mesopotamiyada tapılmışdır. İnsanlar misdən balta, xəncər, nizə, bəzək əşyaları, evdə işlənən əşyalar düzəltməyə başladılar. Mis yumşaq olduğuna görə daşı sıxışdıra bilmədi. Mislə yanaşı daş alətlər də işlədilirdi. Elə buna görə də bu dövrə mis-daş dövrü deyirlər. Bu dövrdə toxa əkinçiliyi üstünlük təşkil edirdi, çiy kərpicdən evlər tikilir, gildən qadın fiqurları düzəldilir, boyalı qab istehsalı genişlənirdi.

Eneolit dövründə əhali cənubda əkinçilik, maldarlıqla, sənətkarlığın müxtəlif sahələri ilə məşğul olurdular. Lakin şimalda əhalinin əsas məşğuliyyəti ovçuluq və yığıcılıq idi. Torpaq toxa ilə becərilir, taxıl sümük və buynuzdan düzəldilmiş oraqlarla biçilir, əl dəyirmanında üyüdülürdü. Əkinçilər oturaq həyat tərzində yaşayırdılar. Eneolit dövrünə aid abidələr Anadoluda, Mesopotamiyada, Orta Asiyada (Anau, Hamazqantəpə və s.), Ukraynada (Tripolye mədəniyyəti və s.) Azərbaycanda (Kültəpə, Şoumtəpə və s) və digər ərazilərdə aşkar edilmişdir.

Qədim insanların birlikdə çalışdıqları nə ümumi əmlaka birlikdə sahib olduqları Neolit dövründə gil (saxsı) qablar istehsalı, əyiricilik, toxuculuq meydana gəlmişdir. Kətan nə yun liflərindən sap əyirir, sapdan parça toxuyur, parçalardan dəriyə nisbətən yüngül və rahat paltar tikirdilər. Alimlər bu yenilikləri "neolit inqilabı" adlandırmışlar.

Avropanın şimalında meşə zolağında ovçu və balıqçı tayfalar su yaxınlığında, çay kənarlarında məskən salırdılar. Sibirdə ən qədim neolit mədəniyyəti V minilliyə aiddir. Türkmənistanda Çeytun əkinçilik məskəni, Anadoluda Çayönü və "Çatal hüyük" mədəniyyətləri Neolit dövründə yaranmışdır. E.ə. VII minillikdə ehtimal ki, Zaqros dağlarında əkinçilik və maldarlıq meydana gəlmişdir. Zaqros dağları və Anadolu buğdanın və arlanın vətəni olmuş və buradan dünyanın digər ərazilərinə yayılmışdır.

İbtidai (buna arxaik də deyirlər) mədəniyyət bəşəriyyət tarixinin ilkin mərhələlərində meydana gəlmişdir. İbtidai (arxaik) mədəniyyətin bir sıra xüsusiyyətləri diqqəti cəlb edir. Hər şeydən əvvəl, ibtidai mədəniyyət ən qədim mədəniyyət tipidir, o bütövlükdə ibtidai insanların bütün tarixi boyu onların varlığını müəyyən edir. İkincisi, bizimlə «yanaşı» yaşayan və bir sıra adamların təkəbbürlə primitiv mədəniyyət adlandırdığı xalqların ibtidai, arxaik mədəniyyəti müasir dövrdə də vardır. Üçüncüsü, qədim mədəniyyət müasir mədəniyyətin üzvi və olduqca əhəmiyyətli hissəsini təşkil edir. Tədqiqatçılar mədəniyyətin insanlara öz davranışını təşkil etmək üçün bir sıra strategiyalar bəxş etdiyini göstərirlər. İbtidai, arxaik mədəniyyətlərdə təqlid strategiyası mühüm yer tutur. İkinci strategiya məkan-zaman əlaqələri və asılılıqlarının fərdi-sistematik müşahidəsidir. Bu barədə çoxlu misallar gətirə bilərik. Onlardan bir neçəsini nəzərdən keçirək. «Qara pəncə» adlı hindu qəbiləsi qabaqcadan baharın gəlişini öldürülmüş dişi bizonun (vəhşi öküzün) bətnindəki rüşeymin inkişaf səviyyəsi ilə xəbər verə bilirdilər. Bu cür qabaqcadan xəbərvermə adətən dəqiq olurdu. Yaxud da hindu osaqa qəbiləsi vəhşi bitkilər-qarğıdalı və vəhşi öküzü ovsunda birləşdirirdi. Bu çulğaşma aşağıdakı kimi izah olunurdu. Yayda osaqa qəbiləsi çöldə qarğıdalı çiçəklənənə qədər vəhşi öküzü ovlayırdı. Onlar yaxşı bilirdilər ki, qarğıdalı çiçək açdıqdan az sonra yetişməyə başlayır. Bu o demək idi ki, qarğıdalı məhsulunu yığmağa qayıtmaq vaxtı gəlib çatmışdır.

Üçüncü strategiya analogiyaya görə əqli nəticənin çıxarılmasıdır. Animist təfəkkürün oxşar əlamətlərini ayırmaq zərurəti buradan doğur. Animistik təfəkkür isə yer üzünü, təbiəti ilahi qüvvələr, ruhlar və iblislərlə doldurur. Bu strategiyanı təsdiq edən nümunələr çoxsaylıdır. Məlum olduğu kimi, piqmey tayfalarının biri dişə bənzər çovdar mahmızı ilan vuran zamanı çarə kimi tətbiq edirdilər. Yaxud da paleolit dövründə bəşəriyyətin mədəni inkişafında böyük inqilab sayılan odu götürək. Bütün xalqların mifologiya və

əfsanələrində od əbədiyyət simvoludur. Ona görə də əfsanələrdə od yaradılmamışdır, əksinə, allahlardan oğurlanıb, insanlara verilmişdir.

İnsan xarakteri mürəkkəb olub, kosmik, bioloji, psixi, sosial və mədəni aspektlərə malikdir. Bu baxımdan ibtidai mədəniyyət dedikdə, böyük tarixə malik yığıcılıq və ovçuluq mədəniyyəti nəzərdə tutulur. İbtidai mədəniyyətin spesifik xüsusiyyətlərindən biri onun yekcinsliyidir. Müasir kulturologiyada sosial-mədəni sistemlərin katerogen (qeyri-yekcins), qomagen (yekcins) və qomeostatik tiplər kimi üç tipi göstərilir. Birincisi üçün aksioloji (dəyər) plüralizmi; ikincisi üçün differensiyasiya edilmiş, antaqonist maraqlara malik olan çoxsaylı sosial qrupların mövcudluğu səciyyəvidir.

İbtidai-sosial-mədəni sistem öz inkişaf dinamikasına malik olub, mövcud sistemli strukturun yenidən dirçəlməsinə imkan verir. İbtidai mədəniyyətin digər xüsusiyyəti onun sinkretikliyidir ki, bu da öz təcəssümünü totemizmdə tapmışdır. Onun üçüncü xüsusiyyəti isə tabu (qadağalar) mədəniyyətini təmsil etməsidir.

30 min il ərzində arxaik mədəniyyət aradan çıxmamış, bu gün də yaşayır. «Əcdadlar kultu» formasında tarixi dünya anlamı prinsipini insanlar çox qədim dövrlərdə dərk etmişlər. Onlar yaxınlarının birdəfəlik bu həyatı tərk etməsinə inana bilmirdilər. Belə hesab edirdilər ki, ölülər onlarla yanaşı yaşayır, davranışlarını, adətlərə sədaqətlərini müşahidə edirlər. Deməli indi ilə keçmiş arasında bir növ asılılıq, qırılmaz əlaqə mövcuddur. Mədəniyyət elementləri bu cür yaranmışdır.

Müasir dövrdə biz onları «tarixi yaddaş», «məsuliyyət», «vətənpərvərlik», «vicdan», «ləyaqət», «borc» və s. Adlandırırıq. Arxaik mədəniyyətin qalıqları saysız-hesabsız xırda şeylərlə məsələn, kosmik gəmidəki həmail (gözmuncuğu), qaranlıqdan qorxma, tatuirovka (bədənə şəkillər döydürülməsi) və s. göstərmək olar. Bunlar yuxarıda qeyd etdiyimiz kimi, saysız-hesabsızdır. Burada müəyyən qanunauyğunluğun olduğunu nəzərə almaq lazımdır. Həyati situasiyalar (doğum, ölüm, dəfn, nikah, xəstəlik və s.) əhəmiyyətli olduğu qədər də ibtidai mədəniyyət irsi, onun mərasim, simvol, psixoloji qaydaları və stereotipləri də mühüm yer tutur.

Bəzi tədqiqatçılara görə müasir cəmiyyətin mədəniyyətində sivilizasiya təbəqəsi olduqca zəifdir və çətin situasiyalarda (zorakılıq, aclıq, qorxu, sosial böhran və kütləvi psixoz) onlar tez təzahür edir.

Bu zaman ibtidai şüurun güclü fantomları təzədən dirçəldilir, müvafiq mədəni forma alır, müharibə təbilləri gurlayır, insanlar təsəvvürlərində yaratdıqları düşmən cəsədləri üzərində rəqs edir, onların məhv edilməsinə ürəkdən sevinirlər.

Sosial hipnoz (ibtidai cəmiyyətdə bu kollektiv rəqs və nəğmə oxunması ilə təmin edilirdi) işi o yerə gətirir ki, insanlar yalnız onlara təlqin edilən şeyləri görürlər, yerdə qalanlarmı isə rədd edirlər. Bəşər mədəniyyətinin başlanğıc mərhələsinin qanunauyğunluqlarının anlaşılmasında əsas problem onun öz xarakteri ilə bağlıdır. Həqiqi arxaiklik bizdən minilliklərlə bir məsafədə durur. Neolit dövrünün homo sapiyensinin şüuru, birbaşa öyrənilməkdən çox fərziyyə predmeti kimi daha faydalı ola bilər. Hətta müasir dövrdə geridə qalmış qəbilələrin şüurunu öyrənmək də çətindir. Çünki onlar bu və ya digər dərəcədə sivilizasiyanın təsirini görə bilmişlər. İbtidai mədəniyyəti anlamağın ikinci çətinliyi onun formalarının çoxsaylı və rəngarəng olmasında, ümumiləşdirilməyin demək olar ki, qeyri-mümkünlüyü ilə əlaqədardır.

On min illərlə bir dövrü əhatə edən ibtidai mədəniyyətdə ümumi, bütöv olan bir şey tapmaq mümkündürmü? İbtidai mədəniyyətin inkişafında çoxsaylı mərhələlərin olduğunu çox az adam inkar edə bilər. Müasir Avstraliya aborigenləri, eskimoslar, Cənubi Amerika ovçuları-hindularının mədəniyyətində ümumi qanunauyğunluqlar tapmaq olduqca çətindir. Görəsən bizim şüurumuzla ibtidai insanın şüuru arasında köklü fərqlər olmuşdurmu? Bu sualın cavabının birinci variantını təkamül məktəbinə daxil olanlar verir. Əsas müddəa budur: insan psixikası cəmiyyətin inkişafının bütün mərhələlərində birtiplidir. Təfəkkür qanunları universal və dəyişməzdir.

İbtidai insanların dinə qədərki fikirlərinə aid nəzəriyyələr kifayət qədər əsaslandırılmamışdır, çünki ibtidai insanların dünya haqqında təsəvvürlərinin müxtəlif formalarına aid materiallar daha çoxdur. Əgər buraya ibtidai inkişaf mərhələsində yaşayan, məsələn, Avstraliya aborigenlərini və b. həyat tərzinin öyrənilməsini də daxil etsək, güclü və zəngin material əldə etmiş olarıq. İlkin dini təsəvvürlər kompleksi çoxcəhətlidir. Lakin onların əksəriyyəti son nəticədə təbiətdə insanın yeri və rolu, insanın ətraf aləmlə əlaqələrinin öyrənilməsi baxımından bir sıra forma və metodlara bölünür. Bu formalar totemizm, animizm, magiya, fetişizm və mifologiyadan ibarətdir. Yuxarıdakı formaların hamısı vacib olsa da, onların içərisində mifologiya özünəməxsus yer tutur. Mifologiyada insanlara öz totem-əcdadları ilə əlaqəsini, təbiətin bu və ya digər qüvvəsinin canlılaşdırılması, fetişin və magiyanın sehrli gücünü izah edən material istənilən qədərdir.

Müxtəlif xalqların rəngarəng miflərinin və müxtəlif adlar altında çıxış edən allahları, qəhrəmanları və mifik hökmdarlarının olmasına baxmayaraq, ən qədim dövrlərdə bəşər mədəniyyətinin ümumi cəhətlərə malik olması heç kimdə şübhə doğurmamalıdır. Bu vəhdətin mövcudluğu mifin özünün atribut və s. cəhətləri ilə bu və ya digər sosial-etnik birliklərin müəyyən inkişaf mərhələsində xalqların mənəvi mədəniyyəti və mental təcrübəsinin nümunəsi rolunda çıxış etməsi tamamilə doğrudur. Lakin mif təkcə xatirə-yaddaş deyil, həmçinin insan fikrinin sərbəst uçuşudur ki, cəlbedici mədəniyyət dünyasına daxil olmaq üçün göstərilən

cəhdin nağıl xassəli, fantastik və realist istəkləri məcmusu hesab oluna bilər. İnsan fikri gündəlik konkret qayğılardan xilas olaraq poetik səyahətin sonsuz nöqtələrinə doğru istiqamət götürə bilir. Mifdə müasir sivilizasiyanın mənəvi potensialını doğuran ilkin rüşeym açıq-aydın görünür. Qədim cəmiyyətlərdə dünyanın dərki və insanın oradakı yeri əslində mifdə, mifologiyada səlis şəkildə anlaşıla bilərdi. Mif fərdi şüura qarşı qoyulan, ondan köklü şəkildə fərqlənən kollektiv şüurun inikasıdır. Mif mədəniyyətin kollektiv tərəfindən sakral dərk edilməsidir. Mif ilkin dini təsəvvürlər komplektinin mərkəz oxu olmuşdur. Onun ümumi mədəniyyətlə əlaqəsi şəksizdir. Mif ilkin fikrin məcburi, zəruri formasıdır. Onun formalaşdığı kollektiv təsəvvürlər nə praktik müşahidələrin rasionalizminə, nə də abstrakt mühakimələrə əsaslana bilməzdi. Qrupların təsəvvürləri, hər şeydən əvvəl emosional əhval-ruhiyyəyə, özünü gerçək mühitə daxil etməyə arxalanır.

Mifopoetik təfəkkür öz prinsipləri və öz məntiqi olan təfəkkürdür. Mifin fərqləndirici cəhəti ziddiyyətləri aradan qaldırmaq cəhdidir. Onun vəzifəsi bu ziddiyyətlərin nisbiliyini sübut etmək, onu əhatə edən dünya ilə eyniləşdirmək, insanı, onu əhatə edən dünya ilə vəhdətə gətirmək, insan və təbiətin, təbiət və cəmiyyətin uyğunluğuna nail olmaqdır.

Hər hansı bir din kimi, mifin də son məqsədi qrupa mənəvi rahatlıq təmin etmək və bununla da onu yad şəraitə, özünü dərkinə, hətta düşmən əhatəsində olsa belə özünü təsdiqinə şərait yaratmaqdır.

Arxaik mədəniyyəti təcəssüm etdirən miflər haqqında müasir təsəvvürlər bir sıra nəticələri çıxarmağa imkan verir:

- Miflər adamların öz varlığını dərk etmək və şüurlu şəkildə emosional və məntiqi assosiasiyaların köməyi ilə varlıqla çulğaşmaq cəhdidir.
- Mifoloji təfəkkürün xüsusiyyətləri ümumi, mücərrəd anlayışların çatışmamağı ilə əlaqədardır.
- Mif ibtidai insanın şüurunun intuitiv olaraq təbiət hadisələrinin qaydası və qanunauyğunluğunun dərk edilməsidir.
- Miflərin quruluşu insan psixikasının müəyyən xüsusiyyətlərini ifadə edir.
- Miflər kollektiv təcrübə ilə əlaqədardır, bu isə individ üçün etiqad obyekti, əcdadların müdrikliyi kimi olmuşdur. Fərdi təcrübə onu dəyişdirə bilmir; mif əcdadların etiqadı kimi, subyektin işi kimi yoxlanmırdı, məntiqi əsaslandırılmağa ehtiyac hiss etmirdi.
- Mif təbiətin qanunauyğunluğunu əks etdirirdi, mücərrəd təfəkkürün zəifliyinə görə onları şəxsləndirirdi, onları şüurlu fəaliyyət göstərən iradə ilə birləşdirirdi. Buradan isə mifologiyanın əsas fəaliyyət göstərən simaları-allahlar təzahür edirdi.
- Mifologiya - insanın özünü ifadə etməsi vasitəsidir. Mif insan yaradıcılıq qabiliyyətinin təzahürünün ən qədim və əbədi formasıdır. Miflər sistemi, müxtəlif tipli mifologiyalar özündə bəşər mədəniyyətinin müxtəlif forma və tiplərini əks etdirir.

Totemizm, animizm, magiya. Totemizm (Şimali Amerika hindularının dilindən götürülmüşdür). Totemizm totemə (onun qəbiləsi sözündəndir) - insan kollektivlərinin (qəbilə, tayfa) ilə müəyyən heyvan və bitki növləri, habelə hər hansı bir predmet arasında guya mövcud olan fövqəltəbii qan qohumluğu əlaqələrinə etiqad edilməsindən ibarətdir. Bu insan kollektivindəki vəhdəti və ətraf aləmdə onun əlaqələrini başa düşməyin birinci forması hesab olunur. Əmələ gəlməkdə olan qəbilə kollektivinin həyatı onun üzvlərinin ovladıqları müəyyən heyvan növləri ilə sıx bağlı idi. Bu və ya digər heyvanın həmin ovçu kollektivi ilə qohumluğu haqqında illüziyalı təsəvvürün meydana gəlməsi totemizm üçün əsas olmuşdur. Tədricən belə bir təsəvvür inkişaf edib, şüurlara hakim kəsilir ki, bu heyvan həmin qəbilənin üzvlərinin ümumi əcdadıdır, yəni totemidir.

İbtidai insanların istehsal fəaliyyəti, qəbilə və tayfaların sayı artdıqca, balıq totemləri və bitki totemləri haqqında təsəvvürlər yaranıb möhkəmlənirdi. Nəticədə xüsusi totem bayramları yaranır, həmin totemin yeyilməsi mərasimi bu bayramlarda əsas yer tuturdu. Əslində mərasimin bu cəhəti kollektivin qüvvəsini, onun əti yeyilən totemlə qan qohumluğunu möhkəmləndirməli və bununla da totemin təkrar istehsalına zəruri şəraitin təminatçısı olmalı idi. İndinin özündə də bir sıra xalqlar arasında totemizmin qalıqları öz varlığını saxlamaqdadır. Hazırda adamların heyvana (məsələn, canavara, ayıya) çevrilə bilməsinə, heyvanların isə insan şəkli almasına olan etiqad formasında özünü göstərir.

Totemizm elementləri özünü mifologiyada daha çox qoruyub saxlaya bilmişdir. Mifologiya isə özlüyündə ibtidai cəmiyyətin fəlsəfə tarixi hesab oluna bilər. Həmin cəmiyyətin dünyagörüşü isə mahiyyətcə mifoloji xarakter daşımışdır. Lakin həmin cəmiyyətin mənəvi-konseptual və idrakı sahələrində onun mədəniyyətinin iki qatı olan totemizm və magiya (sehrbazlıq) mühüm rol oynamışdır. Həm kitablardan, həm də xalqımızın tarixindən bizə məlumdur ki, bu və ya digər heyvan, yaxud quş necə böyük hörmətə malik olmuşdur. Türk xalqlarında qurd, at, it qaranquş, göyərçin və s. heyvan və quşların etiqad və inamlarda öz xüsusi yeri vardır.

Bu proses bütün dünya xalqlarında, mövcud olan dünya dillərində baş vermişdir. Məsələn, Qədim Misirdə allah Ra öküz obrazında, Osiris qırğı başlı təsvir olunurdu. Yunanıstanda Zevs guya insanlara öküz və yaxud qartal, eləcə də qu quşu simasında görünürdü.

Allah Pan keçi ayaqları və buynuzları ilə yunan etiqadlarında məlum idi. Finikiya ilahəsi Aştart inək simasında, obrazında təqdim olunmuşdur. Meksika günəş allahı Teskatlipoka ayı başlı, Şumer allahı Eya insan-balıq, xristian allahı Xristos quzu obrazında bizə məlumdur. Qədim yunanların dinlərində ovçuluq ilahəsi Artemida xallı maral simasında təsvir olunmuşdur. Dəhşətli görünüşü olan köpək Serber cəhənnəmin girişinin mühafizəçisi olmuşdur.

Bəzi ibtidai xalqlarda belə bir təsəvvür mövcud idi ki, insanların mənşəyi heyvanlarla, quşlarla, balıqlarla, hətta həşəratlarla əlaqəlidir. Kaliforniyalı Koyot hinduları belə hesab edirlər ki, onların əcdadları canavar olmuşdur. Sibir xalqlarının əksəriyyəti - Ob xantları, Ural mansiləri mifik təsəvvürlərinə görə öz mənşələrini ayıdan, dovşandan, qazdan, durnadan, balıqdan və qurbağadan götürürdülər.

Heyvanlar adamların hamisi rolunda çıxış edir, onlara öz işlərində köməkçi olurdular. Məsələn, Kanada eskimoslarında ilahə Sedna dişi morj obrazında xeyirxahlıq mücəssəməsi idi. Labrador eskimoslarında kişi allahları ağ ayı simasında təsvir olunurdu. Bir sıra xalqların miflərində heyvanlar insanlara od verir, insanlara sənət öyrədir, mərasim və adətləri aşılayır. Buryat əfsanəsinə görə, birinci şaman qartal olmuşdur. O, qadınla əlaqəyə girərək ona şamanlıq etməyi öyrətmişdir. Koryaklarda və çukçalarda ilahi qarğa dünyanın, torpağın, çayların və hətta insanların yaradıcısı hesab olunur. O, insanlara sənət öyrətmiş, onlara maral vermişdir. Çox vaxt insanın ruhu da heyvan obrazında təsəvvür edilirdi. Məşhur filosof Plotin (III əsr) ölərkən onun yaxın dostu çarpayının altında ilan görür. İlan tez divarın yarığında gizlənərək yox olur. Filosof tam əmin idi ki, həmin ilan Plotinin ruhudur.

Qədim farslarda itlər ən böyük hörmətə malik idi. Onların fikrincə insan öldükdən sonra onun ruhu «itlərə» keçir. Ona görə də öldükdən sonra insanın cəsədi itlərə yedizdirilirdi.

Etiqad edilən heyvanları incitmək olmazdı. Qədim Misirdə müqəddəs heyvanın öldürülməsi ölümlə cəzalandırılırdı. E.ə. V əsrdə məşhur yunan tarixçisi («tarixin atası») Herodot yazırdı ki, Misirdə pişiyin ölümü oğulun ölümündən betər sayılırdı. İnkişafın daha sonrakı mərhələlərində animizm (latınca *nimus*, nima-ruh, can deməkdir), yəni ruhlara etiqad meydana gəlmişdir. Bu inam, əqidə qədim dövr insanlarının, ən qədim əcdadlarımızın fövqəltəbiiliyi haqqında təsəvvürlərinin formalaşmasında mühüm rol oynamışdır. Animizm insanlarda anlayış yaratmaq qabiliyyəti özünü göstərəndən sonra əmələ gəlmişdir. Bu inkişaf mərhələsində aləmin ikiləşməsinə - real və fövqəltəbii aləmə bölünməsinə imkan yaranır. Sonralar fövqəltəbii aləmin real aləm üzərində hakim olması haqqında inam formalaşır. İbtidai insanın aləmi onun fantaziyasının məhsulu olan ruhların insanların, heyvanların, bitkilərin, təbiət obyektlərinin, insanın yaratdığı predmetlərin ruhlarının «məskənidir». Daha sonralar isə bu və ya başqa predmetdən ayrılan, onu tərk edən ruhlar haqqında təsəvvürlər meydana gəlir. Bu qayda ilə müxtəlif kortəbii qüvvələrin və təbiət hadisələrinin ildırım, günəş, ay, planetlər, dağlar, dənizlər, çaylar, və meşələrin ilahiləşdirilməsi prosesi baş verirdi.

Ruhlar - insanla daimi qarşılıqlı təsirdə olan mifoloji varlıqlardı. İnsanların hamiləri olan ruhlar, nəsil ruhları, əcdad ruhları, xəstəlik ruhları, şamanların köməkçi ruhları, müxtəlif obyektlərin, sahələrin, təbiət qüvvələrinin sahiblərinin ruhları kimi müxtəlif ruhlar məlum idi. Ruhlar haqqında təsəvvürlər çox vaxt onları insanların «bənzəri», daha doğrusu mənəvi «bənzəri» kimi təqdim edir. Ruhlar çoxsaylı miflərdə və mifoloji əfsanə və dastanlarda özünü göstərir. Həmin dastanlar isə guya konkret insanların başına gələn əhvalatları ifadə etməklə yanaşı, həmçinin insanların ruhlarla təması - görüşü haqqında hadisələri əks etdirir. Ruhlar haqqında təsəvvürlər allahların obrazlarının formalaşmasında mühüm rol oynamışdır. İnkişaf etmiş mifologiyalarda allahların və ruhların obrazları yanaşı mövcud olsa da ruhlar mifoloji sistemlərin daha aşağı səviyyəsinə aiddir.

Beləliklə animizm ruhların təbiət hadisələrinin səbəbkarı mövcudluğuna inamı, bütün təbiətin canlı olmasına inamı ifadə edir. Qədim dünyanın mədəniyyətində animizm dini etiqadların universal forması idi. Elə bütün dini tamaşaların, mərasim və ayinlərin inkişaf prosesi animizmdən başlanmışdır.

İbtidai xalqların mədəniyyətində magiya (sehrbazlıq) da mühüm rol oynamışdır. Magiya da ibtidai dini etiqadlara aiddir. Magiya müəyyən simvolik hərəkətlər (tilsimləmək, ovsunlamaq və s.) yolu ilə, yəni fövqəltəbii yolla ibtidai insanın hər hansı təbii hadisələrə təsir göstərmək imkanına olan etiqadından ibarətdir. İbtidai cəmiyyətlərin üzvləri sehrbazlıq üsulları ilə hadisələrin gedişinə özünün arzu etdiyi istiqamətdə təsir göstərməyə çalışırdılar. Magiya sonralar inkişaf etmiş dinin daha mühüm ünsürlərindən birinə çevrilmişdir, hər bir müasir dini kult sehrbazlıq hərəkətlərinin (ayinlər, sirlər, ibadətlər və s.) müəyyən sistemini özündə birləşdirir. Sehrbazlığın ovsunlamaq, falçılıq, qabaqcadan xəbər vermə, «bəd nəzər», caduya inam, «bağlamaq» və s. kimi qalıqları indi də məişətdə qalmaqdadır.

İbtidai cəmiyyətlərdə geniş yayılmış etiqad formalarından biri də fetişizm hesab olunur. Fetişizm (fransızca *fetiche* - büt, tilsim deməkdir) müxtəlif maddi əşyaların fövqəltəbii xassələrinə etiqad olunmasına deyilir. İbtidai insanın müxtəlif əşyalardan, məsələn, daşlardan, ağaclardan, sonralar isə amuletlərdən (gözmuncuğularından, dualardan və s.), bütlərdən və s. fövqəltəbii kömək almaq ümidi fetişizmdə əks olunurdu. İbtidai cəmiyyətdə yaşamaq taleyinə düşən insanın praktiki fəaliyyətinin inkişaf etməsi və onun dərketmə imkanlarının məhdudluğu fetişizmin ilk mənbələri olmuşdur. İbtidai dövrlərdə fetiş öz-özlüyündə real mövcud olan predmet kimi pərəstiş obyekti olmuşdur. Sonralar isə onda «məskunlaşan» gizli fövqəltəbii

qüvvə haqqında təsəvvürlər meydana çıxır. Fetişizm dini pərəstişin zəruri komponentidir. Möcüzəli ikonalara, xaça, quru cəsədlərə, «müqəddəs yerlərə pərəstiş edilməsi, tilsimlərin, amuletlərin, boyundan asılan xaçların və s. möcüzələr doğurduğuna etiqad edilməsi müasir dini praktikada fetişizmin daha xarakterik təzahürləridir.

Cəlbedici predmetlər, gözəl görünən, eləcə də çirkin görünən şeylər fetişə çevrilə bilər. Predmet-əşya forması kimi fetişizm Qərbi Afrikada çox yaxşı saxlanılmışdır. Burada fetişlər hər yerdə nəzərə çarpır. Ən geniş surətdə yayılmış canlı fetişlər ilan (əjdaha) və qarğadır. Farslarda it və xoruz, Skandinaviyada ayı və canavar, Yunanıstanda - bayquş və s. fetiş sayılır. Canlı fetişlər qəbilə üzvləri üçün eyniləşdirici başlanğıcı ifadə etmirdi, onları eyni hesab etmək olmazdı. Onlar ya totemizmin özünəməxsus qalıqları, yaxud da güclü, müstəqil ruhların daşıyıcıları idi. Bəzi hallarda qəbilə üzvləri onlardan yararlana bilərdi. Ona görə də bir xalqın bir neçə canlı fetişi olurdu. Məsələn, Qədim Misirdə hər bir icma özünün canlı fetişinə malik idi. Ümummilli fetiş-müqəddəs öküz Apis olsa da, regional və yerli fetişlər də mövcud idi. Fivada - qoyun, Memfisdə - keçi, Bastda - pişik və s. fetiş hesab olunurdu. Qədim Roma miflərində canavarlar («Roma dişi canavarı»), ağacdələnlər və digər canlı varlıqlar haqqında danışılırdı. Onlar İtaliya yarımadasında yaşayan qəbilələrə düşmənə qalib gəlmək, qəhrəmanlıq göstərmək, gələcəyi görmək və s.-də kömək edirdi. Mədəniyyət tarixinin bir çox səhifələri fetişizmlə əlaqədardır, lakin onlardan biri müasir insana olduqca amansız və qəbuledilməz şəkildə görünür. Söhbət kannibalizmdən (adam yeməkdən) gedir. Kannibalizm çox qədim tarixə malikdir. Əcdadlarımız olan neandertallar adamyeyənlər idi. Homo sapiyens 40 min əvvəl planetdə adamyeyən kimi peyda oldu. Sonralar insan mədəniyyəti qəti imperativ ilə adam yeməyi qadağan etdi. Sonra qan qarışdırmaya (yaxınlarla evlənmə) qadağa qoyuldu. İkinci qadağa daha universal idi və insan cəmiyyətində ciddi şəkildə qorunmağa başladı. Bu tabu (qadağa) kannibalizmdən daha qədimdir. «Tabu» ibtidai mədəniyyətlə əlaqədar olan ən mühüm anlayışlardan biridir, onun pozulması dəhşətlə müşahidə olunur. Tabunun qorunması təhlükədən xilas olunmağın yeganə vasitəsidir.

İbtidai incəsənət. İncəsənət tarixini yazanlar hələ keçən əsrin sonunda yalnız ilkin incəsənət kimi Qədim Misir incəsənətindən başlayırdılar. 90 il bundan əvvəl bəşəriyyət kinonu kəşf etdiyi zamanda daş dövrünün incəsənətini, paleolit təsviri sənəti, rəssamlığını və heykəltəraşlığını da özü üçün aşkar etdi. Həmin vaxtdan başlayaraq ibtidai cəmiyyətin incəsənəti tədqiqat üçün ən populyar sahəyə çevrildi. Həmin proses indi də davam etməkdədir.

İbtidai incəsənətin yaranması ilə əlaqədar saysız-hesabsız nəzəriyyələr mövcuddur. Bədii fəaliyyət ibtidai mədəniyyətin bütün mərhələlərində mövcud olmuşdur. Ona görə də incəsənət onun varlığının daimi üsulu olmuşdur. Sənət alət istehsalından başlanır. İnsanın ən qədim alətinin tarixi 2.5 milyon il bundan əvvəl başlanır. İnsanların düzəltdiyi alətlərin materialına əsaslanan arxeoloqlar ibtidai dünyanın tarixini üç dövrə bölürlər. Bunlar daş dövrü, tunc dövrü və dəmir dövrüdür. Öz növbəsində daş dövrü də bir neçə alt dövrə bölünür. Ən qədim daş dövrü, yaxud paleolit (təqribən e.ə. 2.6 milyon ildən XII minilliyə qədər), orta daş dövrü, yaxud da mezolit (təqribən e.ə. XII minillikdən VII minilliyə qədər), yeni daş dövrü, yaxud da neolit (e.ə. XII minillikdən IV minilliyə qədər), mis daş dövrü, yaxud da eneolit (e.ə. III-II minilliklər), tunc əsri (e.ə. II-I minilliklər). Dəmir dövrü təqribən birinci minilliyin ortalarından başlayır.

Öz növbəsində Paleolit də üç dövrə - aşağı, orta və yuxarı (yaxud da sonrakı) dövrə bölünür. İbtidai incəsənətin ilkin mərhələsi üçün səciyyəvi cəhəti sinkretizm (latınca birləşmə) olmuşdur. Bu da müxtəlif görüşlərin bir yerdə ifadə olunması idi.

Dünyanın bədii mənimsənilməsi ilə əlaqədar olaraq insanın fəaliyyəti eyni zamanda homo sapiyens (ağıllı insan) formalaşmasına da şərait yaratmışdır. Bu mərhələdə ibtidai insanın bütün psixi proses və həyəcanlarının imkanları hüceyrə şəklində kollektiv şüuraltı vəziyyətdə, arxetip adlanan proobrazda, ilkin formada olmuşdur. Dünyanın dərki kortəbii baş verirdi, hər bir anlayışın arxasında obraz, canlı əməl gizlənirdi. Bizə gəlib çatan ilk ibtidai təsviri sənət əsəri Orinyak (Fransa) (e.ə. 33 min - 18 min) mərhələsində olmuşdur. Qadın heykəlciyi (daşda və sümükdə) həmin sənət əsərlərindəndir. Həmin dövrdə heyvanların, mamontların, filin, atın, maralın ümumi cizgilərini əks etdirən təsvirlər də yaranmışdır. İbtidai incəsənət əsərləri əsasən ovçuluq və əmək prosesi ilə əlaqədar olmuşdur.

Bir sıra sənətşünaslar paleolit dövrünün təsviri fəaliyyətini üç mərhələyə bölürlər. Onlardan hər biri keyfiyyətcə yeni təsvir formalarının yaranması ilə səciyyələnir.

Sümük, təbii maket və s.-dən kor pozisiyalar, süni təsviri forma - iri gil heykəltəraşlığı, barelyef profil konturu, yuxarı paleolit təsviri yaradıcılığı, mağara yazıları, sümük üzərində qravyuralar - natural yaradıcılıq nümunələridir.

Analoji mərhələni ibtidai incəsənətdə, tipik musiqi yaradıcılığında da görmək mümkündür. Musiqi (natural pantomimanın musiqi elementləri, təbiətdəki səslərin təqlidi, səsin təqlid motivləri, süni intonasiya formaları, səs yüksəltmə vəziyyətini əks etdirən motivlər, intonasiya ardıcıllığı, iki və üç səsli motivlər) hərəkət, mimika, jestlərdən və s.-dən ayrılmamışdı.

Əvvəllər insanlar yalnız öz ehtiyacları üçün təbiətin verdiyi şeylərdən - daş, ağac, sümük və s.-dən istifadə edirdilər. Yeni daş dövründə insan sənət əsərləri yaratmaq məqsədi ilə odadavamlı gildən istifadə

etməyə başlayır.

İbtidai cəmiyyətdə təsviri sənətin, demək olar ki, bütün növləri: rəsmlər, heykəlciklər, təsvirlər (mineral rənglərdən istifadə etməklə rəngli təsvirlər vermək), heykəltəraşlıq (daşdan yonulmuş, yaxud da gildən düzəldilmiş fiqurlar) və s. yaranmışdı. Dekorativ sənət növləri (daş, sümük üzərində işləmələr, relyeflər və s.) bu qəbildəndir. İbtidai cəmiyyətin inkişafının son dövründə bürünc, qızıl və gümüşün emalı ilə bağlı bədii sənət növləri yaranırdı.

İbtidai icma dövrünün sonunda yeni memarlıq tikililəri - qalalar yaranmağa başladı. Sonralar yaşayış məskənləri, dəfnlə əlaqədar məqbərələr və s. meydana çıxdı.

İbtidai dövrün incəsənəti dünya incəsənətinin sonrakı inkişafı üçün əsas olmuşdur. Qədim Misir, Şumer, İran, Hindistan, Çin, Azərbaycan və s. mədəniyyətlərin formalaşmasında ibtidai dövr mədəniyyətinin əvəzsiz xidməti olmuşdur.

Dini görüşlər. Təqribən e.ə. XXX minillikdə ibtidai incəsənət meydana gəldi. Bu incəsənətin yaranması insanların gündəlik həyatı ilə bağlı idi. “Ağıllı insan” buynuzdan kiçik heykəllər düzəldir, sümük üzərində təsvirlər cızır, təbiətdən əldə etdiyi boyalarla mağara divarlarında rəsmlər çəkirdi. Belə təsviri sənət nümunələri İspaniyada Altamira mağarasının divarlarında aşkar olunmuşdur. Mağarada təsvir edilmiş bizonların bir qismi sakit durmuş, digər qismi düşmən üzərinə atılan vəziyyətdə təsvir edilmişdir. Sonralar dünyanın müxtəlif yerlərində mağaraların divarlarında, qaya üzərində bu tipli ibtidai incəsənət nümunələri aşkar olunmuşdur. Beləliklə, incəsənət Paleolit dövründə yaranmışdır.

İnsanlar ov və döyüş səhnələrini, ovlayacaqları heyvanların hərəkətlərini təqlid edirdilər. Buradan da rəqs meydana gəlmişdir. Bu yolla insanlar bildiklərini gənclərə öyrədirdilər. Memarlıq rüşeymləri, heykəltəraşlıq nümunələri Paleolit dövründə yaranmışdı. İnsanlar heyvanların gözəlliyini, onların zahiri və daxili aləmini təsvir edə bilmişlər.







ÜST PALEOLİT ALƏTLƏRİ.



FİL SÜMÜYÜNDƏN ASLAN BAŞLI İNSAN FİQURU. B.E. 30000 İL ƏVVƏL



EKAİN MAĞARASINDA AT TƏSVİRLƏRİ. B.E. 15000 İL ƏVVƏL.



EKAİN MAĞARASINDA AYI TƏSVİRLƏRİ. B.E. 17000 İL ƏVVƏL.



LASKO MAĞARASINDA ÖKÜZ TƏSVİRİ. B.E. 15000 İL ƏVVƏL.



BİZONLAR. ALTAMİRA MAĞARASININ TAVANINDA TƏSVİR. ÜST PALEOLİT.



LYASKO MAĞARASINDA TƏSVİR. ÜST PALEOLİT.



QADIN HEYKƏLCİYİ. ANFAS VƏ PROFİL.



OXATANLARIN SAVAŞI. MEZOLİT.



YARALI BİZON. ALTAMİRA MAĞARASINDA TƏSVİR. ÜST PALEOLİT.



VİLLENDORFDAN QADIN HEYKƏLCİYİ. ÜST PALEOLİT.



AĞACDAN OYULMUŞ TAYQULP. NEOLİT.

# QƏDİM MİSİR MƏDƏNİYYƏTİ

Qədim Misir Şimali-Şərqi Afrikada Nil çayının vadisində və deltasında yerləşirdi. Yayın əvvəlində gur yağışlar yağır, ətrafı su basırdı. Noyabrda su çəkilir, üzvi maddələrlə zəngin olan lil sahili örtürdü. Bu qara lil qatı rütubəti yaxşı saxladığı üçün çox məhsuldar idi. Buna görə də misirlilər öz ölkələrini "Qara torpaq" adlandırırdılar. Əvvəllər Nilin vadisi keçilməz cəngəlliklər, bataqlıqlardan ibarət idi. Burada çoxlu vəhşi heyvanlar, xəstəliklər yayan müxtəlif həşəratlar var idi. E.ə. VIII minillikdə Böyük səhrada yaşayan insanlar tədricən Nil vadisini mənimsəməyə başladılar. Bu tayfalar yığıcılıq, balıqçılıq, ovçuluq edir, kolluqları qırır, bəndlər düzəldir, kanallar çəkir, əkinçiliklə məşğul olurdular. Misirlilərin başlıca məşğuliyyətləri əkinçilik idi. Hündür yerlərə su çıxarmaq üçün şaduf adlanan qurğudan istifadə etmişdilər. Onlar torpaqları toxa və sadə xışlarla şumlayırdılar. Qədim misirlilər arpa, buğda, meyvə, tərəvəz becərirdilər. Onlar mal-qara da saxlayırdılar. Onlar sənət və mübadilə ilə məşğul olurdular. Bacarıqlı dulusçu, daşyonan sənətkarlar idilər. Misir e.ə. IV minillikdə əhalisi sıx olan ölkəyə çevrildi.

Qədim Misirdə e.ə. IV minillikdə quldarlıq cəmiyyəti meydana gəldi. Tayfa başçıları, adlı-sanlı əyanlar qəbilə üzvlərinin əməyini istismar etməyə başladılar. Qədim Misirdə əhalinin bir hissəsini kəndlilər təşkil edirdi. Misir dövlətlərinin padşahları firon adlanırdı. Misirin bütün adamları, torpaqlar, sular fironun ixtiyarında idi. Firon öləndən sonra onun oğlu, yaxud yaxın qohumu firon olurdu. Onlar işğalçılıq müharibələri aparır, cənubda Nubiyaya, şərqdə Sinay yarımadasına hücumlar təşkil edirdilər.

Misir fironları özləri üçün ehramlar (piramidalar) tikdirmişlər. Ehramların inşası "tarixin atası" Herodotun "Tarix" əsərində geniş təsvir edilmişdir. Fironlar öldükdən sonra həmin ehramlarda dəfn edilirdilər. Yüz minlərlə qula nəhəng daşlardan ehramlar tikdirirdilər. Bu möhtəşəm ehramlar bir tərəfdən axirət dünyasına inam yaratmalı, digər tərəfdən isə fironların əzəmətini nümayiş etdirməli idi. Qədim Misirdə fironun sərdabəsinə o dünyada ona xidmət etmək üçün «uşebti» adlanan insan fiqurları qoyurdular. Ən möhtəşəm ehram e.ə. XXVII əsrdə Memfis yaxınlığında firon Xeopsun (Xufunun) şərəfinə tikilmişdir.

Ehramların yaxınlığında bütöv qaya parçasından insan başlı aslan bədənli nəhəng heykəl - sfinks yonulmuşdur. Bu nəhəng heykəl çox vahiməli olduğu üçün "dəhşətlər atası" adlandırılmışdır. Bəlkə də, sfinks ehramların qoruyucusu məqsədi ilə qoyulmuşdur.

Misirdə işarə-şəkillər heroqliflərdən istifadə edilirdi. 750 heroqlif var idi. Yazı üçün papirusdan istifadə edilirdi. Qədim Misir yazılarını 1801-ci ildə fransız alimi Şampaliyon oxumuşdur. Misirlilər bənd, binalar tikmək üçün hesablamalar aparırdılar. Hesab və həndəsə elmi yarandı. Misirlilər daşqın zamanı həmişə ulduzların eyni nöqtədə olduğunu müşahidə edirdilər. Misirlilər ulduzları müşahidə etmələri nəticəsində astronomiya elmini yaratmışdılar. Onlar astronomiya elmi sahəsindəki biliklərinə əsasən təqvim tərtib etdilər. İl 12 aya bölünürdü. İldə 365 gün var idi. Misirdə tibb elmi inkişaf etmişdi, onlar cərrahiyyə işlərini bacarırdılar.

Misirdə dövlət idarələrində və məbədlərdə məktəblər açılırdı. Bu məktəblərdə oğlanlar oxuyurdular. Kiçik məktəblilər qab-qaçaq qırıntıları, böyük məktəblilər isə papirus üzərində yazırdılar. Məktəblərdə varlıların balaları oxuyurdu.

Qədim Misirdə musiqi və rəqs sənəti yüksək inkişaf etmişdi. Nəfəs, zərb və simli musiqi alətləri mövcud idi. Rəqqasələr bəzən döyüş səhnələrini təsvir edən pantomimlər ifa edir, məbədlərdə dini mərasimləri səhnələşdirirdilər.

Qədim Misirdə allahları heyvan başlı insan şəklində təsvir edirdilər. Bu da ovçuluqla bağlı idi. Misirlilərin etiqadına görə, ölən adamın cəsədi saxlansa, onun ruhu vaxtaşırı oraya qayıdar. Elə buna görə də misirlilər ölüləri mumiyalayırdılar. Misirlilərə görə kinli allah Set bitki və əkin himayəçisi Osirisi öldürür. Osiris dirilir, axirətdə padşah və hakim olur. O, ölənlərin ruhunu mühakimə edir. Məbədlərə kahinlər rəhbərlik edirdilər. Məbəd allahın evi sayılırdı. Kahinlər qul sahibi idilər. Fiva şəhərindəki məbədin 80 min qulu var idi. Misirdə Amon Ra (Günəş allahı) baş allah sayılırdı. Qədim Misirdə adlı-sanlı kübarlar zümrəsinə dayaqlanan kahinlər təbəqəsi böyük nüfuza malik idi. Bəzən belə durum firon təkhakimiyyətliliyi ilə ziddiyyət yaradırdı. Məsələn, IV Amenxotepin (1372-1354) dövründə kəskin qarşıdurma baş verir. Ehnaton adını qəbul etmiş IV Amenxotep dini islahat keçirir, Misirə Aton Ra allahına sitayişi zorla qəbul etdirir. Lakin Ehnatonun vəfatından sonra hər şey köhnə axarına qayıdır.

IV Amenxotepin arvadı Nefertiti minilliklər ərzində gözəllik təcəssümü sayılıb. Misir Yaxın Şərqin zəngin dövlətlərindən birinə çevrilmişdi. Uğurlu müharibələr ölkənin maddi ehtiyatlarını artırmışdı. Misirin təsərrüfatında yüksəliş gözə çarpırdı. Müharibələrdən əsir gətirilmiş əhali təsərrüfatda qul kimi işlədilirdi. Təcavüzkar xarici siyasətdən imtina etmiş III Amenxotep Misirin daxili vəziyyətinə diqqəti artırdı. Onun fəaliyyəti geniş tikinti işləri ilə bağlı idi. Misir fironları Nilin qərb sahilində Amon allahın şərəfinə inşaat işləri aparmış və onun adına məbəd tikdirmişdilər. Burada Misirin mərkəzi şəhərlərindən olan Fiv yerləşirdi. Bu şəhər Yeni səltənət dövründə ölkənin paytaxtı mövqeyini saxlayırdı. Müasir Karnak yaxınlığında Fiv şəhərinin xarabalığı qalmışdır. III Amenxotep də Fiv şəhərində Amonun şərəfinə tikinti işləri görmüşdü. O,

Amon məbədinin giriş hissəsinin hər iki tərəfindən kəsik ehram şəklində darvaza ucaltdırmışdı. Özünəməxsus xeyrat məbədlərdən birini Amona həsr etmişdi. Amon məbədi önündəki darvaza qızılla işlənmişdi. Luksor məbədlərinin divarlarına qızıl təbəqəsi, döşəməyə isə gümüş vurulmuşdu. Məbədlərə gedən yollar lövhə ilə döşənmişdi. Amon məbədinə gedən yolun kənarında qoyun heykəlləri düzülmüşdü. Qoyun Amon məbədinin müqəddəs heyvanı hesab edilirdi. Hökmdarın xeyrat məbədi yolu kənarına itəbənzər heykəllər qoyulmuşdu. Məbədlərdə fironun əzəmətli və hündür heykəlləri də ucaldılırdı.

III Amenxotepin vəfatından sonra oğlu IV Amenxotep (e.ə. 1365-1348-cü illər) hakimiyyətə gəldi. O, Misirin Asiya vilayətlərindəki siyasi vəziyyətə məhəl qoymadı, öz fəaliyyətini büsbütün daxili ixtilafların aradan qaldırılmasına həsr etdi. Köhnə hakim quldar təbəqəsi ilə yeni yaranan əyanlar təbəqəsi arasında kəskin mübarizə gedirdi. Köhnə hakim sinif nümayəndələri kahinlər ətrafında cəmləşmişdi. Əvvəlki illərin uzun sürən müharibələri, ölkəyə axan qənimət və insan qüvvəsi məbədləri və onlara qulluq edən kahinləri varlandırmışdı. Misirin baş və ən nüfuzlu allahlarına həsr olunmuş məbədlərinin xeyli mal-qarası var idi. Məbəd xəzinəsi dolu idi. Xüsusilə Amon məbədi (Fiv şəhəri) fərqlənirdi. Ölkədə Amon allahına ibadət geniş yayılmışdı. Ona bol qurbanlar kəsilir və nəzirlər verilirdi. Adətən quş və heyvan, taxıl və meyvə, içki (şərab və pivə), ətriyyat və sair nəzir kimi məbədə gətirilirdi. Məbəddə ərzaq qıtlığı olmurdu, əksinə, həmişə bolluq olur, kahinlər və məbəd xidmətçiləri, habelə məbədətrafı yetim-yesir ərzaqla təmin edilirdi.

Firon IV Amenxotepin ətrafına yeni əyanlar təbəqəsinin nümayəndələri cəmləşmişdi. Onların içərisində yoxsulluqdan çıxmış və az-çox varlanmış xidmət adamları da vardı. Bu sosial təbəqə nemxu - "yetim, kasıb, yetim-yesir" adlanırdı. Yeni əyanların tərkibində nemxu, yəni yetim-yesir anlayışı artıq məcazi mənada işlədilirdi, eyni zamanda da belə adamların aşağı təbəqədən çıxdığını bildirirdi.

XVIII sülalənin son dövrlərində "yetim-yesir" (nemxu) təbəqəsinə mənsub olan, lakin artıq varlanmış adamlar Misirin inzibati və təsərrüfat idarələrində, ordu və firon sarayında qulluq edirdilər. Belə varlı və vəzifəli "yetim-yesirlər" yazılarında firon IV Amenxotep sayəsində ad-sana çatdıqlarını və əyan səviyyəsinə qədər ucaldıqlarını qeyd edirdilər. Varlı, adlı-sanlı və idarələrdə çalışan "yetim-yesirlər" fironun dayağına çevrilmişdilər. Fironun əhatəsində adlı-sanlı əyanlar da vardı. IV Amenxotep yeni əyanlar təbəqəsinə etimad göstərirdi. Yazılarında fironu onları yaradan kimi qələmə verirdilər.

Amon ümum Misir allahı hesab olunurdu. Ona həsr olunmuş məbədlər hər yerdə inşa edilmişdi. Amon məbədlərinin xeyli gəliri olurdu. Amon kahinləri fironun daxili və xarici siyasətinə istiqamət verən əsas qüvvəyə çevrilmişdi. III Amenxotepin dövründə bu allah Amon-Ra, yəni "Amon-günəş" adlandırılırdı. Günəş allahına (Raya) Misirin müxtəlif şəhərlərində sitayiş edirdilər. Fironlar özlərini "Günəşin (Ranın) oğlu" adlandırırdılar. IV Amenxotep hakimiyyətə gələndə bir müddət bu Misir dini ənənəsini dəyişdirmədi. Günəşə sitayiş tədricən fironun başlıca ideoloji mənsəbinə çevrildi. Əvvəllər günəş, üstündə dairəsi olan şahin başlı insan kimi təsvir olunurdu. IV Amenxotep dini islahat həyata keçirtdi. O, "görünən Günəşə" (Aton) sitayişi bərqərar etdi. Günəş şüalı şəkildə təsvir olunurdu, günəş dairəsindən şüalar insan əli şəklində uzanırdı. IV Amenxotepin şüa saçan günəşə öz ailəsi ilə birlikdə sitayişini təsvir edən abidə bizə gəlib çatmışdır. Ffironun islahatı günəş Allahı Atonun ibadətini müəyyən etdi. Bu islahatın siyasi və iqtisadi nəticələri tezliklə özünü büruzə verdi. Bir müddət Aton və Amon allahlarına ibadət yanaşı aparılırdı. Lakin Aton məbədində taxıl adi ölçülərlə yox, dolu ölçülərlə buraxılırdı. Digər Qədim Şərq ölkələrində olduğu kimi, Misirdə də müxtəlif həcmli çəki ölçüsü (əndazə) mövcud idi. Aton məbədinin təsərrüfatı yarandı. Məbəddə qoyulmuş çoxlu qurbangahlar boş qalmırdı. Məbədin zəngin mal və ərzaq anbarları vardı. "Günəş evi" adlanan Aton məbədi zənginliyi ilə fərqlənirdi. Aton məbədlərinin gəliri də artırdı.

Ehtimala görə, IV Amenxotep hakimiyyətinin altıncı ili (təxminən e.ə. 1360-cı il) yeni ibadət mərkəzi yaratdı. O, Amon məbədi güclü olan paytaxtı Fiv şəhərini tərk etməli oldu. Misirin orta hissəsində (indiki əl-Amarna) Nilin sağ sahilində yeni paytaxt saldırdı. Adını yeni ibadətin şərəfinə Axetaton, yəni "Günəş üfüqü" qoydu. Belə təsəvvür yaradılmışdı ki, Axetaton, ən qədim dövrlərdən guya günəşin məskəni olmuşdur. Şəhər ətrafı əhalisi, torpağı, suyu, çölü və dağları ilə birlikdə Günəşin mülkü elan edildi. Eyni zamanda, firon Amenxotep (yəni "Amon məmnundur") adını dəyişdirib Exnaton ("Günəşə sərfəli") qoydu. Digər şəxsi adlarda Amon Aton ilə əvəz edildi. Exnatonun ailə üzvləri, onu əhatə edən əyanlar buna uyğun olaraq adlarını dəyişdirməli oldular. Digər yerli allahlara ibadət sıxışdırıldı. Exnatonun dini islahatı təkallahlığa doğru atılmış ilk addım idi. Exnaton ömrünün son ilini Axetatonda yaşadı. Axetaton bağlı-bağatlı böyük şəhərə çevrilmişdi. Atonun şərəfinə böyük məbəd tikilmişdi. Firon sarayları öz əzəməti ilə fərqlənirdi. Ən böyük saray ağ daşdan hörülmüşdü. Saray divarları naxışla bəzənmiş, qiymətli daşlarla doldurulmuş, yaxud qızıldan üz çəkilmişdi. Günəş allahına sadiq olan yeni əynlar da Axetatonda ev tikdirmişdilər. Onlar Axetatonda sərdabələr tikdirir, divarlarını müxtəlif rəsmlərlə bəzəyirdilər. Rəsmlərin əksəriyyəti Exnatona həsr olunmuş, onun gündəlik işini təsvir edirdi. Məqbərə yazılarında əyanların firona minnətdarlığı bildirilirdi. Ev və sərdabə divarlarında Günəşin və onun oğlu hesab edilən Exnatonun və arvadının ünvanına dua-müraciət mətnləri həkk edilmişdi. Onlar firon və firon arvadından yaxşı gün-güzəranlıq və öləndən sonra nemətlər diləyirdilər.

Exnatonun dini-siyasi islahatı geniş xalq kütlələrinin maddi vəziyyətini yaxşılaşdırmadı. Atonun

şərəfinə yazdığı himn sadə adamların güzəranından bir kəlmə də olsun bəhs etmir. Burada ancaq Günəş allahının qüdrəti təsvir olunur: "Sən (yəni Aton) səmanın üfüqündə qəşəng parıldayırsan, həyatın başlanğıcını qoymuş diri Günəş dairəsi! Sən şərq üfüqündə çıxırsan və bütün yeri öz gözəlliyinlə doldurursan. Sən qəşəngsən, böyüksən, nursaçansan və yer üzündə yüksəkdəsən! Sənin şüaların sənin yaratdığın bütün ölkələrin sərhədlərini bürüyür! Sən zülməti qovursan öz şüalarını saçanda. Hər iki torpaq şadlıq edir. Onlar (insanlar) oyanır, ayağa durur, qalxır sənə görə. Bədənlərini yuyurlar və geyimlərini götürürlər. Onların əlləri sənin parıltını vəsf edir, onlar işə girişirlər. Mal-qara otlayır. Ağac və ot göyərir. Quşlar yuvasından uçur. Bütün heyvanlar ayaq üstə hoppanırlar. Gəmilər şimala üzür, həm də cənuba və bütün yollar sən nur saçanda açılır. Çayda balıqlar sənin görüşünə çıxırlar. Sənin şüaların dənizə cumur. Sənin şüaların hər bir əkinə qida verir. Sən çıxanda o canlanır və göyərir sənə görə... Sən uzaq səmanı yaratdın ki, oradan doğasan və özün yaratdığına baxasan... Sən mənim ürəyimdəsən, elə birisi yoxdur ki, sənin oğlun Neferxepruradan (Exnatonun adıdır) başqa səni dərk etsin..." Exnaton ancaq günəşin yer kürəsinə bəxş etdiyi işıq və şüanın müsbət nəticələrinə dini don geyindirmiş və onun şərəfinə mədh demişdi. Yəqin ki, Exnaton sadə adamların müəyyən hissəsinə əl tuturdu, "yetim-yesir" təbəqəsindən əyanlığa qəbul edirdi, lakin başlıca olaraq yeni quldar əyanların mənafeyini qoruyurdu. Yeni dini təlimin sosial və ictimai-iqtisadi bünövrəsi yox idi. Əhalinin vəziyyətinin yaxşılaşdırılması üçün heç bir tədbir görülmürdü. Atona sitayiş ancaq Amon kahinlərinin imtiyazlarını ləğv etmək məqsədinin güdürdü. Amona ibadət Misir əhalisi arasında dərin köklərə malik idi. Amon məbədlərinin var-dövləti əsrlər boyu yığılmışdı, bu da onun kahinlərini iqtisadi cəhətdən möhkəmləndirirdi. Aton məbədinin nə belə maddi bünövrəsi, nə də ibadətinin tarixi ənənəsi var idi. Bu ibadətin ömrü Exnatonun varlığı ilə ölçülürdü. Hər halda Exnaton vəfat etdikdən sonra Amon kahinlərinin və dindarlarının əl-qolu açıldı. Hadisələr göstərdi ki, Aton ibadəti Misirdə dərin kök sala bilməmişdi. Exnatonun 17 illik hakimiyyəti buna imkan vermədi.

Exnatonun varisləri Atona ibadətin mövqeyini qoruyub saxlaya bilmədilər. Hakimiyyətə gəlmiş firon Semnexkara Exnatonun Nefertitidən olan qızına evlənmişdi. Nefertiti dövrünün ən gözəl və incə qadınlarından idi. Nefertitinin Exnatondan altı qızı var idi. Nefertiti və kürəkəni Semnexkara müəyyən müddət Axetaton ənənəsini saxlaya bildilər. Atona ibadətə sadiq qaldılar. Lakin bununla yanaşı, Fiva Amon allahına ibadəti dirçəltməyə başladı. Cəmi üç il fironluq etmiş Semnexkara Amonun yenidən dirçəlməsinin qarşısını ala bilmədi, bəlkə də ona sitayişi bərpa etmişdi. Hakimiyyətə doqquz yaşlı Tutanxaton ("Günəş həyatına yaraşan") gəldi. Exnatonun digər qızı Anxesenpaaton ("O, Günəş üçün yaşayır") Tutanxatonun arvadı elan edilmişdi. Onlar Aton ilə yanaşı, başqa allahlara da sitayiş edirdilər. Gənc firon Amon ideologiyasının təzyiqinə məruz qaldı. Bir müddət sonra o, adını dəyişdirib Tutanxamon, yəni "Amon həyatına yaraşan" qoydu. Arvadı isə Anexesenpaamon adını qəbul etdi. Eyni zamanda, Axetaton əyanları ilə birlikdə Memfis şəhərinə köçdü. Vaxtaşırı Fiv ziyafətlərində iştirak edirdi.

Tutanxamon Efiopiyada və Asiyada müharibələr aparmışdı. Ehtimal ki, əldən gedən Asiya vilayətlərində Misir hakimiyyətini bərpa edə bilmişdi. Yəqin ki, hərbi əməliyyatlarda sərkərdə Xoremxeb də iştirak edirdi. Amona ibadətin tam bərpa edilməsində Xoremxeb böyük səylə fəaliyyət göstərmişdi. Az-çox Atona sitayişi qoruyub saxlayanlardan biri isə əyan Eye olmuşdu. Ehtimal edilir ki, Eye gənc Tutanxamonun adından Misiri idarə edirdi. Tutanxamon Amon məbədinin hüquqlarını qəti olaraq bərpa etdi. Tutanxamonun hakimiyyəti uzun sürmədi. O, təxminən on doqquz yaşında vəfat etdi. Tutanxamon böyük dəbdəbə ilə yeraltı sərdabədə dəfn olundu. Onun sərdabəsi Fiva yaxınlığında "hökmdarlar dərəsi"ndə tikilmişdi. Fiva kahinləri Tutanxamonun bütün saray əmlakını, əşyalarını, qiymətli bəzək-düzəklərini, oyun lövhələrini, onun surətini əks etdirən qızıl dəbilqəsini, müxtəlif heykəllərini və s. sərdabədə yerləşdirmişdilər. Tutanxamonun sərdabəsi hələ qədimdə qarətdən qorunmuşdu, halbuki əksər firon sərdabələri hələ o zaman talan edilmişdi. Sərdabə qarətçilərini tutub məhkəməyə verirdilər. Talan olunmamış Exnaton və Nefertiti sərdabələrinin qalanı XIX əsr qarətçiləri Atona (Günəşə) ibadət tərəfindən təmizlənmişdi. Hovard Karter 1922-ci ildə Tutanxamonun sərdabəsini aşkar etmişdi. Məlum oldu ki, Tutanxamonun da sərdabəsinə girmişlər, lakin elə bir şey apara bilməmişlər. Sonralar isə burada XVI Ramzesin sərdabəsi tikilərkən, Tutanxamonun yeraltı sərdabəsinin girişi torpaq və çınqılla dolmuş, oğrular sərdabəyə giriş yolunu itirmişdilər.

Tutanxamonun qısa müddətli hakimiyyəti illərində Misir qüdrətli dövlətə çevrildi. Tutanxamonun övladı olmadığından hakimiyyət onun arvadı dul Anxesenapamona keçdi. Misir mənbələri onun fəaliyyəti haqqında heç bir məlumat vermir. Lakin Het mənbələrindən məlum olur ki, o, Het hökmdarı Suppiluliuma müraciətnamə göndəribmiş. Müraciətnamədə deyilirdi: "Mənim ərim vəfat etmişdir. Eşitmişəm ki, sənin həddi-buluğa çatmış oğulların vardır: onlardan birini mənə göndər. Mən ona ərə gedərəm, o da Misirin hökmdarı olar". Het hökmdarı III Murşil tərəfindən tərtib edilmiş bu salnamədə qeyd edilir ki, Suppilulium belə qeyri-adi müraciətə təəccüb edir. Hadisənin düzgün olub-olmamağını yoxlamaq üçün o, Misirə elçi göndərir. Misir fironəsi yenidən Het hökmdarına müraciət edib yazır: "Sən nə üçün deyirsən ki, onlar məni aldatmaq istəyirlər. Əgər hökmranlıq etmək üçün oğlum olsaydı, mən yadelli ölkəyə müraciət etməzdim, çünki bu mənim üçün və mənim ölkəm üçün həqarətdir... Mənim ərim vəfat etmiş və mənim övladım yoxdur. Məgər mən öz nökərimi götürüb özümə ər etməliyəm? Mən heç bir ölkəyə müraciət etməmişəm,

mən ancaq sizə yazmışam. Deyirlər ki, sənin çoxlu övladın vardır. Onlardan birini mənə ver; o, mənim ərim və Misir torpağının fironu olar".

Tutanxamonun dul arvadının məqsədi tam aydın deyildi. Lakin belə bir nəticə çıxartmaq olar ki, o, Het dövləti ilə yaxınlaşmaqla Aralıq dənizi ərazisində Misirin təsirini bərpa etmək və daxildə aparacağı siyasətdə müəyyən müxalifət qruplarının müqavimətini qırmaq istəyirdi. Lakin Misir əyanları, xüsusilə hakimiyyətə göz dikən dövlət xadimləri və Amon kahinləri yadellinin Misirdə ağalığını qəbul edə bilməzdilər. Buna görə Misirə yola düşən Het şahzadəsi Zanaazu Suriyada öldürüldü. Ehtimala görə, Het şahzadəsinin öldürülməsini Misir sərkərdəsi Xoremxeb təşkil etmişdi, çünki o, dul fıronəyə evlənmək istəyirdi. Lakin Anxesenpaamon qohumu olan qoca Eyeyə ərə getdi.

Eye hələ Exnatonun dövründə yüksək vəzifəli şəxs idi və Aton məbədinin pərəstişkarlarından biri olmuşdu. O, Nefertitinin dayəsi Teyeyə evlənmişdi. Eye "Allahın atası" rütbəsini daşıyırdı. Bu zaman Exnaton ilahiləşdirilmişdi və ona "Allah" kimi sitayiş edirdilər. Beləliklə, Eye rəsmən fironun "atası" elan edilmişdi. Tutanxamonun hakimiyyəti dövründə Eye vəzir vəzifəsinə kimi yüksəlmişdi. Ola bilsin ki, Eye gənc Tutanxamonun qəyyumu kimi ölkəni idarə edirdi. Eye cəmi dörd il hakimiyyət başında oldu.

Exnatonun islahatlarının qəti ləğvi Xoremxebin (e.ə. 1334-1306-ci illər) adı ilə bağlıdır. O, yerli hakimlərdən idi. Xoremxeb ali kahin dairələri ilə möhkəm əlaqədə idi, müxtəlif inzibati və hərbi vəzifələrdə olmuşdu. Xoremxeb Tutanxamonun sərkərdəsi idi. Fiva şəhərinin köməyinə arxalanan Xoremxeb dövlət çevrilişi etdi və hakimiyyəti əlinə keçirtdi. Öz hakimiyyətini qanunlaşdırmaq üçün o, Exnatonun arvadı Nefertitinin bacısına evləndi. O, yazılarında hakimiyyətə qanuni sahib olduğunu, allahın arzusunu yerinə yetirdiyini qeyd edir. O, III Tutmosu "öz atalarının atası" adlandırırdı.

Hakimiyyətə gəldikdən sonra Xoremxeb Amon allahına ibadəti tamamilə bərpa etdi. O, Aton ibadətini qəti ləğv etmək üçün tədbirlər gördü. Axetaton şəhərini boşaltdırdı, dəbdəbəli saray və malikanələri, məbədləri dağıtdı. Xoremxeb "Axetatonlu cinayətkar" adlandırdığı Exnatonun adını bütün abidələrdən sildirib onun yerinə öz adını yazdırdı, illərini öz hakimiyyətinə caladı. Tutanxamon və Eyenin də adları onun göstərişi ilə abidələrdən silindi. O, özünü bilavasitə III Amenxotepin varisi elan etdi. Xoremxeb hakimiyyətdə olmuş fironların siyahısından Exnatonun və hətta Tutanxamonun və Eyenin adlarını sildirdi.

Qədim Misirin ən qədim və möhtəşəm memarlıq abidələri ehramlar idi. Ehramlar dünyanın 7 möcüzəsindən biridir. Qədim Misir Yer kürəsində ilk dövlət, dünya ağalığına iddia edən ilk qüdrətli imperiya olmuşdur. Bu dövlət xalqını tam itaətə gətirmiş güclü dövlət idi. Misir ali hakimiyyətinin əsas prinsipləri-sarsılmazlığı və ağlasığmazlığı ilə seçilmişdir.

Qədim Misir mədəniyyətinin mühüm cizgilərı - misirlilərin özlərinin «qeyri-normallıq» hesab etdikləri «ölümə qarşı etiraz» olmuşdur. Ölməzliyə olan güclü meyl misirlilərin bütün dünyagörüşünü müəyyən etmiş, Misirin bütün dini fikrinə daxil olmuş və qədim Misir mədəniyyətini formalaşdırmışdır. Heç bır dünya sivilizasiyasında ölümə qarşı etiraz Misirdəki kimi bu qədər konkret, parlaq, bitkin ifadəyə malik olmamışdır. Ölməzliyə cəhd ölülər kultunun yaranmasına gətirib çıxarmışdır. Bu isə Misirin həm dini, həm də mədəni həyatında mühüm rol oynamışdır. Bunu Misirin iqtisadi, siyasi və hərbi həyatına aid etsək onda həmin kultun necə əhəmiyyət daşıdığı bir daha məlum olur. Misirlilərin ölümlə razılaşmamağı belə bir dini etiqadı yaratmışdır ki, ölüm heç də son demək deyildir. Yerdə gözəl əbədi həyat uzana bilər. Ölən adam özünün dirilməsini gözləməlidir. Bunun üçün ölənin ölməz ruhlarından biri onun bədəni ilə təzədən birləşməli və həyat yenidən başlamalıdır. Ona görə də canlılar ölənlərin bədənlərinin qayğısına qalmalıdır. Bu qayğı üçün əsas vasitə mumiyalama idi. Mumiya hazırlamaq sənəti Misirdə ən hörmətli sənət olmuşdur. Bununla yanaşı ölənin bədəninin saxlanılması üçün xüsusi məqbərələr yaradılırdı. Bu məqsədlə ehramlar tikilirdi.

Lakin ehramlar yalnız Misir hökmdarları - fironlar və əyanlar üçün tikilirdi. Ancaq Misir kahinlərinin dini təliminə görə təkcə hökmdarlar və əyanlar deyil, hər bir adam əbədi həyat qüvvəsi olan «Ka»- ya malik idi. Bunun üçün dəfn adətinə ciddi əməl olunmalı idi. Bütün bunlara baxmayaraq mərhumun mumiyasının düzəldilməsi baha başa gəldiyinə görə kasıb adamların cəsədləri sadəcə olaraq həsirə bükülür, qəbiristanlığın kənarındakı yarğanlarda basdırılırdı. Ehramlar qədim Misirdə adamların bərabərsizliyinin əyani sübutu kimi zəmanəmizə qədər gəlib çatmışdır.

E.ə. III-II minilliklərdə ehramlar və allahlar üçün məbədlər tikilməyə başlanmışdır. Ehram tikintiləri xalqa çox ağır başa gəlirdi. Ən qədim Misir ehramı firon Coserin şərəfinə tikilmişdir. Bu tikili 5 min il bundan əvvəl tikilmişdir. Lakin ən məşhur və nəhəng ehram Xeopsun şərəfinə ucaldılan ehramdır, 20 ilə 100 minlərlə adamın əməyi ilə tikilmiş ehramın hündürlüyü 147 metr (hazırda 137 metr), meydanı 55000 $m^2$-dir. Ehram tikintisində işlədilən daşların hər birinin çəkisi 2-3 tondur. Alimlərin hesablamasına görə bu tikilidə 2.300000 ədəd həmin çəkidə daşlardan istifadə olunmuşdur. Sonralar, yəni 2 min il bundan əvvəl ehramları daşdan yox, kərpicdən tikməyə başladılar. Bu isə nisbətən ucuz başa gəlirdi.

E.ə. I minilliyin əvvəlində ehram tikintisi dayandırılmışdır. Fironların qəbri gözdən-könüldən uzaq yerlərdə gizlədilirdi. Lakin ehram kimi bu gizli yerləri də çapıb talayırdılar. Fironların qəbirləri Qədim Misir tarixinin bütün dövrlərində talanmışdır. Qədim misirlilərin öz hökmdarlarını ilahiləşdirib ondan

qorxmalarına baxmayaraq qəbirlərin talan edilməsi zaman-zaman davam etdirilmişdir.

Fiva Misir padşahlığının yeni paytaxtı olarkən, artıq Misir öz inkişafının zirvəsinə çatmışdı. Qüdrətli hökmranlığı dövründə Misirdə elm və mədəniyyət inkişaf etməyə başlamışdı. İşarə-şəkillər-heroqliflər yarandı. Papiruslarda yazılar yazılırdı. O vaxtdan bir şer Misirdə kitaba yüksək qiymət verildiyini sübut edirdi:

Müdrik mirzələr
Özlərinə ehram tikmirdilər.
Tunc baş daşı da qoymurdular,
Onların ehramı kitablar idi
Onların övladı qamış qələm idi.
Buna görə də kitabda yazılan
Haqqında xatirə əbədidir.

Qədim dünyanın digər xalqları kimi, qədim misirlilər də inanırdılar ki, təbiəti və insanların həyatını allahlar idarə edir. Misirlilər allahları adətən insan, lakin heyvan başlı insan şəklində təsəvvürlərinə gətirirdilər. Bu cür təsəvvürlərin ovçuluq dövrlərindən qalması şübhəsizdir. Qədim misirlilərdə axirət dünyasına inam mühüm yer tutduğundan meyitləri mumiyalamaq geniş yayılmışdı. Misirlilərə görə, axirət səltənətində hər şey boldur. Lakin hər bir adamın ruhu bu səltənətə getmir. Ölənlərin ruhunu Oziris mühakimə edir. O, allahın iradəsi əleyhinə gedənlərə qarşı çox böyük amansızlıq göstərir. Elələrinin ruhunu müdhiş, yırtıcı heyvanlar yeyir. Qədim Misirdə fironlar ilahiləşdirilirdi. Ona görə də qədim dini kitabədə yazılırdı: «Allahlar itaət edənləri sevir, itaət etməyənlərə isə nifrət edir». Bu ölkədə din fironlara danışıqsız itaət etməyi tələb edirdi. Əmri pozanlar isə quraqlıq, taun xəstəliyi, düşmənlərin hücumları ilə, öləndən sonra isə Oziris mühakiməsi ilə hədələnirdi.

Qədim insanlara elə gəlirdi ki, fironların ixtiyarında olan qeyri-məhdud hakimiyyəti insanlar yox, allahlar müəyyən etmişlər. Təsadüfi deyildir ki, fironu «allahın oğlu» və «böyük allah» adlandırırdılar. Misirdə allahlara dualarla müraciət edir, onlara qurban verirdilər. Məbədlər allahların evləri hesab olunurdu. Orada allahların bütləri qoyulurdu. Məbədlərdə «allahların xidmətçiləri» - kahinlər olurdular. Hesab edilirdi ki, kahinlər allahları yedizdirirdilər-onlar bütlərin qabağına yemək qoyurdular. Qırğı baş olan Günəş allahı Ra, allahların padşahı hər gün qızıl qayıqda göydə gəzir və qərbdə yerə enir. Uzaq cənubda Nil allahı ilanların qoruduğu mağarada küpələrdən su tökür. Nə qədər su tökəcəyi onun iradəsindən asılıdır. Bunlardan əlavə vəbanı göndərən aslan başlı qəzəbli müharibə ilahəsi də olduqca təhlükəli idi.

Nil çayı misirlilər üçün həyat demək idi. Təsadüfi deyildir ki, qədim bədii yaradıcılıqda, həm də digər sahələrdə, o cümlədən xüsusilə poeziya və mifologiyada Nilin tərənnümü mühüm yer tutur.

Məsələn, Nil çayını tərənnüm edən himndən bir parça verməklə görərik ki, misirlilər Nili canlı varlıq və allah hesab edirdilər:

Misir torpağına həyat gətirən
Nil çayı daim yaşa, var ol sən,
Sən bir az geciksən tükənər həyat,
Əgər qəzəblənib çıxsan özündən.
Şən yaxşı gələndə şənlənir həyat
Ölkə fərəhlənər, ölkə şad olar.
Alqış deyər gənclər, körpələr sənə,
Düşürlər sənin şad qədəmlərinə.

Misirlilərin etiqadına görə, ruh heykəldə yaşaya bilərdi. Öləni əzəmətli pozada təsvir edirdilər. O, həyatda kimi idisə, ölümündən sonra da həmin adam, yəni firon və ya əyan olaraq qalmalı idi.

Misirin tarixi, mədəniyyəti, incəsənəti, özünü bu və ya digər şəkildə Misir mifologiyasında göstərmişdir. Günəş allahı eləcə də insanların və allahların padşahı Ra qocaldıqdan sonra öyrənir ki, Nilin yuxarı hissəsində və səhrada adamlar onun əleyhinə nə isə fikirləşirlər. O zaman Ra kişi allahları Şu, Geb və Nunu, eləcə də qadın allahları Tefnut, Nut və Okonu Ranın daxil olduğu allahlar şurasını çağırdı. Bu şura insanlardan gizlin olaraq çağırılmışdı. Allahların məsləhəti ilə Ra Okonu Xatxor ilahəsi simasında bəşəriyyəti məhv etməyə göndərdi. İlahə işinin bir hissəsini sevinclə yerinə yetirdikdən sonra Ranın hüzuruna qayıdarkən Ra peşman olaraq hələ məhv edilməyən insanların günahından keçməyə qərar verdi. Onun əmri ilə gecə sahələrə qırmızı pivə tökdülər. Səhər qaniçən ilahə yoluna davam edərkən pivəni gördü və içməyə başladı. Xatxor sərxoş oldu və adamları görə bilmədi. Xatxor bayramına məstedici içkilər hazırlanması adəti belə yaranmışdır.

Misirdə günəş allahı kultu Şumer və Akkad mərasimlərinə nisbətən daha mühüm rol oynamışdır. Şamaş ədalət qoruyucusu olsa da, onun adı heç vaxt allahlar üçlüyünə daxil olmamışdı və o yaranma mifi ilə əlaqədar göstərilməmişdir. Misirdə isə Ra ənənəyə əsasən Misirin birinci padşahı olmuş Atum kimi dünyanın yaradıcısı hesab olunurdu. Heliopol şəhəri Ra kultunun əsas mərkəzi olmuşdur və yəqin ki, qədim padşahlıq dövründə elə həmin şəhərdə Oziris kultu ilə günəş allahı kultunun birləşməsi baş vermişdir.

Elə həmin zamandan başlayaraq fironların allah Ranın oğlu olması mərasimi keçirilirdi. Firon Xafranın heykəlində onun başının qoruyucusu Qor, şahin Qor və Ranın eyniliyini və padşah hakimiyyətinin Ra ilə əlaqəsini göstərir. Oziris-Qor mifologiyası Ra kultu ilə birlikdə fironun taxta gəlməsi və tac qoyması qaydasını müəyyən edirdi. III Tutmosun ölümü və II Amenxotepin taxta gətirilməsi belə təsvir olunurdu:

Padşah Tutmos səmaya yollandı,
O günəş diski ilə birləşdi.
Allahın bədəni onun yaratdığı ilə birləşdi.
Ertəsi gün
Günəş şəfəq saçdı,
Səma işıqlandı.

Amenxotep atasının taxtına əyləşdirildi. Ölən padşah Ozirisə çevrildi və sonra gətirilən mətndə o, həm də Ra ilə birləşdi. Məlum olur ki, Ra və Oziris haqqında miflər tamamilə bir-birinin içərisində əriyərək birləşir. Doğrudur, Qədim Misirdə «Günəş» mifologiyasının elə elementləri vardır ki, onlar Oziris haqqında mifdən köklü surətdə fərqlənir. Lakin Günəş allahı Ra yerdə insanlarla birlikdə olmaqdan yoruldu. Qədim allahlardan biri Nunu (onun adının mənası «ilkin okean» deməkdir) Raya məsləhət görür ki, Nut adlı inəyin çiynində otursun. Sübh açılarkən adamlar bir-birinə ox atmağa başlayan anda çiynində Ranın oturduğu inək Nut yüksəkliyə qalxıb səma oldu. Ra razı qaldı və arzu etdi ki, səmada yaşıllıq olsun. Yalnız bundan sonra «Məmnunluq sahəsi» və «Qarğı (qamış) sahəsi» meydana gəldi, səma gölü təsəvvürü yarandı. Sonralar həmin mifin kontekstində əkinçilərin ideal-axirət dünyasında əkmək üçün torpağın olması ifadə edilirdi. Lakin daha yüksəklikdə inəyin başı hərlənməyə başladı və o titrədi. Bu zaman günəş allahı Ra dedi: «Əgər mən Xex (milyon ilahə nəzərdə tutulurdu) olsaydım, inəyi səmada saxlaya bilərdim». Bu sözlərlə o 8 Xex ilahəsini yaratdı və onlar səma inəyinin ayaqlarını saxladılar. Nəhayət, Ra allah Şuya əmr etdi ki, inəyi saxlamaq və 8 Xex ilahələrini qorumaq üçün aşağıda yerləşsin.

Hekayə onu ancaq inək rəsmi önündə oxumağı məsləhət verən göstərişlə başa çatır. Bunu isə yeni doğulmuş uşağını başı üzərində tutmuş ata etməli idi.

Hekayətin birinci hissəsi qədim mifoloji baxışların əks edilməsi ilə əlaqədar idi. Günəş allahı Ra allahların və insanların padşahı rolunda ilkin allah Atumla eyniləşdirildiyindən öz təbiətinə görə ulu qocadır. Məlum olduğu kimi, insanların Atuma qarşı günah işlətməsi hələ e.ə. 2000-ci ildən xatırlanırdı.

Günəş allahının yaranması haqqında Misirdə bir sıra əfsanələr mövcuddur. Onlar bəzən bir-birini tamamlayır, bəzən də bir-birindən köklü surətdə fərqlənir. Onların bəzisinə görə, günəşin, onunla birlikdə dünyanın yaradıcısı ana ilahədir. Ana ilahə heç bir kişi olmadan günəş oğlunu doğmuşdur. İkinci əfsanəyə görə isə allah-ata ilk iki allahı qadınsız yarada bilmişdir. Əldə edilən materialların əksəriyyətində səma ilahəsindən doğulduğu qeyd olunur. O, günəşi tək doğur, yəni burada nə kişi allah, nə də heyvan iştirak etmir. O, bəzən qadın, bəzən inək obrazında təzahür edir. Hər gün sübhdən işıqlı disk onun bətnindən çıxır, axşamlar o günəşi təzədən udur ki, səhər onu yenidən doğsun.

Bütün ibtidai cəmiyyətlərdə olduğu kimi Qədim Misirdə də uşağın doğulması haqqında aydın təsəvvür yox idi. Yeni tarixə qədərki Misirdə uşağın doğulması bu və ya digər predmetin udulması ilə əlaqələndirilirdi. Misir folkloru belə baxışlar haqqında geniş məlumat verir. Misirdə «uşağa qalmaq» «nə isə udmaq» kimi başa düşülürdü. Bu barədə fikir Ehram mətnlərində və dini mərasimlərdə uzun müddət yaşamışdır.

«Udmaq» mövzusu matriarxat xarakter daşıyırdı. Qədim Misirdə ana-allahlar mühüm rol oynayırdı.

Əsrlər keçdikcə dünyanın yaranması və allahların yaranması haqqında təsəvvürlər də zənginləşmişdir. Müxtəlif sahələrdə öz funksiyalarını yerinə yetirən allahlar xarakterinə görə insanlara da bənzəyirdilər.

Öz təbiətinə görə yumşaq olan Xatxor inək şəklində təzahür edəndən sonra qaniçən Okoya çevrilir. Bəlkə də bunlar Xatxor bayramında artıq içib sərxoş olmamaq üçün uydurulmuşdur. Xatxonrun rolunu məhəbbət hamisi kimi təhlil etməyə meyl də mövcud idi.

Mifin ikinci hissəsi Ranın bəşəriyyətdən yorulması motivi ilə əlaqədardır. Ra inəyin çiynində oturduğu halda olsa da, özünün iki qayığı ilə üzdüyü şəkildə təsvir olunmuşdur. Bu kosmoqonik nəqletmə səmanın yaranmasını izah edir. Bundan əlavə səma sahələrinin və inəyin ayaqlarmı tutan 8 ilahənin mövcudluğu söz oyunu kimi də təsvir olunur. Misir mifologiyasında söz oyunu geniş yer almışdı. Söz oyunu himnlərdə və mərasimlərdə yaradılırdı. Hər şeydən əvvəl, səma inəyi və yaxud bəzi mənbələrdə qeyd edildiyi kimi, inək-səma haqqındakı təsəvvürlər tarixəqədərki dövrə gedib çıxır. Qədim mətnlərə əsasən inəyin hüdudsuz okeandan qalxaraq səmaya çevrilməsi barədə təsəvvürlər həmin mifə qədər mövcud olmuşdur. İkincisi, günəşin il qayığının səmanı su kimi ifadə edən konsepsiyaya görə, səma həm gecə, həm gündüz qayıqlarında üzməkdədir. Həmin səma suları yer okeanlarına müvafiqdir. Təəccüblü deyildir ki, səma inəyi də yer inəyinə oxşayır. Bu sular Nilə bənzəmir, çünki qədim misirlilər bilirdilər ki, Nil cənubdan şimala axır. Günəş isə Şərqdən Qərbə hərəkət edirdi. Üçüncüsü, öz qızı Nutu səmaya qardaşı və əri Kebinyerin üzərinə qaldıran allah-kişi inəyin qarnından tutmuşdur. Nutun onu qaldıran allahların qayıqlarını apardığını, sonra onların duzlara çevrildiyi haqqında təsəvvürlər hələ çox qədimlərdən məlum idi. Allahların, ulduzların və günəş

allahının qayıqlarda üzməsi haqqında təsəvvürlərin əsası var idi. Qayıq Nil çayında təbii və rahat nəqliyyat növü idi. Geniş yayılmış əks olunan səma haqqında dördüncü konsepsiya nisbətən rasionalist xarakter daşıyır. Səma allahlar tərəfindən qorunan və dörd dayaqla saxlanılan üst qatdır. İnəyin dörd ayağı burada səmanın dörd dayağını əvəz edib. Dayaqları qoruyan 8 Xex ilahə dünyanın dörd tərəfini təmsil edən allahlar cərgəsinə daxildir. Dünyanın dörd tərəfinin göstəricisi olan say-rəqəm misirlilərdə həmişə müqəddəs olmuşdur.

Misirlilərin səma haqqında dörd müxtəlif təsəvvürləri olmuşdur. İnək, okean, qadın Nut və yerin üstü səma həmin dörd rəqəminə daxildir.

Qədim Misir miflərində dünyanın və insanların yaradılması əfsanələri mühüm yer tutur. İlk baxışda bu əfsanələr özlərinin ziddiyyətli rəngarəngliyi ilə adamları çaş-baş sala bilər.

Allahların, insanların və kainatın yaradıcısı rolunda gah heyvanlar, gah allahlar, gah da ilahələr çıxış edir. Bir əfsanəyə görə Günəş səma inəyindən doğulur, digərinə görə bitkilərdən, üçüncü qrupa görə isə qaz yumurtasından doğulur. Yaradılma üsulu və yaradıcılar da müxtəlif olur. Bütün miflər üçün ümumi olan cəhət budur ki, ibtidai xaosdan bu və ya digər allahlar meydana gələrək bu və ya digər şəkildə dünyanı yaradırlar.

Dünyanın yaranması haqqında miflərin əksəriyyəti ən qədim zamanlarda qəbilə-tayfa münasibətlərinin hökm sürdüyü Nil vadisində yaranmışdır. Sonralar isə ictimai münasibətlərin inkişaf etməsi, qədim misirlilərin dünyanı anlama üsullarının təkmilləşməsi ilə əlaqədar olaraq həmin miflər də bir sıra köklü dəyişikliklərə uğramışdır. Nəticədə dünyanın yaranması haqqında mif bir növ «işlənmiş» şəkildə gəlib çatmışdır. Dünyanın yaranması haqqında miflərin əksəriyyəti bizə tam şəkildə gəlib çatmamışdır. Misir mifləri zəngin olduğu qədər, həm mürəkkəb, həm də ziddiyyətli xarakterdədir.

Səma-inək haqqında mifə əsaslanaraq Misir mifologiyasının xarakteri haqqında bəzi fikirlər demək mümkündür. Hər bir hadisə üçün çoxsaylı mifoloji müddəalar mövcud ola bilər. Mifoloji müddəalara münasibətdə səxavətlilik Misir üçün səciyyəvi bir haldır. Ehkamlar olmadığından təriqətlər haqqında da təsəvvürlər olmamışdır. Dini dözülməzlik və fanatizm yalnız ölkənin tənəzzülə uğradığı dövrlərdə təzahür etmişdir. Fanatizm yalnız II minillikdə, təqribən e.ə. 1370-ci ildə Ehnatonun Misir dinini zorla mifologiyadan azad etmək cəhdi zamanı meydana çıxmışdır. Ehnatona qədər magiya və fetişizm daha geniş yayılmışdı.

Misirlilər özləri üçün insana adi görünən anlayışlarla obrazları, hadisələri, obrazlar qrupunu, yaxud bir sıra hadisələri izah etməyə cəhd edirdilər. Onlara görə həmin hadisə, obraz və anlayışlar «allahlar dünyasına» mənsub idi. «Allahlar dünyası» ifadəsi mövcud olan kimi təsəvvür edilməsinə baxmayaraq bilavasitə insan əqli və hissi ilə əldə edilə bilməyən nə varsa, onu özünə daxil edir, «simvol» vasitəsilə ifadə edilirdi. «Simvol» insanın allahlar dünyasındakı bəzi ünsürləri bəşəri kateqoriyalar, daha dəqiq desək, məntiq və hissi qavrayış kateqoriyaları ilə vermək cəhdidir. Doğrudur, elə də olur ki, onların əksəriyyətini təbiət qanunları ilə uyğunlaşdırmaq o qədər də zəruri olmur. Hələ e.ə. III minillikdə Misirin müdrik adamları bu barədə özlərinə həmin məsələni aydınlaşdıraraq qeyd edirdilər ki, simvolu onun əks etdirdiyi predmetin əsli kimi qəbul etmək olmaz. Bu mənada Misir simvolu ya predmet forması, ya hərəkət, ya da söz forması kimi qəbul edilə bilərdi. Həmin dövrdə hər bir simvol mifoloji anlayış olmadığı halda, hər bir mifoloji anlayış allahlar dünyasının predmetinin simvolik inikası idi. Şübhəsiz, zəka simvolun həqiqiliyini yoxlamaq imkanına malik deyildi. Mifoloji anlayış yalnız o halda həqiqidir ki, o allahlar dünyasının hər hansı bir hadisəsini insana aydın ola bilən kateqoriyalarla ifadə edə bilirdi və insan tərəfindən etiqad kimi qəbul olunurdu.

Misir mifologiyası bütün mifoloji anlayışların cəmidir. «Mif» ifadəsini Misir mifologiyasının müəyyən tərkib hissəsini göstərmək üçün istifadə etmək olar. «Misir dini» bu mənada qədim misirlilərin mifoloji anlayışlardan ümumi istifadəyə sakit razılıq verməsinin təzahürüdür. «Misir teologiyası» bu mənada Misir teoloqları tərəfindən mifologiyanın konstruktiv və şərhçilik aspektlərindən təfsiridir.

Misir kahinləri öz təbliğatlarında miflərdən geniş şəkildə istifadə edirdilər. Çoxlarına məlum olan miflər qədim dini himnlərdə təkrar olunurdu. Amon-Ra allahların, insanların, heyvanların və bitkilərin yaradıcısı kimi tərənnüm edilirdi. Onun əbədi düşməni olan əjdaha-ilan üzərində qələbəsi qeyd edilirdi. Həmin təbliğatda yaradıcı allah kimsəsizlərin və əzabkeşlərin müdafiəçisi kimi göstərilirdi. Digər tərəfdən, müxtəlif dini-fəlsəfi sistemlərin inkişafı ilə əlaqədar olaraq Misir dini mətnlərində daha tez-tez dünyanın yaradıcısı-allahın əsas cizgiləri-əbədiliyi, hər şeyə qadirliyi tərənnüm edilirdi. Allah biliklərin hakimi və bütün kəşflərin səbəbkarı elan olunurdu. Sonralar bunun inkişafı yalnız kahin mühiti ilə məhdudlaşır, dini-fəlsəfi təlimlərin mücərrəd ilahiyyatçı quramaları ilə təsvir olunurdu. Mətnlər allahların surətləri və epitetləri ilə doldurulur, onlar bir sıra predmet, hadisə və anlayışlarla səsləşir. Bu mətnlər isə sonralar müxtəlif ibadət və mürəkkəb mərasimlərin geni yayılmasına güclü zəmin olurdu. Sonrakı dini-fəlsəfi traktatlar, mərasim nəğmələri və dünyanın yaranması haqqında Misir təsəvvürləri Ellin və Roma dövrünə qədər yaşayaraq, Misirin hüdudlarından kənara çıxır.

Misir mifoloji anlayışları sözlərdə (himnlər, dualar, hekayələr, ayin mətnləri), hərəkətlərdə (dramatik

tamaşalar, ayinlər və s. mərasimlər), predmetlərdə və rəsmlərdə, şəkillərdə (təsvirlər, bitkilər və göy cisimləri), yaxud canlı varlıqlarda (padşah və heyvanlar) ifadə oluna bilərdi. Bu ifadələrdən hər biri mənəvi təcrübəni təmsil edir, yaddaşda bir sıra dini əhval-ruhiyyə yaradırdı. Əksər mifoloji anlayışları bu müxtəlif ifadə formalarında hiss olaraq qavramaq olar.

Oziris və Xor haqqında mif padşahların dəfn mərasimlərini təsvir edir. Bu mif olmuş hadisələr haqqında bir hekayə formasında hələ II minilliyin əvvəllərində əzbər şəkildə dildən-dilə, eldən-elə keçmişdi.

Misir mifologiyasının xarakterik cəhətlərindən biri müxtəlif tipli təsəvvürlərin bədii şəkildə birləşdirilməsidir. Səma inəyi haqqında mif kosmik, kosmoqonik hadisə, yaxud dini adət kimi təsvir olunur, ondan sehrbazlıq vasitəsi kimi istifadə edilirdi.

«Allahlar dünyası» adlandırdığımız yeganə mahiyyət eyni teoloqlarda müxtəlif, bir-birinə zidd anlayışlarla ifadə oluna bilərdi. Hər hansı ilahi qüvvə, yaxud allah çox asanlıqla digəri ilə eyniləşdirilə bilərdi. Səma inəyi haqqında hekayədə Ra bir yerdə Atum kimi, digər yerdə isə günəş diski kimi çıxış edir. Oko digər şəraitdə ilanla eyniləşdirilir. Ureyem Xatxor kimi çıxış edir. Xatxor inəyə xas olan yumşaq təbiətdən fərqli olaraq amansız kimi təqdim olunur. Bu isə Misir mifologiyasının əsas prinsipini-eyni zamanda dəyişmək, ənənəni saxlamaq meylini bir daha əks etdirir. Misir dininin dəyişkən forması və azad ruhu mühafizəkarlıqla bərabərləşdirilir. Beləki, nə vaxt isə lazım olan mifoloji konsepsiyalar faktiki olaraq heç vaxt atılmırdı. Bu səbəbdən Misir mifologiyasının mühafizəkar xüsusiyyəti e.ə. XIX əsrdə Misir dinini parçalamaqdan xilas etmiş, Misir dininin daimiliyini və uzunmüddətli mövcudluğunu təmin etmişdir.

Misir və Şumer mifologiyaları arasında məlum oxşarlığı inkar etmək qeyri-mümkündür. Lakin onların fərqi daha çox nəzərə çarpır. Bu iki sivilizasiyanı yaradan mühitlərin oxşarlığı da hər iki mifologiyanın oxşarlığında mühüm rol oynamışdır. Hər iki ölkə çay vadilərində yerləşirdi ki, bu da şübhəsiz, onların əhalisinin həyat tərzinə həlledici təsir göstərmişdir. Lakin Nil çayı ilə Dəclə və Fərat çayları arasında fərq çoxdur. Nil Misiri iki hissəyə - düzənliyə və deltaya bölür. Fransız alimi More demişdir: «Təbiət Aralıq dənizi Misirini və Afrika Misirini belə yaratmışdır. Misirlilərin çox vaxt xüsusi vurğuladığı bu «iki torpaq» arasındakı fərq ölkənin mifoloji və bəşəri tarixinə əhəmiyyətli dərəcədə təsir göstərmək üçün kifayət qədər böyükdür».

Qədim Misir yazısı e.ə. IV minilliyin sonunda meydana gəlmişdi. Bu yazı sisteminin ilkin nümunələri artıq Erkən səltənət dövründə tətbiq olunurdu. İlk Misir yazı növü piktoqrafiya, yəni şəkli yazı adlandırılır. Ən qədim Misir yazısı sadə naxış və müxtəlif anlayışları bildirən şəkillərdən ibarət olmuşdur. Şəkli işarələr vasitəsilə ayrı-ayrı sözlərin, anlayış və məfhumların mənası verilirdi. Ay, günəş, ev, su və s. müvafiq oxşar şəkillərlə ifadə olunurdu.

Misir təsərrüfatı genişləndikcə, dövlət idarə sistemi mürəkkəbləşdikcə yazı gündəlik həyatda tez-tez tətbiq olunmağa başladı. Bu, şəkli yazıların sadələşdirilməsinə gətirib çıxartdı. İşarələr artıq əvvəlki mənası ilə yanaşı səs birləşmələrini, hecaları bildirməyə başladı. Məsələn, "ulduz" işarəsi oba kimi tələffüz olunurdu, o eyni zamanda heca kimi də işlədilirdi. Yaxud "kanal" işarəsi *mer* kimi səslənirdi, *mer* eyni zamanda hecanı bildirirdi. Heca bildirən işarələr vasitəsilə cümlələr tərtib olunurdu. Bunun nəticəsində müxtəlif anlayışları və hadisələri ifadə etmək imkanı yaranırdı. Bu yazı işarələri hələ qədimdə heroqlif, yəni "müqəddəs işarələr" adlandırılmışdı. İlk zamanlar heroqliflərin sayı çox imiş. Ən çox işlədilən işarələrin sayı yeddi yüzə çatırdı. Adətən heroqliflər daş, ağac, dəri üzərində yazılırdı. Belə hallarda heroqliflərin şəkli dəyişilmirdi. Qədim misirlilər eyni zamanda, bitkisinin gövdəsini lazım olan ölçüdə doğrayır, sonra özəyini uzununa çox nazik təbəqəyə ayırıb, xüsusi üsulla bir-birinə yapışdıraraq "kağız" kimi istifadə edirdilər. Böyük mətnləri yazmaq üçün papirus vərəqlərini uzununa bir-birinə calayırdılar və lülə halında bükürdülər. Onların bəzilərinin uzunluğu qırx beş metrə çatırdı. Heroqliflər papirus üzərində də yazılırdı. Belə halda heroqliflərin ilkin şəkli xeyli dəyişilirdi. Bu yazı heroqlifikadan fərqli olaraq heratika adını almışdı. E.ə. VIII əsrdən etibarən yazı sistemində dəyişiklik baş vermişdi. Əvvəllər ayrı yazılan işarələr indi bir işarədə birləşdirilirdi. Bu yazı demotika, yəni xalq yazısı adını daşıyırdı. Bu yazı növü dövlət idarələri, ədəbi və dini mətnlərin tərtibində işlədilirdi. Heratika vasitəsilə təsərrüfat sənədləri, eləcə də ədəbi və elmi əsərlər yazılırdı.

Misir yazı sistemində əlifba işarələri də peyda olmuşdu. Bunlar 21 işarədən ibarət idi, hər birisi müəyyən samiti bildirirdi. Əlifba işarələri heroqliflərin ayrılmaz tərkib hissəsini təşkil edir və müstəqil işlənmirdi.

Misir yazı sistemi dəyişildiyi və təkmilləşdiyi kimi onun dil quruluşu da minilliklər ərzində eyni şəkildə qalmırdı. Qədim, orta və yeni Misir dili bölgüsü təklif olunmuşdur. Erkən orta əsrlərdə (III-IV əsrlər) qədim Misir dili artıq ölü dillər cərgəsinə daxil olmuşdu. Bu zaman gipti dili işlənirdi. VII əsrdən etibarən ərəb dili yayılmağa başladı. Hal-hazırda Misirdə dörd milyon yerli gipti yaşayır. Onlar xristian olmaqla ərəb dilində danışır, lakin dini ibadətlərini gipti dilində aparır, qədim ənənələri qoruyub saxlayırlar.

Qədim misirlilərin şifahi xalq yaradıcılığı bədii ədəbiyyat əsərlərinin əsasını təşkil edir. Ən qədim əsərlər e.ə. IV minillikdə yaradılmışdır. Üç min il ərzində qədim misirlilər zəngin bədii ədəbiyyat, onun müxtəlif janrlarını yaratmışdılar. Şifahi xalq yaradıcılığının təsiri altında nağıllar da meydana gəlmişdi.

Adətən nağıllar əkinçi əhalinin məişətini, həyatını və dünyagörüşünü əks etdirirdi. Bunlardan "İki qardaş haqqında nağıl", "Cadulanmış şahzadə", "Düz və əyri haqqında nağıl", "Gəmi qəzasına uğramış barədə nağıl", "Firon Xufu və cadugərlər" və s. göstərmək olar. Qədim misirlilər nağıl vasitəsilə xeyirxahlığı, müdrikliyi tərənnüm edirdilər, sadə adamın fərasətini, ədalətini və cəsarətini açıqlayırdılar. Nağıllarda allah və fironların qüdrətinin sarsılmaz olması ideyası əks olunmuşdur, əyanların zalımlığı və qəddarlığı təsvir edilmişdir.

Birinci nağılda əhvalat iki qardaş - Bata və Anubis ətrafında baş verir. Hər iki qardaş birgə işləyir, böyük qardaş Anubis, kiçik qardaşı Bataya atalıq edir. Bir gün çöldə səpin üçün taxıl azlıq edir, Anubis Batanı evə taxıl gətirməyə göndərir. Bata evə gələndə Anubisin arvadı onu yoldan çıxarmağa cəhd edir, lakin Bata nifrətlə onu rədd edir, taxılı götürüb çölə qayıdır. Axşam Anubisin arvadı ərinin qulağını doldurub Bataya şər atır. Anubis qardaşını öldürmək niyyətinə düşür. O, pəyədə gizlənir və Batanı gözləyir. Bata mal-qaranı evə gətirərkən inəklərdən biri Bataya qardaşının niyyətini açır. Bata qaçır, Anubis onu təqib edir. Allahlar Bataya kömək edir, qardaşlar arasında keçilməz çay yaranır. Ertəsi gün Bata qardaşına günahsız olduğunu sübut edir və uzaq ölkəyə yaşamağa gedəcəyini bildirir. Əgər Batanın başına iş gələrsə, qardaşı bunu qabdan içdiyi suyun köpüklənməsindən biləcəkdi. Böyük qardaş qayıdır və arvadını öldürür.

Bata uzaq ölkədə (Sidr ağacı dərəsində) evlənir. Ovçuluqla məşğul olur. Arvadına tövsiyə edir ki, dəniz kənarına getməsin, çünki dəniz onu uda bilər. Arvad ərinin nəsihətini yaddan çıxararaq dəniz sahilinə gedir. Dəniz coşur və onu təqib edir. O, çətinliklə xilas olur, lakin onun saçından bir tük dənizə düşür və su onu Misir sahilinə gətirir. Dəniz zülfünün xoş ətir iyini firon Narmerə çatdırır. Ətir iyi fironun dəniz kənarında yuyulan pal-paltarına keçir. Firon aqilləri toplayır və xoş iyin səbəbini soruşur. Firona izah edirlər ki, xoş iy sidr dərəsində yaşayan ilahə qadının zülfündən gəlir. Firon uzaq ölkəyə qoşun göndərir, ilahə arvadı tapdırır. Arvad Batanın həyat sirrini onlara acır və içərisində Batanın canı olan sidr ağacını kəsdirir. Bata vəfat edir.

Anubis Sidr dərəsinə gəlir, sidr ağacının gülləri içərisində Batanın ürəyini tapır və onu həyata qaytarır. Hər ikisi Misirə qayıdır. Bata arvadını tapıb cəzalandırır, çünki o, Batanın canını saxlayan sidr ağacını kəsməyi məsləhət görmüşdü. Firon öləndən sonra Bata hökmdar olur. Nağıl xeyrin şər üzərində qələbəsi ilə qurtarır. Burada ölən və dirilən allah mövzusu da öz əksini tapmışdır.

"Düz və əyri barədə" nağılın da qəhrəmanları iki qardaşdır. Kiçik qardaş böyük qardaşın paxıllığını çəkir. Qardaşlar arasında mübahisə başlayır. Kiçik qardaş şərt kəsir ki, əgər mübahisəni udsa, böyük qardaşın gözlərini çıxaracaqdır. Kiçik qardaş mübahisəni udur, qardaşının gözlərini çıxarır və əmlakına sahib olur. Bir müddət sonra qardaşının iki quluna əmr edir ki, koru aparıb öldürsünlər. Onu səhraya aparırlar. Yazıqları gəlir, orada qoyub qayıdırlar. Bir neçə ovçu nnu səhrada görür, evdə həmin korun gözəlliyi barədə bacılarına danışırlar. Bacı koru görmək istəyir, onu gətirirlər. Qız ona vurulur. Onu dalandar vəzifəsinə təyin edir. Sonra gizlicə ona arvad olur. Onların oğlu olur, böyüyür. Yoldaşlarından müdrikliyi və biliyi ilə fərqlənir. Yaşıdları onun paxıllığını çəkirlər. Sataşmaq məqsədilə onun atasının kim olduğunu soruşurlar. Uşaq bunu anasından bilmək istəyir. Oğul atasının başına gələn hadisəni öyrənir və uzun əhvalatlardan sonra əmisini cəzalandıraraq atasının əmlakını qaytarır.

Bu nağıl mövzuları şərq xalqları ədəbiyyatında indi də yaşayır. Qədim Misir nağılları "Min bir gecə" nağıl silsiləsinin yaranmasına təsir göstərmişdi.

Qədim misirlilər təbiətdə və insan həyatında baş verən hadisələri dini ideologiya əsasında izah edirdilər. Bunların içərisində "Osiris haqqında" əfsanə geniş yayılmışdı. Osiris ölən və dirilən təbiət allahı hesab olunurdu. Qardaşı Set onu qəddarcasına öldürür. Osirisin arvadı İsida və bacısı Neftida allahlardan kömək diləyirlər, Osirisi tapıb dirildirlər. İsidanın oğlu olur. Adını Qor qoyurlar. Qor Setdən atasının intiqamını alır, allahlar hakimiyyəti ona verirlər.

Misirdə də dünyanın əmələ gəlməsi haqda əfsanə vardı. Günəş allahı Ra dünyanı xəlq edən hesab edilirdi. O, səmanı, yeri, bitkiləri, heyvanları, quş və balıqları sudan yaratmışdı. Bu təsəvvürlərin bəziləri qədim yəhudilərin dini dünyagörüşünə də təsir göstərmişdi.

Misirin qonşu ölkələr ilə iqtisadi və mədəni əlaqələri bədii ədəbiyyatın yeni janrında - səyahətlərin təsvirində öz əksini tapmışdı. Bu səpkidən “Gəmi qəzasına uğramış barədə nağıl” rəvayətini misal göstərmək olar. Firon öz məmurunu Punta göndərir. Gəmi qəzaya uğrayır və dənizçi sirli adaya düşür. Adanın hökmdarı xeyirxah ilan surətində ona qonaqpərvərlik göstərir, var-dövlətindən ona hədiyyələr verir, Misirə yola salır.

“Misirli Sinuxet haqqında” hekayətdə qorxusundan Suriyaya qaçmış adlı-sanlı saray əyanından bəhs edilir. Əsərdə Sinuxetin yolda çəkdiyi əzab-əziyyətdən, Suriyada varlanmasından, vətən həsrətindən əzab çəkməsindən danışılır. Uzun müddət Suriyada yüksək vəzifə tutmasına və yaşamasına baxmayaraq, Sinuxet vətən həsrəti ilə yanırdı, doğma yurduna qayıtmağa fürsət axtarırdı. Sonralar yeni fironun dəvəti ilə o, Misirə qayıdır.

Nəsihət xüsusiyyətli əsərlər əsasən Orta və Yeni səltənət dövründə yaranır. Nəsihətlər mövcud olan dövlət və ictimai quruluşu müdafiə edirdi. Burada sosial ziddiyyətlər, aşağı təbəqələrə münasibət, dövlət idarəetmə qaydaları, mirzəlik sənətinin üstünlüyü, xalq üsyanlarının acı nəticələri və s. əks olunmuşdur.

Nəsihət səpkili əsərlərdən "Ptaxotepin nəsihəti", "Herakliopol hökmdarı Axtoyun oğlu Merikara nəsihəti", "I Amenexetin nəsihəti", "Duauf oğlu Axtoyun nəsihəti", "İpuserin nəsihəti", "Nefertitinin nəsihəti"ni göstərmək olar.

Axtoyun oğlu Merikara nəsihəti aşağı təbəqələrə, yoxsullara və onların sırasından çıxan fərasətli və müdrik adamlara münasibət qaydasından bəhs edir. Hökmdar belə adamlardan uzaq olmağı, fərasətliləri əzməyi oğluna tövsiyə edir. Burada dövlətin idarə olunması qaydaları da əks olunmuşdur. Duauf oğlu Axtoyun nəsihətində bir çox peşələrin ağır zəhmət tələb etməsi sadalanır və mirzəlik peşəsinin daha üstün və şərəfli olması qeyd olunur. "Ptaxotepin nəsihəti" əsərində əxlaq qaydalarından, yaxşı davranışdan bəhs edilir, "xırda adamı" öz taleyi ilə razılaşmağa çağırır. Onu inandırmağa çalışır ki, allah ancaq adlı-sanlı adamı yüksəldir. Bu nəsihətə görə, xırda adamlar itaətkar olmalı, öz ictimai mənşəyini heç zaman yaddan çıxarmamalı, vəzifəli adamlara itaət etməlidirlər. Nəsihət mövcud olan quruluşun möhkəmləndirilməsini tövsiyə edir.

"İpuserin kəlamı" və "Nefertitinin nəsihətləri" yoxsulların və qulların Orta səltənətin sonunda baş vermiş üsyanını bədii şəkildə şərh edir.

"Natiq kəndli" hekayəti kəndlinin əmlakının (iki eşşəyinin) əlindən alınmasından, onun şikayətindən, saraya gəlməsindən, hökmdarı öz natiqliyi ilə valeh etməsindən danışır.

"Miskin adamın öz ruhu ilə söhbəti" hekayəti dialoq şəklində verilmiş və burada mövcud olan həyat qaydalarına etiraz əks olunmuşdur. Əsərdə miskin adamın bədbinliyi, əzab-əziyyətli həyatı, ölüm arzusu ilə yaşaması təsvir olunur. Əsərdə axirət dünyasının və əbədi həyatın olmasına şübhə ilə yanaşılır, dini dünyagörüşləri şübhə altına alınır.

Sinfi cəmiyyətdə incəsənət firon hakimiyyətinin möhkəmləndirilməsinə xidmət edirdi.

Qədim Misir memarlığı dini ibadətin güclü təsiri altında olmuşdu. Məhz buna görə allahların və ilahi mənşəli hesab edilən fironun şərəfinə əzəmətli məbədlər, saraylar, ehram və heykəllər yaradılırdı. Artıq qədim səltənət dövründə Misir memarlığını fərqləndirən əzəmətlilik əlaməti meydana gəlmişdi. Firon ehramları buna misal ola bilər.

Ehramın ən qədim nümunəsi Sakkarada təmsil olunmuşdur. Firon Coserin şərəfinə burada pilləli ehram tikilmişdi. IV sülalə fironları Xufu, Menkaura, Xafra əzəmətli ehramlar tikdirmişdilər. Ehramın yanında, sonralar isə (XVIII sülalə dövründən etibarən) kənarda axirət məbədləri (axirət dünyası ilə bağlı dini mərasimləri icra etmək üçün) tikilirdi. Məbədlərin divarında ilahiləşdirilmiş fironun həyatı və şücaətləri təsvir olunurdu. Bundan başqa, misirlilərin gündəlik həyatını əks etdirən səhnələr də vardı: burada dalaşan qayıqçılar, işləyən sənətkarlar, dəfn mərasimində iştirak edən əkinçilər, balıqçılar, çobanlar, ağı tutanlar təsvir olunmuşdu.

Yeni Səltənət dövründə incəsənət və memarlıq yüksək inkişaf səviyyəsinə qalxır. Bu dövrdə qayanı kəsib yeraltı dəfn sərdabələri inşa edirdilər. I Setinin yeraltı dəfn sərdabəsinin yüzlərlə otaqları vardı. Burada minlərlə heykəllər qoyulmuşdu. Xəzinəsində saysız-hesabsız varidat saxlanılırdı. Ən möhtəşəm memarlıq dəsti Fivadakı (Karnak və Lüksorda) Amon məbədi hesab olunur. Məbəd dəstinin yüzdən çox otağı, geniş həyət sahələri, keçidləri, nəhəng heykəlləri, sfinksləri, sütun abidələri varmış. Onun təkcə böyük salonu 16 cərgədə ucalan 134 sütundan ibarət imiş. Böyük salonun 12 mərkəz sütunu 21 m hündürlüyündə imiş. Salonun sahəsi 5 min $m^2$-dən artıq imiş.

Əzəmətli tikintilərdən Deyr əl-Bəhridə Xatşepsutun xeyrat məbədini və Mədinət-Abuda III Ramzesin böyük məbədini göstərmək olar. III Ramzesin məbədi dördbucaq şəklində tikilmişdi. Buraya kanal çəkilmişdi.

Qaya məbədləri əzəmətli və dəbdəbəli idi. Abu-Simbeldə II Ramzesin məbədi qaya içərisində inşa edilmişdi. Qayanın içərisində çoxlu otaq, sütun və heykəllər tapılmışdı. Firon sarayları burada böyük bir zövqlə tikilir, otaqlara nəfis və zərif bəzəklər vurulurdu.

Heykəltəraşlıq memarlığın mühüm sahəsini təşkil edirdi. Hər bir məbəd və saray ehram və sərdabə heykəllərlə dolu olurdu. Bunlar həm nəhəng, həm də nisbətən xırda şəkildə yonulurdu. Heykəltəraşlar Misir allahlarını və fironlarının surətini yaradırdılar. Əyan və sadə adamlara həsr olunmuş heykəllər də düzəldilirdi. Divar təsviri geniş təmsil olunmuşdu. Təsviri sənət vasitəsilə müxtəlif səhnələr əks etdirilir, zəngin bədii surətlər yaradılırdı. Təsviri sənət müharibə səhnələri, firon ailəsi, əkinçilik və balıqçılıqla məşğul olma səhnələri, qurbankəsmə və dəfn mərasimləri, hədiyyələr gətirilməsi və ov səhnələri kimi geniş mövzuları əhatə edirdi.

Dini təsəvvürlər qədim Misir cəmiyyətinin bütün sahələrində özünü təzahür etdirirdi, mədəniyyətin hər bir sahəsində müəyyən iz buraxırdı. Din qədim misirlilərin ideologiyasını təşkil edirdi. Dini təsəvvürlərin sadə formaları, yəni heyvanlara, əşyalara və əcdadlara ibadət Misir tarixinin bütün dövrlərində mövcud olmuşdur. Fetişizm (əşyalara ibadət) və totemizm (totem heyvanlara ibadət) sadə dini təsəvvürlər idi. Qədim misirlilər təbiət qüvvələrini ilahiləşdirmişdilər. Onlar günəşə, aya, suya, Nil çayına, vəhşi və ev heyvanlarına və s. sitayiş edirdilər. Misir dini sistemi tədricən yaranırdı və Yeni səltənət dövründə bitkin şəklə düşmüşdü. Misirdə xeyli sayda allahlara ibadət olunurdu. II Ramzesin Het hökmdarı ilə müqaviləsində min Misir allahı

və ilahəsi şahid kimi yad edilir. Bu allah və ilahələrin hamısının adları məlum deyildir. Misirin hər guşəsində dini ibadət mövcud idi. Allahlar haqda təsəvvürlər müxtəlif təbiət qüvvələrinin və ictimai hadisələrin təcəssümü kimi meydana gəlmişdi. Dini təsəvvürlər nəticəsində yerli, vilayət (nom) və ümum Misir ibadətləri möhkəmlənirdi. Adətən mərkəz şəhərlərin allahları bu və ya digər siyasi şəraitdən asılı olaraq ümum Misir allahına çevrilirdi.

Misir panteonunda Amon allah ali mövqe tutmuşdu. O, allahların hökmdarı və fironun havadarı hesab olunurdu. Onun məskəni Fiva şəhəri sayılırdı. Misir panteonunun nüfuzlu allahlarından biri Ra idi. O, Günəş allahı kimi məlum idi. Onu gündüz üfüqündə səma gəmisində təsəvvür edirdilər. Günəş allahına sitayiş Heliopol şəhərində yayılmışdı. Yeni Səltənətin əvvəlində Ra-Günəş allahı Amon allahı ilə birləşdirildi və Amon-Ra ibadəti yarandı. Amon-Ra dünyanın yaradıcısı kimi qələmə verilirdi. Exnatonun dövründə Aton ("Günəş üfüqü") allahına sitayiş bərqərar oldu. Memfis şəhərində allah Ptax məskən salmışdı. Guya Ptax allahları və dünyanı yaratmışdı. Misir panteonunda Osiris, onun bacısı və arvadı İsida, oğlu Qor şərəfli yer tuturdular. Osiris firon hakimiyyətinin havadarı olmaqla yanaşı, axirət dünyasının allahı kimi təsəvvür edilirdi. O, ölən və dirilən təbiəti təcəssüm edirdi. Təbiətdə qış və yaz fəsillərinin gəlməsi onun adı ilə bağlanırdı. O, ər-arvad məhəbbətinin və analığın himayəçisi idi.

Qor səma və işıq allahı idi. İlk Misir fironları Qoru firon hakimiyyətinin havadarı kimi təsəvvür edirdilər. Qədim misirlilər Nil çayına sitayiş edirdilər, onu Hapi adlandırırdılar. Tot müdriklik və hesab allahı, Xatxor səma, məhəbbət və şadlıq ilahəsi hesab edilirdi. Maat (ədalət ilahəsi), Soxmet (qüdrət ilahəsi) və başqaları Misir panteonuna daxil idilər.

Misirlilər allahları müxtəlif heyvan görkəmində təsvir edirdilər. Bu, ən qədim təsəvvürlərin əksi idi. Öküzə sitayiş geniş yayılmışdı. Allah Apis öküzü təmsil edirdi. Öküz Ptax, Osiris, Ra və s. allahları əks edə bilirdi. Amona qoyun, Soxmetə şir, Tota əntər, Sebekə timsah görkəmi verilirdi. Dini təsəvvürlərin təkmilləşməsi allahların totem ibadətini dəyişdirdi. Allahlar artıq heyvan, yaxud quş başlı adam görkəmində təsvir olunurdular. Ra, Qor şahin başlı adam, Anum, Xnum qoyun başlı adam, ilahə Xatxor inək başlı adam görkəminə salınmışdı.

Qədim Misirdə ilk allahlar haqda da təsəvvürlər müəyyən sistem şəklinə salınmışdı. Əvvəl guya qarmaqarışıq su aləmi olmuş və onu Nun təmsil etmişdi. Sonra Atum su aləmindən təpə şəklində bünövrə yaratmışdı. Sonralar Atumu Ra təmsil edirdi. Atum-Ra qoşa allah (hava) və arvadı Tefnutu (nəmişlik) törətmişdi. Yer allahı Heb və səma ilahəsi Nut onların törəməsi olmaqla Osiris, İsida, Set və Neftidunu yaratmışdılar. Beləliklə, allahların ailəsi təsəvvürü yaradılmışdı. Nəticədə allah-ata, allah-ana və allah-oğul dini anlayışı meydana gəlmişdi. Bu dini ehkam sonrakı dinlərə, xüsusilə xristianlığa təsir göstərmişdi.

Misirin ən qədim dövründə əcdadlara və onunla bağlı olan mərhumlara ibadət mövcud idi. Misirlilərə görə ölüm insanın varlığını məhv etmir, onu sadəcə olaraq başqa aləmə, həyatın guya davam etdiyi axirət dünyasına aparır. Odur ki, misirlilər ölünü başqa aləmdə əbədi həyatla təmin etməyə cəhd edirdilər. Mərhumu dəriyə, həsirə, yaxud parçaya büküb basdırırdılar, yanına yemək, silah, heyvan və insan heykəlcikləri (uşebtu) qoyurdular. Qədim səltənət dövründə varlı məmurları və adlı-sanlı kahinləri kürsü (mastab) şəkilli sərdabələrdə dəfn edirdilər. Meyiti süni surətdə saxlamaq üçün onun içalatı çıxarılırdı və xüsusi qablara qoyulurdu. Meyitin bədəninə duzlu maddələr və qatranlı məhlullar sürtməklə mumiyalayırdılar. Meyiti (mumiyanı) bir çox kətan parçalara büküb dəfn edirdilər.

Orta səltənət dövründə yeni varlı təbəqələr yaranmışdı. Bununla bağlı mərhuma ibadət nisbətən dəyişilir. Əgər əvvəllər dini-cadu xüsusiyyəti daşıyan yazılar ancaq hökmdarlar və əyanların sərdabəsinə həkk olunurdusa, indi belə yazılar orta təbəqəyə mənsub adamların daş tabutu (sərdabə) üzərində də həkk olunurdu. Belə cadu xüsusiyyətli yazılar əsasında "Ölülər kitabı", "Dirilmə kitabı" tərtib olunmuşdu. Kitabda sehr, himn, dua və allah şərəfinə mədhlər vardı. Kitabın çox hissəsi cadu xüsusiyyətli sehrlərdən ibarətdir. Belə sehrlər guya mərhumu axirət dünyasının dəhşətindən qorumalı və onu o dünyanın səadəti ilə təmin etməli idi. Mərhum axirət dünyasının məhkəməsində Osirisin qarşısında hesabat verirdi. Mərhum üzərində məhkəmə qurulurdu, onun ürəyi çəkilirdi və 42 əsas günah şərh edilirdi. Mərhum günahsız olduğunu sübut etməli idi. Fironlar da axirət dünyası məhkəməsi qarşısında cavab verirdilər. Günah sahibi əjdahaya yem olurdu. Günahsız isə o dünyada əbədi həyat qazanırdı. Artıq o dövrdə günahsız və mömin həyat sürmüş insanların axirət dünyasında əbədi səadətə qovuşması barədə təsəvvür formalaşır.

Qədim Misirdə fironun şəxsiyyəti ilahiləşdirilmişdi. Əvvəllər onu allah oğlu, sonra allah adlandırırdılar. Ona yer üzünün allahı kimi sitayiş və itaət edirdilər. Hər bir ictimai etiraz, hökmdara qarşı qiyam dini baxımdan cinayət hesab olunurdu.

İncəsənətdə hökmdarın allah oğlu olması müddəası təbliğ edilirdi. Məbədlərdə firona ibadət xüsusi otaqlarda keçirilirdi. Belə otaq "böyük ev" (pir-a) adlanırdı. Bu sözdən də "firon" rütbəsi yaranmışdı. XVIII sülalə dövründə "firon" anlayışı artıq hökmdar mənasında işlədilirdi. Otağın divarlarında fironun həyatını əks edən təsvirlər həkk olunurdu. Bu təsvirlər fironun ilahi mənşəli olmasına dəlalət edirdi. Buna baxmayaraq firon hakimiyyəti dini ehkamların güclü təsiri altında olmuşdur.

Dinin geniş təsirinə baxmayaraq, insanlarda "bilik" və onun əhəmiyyəti haqda təsəvvür yaranırdı. Əsas

bilik mənbəyi məktəblər idi. Biliklər tətbiqi xüsusiyyət daşıyırdı. Riyaziyyat sahəsində biliklər praktiki tələbatdan doğurdu, yer ölçənlərin və inşaatçıların işini yüngülləşdirməli idi. Sərdabələrdə xüsusi iplə torpaq ölçən adamların şəkli çəkilirdi. Hesab və həndəsə sahəsində sadə biliklərə malik idilər. Dəqiq riyazi hesablama nəticəsində ehram tikmək mümkün idi. Riyazi sahədə ən böyük nailiyyət onluq hesablama sisteminin yaradılması idi. Yazıda 1, 10, 100, 1000, 10000, 100000 bildirən işarələr tətbiq olunurdu. Hətta milyonu bildirən işarə vardı: bu təəccübdən əllərini qaldırmış adam şəklində təsvir olunurdu.

Həndəsə sahəsində müəyyən inkişaf vardı. Misirlilər düzbucağın, yarım bucağın, xüsusilə bərabəryanlı üçbucağın, trapesiyanın və dairənin səthini müəyyənləşdirə bilirdilər. Cəbr sahəsində bir naməlum tənliyi çıxara bilirdilər. Astronomiya sahəsində müəyyən nailiyyətlər əldə edilmişdi. Planeti ulduzdan fərqləndirirdilər, ulduzların xəritəsini cıza bilirdilər. Misirlilər xüsusi təqvim yaratmışdılar. İli hər bir ayı 30 gündən ibarət 12 aya bölmüşdülər. İlin sonunda 5 gün əlavə olunurdu. İl onda 365 gündən ibarət olurdu. Misir təqvim ili tropik ildən dörddə bir sutka geriyə qalırdı. Bu fərq 120 il ərzində bir aya bərabər olurdu. Onlar gecə-gündüzü 24 saata bölürdülər. Su və günəş saatları icad etmişdilər.

Təbabət inkişaf tapmışdı. Diş, göz və başqa xəstəliklər müalicə olunurdu. Misir həkimləri insanın anatomiyasına bələd idilər. Meyitin yarılması insan orqanizminin quruluşunu öyrənməyə imkan yaradırdı. Həkim bacardığını edirdi. Həkim xəstəyə baxıb xəstəlik əlamətlərini və müalicə vasitələrini müəyyənləşdirməyi bacarmalı idi. Təbabət etikası mövcud idi. Həkim öz müalicə imkanlarını xəstəyə əvvəldən bildirməli idi və bunu belə deməli idi: "Bu xəstəliyi mən müalicə edə bilərəm, yaxud bu xəstəliyi mən bəlkə müalicə edə bildim, ya da xəstəliyi mən müalicə edə bilmərəm". Cərrahlıq geniş inkişaf tapmışdı.

Misir Qədim Şərqin inkişaf etmiş mədəniyyət (sivilizasiya) mərkəzlərindən birinə çevrilmişdi. Bu sivilizasiyaya mənsub olan dövlət sistemi, iqtisadiyyat, mədəniyyətin müxtəlif sahələri üç min il ərzində öz varlığını saxlaya bilmiş, digər ölkələrə təsir göstərmişdi. Misir Qədim Şərqdə ən uzun ömürlü dövlətlərdən biri olmuşdu.

Qədim Misirdə həm bədii ədəbiyyat - nağıllar, hökmdarların öz övladlarına nəsihətləri, fəlsəfi dialoqlar, o cümlədən məşhur «ümidi boşa çıxmışın öz ruhu ilə söhbəti» və s. geniş yayılmışdı. Heykəllər, divar rəsmləri, daş üzərində təsvirlər Qədim Misir üçün səciyyəvi idi. E.ə.VI əsrdə Misir farslar tərəfindən işğal edilmişdir. Onların hökmranlığı e.ə. 405-ci ilə qədər davam etmişdir. E.ə. 332-ci ildə Misir İsgəndər tərəfindən işğal olundu. Onun şərəfinə tikilən İsgəndəriyyə ellin mədəniyyətinin Misirdə, Misir mədəniyyətinin Yunanıstanda yayılmasına səbəb oldu. Burada hündürlüyü 100 metrdən artıq olan, dünyanın yeddi möcüzəsindən biri sayılan İsgəndəriyyə mayakı tikilmişdir.



MEMAR İMXOTEPİN TUNC HEYKƏLİ.
E.Ə. III MİNİLLİYİN ƏVVƏLLƏRİ.



SAKKARA. FİRON MİRZƏSİ QAİ.
E.Ə. III MİNİLLİYİN ORTALARI



YERAKONPOL. QOR TANRININ HEYKƏLİ.
E.Ə. III MİNİLLİK.



QURBAN VERMƏ MƏRASİMİ.
MEXU İBADƏTGAHINDA TƏSVİR.
E.Ə. III MİNİLLİK.



FİVA MƏQBƏRƏSİNDƏ TUTANXAMONUN TAXTI. E.Ə. XIV ƏSR.



TUTANXAMON CƏNG ARABASINDA. MÜCRÜ ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. XIV ƏSR.



TUTANXAMON XANIMI İLƏ. FİVA MƏQBƏRƏSİNDƏ FİRON TAXTININ SÖYKƏNƏCİYİNDƏ TƏSVİR. E.Ə. XIV ƏSR.



TUTANXAMON XANIMI İLƏ BAĞDA. MÜCRÜ QAPAĞI ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. XIV ƏSR.



**KİŞİ HEYKƏLİ. FRAQMENT. E.Ə. 2563-2423.**



**III AMENEMXETİN HEYKƏLİ. E.Ə. 1850-1800.**



**TUTANXAMONUN BÜSTÜ ŞANAGÜLLƏ ÜZƏRİNDƏ. E.Ə. 1358-1350.**



**QADIN BÜSTÜ. E.Ə. TƏQRİBƏN 2000-1785.**



DEYR-ƏL BƏHRİ MƏBƏDİNDƏ HÖKMDAR QADIN XATŞEPSUTUN HEYKƏLİ. E.Ə. XV ƏSR.



NAXTIN MƏQBƏRƏSİNİN İNTERYERİ. E.Ə. XV ƏSR.



MUSİQİÇİ QIZLAR. NAXTIN MƏQBƏRƏSİDƏ TƏSVİR. E.Ə. XV ƏSR.



NAXTIN MƏQBƏRƏSİDƏ TƏSVİR. E.Ə. XV ƏSR.



**QƏDİM MİSİR MUSİQİÇİ VƏ RƏQQASLARI.**



**UŞEBTİ QUTUSU. E.Ə. II MİNİLLİYİN ORTASI.**



**UŞEBTİ HEYKƏLCİKLƏRİ. E.Ə. 1580-1085.**



DƏFN MƏRASİMLƏRİ ÜÇÜN MASKALAR. E.Ə. II MİNİLLİYİN ORTALARI.



FİVA. QƏDİM MİSİR MEMARLIĞI VƏ HEYKƏLTƏRAŞLIĞI.



FİRON II RAMZESİN HEYKƏLİ.



TUTANXAMONUN MƏQBƏRƏSİNDƏ KİÇİK KANOPA. E.Ə. XIV ƏSR.



NİL SAHİLLƏRİNDƏ OV SƏHNƏSİ. FİVA MAQBƏRƏSİNDƏ TƏSVİR. E.Ə. XIV ƏSR.



TUTANXAMONUN KANOPALARININ KEŞİYİNDƏ DURAN İLAHƏ SELKİT. E.Ə. XV ƏSR.



KARNAK. MƏBƏDİN İNTERYERİ. E.Ə. XV ƏSR.



MENTUYEMXETİN HEYKƏLİ.
E.Ə. VI-V ƏSRLƏR.



II NEKTANEBİN HEYKƏLİ.
E.Ə. 280-243-CÜ İLLƏR.



SENUSERTİN BÜSTÜ.
E.Ə. 1887-1850-Cİ İLLƏR.



MEMAR SENMUT VƏ XATŞEPSUTUN QIZI.
KUBŞƏKİLLİ HEYKƏL. E.Ə. XV ƏSR.



II RAMZESİN SARAYINDA
ŞAHZADƏ QIZ. E.Ə. 1298-1232.



KƏNDXUDA.
E.Ə. XXV ƏSR.



HEYKƏL. E.Ə. 2563-2423.



SAKKARA. PİVƏ HAZIRLAYAN
QADIN. E.Ə. XXVI-XXV ƏSRLƏR.



DEYR-ƏL-BƏHRİ.
I MENTUXOTEPİN
HEYKƏLİ. E.Ə. XXI ƏSR.



SİUT. QURBANLIQ
APARAN QADIN.
E.Ə. XXI ƏSR.



LUKSOR. AMON MƏBƏDİNİN SÜTUNLARI.
E.Ə. XV ƏSR.



KARNAK. AMON MƏBƏDİNİN SÜTUNLARI.
E.Ə. XIV-XIII ƏSRLƏR.



LUKSOR. AMON MƏBƏDİNİN SÜTUNLARI.
E.Ə. XV ƏSR.



XƏZİNƏDAR XOTEPİN KUBŞƏKİLLİ
HEYKƏLİ. E.Ə. 2000-1785-Cİ İLLƏR.



MEMAR XESİR.
MƏQBƏRƏDƏ RELYEF.
E.Ə. III MİNİLLİK.



YELKƏNLİ GƏMİ. GİZADA KAYENMƏXIN MƏQBƏRƏSİNDƏ TƏSVİR. E.Ə. III MİNİLLİK.



QAZLAR. MEDUM MƏQBƏRƏSİNDƏ TƏSVİR. E.Ə. III MİNİLLİK.



SAKKARADA Tİ MƏQBƏRƏSİNDƏ RELYEF. E.Ə. III MİNİLLİK.



SAKKARA. HİPPOPOTAM OVU.
MƏQBƏRƏDƏ RELYEF. E.Ə. III MİNİLLİK.



KAYEMXESET. RELYEF.
E.Ə. 2563-2423-CÜ İLLƏR.



POLİXROM RELYEF. E.Ə. XIV ƏSR.



XATOR İLAHƏNİN TƏSVİRİ.
RELYEF. E.Ə. XII ƏSR.



FİRON NARMERİN TƏSVİRİ.
E.Ə. III MİNİLLİK.



FİVADA NEFERTARİNİN MƏQBƏRƏSİNDƏ
TƏSVİR. E.Ə. XIII ƏSR.



AKROBAT QIZ. KİRƏMİT ÜZƏRİNDƏ
TƏSVİR. E.Ə. XII ƏSR.



SÜRTMƏ QAŞIĞI. E.Ə. XIV ƏSRİN ƏVVƏLİ.



II AMENXOTEPİN PORTRETİ. RELYEF.
E.Ə. XIV ƏSRİN ƏVVƏLİ.



**III AMENEMXETİN SFİNKSİ. E.Ə. XIX. ƏSR.**



**II AMENXOTEPİN HEYKƏLİ. E.Ə. XIV ƏSR.**



**TUTMES. EXNATONUN QIZI ŞAHZADƏ MERİTATONUN BAŞI. E.Ə. 1370-1352.**



**FİVA. "AMON NƏĞMƏKARI" TAİKANIN MƏQBƏRƏSİNDƏ QADIN MUMİYASININ ÜZLÜYÜ. E.Ə. X-IX ƏSRLƏR.**



IV AMENXOTEP (EXNATON)
E.Ə. XIV ƏSR.



EXNATONUN QIZLARI. AMARNADA TƏSVİR.
E.Ə. XIV ƏSR.



EXNATON AİLƏSİ İLƏ. RELYEF. E.Ə. XIV ƏSR



**MİSİRDƏ NATURAL MAL MÜBADİLƏSİ.**



**EXNATON VƏ NEFERTİTİ ATON-RA TANRIYA İBADƏT EDİRLƏR.**



ŞAHZADƏ RAXOTEP VƏ ONUN XANIMI NOFRETİN HEYKƏLLƏRİ. E.Ə. III MİNİLLİK.



RANOFERİN HEYKƏLİ. E.Ə. 2423-CÜ İL.



FİRON QORUN HEYKƏLİ. E.Ə. XVIII ƏSR.



TUTMES. EXNATONUN ARVADI NEFERTİTİ. E.Ə. XIV ƏSR.

## HET MƏDƏNİYYƏTİ

Het dövlətinin yaranması

Het dövləti Anadolunun (Kiçik Asiyanın) şimal-şərq hissəsində Halis (hazırda Qızıl İrmaq) çayının hövzəsində meydana gəlmişdi. Kiçik Asiya hələ qədim zamanlardan diqqəti cəlb edirdi. E.ə. III minilliyin ikinci yarısında Akkad hökmdarları Sarqon və Naram-Suen bu əraziyə hərbi yürüşlər təşkil etmişdilər. Həmin dövrdə burada, gələcək Het dövlətinin ərazisində akkad və assur tacirləri məskən salmış və metal ticarətinin əsasını qoymuşdular. Assurlular buraya mixi yazı və akkad dilini gətirmişdilər.

Tədricən Kaniş müstəqil ticarət məskəninə çevrilmiş və Assurun təsiri altından çıxmışdı. Anadolu ticarət mərkəzləri gümüş, mis, tunc, dəmir alış-verişi ilə məşğul olurdular. Assur şəhərindən qalay alırdılar. Ticarətə yerli əhali də cəlb olunmuşdu. Təsərrüfatın inkişafı ilə bağlı Anadolunun şərq hissəsində artıq e.ə. II minillikdə bir sıra siyasi birləşmələr meydana gəlmişdi. Bunlar şəhər-dövləti şəklində mövcud olmuşlar. Burusxan, Nesa (Kaniş), Kussar və Hattuşa şəhər-dövlətləri Assur tacirlərinin gətirdiyi mixi yazı və akkad dilindən istifadə edirdilər.

Əməklə bağlı olan bütün işlər icbari əmək adamlarının üzərinə düşürdü. Onlar əmək mükəlləfiyyəti daşımalı idilər. Het cəmiyyətində belə adamlar əsas istehsalçılar kimi cəmiyyətin aşağı ictimai təbəqəsinə mənsub idilər. Belə adamların tərkibi qullardan, təsərrüfatdan asılı təhkimçilərdən, muzdlu işçilərdən ibarət olmuşdu.

Het cəmiyyətinin hüquqi və iqtisadi həyatı het qanunlarında öz əksini tapmışdı. Het qanunları sinfi xüsusiyyət daşıyırdı. Qanunlar xüsusi mülkiyyəti qoruyur, onun sahibi olan azad adamın hüququnu daha da möhkəmləndirirdi. Het qanunlarında qullara müxtəlif cəza tədbirləri nəzərdə tutmuşdular. Qanunun bir maddəsində deyilir: "Əgər qul evdə oğurluq edərsə, o, oğurladığını olduğu kimi qaytarmalıdır. Oğurluq etdiyi üçün o, 6 şekel gümüş verməlidir. Qulun burnu və qulağı kəsilməlidir, özü isə sahibinə qaytarılmalıdır...". Əgər sahibi desə "mən onun əvəzini ödəyərəm", onda o, ödəməni verməlidir. Əgər o imtina etsə, onda quldan məhrum olur".

Qanunlar qul sahibinin mənafeyini güdürdü. Oğurluq etmiş quldan o məhrum olmurdu, oğurluq malın əvəzini ödəyib yenə də öz quluna sahib olurdu. Qulun həyatına qəsd heç bir cəza ilə nəticələnmirdi. Maddələrin birində deyilir: "Əgər kimsə qulu, yaxud kənizi vurarsa, o da ölərsə və bunu həmin kəs qəsdən etməmişsə, onda o, qulun əvəzinə bir adam verməlidir. Təminat üçün əmlak da verməlidir" Köləliyin əsas mənbəyi müharibələr olmuşdur. Uğurlu müharibələr ölkəyə xeyli əsir verirdi. Əsirlər het mətnlərində arnuvala, yəni "Əsir aparılmış adam" adlanırdı. Əsirləri qul kimi satır, bir hissəsini mükəlləfiyyətə cəlb edirdilər.

Het qanunlarında ailə məsələlərinə müəyyən yer verilmişdir. Ata ailədə qeyri-məhdud hakimiyyətə malik idi. Qadının hüquqi vəziyyəti ağır idi. Ümumiyyətlə, qanunlarda qadın və kişi münasibətlərinə həsr edilmiş bir sıra maddələr vardı. Məsələn: "Əgər kişi qadını atırsa, onda onu sata bilər. Qadını alan adam 12 şekel gümüş verməlidir". Başqa maddədə qadının kişiyə eyni münasibəti əks olunmuşdur: "Əgər qadın kişini qovursa, uşaqları ona verməlidir. Kişi övladlarını özü ilə götürməlidir". Ailədə nəinki övlad, eləcə də əmlak müəyyən hüquqi qaydalara əsasən ərə, yaxud arvada çatırdı. Buna görə qanunun bəzi maddələri arvadın ata evindən gətirdiyi cehiz barədə də hüquq normaları müəyyən etmişdi. Maddələrin birində deyilir: "Əgər kimsə evlənir və arvadı (öz evinə) gətirir, onda həmin adam onun cehizinə də sahib olur. Əgər qadın vəfat edərsə, onun əmlakı kişinin (ərin) olmalı və cehizi həmçinin kişiyə çatmalıdır. Əgər qadın atası evində vəfat edərsə və uşaqları qalarsa, onda kişi (əri) cehizi almamalıdır". Qanunlar ərin vəfatından sonra dul arvadın qaynı ilə (ərin qardaşı ilə) kəbin kəsdirməyə və ona ərə getməyə icazə verirdi. Əgər mərhumun qardaşları yox idisə, onda dul arvad qayınatasına ərə gedə bilərdi. Bunlar göstərir ki, qız ər evinə həmişəlik köçürülürdü, əri vəfat etsə belə həmin evi tərk etməməli idi. Məsələ ailə daxilində həll olunurdu. Het ailəsində patriarxal qaydalar hökm sürürdü. Hakim sülalə ailələrində isə hakimiyyətə vərəsəlik Elam və Misirdə olduğu kimi, ana xətti ilə aparılırdı. Bunu ibtidai icma quruluşu nikah formalarının qalığı kimi qəbul etmək olar.

Het cəmiyyətində sənətkarlıq inkişaf tapmışdı. Qanunlarda müxtəlif peşələrin (metalişləmə, dülgərlik, gönçülük və s.) adı çəkilmişdir. Alət, silah və başqa əşyalar hazırlamaq üçün mis və tuncdan istifadə edirdilər. Anadoluda dəmirdən hələ e.ə. III-II minilliklərdə istifadə olunurdu. Bu dövrün arxeoloji təbəqələrindən dəmir heykəlciklər, ibadət xüsusiyyətli yazılı lövhələr aşkar edilmişdir. Hetlər dəmirdən müxtəlif əşyalar, o cümlədən üzük, sırğa, silsilə, qalaydan kişi, qadın, heyvan, quş heykəlləri (fiqurları) hazırlayırdılar. Dəmirdən silah (xəncər, qılınc, bıçaq, toppuz, nizə), təsərrüfat alətləri (oraq, balta, çəkic, mismar) və s. düzəldirdilər. E.ə. XIV-XIII əsrlərdə dəmirdən hazırlanmış əşyalar het hökmdarlarının varidatı içərisində böyük sərvət hesab olunurdu. Dəmir qızıldan 5, gümüşdən isə 40 dəfə baha idi. Het qaynaqlarında müxtəlif çəkili (45 kq qədər) dəmir külçələri yad edilirdi.

Het məhkəməsi şifahi və yazılı ənənəyə əsaslanırdı. Het qanunlarında yazılı məhkəmə qaydaları, cəza

normaları əks olunmuşdu. Mübahisələrə adətən ağsaqqallar şurasında baxılırdı. Məhkəmə işlərində dövlət nümayəndəsi iştirak edirdi. Nümayəndəyə xüsusi təlimat verilirdi. Bir təlimatda ona tapşırılmışdı: "Haqq işi nahaq eyləmə, nahaq işi haqq eyləmə. Ədalətli ol". Məhkəmədə şəhər rəisi və ağsaqqallardan ibarət yerli idarə nümayəndələri də iştirak edirdilər. Mürəkkəb məhkəmə işləri hökmdarın səlahiyyətinə verilirdi. Qanunu pozan adam cəzalandırılırdı. Sənəddə deyilir: "Əgər kimsə hökmdarın qərarına əks getsə, onun evi məhv edilməlidir. Əgər kimsə əyanın qərarına əks getsə, onun başı kəsilməlidir". Het məhkəməsi faktların dəqiq seçilməsinə diqqət verirdi. Səhlənkar təsərrüfatçı məhkəməyə cəlb olunurdu. Onun özbaşına at və qatırları başqa adamlara verməsi sorğu-sual əsasında ayırd edilirdi. Hökmdar təsərrüfatı heyvanlarının hesaba alınmadan başqasına verilməsi bu işə baxan adamın təqsiri kimi qiymətləndirilirdi.

Qazıntılar zamanı aşkar edilmiş müxtəlif incəsənət abidələri, silah və əmək alətləri, Boğazgöydə (Hattuşa) tapılmış het hökmdarlarının yazılı sənədlər arxivi het mədəniyyəti barədə müəyyən təsəvvür yaratmağa imkan vermişdir. Het mədəniyyətinin təşəkkülünə bir sıra etnosların təsiri olmuşdur. Het mədəniyyətində hat ənənələri üstünlük təşkil edirdi.

Het mədəniyyətinə hurri etnosları, hind-Avropa tayfalarından luvi və palaylar müəyyən təsir göstərmişdilər. Şumer-Akkad mədəniyyətinin bir çox cəhətləri het mədəniyyətində öz əksini tapmışdı. Vaxtilə het aləmində prototürk etnik ünsürlərinin iştirakı barədə də fikir söylənilmişdi. Lakin het etnik və dil aləmi bu səpkidə dərin və ciddi tədqiqat obyektinə çevrilməmişdi. Hind-Avropa tayfalarının ən qədim türk etnik qrupları ilə ünsiyyətini göstərən bir sıra leksik dəlillər müəyyən edilmişdir.

Məlum olduğu kimi, Sarqon (e.ə. 2316-2261-ci illər) və Naram-Suen (e.ə. 2236-2200-cü illər) Akkad sülaləsinin ən görkəmli nümayəndələri olmuşlar. Onların adı ilə bağlı rəvayətlərə het ədəbiyyatında rast gəlinir. "Döyüş hökmdarı" adlı əfsanədə Akkadlı Sarqon tacir tayfasının müdafiəçisi kimi təsvir olunmuşdur. Tacirlər Kiçik Asiyanın Buruşhattum (hetcə Purushanda) şəhəri hakimlərinin onlara alver imkanı yaratmamağı barədə Sarqona şikayətlə müraciət etmişdilər. Rəvayətə görə Sarqon tacirlərinin mənafeyi naminə həmin şəhərə yürüş təşkil etmişdi.

Akkad və het dilində tərtib olunmuş digər mətn Naram-Suenin adı ilə bağlıdır. Mətnlərin mövzusu eynidir, lakin hadisələrin təhlilində müəyyən fərqlər olduğunu göstərir. Het rəvayətinə görə, umman-manda adlanan tayfalar 17 müttəfiq ilə Hatti ölkəsinə hücum edib, onun bir çox şəhərlərini talan edirlər. Umman-manda adı Naram-Suenə həsr olunmuş "Kuta hökmdarı" rəvayətində də əks olunmuşdur, lakin orada 70 hökmdarın ittifaqı yad edilir. Bu hadisələr İkiçayarasında baş vermişdi. Mənbələrin sonrakı məlumatını nəzərə alsaq, umman-manda İkiçayarasının şimal və şimal-şərqində yaşayan əhalini təmsil edirdi. Güman etmək olar ki, het ədəbiyyatında əks olunmuş rəvayət İkiçayarasının "Kuta hökmdarı" əfsanəsinin azca dəyişmiş variantıdır. Rəvayətin het variantı Naram-Suenin 17 hökmdar ittifaqı üzərində qələbəsini şərh etmişdir. Bununla əlaqədar, Hatti və Kaneş hökmdarlarının adı çəkilmişdir. Bu rəvayətin yaranmasına İkiçayarasında baş vermiş həqiqi tarixi hadisə təsir göstərmişdir. Orada Naram-Suenin "Qələbə abidəsi" daş kitabəsində Lullubi hökmdarı da daxil olmaqla düşmən ittifaqının məğlub olunmasından bəhs edilir. Beləliklə, het rəvayətlərinin kökləri İkiçayarasında baş vermiş siyasi hadisələrlə bağlı olmuşdur. Məhz buna görə də, İkiçayarası etnik terminologiyası (umman-manda) olduğu kimi təkrar olunmuş, lakin hadisələr qədim Anadolu mühitinə uyğunlaşdırılmışdır. Rəvayətin het variantı əsasında ehtimal edilir ki, hələ e.ə. III minilliyin ikinci yarısında qədim Anadoluda erkən dövlət qurumları mövcud olmuşdur. Bunlar şəhər-dövlətləri şəklində meydana gəlmişdilər.

Het ədəbiyyatında Şumer-Akkad təsiri başqa sahələrdə də özünü göstərmişdi. Hetlər mixi yazı sistemini İkiçayarasından mənimsəmişdilər. "Gilqameş haqqında dastan" het dilinə tərcümə edilmişdi. Şumer-Akkad mətnlərindən istifadə etmək və dili başa düşmək üçün üçdilli lüğətlər tərtib olunurdu. Bunlardan biri şumer-akkad-het lüğəti idi. Hurri əfsanələri (Kumarva əsatiri) het dilinə tərcümə olunmuşdu. Hurri təsiri onomastika və dini təsəvvürlərdə özünü təzahür edirdi. Dərs vəsaitləri tərtib olunurdu. Mitanni mənşəli Kikküli atçılığa həsr olunmuş vəsait yazmışdı.

Hetlər rəsmi ədəbiyyat nümunələri yaratmışdılar. III Hattuşilin "Tərcümeyi-hal" xüsusiyyəti daşıyan yazısı erkən ədəbiyyat nümunələrindən biri hesab edilə bilər. Hadisələr birinci şəxsin adından nəql edilir. Burada Hattuşili uşaqlıq dövrünü göstərir, zəif səhhətə malik olduğunu söyləyir və İştar ilahəsinə ithaf olunmasını qeyd edir. O, əyalət hökmdarı olanda ilahə İştar ona arxa olur, paxıl və qarınqulu düşmənlərinin öhdəsindən gəlmək üçün ona qüvvət və mətanət verir. Hattuşilin qardaşı Urxi-Teşub onun rəqiblərinin tərəfinə keçib, idarə etdiyi şəhərləri əlindən alanda, Hattuşili qardaşının tabeliyindən çıxır və üsyan qaldırır. O, üsyanın səbəbini belə izah edirdi: "Lakin mən ona qarşı üsyan qaldırsam da, bunu qüsurlu vasitə ilə, yəni xaincəsinə etmədim, onun cəng arabasına həmlə etmədim, evdə ona hücum etmədim, mən ona (açıq) müharibə elan etdim (və dedim): - Sən mənimlə dava-dalaşa başladın, sən böyük hökmdarsan, mən isə o adamam ki, sən ona bir qala qoymuşsan qalsın, mən məhz bu qalanın hökmdarıyam. Haydı döyüşə! Qoy Samuxi şəhərinin ilahəsi İştar və Nerik şəhərinin tufan allahı (Taru) bizim haqqımızda hökm versinlər". Hattuşili hakim ailəyə mənsub idi, onun hakimiyyətə hüquqları tapdalanırdı. Maraqlıdır ki, o özünün hakimiyyətə gəlməsini də ilahə İştarın iradəsi ilə bağlayır və deyir: "Necə ki, mənim ilahəm İştar vaxtilə

mənə taxt-tacı vəd etmişdi, indi o, arvadımın yuxusuna girərək (demişdir): - Mən sənin ərinə kömək edərəm və bütün Hattuşili sənin tərəfinə keçər". Hattuşili qələbə çaldıqdan sonra qardaşını və rəqiblərini edam etdirmir, sadəcə olaraq ölkədən qovur. "Tərcümeyi-hal" göstərir ki, III Hattuşili mübahisəli məsələləri ancaq müharibə yolu ilə həll etməyi üstün tuturdu. Eyni zamanda o, həqiqət və ədalətin son məqamda qələbə çalacağı inamına biganə yanaşmırdı. Lakin mətndən göründüyü kimi, III Hattuşili, bəlkə də mövcud olan vərəsəlik qaydalarını pozaraq, hakimiyyətə zorla sahib olmuşdu. Mətn III Hattuşilinin müraciəti ilə sona yetir: "Gələcəkdə kim olursa olsun - Hattuşilin oğlumu, nəvəsimi, yaxud nəticəsimi-hakimiyyətə irsən yiyələnərsə, qoy allahlar içərisində Samuxi şəhərinin ilahəsi İştara ehtiram göstərsin". Hetlərin dini dünyagörüşündə akkadların İştar ilahəsinə sitayişi geniş təmsil olunmuşdu. Ümumiyyətlə, İştar ilahəsinə sitayiş nəinki het hakim dairələri arasında, eləcə də İkiçayarasına söykənən başqa ölkələrdə də, məsələn Cənubi Azərbaycanın kuti və lullubi hökmdarları arasında da geniş yayılmışdı.

Het ədəbiyyatı nümunələri cərgəsinə I Hattuşilinin siyasi vəsiyyətini də daxil etmək olar. Burada I Murşilin hakimiyyətə varis təyin edilməsindən bəhs edilir, üsyan qaldırmış digər övladlar hakimiyyətdən uzaqlaşdırılır. I Hattuşili əyanlara müraciət edir: "Baxın, indi Murşili mənim oğlumdur... Nə zaman ki, silah götürməyə çağırış olsa, onda siz, mənim bəndələrim və əsilzadə vətəndaşların (mənim oğluma yardım göstərmək üçün əlçatanda) hazır olmalısınız. Üç il keçəndən sonra o, yürüşə getməlidir... Siz onu yürüşə aparsanız (nə qədər ki, o uşaqdır), onun sağ-salamat geriyə qayıtması qayğısına qalın". Het hökmdarlarının kitabələri və salnamələri ədəbiyyat nümunələri kimi də əhəmiyyətə malikdir. Bunlar "Anittanın kitabəsi", I Hattuşilin, I Suppiluliumun "salnamələri" və s. ibarət olmuşdur.

Din və əfsanələr. Hetlərin, eləcə də başqa qədim xalqların ictimai həyatından olduğu kimi, təsərrüfat və ideoloji həyatında da din və dini təsəvvürlər böyük əhəmiyyətə malik idi. Het cəmiyyətində çoxallahlılıq mövcud idi. Het panteonunda bir çox qədim etnos və xalqların sitayiş etdiyi allahlar cəmləşmişdi. Burada het və hat, hurri, akkad, hind-Avropa (luvi, nesi, pala, Hind-İran), prototürk və hələlik mənşəyi naməlum qalan etnos və xalqların dini ideologiyası əks olunmuşdu. Təsadüfi deyil ki, Het mənbələri "Hatti ölkəsinin min allahı" ifadəsini işlədirdi.

Het ölkəsinin hər bir vilayəti və icmasında yerli ibadətlər mövcud idi. Allah və ilahələrə xüsusi ibadətgahlarda sitayiş edirdilər. Het hökmdarı və onun arvadı ildə iki dəfə keçirilən yaz və payız bayramları zamanı ölkəyə səfərə çıxır, dini ziyarət məqsədilə şəhərləri gəzir, və hər yerdə allahlara qurban kəsirdilər. Ehtimal ki, ölkəni gəzib dolanmaq adəti hatlardan miras qalıbmış. Yerli dinlərin müəyyən hissəsi dövlət dini cərgəsinə daxil edilirdi. Hetlərin ən nüfuzlu allahlarının şərəfinə məbədlər tikilirdi. Belə dini ibadətgahlardan biri Boğazgöyün yaxınlığında Yazılıqayada aşkar edilmişdir. İbadətgah qaya oyuğunda yerləşirdi. Onun divarlarında het allah və ilahələri təsvir olunmuş, biri-birinə doğru irəliləyən dini mərasim yerişi qabarıq şəkildə divara həkk edilmişdi. Yazılıqayada allahlar cəmini hurrilərə mənsub edirlər. Allahlara ibadət hökmdar hakimiyyətinin ideoloji əsasını təşkil edirdi.

Het panteonu allahlarının əksəriyyəti hat mənşəli olmuşdur. Səma tufan allahı və onun arvadı, Arina şəhərinin Günəş ilahəsi Vurusem panteonun baş allahları hesab edilirdilər. Ehtimala görə, tufan allahı Taru adlanırdı. Hurri panteonunda onun və Vurusemin bənzəri Teşub və arvadı Hepat idi. Taru müqəddəs öküz üzərində, Henat isə şir üzərində təsvir olunurdular. Nerin şəhərinin tufan allahı da Taru adlanırdı. Bəzən tufan allahı öküz, yaxud dağ sifətində təsvir olunurdu.

Het ölkəsində geniş hurri ilahəsi Sauşka böyük nüfuza malik idi, akkad məhsuldarlıq ilahəsi İştar isə onun müqabili hesab edilirdi. Hetlər İkiçayarası panteonundan Antu, Anu, Enlil, Eya, Ninlil və s. allahlara ibadəti mənimsəmişdilər. İştar şir üzərində qanadlı təsvir olunurdu. Telepin hetlərin əkinçi allahı idi. O, hat dini təsəvvürlərinin qalığı kimi qəbul edilir. Telepin "ölən və dirilən" allahı təmsil edirdi. Təbiətdə mövsümün (qış və bahar) dəyişilməsi onun adı ilə də bağlanılırdı.

Dini təsəvvürlər kimi, ovsun (magiya) da hələ ibtidai insan cəmiyyətində mövcud olmuşdur. Ovsun həmişəlik insan həyatına daxil olmuş ən qədim təfəkkür formasını özündə saxlamışdı. Hetlərin ictimai və iqtisadi həyatında ovsunlamaq adəti dərin kök salmışdı. Het ədəbiyyatında ovsunlama qaydaları öz əksini tapmışdı. Xəstəlikləri ovsunla müalicə etmək cəhdləri göstərilirdi. Ovsun həyatın müxtəlif sahələrində tətbiq olunurdu. Bol məhsul arzusu, ailə ixtilafını yatırma, şər qüvvələri qovma, düşmənlərə lənət, dostlara uğur və s. arzuların gerçək olması üçün ovsuna müraciət edirdilər. Bu qəbildən bir neçə nümunə misal gətirək:

Xəstənin müalicə ovsunu: "(xəstə) qulağına qara yun tıxayır... və qara paltar geyinir". Cadugər arvad bir sıra ovsun əməlləri etdikdən sonra onun qara paltarını yuxarıdan aşağıya qədər cırır, qulağından yun parçasını çıxarır və deyir: "indi isə mən onu natəmizliyin törətdiyi cəhalət və keylikdən, ona cəhalət və keylik gətirən natəmizlik vasitəsilə azad edirəm, günahı uzaqlaşdırıram". Sonra xəstənin toxunduğu hər bir şeyi qara paltarlarla birlikdə çaya atır.

Belə ibtidai ovsun vasitəsilə müalicə üsulları müxtəlif xəstəliklərə tətbiq olunurdu. Sonsuz qadının övlad arzusunu ovsunçu söz və hərəkətlə "yerinə yetirirdi". Ovsunçu arvad boğaz inəyin buynuzundan yapışıb deyirdi: "Günəş allahı, mənim ağam, bu inək boğaz olduğu kimi, zəngin pəyəni öküz və inəklə (doğub) doldurduğu kimi, qoy bu xəstə də övladlı olsun, qoy öz evini oğul! və qızlarla, nəvə və nəticələrlə

doldursun". Andına sadiq qalmayan və dövlətə xəyanət edənləri də ovsun vasitəsilə lənətləyirdilər. Ovsunçu mum və qoyun piyini oda atıb deyirdi: "Bu mum əridiyi kimi, bu piy dağlandığı kimi, qoy Hatti hökmdarına andını pozan və xəyanət edən mum kimi ərisin və qoyun piyi kimi dağlansın". Qədim hetlər ovsunun təsirinə inanırdılar.

Het dövründə varlığını saxlayan əfsanələrin bir hissəsi hat ənənəsi ilə bağlıdır. "İlluyank haqqında əfsanə" hat mənşəli hesab edilir. Əfsanədə tufan allahının əjdaha, yaxud ilan əndamlı əjdaha İlluyank ilə mübarizəsi əks olunmuşdur. Adətən bu hekayət Yeni il (yaz) bayramında söylənilirdi. Guya əjdaha İlluyankın öldürülməsi ilə Yeni il başlanırmış. Əfsanəvi hekayət iki rəvayət şəklində mövcud idi. Bir rəvayətə görə, tufan allahı İlluyankla mübarizədə məğlub olur. Bu halda Tufan kömək üçün bütün allahlara müraciət edir. İlahə İnara ona köməyə gəlir. İnara müxtəlif içki növləri hazırlayır və İlluyankı balaları ilə birlikdə ziyafətə dəvət edir. İçkidən şişmiş İlluyank öz yuvasına girə bilmir. İlluyankın əl-qolunu bağlayırlar. Tufan gəlib onu öldürür. İkinci rəvayətə görə, İlluyank tufan allahı üzərində qələbə çalır, onun ürəyini və gözünü çıxardır, evində saxlayır. Tufan ürək və gözünü qaytarmaq üçün hiylə işlədir. O, yoxsul bir adamın qızına evlənir, ondan bir oğlu olur. Oğlan həddi-buluğa çatandan sonra, əjdaha İlluyankın qızına evlənir. Tufan oğluna tapşırıq verir ki, "arvad evinə gedəndə, mənim ürəyimi və gözümü ondan istə". Beləliklə, Tufan ürək və gözünü geriyə alır. Bundan sonra o, İlluyanka qalib gəlir.

Hat əsatirləri ilə bağlı olan digər folklor nümunəsi "ölən və dirilən allah Telepinin" adı ilə bağlıdır. Rəvayətə görə, bitki allahı Telepinin atası tufan allahı ilə mübahisə edir, nədənsə qəzəblənir və qeyb olur. O, qeyb olmağa elə tələsir ki, "sağ başmağını sol ayağına geyinir, sol başmağını sağ ayağına geyinir". Telepin qeyb olandan sonra sanki həyat dayanır. Rəvayət nəql edir: "duman pəncərələri tutdu, evi tüstü bürüdü. Ocağın közü sönmüş, allahların nəfəsi kəsilmişdi, qoyunlar, öküzlər pəyədə qurumuşdular. Qoyun quzunu, inək buzovu yaxına buraxmırdı. Buğda və taxıl göyərmirdi, inək, qoyun daha döllənmirdi, qadınlar hamilə olmurdu, olan da doğmurdu. Dağlar quruyur, ağaclar quruyur, heç nə göyərmirdi. Otlaqlar qurudu, bulaqlar qurudu, ölkədə aclıq başladı, adamlar və allahlar acından ölürdülər". Yəqin ki, folklorda qışın gəlməsi və quraqlıq mövzuları əks olunmuşdur. Belə şəraitdə "Günəş allahı ziyafət verir və min allahı dəvət edir. Onlar yeyir, lakin doymurlar, içir, lakin yanğılarını söndürə bilmirlər". Onda tufan allahı oğlu Teiepini yada salır: "Telepin ölkədə yoxdur, o qəzəbləndi və getdi. Böyük və kiçik allahlar Telepini axtarmağa getdilər". Hətta qartal da onu tapmayıb geriyə qayıdır. Tufan allahının axtarışları uğursuz oldu. Belə halda bal arısı dağı-daşı, çay və bulaqları uçub keçdi, Telepini çəmənlikdə yatmış gördü. Arı Telepini sancdı. Telepin oyanıb öz məbədinə qayıtdı. Həyat yenidən canlandı. Adətən "Telepin haqqında əfsanəni" qış və yaz mövsümlərinin dəyişilməsi ilə əlaqələndirirdilər. Bu əfsanə də bahar şənlikləri zamanı söylənilirdi. Kumarva əfsanəsi hurrilərə mənsub idi. Hurri əsatirlərində Kumarva allahların atası hesab olunur, şumer-babil allahı Enlilə bənzədilirdi. Əfsanədə səma allahı Alalu və şumerlərin baş allahı Anu arasında mübarizədən, sonra Kumarvanın bu mübarizəyə qoşulmasından bəhs edilir. Kumarva onun ayağından yapışıb yerə endirdi, onun "dizini" dişlədi və sevincdən uğundu. Anu isə ona müraciət edib dedi: - Dişlədiyinə çox da sevinmə, mən sənin qarnına üç müdhiş allah toxumu saldım. Biri tufan allahıdır, o biri Aransax (Dəclə) çayıdır, digəri Tasmisudur. Bunu deyib Anu səmada qeyb oldu. Kumarva tüpürdü, bununla torpaq mayalandı və üç "müdhiş allahı" törətdi. Kitabənin ardı zədələndiyindən əfsanənin sonu naməlum qalır.

İncəsənət. Hetlərə qədərki mədəniyyət saxsı-gil qablar, əşyalar istehsalı ilə fərqlənirdi. Qablar təsvirli və təsvirsiz hazırlanırdı. İbadət məqsədilə hazırlanan qablar heyvan əndamı (fiquru), uzunboğaz çəkmə şəklində düzəldilirdi. Tunc və qurğuşundan insan əndamı tökürdülər.

Yeni Het padşahlığı dövründə artıq əzəmətli daş heykəllər yaradırdılar. Təsvirlər qabarıq şəkildə yonulurdu. Belə abidələr het hökmdarlarının saraylarında, yaxud qayalıqlarda yonulub düzəldilirdi. Daş heykəllərin əksəriyyəti het hökmdarlarını təsvir edirdi. Əzəmətli Yazılıqaya dəsti (kompleksi) dini mərasimi əks etdirirdi. Yazılıqayada "ilahi-qılınc" heykəli yonulmuşdu. Onun tutacaq hissəsi dörd şir şəklini təsvir edir, yuxarısında insan başı yonulmuşdur. Ehtimala görə, qılınc yeraltı allahı təmsil edirdi. Alaca-Hüyük sarayı divarlarında müxtəlif səhnələr yonulmuşdu. Burada ud və tuluq zurnası çalan musiqiçilər, ov, qurban kəsilməyə aparılan qoyunlar və s. təsvir olunmuşdur. Boğazgöy sfinksi və Alaca-Hüyük şirləri öz əzəmətli görkəmi ilə fərqlənirdilər. Het şəhərləri istehkam kimi tikilirdi, bir neçə iç qala ilə əhatə olunurdu. Onun daxilində saray və baş məbədlər yerləşirdi.

Hetlər möhür düzəltmə işində mahir idilər. Bu möhürlər İkiçayarası möhürlərindən həm formaca, həm də təsvirlərin məzmunu ilə fərqlənirdi. Möhürlər dairəvi və dördbucaq şəkildə hazırlanırdı. Möhür üzərində hökmdar təsvir olunurdu. Belə möhürlərin qırağına heroqlif işarələri yazırdılar.

Hetlərin özünəməxsus və bənzəri olmayan mədəniyyəti Assur və Urartu mədəniyyətlərinə müəyyən təsir göstərmişdi.



ALALAX. İDRİ-Mİ ŞAHIN HEYKƏLİ.
E.Ə. XVI ƏSR.



HATTUSA QALASININ ŞİR TƏSVİRLİ DARVAZASI. E.Ə. XV-XII ƏSRLƏR.



HETLƏRDƏ TANRILARA İNSAN QURBANI VERİLMƏSİ MƏRASİMİ.

## FƏLƏSTİN

Fələstində samilərdən əvvəlki dövrlərdə yaşamış əhali barədə arxeoloji qazıntılar və Tövratda əks olunmuş materiallar məlumat verir. Ərəbistan yarımadasından Mesopotamiyaya üz tutan sami qəbilələri Fələstindən keçib gedirmiş. Şimaldan əks istiqamətdə hirrilər, sonrakı dövrlərdə hetlər hərəkət edirmiş. Fələstində VIII-V minilliklərə aid neolit məskənləri aşkar edilmişdir. Fələstin əhalisinin böyük hissəsini qərbi sami qrupuna məxsus hanaanlar və onların bir boyu olan amorilər təşkil edirdi. Ümumi yəhudi adı ilə məlum olan samilərin növbəti köçü mənşəyinə görə amorilərə yaxın idi. Onlar yəhudi və israilli boylarına bölünürdülər. Bu qrupa müxtəlif yəhudi ləhcələrində danışan ammoni, moavi və edomi qəbilələri yaxın idi. Aralarında qanlı toqquşmalar baş verirdi. Tövrat həmin qəbilələrin yəhudi və israillilərlə etnik yaxınlığından xəbər verir.

Tövratda yəhudi və israillilərin Misirə köçməsi, onların Musa peyğəmbərin başçılığı altında Misiri tərk etməsi, Sinay səhrasında 40 il dolaşdıqdan sonra Fələstinə qayıtması təsvir olunur. E.ə. XIII əsrdə onlar artıq bir neçə qala istisna olmaqla (o cümlədən Qüds) Fələstinin böyük hissəsini tutub bu ərazilərdə məskunlaşırlar. Yəhudi və israillilərlə eyni zamanda Fələstində ehtimal ki, Krit mənşəli filistin qəbilələri də məskunlaşırlar. Filistinlilər Fələstin mədəniyyəti və iqtisadiyyatında böyük rol oynamışlar. Yerli etnoslar dəmir emalını onlardan öyrənmişdi.

Fələstinin sahil zolağını zəbt etmiş filistinlilər yəhudi və hanaanlarla amansız müharibələr aparırdılar. Qısa barışıq dövrlərində qarşılıqlı mədəni əlaqələr yaranırdı.

İsraillilər ölkənin bağçılıq və əkinçiliyin inkişaf etdiyi şimal bölgəsində, yəhudilər isə oturaq maldarlığın üstünlük təşkil etdiyi cənub bölgəsində məskunlaşmışdılar.

Davudun dövründə əhalinin siyahıya alınması keçirildi. Davud filistinliləri bir neçə dəfə döyüşdə məğlub etdi, qərb sərhədlərini möhkəmləndirdi, şərq, şimal-şərq və cənubda bir neçə qonşu dövləti işğal edib ölkə ərazisini genişləndirdi. Edumun zəbt olunması Akab körfəzinin limanlarına çıxmaq imkanı verdi. Davud Hanaan şəhəri Qüdsü tutub ölkənin paytaxtı elan etdi.

Davudun oğlu Süleymanın hakimiyyəti dövründə dövlət aparatı möhkəmləndirildi. Misir, Finikiya, Suriya və cənubi Ərəbistanla ticarət əlaqələri quruldu. İnşaat işləri vüsət aldı, Finikiyadan peşəkar memar və nəqqaşlar dəvət olundular. Qüdsdə möhtəşəm Yahve məbədi və gözəl imarətlər tikildi.

Şərqi Aralıq dənizi ölkələrinin mədəniyyəti yerli kənani tayfalarının nailiyyəti əsasında inkişaf tapmışdı. İlk zamanlar Misir və İkiçayarası mədəniyyətinin burada güclü təsiri olmuşdu. Əhali qonşu xalqların yüksək mədəniyyətini yerli mühitə uyğun tətbiq edirdi. Bunun nəticəsində Şərqi Aralıq dənizi ölkələrinin əhalisi özünəməxsus mədəniyyət yaratmışdı. İncəsənət sahəsində müəyyən nailiyyətlər əldə etmişdilər. E.ə. II minillikdə qala və məbəd tikintiləri geniş yayılmışdı. Məbəd divarlarında təsvirlər verilmirdi. E.ə. VIII-VI əsrlərdə Yerusəlim (Qüds) kahinləri insan və heyvanların təsvirini qadağan etmişdilər. Hətta allah Yahve belə təsvir olunmurdu. Allah və müqəddəslərin şəklinin qadağan edilməsi İslam dinində də qalmışdır.

Şərqi Aralıq dənizi əhalisi əlifba sistemli yazı yaratmışdılar. E.ə. II minillikdə burada Misir heroqlif yazısından və İkiçayarasının mixi yazılarından istifadə edirdilər. Həmin dövrdə Bibldə 100 işarədən ibarət hecalı yazı növü icad etmişdilər. Bu protobibl yazısı adlanır. Bu işarələri yadda saxlamaq daha asan idi. Protobibl yazı işarələri yeni yazı sisteminin yaradılmasına təsir göstərdi. İşarələrin sayını azaldıb sait səsləri ləğv etməyə başladılar. Saitlə samit səslər bir işarədə əks olunurdu. Bunun nəticəsində sadələşdirilmiş yazı sistemi yaradıldı. Uqaritdə belə yazılı hərflərin sayı 30-a çatırdı. Finikiya yazısı təkmilləşmiş əlifba sistemi təşkil edirdi. Finikiya əlifbası yəhudi və aramilər tərəfindən qəbul edildi. Aramilər isə bu əlifbanı Hindistan və mərkəzi Asiyaya kimi yaydılar. Qərbdə yunanlar müəyyən dəyişikliklər etməklə Finikiya əlifbasını mənimsədilər. Yunanlar bu əlifbanı soldan sağa yazmağa başladılar və bir neçə sait səsi əlavə etdilər. Bir sıra hərf adları Finikiya adlarını saxlamışdı. Məsələn, "əlif (Finikiya dilində "öküz" deməkdir), "beta" (həmin dildə "ev" deməkdir). Beləliklə, Finikiya əlifbası qərb və şərq əlifba sisteminin ilk nümunəsi olmuşdur.

Şərqi Aralıq dənizi əhalisinin dini təsəvvürləri müxtəlif olmuşdur. İlk əvvəl vahid panteon mövcud deyildi. Hər şəhərin özünəməxsus allahı vardı. Onlar müxtəlif adlar daşıyırdılar. Adətən bu allahlar Baal (ağa), yaxud El (allah), bəzən Melek və ya Molox (hökmdar) adlanırdılar. Bibldə Adon (yunan allahı Adonis) allahına sitayiş geniş yayılmışdı. O, ölən və dirilən allah surətini təmsil edirdi. Mənası isə sadəcə olaraq "mənim ağam" deməkdir. Yahve hələ vahid allah hesab olunmurdu. Tövratda Elohim (allahlar) allah adı da işlənilirdi. Kosmik ilahələrə sitayiş uzun müddət davam etmişdi. Bəzən yadelli allahlara da sitayiş olunurdu. Tədricən Yahve israillilərin və yəhudilərin ümumi allahına çevrildi. Yahve öküz şəklində təsvir olunurdu. E.ə. V-III əsrlərdə yəhudi dini formalaşdı və iki təriqət əsasında inkişaf tapdı. Çoxallahlılıq təqib edildi və vahid allaha sitayiş bərqərar oldu.

Yəhuda və İsrail ədəbiyyatı qonşu xalqları, xüsusilə İkiçayarası və Misir ədəbiyyatı əsasında formalaşırdı. Bu ədəbiyyat Tövratda öz əksini tapmışdı. Dünyanın əmələ gəlməsi, ümumdünya daşqını

əfsanələri bilavasitə Şumer və Babilistan təsiri altında meydana gəlmişdi. Tövrat mövzuları nəinki xristianlığa, eyni zamanda islam dininin formalaşmasına da böyük təsir göstərmişdi.

## MESOPOTAMİYA MƏDƏNİYYƏTİ

Ön Asiyanın çox hissəsi dağlardan və yaylalardan ibarətdir. Yunanca Mesopotamiya adlanan qədim İkiçayarası ölkəsi Ön Asiyada yerləşir. Ön Asiyanın çox hissəsi dağlar və yaylalardır. Qafqazdan cənubda olan dağlardan başlayan Fərat və Dəclə çayları İran körfəzinə tökülür. Dəclə və Fəratın orta və aşağı axarlarında yerləşən ölkə qədim dövrlərdən məşhur və qüdrətli bir dövlət kimi tarixə düşmüşdür. Cənubi Mesopotamiya qısa sürən qışda yağışlar yağır, hər yer keçilməz gil palçıq olur, yazda isə dağlarda qar əriyir, Dəclə və Fərat çayları daşıb sahilləri basır, daşqından sonra hər yer yaşıllığa qərq olur. Hələ Paleolit dövründə Mesopotamiyada ilk insanlara təsadüf edirik. Neolit dövründə isə insanların İkiçayarası ərazilərində məskunlaşması sürətlənir, daha mütərəqqi təsərrüfat növünə keçmək zərurətini yaradır. Köçəri həyat tərzindən oturaq həyat tərzinə keçid əkinçiliyə, maldarlığa, sənətkarlığa meydan açır.

E.ə. VII-VI minillikdə Mesopotamiyada insanlar məskunlaşdı. Dağlıq yerlərdən gələn insanlar Cənubi Mesopotamiyada toxa əkinçiliyi və maldarlıqla məşğul olmağa başladılar. Qədim Mesopotamiyada yazı sistemini şumerlər yaratmışlar. E.ə. IV minillikdə piktroqrafik (şəkilli) yazı, daha sonra mixi yazılar meydana gəldi. Yazı materialı gil lövhələr idi. E.ə. III minillikdə mixi yazı sistemi geniş yayıldı. Bütün Ön Asiyada mixi yazıdan istifadə olunurdu.

Arxeoloji qazıntılar sübut edir ki, ən qədim dövrlərdə bu ərazi keçilməz bataqlıqlardan ibarət olmuşdur. Tarixçilərin fikrincə, İkiçayarasının cənub hissəsi Fərat və Dəclə çaylarının gətirdikləri çöküntülərdən əmələ gəlmişdir, torpağı isə gillidir. Qısamüddətli qış zamanı burada leysan yağışlar yağır, torpaq keçilməz palçığa çevrilir. Yazda dağlarda qar əridikdən sonra hər iki çay daşaraq geniş sahələri basır və bataqlıq yaranır. Burada nə metal, nə də meşə olmasa da, çayların lili ilə gübrələnmiş torpaq suvarıldıqdan sonra xeyli dərəcə münbit olur.

Dəclə çayının suyu Fəratdan artıqdır və buna görə də axını da güclü olur. Dəclə və Fəratın suyunun artması dağlardakı qarların əriməsindən asılı idi. Qarın əriməsi isə fevral-may ayları arasında mümkündür. Nilə nisbətən bu çayların artıb-azalma rejimi dəqiq olmurdu. Çünki həmin çaylar müxtəlif hava bölgələrindən keçdiyindən rejimin dəqiqləşdirilməsi qeyri-mümkün idi.

Mesopotamiya torpağı hələ ən qədim dövrlərdən özünün məhsuldarlığı ilə seçilir. Bunu biz antik dövrün qüdrətli tarixçiləri Herodot, Teofrast və başqalarının əsərlərində də aydın görə bilərik. Lakin İkiçayarası ölkəsinin ərazisində əkinçiliklə məşğul olmaqdan ötrü bir sıra kompleks işləri görmək lazım idi və həmin işlər bütün il boyu həyata keçirilməli idi.

E.ə. VII-VI minilliklərdə əkinçi və maldarlar münbit torpaqlar və yaxşı otlaqlar axtarıb tapmaq üçün dağlıq yerlərdən Fərat və Dəclə çayları vadisinə enməyə məcbur oldular. Onlar bataqlıqlar arasında qamış və gildən komalar tikir, mal-qara otarır, toxaların köməyi ilə kiçik torpaq sahələrini əkib becərirdilər. Həmin dəhşətli dövrlərdə əhali bataqlıq qızdırmasından, əqrəblərdən və saysız-hesabsız həşəratlardan əziyyət çəkirdi. Şirlər adamlara və sürülərə hücum edirdi. Qamışlıqlarda yaşayan qabanlar əkin sahələrini məhv edirdilər. Çay daşqınları komaları dağıdır, adamları suda məhv edirdi. Bəzən Fərat və Dəclə çayları qovuşaraq coşqun selə çevrilirdi. Bu vaxt İkiçayarası adamlarına elə gəlirdi ki, bu sel bütün dünyanı basır. Çayların daşması-Cənubi İkiçayarasının ilk sakinləri üçün qorxunc və təhlükəli düşmən idi. Sonralar yaranacaq «Nuhun tufanı» mifinin əsasını Dəclə və Fərat çaylarının daşmasında axtarmaq düzgün olardı.

Cənubi Mesopotamiyada ilk dövlətlər e.ə. IV-III minilliklərdə yaradılmışdır. Dəclə və Fərat çaylarında baş verən daşqınlar Mesopotamiyada "Dünya tufanı haqqında" əfsanənin yaranmasına səbəb olmuşdu. Bu çayların sahilləri becərilirdi. Burada xurma "həyat ağacı" adlanırdı. E.ə. IV-III minilliklərdə Mesopotamiya ərazisində Şumer, Akkad, Ur və s. qədim dövlətlər yarandı. Beləliklə, IV-III minilliklərdə Mesopotamiyada quldarlıq quruluşu və dövlət meydana gəldi. Kəndlilər varlılardan asılı olur və aldıqları borcu qaytara bilmədikdə qula çevrilirdilər. Mesopotamiyada qulları "gözlərini yuxarı qaldırmayanlar" adlandırırdılar. Burada yaranmış dövlətlər arasında müharibə başladı. Qaliblər məğlubların hesabına varlanırdılar. Bunların arasında Babil şəhər-dövləti qalib gəldi və yüksəldi. Ticarət yolları üzərində yerləşən Babil şəhəri e.ə. II minilliyin əvvəllərində yaranmış Babil padşahlığının mərkəzi oldu. Mesopotamiyanın başlıca quru yolları və karvanları buradan keçirdi.

Babil şahlığının ən görkəmli hökmdarı Hammurapi (e.ə. 1792-1750) olmuşdur. O, Mesopotamiyanı öz hakimiyyəti altında birləşdirdi. Ölkə onun qanunları əsasında idarə olunurdu. Hammurapi Şumer və Akkadda istifadə olunan qanun və qaydaları toplayıb 282 maddədən ibarət ilk qanunlar külliyyatı yaratdı. Bu külliyyat onun adı ilə "Hammurapinin qanunları" adlandı. Əhali arasında mübahisəli məsələlər bu qanunlarla həll edilirdi. Bu qanunlar hündür qara bazalt daş sütun üzərində yazılmış və dövrümüzə qədər qalmışdır.

Babil şəhəri Fərat çayının hər iki sahilində yerləşirdi. Onu əhatə edən divarların uzunluğu 8 km idi. Dünyanın yeddi möcüzəsindən biri olan "Semiramidanın asma bağları" e.ə. VII əsrdə burada olmuşdur. Şəhərin mərkəzində 90 m hündürlüyündə olan 7 mərtəbəli məbəd qülləsi ucalırdı.

Babil şahlığında riyaziyyat, astronomiya, tarix, kimya, coğrafiya, təbabət və s. inkişaf etmişdi.

Babillilər "Pifaqor teoremini" Pifaqordan min il əvvəl bilirdilər, çevrənin 360 dərəcə, saatın 60 dəqiqəyə bölünməsini öyrənmişdilər. Babillərdə elmin inkişafı Yunanıstanda və onun vasitəsi ilə Qərbi Avropada yayılmasına böyük təsir göstərmişdir. Bu dövlətlərin qoşunları, keşikçiləri və məmurları var idi. Burada padşahı «böyük adam» adlandırırdılar. Həmin dövlətləri yaradanlar Şumer və Semit tayfaları olmuşdur. Suvarma kanallarının çəkilməsi üçün kiçik dövlətlərin birləşdirilməsi zəruri idi. Əhalisinin və qullarının sayı çox olan qüdrətli dövlət suvarma kanallarını çəkə bilərdi. Kiçik dövlətlərin birləşdirilməsi qüdrətli Babilistan dövlətinin yaranmasına gətirib çıxardı. E.ə. 2350-ci ildə Semit tayfalarının güclənməsi nəticəsində Akkad padşahı Sarqon bütün Mesopotamiyanı öz hakimiyyəti altında birləşdirdi. 1792-1750-ci illərdə hökmranlıq etmiş Babil hökmdarı Hammurapi bütün Mesopotamiyanı fəth etmiş və padşahlıq üçün vahid qanunlar qoymuşdur. Hakimlər Babil padşahlığında müəyyən qaydaları pozanları bu qanunlara əsasən mühakimə edirdilər. Lakin Babilistan təkcə müxtəlif dövlətlərin ərazilərinin işğalları ilə deyil, həmçinin mədəniyyəti ilə tarixə düşmüşdür. Həmin mənəvi dəyərlər sırasında İkiçayarası xalqlarının mədəniyyəti də özünəməxsus yer tutur.

Dəclə və Fərat çayları arasında mövcud olan qədim şəhərlərin yerində aparılan arxeoloji qazıntılar bir daha göstərir ki, Şumer və Akkad adı ilə tarixə düşən bu region hələ e.ə. 4000-ci ildə məskunlaşdırılmışdır. Bəzi alimlərin fikrincə, bu ərazi daha qədim tarixə malik olmuşdur. Qədim şəhər-dövlətləri Ur, Uruk və Kit daha çox inkişaf etmiş sivilizasiyaların mərkəzi olmuşlar. Həmin sivilizasiyanı yaradanlar Şumerlər olmuşdur. Şumerlər dağlıq ərazilərdən gəlmişdilər. Bu xalqın mifologiyasının tədqiqi bir daha göstərir ki, onların qədim yurdları gəldikləri, sonradan əldə etdikləri vətənlərindən köklü surətdə fərqlənirmiş. Şumerlər Mixi yazılarını kəşf etmiş («Zikkurat» adlı tikili də bu qəbildəndir), böyük işlər görmüşlər. Onların şəhərlərinin qalıqları (məsələn, Ur şəhərində aparılan qazıntılar) yüksək sivilizasiyadan xəbər verir. Burada böyük məbədlər tikilmiş, kahinlər, mirzələr yaşamış, qanunlar, ədəbiyyat və zəngin mədəniyyət yaranıb inkişaf etmişdir.

Zəmanəmizə gəlib çatmış Şumer və Akkad miflərində dünyanın yaranması və quruluşu, allahların doğulması, onların xeyir-duaları və lənətləri, nəhayət, allahların yaradıcı və dağıdıcı fəaliyyətləri əks olunmuşdur. Çox nadir hallarda Şumer və Akkad miflərində hakimiyyət uğrunda allahların mübarizəsi əks edilmişdir. Adətən bu heç də gərgin mübarizə və amansız münaqişə kimi göstərilmirdi. İntellektual məzmun baxımından Şumer-Akkad mifləri onların ilahi hərəkətlərinə təkmilləşdirilmiş baxışı ifadə edirdi. Bu miflərə əsasən həmin xalqların ciddi teoloji və kosmoqonik düşüncələri haqqında fikir yürütmək olar.

İkiçayarası xalqlarının allahlar panteonu həm zəngin, həm də maraqlıdır. Burada Şumer, Akkad allahları ilə yanaşı, Babilistan padşahlığı dövrünün allahları da yerləşdirilmişdir. Babil allahlarının əksəriyyəti Şumer allahlarıdır. Şumer allahlarını qəbul etmiş Babillilər onların xeyli hissəsinin adlarını dəyişmiş, funksiya və vəzifələrini isə dəyişməz saxlamışlar. Şumerlərdə allahların daxili iyerarxiyası mövcud olmuşdur. Hər bir allah özünəməxsus mövqe tutmuşdur. Allahlar panteonu cəmiyyət və dövlət qaydalarına uyğun təşkil edilmişdi. Allahlar iyerarxiyasının zirvəsində əvvəllər Şumer allahı Anu dururdu. O, özünə göylərdə məskən seçmiş səma allahı idi. Digər allahlar isə onun övladları sayılırdı. Lakin Anu allahının bu cür yüksək mövqeyinə baxmayaraq, ona nisbətən məhdud sayda məbədlərdə sitayiş edirdilər. İnsanlara düşmən kəsilən Anu onlara müxtəlif bəlalar göndərirdi. Odur ki, onunla dindarlar arasında heç vaxt yaxınlıq və etibarlılıq münasibətləri yaranmamışdır. Təsadüfi deyildir ki, Şumer dövründə Anunun yerini bir sıra münasibətlərdə oğlu Enlil tutmağa başlamışdı.

Şumer allahı Enlil (bunu çox vaxt «küləklər hökmdarı» kimi tərcümə edirlər) baş allah mövqeyinə qalxdı. O, talelər cədvəlinə malik idi. Bunun sayəsində dünyanın taleyini qabaqcadan görə bilirdi. Eyni zamanda təbiətin məhsuldarlığı və adamların həyatı haqqında da hökm verə bilirdi.

Enlil təbiətin dağıdıcı qüvvələri-tufan, daşqın və s. hakimi olduğundan öz şıltaqlığına əsasən adamları cəzalandıra bilərdi. Adamları, habelə yer üzündə mövcud olan bütün canlıları məhv etmək üçün dünya daşqınını o göndərmişdi. Atası Anu kimi Enlil də qorxunc cəza verən allah imiş və insanlar üçün onun etimadını qazanmaq olduqca çətin olmuşdur.

Enlilin əksi olan allahı Şumerlər Enki, sonrakı semit xalqları isə Eya adlandırırdılar. Eya su dibi allahı olub Enlilin oğlu idi. Şumerlərin fikrincə, müdriklik suyun dibində yerləşir. Ona görə də Şumerlər bütün biliklərinə görə Eyaya borcludurlar. Eya sənətin, müdrikliyin və elmin hamisi hesab olunurdu. Şumerlərə görə yazı Eyanın sayəsində kəşf edilmişdi. Eyanın əqli insanlara imkan verir ki, yerin gizli qatlarının və səmanın sirlərinə yiyələnsin. Eya xəstəlikləriə, bədbəxtliklərə və müxtəlif fəlakətlərə çarə tapan allah sayılırdı. Ona gizli cadugərlik məlum idi. İnsanlar kömək və məsləhət üçün ona müraciət edirdilər. Dünyanın yaranması haqqında epik əsatirə görə Eya insanları gildən yapmış, əjdaha Kinqunun qanı ilə onlara can vermişdir. Bilqamıs haqqında dastanda göstərilir ki, Enlilin hökmü ilə adamların məhv olmasının qarşısını kəsən Eya hiyləyə əl atmışdı. Eyaya tapşırılmışdı ki, insanların məhv olacağı haqqında məlumat verilməsin. Allahlarla birgə Eya da and içmişdi ki, insanlara məlumat verməyəcək. Lakin Eya bir vasitəyə əl atmışdı. Sirrini qamış daxma vasitəsilə Utnapiştiyə demişdir:

Lakin Eya sirləri danışmışdı daxmaya,

«Ey daxma, daxma, daxma. Eh divar, divar, divar,
Eşit, a daxma. Divar, yadda saxla nə ki, var.
Şuruppak şəhərində, Ubar-Tutunun oğlu.
Sökərək mülklərini, onlardan gəmi düzəlt
Bu var-dövləti tərk et, həyat barədə düşün.
Zənginliyə nifrət et, ruhunu xilas elə.
Sən bütün canlıları yığıb gəminə yüklə.
Qoy dördkünc olsun sənin düzəldəcəyin gəmi.
Eni də uzununa qoy tən olsun, düz gəlsin.
Taxtapuş vurdur ona, örtük çəkdir üstündən».

Uzun müddət qədim dövr haqqında əsas mənbə Bibliya idi. Onun əsas fəaliyyət göstərən personajları isə yəhudilər hesab olunurdu. Suriya və Fələstin xalqları, o cümlədən filistinlilər, amoreylər, hetlər və başqaları allah tərəfindən seçilmiş xalqın yolunda duran barbarlar hesab edilirdilər. Doğrudur, Misir adlı dövlət də var idi ki, Bibliyada dönə-dönə xatırlanırdı. Məbədlər, ehramlar, sfinkslər Misirin qədim şöhrətindən xəbər verirdi. Şübhəsiz, Misirin dünya sivilizasiyasının beşiyi olması heç kəsdə şübhə doğurmurdu. Şumerlər, Akkadlar və Babillər də var idi. Babilistanlı Novuxodonossor yəhudilərin cəzalandırılmasında mühüm rol oynamışdır. Sonra Assuriyalılar bir işğalçı kimi tarix meydanına çıxmışdır. Lakin onların hər biri öz allahları, kult və məbədləri, mədəniyyəti və mifologiyaları ilə tarixin yaddaşına əbədi surətdə həkk olunmuşlar. Həmin xalqlar ancaq adları ilə bir-birindən fərqlənirdilər. Vəzifələri və funksiyalarına görə onlar bir-birini təkrar edirdilər.

Dünya allahlar arasında bölüşdürülmüşdü. Anu hava və səmaya baxırdı. Enlilə yer tabe idi. Eya suya hakim idi. Onlar kahinlər tərəfindən yaradılmış allahlar üçlüyünün siyahısına daxil edilmişdilər. İkinci üçlüyə Günəş allahı Şamaş, ay allahı Sina və ilahə İştar daxil idi. Babillərdə Aya daha hörmətlə yanaşırdılar. Ayı Günəş allahının atası hesab edirdilər. Xarranda və Urda Ay allahı şərəfinə tikilmiş məbədlər var idi. Hətta Novuxodonossorun xələflərindən biri olan Nabonid Sini özünün şəxsi baş allahı elan etmişdi.

Şumerlərin Utu adlandırdıqları Günəş allahı Babil zamanı Şamaş adlanırdı. Həmin allah «yeri işıqlandıran, səma məhkəməsinin hakimi, yuxarıdan və aşağıdan qaranlığı şəfəqləndirən» hesab olunurdu. Hər səhər o, yoluna başlayaraq dağlardan yüksəyə qalxırdı, ona tabe olan ilahələr göylərə gedən yolların darvazalarını açırdılar. Axşamlar isə o, dənizə enirdi. Gecələr Şamaş öz arabasında yeraltı dünyaya hərəkət edirdi ki, ölülər işıq və yemək alsınlar. Öz yolunda o, ədəbsizlikləri və adamların bədxah işlərini görür və məhkəmə qururdu. Ona görə də onu ali hakim adlandırırdılar. Hammurapiyə görə, o, adamlara həqiqət və ədalət verirdi. Mesopotamiyanın qədim sakinlərinin dini həyatında allahlar mühüm rol oynayırdılar. Adamların məbəddə etiqad etdikləri allahlar panteonunun böyük allahları bütövlükdə dövlətin müdafiəçiləri hesab olunurdular. Qeyd etmək lazımdır ki, bizə məlum olan bütün ədəbiyyat e.ə. 2000-ci ildən sonra yazılmışdır. Həmin dövrdə sülhsevər xalq olan Şumerlər özlərindən mədəni cəhətdən geri qalan xalqlar tərəfindən əsarət altına alınmışdılar. Hammurapi çoxsaylı şəhər-dövlətləri işğal edərək böyük bir dövlət yarada bilmişdi. «Böyük inzibatçı» böyük imperiya yaradaraq öz dilini (bu dil semit dili qrupuna daxil idi) rəsmi dilə çevirdi. Bu isə Şumer sivilizasiyasına öldürücü zərbə vurmuşdu. Şumer mədəniyyəti mənimsənilmiş, Şumer allahları adlarını dəyişsələr də öz fəaliyyətlərini davam etdirmişlər.

İştar müxtəlif funksiyaları yerinə yetirən hərtərəfli ilahə olmuşdur. Məhəbbət və məhsuldarlıq ilahəsi kimi ölkəyə maddi rifah və inkişaf verən İştar, müharibə və döyüş ilahəsi kimi vuruşmada qalib padşahın önündə gedirdi. Gözəl və adamı başdan çıxaran qadın kimi o, kişilərə çox vaxt bədbəxtlik gətirirdi. Şumer mifologiyasında İştar çox ehtiyatla İnanna ilə eyniləşdirilə bilər. O, gənc qəhrəman Tammuzun (Dumuzun) sevgili arvadı kimi təsvir olunurdu. Lakin gec-tez sevgilisinə xəyanət edərək onu yeraltı dünyaya göndərmişdir. İlahəyə Mesopotamiyanın, demək olar ki, bütün şəhərlərində xüsusi məbədlər yaradılmışdı. Onun baş məbədi ən qədim zamanlardan Urukda olmuşdur. Babilistanda İştar ilahəsinin böyük məbədi mövcud olmuşdur.

Allah Adad tufanı, yağışı, fırtınanı, ildırımı idarə edirdi. O, təbiət hadisələri allahı olub, xüsusilə digər dağıdıcı qüvvələrin allahı kimi də məşhur olmuşdur. Şumer dövründə o qədər də parlamayan Adadın fəaliyyəti Babil dövründə daha geniş vüsət tapmışdır. Adadın əhəmiyyəti Mesopotamiyaya Semit tayfalarının axını ilə daha güclənmişdir. Həmin tayfalar Adadı «Bəndin səma idarəedicisi» adlandırırdılar. Onun təsvirlərində allahı bir əlində ildırım parçası, digər əlində isə balta tutmuş halda görmək olar. Yeraltı dünyanın hamisi İştarın bacısı ilahə Ereşkiqal idi. Bir dəfə bacısının paxıllığını çəkən Ereşkiqal yeraltı dünyaya baş çəkən İştarla çox pis rəftar etmişdi. İştar çox çətinliklə geri qayıtmışdı. Yeraltı dünyaya təşrif buyurmuş allah Nerqal Ereşkiqala qalib gəlmiş, onu özünə arvad etmişdi. Yeraltı dünyanın hakiminə çevrilən Nerqal yerlə əlaqəsini üzməmişdi. O, təbiətin bir sıra şər qüvvələrini ifadə edirdi. Yandırıcı günəş istisi, qızdırma və müxtəlif keçici xəstəliklər onun tabeliyində idi. Tədqiqatçıların fikrincə, Kutu şəhəri axirət dünyası və vəba allahı Nerqalın şərəfinə tikilmişdir.

Allahların rolu şəhər və dövlətlərin tarixi rolu ilə bağlı idi. Şumer dövründə ikinci dərəcəli rol oynayan

Marduk Babil dövründə baş allaha çevrildi. Hammurapi zamanında o, Anu və Enlili öz mövqelərindən sıxışdırdı. «Enuma eliş» (Yuxarıya yüksələn zaman) adlı didaktik poemada Marduka yaradıcı allah funksiyası verilir. Yeni Babilistan dövründə, xüsusilə Navuxodonossorun padşahlığı illərindən başlayaraq Marduk allahların əksəriyyətinin funksiyalarını əlinə keçirdi. Mardukun arvadı ilahə Tsarpanit idi. Onun köməkçi və müdafiəçi rolunda xüsusi işçiləri, «nazirləri» və s. qulluqçuları var idi. Bunu Tsarpanit haqqında da demək olar. Mardukun oğlu Nabu idi. Atasının rolu artdıqca oğlunun da rolu artırdı. Nabu mirzələr, müdriklik və elm hamisi idi. Mardukun mirzəsi olan Nabi atası üçün tale cədvəlləri hazırlayırdı. Nabunun simvolu yazı üçün qələm ağacı idi. Nusku işıq və od allahı, arvadı Qula - müalicə ilahəsi idi.

İkiçayarası ərazisində yaşayan xalqlar elmlərin əsasının yaranmasında mühüm rol oynamışlar. E.ə. II minillikdən başlayaraq onlar təbabət sahəsində bir sıra nailiyyətlər əldə etmişdir. Bəzi tədqiqatçılar bunu təbabət deyil, magiya ilə əlaqələndirirlər. Lakin bu magiya deyil, elmlərin ilkin rüşeymləri hesab olunmalıdır. Həmin dövrlərdən bizə gəlib çatan sənədlər bir ixtisas sahəsi kimi təbabətdə çalışan həkimlərin fəaliyyətindən söhbət açır. Hammurapinin qanunlar toplusunda elə maddələr vardır ki, onlar cərrahlığa həsr olunmuşdur. Orada hər əməliyyat üçün cərraha veriləcək haqdan söhbət gedir. Həkimin vurduğu zərər üçün cərimə və cəza da nəzərdə tutulurdu. Müəllimlər haqqında da maraqlı fikirlər vardır. Riyaziyyat və digər elm sahələrinin inkişaf etməsi haqqında bəzi sənədlər zəmanəmizə qədər gəlib çatmışdır.

Babilistanlılar astronomiya və astrologiyanı yüksək qiymətləndirir, onların allahları isə səma cisimlərini təcəssüm etdirirdilər. Məsələn, Sin və Şamaşa Ay və Günəş, Marduka - Yupiter, Nerqala - Mars, İştara - Venera, Nabuya - Merkuri müvafiq gəlirdi. Çox vaxt astral simvollar, allahların simvolları allahların özlərini ifadə edirdi. Şumer, sonralar isə Babil kahinləri sirli elmlərlə məşğul olurdular. Buraya sayların manipulyasiyası da daxildir. Allahlar rəqəmlərlə ifadə olunurdu. Ən yüksək sayda ifadə olunan allah Anu idi. Onun müqəddəs sayı (rəqəmi) 60 idi. Eni-50, Eya-40, Sin-30, sonralar baş allahlar sırasına daxil olmuş Mardukun rəqəmi ən aşağı - 10 idi. Adad özü 10 rəqəmi ilə ifadə olunurdu.

Şumerlər, sonralar isə Babillər allahları insan surəti təsəvvür edirdilər. Onlara qeyri-adi ölçüdə, fövqəladə malik, hər nəfəs alanda ağızdan od püskürən qabiliyyəti cəhətlər aid edilirdi. Allahlar fövqəladə güc və qabiliyyətə malik olduqlarından onlara qarşı heç kim çıxa bilməzdi. Şəkil də və heykəllərdə allahlar başlarında tac, qiymətli paltarlarda ilahilik əlaməti olaraq baş geyimlərində iki, yaxud üç öküz buynuzu sancılmış halda təsvir olunurdular. Allahlar əllərində öz hakimiyyətinin simvolunu tuturdular. Marduk - üzük əsa, Eya - su allahı kimi su doldurulmuş qab tuturdu. Quldarlıq cəmiyyətinin ideologiyasında qədim xalqların mifoloji təfəkkür tərzini müəyyən edən dini təsəvvürlər böyük rol oynamışdır. Din həmin dünyanın ümumi nəzəriyyəsi, məntiqi olmuşdur. Qədim Mesopotamiya dininin əsasında ilkin əkinçilik icmalarının qədim ilahəsinin kultları dururdu. Həmin dövr üçün totemizm, təbiətin yaradıcı qüvvələrinin ilahiləşdirilməsi səciyyəvi olmuşdur.

Qədim Şərq və ayrıca götürülmüş Mesopotamiya dini üçün səciyyəvi olan cəhət politeizm - çoxallahlılıq olmuşdur. Şumer dinində bu özünü daha aydın şəkildə göstərir. Şumer miflərinə görə, bütün allahlar ilkin okean ilahəsi Namuddan yaranmışdır. Bütün yerdə qalan allahlar Anu və Kinin nikahından meydana gəlmişdir. Sonrakı Semit dilli xalqlar - Akkadlar, Amoreylər, Xaldeylər və başqaları Şumer dinlərindən çox şey götürmüşlər. Mesopotamiya xalqlarının mifləri, xüsusilə dünya daşqını, cənnət həyatı, axirət dünyası, ölüm və dirilmə haqqında olan miflər kiçik Asiya xalqlarının dini görüşlərinə və Bibliya mifoloji ədəbiyyatının formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Qədim dünyanın adamlarında allahlara müxtəlif baxışlar hökm sürürdü. Bəzi hökmdarlar qələbə çaldıqları ölkələrin allahlarının heykəllərini də özləri ilə aparırdılar ki, onlar qalibləri himayə etsinlər. Bəzən qalib xalq məğlub xalqın heykəl və bütlərini uçururdu ki, onlar allahlardan kömək almasınlar. Bəzən allah heykəllərini kömək üçün digər ölkələrə də göndərirdilər. Məsələn, Mittaniya padşahı Nineviyadan Misirə xəstələnmiş firona İştarın heykəlini göndərmişdi ki, hökmdarı müalicə etsin. Allahları insan simasında təsəvvürünə gətirən qədim insanlar onlara insani keyfiyyətləri də aid edirdilər. Allahlar ölməz olsalar da, hər halda onlar ölürdülər və onları həyat suyu vasitəsilə diriltmək lazım gəlirdi. Bütün canlılar kimi onların da yeməyə, paltara ehtiyacı olduğunu göstərirdilər. Utnapişti və onun arvadından başqa bütün insanları məhv edən dünya daşqınından sonra, birinci nəzir gətirilən kimi allahlar «milçək kimi acgözlüklə» yeməyə atılmışlar. İnsanlar kimi onlar da dadlı yeməklər yemək, sərxoş olana qədər şərab içmək xoşlayırdılar. Rahat stul və çarpayılardan istifadə edirdilər. Gecələr qulluqçular allahların heykəllərini soyundurub təmiz çarpayılara uzadıb gündüzlər isə yuyundurur, darayırdılar. Allahlar arasında dalaşmalar da olurdu ki, bunu da ali allah yoluna qoymalı idi. Paxıllıq, özündən müştəbehlik və s. kimi insan xasiyyətlərinə onlarda da təsadüf edilirdi. Onlar daima bir-birini aldatmağa, kələk gəlməyə çalışırdılar. Onlar heç də insan qüsurlarından azad deyildilər.

Allahlar haqqında miflərin yaranması və geniş yayılmasında əsas rolu kahinlər oynamışdır. Keçmiş allahların adının, funksiyasının dəyişdirilməsində də onlar həlledici rol oynayırdılar. Xalq arasında qəhrəmanlar, yarımallahlar, iblislər dünyasına inam olduqca güclü idi. Qoca Babil torpağı öz qoynunda hələ çox sirləri gizlətmişdir. Şumer mədəniyyətindən bizə gəlib çatan kiçik nəğmə, ağı, dua və s. şeir parçaları

həcmcə az olduqlarına görə daha yaxşı mühafizə oluna bilmişdir.

İkiçayarasının cənub hissəsi Şumer, yaxud Şumer ölkəsi adlanırdı. Burada siyasi və iqtisadi cəhətdən mühüm mövqeyə malik olan şəhərlər meydana gəlmişdi. Cənubi İkiçayarasında urbanizasiya prosesi erkən dövrdə baş vermişdi. Şəhərlər hökmdar iqamətgahlarının, ticarət məntəqələrinin və su mənbələrinin ətrafında meydana gəlirdi. Müdafiə məqsədilə onların ətrafına sədlər çəkilirdi. İlk əvvəl bunlar şəhər tipli yaşayış məntəqələri idi. İqtisadiyyatın, ticarətin inkişafı şəhərlərin yaranmasına gətirib çıxarmışdı. Şəhər mühüm ictimai təşkilata çevrilmişdi. Belə şəhərlərin cərgəsinə Uruk, Kiş, Eredu, Larsa, Ur, Laqaş, Umma, İsin, Sippar, Şuruppak, Nippur və başqaları daxil idi. Hər bir şəhər müstəqil dövlət idi. Şumerdə ilk dövlətlər şəhər-dövləti kimi meydana gəlmişdi. Şumer əsatirlərinə görə, dövlət hakimiyyəti ilk dəfə Eredu şəhərində yaradılmışdı. Yazılı mənbə bunu belə ifadə edir: "Hökmdar hakimiyyəti göydən düşən zaman, Ereduda hakimiyyət vardı". Qaynaq bildirmək istəyir ki, ilk dövlət Eredu şəhərində meydana gəlibmiş. Aydındır ki, şumerlərin təsəvvürünə görə, hakimiyyət göydən düşmüşdür, yəni allah tərəfindən bəxş edilibmiş. Buna uyğun olaraq şumerlər əfsanəvi hökmdarların hakimiyyətini min və yüz illərlə ölçürdülər. Şumerlərin «Hökmdar siyahısı» erkən hakimiyyəti əfsanəvi «Ümumdünya daşqınından» əvvəlki dövrə şamil edirdi. Məsələn, Şuruppak şəhərinin hakimi Ziusudra belə hökmdarlardan biri hesab edilirdi. Onun adı əfsanəvi «Ümumdünya daşqını» ilə əlaqələndirilirdi. Guya o, 36 min il hökmdarlıq etmişdi. Ziusudra əfsanəvi hökmdar idi. Onun surəti akkad dini əsatirlərində Utnapiştim, Tövratda Noy, müsəlman dinində Nuh adı altında verilmişdir.

Şumerdə hökmdar hakimiyyətinin meydana gəlməsi e.ə. III minilliyin birinci yarısına təsadüf edir, halbuki şumer yazılı mənbələri, deyilən kimi, hökmdar hakimiyyətinin yaranmasını daha əvvəlki, əfsanəvi dövrlərə şamil edir. Şumerdə dövlət hökmdar hakimiyyəti şəklində artıq e.ə. IV minilliyin sonunda meydana gəlmişdi.

Erkən sülalələr. Şumer şəhər-dövlətləri e.ə. III minilliyin birinci yarısında meydana gəlmişdilər. Şumerdə mövcud olmuş dövlətlər adətən erkən sülalələr adı daşıyırdılar. Erkən sülalələr dövrü e.ə. XXVIII-XXIV əsrləri əhatə edir. Birinci erkən sülalə dövründə (e.ə. XXVIII-XXVII əsrlər) Kiş şəhər-dövləti siyasi üstünlük əldə etmişdi. I Kiş sülaləsinin onuncu hökmdarı guya 1560 il hakimiyyətdə olmuş əfsanəvi Etana idi. «Hökmdar siyahısı» göstərir ki, Etana çoban idi. Guya o, qartal qanadı üstündə göyə qalxmış, hakimiyyət rəmzini gətirmiş, sonra bütün ölkəni birləşdirmiş və hökmdar olmuşdur. Etana Şumer dövrü əfsanələrinin qəhrəmanı kimi məlumdur. Əfsanədə onun qartal qanadı üstündə göyə qalxmağı təsvir edilmişdir. Kişdən sonra Uruk şəhər-dövlətinin yüksəlişi başlandı. Uruk sülaləsi Kiş sülaləsi ilə yanaşı mövcud olmuşdur. Birinci Uruk sülaləsinin görkəmli hökmdarları En-Merkar, Luqalbanda və Gilqameş idi. En-Merkar şərqdə Aratta ölkəsi ilə münaqişəyə girmiş və son məqamda iqtisadi əlaqə yaratmışdı. Aratta Urmiyyə gölü hövzəsi (Cənubi Azərbaycan) ərazisinə verilən ad idi. Arattadan Uruka qızıl, gümüş, inşaat daşı, lacivərd (lazurit) və başqa qiymətli daşlar gətirilirdi.

Kiş dövlətinin onuncu hökmdarı Aka ilə Uruk hökmdarı Gilqameş arasında hakimiyyət uğrunda ədavət gedirdi. Bu mübarizə «Gilqameş və Aka» poemasında geniş əks olunur. O zaman Uruk şəhərinin ətrafına qala divarları çəkilmişdi. Məbəd və yaşayış evləri olan hissəni qoşa divar əhatə edirdi. 9.5 km uzanan divar, torpaq və bağ sahələrini də qalanın içərisinə almışdılar. Qalanın şimal və cənubunda 3.5 m enində darvazalar qoyulmuşdu. Qala divarlarının üzərində 800 yarımdairəvi müdafiə bürcü tikilmişdi. Qala divarının eni 5 metrə bərabər idi.

Ur sülaləsi. Şumerdə siyasi ağalıq (hegemonluq) uğrunda mübarizəyə I Ur sülaləsinin hökmdarları da qoşulmuşdular. Ur şəhərinin birinci hökmdarı Messanepada «Kiş şəhər-dövlətini zəbt edib Akanı taxtdan saldı. Bundan sonra Mesanepada «Kiş hökmdarı» rütbəsini qəbul etdi. Onun varisi dövründə Uruk hökmdarı Şumerdə ağalıq uğrunda mübarizəni gücləndirdi. Kiş yenə məğlub oldu, hegemonluq Gilqameşin əlinə keçdi. Gilqameş dövrünün görkəmli hökmdarlarından biri olmuşdur. Şumerlər onun şərəfinə dastan da yaratmışdılar. Bu əsər «Gilqameş haqqında dastan» adı ilə məlumdur. Burada Gilqameş yarı insan, yarı allah kimi təsvir edilmişdir. Dastanda Uruk şəhəri qala divarının Gilqameş tərəfindən çəkilməsi göstərilir.

I Ur sülaləsi Şumer tarixində nisbətən uzun müddət qabaqcıl rol oynamışdır. E.ə. III minilliyin ortalarında Ur şəhəri zəngin ticarət və mədəniyyət mərkəzinə çevrilmişdi. Arxeoloji qazıntılar zamanı Urda qiymətli əşyalarla dolu «hökmdar sərdabələri» aşkar edilmişdir. 1800 qəbir içərisində Ur hökmdarı Meskalamduq və hökmdar arvadı Şubadın (və ya Puabi) sərdabələri tapılmışdı. «Hökmdar siyahısında» və başqa mənbələrdə bu hökmdarın adı çəkilmir, lakin dairəvi qızıl möhür üzərində «Meskalamduq, hökmdar» sözləri yazılmışdı. Sərdabə əşyaları arasında qızıl dəbilqə, simli musiqi alətlərindən on birsimli arfa, lira, Şubadın qızıl tacşəkilli başlığı, qızıl və gümüş qədəh, kasa və başqa qablar, xəncər, nizə, qiymətli metal və daşlardan hazırlanmış heyvan fiqurları və s. aşkar edilmişdi. Liranın yuxarı hissəsinə lacivərddən düzəldilmiş qızıl öküz başı birləşdirilmişdi. Qızıl əşyaların hazırlanması o dövrün zərgərlərinin yüksək peşəkarlığına nümunədir. Qəbirlərin birində lacivərd, əqiq və sədəflə bəzədilmiş iyirmi santimetr uzunluğunda lövhə aşkar edilmişdi. Lövhə üzərində iyirmi bəzəkli dördbucaq şəkli vardı. Dördbucaqlar üzərində yeddi növ rəsm həkk olunmuşdu. Lövhə ilə yanaşı dairəvi oyun daşları da tapılmışdır. Bunlar hamısı müasir damanın qədim

nümunəsi kimi qəbul edilə bilər.
Ur qəbiristanlığı avadanlığı şumerlərin həyat və məişəti ilə tanış olmağa imkan yaradır. Şubadın sərdabəsində onun 25 müşayiətçisinin cənazəsi vardı. Digər hökmdar Abarginin sərdabəsində 60 cənazə aşkar edilmişdi. Bunlar qadın və döyüşçülərdən ibarət olmuşdur. Döyüşçülərin hər birinin əlində nizə, başında isə tunc dəbilqə vardı. Qadın skeletləri yanında ən qiymətli bəzək əşyaları səpələnmişdi. I Ur sülaləsinin nümayəndələri müxtəlif rütbələr, o cümlədən «Kainatın hökmdarı» rütbəsini daşıyırdılar.

Laqaş şəhər-dövləti. Laqaş erkən sülalələr dövrünün son mərhələsində (e.ə. XXV-XXIV əsrlər) yüksəlməyə başlamışdı. E.ə. III minilliyin ortalarında Laqaş iqtisadi və siyasi çiçəklənmə dövrünə qədəm qoymuşdu. Laqaş sülaləsinin banisi Urnanşe idi. O, Laqaş dövlətinin qüdrətinin əsasını qoydu. Barelyeflərin (qabarıq nəqş rəsmi) birində Urnanşenin məbəd tikintisində iştirakı təsvir edilmişdir. Urnanşe öz ailəsi ilə birlikdə təntənəli mərasimin ön cərgəsində gedir. Onun arxasınca oğullarına nisbətən daha iri təsvir edilmiş qızı addımlayırdı. Bu, şumer qadınının ictimai həyatda tutduğu yüksək mövqe ilə izah oluna bilər. Məbəd tikintisi, kanal çəkilməsi, taxıl quyularının qazılması, su yollarının geniş istifadə edilməsi və s. Urnanşenin adı ilə bağlıdır.

Əvvəllər məbəd təsərrüfatı və məbəd əmlakı hökmdarın səlahiyyəti altına keçmişdi, kahinlərin məbəd təsərrüfatı gəliri üzərində hüququ məhdudlaşdırılmışdı. Yeni hökmdar Uruinimgina məbəd torpaqlarını və gəlirini kahinlərin sərəncamına qaytardı. Əvvəllər vergi toplayanlar özbaşınalıq edirdilər, əhalidən xeyli müxtəlif vergilər toplayırdılar. Yeni hökmdar məbəd torpaqlarını, gəmiləri və sahilləri («limanları») vergi toplayanlardan təmizlədi. Əvvəllər kahinlər dini mərasimlərin həyata keçirilməsi üçün əhalidən cürbəcür vergi toplayırdılar: mərhumu dəfn etmək üçün onun ailəsindən 7 bardaq pivə, 420 kökə, bir paltar, bir çəpiş və s. vergi alırdılar. Uruinimgina dini mərasim vergisini qaydaya saldı və verginin miqdarını xeyli azaltdı. O, məmurların, kahinlərin, varlıların əhaliyə və yoxsullara qarşı özbaşına hərəkətlərini məhdudlaşdırdı. Hökmdar «yoxsul ananın» bağına girib məhsulu vergi əvəzinə özbaşına götürməyi qadağan etdi. İslahatda yoxsul və kimsəsizləri müdafiə edən ifadə işlədilmişdi: «Güclü, qul və yetimləri qoy incitməsin». Bu ifadə sonrakı qanun külliyyatlarında da təkrar olunurdu.

Umma şəhər-dövlətinin yüksəlişi. Tədricən Umma şəhər-dövləti güclənirdi. Umma sərhəd torpaqları üstündə Laqaş ilə uzun müddət ədavət aparmışdı. Umma hökmdarı Luqalzaqqesinin hakimiyyəti illərində (25 il hakimiyyətdə olmuşdur) Şumeri siyasi cəhətdən birləşdirmək cəhdi göstərildi. Luqalzaqqesi ilk növbədə Uruk şəhərini özünə tabe etdi. Bundan sonra o, Laqaşı tutdu və Uruinimginanı hakimiyyətdən saldı, məbədləri qarət etdi. Mənbələr məlumat verirlər ki, Laqaşın süqut etməsində «Hökmdar Uruinimginanın heç bir təqsiri yoxdur». Sənədi tərtib edən şəxs bununla Uruinimginanın islahatlarına bəraət qazandırırdı. Laqaş dövlətinin məhv olması Luqaizaqqesinin günahı kimi qələmə verilirdi. Mənbə qeyd edirdi ki, ölkənin məhv olmasında «Luqalzaqqesi, Umma hökmdarı təqsirkardır. Qoy onun himayədarı ilahə Nidaba onu öz günahını daşımağa düçar etsin».

Luqalzaqqesi Uruk şəhərini paytaxta çevirdi. O öz hakimiyyətini digər Şumer şəhərlərinə yaydı. Ur, Larsa, Nippur, Kiş tutuldu. Artıq bütün Şumer Luqalzaqqesinin hakimiyyəti altına keçdi. Cənubda o, «Aşağı dənizə» (Fars körfəzi) kimi gəlib çatdı. Şimalda «Gün çıxandan gün batana» qədər olan ərazini (yəqin ki, şimalda Zaqroş dağları zonasından Aralıq dənizinə kimi uzanan ərazi nəzərdə tutulur) zəbt etdi. Bununla da Dəclə və Fərat çayları vasitəsilə «Yuxarı dənizə» yol açıldı.

Akkad dövləti

Akkad dövlətinin banisi Sarqon (e.ə. 2316-2261-ci illər) dövrünün görkəmli dövlət xadimi və sərkərdəsi olmuşdur. Sarqon (akkadca Şarrumken) tərcümədə «həqiqi, qanuni hökmdar» deməkdir. Ehtimal edirlər ki, o, hakimiyyəti zorla ələ keçirmişdi. Sarqon mənşəyi etibarilə aşağı sosial təbəqələrə mənsub olmuşdur. Hələ qədimdə onun adı ilə bağlı əfsanələr yaranmışdı. Əfsanəyə görə o, Kiş hökmdarının sarayında nökər kimi işləmişdir. Nisbətən dəqiq məlumat Sarqonun öz yazısında əks olunmuşdur: həmin mənbə qeyd edir ki, Sarqonun anası rəiyyət təbəqəsindən idi. Sarqon atasını görməmiş, əmisi isə dağ sakini olmuşdur. Anası onu gizli doğmuş, qamışdan hörülmüş səbətə qoyub çaya atmışdır. Səbət suçu Akkinin bağına axmış, o, uşağı götürüb öz övladı kimi saxlamış və ona bağban peşəsini öyrətmişdi. İlahə İştar nəvaziş göstərərək hakimiyyəti ona tapşırmışdı. Öz mənşəyi və hakimiyyətə gəlməsi barədə Sarqon belə məlumat vermişdir.

Akkadlı Sarqonun fəaliyyəti. Hakimiyyətə gəldikdən sonra Sarqon Akkad şəhərini (Dəclə və Fərat çayları arasında) saldırdı və onu paytaxt etdi. Akkad dövlətinin adı bu şəhərin adından götürülmüşdür. Sarqon dövləti möhkəmləndirmək üçün bir sıra tədbirlər həyata keçirmişdi. Mərkəzləşmiş vahid Şumer və Akkad dövləti bərqərar olduqdan sonra o, yeni kanallar çəkdirdi, Şumerdə ümumi suvarma sistemi yaratdı. Bütün dövlət üçün vahid ölçü və çəki sistemi müəyyənləşdirdi. Bunun nəticəsində su və quru ticarəti genişləndi, ölkədə əmtəə-pul münasibətləri inkişaf etdi. Ölkənin hərbi qüdrətini qaldırmaq üçün o, daimi ordu yaratdı. Ordunun yenidən təşkili bir sıra uğurlu müharibələrin aparılmasına imkan verdi.

Akkadlı Sarqon nəinki bütün İkiçayarasını vahid dövlət şəklində birləşdirdi, eyni zamanda Ön Asiyanın yeganə hegemonuna çevrildi.

Sarqonun nəvəsi Naram-Suenin (e.ə. 2236-2200-cü illər) hakimiyyəti illərində Akkad dövləti yenidən əvvəlki qüdrətə sahib oldu. Naram-Suen özünü «Akkadın allahı» adlandıran ilk hökmdar idi. O, işğalçılıq siyasətini davam etdirməyə başladı. Naram-Suen Akkad siyasi təsir dairəsindən çıxmış bir sıra ölkələri özünə tabe etdi... O, Subartunu və qərbdə «Sidr meşələrinə» qədər ərazini zəbt etdi və onlardan xərac aldı. Naram-Suen Dəclə çayının şərqində yerləşən Arman vilayətini, Fərat çayının qərbindəki Ebla və Aman (şimali Suriya) ölkələrini Akkad siyasi təsir dairəsinə saldı. «Yuxarı dənizə» (Urmiyyə gölü) kimi ərazi tutuldu.

Qudeanın (e.ə. 2133-2117) canişinliyi dövründə Laqaş daha da inkişaf tapır və bütün Şumeri idarə edirdi. Qudea Ur-Babanın yeznəsi kimi hakimiyyətə sahib olmuşdu. Şumer canişinləri Ur şəhərindən tutmuş Nippura qədər onun hakimiyyətinə tabe idi. Qudea öz növbəsində kutilərin canişini hesab edilirdi. Kutilərin canişini olmasına baxmayaraq Qudea müstəqil siyasət yürütmək səlahiyyətinə malik idi. Mənbələr Qudeanı «xeyirxah və ədalətli çoban», yaxud ensi adlandırırdı. O, luqal rütbəsini işlətmirdi. Qudea işğalçılıq müharibələri aparmırdı, ölkənin daxilində əmin-amanlığı və dini həyatı təmin etməyə çalışırdı. Mənbələrin məlumatına görə, Qudeanın sayəsində «hələm-qələm danışan təhlükəli qadın cadugərləri şəhərdən çıxarıldı, heç kəs qayışla döyülmürdü, heç kəsi qamçılamırdılar, ana öz oğlunu döymürdü... Laqaş daxilində mülki iddiası olan adam heç kəsi and içməyə gətirmirdi, sələmçi azad adamın evinə girmirdi... Yeddi gün (məbədin açılmasına həsr edilmiş günlər) arpa üyüdülmədi, kəniz xanımla bərabərləşirdi, qul ağası ilə yanaşı addımladı... O, məbəddən rəqabəti uzaqlaşdırdı... varlı yetimi incitmədi, güclü dul qadını incitmədi...», «ağa döyüləsi qulun başına qapaz vurmadı, xanım günah işlətmiş kənizə sillə vurmadı...» Bu mətndə Qudeanın siyasi tədbirləri əks olunmamışdır. Belə mətnlər təbliğat naminə tərtib olunurdu. Ola bilsin ki, məbəd açılışı zamanı yeddi gün ərzində müvafiq ayinə uyğun olaraq qul və ağalar məbəddə sosial baxımdan «bərabərləşirdilər». Qədim sənədlər göstərir ki, qullar istismar olunurdular, ağaları ilə eyni hüquqa malik deyildilər. Digər tərəfdən, Qudeanın canişinliyi dövründə Laqaşda və ümumiyyətlə, Şumerdə müəyyən əmin-amanlıq yaradılmışdı. Bunu təkcə Qudeanın adı ilə bağlamaq düzgün deyildir. Yəqin ki, məhz kutilərin hakimiyyəti Şumerdə əmin-amanlıq və dinc yaşayış şəraitini təmin etmişdi.

Belə bir şəraitdə Qudea tikinti işləri ilə daha çox məşğul olurdu. Məbəd inşasına diqqət verilirdi. Abidələrin birindəki təsvirdə Qudea oturmuş halda, dizi üzərindəki tikiləcək məbədin layihəsini nəzərdən keçirir. Məbəd tikintisində şumerlərdən başqa qonşular da iştirak edirdilər. Mənbə qeyd edir ki, məbəd tikintisinə «elamlı Elamdan gəlirdi, Suz sakini Suzdan gəlirdi». Qudea bir sıra ölkələrlə ticarət əlaqələri yaratmışdı. Ticarət vasitəsi ilə ölkəyə taxta, xüsusilə sidr, inşaat daşı, qızıl, mis, qır və s. gətirilirdi. Məbəd tikintisi Laqaş, Nippur, Adab, Nqirsu və başqa şəhərlərdə həyata keçirilirdi. Kişi və qadınlar məbədə qurban göndərməli idilər. Məbəd tikintisi nəinki qurban verməni genişləndirir, eyni zamanda vergilərin artırılmasına gətirib çıxarırdı.

Bəzi mülahizələrə görə, Qudeanın hakimiyyəti dövründə Şumer ədəbiyyatı və incəsənəti çiçəklənmə dövrünü keçirirdi. Şumer kənar ölkələr ilə iqtisadi və ticarət əlaqələri saxlayırdı. Yuxarı dənizdən (Urmiyyə gölü) Aşağı dənizə (Fars körfəzi) qədər uzanan ticarət yollarından sərbəst istifadə edirdi. Qudea suvarma kanallarının çəkilməsinə, əkinçilik və bağçılığın inkişafına da diqqət yetirirdi. Onun dövründə məbəd təsərrüfatı müstəqil iqtisadi sahəyə çevrilmişdi. Mənbələr kutilərin hakimiyyəti dövründə əkin sahələrinin məhsuldarlığından, taxıl bolluğundan, mal-qaranın saysız-hesabsız olmasından bəhs edir.

Kuti sülaləsi səksən ilə yaxın İkiçayarasını rahat və münaqişəyə rast gəlmədən idarə etmişdi. Bu müddət ərzində İkiçayarası işğalçılıq müharibələri aparmamışdı. Təkcə canişin Qudeanın Elamın Anşan vilayətinə hərbi dəstələr göndərməsi məlumdur. Utuhenqalın adına çıxılan kitabədə kutilərin ünvanına mənfi ifadələr işlətmişdir. Kitabə onları «dağların zəhərli ilanı, allahlara əl qaldıran, Şumer hakimiyyətini dağlara aparan, Şumeri ədavətlə dolduran, arvadı ərindən ayıran, övladı valideynindən ayıran, ölkədə ədavət və hiddət yayan» adamlar kimi qələmə vermişdi. Lakin kutilərin ünvanına deyilmiş ittihamları təsdiq edən heç bir əlavə tarixi sənəd qalmamışdır.

Ur sülaləsi. Ur-Nammu III Ur sülaləsinin (e.ə. 2112-2003-cü illər) banisi kimi məlumdur. III Ur sülaləsi sonuncu Şumer dövləti idi. Ur-Nammunun dövləti Şumer və Akkad ənənələrini davam etdirirdi. O, «Ur hökmdarı, Şumer və Akkad hökmdarı» rütbəsini qəbul etmişdi. Ur-Nammu Şumer və Akkad hökmdarlarına xas olan ənənəvi inşaat işlərini davam etdirirdi. O, bütün Şumerdə məbəd tikintisini genişləndirmiş, əzəmətli və bürclü Ur məbədini (zikkuratı) tikdirməyə başlamışdı. Bu tikinti onun oğlu Şulqi tərəfindən başa çatdırıldı. Min beş yüz il sonra Babil hökmdarı Nabonid əzəmətli Ur zikkuratını yenidən bərpa etdirmişdi. Ur-Nammu yeni kanallar çəkdirdi. Bunlardan Ur-Eredu su kanalı daha əhəmiyyətli idi. Bu kanal Fars körfəzinə gətirib çıxarırdı. Ur-Nammu qanunlar külliyyatı tərtib etdirmişdi. Bu indiyə qədər məlum olan ən qədim qanunlardan hesab edilir.

Ur-Nammu qanunları 1952-ci ildə Nippur qazıntıları zamanı tapılmışdı. Kitabə zədələndiyindən qanunlar tam qalmamışdır. Qanunlar külliyyatı giriş və maddələrdən ibarətdir. Giriş hissəsində qanunların allahların iradəsi ilə verildiyi qeyd olunurdu. Urnammu «allahın lütfü» sayəsində hakimiyyətə gəldiyini söyləyir. Qanunların verilməsi və ya hakimiyyətə sahib olmaq qədim dövrdə bir qayda olaraq allahın adı ilə bağlanılır. Ur-Nammu «ədalətli qayda-qanun» yaratdığını söyləyirdi. Onun qanunları «qoy güclü dul

qadınları və yetim-yesiri incitməsin» ifadəsi ilə başlayırdı. Ur-Nammu sabit ölçü və çəki qaydaları müəyyənləşdirdi, bununla bazar qiymətlərinin kortəbiiliyini aradan götürməyə nail olmaq istədi. Şumer cəmiyyətində artıq mülkü bərabərsizliyin geniş vüsət alması müşahidə olunur. Qanunlarda bunu qabarıq şəkildə göstərən maddə vardır. Maddədə deyilir ki, «Bir şekel (pul vahidi) sahibi bir mina (60 şekel) sahibi tərəfindən istismar edilməməlidir». Göründüyü kimi, varlı təbəqələr azad icmaçıların əməyindən məcburi istifadə edirmişlər.

Ur-Nammu qanunları müxtəlif hüquq normalarını qaydaya salmışdı. Şumer cəmiyyətində cadugərlik geniş yayılmışdı. Cadugərliyin qarşısını almaq üçün qanunlarda xüsusi maddə nəzərdə tutulmuşdu. Maddəyə görə, cadugərlikdə təqsirlənən şəxs öz günahsızlığını sübut etmədi idi. Onun günahsız olub-olmamağını ordaliya vasitəsilə yoxlayırdılar. Ordaliya - su ilə sınama hüquq forması idi. Müqəssiri suya atırdılar, əgər o, salamat qalırdısa, günahsız hesab olunurdu. Ur Şumer cəmiyyətində bir sıra hallarda varlıları da cadugərlikdə təqsirləndirirdilər. Varlıların cadugərliyi sübut olunardısa, onda onun malı ittihamçı şəxsə verilirdi. Əsassız ittihamların qarşısını almaq üçün böhtançılara da su ilə sınama (ordaliya) tətbiq olunurdu. Şumer cəmiyyətində cadugərlik təqib olunurdu.

Maddələrin birində qulların vəziyyətindən bəhs olunurdu. Qullar ağır istismara düçar idilər. Buna görə onlar ağa təsərrüfatından qaçırdılar. Maddə qaçqın qulu ağasına qaytarana mükafat vəd edirdi. Qul-kənizi öldürən onun əvəzini, yaxud qiymətini ödəməli idi. Bəzi maddələr xəsarət üçün cəza nəzərdə tuturdu. Əgər azad adam kiməsə bədən xəsarəti yetirərdisə, ona pul əvəzi verməli idi. Qanunlarda ailə münasibətlərinə toxunan maddələr də vardı. Qadının ərə xəyanəti ölüm ilə cəzalandırılırdı. Ər arvadını boşayarkən, onu müəyyən pul məbləği ilə təmin etməli idi. Sənədləşdirilməmiş nikah qanunsuz hesab edilirdi. Evlənən gənc qızın atasına nikah hədiyyəsi (başlıq) verməli idi. Əgər qızın atası vədinə əməl etməyib onu başqasına versəydi, nikah hədiyyəsi sahibinə ikiqat məbləğdə qaytarılmalı idi.

Qanunlarda torpaq münasibətləri də əks olunmuşdu. Özgə torpağını zəbt edib becərmək qadağan edilirdi. Belə hallarda məhsul müsadirə olunur, torpağı özbaşına tutmuş adam isə cərimə edilirdi. İcarədar götürdüyü torpaq sahəsini becərməli və torpaq sahibinə əvvəldən müəyyənləşdirmiş miqdarda məhsul verməli idi. Sahə işlənməmiş qalsaydı, icarədar torpaq sahibinin zərərini ödəməli idi.

Erkən Şumer dövlətləri «en» (ağa, dini hakim) adlanan ali kahin tərəfindən idarə olunurdu. En dövlət və məbəd işlərinə, suvarma kanallarının çəkilməsinə, ölkənin təsərrüfat həyatına, hərbi işlərə rəhbərlik edirdi. İbtidai demokratiya əlamətləri öz varlığını hələ saxlayırdı. Tədricən Şumer dövlətlərində hökmdar hakimiyyəti meydana gəldi. Dövlətin başında «ensi» (tikinti zamanı xalqa rəhbərlik edən kahin), yaxud «luqal» (böyük adam, hökmdar) dayanırdı. Adətən luqal, hökmdar kimi, daha böyük şəhər-dövlətlərinə başçılıq edirdi. Vahid Şumer dövləti mövcud olan zaman luqal ancaq hökmdara, ensi ona tabe olan canişinə, yaxud ali kahinə şamil edilirdi. Erkən sülalələr dövründə ağsaqqallar şurası və xalq yığıncağı öz mövqeyini saxlayırdı. Mülki bərabərsizliyin inkişafı ilə əlaqədar olaraq xalq yığıncağı dövlət idarə orqanı kimi öz əhəmiyyətini itirdi. Tədricən hökmdar hakimiyyəti iqtisadi, siyasi və hərbi cəhətdən möhkəmləndi. Bunun da nəticəsində ağsaqqallar şurasının idarə orqanı kimi əhəmiyyəti azaldı. Erkən sülalələr dövründə müstəbid monarxiya hakimiyyət forması meydana gəldi, hökmdar qeyri-məhdud hakimiyyətə malik oldu. Hökmdar hakimiyyətinin güclənməsi ilə yanaşı onun dayağı olan ordu da meydana gəldi. Erkən sülalələr dövrünün sonunda artıq daimi ordu yaranmışdı.

Erkən Şumer dövlətləri şəhər və onun ətrafındakı kəndlərdən ibarət olmuşdu. Şumer şəhər-dövlətlərində istehsal, ərzaq və əmtəə mübadiləsi aşağı səviyyədə inkişaf tapmışdı. Şəhər-dövlətləri arasında geniş iqtisadi əlaqələr mövcud deyildi. Bunların nəticəsində sinfi ziddiyyətlər kəskin şəkil almışdı. Qulların sayı az idi. Erkən sülalələr dövrünün sonunda İkiçayarasında siyasi hegemonluq uğrunda mübarizə başlandı. Hökmdar hakimiyyətinin rolu artdı. Bütün Şumeri siyasi və iqtisadi cəhətdən birləşdirmək meyli gücləndi.

Erkən sülalələr dövründə və sonralar ölkənin iqtisadi əsasını əkinçilik təşkil edirdi. Əkinçilik təsərrüfatı süni suvarmaya əsaslanırdı. Süni suvarma sisteminin inkişaf etdirilməsi e.ə. III minillikdə Şumer və Akkad hökmdarlarının başlıca vəzifəsi olmuşdur. Suvarma kanallarının çəkilməsində iştirak ictimai vəzifə idi və bunu bütün icma üzvləri həyata keçirirdi. İkiçayarasında sənətkarlıq, daxili və xarici ticarət inkişaf etmişdi. Şəhərlər sənətkarlıq və ticarət mərkəzlərinə çevrilirdi.

Mülki bərabərsizliyin və sinfi ziddiyyətlərin kəskinləşməsi nəticəsində quldarlıq münasibətləri inkişaf edirdi. E.ə. III minilliyin ikinci yarısında bu daha da gücləndi. Qul əməyi məbəd, hökmdar (dövlət) və xüsusi təsərrüfatlarda tətbiq olunurdu. Qulların mal-qara kimi baş-baş sayırdılar. Əsir qullar «yad ölkəli», yaxud «saq» («baş» deməkdir), xüsusi qullar «urdu», yaxud «ere» adlandırılırdı. Qul sahibkarın xüsusi mülkiyyəti hesab olunurdu.

III Ur sülaləsi dövründə xırda istehsalçılar arasında müflisləşmə genişləndi. Yoxsullar öz övladlarını köləliyə satmağa məcbur olurdular. Bunun nəticəsində borc köləliyi meydana gəldi. Artıq yerli əhali kölə halına salınırdı. Şulginin hakimiyyəti illərindəki məhkəmə sənədindən görünür ki, bir sıra hallarda qullar öz kölələik mənşəyini danırdılar. Sənədlərdə Ahuma adlı bir qulun məhkəmə məsələsi təsvir olunur: ağası vəfat etdikdən sonra əmlak bölgüsü zamanı Ahuma elan edir ki, «Mən qul deyiləm». Məhkəmə şahidlər vasitəsilə

onun qul olduğunu təsdiq edir. Lakin bir müddət keçəndən sonra Ahuma yenidən elan edir: «Mən qul deyiləm». Məhkəmə əvvəlki hökmü qüvvədə saxlayır. Maraqlıdır ki, Ahumanın qardaşı məhkəmədə istintaqa cəlb olunmuş şahid sifəti ilə çıxış edirdi, deməli, onun qardaşı azad adam olmuşdu. Yəqin ki, Ahuma ailə tərəfindən vaxtilə köləliyə satılmışdı. Sənədlərdən görünür ki, qul ilə ağa arasında mübahisə 15 il davam etmişdi. 300 il sonra Hammurapi qanunları (282) belə hallarda ağır cəza tətbiq edirdi: öz ağasından imtina edən qulun qulağı kəsilirdi. Şu-Suenin hakimiyyəti dövrünə aid sənəddə Pana adlı qadının məsələsi əks olunmuşdu. Papa elan edir ki, «nə o, nə də onun qızı kölə deyillər». Məhkəmə müəyyənləşdirir ki, Pana və onun qızı ərinin cinayətinə görə köləliyə verilmişlər.

III Ur sülaləsi dövründə azad adamların müflisləşməsi nəticəsində köləliyə düşməsi prosesi güclənmişdi. Bu zaman qulların sayı çox olduğundan, bir qulun qiyməti 9-10 şekel idi. Hər bir azad icmaçı, sənətkar ailəsində bir neçə qul vardı. Adətən fərdi təsərrüfatda işləyən qullara ailə və əmlak saxlamağa icazə verilirdi. Onlar müəyyən ödəmə verib azadlığa çıxa bilərdilər. Qul ağasından məhkəməyə şikayət edə bilərdi. Qulu bəzən şahid sifəti ilə dəvət edirdilər. Qullar alınıb-satılırdı. Ailə icmaçılarının müflisləşməsi övladların köləliyə satılmasına şərait yaradırdı.

Məbəd və hökmdar təsərrüfatında işləyən qulların vəziyyəti ağır idi. Hökmdar (dövlət) təsərrüfatında işləyən kişi qullar «quruş», qadın qullar «nqeme» adlanırdı. Dövlət təsərrüfatında işləyən qullar xüsusi düşərgədə yaşayır, gündəlik azuqə alırdılar. Kişi qullarla 1.5 litr, qadın qullara 0,75 litr gündəlik arpa payı, 3-4 litr bir aylıq bitki (küncüt) yağı və günə 1.5 kq hesabından birillik un verilirdi. Quruşlar istehsal alətlərinə malik deyildilər, qeyri-iqtisadi istismara düçar olmuşdular. Fərdi və dövlət qulları istismar olunan sinfə mənsub idilər.

İkiçayarasında icma idarəsi öz varlığını saxlayırdı. İcmalar suvarma kanallarının çəkilməsi və təmiz saxlanılmasında yaxından iştirak edirdilər. İcma üzvlərinin müflisləşməsi icbari əmək prosesinə cəlb olunmuş adamlarının sayını artırırdı. İcmanın torpaq ehtiyatı vardı. Bu torpaq icma mülkiyyəti hesab olunurdu. Daha geniş torpaq sahələri dövlət təsərrüfatına mənsub idi. III Ur sülaləsi dövründə dövlət torpaq mülkiyyəti əvvəlki dövrə nisbətən daha çox sahələri əhatə edirdi. Məbəd təsərrüfatı da tədricən möhkəmlənməyə başlamışdı. Təsərrüfat həyatında kahinlərin mövqeyi güclənmişdi. Kahin təbəqəsi dövlətin dayağı idi. Onlar dövlət idarələrində, icma təşkilatlarında xidmət edirdilər. Məhkəmə işlərinə baxılması kahinlərin iştirakı ilə keçirilirdi.

Şumer və Akkad şəhər-dövlətləri, eləcə də bütövlükdə Babilistan mədəniyyəti «tunc əsri mədəniyyətinin» tipik nümunəsi hesab edilir. Mesopotamiya ərazisində elm çox tez meydana çıxmışdı. Tapılmış yüzlərlə riyaziyyat mətnləri ən qədim Babilistan padşahlığı dövrünə aiddir. Burada vurma cədvəli, kəmiyyət, kvadrat, say, xüsusilə məsələlər və onların həlli yazılmış yazılar müasir dövrə qədər gəlib çıxmışdır. Qədim Babil astronomları səma cisimlərini sistemli şəkildə müşahidə edirdilər. Makedoniyalı İsgəndərin dövründən 2250 il qabaq ayın tutulması cədvəlini yaratmışdılar. E.ə. II minilliyin başlanğıcında Ay-Günəş təqvimi yaradılmışdır. Hammurapinin əlavə ay haqqında verdiyi fərman bizə gəlib çatmışdır. Tapılmış tibbi mətnlər təbabətin müalicə magiyasından ayrıldığını göstərir.

Elmlə əlaqədar təfəkkür vərdişləri də meydana gəlir. Lakin hər halda fəlsəfə sistemli şəkildə Babilistanda yarana bilməmişdir. Daha dəqiq desək, onlar geniş şəkildə qəbul olunmuş fəlsəfə yarada bilməmişlər. Onların heç vaxt ağlına da gəlməzdi ki, şeylərin həqiqi təbiəti, yaxud da onların şeylər haqqında təsəvvürləri şübhə doğura bilər. Onlarda fəlsəfənin qnoseologiya (idrak nəzəriyyəsi) sahəsi demək olar ki, olmamışdır. Bununla yanaşı, Şumerlər təbiət haqqında, dünyanın yaradılması qanunları haqqında fərziyyələr irəli sürürdülər. Artıq e.ə. III minillikdə Şumerdə elə mütəfəkkirlər və pedaqoqlar meydana gəlmişdi ki, bəşəri sualları irəli sürür və ona cavablar axtarıb tapmağa çalışırdılar. Onlar özlərinin kosmologiya və teologiyasını yaratmışdır. Həmin mütəfəkkirlərin yaratdığı baxışlar sistemi o qədər inandırıcı olmuşdur ki, Yaxın Şərqin əksər ölkələri həmin sistemi etirazsız qəbul etmişlər.

Qədim Şumer ədəbiyyatında şumer kosmologiya və teologiyasının sistemli fəlsəfi şərhini axtarmaq mənasızdır. Çünki Şumer mütəfəkkirləri idrakın əvəzedilməz silahı olan müəyyənetmə və ümumiləşdirmə kimi elmi metodlarına yiyələnməmişdilər. Gündəlik həyatın bu asılılıq haqqında minlərlə nümunə verməsinə baxmayaraq, Şumer mütəfəkkirləri həmin nümunələrdən hər şeyi ümumi və hərtərəfli əhatə edən qanunu çıxara bilməmişdilər. Qədim Şumer fəlsəfəsi, teologiya və kosmologiyası haqqında məlumatın ayrı-ayrı ədəbi əsərlərdən, miflərdən, epik əsatir və himnlərdən toplanması heç də təəccüb doğurmur. Şumerlərin fəlsəfi və teoloji nəzəriyyələrinin, habelə dünya haqqında təsəvvürlərinin ilkin və əsas ünsürləri torpaq və səma (yer və göy) idi. Onlar kainatı «an-ki»-»yer-göy» adlandırırdılar.

Şumerlərə görə yer yastı disk, göy isə boş məkan olub aşağıdan və yuxarıdan möhkəm səthə söykənmişdir. Onlar bu səthin hansı materialdan hazırlandığını bilmirdilər. Yerlə göy arasında üçüncü element - «külək» - hava, «ruh» yerləşirdi. Bu, bizim anlayışla atmosferə uyğun gəlirdi. Günəş, ay, planetlər və ulduzlar atmosferin yarandığı şeydən yaranmışdır və fərqi ondadır ki, işıq sala bilirlər. «Göy-Yer» aşağıdan, yuxarıdan, hər iki tərəfdən ucsuz-bucaqsız okeanlarla əhatə olunmuşdur.

Şumer mütəfəkkirləri özlərinin kosmoqoniyasını bu əsas təsəvvürlərlə qururdular. Onların fikrincə,

birinci okean olmuşdur. Okean «birinci hərəkətverici» olmuşdur. Lakin onlar okeanın zamanda və məkanda mövcudluğunu fikirləşmirdilər. Sonra atmosfer yaranır, atmosferdən isə işıq verən cisimlər - günəş, ay, planet və ulduzlar yaranır. Göyün yerdən ayrılmasından sonra bitkilər, heyvanlar və nəhayət, insan meydana gəlmişdir. Kainatı kim yaratmışdır və onu gündən-günə, ildən-ilə hərəkət etməyə kim məcbur edir? Şumer teoloqları allahlar panteonunda hər bir allahın öz iş-gücü və funksiyası olduğuna inanırdılar. Allahlar birlikdə Kainatı da hərəkətə gətirirdilər. Şumer filosoflarına görə allahlar öz niyyətlərini sözlə ifadə edən kimi həmin iş baş verirdi. Yəni onlar sözün yaradıcı qüdrətinə inanırdılar. Təsadüfi deyildir ki, allah sözünün həllediciliyi Şərqdə qəbul edilmiş, sonrakı dinlərdə əsas yeri tutmuşdur. Şumerlərin fikrincə, insanın taleyinə həyatını yaşamaq və ölmək düşür. Tanrıların taleyi isə başqadır.

«İnsan ayran kimidir, tanrılarsa yağ kimi,
Adam saman kimidir, tanrılar buğda kimi».

Şumer filosoflarının fikrincə, insan həyatı əbədi ola bilməz. Əcəl hamının qapısını döyməlidir. İnsan ölümə məhkumdur.

Qədim şumer şair-mütəfəkkiri fikirlərini sual-cavab şəklində belə qururdular:

Qəzəbli, qəddar əcəl adama verməz aman,
Əbədimi tikirik evləri tikən zaman?
Əbədilikmi vurur məgər möhür vuranlar?
Əbədimi ayrılır qardaşlar qardaşından?
Əbədidirmi məgər nifrət hissi insanda?
Əbədi axır məgər çaylar suda daşanda?
Mütləqdirmi cücünün cırcırama olmağı?
Ayna əvəz edərmi əbədilik günəşi?
Dünya bina olanda belə şey görünməmiş.
Ölüyə bənzəmirmi, söylə əsir olanlar.
Ölümün sifətini məgər göstərmir onlar?
Hökm edən insandırmı?
Böyük Enlil onlara xeyir-dua verəndə
Bəs niyə toplaşırlar bir yerdə Annunaklar,
Maraet, ulu tanrılar? Talelər yaradanı
Məgər sorğu-suala tutmurmu taleləri?
Onlar təyin eyləmiş ölümü və həyatı,
Ölüm saatınısa söyləmişlər qəti.
Beləcə buyurmuşlar: «Qoy yaşayan yaşasın».

Şumer allahları da insanlara bənzəyir, onlar bir-birindən küsür, barışır, bir-biri ilə dalaşır. Bir sözlə, insanlara xas olan bütün keyfiyyətlər allahlara da aid edilir. Əslində yunanların allahları adlarını dəyişmiş və nisbətən təkmilləşdirilmiş Şumer allahlarıdır. Şumerdə baş allah və ikinci dərəcəli allahlar var idi. Yüzlərlə allahların içərisində ən başlıcası səma allahı An, hava allahı Enlil, su allahı Enki və böyük allah-ana Ninhursaq idi. Həmin dörd allah allahlara başçılıq edir və çox vaxt bir yerdə fəaliyyət göstərirdilər. Onlar yığıncaqlarda və məclislərdə yuxarı başda əyləşirdilər.

Şumer mütəfəkkirləri dəqiq ifadə olunmuş fəlsəfi təlim yaratmamışlar. Bu, onların əxlaqi prinsiplərinə, öyüd-nəsihətlərinə də aiddir. Onlarda xüsusi etik normalar məcmuəsi olmadığından etika haqqında fikirləri ancaq ayrı-ayrı əsərlərdən toplamaq mümkündür.

Şumer filosofunu heç vaxt mürəkkəb bir problem olan iradə azadlığı problemi qətiyyən maraqlandırmırdı. Onlara görə, allahlar insanları öz kefləri xətrinə yaratmışdılar. Odur ki, insanlar ölümə məhkum, allahlar isə əbədidir. Onlara görə, yüksək əxlaqi keyfiyyətlər insanlara allahlar tərəfindən bəxş edilmişdir. Doğrudur, şumerlər həqiqəti və xeyirxahlığı, qanun-qaydanı, ədaləti və azadlığı, mərhəməti və s. yüksək qiymətləndirmişlər. Təbiidir ki, onlar şər və bəd əməlləri, özbaşınalığı, yalanı, haqsızlığı, pozğunluğu, amansızlığı rədd etmişlər. Qədim şumer filosoflarının fikrincə, böyük allahlar öz təbiətinə görə xeyirxahdır. Bununla yanaşı, onlar belə hesab edirlər ki, bəşər sivilizasiyasını yaradan allahlar şəri, yalanı, zorakılığı, bir sözlə bütün qüsurları özləri cəmiyyətin həyatına gətirmişlər. “Allahlar nə üçün belə hərəkət edirlər?” sualına onlar cavab tapa bilmirdilər, əslində heç axtarmırdılar. Eyni zamanda şumer mütəfəkkirləri çox vaxt allahları yer üzərində hökmranlıq edən padşahlarla eyniləşdirirdilər. Yəni şahlar necə hər bir adama kömək etmirdilərsə (yaxın adamları istisna olmaqla), allahlar da onlardan kömək diləyən ayrı-ayrı adamlara kömək etmirdilər. Elə buna görə də ayrı-ayrı «şəxsi allahlar», «qoruyucu mələklər» ideyası meydana çıxırdı. Şumerlərə görə, insanlar allahlara xidmət etmək üçün gildən yaradılmışlar.

Qədim İkiçayarası mədəniyyəti Cənubi İkiçayarasının əkinçi tayfalarının və şumerlərin nailiyyətləri əsasında yaranmışdır. Bu mədəniyyət müstəqil inkişaf yolu keçmiş, Yaxın Şərqin bir çox xalqlarının mədəniyyətinə müəyyən təsir göstərmişdi. İkiçayarası xalqlarının memarlıq, incəsənət, ədəbiyyat, yazı, elmi biliklər sahəsində əldə etdikləri nailiyyətlər Qədim Şərqin bir sıra ölkələrinin mədəni həyatında öz əksini

tapmışdı.

Qədim cəmiyyətlərin ideologiyasının əsasını dini təsəvvürlər təşkil edirdi. Dini təsəvvürlərin totemizm, animizm və fetişizm növləri hələ erkən əkinçi tayfalarının həyatında mühüm yer tuturdu. Yer və göy təbii hadisələri, insan taleyi və güzəranı qeyri-təbii qüvvələrin əməlləri ilə bağlanılırdı. Tədricən belə təbii qüvvələrə adlar verilmiş, bu və ya digər təbii hadisəni onların adı ilə bağlamışdılar. İkiçayarasının erkən əkinçi icmaları ayrı-ayrılıqda bu və ya digər allaha sitayiş edirdilər. Bu icmaların dini təsəvvürlərini bərəkət və məhsuldarlıq bildirən ilahə təşkil edirdi. Erkən dövrdə allah və ilahələr heyvan görkəmində təsvir olunurdular. Təbiət qüvvələri ilahiləşdirilirdi. Hər bir icma özünün himayəçi allahına sitayiş edirdi. Erkən əkinçilərin etiqadı üçün politeizm, yəni çoxallahlılıq səciyyəvi idi. Bu hal ilkin sinifli cəmiyyətdə öz varlığını saxlayırdı və İkiçayarasında vahid dövlətin meydana gəlməsi nəticəsində dini ibadətlərin birləşdirilməsi zərurətini ortaya atmışdı. İkiçayarasında bütün allahları və ibadətləri birləşdirən ümum Şumer panteonu yaradıldı.

Şumer əsatirləri İkiçayarasının dini və allahları barədə məlumat saxlamışdır. Qaynaqlarda e.ə. III minillik üçün bir neçə yüz allahın adı çəkilir. Şumerlərin təsəvvürünə görə, ilk əvvəl bütün dünya başdan-başa suya qərq olmuşdu. Okean suyunun dərinliyində bütün varlığın «böyük anası» ilahə Nammu yaşayırmış. Nammunun bətnindən yarımkürə şəkilli dağ qalxıbmış. Dağın başında «böyük ata» allah An, dənizdə yastıvarı lövhə üzərində ilahə Ki yaşayırmış. Hər iki ilahi qüvvə bir-birinə bitişik imiş. Bu iki allahın nikahından allah Enlil (Ellil) dünyaya gəlmişdi. Onun ardınca bu cüt allah xeyli uşaq törətmişdi. Onların içərisində yalnız yeddi allah öz qüdrəti və müdrikliyi ilə fərqlənirmiş. Bunlar allahların şurasını təşkil etməklə bütün dünyanı idarə edirmişlər. Enlil allahların başçısı və ağsaqqalı hesab edilirdi. O, allahlar şurasının üzvləri Nuskunu və Enkini özünə ən yaxın köməkçi təyin etmişdi. Nusku odu və qızmar istini təmsil edirdi. Enki su və müdriklik allahı hesab olunurdu. Səma allahı An, habelə Enlil və Enki şumer panteonunda allahların ali üçlüyünü təşkil edirdilər. Onların xidmətində kiçik allahlar dayanırdılar. Bunlar Anennak və İqiqi adlanırdılar. «Anunnak» Anu allahının adından əmələ gəlmişdir. Anunnaklar Anunun törəməsi kimi yer üzünün ruhları olmaqla allahların tapşırıqlarını yerinə yetirirmişlər. İqiqilər göy üzünün ruhları idilər və eyni vəzifəni icra edirdilər.

Şumer panteonunda hava allahı Enlil mühüm yer tuturdu. O, allahların atası, göy və yerin hökmdarı, bütün dünyanın hökmdarı adlandırılırdı. Göyün yerdən ayrılması onun əməli kimi qələmə verilirdi. Əsatir bu əməli belə şərh etmişdi: «Allahlar ailəsi getdikcə çoxalırdı. Bir nəslin ardınca o birisi gəlirdi. Allah və ilahələr böyüyür, nikah bağlayır, uşaq doğurdular. Onlar göyün atası Anın və Yerin anası Kinin darısqal ağuşunda sıxılırdılar və sərbəstliyə can atırdılar. Onlar böyük qardaşları Enlildən kömək diləyirdilər. Enlil günlə yox, saatla böyüyür, daha da zorbalaşır və ipə-sapa yatmırdı. Enlil böyük bir əməli həyata keçirməyə cəsarət etdi. O, mis bıçaqla göy qübbəsinin qırağını kəsdi. Səma allahı An zarıya-zarıya yer ilahəsi, arvadı Kidən qopdu. Dünyəvi böyük yastı lövhə onun qıraqlarını əhatə edən ibtidai okeanın səthində qaldı, dünyanın əzəmətli yarımkürə örtüyü havada asılı qaldı». İbtidai təfəkkür dünyanın əmələ gəlməsini qeyri-təbii qüvvələrin əməli ilə bağlayırdı.

Eyni zamanda şumerlər insan cəmiyyətində mövcud olan nikahı, doğum-görümü və həyat tərzini allahlara da şamil edirdilər.

Ninhursaq (yaxud Ninmah, Nintu) Şumer panteonuna yer səthi, məhəbbət və məhsuldarlıq ilahəsi kimi daxil olmuşdu. Nanna (yaxud Nannar) ay allahı, Utu - günəş allahı, İnanna - məhsuldarlıq və məhəbbət ilahəsi, onun əri Dumuzi (Tövratda Tammuz) çoban allahı, Nerqal - yeraltı dünyanın allahı, onun arvadı Ereşkiqal - yeraltı dünyanın ilahə hökmdarı, Ninurta - cənub küləyi və müharibə allahı, Martu - köçərilər allahı və sairələrin adları şumer əsatirlərində çəkilmişdir. Bunlar ümum şumer allahları cərgəsinə daxil idilər. Bundan başqa şumer şəhərlərinin ayrıca himayəçi allah və ilahələri vardı. Laqaş şəhərinin himayəçi ilahəsi Ninqirsu olmuşdu. Enlil, arvadı Ninlil və oğlu Ninurta Nippur şəhərinin havadarları hesab olunurdular.

Şumerlər yeraltı, axirət dünyası haqqında təsəvvürlər yaratmışdılar. O «geniş ölkə», yaxud «geriyə yol olmayan ölkə» adlanırdı. Şumerlərə görə, axirət dünyası zülmət idi, orada insan bədəni torpağa dönür, onun başını qurd-böcək çeynəyir, o, daima susuz və yeməksiz qalır. Bunlar olmasın deyə qurban kəsilməli idi. Buranın hökmdarı ilahə Ereşkiqal idi, onun əri isə müharibə allahı Nerqal idi. Müxtəlif ruhlar, o cümlədən taun allahı İrra öz növbəsində onlara xidmət edirdilər.

Akkadlar, amorilər, aramilər, haldeylər və başqa qədim xalqlar şumer dininin bir çox əlamətlərini mənimsəmişdilər. Adətən, sami tayfaları himayəçi allahı Bel, «ağa» adlandırırdılar. İcmanın ilahəsi isə İştar adını daşıyırdı. Şumer və Akkad allah anlayışları qovuşan zaman, akkadlar Enlilə Bel deyirdilər, sonralar bu adı Babil allahı Marduka şamil etmişdilər. Tədricən şumer ilahə adları An akkadlıların Anu, Nammu-Tiamat, Ki-Kinqu, Enki-Ea, Utu-Şamaş, Nannar-Sin, İşkur-Adad, İnanna-İştar, İrra-Namtar, Neunuqal-Nerqal ilə əvəz edilmişdi. Tədricən Babil panteonunda ali allah yerini Marduk, Assur panteonunda isə Aşşur tutmuşdu.

İkiçayarası əhalisi qədim totem təsəvvürlərini, yəni heyvanlara sitayişi saxlamışdı. Allahları da müxtəlif heyvan görkəmində təsvir edirdilər. Allah Ea bəzən balıq quyruqlu, yaxud tısbağa şəklində təsvir olunurdu. Marduk əfsanəvi əjdaha, qrifon, təbabət ilahəsi Qula - it, himayəçi xeyirxah ruhlardan Şedu və

Lamassu qanadlı öküz, yaxud insan başlı şir kimi təsəvvür olunurdu. Misirdə olduğu kimi, şumer allahları da ibadətləri ilə bağlı olan heyvanların üstündə təsvir edilirdilər.

Qədim İkiçayarası xalqları qədim ovsun formalarını saxlamışdılar. Guya ovsun vasitəsilə adamı xəstəlikdən, bədbəxtlikdən xilas etmək olarmış. Müxtəlif falabaxma növləri mövcud idi. Heyvan içalatı, xüsusilə ciyərlə fal açırdılar. Müasir falabaxanlar da bəzən uyğun üsullara əl atırlar.

Qədim İkiçayarasının mühüm dini mərkəzləri məbədlər idi. Məbədin xeyli xidmətçisi, qul və azad icmalardan ibarət işçi qüvvəsi, kahin və kahinəsi vardı. Məbədlər böyük torpaq sahələrinə malik idilər. Burada sənətkarlıq emalatxanaları işləyirdi. Məbəd iqtisadi cəhətdən qüdrətli təşkilat idi. Məbəd müstəqil qaydada ticarət və sələmçilikdə məşğul olurdu. İkiçayarası məbəd təsərrüfatı hökmdarın qayğısı sayəsində əhalinin nəzir-qurbanı hesabına əlavə qazanca sahib olurdu. Eyni zamanda məbəd təhsil mərkəzi olmaqla elmi biliklərin yayılmasına imkan yaradırdı. Məbədlər müxtəlif bayram şənlikləri təşkil edirdi. Burada yeni il bayramı xüsusi təntənə ilə keçirilirdi. Yeni il əkin işlərinin başlanması dövrünə, bahar aylarına düşürdü. Müasir bahar bayramları qədim əkinçilərin yazda keçirdikləri yeni il şənlikləri ilə tarixi köklərlə bağlıdır. Bayram ziyafəti allah Marduka həsr edilirdi. Adətə uyğun olaraq bayram şənliyi hökmdarın və kahinənin nikahı ilə başa çatırdı. Yay və qış gündönümü zamanı (22 iyun və 22 dekabr) ölən və dirilən allah Dumuzinin şərəfinə də bayram ziyafəti keçirilirdi.

İkiçayarası əfsanələri şifahi xalq yaradıcılığı məhsulu olmaqla şumerlər və akkadlar tərəfindən yazıya köçürülmüşdür. Şumer və Akkad əsatirlərində dünyanın və insanın yaranması əfsanəsi, bununla əlaqədar allahların əməlləri əks olunmuşdur.

Əfsanələrdən biri dünyanın yaradılmasını ali allah Enlilin əməli kimi şərh etmişdir. Guya o, biri-birinə bitişik yaşayan ər-arvad An və Ki allahlarını ayırmış, bununla da Göyü və Yeri yaratmışdır. Sonra o, Nippur şəhərini inşa etmiş və allahları orada məskunlaşdırmışdı. Müdrik Enki torpaqları suvarmış, hər yerdə ot və ağaclar göyərmişdi. Lakin dünyada nə heyvan, nə də insan varmış. Allahlar yoxsul həyat sürürmüşlər, çörəyin dadını belə bilmirmişlər. Belə halda allahlar ilahi Laharı və Aşnanı gildən yoğurub yaradırlar. Lahar qoyun-quzu saxlayırmış, Aşnan isə taxıl becərərmiş. Enki Aşnan üçün toxa icad etmiş, o da yeri şumlayıb, arpa və buğda əkərmiş. Sonra isə Enki xış düzəltmişdi. Aşnan ilk məhsuldan allahlar üçün kökələr bişirirmiş. Lahar isə allahları süd, ət və yunla təmin edirmiş. Lakin buna baxmayaraq göydə və yer altında allahların sayı getdikcə artırmış, ərzaq isə çatışmırmış. Allahlar nə süddən, nə də çörəkdən doyunca yeyə bilmirmişlər. Allahlar müdrik Enkiyə müraciət edirlər ki, vəziyyətdən çıxmaq üçün tədbir görsün. İlahə Nammu ona deyir: «Allahlardan zəif və onlar üçün səbirlə işləyən insanları yarat!». Enki ulu ana Nammunun çağırışına qulaq asıb işə başlayır. Enki böyük ana Ninhursaqdan xahiş edir ki, dulusçular gil hazırladıqca, o yaradacağı məxluqa allahın görkəmini versin. Gil hazır olduqdan sonra Ninmah birinci insanı yoğurdu, alınmadı, ikincisini yapdı, bu da alınmadı. Bunlar ilk sonsuz kişi və qadın imişlər. Belə halda Enki özü gildən allahlara oxşar güclü və ağıllı kişi və qadın yaratdı. Lakin onlara əbədi həyat vermədi. İnsanlar qurban kəsməklə allahları yeməklə təmin etməli və daim onların itaətində durmalı idilər. İnsanların müstəqil hərəkətini, arzularını və etirazını allahlar ram edirdilər.

Əfsanə sinfi cəmiyyətdə formalaşmışdı. İnsan cəmiyyətinə xas olan qaydalar əsatirlərdə də əks olunurdu.

Babil rəvayətinə görə, dünyanı və insanları allah Marduk xəlq etmişdir. Sonsuz Kainat okeanında bədheybət əjdahalara qarşı mübarizədə, guya allahlar aciz imişlər. Onlara bədheybət dəniz ilahəsi Tiamat başçılıq edirmiş. Allahların heç biri cürət edib Tiamata qarşı çıxa bilmirdi. Tiamat isə allahların qurduğu qanun-qaydaları məhv edir, dünyada qarmaqarışıqlıq yaradırdı. Kiçik allah cərgəsində olan Marduk Tiamata qarşı çıxmağa razılıq verdi. Əvəzində allahlar ona ali hakimiyyət vəd edirlər. Marduk Tiamata qalib gəlir. Onu parçalayır, bir hissəsindən göyü, digər hissəsindən yeri yaradır, planet və ulduzları yerbəyer edir, Sin («Ay») və Şamaş («Şəms, Günəş») arasında gecə və gündüzü bölüşdürür. O, sonra yer üzündə bitki və heyvanları yayır. Tiamatın sərkərdəsi (digər rəvayətə görə əri) Kinqunu öldürüb, onun qanını gilə qatır, bundan insan düzəldir, lakin onların həyat müddətini məhdudlaşdırır.

Dünyanın və insanların yaranma əfsanəsi, demək olar ki, cüzi dəyişikliklə əvvəl Tövratda, sonra isə Quranda əks olunmuşdur.

Qədim İkiçayarasının ideologiyasında ölən və dirilən təbiətə ibadət mühüm yer tuturdu. Təbiətdə mövsümlərin dəyişilməsi dini təsəvvürlər əsasında izah olunurdu. Bu, İnanna (akkadlarda - İştar) və Dumuzi əfsanəsində öz əksini tapmışdı. Əfsanənin Şumer variantına görə, məhəbbət ilahəsi İnanna ilahi mənşəli çoban Dumuziyə ərə gedir. Sonra o, ölüləri diriltmək üçün axirət dünyasına yollanır. Burada onun bacısı Ereşkiqal hökmranlıq edirmiş. İnanna o dünyaya yola düşməzdən əvvəl köməkçisi Ninşubura müəyyən göstərişlər verir. O, axirət dünyasının yeddi qapısını keçməli olur. Hər qapı ağzında onun paltarını soyundurur və bəzək əşyalarını əlindən alırdılar. Sonuncu qapıdan o, çılpaq halda yeraltı aləmə qədəm qoyanda Ereşkiqal və anunnaklarla üz-üzə gəlir. Onların dəhşətli və zəhmli baxışı İnannanı öldürür. Ninşubur görür ki, üç gün, üç gecə keçdi, lakin İnanna qayıtmadı. İnannanın tapşırığını yadına salır, allahlardan onu diriltmək üçün kömək diləyir. Enlil və Nanna imtina edirlər, yalnız Enki ona köməklik əlini

uzadır. O, vücudlar yaradır, onlara «dirilik yemi» və «dirilik suyu» verib o dünyaya göndərir. Bu vücudlar İnannanı dirildirlər. Lakin axirət dünyasının qayda-qanununa görə, oraya gedən işıqlı dünyaya qayıda bilməzdi, işıqlı dünyaya qayıtmaq istəyən adam özünə əvəz verməli idi. İnanna da bu qaydaya riayət etməli idi. Bu şərtlə İnanna zalım iblislərin müşayiəti ilə işıqlı dünyaya qayıdır. Çox gəzdikdən sonra İnanna Uruk şəhərinin Kullab məhəlləsinə gəlib çatır. Bu şəhərin hökmdarı onun əri Dumuzi imiş. İnanna görür ki, Dumuzi arvadının taleyinə ağlamaq əvəzinə şadlanır, gününü eyş-işrətlə keçirir. İnanna ona öldürücü nəzər salır və ərini amansız iblislərə təhvil verir. Dumuzi qorxusundan ağappaq olur, dərdini bacısı Geştinannaya danışır. Geştinanna ona gizlənməyi məsləhət görür. İblislər Geştinannanı tutub, ona əzab-əziyyət verirlər və ondan Dumuzinin yerini xəbər alırlar. Bacısını ölümdən xilas etmək üçün Dumuzi üzə çıxır. İblislər onun əl-qolunu bağlayıb, o dünyaya aparmaq istəyirlər. Dumuzi arvadının qardaşı Utudan onu ceyran görkəminə salmasını xahiş edir. Ceyran görkəminə düşmüş Dumuzi qaçıb bir müddət gizlənə bilir. İblislər onu tapırlar və döyə-döyə öldürürlər. Lakin bitki ilahəsi Geştinanna qardaşının daima o dünyada yaşamasına razı olmur. İlin yarısını qardaşının yerinə o dünyada yaşayır, Dumuzi isə bir müddət işıqlı dünyaya keçir. Dumuzi yer üzünə çıxanda təbiət canlanırmış, bitki və ağaclar göyərirmiş, isti günlər başlanırmış.

Bu əfsanənin Babil variantı hadisələrin gedişi ilə fərqlənir. Burada Dumuzi İştarın həm əri, həm də qardaşı kimi qələmə verilmişdir.

Dumuzi ov zamanı həlak olur. İştar onu qaytarmaq üçün axirət dünyasına, yəni «gedər-gəlməz» dünyaya düşür. Yeraltı hökmdar qadın Ereşkiqal onun gəlişindən qəzəblənir və keşikçiyə tapşırır ki, yeraltı qanunlar İştara da tətbiq edilsin. İştar axirət dünyasına daxil olur. Ereşkiqal onun üstünə 60 dərd-bəla göndərir. Yer üzündə həyat sönükləşir, laqeydlik yaranır, sevgi-məhəbbət yoxa çıxır, doğum kəsilir, körpə səsi eşidilmir. Allahlar İştarın azad olması üçün tədbir görürlər. Onlar yer üzündə insan nəslinin, heyvan və quşların məhv olacağından qorxurlar. Səma allahları Ereşkiqalın yeraltı padşahlığına qasid göndərirlər. İlahə allahların tələbini yerinə yetirməyə məcbur olur. İştar əlində bir qab dirilik suyu axirət dünyasını tərk edir. O, dirilik suyunu Dumuzinin meyiti üstünə tökür və onu həyata qaytarır. Dumuzin dirilməsi ilə təbiət yenidən canlanır.

Şumer əfsanələrinə görə, allahlar insanların sayının, qüdrətinin, müdrikliyi və fəallığının artmasını görərək qorxuya düşmüş və yer üzündə onların sayını azaltmaq qərarına gəlmişlər. Əfsanəvi rəvayətdə bu haqda deyilir: «Lap çoxdan, yüz illər əvvəl, yer üzündə yekdillik mövcud idi. Nə ilan vardı, nə əqrəb, nə qorxunc şir vardı, nə acgöz qurd, nə tamahkar kaftar vardı, nə də vəhşi it. İnsanlar hamısı bir dildə danışırdı və bir-biri ilə həmrəy yaşayırdılar. Qorxu və paxıllıq yox idi. Heç kəs hakimiyyət və var-dövlət yolunda rəqabət aparmırdı. Böyük Şumer, ilahi qanunlar ölkəsi və qonşu ölkələr "sülh və həmrəylik şəraitində yaşayır, heç bir rəqabət aparmırdılar". Müdriklik allahı Enki birdən öz uçurum aləmindən baş qaldırdı, adamlara baxdı və gördü ki, onlar xeyli çoxalmışlar, həddsiz güclənmişlər, son dərəcə də məharətli və fəal olmuşlar. Ən müdrik allah dəhşətə gəldi və Enlilə dedi: «Ehtiyatlı ol, qardaşım. Sənə tabe olan insanların sayı çoxalır, onlar qüdrətli bahadırlara çevrilirlər. Onlar fəndgir və fəal olurlar, şəhər və istehkamlar yaradırlar. Qorx ki, onlar bizə tay olmasınlar... Onların sayını azaltmaq lazımdır, onları qorxutmaq lazımdır ki, özlərini allahlara tay saymasınlar... Vəhşi heyvanları yaradaq ki, onlar insanları məhv etsin və sayını azaltsınlar. Yer kürəsinə bürkü və çəyirtkə göndərək ki, aclıq başlansın və adamların sayı azalsın. Zalım İrranı (taun, vəba allahını) onların üstünə qaldıraq, qoy o, insanları 60 dərd-bəla ilə qırsın. Onda adamların sayı azalar və onları barmaqla saymaq mümkün olar. Adamların bir-biri ilə arasını vuraq, qoy qardaş qardaşı, qonşu qonşunu qırsın, qoy tayfa tayfaya, xalq xalqa qarşı dursun. Onda adamların sayı azalar, itaətdə olar və bizim qarşımızda qorxudan əsərlər». Enlil Enkinin məsləhətinə uyğun hərəkət etdi. «Onlar hətta xalqları ayırdılar və hər xalq öz dilində danışmağa başladı». İnsanların sayı azaldıqdan sonra qırğın dayandırıldı.

Əfsanədə insan cəmiyyətində baş verən hadisələrə, adamların qarşılıqlı münasibətlərində mövcud olan naqis cəhətlərə dini don geyindirilmişdi.

İnsan nəslinin kökünü kəsmək məqsədilə allahların törətdiyi «Ümumdünya daşqını» əfsanəsi qədim Şumer və Akkad əsatirlərində əks olunmuşdur. Sonrakı dini kitablarda (Tövrat, Quran) da «Ümumdünya daşqını» allahın qəzəbindən doğan əməl kimi şərh edilmişdir. Bu dini müddəa da İkiçayarası əfsanələrinin təsiri altında meydana gəlmişdi.

«Ümumdünya daşqını» əfsanəsi hadisələrin gedişini Anu və Enlil başda olmaqla allahlar şurasının qərarından başlayır. Qeyd edək ki, şumer rəvayətini əks edən kitabə zədələnmişdir, buna görə çatışmayan hissələr Akkad rəvayəti əsasında bərpa olunmuşdur. Allahlar bu qərarı adamlara xəbər verməyəcəklərinə and içirlər. Anu və Enlil qəfildən su selini törətmək niyyətində imişlər. Lakin bəzi allahlar insan nəslini məhv etmək qərarından narazı imişlər. Belə allahlardan biri, yəqin ki, Enki (akkadlarda Ea) bu qərarı gizli surətdə insanlara çatdırmaq niyyətinə düşür. O, allahlardan qorxan və dindar Ziusudra adlı bir hakimin evinə yaxınlaşır və allahların gizli niyyətini evin divarlarına söyləyir. Ziusudra divar arxasında ilahi sözləri eşidir, baş verəcək daşqından agah olur. Əfsanənin Akkad nüsxəsində deyilir ki, Ea Utnapiştimə yox, evin divarlarına müraciət etdi, çünki o, andı pozmaq istəmirdi. O, demişdi: «Ey daxma, qamış divar, eşit və yadda saxla. Qoy Şuruppak sakini Utnapiştim, Ubartutu oğlu gəmi düzəltsin və canını xilas etsin». Ertəsi gün

Ziusudra şəhər əhalisini toplayır və böyük bir gəmi düzəltmələrini əmr edir, lakin öz məqsədini adamlara açmır. Gəmi suya salındıqdan sonra, Ziusudra gəmiyə quş və heyvan nümunələrini, öz ailəsini yerləşdirir. Müəyyən edilən gün daşqın başlayır, su uca dağların zirvəsini belə tutur. Yeddi gün, yeddi gecə daşqın tüğyan edir. Tufandan sonra Utnapiştim gəminin qapısını açır və hər yanı suya qərq olmuş görür. Utnapiştim göyərçini havaya buraxır, lakin quş quru yer tapmayıb geri qayıdır. Nəhayət, ancaq qarğa qayıtmır. Gəmi Nisir dağının zirvəsinə yaxınlaşır və oraya yan alır. Ziusudra (yaxud Utnapiştim) qurbangah düzəldib allahların şərəfinə mədh söyləyir. Allahlar qurbangahın ətrafına toplaşırdılar. Enlil təəccüblənir ki, kimlərsə canını daşqından salamat qurtarmışdır. Enki (Ea) onu sakitləşdirib deyir: «İnsanların hamısını qırmaq olmaz. Onların sayını həmişə azaltmaq olar, ən güclü və ən məğrurlarını cəzalandırmaq olar. Onda yerdə qalanlar qorxar və dinmədən bizə xidmət edər». Anu və Enlil daşqından xilas olmuş Ziusudraya və onun arvadına allah həyatı», yəni əbədi həyat bəxş edirlər və ona Dilmun ölkəsində məskən verirlər.

«Ümumdünya daşqını» əfsanəsi müəyyən hadisənin əksi kimi, təbii hadisənin əksi kimi meydana gəlmişdi. Ola bilsin ki, qədim İkiçayarasında Dəclə və Fərat çaylarının aşıb-daşması faciəli daşqına səbəb olmuşdu. Xilas olmuş adamlar bu daşqını allahların əməli ilə bağlamışdılar. İngilis arxeoloqu Leonard Vulli Ur şəhərinin qazıntıları zamanı üst və alt mədəni təbəqə 2.5 m qalınlığında çay daşları və torpaq çöküntüləri etmişdi. Bu lay bəzi düşərgələrdə 3.5 m-ə çatırdı. Qazıntılar aşkar etdi ki, Ubeyd dövründə Cənubi İkiçayarasında böyük insan tələfatı ilə nəticələnən fəlakətli daşqın baş vermişdi. Belə ehtimal edirlər ki, daşqın haqqında əfsanəni ubayidlər yaratmış, onlardan isə şumerlər mənimsəmişlər.

Şumer əsatirləri əsasən sinfi cəmiyyətə xas olan hadisələri əks etmiş, allahların ali hakimiyyət uğrunda mübarizəsini, məhsul bolluğu yaratmaq tədbirlərini, adi həyati məsələlərinə münasibətlərini şərh etmişdir. Allahlar, xüsusilə Enki və Enlil əfsanələrin qəhrəmanı kimi çıxış edirlər. Onlar həm kainatın və planetin təbii qaydaya salınmasına (dünyanın yaradılması, ulduz və planetlərin düzülməsi və s.), yer üzündə (İkiçayarasında) əmin-amanlığın bərqərar olmasına, insanların məskunlaşdırılmasına, insanlar arasında ilahi qüvvələrə sitayiş və qurbankəsmənin müəyyənləşdirilməsinə, hətta əmək alətlərinin icadına qayğı ilə yanaşırdılar. Allahlar həm də istədikləri vaxt əhalini qırğına verirdilər. Eyni zamanda əfsanələr ilahi qüvvələrin qüdrətini təbliğ edərək, əhalini daima qorxu altında qalmağa, itaətkar olmağa, allahların iradəsini sözsüz yerinə yetirməyə çağırırdılar. Əsatirlər həqiqi həyat hadisələrini dini donda izah edirdilər. Qədim şumerlər dünya və həyat qaydalarını dini boyasız təsəvvür etmirdilər. İkiçayarası əfsanələri Ön Asiya xalqlarının dini təsəvvürlərinə güclü təsir göstərmişdi.

İkiçayarasında meydana gəlmiş ən qədim yazı növü piktoqrafiya (şəkil yazı) olmuşdu. Bu yazı sistemi şəkli və şərti işarələrdən ibarət idi. Şəkil yazı vasitəsilə bütöv fikri ifadə etmək mümkün deyildi, çünki işarələr bu və ya digər əşyanı, heyvanı və insanı təsvir edirdi. Piktoqrafik yazı üsulu dilin qrammatik formalarını bildirmirdi. Piktoqrafiya vasitəsilə sadə əməliyyat tələb edən təsərrüfat sənədləri tərtib olunurdu. Belə sənədlərdə idxal və ixrac olunan malların, davarın və s. hesabı aparılırdı. Daha geniş və mürəkkəb məzmunlu ifadələri şəkli işarələrlə yazmaq mümkün deyildi. Mətn şəkli işarələrə əsasən oxunurdu. Əgər mədaxil hesablanırdısa, onda mətndə əşyanın, rəqəmlərin və anbarın işarələri yazılırdı. Adətən mətnin sonunda təsərrüfata daxil olmuş malların yekun rəqəmi göstərilirdi. «Ulduz», «ev», «at», «sünbül» (arpa), «en», «ayaq» və mənaları bunlara oxşar rəsmlər ilə göstərirdilər. «Su» mənası dalğavarı cizgilərlə bildirilirdi. Piktoqrafik yazılar hələ tam oxunulmayıb. Bir çox şəkli işarələrin mənası başa düşülmür. Əsasən rəqəm bildirən şəkli işarələri nisbətən asanlıqla mənalandırmaq mümkün olmuşdur.

Piktoqrafik yazı növü təsərrüfat hesablamaları aparmaq üçün ilk vaxtlar müsbət rol oynayır. Lakin təsərrüfatın getdikcə inkişafı dilin qrammatik və fonetik cəhətlərini əks edən geniş ifadəli yazı növünə tələbatı artırdı. Şumerlər tədricən yeni yazı növü ixtira etdilər. Buna mixi yazılar adı verilmişdi. İraq ərazisində aşkar edilmiş belə mətnləri yerli əhali «mismarı yazılar» adlandırırdı. Bu yazının işarələri mıxvarı, yaxud mismar şəkilli idi. Mismarı oxşar işarələrin biri-birinə calaşdırılması ilə müxtəlif hecalı və fonetik mənalar yaradırdılar. Gil kitabələr üzərində şəkli işarələrin sürətlə yazılması onların görünüşünü dəyişdirdi. Adətən mətn ucu iti qamış və daş qələmlə gil kitabələrə yazılırdı, əslində həkk olunurdu. Həkk olunmanın gedişində şəkli işarələr tədricən pazvarı, mismara oxşar görkəm alırdı. İşarənin əvvəlki şəkli forması itirdi. Nəticədə işarələrin görkəminə görə, mixi, yaxud mismari adlandırılan yeni yazı növü meydana gəlmişdi. E.ə. təqribə III minilliyin ortalarında şumer yazısı artıq mixi (mismarı) yazı sisteminə çevrilmişdi. Bu yazı növünün yaradılması şumerlərin əldə etdiyi böyük nailiyyətlərdən biri hesab edilər bilər.

Mixi (mismarı) yazı növü 600-dən çox işarəyə malik idi. Demək olar ki, işarələrin əksəriyyətinin bir neçə, bəzən ona qədər oxunuşu vardı. Məsələn, «ayaq» mənasını daşıyan işarənin du, qin, qub, qup, ra, tum, yaxud «dağ» mənasını daşıyan işarənin kur, mat, şad, qin, şat, nad, lad, lat kimi hecalı oxunuşları vardı. Eyni bir mixi işarənin çoxmənalı olması uzun müddət və bəzən indi də qədim mətnlərin dəqiq oxunulması işində əngəl törədirdi. Davamı müasir dillərdə təmsil olunmuş və mixi işarələrlə yazılmış qədim yazılar (akkad sami dili, het hind-Avropa dili, qədim fars dili) müəyyən müşküllüyə baxmayaraq oxunuldu və başa düşüldü. Lakin şumer və müasir dillərdə davamı (qohumluğu) olmayan, yaxud müəyyən edilməyən başqa dillərin mixi yazı növü əsasında oxunulub dərk edilməsi bir çox hallarda şərti xüsusiyyət daşıyır. Şumer mətnlərində

işlənmiş mixi işarələrin bir çoxu başqa mənada da oxuna bilər. Bu istiqamətdə aparılan tədqiqatlar qədim mixi yazılı dillərin müasir dillərlə qohumluğunu bildirən yeni mühakimələr ortaya çıxarır.

Tədricən mixi işarələr təkmilləşir, bəzən də sayı azalırdı. Mixi yazı növü akkadlar və qonşu qədim xalqlar tərəfindən mənimsənilmişdi. Ön Asiya xalqları bu yazı növünü mümkün dərəcədə öz dillərinin xüsusiyyətlərinə uyğunlaşdırırdılar. Mixi (mismarı) yazılar üç min il ömür sürmüş, e.ə. I minilliyin sonunda aradan çıxmışdı. Həmin minilliyin əvvəlində İkiçayarasında samidilli arami tayfalarının gətirdiyi arami əlifba yazı növü də tətbiq olunmağa başladı.

İkiçayarası qədim xalqları müxtəlif bədii əsər növləri (janr) yaratmışlar. Şumer ədəbiyyatı e.ə. lll-ll minilliyin əvvəli ərzində çiçəklənmə mərhələsinə qədəm qoymuşdu. Təxminən 150 (xırda parçalarla birlikdə) şumer ədəbiyyat nümunəsi üzə çıxmışdı. Bunlar yazıya köçürülmüş şifahi xalq yaradıcılığı nümunələri, xüsusilə əfsanələr, allah və hökmdar şərəfinə deyilmiş himnlər, fəlakətli hadisələr, dəfnlə bağlı ağılar və mərsiyələr, atalar sözü və zərbi-məsəllər, təmsillər, qəhrəmanlıq dastanları, məhəbbət mahnıları və s. olmuşdur. Eyni zamanda şumerlər müxtəlif həyati və məktəb mövzularında bədii əsərlər yaratmışdılar. Şumerlərdən başqa akkadlar da müxtəlif ədəbiyyat nümunələri yaratmış, bir çox şumer ədəbi əsərlərini akkad dilinə tərcümə etmiş, bəzən də şumer mövzularını təkmilləşdirmişdilər. Bədii üslub Akkad hökmdarlarının salnamələrində də öz əksini tapmışdı. İkiçayarasında bədii əsərlərin tərtibatı arami dilində də aparılırdı. Yazılı ədəbiyyatla yanaşı İkiçayarasında şifahi xalq yaradıcılığı da öz varlığını saxlayırdı. Şifahi xalq yaradıcılığı nümunələrinin böyük hissəsi yazıya köçürülməmişdi, onlar əzbərləmə yolu ilə ifa olunurdu. Bunların müəyyən qismi ibadət xüsusiyyəti daşıyırdı.

Bir qayda olaraq allahların şərəfinə oxunan, mədh, təriflämə xüsusiyyəti daşıyan himnlər adətən bayram ziyafətləri zamanı mahnı kimi ifa olunurdu. Allahın əməlləri sadalanır, adları çəkilir və onlardan kömək dilənirdi. Himnlər təkbaşına kahin tərəfindən və ya xorla dindarlar tərəfindən ifa edilirdi. Mətn adətən qabaqcadan öyrənilirdi. Himn xüsusiyyətli mahnılar külliyyatı Nippur dini mərkəzlərində tərtib olunmuşdu. Himnlər mirzələr hazırlayan məktəbdə öyrənilirdi. Hökmdarların şərəfinə də himn xüsusiyyətli mahnılar qoşulurdu. Adətən himn ilahiləşdirilmiş hökmdarlara həsr olunurdu.

İkiçayarasında ağı da təmsil olunmuşdu. Bu da şifahi xalq yaradıcılığı əsasında meydana gəlmiş poeziya növü idi. Ağılar müxtəlif səbəblərdən yaradılırdı. Ağıların matəm və dini mərasim formaları vardı. İqtisadi və siyasi fəlakət üz verəndə ağlaşma keçirilirdi. Belə ağlaşmalardan biri Laqaş şəhərinin Luqalzaqqesi tərəfindən dağıdılmasına həsr edilmişdi. Ağı yanan şəhəri, adamların əsarətini, məbədlərin murdarlanmasını təsvir edirdi, şəhəri dağıdanlara lənətlər yağdırırdı. Dini məzmun daşıyan ağılar Ur şəhərinin, Şumer və Akkadın dağıdılması ilə əlaqədar meydana gəlmişdi. Dəfn mərasimi ilə bağlı qoşulmuş ağı mahnısı ata və arvadın ölümünü təsvir edir. Mahnıda atanın ölümündən, oğlunun uzaqlarda bu xəbəri eşidib matəm saxlamasından, arvadının dul qalmasından, övladlarının və gəlinlərinin göz yaşı axıtmasından, ailə üzvlərinin xoşbəxt və sağlam qalmasından bəhs edilir və ailə başçısını öldürən qatilə lənətlər yağdırılır. Digər mahnı arvadın vəfatı, ərinin tək qalması və qəm-qüssə içində mərhum qadının şərəfinə mədhiyyə oxuması («haradasan, səni çağırmaq istəyirəm, haradasan, mənim qiymətli brilyantım, səni çağırmaq istəyirəm» və s.), sağ qalanlara xoş arzular söyləməsi («Qoy sənin ərin sağ-salamat olsun, qoy sənin övladlarının taleyi xoş və firavan olsun, qoy Utu (günəş allahı) axirət dünyasında sənə işıq versin» və s.) barədə ağı mətnindən ibarətdir. İndinin özündə də müasir Şərq xalqlarının dəfn mərasimlərində ağı ifa edilir.

Dastanlar tarixi hadisələri əks etdirirlər. Bu dastanlar Nippur külliyyatında cəmləşdirilmişdi. Doqquz belə dastan məlumdur. Dastanlarda iştirak edən bəzi qəhrəmanlar, məsələn, I Uruk sülaləsinin hökmdarları Enmerkar, Luqalbanda və Gilqameş tarixi şəxsiyyətlər olmuşlar.

«Enmerkar və Aratta hökmdarı» dastanı e.ə. III minilliyin birinci yarısında baş vermiş hadisələrdən danışır. Dastan Enmerkarla Aratta hökmdarı arasında mübahisə şəklində tərtib olunmuşdu. Aratta ölkəsi İkiçayarasının şimal-şərqində Urmiyyə gölünün cənub və cənub-şərq torpaqlarını əhatə edirdi. Dastan Aratta hökmdarının adını çəkmir, lakin onu «en» (kahin-hökmdar) adlandırırdı, ölkəni isə yeddi dağ arxasına yerləşdirirdi. Uruk hökmdarı Enmerkar Arattanı özünə tabe etmək və varidatını əlinə keçirmək niyyətində imiş. Bu məqsədlə o, kömək üçün ilahə İnannaya müraciət edir. Enmerkar İnannanın lütfü ilə Aratta adamlarını qızıl, gümüş, laciverd və s. gətirməyə məcbur etmək istəyirdi. Enmerkarın İnannaya müraciətində deyilir: «Aratta, qoy mənə, Uruka tabe olsun. Aratta adamları qoy mənim üçün öz dağlarından dağ aşı gətirsinlər, qoy mənim üçün böyük ibadətgah tiksinlər, qoy mənim üçün böyük məbəd ucaltsınlar». İnanna Enmerkara Arata hökmdarının yanına qasid göndərməsini məsləhət gördü. Enmerkar Arattaya qasid göndərdi. Qasid "Qara dağı" aşdı, yeddi dağı keçdi və Aratta ölkəsinə daxil oldu. Qasid Ermerkanın tələbini Aratta hökmdarına şifahi yetirdi.

Aratta hökmdarı əvvəl Enmerkarın tələbini qəbul etmədi, özünü İnannanın sevimlisi kimi qələmə verdi və dedi: "Qasid! öz ağana, Kulabın ali kahin-hökmdarına de: - Mən, ali kahin-hökmdar, təmiz əlin (İnannanın) təyin etdiyi adamam. Səma hökmdarının özülü, kainatın hökmdar qadını, bütün qanunlar hakimi müqəddəs İnanna məni pak adət-ənənələr ölkəsi Arattaya həqiqətən gətirdi, dağlarda onun (Arattanın) önündə böyük qapı kimi məni qoydu. Necə ola bilər ki, Aratta Uruka boyun əysin? Aratta Uruka boyun

əyməyəcək-de ona". Aratta hökmdarı Enmerkarın tələbini qəti rədd etdi, lakin qasid onu hədələməyə başladı. Qasid dedi ki, Arata hökmdarının Enmerkara itaət edəcəyini İnanna vəd etmişdir. Bunu eşidən Arata hökmdarının ürəyi döyündü, özünü itirdi, cavab axtarmağa başladı. Nəhayət o, cavab verir: «Arattada şır-şır axan sular var... ölkədə qurbankəsmə, dua-nəzir, hörmət-izzət var, beş-on adam deyilik ki. Məgər Uruk dağlara qarşı gedə bilərmi? Sənin ağan silaha sarılmaq istəyir, mən isə tək döyüşə (mübahisəyə) çağırıram».

Aratta hökmdarı münaqişəni sülh yolu ilə həll etməyi təklif etdi, Arattanın heç də gücsüz olmadığını bildirdi. Demək olar ki, tarixdə ilk dəfə münaqişələri dinc yolla həll etmək təklifinə rast gəlirik. Sonra Arata hökmdarı öz ölkəsini tərifləyir: «Dağ məharətlə dolu qəhrəmandır. O öz evinə yollanan axşam şəfəqidir, onun üzünə qaranlıq yayılır. O, üzü şölə ilə dolu olan fəzaya qalxan aya bənzəyir. O, dağlara çəpər olan ağaclara (meşəyə) bənzəyir. Pak adət-ənənə ölkəsini lütfkar Laması (Aratta ilahəsi)-Arattanın tacı, şəfəqli səma tacı (İnanna) kimi Arattaya yol göstərdi, mən öz əzəmətliyimi həqiqətən dərk etdim».

Aratta hökmdarı, nəhayət, Arattadan aparılan malların əvəzinə Enmerkardan taxıl tələb edir. Eyni zamanda Arattanın Uruka itaətkarlığını İnannanın qərarı ilə bağlayır. Mətndə deyilir: «Taxılı qoy səbətə doldurub, arabaya yükləsin. Bu taxılı dağlara gətirsin, vergi toplayanların yanında yığsın. Taxılı torbalara doldurandan sonra, ulaqlara yük vurandan sonra, Arattanın sarayında taxıl anbarına tökəndən sonra, əgər... İnanna Arattanın varidatını aparsa, onda mən ona baş əyərəm, o isə öz cah-cəlalını mənə göstərər. Mən və mənim şəhərim ona tabe olarıq».

Qasid İkiçayarasına qayıtdı və Uruk hökmdarı Enmerkara Arattanın cavabını söylədi, ölkənin varidatı barədə məlumat verdi.

Enmerkar ikinci dəfə qasidi taxıl yüklənmiş heyvanlarla (və yeni tapşırıqla) Arattaya yola saldı: «Qasid Arattaya yaxınlaşanda,
arattalılar heyran-heyran yüklü ulaqları dövrəyə aldılar». Enmerkar eyni zamanda tələb etmişdi ki, Aratta hökmdarı «hakimiyyət rəmzini» götürüb Uruka, onun hüzuruna gəlsin. Lakin Aratta hökmdarı bu tələbə əhəmiyyət vermədi, Enmerkara tapmaca göndərdi və onun Arattaya gəlməsini tələb etdi: «Qasid, ağana, Kulabın ali kahin-hökmdarına de: - «hakimiyyət rəmzi» qoy ağacdan olmasın, ağacın adını da deməsin. Qoy sidr olmasın, sərv olmasın, ağcaqayın olmasın, şümşad olmasın, mis olmasın, qızıl olmasın, əqiq olmasın, laciverd olmasın. "Hakimiyyət rəmzini" hazırlasın, özü ilə götürsün. Kulabın ali kahin-hökmdarı əqiqi bir ağac kimi, lacivərdi bir ağac kimi əlinə alsın və mənim yanıma gəlsin-de ona». Enmerkar müdriklik allahı Enkinin köməyi ilə tapmacanın yozumunu tapıb «hakimiyyət rəmzini» qasidlə Arattaya göndərdi. Aratta hökmdarı yozumun düzgün olduğunu görüb kədərləndi. Zənn etdi ki, İnanna artıq Arattanı Enmerkarın himayəsinə vermişdir. Lakin taleyini bir də yoxlamaq üçün Enmerkara yeni tapmaca göndərdi. O, bu dəfə nə qara, nə ağ, nə sarı və s. rəngli olmayan it göndərməsini təklif etdi. Enmerkar isə qasidə yeni tapşırıq verib Aratta hökmdarına nə qara, nə ağ, nə sarı və s. rəngli olmayan geyim paltarı istəyir, eyni zamanda Aratta hökmdarını hədələyir: «... şəhər əhalisini vəhşi göyərçinlər kimi ağacdan qovaram, özünü məhv edərəm, (külünü) yelə sovuraram». Qasid tapşırığı yadda saxlamağa çətinlik çəkir. Onda Enmerkar Arattaya yazılı kitabə göndərir. Qasid özünü Arattaya çatdırır. Hökmdar kitabəni nəzərdən keçirən zaman külək allahı İşkur Aratta üzərinə yağış yağdırır, hər yerdə buğda, noxud və s. göyərməyə başlayır. Arata taxıl anbarlarını doldurur. Eyni zamanda Enmerkara xəbər göndərilir ki, İnanna Arattanı tərk etməmişdir, Arattanı gur sularla doldurmuşdur, arattalılar başqa adamlardan fərqlənirlər, Dumuzi onları başqalarından ayırmışdır, çünki onlar müqəddəs İnannanın sözlərinə riayət edirdilər. İnanna öz lütfünü Arattadan əsirgəmir" , Dumuzinin şərəfinə ziyafət düzəldir, arattalı qızla onun nikahını bağlayır. Enmerkar öz növbəsində səbətləri taxıl ilə doldurur, qurbanlıq qoyun, keçi, inək götürüb Arattaya yola düşür. Arattalılar İkiçayarasından gətirilən məhsulla dəyişmək üçün qızıl, gümüş, lacivərdi mübadilə meydanına çıxarırlar. Dastanın sonu zədələndiyindən münasibətlərin tam aqibəti naməlum qalır. Lakin aydın olur ki, Aratta ölkəsi Uruka tabe edilmir.

«Enmerkar və Arata hökmdarı» dastanı Şumerdə aşkar olunmuş ən uzun mətnli əsərdir. Bu, tarixdə məlum olan ilk dastan səpkili əsər nümunəsidir. Dastanda Arattanın şərəfi, paklığı, məharət və müdrikliyi, müstəqilliyini qoruması, dinc yolla öz müstəqilliyini qoruyub saxlamağı müxtəlif bədii boyalarla ifadə olunmuşdu.

Eyni zamanda şumer dastanı qədim Azərbaycanın ərazisində meydana gəlmiş ilk dövlət quruluşu barədə təsəvvür yaratmağa imkan verir.

Aratta ilə əlaqədar mövzular başqa şumer dastanlarında da əks olunmuşdur. Bunlardan birini «Uruk və Aratta» adlandırmaq olar. Dastanda Aratta hökmdarı Enmerkardan onun ali hakimiyyətini tanımasını və ilahə İnannanın isə Arattaya köçürülməsini tələb edir. Enmerkar öz növbəsində Arattanın Uruka tabe olmasını tələb edir və allahların iradəsi ilə İnannanın Urukda qalacağını bildirir. Dastanda Aratta hökmdarı Ensukuşşiranna adını daşıyır, onun köməkçisi «maşmaş» (vəzir?) kahin olmaqla Ur-Girnunna adlandırılmışdır. Aratta hökmdarı şurada Urukla münasibət məsələsini müzakirəyə çıxarır. Vahid bir fikrə gələ bilmirlər. Hökmdar kahin maşmaşı Uruku itaət altına almağa göndərir. Kahin Uruka gəlir, müqəddəs pəyəyə girib inək və keçini dilə tutur ki, onlar ziyafət şərəfinə süd və qaymaq verməsinlər. Uruk viran vəziyyətə düşür. Belə halda Nidaba ilahəsinin iki çobanı maşmaşı tutub öldürür, meyitini çaya atırlar. Aratta

hökmdarı əlacsız qalıb Enmerkarın yanına qasid göndərir: «Ey sən, İnannanın istəklisi, təkcə sən şöhrətə layiqsən... Aşağı torpaqlardan yuxarıya kimi sən yeganə hökmdarsan, mən isə sənin arxanla gedirəm. Ana bətnində belə mən sənə tay deyildim, sən mənim «böyük qardaşımsan». Mən heç bir zaman sənə tay ola bilmərəm». Dastan Arattanın Urukdan asılı vəziyyətə düşməsindən bəhs edir.

Digər bir dastan «Luqalbanda və Enmerkar» adlanır. Burada Aratta Şumerin müttəfiqi kimi qələmə verilmiş və ora İnannanın məskəni kimi qeyd olunmuşdu. Dastanda Luqabandanın uzaq bir ölkəyə düşməsindən və İmduqud quşunun köməyi ilə Uruka qayıtmasından bəhs olunur. Bu zaman martu (sami) tayfaları İkiçayarasına basqınlar edirdilər, artıq Uruku mühasirəyə almışdılar. Enmerkar Arattaya yardım üçün xəbər göndərmək istəyirdi, orada məskən salmış ilahə İnannanın bu işlərdən xali etmək istəyirdi. Lakin bu tapşırığın öhdəsindən gəlmək iqtidarında olan mahir adam tapılmırdı. Luqalbanda bu tapşırığı öz boynuna götürdü. Enmerkar şərt qoyur ki, Luqalbanda bu yola tək çıxsın. Luqalbanda yeddi dağ silsiləsini keçib Arattaya çatır. İnanna ona qulaq asır və Uruku mühasirədən xilas etmək üçün məsləhətlər verir.

Dastanlardan biri «Luqalbanda və Hurrum» adlandırılmışdır. Dastanda Enmerkarın Arattaya səfərindən bəhs edilir. Ermerkar bu ölkəni işğal etmək məqsədilə ordu toplayır. Orduya səkkiz başçı təyin edir. Başçılardan biri də Luqalbanda idi. Onlar Hurrum dağlarına çatırlar. Burada Luqalbanda xəstələnir. Onu ölmüş bilib, Hurrum dağına qoyurlar. Onun meyitini Uruka Arattadan qayıdanda aparmaq qərarına gəlirlər. Lakin iki gündən sonra Luqalbanda özünə gəlir. O, allahlardan (Utu, İnanna, Sin) kömək diləyir. Ona «həyat yemi» və «həyat suyu» verirlər. Luqalbanda sağalır. O, vəhşi heyvanlar ovlayır və allahlara qurban kəsir. Dastanda Enmerkarın Aratta səfərinin aqibəti naməlum qalır.

Şumer dastanlarında heç bir ölkəyə Aratta qədər diqqət yetirilməmişdir. Şumerlər bu ölkə ilə yaxından təmasda olmuşlar.

Qədim İkiçayarasında hakimiyyət uğrunda baş verən mübarizə həmçinin dastanlarda əks olunmuşdu. Bunlardan biri «Gilqameş və Aqa» adlanır. Aqa (yaxud Aka) Kiş şəhərinin, Gilqameş isə Uruk şəhərinin hökmdarı idi. Aqa Uruk şəhərini öz itaəti altına almaq üçün Gilqameşə tələb göndərir. Gilqameş şəhər ağsaqqallarının yığıncağını toplayır və məsləhət istəyir. İlk əvvəl şurada Kişə tabe olmaq təklifi irəli sürülür. Gilqameş belə qərardan narazı qalır və Kişin tələbini Uruk şəhər adamlarının yığıncağının (xalq yığıncağında) müzakirəsinə verir. Yığıncaq qərara alır ki, Kişin tələbi rədd edilsin və Aqa ilə döyüşə girsinlər. Gilqameş hamını toxaları atıb, silahlara sarılmağa çağırır. Lakin tezliklə Aqa Uruk şəhərini mühasirəyə alır. Gilqameş Aqanın yanına elçi göndərir. Münaqişə dinc yolla həll edilir.

«Gilqameş haqqından dastan» qədim dövrdə ən geniş oxunan əsərlərdən biri imiş. Bu dastanı, Akkad, hurri və het dillərinə tərcümə etmişdilər. Dastanın qəhrəmanı şumercə Bilqames adlanırdı. Dastan əslində «hər şeyi görmüş» (ovsunçu Sin-lekeunninin rəvayətindən) adı altında cəmləşdirilmişdir. Dastanın ən qədim parçaları Şumer dilində yazılmışdı. Dastanın nisbətən geniş mətni Akkad dilində tərtib olunmuşdu. Dastan Gilqameşi belə hallandırır: «Dünyanın axırına kimi hər şeyi görmüş haqqında, dənizləri görmüş, bütün dağları aşmış haqqında, öz dostu ilə birlikdə düşmənləri fəth etmiş haqqında, müdrikliyə çatmış haqqında, hər şeyi bilən haqqında, gizli (nə varsa) o gördü, sirli (nə varsa) bildi, bizə daşqından əvvəlki günlər barədə xəbər gətirdi, uzaq yola çıxmışdı, lakin yorulub qayıtmışdı».

Dastanda əfsanəvi mövzu azlıq təşkil edir. İnsan taleyi ön plana çəkilir. İnsan və cəmiyyət üçün səciyyəvi olan hadisələr həm bədii, həm də fəlsəfi baxımdan şərh olunmuşdur. Gilqameşin dastanda insan və allah kimi təsvir olunmasına baxmayaraq, əməlləri və fikri-zikri insanlara xas olan əməllərlə bağlıdır. O həm qəddar, həm xeyirxah, həm qəhrəman, həm dost, həm də insan taleyini, onun aqibətini düşünən adam kimi təsvir olunmuşdur. Dastan bir neçə hissəyə bölünür:

1. Gilqameşin Uruk əhalisinə əsir verməsi;
2. Enkidu ilə dostluğu;
3. Onların qəhrəmanlığı;
4. Enkidunun ölümü və Gilqameşin əbədi həyat axtarması.

Gilqameş Uruk şəhərinin qala divarlarını tikdirdikdən sonra özünü sərbəst aparır, şəhər əhalisinə zülm edir, qız və qadınlara sataşır. Uruk sakinləri allahlara şikayət edirlər. Şikayət sədası allah Anuya çatır. O, ana ilahə Arurunu yer üzərinə göndərir və deyir: «Sən onu yaratmışsan, indi də ona bənzər (qəhrəman) yarat». Aruru gildən vəhşi görkəmli və təbiətli Enkidunu yaradır. Tezliklə Uruka xəbər yayılır ki, yaxınlıqda vahiməli bir əcaib insan peyda olmuşdur. Onu ancaq Gilqameş məğlub edə bilər. Lakin Gilqameş belə ona qarşı çıxmaqdan çəkinir, çünki Enkidu vəhşi təbiətə malik idi. Onun təbiətini dəyişdirmək lazım idi. Məbəd qadınlarından birini Enkidunun yanına göndərirlər. Qadın ona nəvaziş göstərir. Tədricən Enkidunun vəhşi təbiəti dəyişilir, başına ağıl gəlir, gücdən düşür. Qadın məhəbbəti ona şüur gətirir. İnsana çevrilmiş Enkidu Gilqameş ilə döyüşə hazırlaşır.

Enkidu Gilqameşin zülmünə son qoymaq üçün Uruk şəhərinə daxil olur. Burada Gilqameş onun yolunu kəsir. Onlar tutaşmalı olurlar. Enkidu Gilqameşə üstün gəlir, lakin Gilqameş tam basılmır. Hər ikisi əhd-peyman bağlayıb dostlaşırlar. Bundan sonra Gilqameş və Enkidu uzaq Sidr ölkəsinə şər qüvvələri təmsil edən Humbabaya qarşı döyüşə gedirlər. Onlar sidr meşələrinə çatırlar və sidr ağaclarını Uruka gətirmək üçün

kəsirlər. Səsə gələn Humbaba döyüşdə həlak olur.

İlahə İştar Gilqameşin qəhrəmanlığını görüb ona vurulur, qəlbini ona açır. Lakin Gilqameş onun məhəbbətini rədd edir. Gilqameş yaxşı bilir ki, İştar heç bir sevgilisinə axıra qədər sadiq qalmamışdır. İştar bu təhqirə dözmür, səma allahı Anqudan xahiş edir ki, Gilqameşə qarşı səma öküzünü göndərsin. Vəhşi öküz Urukda qabağına çıxanı dağıdır, məhv edir. Gilqameş və Enkidu güc-bəla ilə öküzü öldürürlər.

Uruk camaatı qəhrəmanların şərəfinə mahnılar qoşur. Lakin allahlar Enkidunu Gilqameşə qarşı yönəltmişdilər. O isə Gilqameşlə dostluq edir, Humbaba və səma öküzünün öldürülməsində iştirak edir. Allahlar Enkiduya ölüm hökmü çıxarırlar. Enkidu xəstələnir və ölür, Gilqameş hədsiz qəmə batır. Həyatın, qəhrəmanlığın, şöhrətin sonunu gözü qabağında canlandırır. O, əbədi həyat axtarmağa gedir...

Gilqameş eşitmişdi ki, allahlar uzaq okean sahilində yaşayan Utnapiştimə nə vaxtsa əbədi həyat bəxş etmişdilər. Çox gedir, dağı-daşı aşır, okeanı keçir, Utnapiştimi tapır, ondan əbədi həyatın sirrini öyrənmək istəyir. Utnapiştim «Ümumdünya daşqını» əhvalatını danışır, lakin əbədi həyat sirrini açmaq istəmir. Lakin Utnapiştim arvadının təkidi ilə sirri açmalı olur. Gilqameş onun məsləhəti ilə okeanın dibinə enir və orada cavanlıq otu dərir. Lakin bu otu qaynadıb suyunu içmək lazım imiş. Yolda Gilqameş soyunub göldə çimir ki, uzun yolun yorğunluğu bədənindən çıxsın. Bu məqamda bir ilan cavanlıq otunu aparır. Gilqameş pərişan halda Uruka qayıdır. O, insanların ölümə qarşı aciz olduğunu qəti dərk edir.

«Gilqameş haqqında dastan» dünya ədəbiyyatının qızıl fonduna daxil olmuşdur.

İkiçayarası qeyri-dini ədəbiyyatı sırasına hekayə və nağıllar, ibarə və zərb-məsəllər daxildir. Hekayələrdə müxtəlif cəhətlər öz əksini tapmışdı. Lirik ədəbiyyat silsiləsindən nümunə olaraq «Ağanın qul ilə söhbəti» hekayəsini göstərmək olar. Hekayədə həyatın mənasızlığı, ağanın hər şeyə inamını itirməsi, qoyulan suallara qulun ikibaşlı cavabı əks olunmuşdur. Ağanın bədbinliyi, qulun hazırcavablığı əsərin əsasını təşkil edir. Qul ağanın hər bir arzusuna bəraət qazandırıcı cavab verir:

- Ey qul, mənim xidmətimdə dayan!
- Bəli, mənim ağam, bəli.
- Yola tələs! İş arabasını hazırla! Mən saraya gedirəm.
- Get, mənim ağam, get. Səni uğur gözləyir.
- Yox, mənim qulum, yox. Saraya getmək istəmirəm.
- Getmə, mənim ağam, getmə! Birdən səni uzaqlara göndərərlər, naməlum yola çıxmağa məcbur edərlər. Onda sənin payına gecə və gündüz iztirabı düşər!
- Ey qul, mənim xidmətimdə dayan!
- Bəli, mənim ağam, bəli.
- Əlimi yumağa su hazırla. Mən kef eləmək istəyirəm.
- Kef elə, mənim ağam, kef elə. Eyş-işrət şadlıqdır. Kim ki, şad qəlblə və təmiz əllə kef eləyir, Şamaş onunladır.
- Ey qul, mən kef eləmək istəmirəm.
- Eləmə, mənim ağam, eləmə. Aclıq və toxluq, susuzluq və içki adama əzab verir.
- Ey qul, mənim xidmətimdə dayan.
- Bəli, mənim ağam, bəli.
- Mən ev tikmək istəyirəm.
- Tik, mənim ağam, tik! Ədalətsiz və zalım rəqibindən canını qurtar.
- Ey qul, mən ev tikmək istəmirəm.
- Ev tikmə. Ev tikən atasının evini sökür.
- Ey qul, mənim xidmətimdə dayan.
- Bəli, mənim ağam, bəli.
- Üsyan qaldırmaq istəyirəm.
- Qaldır, mənim ağam, qaldır. Əgər üsyan qaldırmasan, aqibətin necə olar? Düşərgəni təmin etmək üçün kim sənə ərzaq verər?
- Ey qul, üsyan qaldırmaq istəmirəm.
- Qaldırma, mənim ağam, qaldırma. Üsyan qaldıran adamı ya öldürürlər, ya gözlərini çıxarırlar, ya da həbsxanaya salırlar.
- Ey qul, mənim xidmətimdə dayan.
- Bəli, mənim ağam, bəli.
- Mən istəyirəm allahıma qurban kəsim.
- Kəs, mənim ağam, kəs. Öz allahına qurban kəsən adamın ürəyi sevinc ilə dolu olur.
- Ey qul, mən öz allahıma qurban kəsmək istəmirəm.
- Kəsmə, mənim ağam, kəsmə. Yəqin sən fikirləşirsən ki, allahın istəyini yerinə yetirsən, onu öz arxanla gəlməyə məcbur edə bilərsən?
- Ey qul, mənim xidmətimdə dayan.
- Bəli, mənim ağam, bəli.

- Mən qadın sevmək istəyirəm.
- Sev, mənim ağam, sev. Qadını sevən adam kədər və qəmi yaddan çıxardır.
- Ey qul, mən qadın sevmək istəmirəm.
- Sevmə, mənim ağam, sevmə. Qadın ovçu üçün tələdir, dərin quyu və yarğandır. Qadın adamın boğazını kəsən iti xəncərdir.
- Ey qul, mənim xidmətimdə dayan.
- Bəli, mənim ağam, bəli.
- Mən ölkəmə xeyirxahlıq göstərmək istəyirəm.
- Göstər, mənim ağam, göstər. Özün də xeyirxahlıq taparsan.
- Ey qul, mən xeyirxahlıq göstərmək istəmirəm.
- Göstərmə, mənim ağam, göstərmə. Qədim xarabalıqları gəz və insan kəllələrinə nəzər sal. Tap görüm, onlardan kim şər sahibi, kim xeyir sahibi olmuşdur.
- Ey qul, mən istəyirəm səni öldürüm və arxamca getməyə məcbur edim.
- Mənim ağam məndən sonra həqiqətən üççə gün yaşayacaqdır.

«Müdrik Ahikar haqqında» hekayət arami dilində tərtib olunmuş və e.ə. VII əsrin şəraitini əks etdirir. Ahikar Assur hökmdarı Sinahheribin ali məmuru idi. Onun övladı yox idi. O, allahdan oğul arzulayırdı. Arzusu boşa çıxdıqdan sonra Ahikat qardaşı oğlu Nadanı oğulluğa götürüb onun tərbiyəsi ilə məşğul olur. Povestdə dövlət xadimi Ahikarın Nadana yüzdən çox nəsihəti əks olunmuşdur. Onlardan bir neçəsi o dövrün əxlaqi qaydaları haqda təsəvvür yarada bilər:

- Sirri açma. Sarayda eşitdiyin hər bir söz qoy sənin qəlbində çürüsün.
- Sakit danış, səsini ucaldıb səs-küylə danışma. Əgər səs-küylə ev tikmək mümkün olsaydı, onda eşşək gündə iki ev tikərdi.
- Ağıllı adam ilə daş daşımaq, axmaq adam ilə şərab içməkdən yaxşıdır.
- Həddindən artıq şirin olma, yoxsa səni udarlar. Həddindən artıq acı da olma, yoxsa səni atarlar.
- Dilini yamanlıqdan saxla, əlini oğurluqdan.
- Ağıllı adama qulaq asmaq, isti havada sərin su içməyə bənzəyir.
- Heç kəsə ayağını basmağa imkan vermə, sonra boynuna minə bilərlər.
- Bir sərçəni əldə tutmaq, min quşun göydə uçmasından sərfəlidir.
- Nə zaman su yuxarı axsa, quş qanadsız uçsa, qarğa ağarsa, acı bal kimi şirin olsa, o zaman axmaq da ağıllanar.
- Öz sahibini tərk edən və sənin dalınca düşən iti daşla qov.
- Başqasına gor qazan özü düşər.

Bu nəsihətlər müasir dövrün əxlaq və davranış qaydaları ilə də səsləşir.

İkiçayarası ədəbiyyatının maraqlı nümunələrindən biri də «Nippurlu yoxsulun nağılıdır» (e.ə. II minilliyin ortası). Nippurlu yoxsulun heç nəyi yoxdur: nə qızılı, nə gümüşü, nə taxılı və əti, nə də yaxşı geyimi və içməyə pivəsi. O, Nippur şəhər rəisinin ziyafətində iştirak etmək istəyir, lakin hədiyyə aparmağa heç bir şeyi yoxdur. Əlac ona qalır ki, paltarını satsın. Bir keçi alıb əli dolu bayram ziyafətinə gedir. Şəhər rəisi yoxsulu məclisdə görüb qəzəblənir. Onun göstərişi ilə yoxsulu bir kənarda oturdurlar, artıq qalan yeməkdən qabağına qoyurlar, sonra da evdən qovurlar. Yoxsul pərt olur. Orada-burada xəbər yayır ki, rəisdən intiqam alacaqdır. Xəbər də rəisə çatır. Lakin «bunu eşidən rəis bütün günü uğunmaqdan qarnını tutur». Yoxsul hiylə işlədir, gah elçi paltarında, gah da həkim donunda üç dəfə rəisi aldadıb şəhərdən kənara çıxardır və hər dəfə onu o möhkəm əzişdirir. Rəis yarımcan şəhərə qayıdır.

Şumerlər həyat və məişət ilə əlaqədar müxtəlif məzmunlu təmsillər yaratmışlar. Bu şifahi xalq yaradıcılığı nümunələri Şumer məktəblərində yazıya köçürülürdü. Xalq yaradıcılığı nümunələri (nəsihətlər, atalar sözü, zərbi-məsəllər və sairə) «Məktəb (e-duba) mətnləri» kimi məlumdur. Şumer şifahi xalq yaradıcılığı nümunələri, o cümlədən təmsilləri e.ə. II minilliyin birinci yarısında yazılmışdır. Təmsillərin bir qismi heyvanlara həsr olunmuşdur:

Ulaq (eşşək) çayda üzüaşağı üzürdü, it isə onun dalınca qaçır və öz-özünə deyinirdi:
- Görəsən o nə vaxt sahilə çıxacaq ki, mən onu yeyim.

İt ziyafətə gəldi, lakin sümük qalıqlarını görüb deyinərək uzaqlaşdı:
- İndi mən gedəcəyim yerdə mənim üçün daha çox yem tapılar.

Qancıq it iftixarla deyirdi:
- Mənim üçün fərqi yoxdur, balalarım (küçüklər) kürəndir, yaxud xallı; onsuz da mən onların hamısını istəyirəm.

Doqquz canavar (qurd) və onuncu bir neçə qoyunu birgə parçaladılar. Onuncu canavar tamahkar imiş. O, hiylə ilə dedi:
- Mən (cəmdəyi) sizin üçün bölüşdürürəm. Sizin sayınız doqquzdur, qoy bir qoyun (cəmdəyi) sizin payınız olsun. Mən isə təkəm, qoy doqquz qoyun (cəmdəyi) mənə çatsın, bu da mənim payım olar.

Tülkü vəhşi öküzün dırnağını basdaladı və soruşdu:

- Səni çox incitmədim ki?

Tülkü özünə ev tikə bilmədi, buna görə dostunun evinə fateh kimi gəldi.

Tülkü əlində ağac gəzişir və deyirdi:

- Görəsən, kimə ilişdirim?

Tülkü əlində rəsmi sənəd düşünürdü:

- Görəsən, nə tələb eləyim?

Tülkü Enlildən vəhşi öküz buynuzu arzuladı. Ona vəhşi öküz buynuzu qoyuldu. Lakin külək qopdu, yağış yağdı, tülkü öz yuvasına girə bilmədi. Səhərə yaxın soyuq şimal küləyi, qara buludlar və leysan tülkünü yaxalayanda o dedi:

- Qoy səhər açılsın...

Pişik çox götür-qoy edir, manqusta isə fürsəti fövtə vermir.

Evdə olan yeməyi manqust udur. Mənə bir şey qalırsa, onu da yadelli gəlib məhv edir.

Mənim manqustum ancaq piylənmiş yeyir, pivə, yaxud sarı yağ üçün heç yerindən belə tərpənmir.

Ey şir, sıx cəngəllik sənin müttəfiqindir.

Şir cəngəllikdə donuzu yaxaladı və deyinə-deyinə onu parçalamağa başladı: «Sənin ətini hələ heç dadmamışam, amma sənin cığ-cığın qulaqlarımı deşdi».

Şir bir keçini qamarladı. Keçi dedi: - «Məni burax, mən sənə rəfiqələrimdən birini, qoyunu verərəm». Şir cavab verdi: - «Səni buraxaram, ancaq adını mənə de görüm!». Keçi: - «Məgər sən mənim adımı bilmirsən? Mənim adım «Sən aqilsən!-dir». Şir arxaca çatanda mırıldadı: - «Artıq arxaca çatdım, səni buraxıram». Keçi (azad olub) cavab verdi: - «Bəli, sən məni buraxdın. Məgər sən aqilsən? Mən sənə nəinki qoyun verərəm, heç özüm də səninlə qalmaram».

Fil öyünüb deyirdi: - «Dünyada mənə bənzər yoxdur». Gicitkən (bunu eşidib) ona dedi:-»Axı mən də, nə qədər xırda olsam belə, sənə bənzər yaradılmışdım».

Eşşək öz döşəməsini də yeyər.

Mənim eşşəyim sürətlə qaçmaq üçün yox, anqırmaq üçün yaranıb.

Mən, eşşək kimi, üçyaşlıya evlənmərəm.

At üstündəki süvarinin yerə atıb dedi: - «Belə bir yükü belimdə daimi gəzdirsəm, gücdən düşərəm ki!»

- Sən at kimi tərləyirsən - bu sən içdiyindir.

Ey qatır, səni kim tanıya bilər - atan, yaxud anan?

Kökəldilmiş donuzu kəsməyə hazırlaşırdılar, o dedi: «Bu mən yediyim xörəyə görədir».

Qəssab donuzu kəsə-kəsə deyinir: - «Nə vız-vız salmısan? Bu yol ilə sənin atan, babaların getmişdir, sən də onların arxasınca gedəcəksən. Hələ səs-küy də salırsan!»

Təmsillər və hikmətli sözlər, yəqin ki, hər bir qədim xalqın şifahi yaradıcılığında öz əksini tapırdı, lakin onların ən qədim nümunələri bizə Şumer yazılarında gəlib çatmışdır.

Atalar sözü, ibarələr, ibrətli hekayələrin yazılı qeydləri Misir qaynaqlarında, Tövrat dini kitabında da öz əksini tapmışdır. Şumer hikmətli atalar sözləri və zərb-məsəlləri daha qədimdə yazıya alınmışdı. Bunlar e.ə. II minilliyin birinci yarısında yazıya köçürülmüşdü. Şumer zərb-məsəlləri müasir dövrlə səsləşir.

Şumerlər həyat və məişətin hər bir sahəsinə aid atalar sözləri, zərb-məsəllər yaratmışlar. Yoxsulluq həyatın ən acı amili kimi qəbul edilirdi, yoxsulun acınacaqlı halı zərb-məsəllərdə əks olunurdu:

«Kasıbın ölməsi yaşamasından yaxşıdır.
Onun çörəyi olanda duzu olmur,
Duzu olanda çörəyi olmur,
Əti olanda quzusu olmur,
Quzusu olanda əti olmur».

Yoxsulun ehtiyatı qurtaranda borca düşürdü: «Kasıb borc etməklə öz qayğısını artırır». Lakin zərb-məsəllərdən aydın olur ki, yoxsul təbəqələrdə ədalətsizliyə qarşı etiraz mövcud idi. Bu aşağıdakı nümunədə daha aydın görünür: «Yoxsul ailələrin hamısı heç də eyni dərəcədə itaətkar deyil».

Şumerlər var-dövlətə, varlı və yoxsula aid zərb-məsəllər də yaratmışlar. Müvafiq atalar sözü aşağıdakılardan ibarətdir: «Kimin çoxlu gümüşü varsa, bəlkə də o xoşbəxtdir. Kimin çoxlu arpası varsa, bəlkə də o da xoşbəxtdir. Lakin kimin heç nəyi yoxdursa, o, gecələri sakit yatır».

Şumerlər başa düşürdülər ki, hər bir peşə sahibi müvafiq işlə məşğul olmalıdır. Deyirdilər: «Mən cins atam, lakin qatır ilə bir boyunduruğa salıblar. Budur, arabanı çəkirəm, qamış və saman daşıyıram». Xidmətçinin işi çox olurdu, üst-başına diqqət verə bilmirdi. Eləsi haqda deyirdilər: «Xidmətçinin paltarı həmişə çirkli olar». Şumerlər təmiz geyimə fikir verirdilər: «Yaxşı geyimliyə hər yerdə şaddırlar» - deyirdilər.

Qədim İkiçayarası sakinlərinin arasında baş verən mülki bərabərsizlik müvafiq surətdə atalar sözlərində öz əksini tapmışdır: «Hələ (dünya) çox yaşayacaq, gəlin (var-dövlət) toplayaq». Bunun əksinə olaraq dünya malına biganə baxanlar da vardı: «Onsuz da öləcəyik, gəlin nəyimiz varsa xərcləyək». Şumerlər səylə zəhmət çəkənləri yüksək qiymətləndirirdilər. Bir atalar sözündə deyilir: «Əl üstə əl gəl -

görürsən ev tikildi; qarın üstə qarın gəl - görürsən ev söküldü» və yaxud: «Kim ağa kimi tikirsə, qul kimi yaşayır. Kim qul kimi tikirsə, ağa kimi yaşayır». Zəhmət adamı haqda şumerlər xoş zərb-məsəl yaratmışdılar: «İşləyən adamın yuxusu şirin olar».

Şumerlərin, yəqin ki, tənbəl, mız-mız, daim öz taleyindən şikayətlənən adamlardan zəhlələri gedərdi. Belə adamlar haqda da atalar sözləri vardır: məsələn, aciz, heç bir işə yaramayan adam haqda deyirdilər: «Səni suya atsalar, su iylənər; səni bağçaya buraxsalar, bütün meyvələr çürüyər». Daim sızıldayan adam deyərmiş: «Mən uğursuz bir gündə anadan olmuşam».

Şumerlər biliyi, savadı yüksək qiymətləndirirdilər. Ana dilini bilməyi üstün tuturdular. Hikmətli ibarədə deyilir: «Bu necə mirzədir ki, şumer dilini bilmir!». Şumer dilini öyrənəni tərifləyirdilər: - «Bax, bu xidmətçi şumer dilini öyrənmişdir» - deyərdilər. Mirzə sənətini qiymətləndirir, yaxşı mirzəni pisdən seçirdilər. Onların fikrincə, mirzə cəld olmalı idi: - «Əsl mirzə o adamdır ki, əli ağzından geriyə qalmasın» - deyirmişlər.

Şumerlərin həyatında ailə məsələləri mühüm yer tuturdu. Ailədə tənbəl kişi haqda zərb-məsəl yaratmışdılar. Ailə başçısı deyinir: «Arvadım məbəddədir, anam çay kənarında, mən isə (evdə) acından ölürəm». Bəzən kişilər yaxşı ailə qura bilmədiklərindən evləndiklərinə peşman olurdular. Uğursuz nikah halları üçün aşağıdakı zərb-məsəl vardı: «Xoşbəxtlik evlənməkdədir, lakin bir az fikirləşəndə ayrılmaqdadır».

Şumerlər ailə və övladların qədrini bilir və buna yüksək qiymət verirdilər. Çox maraqlıdır ki, qaynanalar haqda atalar sözü yaratmamışlar. Yəqin ki, onlar üzüyola olmuş, ailənin bütövlüyünü qorumuşlar. Lakin gəlin qayınata üçün bəla imiş. «Çöldə bardaq - kişi üçün həyatdır.

Ayaqqabı - kişi üçün göz bəbəyidir.

Arvad kişinin gələcəyidir.

Oğul - kişi üçün sığınacaq yeridir.

Qız - kişi üçün nicat yeridir.

Amma gəlin - kişi üçün lənətdir».

Şumerlərin fikrincə, ailə məhəbbət əsasında qurulmalıdır. Qarşılıqlı istək olmayan nikah haqda deyərdilər: «Gəlinin ürəyi fərəhlə doludur, bəyin ürəyi qəm-qüssə ilə». Xeyirli nikah güdən qızlar haqda belə zərb-məsəl vardı: qız deyir: «Mən məhəbbətimi kimə bəxş edim? Bəlkə hər şeyi bol olana, kifayət qədər varı olana?»

Şumerlər ailə qurmağın müsbət və mənfi cəhətlərini müşahidə etmiş, deyingən arvadlar haqda zərb-məsəl yaratmışdılar: - «Evdə deyingən arvad kədər üstünə azar gətirir». Ailə saxlamağın çətinliyini başa düşürdülər: - «Kim arvad və uşaq saxlamayıbsa, deməli o, burun deşiyində halqa gəzdirməyibdir» - deyirdilər. Şumerlər dostluq və qohumluq haqda belə deyirmişlər: - «Dostluq bir gün çəkir, qohumluq əbədi davam edir».

Şumerlər bilavasitə istismarçılara nifrətlə yanaşırdılar. Buna belə zərb-məsəl qoşmuşdular: «Sənin hökmdarın ola bilər, sənin şahın ola bilər, lakin, hər şeydən əvvəl, ağandan qorx!»

Şumerdə ara müharibələri, hakimiyyət uğrunda mübarizə, düşmən basqınları tez-tez baş verirdi. Buna görə Şumer əhalisi ölkənin təhlükəsizliyinin qorunması barədə də zərb-məsəl yaratmışdılar. Məsələn, «Əgər ölkə pis silahlanıbsa, düşmən həmişə (şəhər) darvazaları önündə dayanacaqdır». Bununla bərabər, şumerlər müharibənin mənasız olmasını başa düşürdülər. Buna uyğun atalar sözündə deyilir: «Sən gedirsən, düşmənin torpağını zəbt edirsən, düşmən gəlir, sənin torpağını zəbt edir».

İkiçayarasının zəngin ədəbiyyatı Şərqin başqa xalqlarının ədəbiyyatına (hetlərin, yəhudilərin, aramilərin və s.), antik dünya ədəbiyyatına müəyyən təsir göstərmişdir.

İkiçayarasında təhsilin başlıca ocağı məktəb idi. Məktəblərin mövcudluğu haqda ilk məlumatı arxeoloji materiallar verir. Uruk şəhərində aparılan qazıntılar zamanı e.ə. IV minilliyin sonuna və III minilliyin əvvəlinə aid söz siyahısından ibarət gil kitabələr aşkar edilmişdir. Onların içərisində əzbərləmək üçün söz siyahısı vardı. E.ə. III minilliyin ortalarında Şumerdə artıq məktəb təhsili mövcud imiş. Şuruppak qazıntıları zamanı həmin dövrə aid çoxlu «məktəb mətnləri» aşkar edilmişdi. Bunlar tarixdə ilk dərs vəsaiti hesab olunur.

Şumer məktəblərində gələcək mirzələr hazırlayırdılar. Məktəbdə mixi yazı sistemini və əsas riyazi bilikləri öyrənirdilər. Şagird Şumer və Akkad dillərini yaxşı bilməli, ədəbi əsərlərin üzünü köçürməyi bacarmalı idi. Eyni zamanda onlara ilahiyyat, coğrafiya, nəbatat, zoologiya, təbabət sahəsində məhdud miqdarda olsa da, savad verilirdi.

Məbəd və dövlət təsərrüfatının genişlənməsi ilə əlaqədar olaraq çoxlu qeyd və hesablama sənədlərinin tərtib edilməsi zərurəti meydana gəlmişdi. Buna görə savadlı mirzələrə ehtiyac artırdı. Bununla bağlı İkiçayarasında ilk məktəblər məbəd və saray yanında yaranmışdı.

II minilliyin birinci yarısında İkiçayarası məktəbləri aşağıdakı qaydada təşkil olunmuşdu. Şumer məktəbi edubba «kitabələr evi» adlanırdı. Məktəbə «kitabələr evinin atası» adlanan şəxs başçılıq edirdi. Eyni zamanda o, müəllim idi. Müəllimə şagirdlər «böyük qardaş» deyirdilər. Şagirdlər «kitabələr evinin övladları»

adlanırdılar. Məktəbin nəzarətçisi "qamçı tutan" adını daşıyırdı. Nəzarətçi şagirdlərin məktəbə müntəzəm gəlməsini təmin edirdi.

Şumer məktəbində nizam-intizam sərt idi, təlimdə şallaq sistemi tətbiq olunurdu. Tədris iki cürə qurulmuşdu. Burada şagirdlər bir tərəfdən şumer yazı növünü öyrənir, digər tərəfdən əsərləri əzbərləyir və üzünü köçürürdülər. Qazıntılar zamanı xeyli belə nüsxə tapılmışdır. Təhsil şagirddən yaxşı yaddaş tələb edirdi. Yəqin ki, bütün oxuyanlar güclü yaddaşa malik deyildilər. Buna görə, yaxud başqa səbəbə görə bəzi şagirdlər dərsləri buraxıb, indi necə deyərlər, «çətin tərbiyə olunan» uşaqlara çevrilirdilər.

Qədim şumer mətnlərinin birində, təxminən 4 min il bundan əvvəl yazılmış mətndə belə çətin şagird haqda söhbət aparılır. Ümumiyyətlə, həmin dövrdə məktəb həyatı haqda hekayələr yaradılırdı. Belə hekayələrdən biri «Ata və fərsiz oğul» adlanır. Hekayədə ata öz oğluna nəsihət verir, səylə oxumağı, məktəbə vaxtında gedib-gəlməyi, küçələrdə veyllənməməyi tövsiyə edir. Ata və oğul arasında belə bir söhbət başlayır:

Ata oğuldan soruşur: «Haraya getmişdin?»

Oğul cavab verir: «Mən heç yerə getməmişdim».

Ata deyir: «Əgər sən heç bir yerə getməmişdinsə, nə üçün veyllənirsən? Dur, məktəbə get, «kitabələr evinin atası» qarşısında dayan, tapşırılmış dərsi ona danış, məktəb çantasını aç, öz kitabəni yaz, qoy sənin «böyük qardaşın» sənin üçün yeni tapşırıq kitabəsi hazırlasın. Dərsi hazırlayandan sonra, onu müəllimə göstər, mənim yanıma gəl, veyl-veyl gəzmə. Başa düşdünmü, mən sənə nə dedim?»

Oğul: «Bəli, başa düşdüm və təkrar da edə bilərəm».

Ata: «Onda təkrar et».

Oğul ata nəsihətini təkrar edir, lakin sonralar bu nəsihətə əməl etmir.

Ata yenidən qəzəblənir.

«Qulaq as, adam ol! Meydançalarda dayanma, bağ-bağçanı gəzmə. Məktəbə get, bu sənə xeyir gətirər. Mən öz qohumlarımıza baxıram, onların arasında sənə oxşar adam tapa bilmirəm. Sən mənim ürəyimi üzdün, sən məni qəbirə aparacaqsan. Mən heç vaxt sənə iş buyurmamışam, torpaq şumlamağa göndərməmişəm, torpaq toxalamağa göndərməmişəm. Başqa sənə oxşar uşaqlar işləyirlər, valideynlərinə kömək edirlər. Onlar ataları üçün taxıl yığıb çoxaldır, arpa, yağ və yunla təchiz edirlər. Sən isə onlarla müqayisədə heç kişi deyilsən. Mən səni onlar kimi işləməyə məcbur etməmişəm. Sən öz qardaşına, şagird yoldaşına bax. Nə üçün sən onları ötüb keçmirsən? Heç olmasa öz böyük qardaşına, kiçik qardaşına tay olmağa çalış.

Sənə görə mən gecə-gündüz əzab çəkirəm. Gecə və gündüzü kef axtarmaqla puça verirsən, sən çoxlu cavahirat toplamısan, yoğunlamısan, yekəlmisən, lovğa və güclü olmusan. Ancaq sənin bütün nəslin səbirlə gözləyir ki, sənə bir bəla üz versin və onlar da buna baxıb sevinsinlər, çünki sən adam olmağa can atmırsan».

Hekayədən gətirilmiş bu qısa mətn göstərir ki, qədim zamanlarda savad almağa laqeyd olan övladlar valideynin narahatlığına səbəb olurdular. Övladın biganəliyinə baxmayaraq, ata allahlardan oğluna qayğı göstərməyi və başına ağıl qoymağı diləyir.

Şumerlər təkcə oxumaqdan yayınanlar haqda hekayə yaratmamışlar. Səylə çalışan məktəblinin gündəlik həyatı haqda da hekayə vardı. Hekayə «Məktəblinin günü» adlanır. Onu da 4 min il əvvəl yaşamış naməlum müəllim yazmışdır.

Hekayədən göründüyü kimi, şumer məktəblisi dərsə gecikməkdən qorxur, çünki «müəllim onu çubuqla döyə bilər». Hər səhər anasını tələsdirir ki, ona səhər yeməyi hazırlasın. Hekayənin mətni bilavasitə şagirdə yönəldilmiş sualdan başlayır:

- «Ey məktəbli, sən erkən uşaqlıqda haraya getmisən?» Şagird cavab verir: - «Mən məktəbə getmişəm».

- «Sən məktəbdə nə ilə məşğul olmuşsan?»

Şagird cavab verir: «Mən məktəbdə öz kitabəmin məzmununu danışdım, səhər yeməyimi yedim, kitabəmi yazdım və onu sonacan köçürtdüm. Sonra şifahi tapşırığı soruşdular, nahardan sonra yazılı tapşırıq verdilər. Dərslər qurtarandan sonra evə gəldim. Otağa girdim, gördüm ki, atam əyləşib. Mən atama öz kitabəmi oxudum, o, razı qaldı».

Bir gün şagird dərsə gecikir. Bu haqda belə danışılır: «Səhər ayılanda, anamdan xahiş etdim ki, mənə səhər yeməyi versin, çünki məktəbə tələsirdim. Anam mənə iki kökə verdi və mən məktəbə getdim. Məktəbdə «çubuq tutan» məndən soruşdu: «Sən nə üçün belə gec gəlmisən?» Mən qorxdum və ürəyim döyündü. Mən müəllimə yaxınlaşdım və ədəb-ərkanla ona baş əydim».

Həmin gün şagird üçün uğursuz oldu. Ehtiramla müəllimə baş əyməsinin köməyi olmadı. Hələ üstəlik müəllim şagirdə dedi: «Sənin əlin heç bir işə yaramaz (yəni pis yazırsan)» və şagirdə bir çubuq vurdu. Şagird bunu gözləmədiyindən pərt oldu. Evə gəldi. Atasından xahiş etdi ki, müəllimi evə dəvət etsin və ona qulluq göstərsin. Ata müəllimi evə dəvət etdi. Müəllim gəldi, onu başda oturtdular. Şagird müəllimə qulluq göstərməyə və məktəbdə öyrəndiyini danışmağa başladı. Ata müəllimə səy göstərdiyi üçün təşəkkürünü bildirdi və müəllimə təzə geyim və bahalı hədiyyələr verdi, barmağına isə üzük taxdı. Tərifli sözlərdən və hədiyyələrdən müəllim xoşlandı. Müəllim şagirdə - gələcək mirzəyə ürək-dirək verməyə başladı: «Ey gənc,

mənim sözlərimə diqqətlə qulaq asdığın üçün, heç bir kəlamı yaddan çıxartmadığın üçün, sən yazı sənətinin zirvəsinə çata biləcəksən və onun incəliklərinə yiyələnəcəksən. Səni görüm qardaşların arasında lap yaxşı olasan, dostların arasında lap baş olasan, habelə şagirdlər arasında lap birinci olasan. Sən məktəbdə yaxşı oxumusan, görürsən, sən artıq savadlı adam olmusan».

Bu hekayə hələ qədimdə çox geniş yayılmışdı. Qazıntılar zamanı bu hekayənin 21 nüsxəsi tapılmışdı. Lakin mətn müəllimin maaşı haqda fikir yürütmək üçün imkan vermir. Müəllimin evə dəvət edilməsi və ona ehtiram göstərilməsi yaltaqlığın tarixini göstərən ilk tarixi faktdır, müəllimə hədiyyə verilməsi rüşvətxorluğun tarixinə aid ilk sənəddir. Şagirdin təhsil haqqını, yəqin ki, valideyn ödəməli idi. Lakin valideyn müəllimə əmək haqqından başqa əlavə hədiyyə də verirmiş. Müasir dövr baxımından müəllimin aldığı hədiyyə rüşvət kimi, şagirdin hərəkəti isə, yaltaqlıq kimi qiymətləndirilə bilər, lakin bu mülahizə həqiqətdən xeyli uzaqdır. Əgər şagird tənbəl və fərsiz olsaydı, birinci hekayədəki kimi, dərsdən yayınsaydı, onda həmin mülahizələrə bəraət qazandırmaq olardı. Hekayədə tələbkar müəllim və çalışqan şagird surəti yaradılmışdır. Şərq adət-ənənəsinə uyğun olaraq bu faktı müəllimə göstərilən ehtiramın və qonaqpərvərliyin ilk yazılı nümunəsi kimi də qəbul etmək olar.

Təsərrüfat həyatının praktiki tələbləri müxtəlif sahəli elmi biliklərin yaranmasına səbəb olmuşdu. Məsələn, ulduzların və planetlərin müşahidəsi təqvimin tərtib olunmasına, torpaq sahələrinin ölçülməsi riyazi qaydaların müəyyənləşdirilməsinə, hesablama aparılmasına imkan verirdi. Bina tikintisi, hüquq normalarının yaradılması və qeydə alınması, mülkiyyət və sahibkarlıq münasibətlərinin inkişafı gündəlik tələbat idi. Təsərrüfat işləri ilə bağlı ölçü, çəki, məsafəni hesablama qaydalarını öyrənmişdilər. Ən ağır çəki talant (təqribən 30 kq), ən yüngül çəki şeum (0.04 q) adlanırdı. Şeum əslində «dən, taxıl» mənasını daşıyırdı. Praktiki tələbat riyaziyyatın inkişafına təkan vermişdi. Şumerlər onluq və altı onluq hesablama sistemi yaratmışdılar. Müvafiq qaydada bunların əsasını, 1, 10, 100 və 60, 120, 180, 3600 və s. rəqəmləri təşkil edirdi. İkiçayarasının sami mənşəli əhalisi bu hesablama qaydasını mənimsəmişdi. Onlar vurma, bölmə, dördbucaq, tənlik və kəsri bilirdilər. Onlar düzbucaq, kub dərəcəyə yüksəltmə, kökalma, cəbr tənliyi və s. ilə tanış idilər.

İkiçayarasında praktiki tələbata uyğun olaraq astronomiya xeyli inkişaf etmişdi. Astronomik müşahidələr eyni zamanda insan taleyinin və hadisələrin gedişinin göy cisimlərinin düzülüşündən asılı olması inamından doğurdu. Müşahidə kahinlər tərəfindən zikkurat-məbədlərin zirvəsindən aparılırdı. Müşahidələrin nəticəsi yoxlanılıb yazılırdı. Təbiətin daimi müşahidəsi nəticəsində İkiçayarasında qədim təqvim növləri yaradılmışdı. Bunlardan biri qəməri təqvimi olmuşdu. Bu təqvimə görə, hər ay 29 ya 30 gündən ibarət (ayın dəyişmə mərhələsi təxminən 29.5 sutkaya bərabər idi), il isə 12 aydan və 354 gündən ibarət idi. lakin qəməri təqvimi şəmsi təqvimindən fərqlənirdi. Şəmsi təqvim astronomiyaya daha uyğun idi. Təqvimlər arasında fərq 11 günə bərabər olurdu. Buna görə hər üç ildən bir təqvimə on üçüncü ayı əlavə edirdilər. Günəşin batması günün başlanğıcı hesab edilirdi. Ayların əksəriyyəti təsərrüfat işlərinin xüsusiyyətinə uyğun olaraq ad daşıyırdılar. Məsələn, «əkin», «biçin», «taxıl», «arpa dadına baxmaq bayramı» və s. ay adları vardı. Yeni il bahar fəslinin əvvəlindən, əkin işləri başlanan dövrdən hesablanırdı. Adətən bu, mart ayına təsadüf edirdi. Günəş və ayın hərəkətini müşahidə edir, daimi müşahidə nəticəsində günəş və ayın tutulmasını əvvəldən qeydə alırdılar. Bürc ulduzlarını tanıyır və onların təsvirini verirdilər. İkiçayarası əhalisi günəş və su saatlarından istifadə edirdilər. «Astronomiya» üzrə dərslik tərtib olunmuşdu. İkiçayarasında gəmiqayıran, üzən körpü (ponton) düzəldən usta sənətkarlar vardı. Böyük çayları üzüb keçmək üçün üfürülmüş tuluqlardan istifadə edirdilər.

Təbabət ovsunla sıx əlaqəli idi. Ağır xəstələri ovsunla müalicə edirdilər. Türkəçarə müalicə aparanlar (aşinu, maşmaşu) ilə yanaşı savadlı həkimlər (azu) də vardı. Qazıntılar zamanı hökmdar Qudeanın vazası aşkar edilmişdi. Onun üzərində ilan şəklində əsaya sarınmış sağlamlıq allahının simvolik təsviri düzəldilmişdi. Bu əlamət müasir təbabətdə də həkimlik rəmzini bildirir. Güman edirlər ki, İkiçayarasında ilk həkimlər kahinlər olmuşlar. Həkimlər fal və müalicə yolu ilə bir çox xəstəlikləri müalicə edirdilər. Onlar gözdən kataraktı götürür, soyuqdəyməni müalicə edir, dəri şişini kəsir, sınığı düzəldir, uşaq tuturdular. Bir sıra xəstəliklərin, o cümlədən ciyər, mədə, bağırsaq xəstəliklərinin əlamətini müəyyənləşdirə bilirdilər. Dərmanları müxtəlif bitkilərdən, heyvan maddələrindən və mineral maddələrdən hazırlayırdılar.

İkiçayarasında təbabət üzrə vəsait və göstərişlər hazırlanırdı. Bunlardan biri «Nippur həkiminin arayış kitabçası» (e.ə. XXIV əsr) adlanırdı. Burada 15 müalicə qaydası əks olunmuşdu. Nippur məbədi nəzdində (Kassi dövrü) xüsusi müalicəxana mövcud imiş. Hesabatlarda bir neçə qadın müğənninin müalicəsindən bəhs edilir. Onlar soyuqdəymə, öskürmə və zökəm (qrip) xəstəliyinə tutulmuşdular. Burada deyilir: «E. bu xəstəliyə tutulub. K. və A.-nın qızları salamatdırlar və canları bərkdir. Əgər mənim ağam yazsa, onlar gəlib məşqə davam edə bilərlər. O ki, qaldı M.-nın qızına, onun soyuqdəyməsi keçdi, əvvəl öskürürdüsə, indi öskürmür. İ.-in qızının ikitərəfli sətəlcəmi davam edir. Onun rəngi qaçıbdır... dərman verilir... . B.-nın qızının qabırğaaltı sətəlcəmi davam edir və o, öskürür». Sonrakı hesabatdan məlum olur ki, E. sağalmış, lakin M.-nın qızının «axşamdan istiliyi qalxıb. Səhərə yaxın ona ağı içirtdim, lakin qızdırma keçmədi, ayaqları soyuqdur...»

Müalicə qaydalarında (reseptlərində) bir çox bitki, mineral və başqa maddələrin adları çəkilir, lakin onların mənası açılmamış qalır. Qaydaların birində deyilir: «Anadişşa» bitkisi, tikanlı kol budaqları, «duaşbura» toxumu... ovulsun, onlara su ilə pivə qarışdırılsın, ağrıyan hissə bitki yağı ilə ovxalansın və pivə ilə qarışdırılmış bitki tozu qızdırma (istilik vermə) vasitəsi kimi onun üstünə sarınsın».

Şumer əfsanələrində ilahə Baba təbabətin hamisi kimi qələmə verilmişdir. O, «qarabaşların böyük şəfavericisi, insanların həyatını qoruyan» kimi təsvir olunmuşdur. Şumerlərin təsəvvürünə görə, allahlar da insan kimi xəstəliyə tutula bilərdilər. Bununla əlaqədar şəfa ilahəsi təsəvvürü meydana gəlmişdi. Eyni zamanda xəstəliyi iblis əməli hesab edirdilər. Ən qəddar iblis Uduq adlanırdı. Onların törətdiyi xəstəlik çətin müalicə olunurdu.

Qədim şumerlərin aqronomik məlumatları bir sıra əsərlərdə öz əksini tapmışdır. Şumerlər «Əkinçi təqvimi» və «Bağçılıq kitabları» əsərləri yaratmışlar. Burada əkin, suvarma və biçinin başlanması, taxılın döyülməsi vaxtı, bağ-bağçanın becərilmə üsulları, suvarma kanallarının təmiz saxlanması və s. haqda məlumat verilirdi. Babil, Assur şəhərlərində məşhur «asılı bağlar», heyvanxanalar yaradılmışdı. Burada qəribə, qeyri-adi (ekzotik) bitkilər və heyvanlar saxlanılırdı. İkiçayarasında heyvan, bitki və mineralların təsnifi siyahısı tərtib olunmuşdu.

İkiçayarası əhalisi müəyyən coğrafi təsəvvürlərə malik idi. Uzaq və yaxın ölkələr barədə az-çox məlumatları vardı. Şumerlər Aratta, Subir, Elam kimi yaxın ölkələrin coğrafi mövqeyini bilir və bu ölkələrlə daimi ünsiyyət saxlayırdılar. Qaynaqlarda Meluhha (Hindistan), Maqan (Misir), Dilmun (Bəhreyn) kimi uzaq ölkələrdən yad edilirdi. İkiçayarasında «dünya xəritəsi» yaratmaq cəhdi edilmişdi. Onların zənnincə, dünyanın mərkəzi İkiçayarası olmuşdu. Xəritədə Yer kürəsi yastı şəkildə göstərilmişdi. Burada şimaldan axan Dəclə və Fərat çayları göstərilmişdi. Yer kürəsinin ətrafında dünya okeanı təsvir olunmuşdu ki, onu «Acı çay» kimi başa düşürdülər. Şəhər və uzaq ölkələr müvafiq surətdə nöqtə və üçbucaqlar vasitəsilə qeyd olunmuşdu.

İkiçayarasında tarix haqqında müəyyən təsəvvürlər meydana gəlmişdi. İlin mühüm hadisələri yazıya alınırdı, imkan daxilində onların tarixindən bəhs edilirdi. Tarixi və təbii hadisələrin səbəbi dini ideologiyaya uyğun olaraq allahların, xeyir və şər qüvvələrin əməlləri kimi dərk edilirdi. Müharibələr sənədlərdə əks olunurdu. Qələbələr bu və ya digər hökmdarların adı ilə bağlanırdı. Onların bəzisi barədə qəhrəmanlıq dastanları yaradılmışdı. İkiçayarasında hökmran olan sülalələrin və hökmdarların siyahısı tərtib olunurdu. Varlı və yoxsul təbəqələri bir-birindən fərqləndirirdilər. Hökmdarların hərbi yürüşü, təsərrüfat və qanunvericilik fəaliyyəti ilə əlaqədar salnamələr, kitabələr və yazılı qanun külliyyatları tərtib olunurdu. İkiçayarası tarixçisi Beros e.ə. IV-III əsrlərdə Babil şəhərində yaşamışdı. Ondan xeyli əvvəl yaşamış «tarixçilərin» adı bu və ya digər salnamənin tərtibçisi sifəti ilə yad edilirdi.

İkiçayarasında hüquq qaydaları yazılı şəkildə mövcud idi. E.ə. III minilliyin sonundan etibarən Şumer (Ur, İsin, Larsa) və Akkad (Eşnunna, Hammurapi qanunları, Assur qanunları, yeni Babil natamam qanunları) dillərində qanunlar külliyyatı yaradılmışdı. Cinayət işləri hərtərəfli yoxlanılırdı. İstintaq zamanı sübut və dəlil toplanılırdı, şahidlər dindirilirdi, cinayət iştirakçılarının təqsir və məsuliyyət dərəcəsi müəyyənləşdirilirdi.

E.ə. III minilliyin əvvəlinə aid bir məhkəmə sənədində ölüm cinayəti əks olunmuşdu. Sənəddən məlum olur ki, üç nəfər məbəd işçisini öldürmüş və bu cinayətdən mərhumun arvadının da guya xəbəri olmuşdur. Sənəd qeyd edir: «Lu-İnanna öldürüldükdən sonra onlar arvadı Nin-dadaya dedilər ki, ərini öldürüblər. Nin-dada ağzını açmadı (yəni dinmədi). Bunu İsin hökmdarına çatdırdılar. Hökmdar göstəriş verdi ki, bu işə Nippur camaatının yığıncağı baxsın. Orada (adlar çəkilir) müraciət etdilər və dedilər: - «Qatillər yaşamağa layiq deyillər. Üç kişi və bu qadın Lu-İnannanın kürsüsü önündə qətl olunmalıdırlar». Belə halda (iki nəfər) müraciət edib dedilər: - «Bəli, Nin-dadanın əri öldürülmüşdür. Bəs bu qadının günahı nədir ki, onu da ölümə məhkum edirik». Belə halda Nippur yığıncaq üzvləri müraciət edib dedilər: - «Qadın ərinin düşmənlərini tanısa belə, ərinin öldürülməsini bilsə belə, niyə bu barədə sussun? Kim həqiqətən onu öldürüb?» Nippur yığıncağının qərarına görə, qatillər (üç kişinin adı çəkilir) edam üçün cəllada təhvil verilirlər.

Məhkəmə ailə və mülki məsələlərə aid işlərə də baxırdı. Lakin bir çox hadisələr məhkəmədən kənarda adətə uyğun öz həllini tapırdı. İkiçayarasında adət hüququ da mövcud idi. Belə hallarda məhkəməsiz cəzalandırma, ellik zəmanət, qarşılıqlı intiqam, allah qarşısında andiçmə, suya atma (ordaliya) və s. yolu ilə mübahisəli məsələlər həll olunurdu.

Qədim İkiçayarasında müxtəlif dillərdə danışan (şumer, Akkad, hurri, turuk, elam, subir) xalqlar yaşayırdı. Burada başqa tayfalar (kassilər, aramilər, xaldlar, kutilər, lullubilər, turukkilər) məskən salırdılar. İkiçayarası Yaxın Şərq dövlətləri ilə geniş əlaqə saxlayırdı. Bunun nəticəsində filoloji biliklərin inkişafına şərait yaranırdı. Söz və anlayışlar siyahısı, şumer və Akkad dillərində qrammatik göstəricilər, tədris vasitələri və arayışlar tərtib olunurdu. Şumer dilini öyrənmək üçün akkad dilində vəsaitlər hazırlayırdılar.

Eyni zamanda müxtəlif dillərin qarşılıqlı lüğətləri şumer-akkad, şumer-hurri, şumer-akkad-hurri, akkad-het, şumer-akkad-het, akkad-elam, akkad-kuti, akkad-lullubi, akkad-kassi və s. lüğətlər yaradılmışdı.

Bunların hamısı tam şəkildə qalmamışdır.

Tədris üçün məktəb lüğətləri də vardı. Belə lüğətlərdə adətən müxtəlif mənşəli sözlər öz əksini tapırdı. Buna misal «Şumer-akkad məktəb lüğətini» göstərmək olar. Çox hallarda yazılar iki dildə tərtib olunurdu. Xarici dil bilən xüsusi mirzələr ədəbiyyat nümunələrini, əcnəbi sözləri tərcümə edirdilər.

Qədim İkiçayarası xalqları memarlıq və incəsənət sahələrini inkişaf etdirmişdilər. İkiçayarasında təbii ehtiyatlar yox dərəcəsində idi. Orada tikinti ağacları və daş kifayət qədər olmadığından xüsusilə gil-kərpic memarlığı təkmilləşirdi. İkiçayarasının tikinti işində çiy kərpicdən istifadə olunurdu. Bəzi hallarda divara bişmiş kərpicdən və daşdan üz çəkirdilər.

E.ə. IV minillikdə hündür yerdə tikilmiş əzəmətli məbədlər böyük yaşayış məntəqələrinin mərkəzinə çevrilmişdi. E.ə. III minillikdə şumer şəhər-dövlətlərinin mərkəzində ibadətə xidmət edən tikintilər (məbəd) dəsti (kompleks) bina edilir, ətrafına da xüsusi divarlar çəkilirdi. Eyni zamanda İkiçayarası memarlığına xas olan zikkuratlar, yəni 3, 5, 7 mərtəbəli pilləli bürclər yaradılırdı. Bunlardan ən məşhuru Urda tikilmiş zikkurat idi. Zikkurat (qülləli məbəd) müxtəlif rənglərə boyanmış üç pillədən ibarət idi. Zikkurat adətən öz möhkəmliyi və əzəmətliliyi ilə fərqlənirdi. Zikkuratın qülləsində kiçik ibadətgah yerləşirdi və oraya bir neçə ön pillərən qalxırdı. Zikkuratdan rəsədxana kimi də istifadə edirdilər.

Əzəmətli məbədlərlə yanaşı saray tikintisi dəsti də yaradılırdı. Sarayın bir çox yaşayış və köməkçi binaları, dəbdəbəli ön salonları olurdu. Qəbir memarlığı hökmdar məqbərələrindən ibarət idi. Bu qəbirlərdə xeyli incəsənət abidəsi aşkar edilmişdir. Müharibə mövzusu Entemenanın və Naram-Suenin daş abidəsində əks olunmuşdur: orada meyitlər və onları dimdikləyən qartal, döyüşçülərin dağ yolları ilə qalxması, hökmdarın əzəmətli əndamı (fiquru) göstərilmişdi. Hökmdar nizə ilə bir düşməni öldürür, o birisini isə ayağı ilə basır. Düşmən döyüşçüləri vahimə içərisində təsvir olunmuşlar.

İkiçayarasının e.ə. III minilliyinə aid heykəltəraşlığı üçün alçaq boylu, ağır çəkili fiqurlar səciyyəvidir. Heykəl donmuş, gözlər böyümüş şəkildə düzəldilirdi. Həmin üslubda hökmdar Qudeanın və Hammurapinin heykəl təsvirləri verilmişdir. Bununla yanaşı qəddi-qamətli insan heykəlləri də yonulurdu. Getdikcə saray divarlarına rəngarəng təsvirlər vurulurdu. II Sarqonun Dur-Şarrukində 14 m yüksəklikdə tikilmiş əzəmətli saray dəstinin divarlarında müxtəlif səhnələr əks olunmuşdu. Aşşurbanipalın saray divarlarında şir ovu səhnəsini əks etdirən təsvirlər vardı. Heyvan təsvirləri, o cümlədən oxlarla yaralanmış qan püskürən şirin təsviri xeyli real şəkildə verilmişdir.

İkiçayarasında müxtəlif tətbiqi incəsənət növləri, o cümlədən zərgərlik, silahqayırma, daşdan güldan (vaza) hazırlama, silindrik möhür kəsmə və s. geniş inkişaf tapmışdı. Zərgərlər müxtəlif rəng ahəngi yaradırdılar. Onlar adətən göy, qırmızı, sarı boyalardan istifadə edirdilər.

Daşdan qayırılmış silindrik şəkilli möhürlər xeyli fərqlənirdi. Bu möhürlərdə insan və heyvan şəkilləri olan əfsanəvi və məişət səhnələri təsvir edilirdi. İkiçayarası xalqlarının ədəbiyyat və elmi nailiyyətləri ilə yanaşı, incəsənəti də dünya mədəniyyətinin inkişafına müəyyən təsir göstərmişdir.

Bəşəriyyətin ümumi mədəni inkişafında qədim şumer xalqı özünəməxsus yer tutur. Onların yaratdığı ilkin mədəniyyət dünyanın sonrakı inkişafına, o cümlədən onun tarixinin, mədəniyyətinin, fəlsəfəsinin, ədəbiyyatının və s. inkişafına əvəzedilməz təsir göstərmişdir. İlkin Şumer miflərinin Azərbaycan xalqının mifologiyası, mədəniyyəti, dini və fəlsəfəsində özünü göstərməsi dünyanın bu qədim xalqını bizə doğmalaşdırır və onu «özümüzünkü» hesab etməyə imkan verir.



**MARİ SARAYINDA HAMAM ÇƏNLƏRİ.**

**SUZADAN ELAM QABLARI. E.Ə. IV MİNİLLİYİ SONU.**





**SUZADAN ELAM QABLARI. E.Ə. IV MİNİLLİYİ SONU, III MİNİLLİYİN ƏVVƏLİ.**



**AKKAD.**



**ÇAR HAMMURAPİ GÜNƏŞ ALLAHI ŞAMAŞIN HÜZURUNDA.**



**ŞUMER.**



**BƏRƏKƏT İLAHƏSİ İŞTAR.**



ALEBASTRDAN BÜST. MARİ.
E.Ə. XXVIII ƏSR.



ÇOQA-ZAMBİLDƏ ZİKKURAT. E.Ə. XIII ƏSR.



SUZA. ORTA ELAM DÖVRÜNƏ AİD QIZIL HEYKƏLCİK.
E.Ə. XIII-XII ƏSRLƏR.



URDA ZİKKURAT. E.Ə. III MİNİLLİYİN SONU.



UR. ÇAR MƏQBƏRƏSİNDƏN
ÖKÜZ BAŞI FORMASINDA ARFA
ZİRVƏSİ. E.Ə. III MİNİLLİK.



UR. ÜZƏRİNDƏ DÖYÜŞ SƏHNƏLƏRİ ÇƏKİLMİŞ
BAYRAQ. III MİNİLLİYİN ORTALARI.



UR. ÜZƏRİNDƏ DÖYÜŞ SƏHNƏLƏRİ ÇƏKİLMİŞ
BAYRAQ. FRAQMENT. III MİNİLLİYİN ORTALARI.



UR. ÇAR MESKALAMDUQUN
MƏQBƏRƏSİNDƏN QIZIL DƏBİLQƏ.
E.Ə. III MİNİLLİYİN ORTALARI.



"UBAYD CAMI". E.Ə. IV ƏSR.



ŞUMER. AB-U TANRININ HEYKƏLİ.
E.Ə. III MİNİLLİYİN ORTASI.



ŞUMER. SARAY ƏYANI EBİX-İLİN HEYKƏLİ.
E.Ə. III MİNİLLİYİN ORTASI.



URUK. İLAHƏ HEYKƏLİNİN BAŞI.
E.Ə. III MİNİLLİYİN ƏVVƏLİ.



URUK. ANBAR RƏİSİ KURLİLİN HEYKƏLİ.
E.Ə. III MİNİLLİYİN II RÜBÜ.



BABİLDƏ İŞTAR DARVAZASI. E.Ə. VI ƏSR.



BABİLDƏ II NAVUXODONOSSORUN CƏNUB SARAYININ KAŞI DİVARLARI. E.Ə. VI ƏSR.



QRİFON. (MUŞRUŞ). BABİLDƏ İŞTAR DARVAZASININ KAŞI DİVARLARINDA TƏSVİR. E.Ə. VI ƏSR.



ŞİR TƏSVİRİ. FRAQMENT. BABİLDƏ II NAVUXODONOSSORUN CƏNUB SARAYININ KAŞI DİVARLARI. E.Ə. VI ƏSR.





TEL-AS-SAVVANDAN İBADƏT HEYKƏLCİKLƏRİ. E.Ə. V MİNİLLİK.



MESAPOTAMİYA MÖHÜRÜ ÜZƏRİNDƏ GÜNƏŞ ALLAHI UTUNUN (ŞAMAŞ) ƏDALƏT MƏHKƏMƏSİ SƏHNƏSİ. E.Ə. III MİNİLLİK.



İLAHƏ İNANNA MƏBƏDİNDƏN ALEBASTR KUZƏ. E.Ə. III MİNİLLİK.

LAQAŞ. SAXSI QIRIĞI ÜZƏRİNDƏ QEYDİYYAT SƏNƏDİ. E.Ə. XXV-XXIV ƏSRLƏR.



QOCA SARQONUN MİS BÜSTÜ.
E.Ə. XXIII ƏSR.



LAQAŞ HÖKMDARI QUDEANIN HEYKƏLİ.
E.Ə. XXII ƏSR.



NARAM-SUEN ŞAHIN STELASI.
E.Ə. III MİNİLİK.



LAQAŞ HÖKMDARI QUDEANIN HEYKƏLİ.
E.Ə. XXII ƏSR.

## QƏDİM FİNİKİYA

Aralıq dənizinin şərq sahilində Livan və Suriyanın sahil ərazisində qədim finikiyalılar yaşayırdılar. Mesopotamiya və Misirdən gələn quru və dəniz yolları Finikiyadan keçirdi. Finikiyalıların ərazisi əkinçilik və maldarlıq üçün əlverişli olmadığı üçün onların əsas məşğuliyyəti dənizçilik və dəniz ticarəti idi. E.ə. II minilliyin sonu - I minilliyin əvvəlində finikiyalılar Aralıq dənizində ağalıq edirdilər. Finikiyalılar ən yaxşı gəmiqayıranlar və dənizçilər idi. Onlar burada bitən sidr və palıd ağaclarından gəmi düzəldirdilər. Onlar Aralıq dənizi vasitəsilə üzüb ilk dəfə Atlantik okeanına çıxmışdılar. Sonra Avropa sahilləri ilə üzərək İngiltərənin cənub-qərbinə kimi gedib burada qalay mədəni tapmışlar. O vaxtı beynəlxalq ticarət finikiyalıların əlində idi. Onlar Yunanıstan, Misir, Babilistan və s. ölkələrlə ticarət edirdilər. Finikiyalılar əsasən zeytun yağı, ağac, mis, tunc, mal-qara, taxıl və s. satırdılar.

Finikiyalılar Aralıq dənizinin şərq sahillərində bir çox şəhərlər saldılar. Sonralar bu şəhərlərin hər biri ayrıca dövlətə çevrildi. Sidon, Tir, Kabil belə şəhərlərdən idi. Geniş ticarət Tir şəhər-dövlətinin yüksəlməsinə şərait yalatdı. Tir qaya ada üzərində tikilmişdi. Adaya torpaq və daş tökülmüş və genişləndirilmişdi. Dəniz ticarəti nəticəsində finikiyalılar Aralıq dənizi sahillərində, Kipr, Siciliya, Sardiniya adalarında məskunlaşmışdılar. Tir şəhəri tərəfindən e.ə. 825-ci ildə Karfagen şəhərinin əsası qoyuldu Mənası "yeni şəhər" deməkdir. E.ə. VII-VI əsrlərdə Şimali Afrikada ən böyük dövlətlərdən biri olmuşdur. Uzun müddət Romaya qarşı müharibələr aparmış, e.ə. 146-cı ildə romalılar tərəfindən məğlub edilmiş və onun yaratdığı sivilizasiya məhv olmuşdu. Finikiyalılar 22 samitdən ibarət ən qədim əlifba (e.ə. X-IX əsrlər) tərtib etmişdilər. Finikiya əlifbasını yəhudilər və aramilər qəbul etdilər, sonra isə yunanlar da bu əlifbanın əsasında öz əlifbalarını yaratdılar. Beləliklə, finikiyalılar əlifba sisteminin ilk nümunəsini yaratdılar.



FİNİKİYA. BOĞAZKÖY. İLAHƏ VƏ MUSIQIÇİLƏR. E.Ə. VI ƏSR.



PAZARLI. YÜRÜŞƏ GEDƏN DÖYÜŞÇÜLƏR. E.Ə. VI ƏSR.



UQARİT. FİL SÜMÜYÜNDƏN KEÇİLƏRİ YEMLƏYƏN MƏHSULDARLIQ İLAHƏSİ. E.Ə. XIV ƏSR.



UQARİT. QIZIL QAB. E.Ə. XIV ƏSR.



QƏDİM FİNİKİYA ƏLİFBASI.

## QƏDİM ASSURİYA MƏDƏNİYYƏTİ

Assuriya dövləti İkiçayarasının şimal hissəsində, İraqın ərazisində mövcud olmuşdur. Assuriyanın ərazisi əsasən dağlıq olduğu üçün burada əkinçilik bir o qədər inkişaf etməmişdir. Lakin burada çoxlu faydalı qazıntılar və meşə materialları vardır. Assuriya əhalisi tunc əldə etməyi çox erkən öyrənmişdir. Assuriyalılar mis, tunc, qalay və sonra dəmirdən istifadə etmişlər.

Dəclə çayı sahilində Aşşur (indiki Kilat-Şerkət) şəhəri salınmışdır. Bu şəhər dini mərkəz və paytaxt hesab olunurdu. Aşşur allah adı və Assuriya ölkə adı bu şəhərin adından əmələ gəlmişdir. Assuriya əvvəlcə Cənubi Mesopotamiyadan asılı idi, e.ə. XX əsrdə müstəqil Assuriya dövləti yarandı. I minilliyin başlanğıcında Ön Asiyada dəmirdən istifadə təsərrüfatla yanaşı, hərbi sənətin inkişafında mühüm rol oynamışdır. Assuriyalılar bundan daha yaxşı istifadə edərək hərbi sənətdə böyük nailiyyətlər qazanmışlar. E.ə. VIII-VI əsrlərdə Assuriya Ön Asiyada ən qüdrətli hərbi dövlətə çevrildi. Assuriya qoşunlarının sayı 120 min nəfərə çatırdı. Qoşun piyada, atlı və döyüş arabalarından ibarət idi. Assur çarlarını mühafizə edən daimi "çar cangüdənlər dəstəsi" var idi. Piyadalar uzun nizə, ox və kaman, qalxanlarla silahlanırdılar. Dağları aşmaq üçün kəndir, çaylardan keçmək üçün heyvan dərisindən hazırlanmış və içərisinə hava doldurulmuş tuluqlardan istifadə olunurdu. Assur çarları ordunun təliminə xüsusi diqqət yetirirdilər. Hərbi parad üçün xüsusi meydançalar var idi. Onların ordusunda xüsusi "mühəndislər" dəstəsi fəaliyyət göstərirdi. Onlar hərbi istehkamlar qurur, hərbi yollar çəkir, çaylar üzərindən körpülər salırdılar. Assur ordusu xüsusi daşatan (mancanaq), qala uçuran qurğulardan istifadə edirdi.

Assuriyanın Paytaxtı Nineviya idi. Bu şəhər "Aslanlar yuvası" adlanırdı. Assuriya Mesopotamiyanı, Suriyanı, Fələstin və Misiri işğal etdi, bütün Ön Asiyanı hakimiyyəti altında birləşdirdi.

E.ə. VII əsrdə Assuriyanın düşmənləri olan Babil və Midiya ona qarşı birləşdilər. Onlar e.ə. 612-ci ildə Ninveiya şəhərini tutub dağıtdılar, e.ə. 605-ci ildə Karxemiş qalasını ələ keçirdilər. Assuriyanın varlığına son qoyuldu. Onun ərazisi Midiya və Babil padşahlıqları arasında bölüşdürüldü.

Qədim Assuriyanın ərazisində icmalar mövcud olmuşdur. Bunlardan ən irisi Aşşur şəhər icması idi. Aşşur icmasının əhalisi əkinçilik və maldarlıqla məşğul olurdu. Aşşur eyni zamanda geniş ticarət aparırdı, Anadoludakı Kaniş beynəlxalq ticarət mərkəzi ilə əlaqə saxlayırdı. Aşşur icmasında ticarətin inkişafı ilə bağlı olaraq sənətkarlığın müxtəlif sahələri ilə məşğul olurdular. Aşşur icması sənətkarlıq əşyaları və müxtəlif metallardan ibarət xammal ilə alış-veriş edirdi. Aşşurdan qərbə ticarət yolu keçirdi və yolun son məntəqəsi Kaniş ticarət məntəqəsi idi. Burada Aşşura tabe olan ticarət məhəllələri vardı. Aşşur icması şərqə gedən ticarət yolunun əsas məntəqəsi idi. Bu şəhərdə müxtəlif mənşəli əhali mal mübadiləsi və alış-veriş edirdi. Aşşur şimala və şərqə gedən ticarət yollarını da nəzarətdə saxlayırdı.

Assuriyanın ərazisində ixtisaslaşmış ticarət icmaları mövcud idi. Aşşurdan başqa, Arrapha şəhər icmasında da ticarət icması mövqe qazanmışdı. İcmalar arasında əmək bölgüsü vardı. Dəmirçi, dülgər, toxucu, dulusçu və s. peşələr üzrə ixtisaslaşmış ticarət icmaları fəaliyyət göstərirdi. İxtisaslaşmış ticarət icmaları bilavasitə bazarla bağlı idi. Lakin mövcud olan ev icmaları bazar ticarət münasibətlərinin inkişafını ləngidirdi.

Ev icmalarının varlığı torpaqla bağlı idi. Arrapha icmasında torpaq alınıb-satılırdı. Bunun nəticəsində varlı və yoxsul ailələr meydana gəlmişdi. Arrapha icmasındakı ailə kollektivi qullara malik idi. Əsas qul mənbəyi uğurlu müharibələr idi. Lakin qədim və orta Assur dövründə borc köləliyi də geniş yayılmışdı, çünki bu zaman müharibələr Assuriyanın dövlət, məbəd və fərdi təsərrüfatlarını qul əməyi ilə təmin edə bilmirdi. Məhz yeni Assur dövründə uzun müddətli qələbələr ölkəni hərbi əsirlərlə doldurdu. Bununla yanaşı işğal olunmuş ərazinin əhalisinin Assuriyaya köçürülməsi ölkənin işçi qüvvəsini artırırdı. Nəticədə qul əməyinə tələbat azalırdı. Yeni Assur dövründə qul ucuz qiymətə satılırdı. Fərdi təsərrüfata, yəni ev icmasına məxsus olan qul müəyyən müstəqilliyə malik olmuşdu. Qula ailə saxlamaq ixtiyarı verilmişdi. Müstəqil becərmək üçün ona torpaq sahəsi ayrılırdı. Məhsulun çox hissəsi quldara təhvil verilirdi. Qul, onun ailəsi və əmlakı ağanın mülkiyyəti hesab olunurdu. Ağa qulu ailəsi ilə birlikdə sata bilərdi. Lakin assur qanunları borc əsarətinə düşmüş adamla qul arasında müəyyən fərq qoyurdular. Borc əsarəti assuriyada geniş tətbiq olunurdu. Borclu borcunu vaxtında qaytarmazdısa, onda o, borc əvəzi sələmçinin təsərrüfatında işləməli və borcun məbləğini öz əməyi ilə ödəməli idi. Sələmçi onu qul kimi sata bilməzdi. Sənədlərdə 10-20 quldan ibarət ailələrin satılması qeyd olunmuşdur. Qullar becərdikləri torpaq sahəsi ilə birlikdə də satılırdılar. Orta dövr assur qanunları ev köləliyi və qadının mövqeyi haqda xüsusi maddələr nəzərdə tutmuşdular. Ev sahibəsinin qul və kəniz ilə münasibəti maddələrin birində belə əks olunmuşdur: "Əgər qul, yaxud kəniz azad adamın əlindən bir şey qəbul edərsə, onda həmin qul və kənizin burnu və qulağı kəsilməli, oğurlanmış şey isə qaytarılmalıdır; adam öz arvadının da qulağını kəsə bilər. Əgər o, arvadına cəza verməzsə və onun qulağını kəsməzsə, onda qul və kənizin qulağı həmçinin kəsilməməli və onlar oğurlanmış şeyi qaytarmamalıdırlar».

Assur qanunlarından belə nəticə əldə etmək olur ki, ailədə qadına müstəqillik verilmirdi. Onun bütün

hərəkətləri kişinin nəzarəti altında idi. Qadın icazəsiz heç kəsə evdən ərzaq, yaxud ev əşyası verə bilməzdi, yəni heç kəsə əl tutmamalı idi. Ailə əmlakına onun hüququ yox idi, ancaq ev əmlakı üzərində tam hüquqa malik olmuşdu. Qadın tərəfindən kənara verilmiş əşya oğurluq malı hesab edilirdi. Müvafiq maddədə bu haqda belə deyilir: "Əgər azad adam xəstədirsə, yaxud vəfat edibsə, onun arvadı isə evdən bir şey oğurlayıb qadınamı, kişiyəmi, yaxud hər hansı bir kəsəmi veribsə, (onda) həmin adamın arvadı və ev şeyini qəbul edənlər öldürülməlidirlər.

Əgər azad adamın arvadı əri sağ olarkən ər evindən nə isə oğurlanmışsa, kişiyəmi, qadınamı, hər hansı bir kəsəmi vermişsə, onda həmin adam and vasitəsilə öz arvadını təqsirləndirə bilər və ona cəza verə bilər, (oğurluq malını) adamın arvadından qəbul etmiş şəxs isə malı qaytarmalıdır. Ər arvadına verdiyi cəzanı (oğurluq malını qəbul etmiş) şəxsə də tətbiq etməlidir".

Assuriyada qadın ləyaqətinə yüksək qiymət verilirdi. Qadının şəxsiyyətini və namusunu qoruyan maddələr orta Assur qanunvericiliyinə salınmışdı. Məsələn, qanunların birində qeyd olunur: "Əgər azad adam ərli qadına barmağını silkələsə və onunla uşaq kimi rəftar etsə və bu iş üzrə onu təqsirləndirib ifşa etsələr, onda onun barmağı kəsilməlidir. Əgər o, qadını öpübsə, onda onun aşağı dodağını baltanın tiyəsinə çəkib kəsmək lazımdır". Assuriyada levirat, yəni dul qadının vəfat etmiş ərinin qardaşı ilə nikahı mövcud idi. Belə hallarda ailə icmasının bütövlüyünü saxlamaq məqsədi güdülürdü. Bəzi hallarda, əgər təqsir ərdə olardısa, qadın ər evini tərk edib ata evinə qayıtmaq hüququna da malik idi. Adətən ər vəfat etdikdən sonra qadın onun borcunu ödəmək üçün sələmçinin təsərrüfatında işləməli idi. Bəzən müəyyən şərait nəzərə alınırdı və qadın borcu ödəməkdən azad olunurdu. Ailədə atanın hakimiyyəti qeyri-məhdud idi, buna görə də qadın ləyaqəti və hüququ əksər hallarda tapdanırdı. Kişi qadını çox asanlıqla boşaya bilərdi. Lakin ərinə xəyanət etmiş, yaxud ərindən ayrılmaq istəyən qadını suya atırdılar. Assuriyada kəskin mülki bərabərsizlik mövcud olmuşdu. Bunun nəticəsində quldarlar cəmiyyətin hakim sinfi kimi formalaşırdılar. Mülki bərabərsizlik icma təşkilatlarına da toxunmuşdu. İcmanın birliyi dağılırdı, icma üzvləri müflisləşir, sələmçilərdən asılı vəziyyətə düşürdülər. Torpaqdan məhrum olmuş icmaçılar öz övladlarını kənara satmağa məcbur olurdular. Onlar məcburi əməklə məşğul olanlar dəstəsinə mənsub idilər. Qullar və məcburi əmək adamları istismar olunan sinfi təşkil edirdilər.

Dövlət, məbəd və böyük fərdi təsərrüfatlarda qul əməyi geniş tətbiq olunurdu. Dövlət təsərrüfatı işğallar nəticəsində genişlənirdi. Hökmdar dövlətə yaxın olan adamları torpaq sahələri ilə təmin edirdi. Belə adamlar yeni qulluq əyanları təbəqəsini təşkil edir, hökmdarın dayağına və böyük torpaq sahibkarlarına çevrilirdilər. Onların mülkündə işləyən qulların sayı 30-50 nəfərə çatırdı. Xırda torpaq sahibkarlığı da mövcud idi. Burada işləyən qulların sayı nisbətən az idi. Assuriyada məbədlər də böyük torpaq sahələrinə malik idilər. Məbəd təsərrüfatında qullarla yanaşı məcburi əmək adamları da işləyirdilər.



AŞŞURNASİRPALIN HEYKƏLİ.



ASSURİYA DÖYÜŞÇÜLƏRİ.



NİMRUDDA TAPILMIŞ
QADIN BÜSTÜ. E.Ə. VIII ƏSR.



ŞİR OVU. TEL-BORSİPDƏ ŞAMŞİLU VALİSİNİN
SARAYINDA TƏSVİRDƏN FRAQMENT. E.Ə. VIII ƏSR.



**II SARQONUN DUR-ŞARRUKİN SARAYINDA QANADLI ÖKÜZ HEYKƏLİ. E.Ə. VIII ƏSR.**



**QANALI ŞİR FORMASINDA QIZIL RİTON. E.Ə. VI ƏSR.**



**QANADLI TANRI HEYKƏLİ. RELYEF. E.Ə. VIII ƏSR.**



**İKİ ASSUR ƏYANI. TEL-BORSİPDƏ ŞAMŞİLU VALİSİNİN SARAYINDA TƏSVİRDƏN FRAQMENT. E.Ə. VIII ƏSR.**

## QƏDİM URARTU MƏDƏNİYYƏTİ

Urartu Mesopotamiyadan şimalda, Şərqi Anadoluda (Türkiyə) Van gölü ətrafında meydana gəlmişdi. Urartu dağlıq ölkə idi. Dəclə, Fərat və Araz çayları öz mənbələrini bu ərazidən götürür.

Urartu əhalisinin tərkibi müxtəlif olmuşdur. Assurlar bu ölkəni Urartu, urartulular isə öz ölkələrini Biaynili adlandırırdılar. Assur hökmdarı I Salmanasar "Uruatri ölkələri" ifadəsini işlətmişdi. Uruatri adı tədricən Urartu adı ilə əvəz olunmuşdu. Bu zaman xırda ölkələrin hakimləri vahid bir mərkəzdə birləşdirilmişdi. E.ə. IX əsrdə Assur hökmdarı II Assurnasirpal Urartu ölkəsinə yürüş təşkil etmişdi. Urartulular ona güclü müqavimət göstərmişdilər. Urartunun dağlıq ərazisində, məhsuldar vadilərində, düzən torpaqlarında əhali müxtəlif təsərrüfat işləri ilə məşğul olurdu. Onların təsərrüfat həyatı haqqında mixi yazılar və arxeoloji materiallar məlumat verir.

Urartulular əkinçilik, maldarlıq, atçılıq, üzümçülük, bağçılıq və sənətkarlıqla məşğul olmuşlar.

Menuanın hakimiyyəti dövründə ölkədə suvarma işlərinə xüsusi diqqət yetirilirdi. Van gölünün şimal hissəsində bir neçə qollara ayrılan suvarma kanalı çəkilmişdi. Bunlardan biri Menua kanalı adlanırdı. Bu kanal vasitəsi ilə Van şəhəri içməli bulaq suyu ilə təmin olunurdu. Kanalın aşağı axar hissələri yonulmuş daşlardan hörülmüşdü. Bu daşların bir çoxunun üzərində mixi yazılarda "Menua kanalı" sözləri aşkar edilmişdir.

Menua işğal olunmuş ərazilərdə yaşayış məntəqələri saldırır və qalalar tikdirirdi. O, Urartunun baş allahı Haldinin şərəfinə qala tikdirmiş və onu "Haldi allahının şəhəri" adlandırmışdı. Burada üzüm tənəkləri saldırmış və həmin bağı "Menuanın üzümlüyü" adlandırmışdı. Bir çox tikililər Menuanın adını daşıyırdı. Onun adı əşyalar üzərində "Menuanın malı" ifadəsi ilə həkk olunmuşdu.

Menua atçılığı da inkişaf etdirirdi. Atdan minik vasitəsi kimi və təsərrüfat işlərində, habelə hərbi yürüşlərdə istifadə edilirdi. At çapmaq, at oynatmaq yarışları bir adətə çevrilmişdi.

Urartuda dulusçuluq, metalişləmə, zərgərlik və s. sənət sahələri inkişaf etmişdi. Urartu sənətkarları müxtəlif tunc məmulatları-məişət qabları, silahlar (qalxan, dəbilqə, xəncər, ox və s. istehsal edirdilər.

Urartunun özünəməxsus yüksək mədəniyyəti olmuşdur. Onlarda memarlıq, yazı mədəniyyəti, incəsənət yüksək inkişaf etmişdi. Urartulular Mesopotamiyadan mixi yazını mənimsəyərək Urartu dilinə uyğunlaşdırmışdılar. Urartu qalalarında daşüstü mətnlər-kitabələr həkk olunmuşdu.

Arxeoloji qazıntılar zamanı Urartuya aid yazılı sənədlər aşkar edilmişdir. Urartulular istehkam və qala inşası sahəsində böyük təcrübə qazanmış və şəhərlər salmışlar.

Urartuda dini görüşlər yaranmış, çoxallahlılıq mövcud olmuşdur. Hər tayfa öz allahına sitayiş edirdi. Haldi (səma allahı) Urartunun baş allahı sayılırdı. Onun şərəfinə qala salınmış, heykəl qoyulmuşdu. Tufan, ildırım və yağış allahı Teyşeba, günəş allahı Şivini adlanırdı.

Urartu bədii sənətkarlığına məxsus bir çox saxsı, metal, zərgərlik məmulatlarının, möhürlərin üzərində müxtəlif rəsmlər təsvir edilmişdir. Qızıl medalyon üzərində metal-plastika üsulu ilə işlənmiş "taxtda əyləşmiş İlahəyə səcdə edən qadın" təsviri Urartu zərgərlik sənətinin gözəl nümunəsidir. Urartu ərazisinin coğrafi şəraiti müxtəlif olmuşdur. Burada ucqar və yüksək dağlarla yanaşı, məhsuldar vadilər, aran torpaqları mövcud idi. Xüsusilə Haldi allahına ithaf edilmiş məbədlərin nüfuzu saxlanılırdı və təbliğ olunurdu. Urartu hökmdarları öz qələbələrini və abadlıq işlərini Haldi allahını adı ilə bağlayırdılar. Məbədlərə nəzir verilir və qurban kəsilirdi. İşğal olunmuş ölkələrdən gətirilmiş qənimətin, mal-qaranın və əsirlərin bir qismi məbəd təsərrüfatına bəxş edilirdi. Burada məbədlər hələ böyük torpaq sahələrinə malik deyildilər. Urartu hökmdarları məbəd tikintisinə diqqət verirdilər, lakin məbədlərdə dövlət təsərrüfat formasına oxşar təsərrüfatlar hələ yaranmamışdı.

Ölkənin iqtisadi həyatında dövlət, yaxud hökmdar təsərrüfatı mühüm mövqeyə malik olmuşdu. Dövlət təsərrüfatının geniş torpaq sahələri, sənətkarlıq emalatxanaları, işçi qüvvəsi var idi. Urartu hökmdarları işğal olunmuş ərazilərdə, eləcə də Urartunun özündə müxtəlif abadlıq işləri aparır, yeni qala və şəhərlər salırdılar. Cənubi Qafqazda inşa edilmiş Teyşebaini, Argiştihinili və Erebuni kimi qala-şəhərləri yüksək inkişaf səviyyəsinə çatmışdı. Urartu hökmdarları süni suvarma işini zəruri hesab edir, kanallar çəkdirilirdilər. Bu kanallara bəzən müvafiq hökmdarın adı verilirdi. Bağ-bağça və üzümlüklərin salınması hökmdarın göstərişi ilə həyata keçirilirdi.

Yeni şəhərlərə işğal olunmuş ölkələrin əhalisi köçürülürdü. Belə əsirlər Cənubi Qafqazdan, Şimali Suriyadan və Mannadan gətirilirdi. Köçürülmüş əhali əsasən qul halına düşürdü. Qul əməyi dövlət təsərrüfatında tətbiq olunurdu.

Urartunun apardığı geniş miqyaslı müharibələr ordunun təkmilləşdirilməsini tələb edirdi. Əsirlər Urartu ordusunda xidmətə qəbul olunurdular. Ordunu Assur tipli silahlarla təchiz edirdilər. İşğal olunmuş ölkələrdə hərbi və inzibati mərkəzlər yaradılır, orada hərbi dəstələr yerləşdirilirdi. Bu minvalla əhalinin Urartuya itaətini təmin edirdilər. Ordunun hərəkətini sürətləndirmək məqsədilə süvari dəstələri yaradılmışdı. Ölkədə atçılığın inkişafına lazımi fikir verilirdi, hətta xəracın bir qismini atlar təşkil edirdi. At ölkəyə

qənimət kimi də gətirilirdi. Urartuda at çapma və oxatma yarışları keçirilirdi.

Dövlətin ərazisi canişinliklərə bölünmüşdü. İşğal olunmuş torpaqlarda, xüsusilə Cənubi Qafqazda canişinliklər yaradılmışdı. Vilayətin idarə olunması canişinə tapşırılırdı. Hər bir vilayətin hərbi qüvvələri və inzibati idarəsi vardı. Urartunun Cənubi Qafqazda işğalları yerli idarə formalarının dəyişilməsinə şərait yaratdı. Burada xırda hökmdarlar bu və ya digər ərazini idarə edirdilər. Urartunun Cənubi Qafqaza qəsbkarlığı buranın daxili inkişaf prosesini pozur və onların dövlət şəklində birləşməsini ləngidirdi.

Urartu mədəniyyətinə Assur, Hurri və Het mədəniyyəti təsir göstərmişdi. İkiçayarasından mixi yazı mənimsənilmiş və Urartu dilinə uyğunlaşdırılmışdı. Urartu sənətkarları istehkam və qala inşası sahəsində püxtələşmiş və şəhərsalma inşaat qaydalarını mənimsəmişdilər.



TUFAN ALLAHI TEYŞEBA.
URARTU HEYKƏLCİYİ.



İNSAN BAŞLI QANADLI ŞİR.
URARTU HEYKƏLCİYİ.



KUZƏ ÜZƏRİNDƏ TƏSVİR.
E.Ə. VIII-VII ƏSRLƏR.



TANRI HEYKƏLCİYİ.
E.Ə. VII ƏSR.



TAXT SÖYKƏNƏCƏYİNİN
BƏZƏYİ. E.Ə. VIII-VII ƏSRLƏR.

## QƏDİM MİDİYA MƏDƏNİYYƏTİ VƏ İNCƏSƏNƏTİ

Midiya Mannadan cənub-şərqdə yerləşirdi. Bir dövlət kimi müasir İranın mərkəzi hissəsində yaranmışdı.

Midiya haqqında ilk məlumat e.ə. IX əsrin ortalarına aid mixi yazılı qaynaqlarda verilir. Bu adı ilk dəfə Midiya ərazisinə hücum edən və oranı talayan Assur hökmdarı III Salmanasar işlətmişdir. Midiya tayfaları haqqında ilk geniş məlumatı yunan tarixçisi Herodot "Tarix" əsərində vermişdir. O, Midiya ərazisində altı qəbilənin yaşadığını göstərmişdir.

Mixi yazılarda Midiya sözü Maday, Matay, Amaday şəklində işlənmişdir. Yunan mənbələri onu "Midiya" kimi qələmə almışdır.

Midiya xırda vilayətlərdən (45-ə qədər) ibarət olmuşdur. Vilayətləri canişinlər idarə edirdi. Midiyalılar əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olurdular. Əhalinin əsas məşğuliyyəti əkinçilik, maldarlıq və sənətkarlıq idi. Metalişləmə işi sənətlər içərisində daha çox seçilirdi. Midiya ərazisində dəmir, qurğuşun, qızıl, neft və s. çıxarılırdı. "Midiya yağı" adlanan neftdən hərbi işdə də istifadə edilirdi. Neftli parçanı oxlara bağlayıb od vuraraq, düşmənin üzərinə, habelə yanğın törətmək üçün evlərin damına atırdılar.

Midiya sənətkarları - dulusçular, toxucular, dəmirçilər əmək alətləri, parça, xalça, silah, bəzək əşyaları, məişət əşyaları və s. hazırlayırdılar. Onların hazırladıqları gözəl sənət nümunələri qonşu ərazilərə yayılırdı. Bu, həmin ölkələrdə yerli mədəniyyətin inkişafına böyük təsir göstərmişdir.

Midiya-Azərbaycan əlaqələri Azərbaycanda (Urmiyada, Naxçıvanda, Qarabağda) tunc dövrünün boyalı qablar mədəniyyəti nümunələrində daha yaxşı izlənir.

Əhali əyanlar, kahinlər, azad adamlar, sıravi icma üzvləri-kəndlilər və qullar kimi müxtəlif təbəqələrə ayrılırdı. Astiaq nəsli zadəganların hüquqlarmı məhdudlaşdırmağa çalışırdı. Bu əyanların narazılığına səbəb oldu. Tarixi rəvayətlər Astiaqı qəddar hökmdar kimi tanıtmışdır. Astiaq hakimiyyətini itirməkdən həmişə ehtiyat edirmiş. O, hətta yeganə qızının övladının hakimiyyətə gəlməsini istəməmişdir. Bu məqsədlə qızını fars vilayətinin hökmdarı I Kambizə (Əhəməni nəslindən) ərə verir. Onun fikrincə, fars mənşəli nəvə Midiya taxt-tacına sahib ola bilməzdi. Astiaq yeni dünyaya gəlmiş nəvəsi Kirin öldürülməsi haqqında gizli göstəriş verir. Lakin uşaq təsadüfən sağ qalır.

Astiaqın sarayında fars meylli qüvvələr artır. Onlar Kirin hakimiyyətə gəlməsinə çalışırlar.

E.ə. 553-cü ildə fars vilayətində II Kir hakimiyyətə gəldi. O, Astiaqa qarşı üç il mübarizə apardı. E.ə. 550-ci ildə qələbə çaldı və Ekbatana şəhərini tutdu. Midiya dövləti süqut etdi və İran Əhəməni (fars) dövlətinin tərkibinə qatıldı.

Qədim yunan tarixçisi Herodotun "Tarix" əsərindən, Assur-Babil qayaüstü mixi yazılarından məlum olur ki, Midiyada mədəniyyət yüksək inkişaf etmişdi. Midiya əfsanələri ("Astiaq və Tomiris") Midiya tarixinin öyrənilməsi üçün çox mühüm əhəmiyyətə malikdir.

Midiyada memarlıq inkişaf etmişdi. Suz sarayları, Ekbatananı əhatə edən yeddi cərgə divarları, qırmızı kərpicdən tikilmiş şah sarayı gözəl memarlıq nümunələridir.

Astiaqın dövründə zərdüştlük Midiyada rəsmi dövlət dini olmuşdur.

Zərdüştlük e.ə. VII əsrdə meydana gəlmişdir. Müqəddəs kitabı "Avesta" sayılır. Zərdüşt təliminə görə şər ilə xeyir, yalan ilə həqiqət arasında ölüm-dirim mübarizəsi gedir. Zərdüştlüyün təlimində təkallahlılıq təzahür edir. O, Ahrumazdanı vahid allah kimi təbliğ edir. Dünya yaranandan xeyir və şər arasında mübarizə gedir. İnsanlar xeyir və şəri seçməkdə sərbəstdirlər, lakin son anda xeyir şərə, həqiqət yalana qalib gəlməlidir.

## QƏDİM MANNA DÖVLƏTİ

E.ə. I minilliyin əvvəllərində Urmiya gölü hövzəsində mərkəzləşmiş Manna dövləti yerləşirdi.

Manna dağlıq ölkə idi. Ərazisindən müxtəlif çaylar axırdı. Urmiya gölünün suyu duzlu olduğundan suvarma üçün yararsız idi. Məhsuldar çay vadiləri sıx məskunlaşmışdı. Manna ərazisində çoxlu faydalı qazıntı yataqları (dəmir, mis, gümüş, qızıl, qurğuşun v. s.) vardı. Mannanın düzən və dağətəyi yerlərinin əhalisi əkinçiliklə məşğul olurdu. Arxeoloji qazıntılar zamanı bu ərazilərdə arpa, buğda və darı qalıqları tapılmışdır. Əkinçilər torpağı dəmir toxa və xış ilə şumlayırdılar. Taxılı dəmir oraqla biçirdilər. Assuriya mixi yazılarında göstərilir ki, Mannada taxıl anbarları olmuşdur. Böyük anbarlar dövlətə, yaxud hökmdara məxsus idi. Quraqlıq, yaxud aclıq vaxtı dövlət anbarlarından əhaliyə taxıl paylanırdı. Bağçılıq və üzümçülük də inkişaf etmişdi. Üzümdən şərab hazırlayırdılar.

Mannalıların həyalında maldarlıq mühüm yer tuturdu. Atçılıq geniş yayılmışdı. Mannanın Subi vilayəti öz atları ilə xüsusilə fərqlənirdi. Manna əhalisi oturaq həyat sürürdü. Yaz və yay aylarında mal-qaranı, qoyun-quzunu dağlara aparırdılar. Bara (Sanqibuti) vilayətində hökmdar sürüləri saxlanılırdı. Təsərrüfatda dəvədən də istifadə edirdilər.

E.ə. I minilliyin başlanğıcında Azərbaycanın cənubunda, Urmiya gölü ətrafında mərkəzləşmiş dövlətin meydana gəlməsi üçün şərait əmələ gəlmişdi. E.ə. IX əsrdə burada Manna dövləti yarandı. Lakin həmin dövrdə Manna hələ bütün cənubi Azərbaycan torpağını əhatə edə bilməmişdi. Manna adına ilk dəfə e.ə. 843-cü ildə Assuriya hökmdarı III Salmanasarın mixi yazılı kitabəsində rast gəlinir. Bu yazılarda Manna tayfa adını bildirir.

E.ə. XI əsrdə Manna ərazisində müstəqil siyasət yürüdən Zamua, Gilzan, Alateye, Surikas, Gizilbunda, Zikirtu, Andia və s. vilayətlər meydana gəlmişdi. Zamua ölkəsi Mannanın əsas hissəsini təşkil edirdi. Urmiya gölündən cənubda yerləşən Zamua əvvəllər lullubilərin ölkəsi olmuşdur. E.ə. IX əsrin birinci yarısında Zamuanı ayrı-ayrı hakimlər idarə edirdilər. Buna görə də xarici hücumların qarşısını almaq mümkün olmurdu. Onların hər biri Assuriya ordusuna qarşı təkbaşına mübarizə aparmalı olur, yaxud xərac göndərməklə Assuriya ilə müstəqil siyasi əlaqə yaradırdılar.

Mannaya qarşı Assuriya və Urartunun hücumları ara vermirdi. Manna hökmdarları ölkəni vahid mərkəzdə birləşdirib, xarici hücumların qarşısını almağa çalışırdılar.

E.ə. IX əsrin sonu-VIII əsrin əvvəlində Manna güclü bir dövlətə çevrilmişdi.

Mannanın ərazisi şimalda Araz çayına çatırdı, cənubda və cənub-şərqdə Kaspi ölkəsi, Parsua və Midiya ilə həmsərhəd idi. İranzunun hakimiyyəti dövründə Manna qüdrətli dövlət olmuşdur.

Bu dövrdə Mannanın xarici siyasətində iki meyl var idi. Bir qrup Assuriya ilə ittifaqa meyl göstərir, bununla da Manna torpaqlarının bütövlüyünü saxlamağa çalışırdı. İranzu Assuriyaya müttəfiq kimi baxır və onun siyasi üstünlüyünü tanıyırdı. Urartunun hücumlarına qarşı uzun müddət mübarizə aparan Mannaya əmin-amanlıq lazım idi. Başqa bir qrup isə Urartu ilə ittifaq tərəfdarı idi. Onların siyasəti Manna vilayətlərinin mərkəzi dövlət ətrafında birləşməsinə mane olur, ölkənin parçalanmasına, torpaqlarının isə Urartu tərəfindən işğalına şərait yaradırdı.

Mannada dövlətçilik ənənəsi qədim köklərə malik idi. Hələ e.ə. III minillikdə onun ərazisində dövlət qurumları meydana gəlir.

Dövləti hökmdar idarə edirdi. Hökmdar mütləq hakimiyyətə malik idi. E.ə. VIII əsrin ikinci yarısında hakimiyyət irsi olaraq atadan oğula keçirdi. Dövlətə qədim Azərbaycan türk sülaləsi başçılıq etmişdir. Manna mərkəzləşmiş dövlət idi. Ölkənin vilayətlərini canişinlər idarə edirdilər. Onlar mərkəzi hakimiyyətə tabe idilər. Dövlətin idarə işlərində müxtəlif əyanlar və məmurlar çalışırdılar. Məmurlar mixi qaynaqlarda əyan, ağsaqqal, məsləhətçi, başçı və canişin adlandırılmışlar. Dövlətin idarəsində hakim ailənin üzvləri də iştirak edirdilər. Mannada ağsaqqallar şurası da fəaliyyət göstərirdi. Lakin bu şura hökmdardan asılı idi.

Manna hökmdarları ölkəni yadelli basqınlardan qorumaq üçün qonşu Assuriyaya ilə diplomatik əlaqələr yaratmış və ölkənin ərazi bütövlüyünü saxlamağa müvəffəq olmuşdular.

Ahşerinin məğlubiyyəti faciə ilə qurtardı. Ona qarşı üsyan baş verdi. Üsyançılar Ahşerini öldürdülər. Hakimiyyətə Ahşerinin oğlu Ualli (e.ə. 650-630) gəldi və Assuriya ilə ittifaqı bərpa etdi. Bundan sonra Manna Assuriya ilə ittifaqa sadiq qaldı. E.ə. 616-cı ildə Ön Asiyanın qüdrətli Assuriya dövləti Midiya və Babilistan ilə mübarizədə təklənən zaman Manna hərbi dəstələri ona kömək etdi. Qaynaqlardan göründüyü kimi, e.ə. 593-cü ildə Manna müstəqil dövlət kimi öz varlığını saxlayırdı.

Təxminən e.ə. 590-cı ildə Manna İranın mərkəzində yaranmış Midiya dövlətinin tərkibinə daxil edildi. Mannan müstəqil dövlətçiliyinə son qoyuldu.

Mannada sənətkarlıq mühüm yer tutmuşdur. Mannanın ərazisində zəngin dəmir filizi, o cümlədən qiymətli daş yataqları var idi. Mannada peşəkar sənətkarlar qızıl, gümüş, tunc və misdən bəzək şeyləri, qab-qacaq və s. hazırlayırdılar. İndiki Cənubi Azərbaycan ərazisində, qədim Həsənli məskənində qazıntılar zamanı müxtəlif daş qəliblər tapılmışdır. Əridilmiş metalı həmin qəliblərə tökərək oraq, toxa, balta, xəncər,

ox ucları, dəbilqə, bəzək əşyaları və s. hazırlayırdılar. Həsənli qızıl camı Azərbaycanın nadir qədim sənət əsəridir.

E.ə. VIII-VII əsrlərə aid Ziviyə Manna qalasından zəngin sənətkarlıq nümunələri tapılmışdır. Azərbaycanın cənubunda Sakkız şəhəri yaxınlığında yerləşən bu abidədə qızıl və gümüşdən hazırlanmış döşlük, qılınc qınının və dəstəyinin hissələri, at qoşqu ləvazimatı, gümüş sini, buynuzvarı qədəhlər, kəmər, dəmir qılınclar və s. aşkar edilmişdir.

Həsənli və Ziviyə tapıntıları Mannada metalişləmə sənətinin yüksək inkişaf etdiyini göstərir. Toxuculuq mühüm sənət sahəsi olmuşdur. Həsənli qazıntılarından tapılan müxtəlif parça qalıqları toxuculuqda qoyun yunundan və keçi dərisindən istifadə edildiyini göstərir. Mannada boyaqçılıq sənəti də olmuşdur. Mannalıların geyimi müxtəlif olmuşdur. Üst paltarları uzun, lakin qısaqol idi. Döyüşçülər uzun və dizə çatan libas da geymişlər.

Mannalılar qonşu ölkələrlə ticarət əlaqələri yaratmışlar. Mannadan müxtəlif məhsullar və xammal ixrac edilirdi.

Mannada memarlıq sənəti inkişaf etmişdi. Mannaya hücumların qarşısını almaq üçün qalalar və qala-şəhərlər tikilmişdi. Mannanın paytaxtı İzirtu və başqa şəhərlər əzəmətli qala divarları ilə əhatə olunmuşdu. Həsənli qala-şəhərində iki-üç mərtəbəli binalar, məbədlər tikilmişdi.

Arxeoloji qazıntılar zamanı tapılmış əşyalar üzərindəki şəkil və naxışlar Manna təsviri sənətinin gözəl nümunələridir. Həsənli qızıl camının üzərində çox maraqlı əfsanəvi səhnə təsvir olunmuşdur.

Ziyiyənin qızıl və gümüş qədəhləri dağkeçisi, yaxud ceyran başı formasında hazırlanmışdır. Müxtəlif əşyaların üzərində şiri yaralayan hökmdar, dizi bükülmüş maral, dağqoçu, həyat ağacı ətrafında keçi və qanadlı öküz təsvir edilmişdir.

Mannalılar allahlara sitayiş etmişlər. İbadət üçün tikilən xüsusi binalarda-məbədlərdə allahların heykəli qoyulurdu. Müxtəlif əşyalar üzərində Manna əfsanələri ilə bağlı səhnələr təsvir olunmuşdur. Manna əsatirlərində müxtəlif əfsanəvi varlıqlar (qrifon, buynuzvarı yay kimi əyilmiş qanadlı qoç, insan sifətli öküz, qanadlı sfinks və s.) mühüm yer tuturdu.

Həsənlidən tapılmış qızıl camın üzərindəki təsvirlər mannalıların dini görüşləri ilə bağlı idi. Camın yuxarı hissəsində döyüş arabası üstündə üç allah təsvir olunmuşdur. Mannalılar dini təsəvvürlərinə uyğun olaraq allahları qanadlı çəkmişlər. Təsvirlərdə günəş, ay və külək-yağış allahlarını ayırd etmək mümkün olur.

E.ə. III minillikdə Azərbaycanın cənubunda əhali mixi yazı ilə tanış idi. Mannada yerli yazı növü də olmuşdur. Ziviyədən tapılmış gümüş sini üzərində bir çox işarələr həkk edilmişdir. Bu işarələr heroqlif yazı növünə aiddir. İşarələrin çoxluğu və müxtəlifliyi göstərir ki, bunların müəyyən oxunuşu olmuşdur.

Mannada türk, hürri, İran və s. dillər işlənmişdir. Manna ilə bağlı yer və şəxs adları burada qədim türk tayfalarının yaşadığına dəlalət edir. Turukki adı türk tayfa adının ilkin forması hesab edilir.

Manna hökmdarlarının adları da türk sözləri ilə izah olunur. Aza adı türk mənşəli aca - “böyük qardaş” sözünü bildirir. Ullusunu adı türk dillərində işlənən ul-lu-ulu- “böyük, ulu, əzəmətli” sözü və “sun” sifət şəkilçisinin birləşməsindən əmələ gəlmişdir, “ən böyük”, “ən ulu”, yaxud “ulu adam” mənası daşımışdır. Mannada əhalinin əsas dili ən qədim türk dili olmuşdur. E.ə. II minillikdə Azərbaycanın ərazisində yerli türkdilli etnoslar yaşamışlar.

## QƏDİM İRAN MƏDƏNİYYƏTİ

Mesopotamiyadan şərqdəki vadilərdə və dağlardakı yaylalarda iranlı (fars) tayfaları köçəri həyat sürürdülər. Bu ərazidə yaranmış İran dövlətinin əsasını Əhəmənilər sülaləsi qoymuşdur. Farsların başçısı I Kambiz Midiyaya tabe idi. O, Midiya çarı Astiaqın (584-550) qızı Mandanaya evlənmişdi. Mandanadan olan Kir (e.ə. 558-530) inzibati və pul islahatı keçirdi. Vahid pul sistemi yaratdı. Ölkə 20 satraplığa bölündü. Satraplığa satrap başçılıq edirdi. Persepolla yanaşı, Babil, Suz, Ekbatan şəhərləri də İranın paytaxtı idi. İran-yunan müharibələrində (e.ə. 490-449) İran məğlub oldu.

Əhəmənilər dövründə mixi yazı əsasında qədim fars yazı növü icad edildi. Farslar şəmsi-qəməri (günəş-ay) təqvimi tərtib etmişlər. E.ə. zərdüştlük Əhəmənilərin rəsmi dini oldu. I Dara Bisütun qayası üzərində ən məşhur kitabə həkk etdirmişdir. Pasarqad şəhərinin ətrafında böyük qülləli bina və onun ətrafında ibadət üçün binalar tikilmişdi. Farslar bu sahəni Təxti-Süleyman adlandırırdılar. Persepol xarabalıqlarına orta əsrlərdə Təxti-Cəmşid deyirdilər.

Əhəmənilər imperiyası e.ə. IV əsrin sonunda zəiflədi, İsgəndər Persepol şəhərini tutdu, İranın sonuncu padşahı III Dara öldürüldü. İran Əhəmənilər imperiyasına son qoyuldu.

Bir neçə əsrdir ki, elmi və bədii ədəbiyyatda İran və fars dövləti anlayışları yanlış olaraq sinonim kimi işlədilir. Bunun yanlış olmasının başlıca səbəbi İranda tarixən məskunlaşan xalqların unudulması, nəzərdən qaçırılmasıdır. Nəticədə təqribən 3 min ildən çox bir müddət ərzində İran ərazisində yaraşan mədəniyyət və digər mənəvi sərvətlər yanlış olaraq farsların adına çıxarılır. Avropa və rus tarixçi və ədəbiyyatçılarının bir qismi hətta ifrata vararaq bütövlükdə İranı Persida adlandırmışlar.

Bəzi tarixçilərin fikrincə, «İran» adı əslində coğrafi anlayış olmaqla geniş bir əraziyə (yaylaya) şamil edilir. Bu coğrafi anlayış bəzən İran dilləri qrupunu bildirən məfhum kimi də işlədilir. İran dilləri qrupuna fars, puştu, tat, Mazandaran, tacik, Gilan, kürd və başqaları daxildir.

İran mətnləri qədim fars mətnlərində, eləcə də hələ də mübahisəli olan «Avesta» mətnlərində təmsil olunmuşdur. Bir sıra Azərbaycan alimləri Avesta dilinin fars dili ilə əlaqəsini qəbul etmirlər. Sonralar Urartu mədəniyyətində məzdəkilik şəklində özünü göstərən zərdüştiliyin əsl sahibi etnik cəhətdən türk qəbilələrindən təşkil olunmuş midiyalılardır və Urartu mədəniyyətinə indi sahib durmuş ermənilərə nəinki məzdəkizmin və zərdüştiliyin, hətta etnik kökü etibarilə «onoqurlarla»-»utiqurlarla», yəni türk tayfalarına bağlanan Urartu dövlətinin və mədəniyyətinin də qətiyyən aidiyyəti yoxdur. Burada eyni zamanda udin-kutilərin də tarixi adlarının təhrifindən danışılır, sözlərin əslən yəhudi mənbələrində «Uqin» («Uquz») olduğu təsdiq edilir ki, bu etnosların da qədim türklərə məxsusluğu aydındır. Beləliklə, Avestanın bizə gəlib çıxmış kitabları qədim Azərbaycan ədəbiyyatının əsərləridir.

Coğrafi anlayış kimi İranın əhatə etdiyi ərazi və orada yaşayan müxtəlif xalqların nümayəndələri bu ölkəni özlərinin doğma vətəni hesab etmişlər. Deməli, «İran» adı altında yalnız bir xalqın - yəni farsların vətəni deyil, əksinə, bir sıra xalqların vətəni başa düşülməlidir. Bunu «İran» mədəniyyəti anlayışı haqqında da demək olar. Lakin «İran» mədəniyyətinin müxtəlif tarixi dövrlərin məhsulu olduğu da unudulmamalıdır. Qədim İran mədəniyyəti İran yaylasının və onunla həmsərhəd Orta Asiya vilayətləri əhalisinin, çoxsaylı İran tayfa və xalqlarının yaratdığı mədəniyyətdir. Həmin mədəniyyətin yaradılmasında Azərbaycan xalqının inkaredilməz rolu olmuşdur.

Tarixçilərin fikrincə, e.ə. III-II minilliklərdə Urmiyyə gölü hövzəsində kuti, lullubi, su (suv), turukki tayfaları yaşayırdılar. Həmin tayfalar adları bizə məlum olmayan, lakin başqa (o cümlədən Hurri, Qafqaz, Elam) dillərində danışan əhali ilə ünsiyyətdə olmuşlar.

Eramızdan əvvəl I minillikdə İran ərazisində kuti və lullubi etnosları ilə yanaşı, bir sıra başqa ad daşıyan tayfalar da yaşamışlar. Urmiyyə gölü hövzəsində Manna dövləti yarandıqdan sonra, onun ərazisi Assur mixi yazılarında «Mannaya ölkəsi», yəni «mannalıların ölkəsi» adlanırdı. Yəqin ki, «mannalı» anlayışı bir sıra etnosların, o cümlədən etnik cəhətdən qohum olan etnosların ümumi adı olmuşdur. Lakin Manna xüsusi antroponim və yer-toponim adlarının təhlili mövcud olan dillər barədə mühakimə yürütməyə imkan verir. Manna yer adlarının bir qismi türk dillərində izah olunur. Bəzi Manna hökmdar adları türk mənşəli hesab oluna bilər. Çox güman ki, bu etnos hələ Aratta dövründə burada yaşayırmış və ölkədə onun dilində işlənən söz ilə Aratta (Alateye, yəni «dağ», «dağlıq ölkə») adlanmışdır. Bu toponimlər prototürk, yaxud protoazərbaycan dilinə mənsub idi. Lullubi, turukki və sular Arattanın sakinləri olmuşlar və prototürk (protoazərbaycan) dilində danışırmışlar. Bununla əlaqədar «turukki» etnonimini «türk» adının erkən forması kimi qəbul etmək olar.

İranın, İraqın, Türkiyənin, Zaqafqaziyanın, Orta Asiyanın bir çox ərazilərində hələ ən qədim dövrlərdən türklərin məskunlaşması məsələsini müdafiə edən alimlərimizin sırası getdikcə artmaqdadır.

Coğrafi anlayış kimi İran yaylasının sərhədləri Qərbdə Zaqros dağlarından, Şərqdə Hindistan (İndi Əfqanıstan, Pa-kistan) ərazisindən, Şimalda Araz çayından başlayır, Cənubda fars körfəzinə çatır. Bu ölkə son zamanlaradək «Persiya» (Farsistan) adlanırdı. XX əsrdə dövlət tərəfindən rəsmi olaraq «İran» adı qəbul

edilmişdir. Bəzi alimlərin fikrincə, «İran» adı qədim dövrdə «Ariana» («ari» ölkəsi) şəklində işlədilirmiş, lakin Ariana qədim yunan qaynaqlarında bütün İran yaylasına yox, ancaq onun Şərq hissəsinə (indi: Seistana) şamil edilirdi. Avestada həmçinin «Arianam veyca» («ari ölkəsi») adı çəkilmişdir. Bəzən bu ölkəni Orta Asiyada qədim Xarəzm ərazisində yerləşdirirdilər. Mərv və Herat şəhərini onun mərkəzi hesab edirdilər. Əhəmənilər dövründə Arey («Ariya») Xarəzm və Soqdiana ilə bir canişinliyə daxil idi və Xarəzmdə axan çay Ak adlanırdı (ola bilsin ki, Ak çay adı türk sözü ak (aq) «ağ, ağımtıl (çay)» mənasını daşıyırmış). Beləliklə, Arianam (Ariana)

Arey İran yaylasının Şərq və şimal-şərqində müəyyən əraziyə verilən ad olmuşdur. «Ariana» adının İran formasına çevrilməsi inandırıcı deyildir, «İran» adının əmələ gəlməsində başqa komponentlər iştirak etmişdir. Ariana xoronimi «ari» tayfa adından əmələ gəlmişdir. Türk dillərində ari - arı «təmiz, alicənab, kübar «müqəddəs» mənalarını saxlamışdır. «Ari» tayfa adını da eyni cürə mənalandırırlar. «İran» adında isə «ir» etnonimi və an cəm şəkilçisi iştirak edir. Etnonim «ir» qədim türk dillərində ər, er sözlərinin digər fonetik forması olmaqla, «kişi, cəsur, qoçaq» mənalarını daşıyırdı. «Arı» və «ir» sözləri ancaq türk dillərində qalmışdır.

Hind-İran tayfaları birliyi e.ə. II minilliyin sonu-I minilliyin əvvəlində parçalanmışdı. İrandilli tayfalar cənub-şərqi Avropadan hərəkətə başlamış, bir qismi Orta Asiyaya getmiş, digər qismi isə Qafqaz dağlarını aşaraq İran yaylasına gəlmişdir. İkinci ehtimala görə, onlar Orta Asiyadan hərəkət edərək İran yaylasında tədricən məskunlaşmışlar.

Tarixi-filoloji dəlillərə əsaslanan başqa ehtimala görə, Hind-Avropa dil birliyi Ön Asiyada Hind və İran qollarına parçalanmış, Hind dilini daşıyan etnoslar Hindistana yönəlmiş, İran dillərində danışanlar isə İran yaylasında məskən salmışdır. Eyni zamanda müxtəlif dövrlərdə İrandilli tayfaların bir qismi Qafqaza və Orta Asiyaya hərəkət etmişdir.

Hələ e.ə. III-II minilliklərdə İran ərazisində müxtəlif dövlətlər meydana gəlmişdi. Əsrlər keçdikcə həmin dövlətlər bir-birini əvəz etmişdir. Aratta, Lullubi, Kuti, Elam, Midiya, Urartu, Manna, Əhəmənilər, Atropatena, Sasanilər və s. dövlətlər tarix səhnəsinə çıxmış, bəzisi isə uzun müddət ömür sürmüşlər. Həmin dövlətlərin ərazisində yaşayan xalqların mədəniyyətində eyni cəhətlər çox olmuşdur. E.ə. I minillikdə zərdüştilik qəbul edildikdən sonra bu özünü mədəniyyətdə də göstərmişdir. Həmin dinin müxtəlif xalqlar tərəfindən qəbul edilməsi onların mədəniyyətinin formalaşması işində müxtəlif xalqların iştirak etməsinə böyük təsir göstərmişdir.

Məlum olduğu kimi, İranın ən qədim əhalisi müxtəlif allahlara sitayiş edirdi. Qədim Elamda allahlar panteonu mövcud idi. Qaynaqlar Urmiyyə gölü sakinlərinin dini dünyagörüşü barədə çox cüzi təsəvvür yaradır. Burada çoxallahlılıq-politeizm, bütlərə sitayiş mövcud olmuşdur. Tarixi faktlar sübut edir ki, assurilər dəfələrlə Manna allahlarının təsvirlərini qənimət kimi aparmışdılar.

İranın cənubunda olan xalqlar, o cümlədən farslar arasında zərdüştilik təlimi yayılmışdı. Herodotun verdiyi məlumata görə, onlar məbəd tikməzdilər, ibadəti açıq havada keçirərdilər. Həmin xalqlar müxtəlif təbiət qüvvələrinə sitayiş edirdilər. Günəş, su, ay, külək və s. dini ibadətə çevrilmişdi. Bütün bunlar Avestada təsvir olunan miflərdə öz əksini tapmışdı.

İran mədəniyyəti haqqında əsas məlumatlar qədim abidələrdə qorunub saxlanılmışdır. Həmin abidələr içərisində Avesta özünəməxsus yer tutur. Avestada ən qədim əsatirlər öz əksini tapmışdır. Bunlar eyni zamanda «Şahnamə», «Bəhmənnamə», «Camasbnamə», «Geştasbnamə», pəhləvi kitabları, «Artaviraknamak» və s. əsərlərdə geniş şəkildə təsvir olunmuşdur.

Div, pəri, əjdaha, Simurq quşu kimi mifoloji obrazlar, o cümlədən tarixi şəxsiyyətlər hesab edilən Cəmşid (Avestada ilk insan, ilk padşah Yima adlanır), Huşəng, Təhmuras, Kəyumərs, Zöhhak, Fərudin, Mənuçöhr, Nuzər, Gərşasb və b. adlar təkcə farsdilli ədəbiyyatda deyil, həmçinin türk xalqlarının dastan, əsatir yaradıcılığında geniş əksini tapmışdır. Həmin eposlardakı təsvirlər təbiət qüvvələrinin canlılaşdırılmasından başlanır. Tarixin əvvəllərində bu inikasın obyektləri, hər şeydən əvvəl, təbiət qüvvələrindən ibarətdir və bunlar sonrakı təkamül zamanı müxtəlif xalqlarda ən müxtəlif və cürbəcür şəkildə canlandırılır. Bu ilkin proses müqayisəli mədəniyyət vasitəsi ilə hər halda Hind-Avropa xalqları arasında izlənərək, Hind vedalarındakı ilk təzahürünə qədər araşdırılmış, onun sonrakı inkişafı isə hindular, farslar, yunanlar, romalılar, germanlar, keltlər, litvalılar və slavyanlar arasında ətraflı tədqiq edilmişdir.

Dünyagörüşü əsasında doğulmuş fantastik obrazlar öz müstəqilliyini uzun müddət saxlaya bilir. Burada onun reallığına zəif də olsa, inamın olması mühüm rol oynayır. Lakin fantastik obrazlar doğulduğu dünyagörüşü atmosferini yaşayaraq bədii şüura çevrilir, obrazlar və motivlər dairəsini yaradır.

Qədim Şərq mədəniyyətində, onun mifologiyasında allah obrazları üstünlük təşkil etmişdir. Qədim İran mədəniyyət nümunələrində isə mifoloji şahların təsvirinə daha çox yer verilmişdir. Həmin şahları təsvir edən eposlar içərisində Firdovsinin «Şahnamə»si mühüm yer tutur. Qədim yazılı abidələrdə, o cümlədən «Şahnamə»də mifoloji şahlar həmçinin mədəni qəhrəmanlar rolunda çıxış edir. «Şahnamə»də ilk mifoloji şah kimi Kəyumərs təsvir olunur.

Kəyumərs paltarı kəşf edir, çiy ət yeməkdən bişmiş ət yeməyə keçməkdən ötrü odu kəşf edir.

Kəyumərs Əhrimənin yaratdığı divlərlə mübarizə edir, bu yolda onun oğlu Siyamək qurban gedir. Yalnız Siyaməkin oğlu, Kəyumərsin nəvəsi Huşəng atasının intiqamını alır. Huşəng surəti bir mifoloji şah surəti kimi mürəkkəb obrazdır. Qədim İran mifologiyasının mədəni qəhrəmanları içərisində Huşəng özünəməxsus yer tutur. «Pardaxta» titulunun Huşəngə aid olması ehtimalı mövcuddur. «Avesta»da bu titul Huşəngin adı ilə yanaşı çəkilir. Sülalə anlayışı verən «Pardaxta» əvvəllər Huşəngin adı olmuş, sonradan isə onun tituluna çevrilmişdir, daha sonralar isə İranın bütün mifoloji və əfsanəvi hakimlərinə, o cümlədən İranın əbədi düşmənləri olan Əfrasiyaba, hətta Zöhhaka da aid edilmişdir.

Xaoşyanqa (Huşəng «Avesta»da belə adlanır) Pardaxta Ahura Məzdanın göstərişi ilə 7 ölkəni idarə edən ilk insan olmuşdur. (7 ölkə anlayışı iranlıların və qərbi türklərin xalq yaradıcılığında «bütün dünya» kimi başa düşülür). Huşəng təkcə adamlar üzərində deyil, həmçinin divlər və cadugərlər üzərində ağalıq edirmiş. Huşəng divlərin qoşununu elə darmadağın etdi ki, onlar birdəfəlik zülmətdə gizlənməli oldular. O, iki dəfə Mazandaran divlərinə qalib gəlir, sonra Ahura Məzdaya böyük qurban verir. Huşəng odu kəşf edir, balta, mişar icad edir, adamlara torpağı əkib becərməyi öyrədir, oda sitayişin əsasım qoyur. O, əlindəki daşı dağdakı vəhşi ilana atır, ilan daşdan yayınır, lakin daş qayaya dəydikdən sonra oradan od çıxır.

Ağır zərbə aldı, qaya partladı,
Toxunduqda daşa od parladı,
İlan ölmədi, oldu bu sirr faş
Ki, od mənbəyidir təbiətdə daş.
Çöküb diz, göyə açdı əl hökmdar,
Dedi, afərin, şükür, pərvərdigar.
Hədiyyə mənə vermisən böylə nur
Bu gündən belə xalqa qiblə odur.
Dedi: - Xalqın nurudur od, yəqin,
Cahanda pərəstiş oda eyləyin.

Hesab edirlər ki, adamları ovçuluğa da o, öyrətmişdir. Yaşayış məskəni tikən, su üçün quyu qazdıran da odur. Huşəng astronomiya elmi ilə tanış olmuşdur. Həmin sülalədən olan Təhmurəz onun oğlu olmuşdur. O, qoyun yunundan libas, xalça, palaz düzəltdirir, atı, eşşəyi, quşu, toyuğu, xoruzu əhliləşdirir. Ot, arpa, saman topladır.

Dedi: - Qırxın, hər yerdə vardır qoyun,
Qoyunlar ki, qırxıldı, ayrıldı yun,
O yundan hazırlatdı xalça, libas,
Döşətdi yerə çoxlu xalça, palaz.
Atı, eşşəyi tutdu, ram eylədi
Ot, arpa, saman topladı, yemlədi.
Seçib vəhşi heyvanları birbəbir,
Tazıdan, tuladan götürdü xeyir.
Tutub onları dağda tədbir ilə,
Gətirdi o, ram etdi zəncir ilə,
Uçuşda baxıb yoxladı hər quşu,
Edib qırğını, şahini əl quşu.
Tutub verdi təlim, ova başladı,
Bu tədbirini aləm alqışladı.
Toyuqla, xoruzdan tutunca xəbər
Ki, xoş banlayırlar açılacaq səhər
Gətirdi, dedi: - Saxlayın bunları,
Toyuq saxlayan xalqın artar varı.

Əfsanəyə görə, Huşəng təkcə xalqına çox şey verən mifik şah, mədəni qəhrəman deyil, həmçinin Zöhhakla birlikdə iranlıların əcdadıdır.

İran imperiyası dünyanın ən iri, çoxsaylı etnoslarının imperiyası olmuşdur. E.ə. 559-cu ildən başlayaraq 30 il ərzində Əhəmənilər tərəfindən nəhəng imperiya maşını yaradıldı. Yunanıstandan başlayaraq Həbəşistana, Liviyadan başlayaraq Hindistana qədər uzanan bu imperiya bir dildə, aramey dilində danışırdı. Əhəmənilər sülaləsinin nümayəndələri Kir, Kambiz, I Dara və başqaları müdrik dövlət müşavirləri vasitəsilə dövlət idarəçiliyində böyük uğurlar qazanmışdılar. Midiyanı, Babilistanı və Misiri işğal edərək həmin ölkələri öz hakimiyyəti altına salmışdılar. Bu ölkədə Zərdüştlü kimi dualist dini hakim din idi. Həmin dində xeyir allahı Ahuraməzda, şər allahı Əhrimən arasında əbədi mübarizə gedir. Bu isə həm mədəniyyət və incəsənətdə, habelə müqəddəs dini kitab olan «Avesta»da öz əksini tapmışdır. Persepol şəhərinin saraylarındakı təsvirlər, Bisütundakı yazılar diqqəti cəlb edir.

Məlum olduğu kimi, Qədim İran çoxallahlığın hökm sürdüyü bir ölkə olmuşdur. Lakin Zərdüştlük təkallahlığa doğru böyük addım hesab oluna bilər. Bu isə mifologiyada, şifahi və yazılı ədəbiyyatda öz əksini

tapmışdır.

Haxamanişlərin dövründə İranın cənubunda Pasarqad və Persepol şəhərləri salınmışdı. Pasarqad şəhərinin tikilməsini II Kuruşun adı ilə bağlayırlar. Pasarqal haxamanişlərin müqəddəs şəhəri hesab edilirdi. Burada şahlara tacqoyma mərasimi keçirilirdi. Şəhərdə gözəl şah sarayları tikilmişdi. Onu qala divarları əhatə edirdi. Burada böyük bir sahəni tutan qülləli bina inşa edilmişdi, yan-yörəsində ibadət üçün tikintilər vardı. Bu sahəni farslar Təxti-Süleyman, qülləni isə Zendan-i Süleyman adlandırırlar. Saray divarlarında dörd qanadlı heyvan təsvir olunmuşdu, üstündə isə "Mən Kuruşam, Haxamaniş şahıyam" yazılmışdı. Saraylardan aralı bir yerdə Kuruşun məqbərəsi tikilmişdi. Saraylar qara və ağ daşdan bəzədilir, divarlara müxtəlif mövzulu naxışlar vurulurdu.

Persepol Şirazdan 50 km aralı, şimalda yerləşirdi. Şəhərin salınması I Daranın adı ilə bağlıdır. Persepolun xarabalığı orta əsrlərdə Təxti-Cəmşid adlanırdı. Burada böyük saray dəsti yaradılmışdı. Saraylar yaşayış binalarından və ziyafət otaqlarından (apadana) ibarət idi. Sarayın özülünə 9.6 kq ağırlığında qızıl və gümüş lövhələr qoyulmuşdu. Lövhələrdə üç dildə (Elam, Babil və qədim fars) yazı həkk olunmuşdu. Divarlarda müxtəlif səhnələr (saray adamları, bac-xərac gətirən başqa xalqların nümayəndələri) təsvir olunmuşdu. Persepolda yeni il bayram şənlikləri keçirilərmiş. Ehtimala görə, yeni il bayramı martın 22-də başlarmış.

Haxamaniş şahları Suz şəhərində geniş tikinti işləri aparırdılar. Suz şəhərində saray tikintisi barədə I Daranın kitabəsi məlumat verir: "Bu sarayı mən Suzda tikdirdim. Onun bəzəkləri uzaqlardan gətirilmişdir. Torpaq çox dərin, ta ki qayanın özülünə çatınca qazıldı. Sidr Livan dağlarından gətirildi. Assur xalqı onu Babilə gətirdi. Karilər və İoniyalılar onu Suza çatdırdılar. (Hind) palıd ağacı Qəndəhər və Kirmandan gətirildi. Burada işlədilən qızıl Sard və Baktriyadan gətirildi. Əlvan daşlar, lacivərd və əqiq ki, burada istifadə olunurdu, Soqddan gətirilmişdi. Burada işlədilən tünd göy əlvan daş (firuzə) Xarəzmdən gətirilmişdi. Burada istifadə olunan gümüş və tunc (yaxud qara ağac) Misirdən gətirilirdi. Divar bəzəkləri İoniyadan gətirilmişdi. Burada işlədilmiş fil sümüyü Efiopiya (Kuş), Hindistan və Araxoziyadan gətirilirdi. Burada işlədilən daş sütunlar Elamın Abiraduş kəndindən gətirilmişdi. Daşyonanlar ioniyalı və lidiyalılardı. Qızılla işləyən zərgərlər midiyalı və misirlilərdi. Ağaca naxış vuran adamlar midiyalı və misirlilərdi. Kərpic tökən adamlar babillilərdi". I Dara böyük bir təmtəraqla Suz şəhərində saray dəsti inşa etdirdi. Burada 100-dən çox otaq tikilmişdi, 12 ölkədən material gətirilmişdi. Saraya ağ, qırmızı, qara və Sarı mərmər döşənmişdi. Ziyafət otağının tavanı 20 m-lik sütunlara dirənirdi, sütunların yuxarı hissəsi öküz başı rəsmi ilə bəzənmişdi. Ruradan tapılmış kitabədə deyilirdi: "Bax, bu ölkələrdən saray üçün bəzək gətirmişdilər. - Pars, Elam, Midiya, Babil, Assuriya, Ərəbistan, Misir, dənizarxası ölkələr, Lidiya, İoniya, Urartu, Kappadokiya, Parfiya, Drangiana, Areya, Xarəzm, Baktriya, Soqdiana, Qandhara, Skitiya, Sattagidiya, Araxosiya...". Nəqşi-Rüstəmdə (Persepol yaxınlığında) Haxamaniş dini abidələr dəsti yaradılmışdı. Burada I Daradan başlayaraq dörd Haxamaniş şahının qaya oyuqlarında məqbərələri inşa edilmişdi. Haxamanişlər dövründə mixi işarələr əsasında qədim fars yazı növü icad edilmişdi. Bu yazı "hecalı əlifbadan" ibarət idi. Qədim fars mixi yazısının yaradılmasını I Daranın adına çıxırlar. Bəzi mülahizələrə görə, bu yazı növü əvvəllər də işlədilirdi, guya onu midiyalılar Urartu mixi işarələrinin təsiri altında icad etmişdilər, sonra haxamanişlər bu yazı növünü midiyalılardan mənimsəmişdilər. Lakin bu mülahizəni təsdiq edə biləcək Midiya mixi yazısı nümunəsi tapılmayıb. Ehtimal edirlər ki, midiyalılar akkad, yaxud arami yazı növündən istifadə edirdilər.

Herodotun məlumatına görə, midiyalı Harpaq II Kuruşa məktub yazmışdı, Kuruş özü Astiaqın adından məktub tərtib etmişdi. Bəziləri bu məktubların Midiya mixi yazısı ilə tərtib olunduğunu söyləyirlər. Lakin bu məktubların Elam mixi yazı növü ilə tərtib olunması fikri həqiqətə daha uyğundur.

Hələ qədim fars yazı növü icad olunmazdan əvvəl I Daranın göstərişləri Elam, akkad və arami işarələri ilə yazılırdı. Bisütun yazısında I Dara deyir: "Mən əvvəl işlədilməyən kitabə növü yaratdım. (Bu) ari dilində gil və gön üzərindədir". Beləliklə, o, ilk dəfə ari dili mətnlərini yazıya köçürtdürdü. Belə hesab edirlər ki, ari dili anlayışı qədim fars və Midiya dillərini nəzərdə tuturmuş. Lakin bu belə deyil. Bəzi mülahizələrə görə, fars dili Midiyada da işlənirdi. Qədim fars mətnlərindəki bəzi fonetik fərqlər Midiya dilinə aid edilir, halbuki onlar əslində fars dilinin dialekt formalarıdır. Əksinə, belə də fərz edirdilər ki, Bisütun yazısının qədim fars nüsxəsi əslində, guya Midiya dilində tərtib olunmuşdu. Demək olar ki, Bisütun kitabəsinin Elam və Akkad nüsxələri qayaya əvvəlcə həkk olunmuş, sonra isə qədim fars yazı növü ilə tərtib edilmiş mətnlər Bisütun qayasına köçürülmüşdü.

Haxamaniş kitabələri qədim fars, Elam və akkad dillərində müxtəlif mixi yazı növü ilə tərtib olunmuşdu. Eyni zamanda, arami dili və əlifbasından istifadə edirdilər.

Qədim İran əhalisi təqvim sistemi yaratmışdı. Ən qədim təqvim elamlılara mənsub idi. Onlar ilk əvvəl Akkad təqvim sistemindən istifadə edirdilər. Ayların Elam dilindəki əvəzi qaynaqlarda əks olunmayıb. E.ə. I minilliyə aid qaynaqlarda Elam aylarının adı çəkilmişdir, lakin burada qədim fars dilinin təsiri özünü göstərirdi. Elam təqvimi qəməri təqvim əsasında yaranmışdı. Elam dili və mədəniyyəti Haxamaniş dövlətinin tərkibində müəyyən əhəmiyyətli mövqeyə malik idi. Sənədlər elam dilində tərtib olunurdu. Suz mərkəz şəhərlərindən birinə çevrilmişdi. Burada Haxamaniş şahlarının xəzinəsi saxlanılırdı. Suz canişini eyni

zamanda xəzinədar (elam dilində kabnişkir) idi. Haxamaniş dövləti dağıldıqdan sonra Elimaida da (keçmiş Elam) Kabnişkirlər (xəzinədarlar) sülaləsi hakimiyyətə gəlmişdi. Kabnişkiri sülaləsi hökmdarları pul kəsirdilər və hətta parflara tabe deyildilər. Eramızın II əsrində bu son Elam sülaləsinin də hakimiyyətinə son qoyuldu.

Elam mədəniyyətinin izləri e.ə. VI minilliyə aid arxeoloji laylardan üzə çıxarılmışdı. Sonrakı minilliklərdə Elam mədəniyyətinin təsiri geniş yayılmışdı. Bu təsiri nəinki İran yaylasında və İkiçayarasında, həm də Cənubi Qafqazda və hətta Hindistanda müşahidə etmək mümkündür. Sinfi cəmiyyətə keçid zamanı Elamda piktorafik (şəkli) yazı sistemi icad edilmişdi. Buna oxşar işarələr Hindistanda da tapılmışdı. Bu işarələrin sayı təxminən 500-ə çatırdı. Piktoqrafik yazı sisteminin inkişafı Elam xətti yazı formasının meydana gəlməsinə səbəb olmuşdu. Xətti yazı piktoqrafik işarələrin sxematik (cizgi) görkəmini əks etdirir. Xətti yazı 80 və ola bilsin ki, daha çox işarəyə malik imiş. E.ə. III minilliyin ikinci yarısında elamlar Şumer-Akkad mixi yazı sistemini mənimsəmişdilər. Mixi yazı işarələri elam dilinin xüsusiyyətinə tam da olmasa uyğunlaşdırılmışdı. Mixi yazı elam dilinin fonetikasını, səs xüsusiyyətlərini aydın verə bilmirdi. Mixi işarələri ilə tərtib olunmuş ilk elamdilli yazı "Naram-Suen ilə müqavilənin" mətnindən ibarətdir. Elam mixi işarələrinin sayı 200-ə çatırdı. Bunlardan 174-ü hecalı işarələrdən, 25-i isə söz bildirən işarələrindən (loqoram) ibarət olmuşdu. Son Elam dövründə mixi işarələrin sayı azaldılmış, yazı sadələşdirilmiş və 123 mixi işarə saxlanılmışdı. Elamlılar öz kitabə və təsərrüfat sənədlərini nəinki elam dilində, həm də akkad dilində tərtib edirdilər. Mixi yazının işlədilməsi baxımından Elam İkiçayarası mədəniyyəti dairəsinə daxil idi.

Elam mədəniyyətini yaradan əhalinin etnik tərkibi tam məlum deyil. Əhalinin əsas hissəsini elamlılar təşkil edirdi. Lakin bu ərazi təmiz elamdilli əhalidən ibarət olmamışdı. Erkən dövrdə buraya sami tayfaları yol açmışdı. Ola bilsin ki, Elamın cənub-qərbində şumerlər də məskən salmışdılar. Şimaldan Elam ərazisinə turukkilər (prototürklər), kassilər və bəlkə də subir və hurrilər yayılmağa başlamışdılar. Bu tayfaların heç biri əhalinin elam mənşəli tərkibində dəyişiklik edə bilmədi. Son dövrlərdə Elam ərazisinə irandilli tayfalar yol açdılar. Onlar əvvəlcə Anşan vilayətində, sonra da Elamın başqa vilayətlərində məskən salmışdılar. Müxtəlif tayfaların Elamda məskunlaşmasına baxmayaraq Elam mədəniyyəti özünəməxsus əlamətləri saxlayırdı. Minilliklər ərzində elamların mənəvi aləmi, qədim ayinləri və dini görüşləri öz varlığını saxladı.

Din Elam əhalisi arasında, onun gündəlik həyatında mühüm yer tuturdu. Elamlılara məxsus allahlar panteonu yaradılmışdı. "Narm-Suenlə müqavilə" şahid kimi 37 allah adını sadalamışdı. Burada Elam allahları ilə yanaşı Akkad allahlarının da adları çəkilmişdi. Elam panteonunda Akkad və bəlkə də başqa mənşəli allahlar da təmsil olunmuşdu. Qarışıq panteon qədim Şərqin digər ölkələrinə də xas idi. E.ə. III minillikdə Elam panteonuna ana ilahə Pinenkir başçılıq edirdi. Bu da Elam cəmiyyətində ana nəsli qaydalarının saxlanılmasını göstərən amil hesab edilər bilər. Elam vilayətlərinin hərəsinin özünəməxsus ana ilahəsi vardı. Pinenkir Suz şəhər icmasının ilahəsi sayılırdı. O, "səma hökmdarəsi" kimi məlum idi. İkiçayarası əhalisi Pinenkiri özlərinin İştar (məhəbbət və məhsuldar ilahəsi) ilahəsi ilə eyniləşdirirdilər. Pinenkir böyük ana ilahə hesab edilirdi. Elamın Liyan (İran körfəzi sahili) vilayəti əhalisi Kiririşa ("Böyük ilahə") ilahəsinə sitayiş edirdi. Anşan vilayətində isə ilahə Partiyə ibadət yayılmışdı. Kiririşaya ibadət ümum Elam səviyyəsinə qalxmışdı. E.ə. III minillikdə allah Humpan Elam panteonunda ikinci yer tuturdu, lakin II minilliyin ortalananda o artıq panteona başçılıq edirdi. Elam cəmiyyətində baş vermiş və dərinləşmiş sosial-iqtisadi və ictimai dəyişikliklər dini təsəvvürlərə də təsir göstərmişdi. Elamlıların mənəvi aləmində ata nəsli hüququ üstünlük qazanmışdı. Humpan da "Səma hökmdarı" hesab edilirdi. Bu allah Pinenkirin və Kiririşanın əri kimi təsəvvür olunurdu. Humpan və Kiririşanın nikahından allah Humpan yaranmışdı.

Minillik ərzində ictimai-iqtisadi amillərin təsiri altında Elam panteonu dəyişilirdi. E.ə. III minillikdə allah İnşuşinak panteonda altıncı yer tuturdu. İnşuşinak adı Suz şəhərinin şumer adından əmələ gəlmişdir. Şumercə Nin-şuşin-ak əslində "Suzun (Şuşinin) sahibəsi" mənasını daşıyırdı. İlk əvvəllər İnşuşinak qadın ilahəsi kimi tanınmışdı. Min il sonra onun adı Humpan və Kirjrişa ilə yanaşı, bəzən də ikinci yerdə çəkilirdi. İnşuşinaka "zəiflərin atası", "allahların yerdə və göydə havadan", "Sirli allah" kimi rütbələr verilirdi. İctimai-iqtisadi münasibətləri əks etdirən sənədlərdə İnşuşinak andiçmə allahı mövqeyini tuturdu. Onun adı ilə and içirdilər, axirət dünyasında isə o, məhkəmə qururdu. İnşuşinak Elam axirət dünyasının hakiminə çevrilmişdi. And mərasimində onunla yanaşı ilahə İşmekarabın adı da çəkilirdi. İşmekaraba (akkadca "O, duanı eşitdi") ibadət ola bilsin ki, Akkad təsiri altında yaranmışdı. Bu ilahənin Elam müqabili Laqamal (yaxud Laqamar) olmuşdu. İşmekarab və Laqamal axirət dünyasının ilahələri hesab edilirdilər. İşıq dünyasının allahı Nahhunti (elamca "Günəş") idi. O, sənədlərdə şahidlərin havadarı kimi qələmə verilirdi. Nahhunti qanun-qaydanı qoruyur, hüquq və məhkəmə allahı vəzifəsini görürdü. Elamlılar ay allahı Napirə də sitayiş edirdilər. O, "yetimlərin atası" adını qazanmışdı. Narundi qələbə ilahəsi idi, lakin qonşu assurilər onu "yeddi şər ruhun" bacısı adlandırmışdılar. Elamlar bir çox yerli allahlar ilə yanaşı İkiçayarası allahlarına (Adad, Nerqal, Enki və s.) da sitayiş edirdilər. Elam cəmiyyətində çoxallahlılıq (politeizm) mövcud olmuşdur.

Şifahi xalq ədəbiyyatı və əfsanələr Elam cəmiyyətində müəyyən yer tuturdu. Bunu qədim dövrün möhürləri və qabları üzərində əks olunmuş təsvirlərdən görmək mümkündür. Təsvirlər müxtəlif mövzuları

əhatə edirdi. Möhür üzərində yırtıcı quş başı, dırnaqlı və qanadlı Aslan təsvir olunmuşdu. Antik ədəbiyyatda belə qarışıq əlamətlərə malik olan vəhşi heyvan qrif adlanırdı. Qrif surəti Elam əfsanəsinin məhsuludur. Qrif mövzusu möhür təsvirlərinə Elam şifahi xalq yaradıcılığından keçə bilərdi. Möhürlərdən biri üzərində ikicərgəli əfsanəvi təsvirlər həkk olunmuşdu. Şəkildə aypara və ulduz, insan başlı öküz, qrif, əllərində dirilik ağacları, heyvan üstündə allahlar və s. təsvir edilmişdi. Bu, Elam sənətkarlığının gözəl nümunəsi hesab olunur, lakin onun əfsanə məzmunu qaranlıq qalır. Digər möhürlər üzərində əks olunmuş əfsanəvi səhnələrin mövzusunu da açmaq tam mümkün deyildir. Bir sıra möhürlərin təsvirləri elamlıların gündəlik həyatına həsr olunmuşdur. Burada ov səhnəsi, torpağın kotanla şumlanması, üçdişli toxa ilə sahənin becərilməsi, qadınların xurma məhsulunu toplaması, keçilərin çöllərdən qayıtması və pəyəyə salınması səhnələri verilmişdir. Möhürlərin birində emalatxana təsvir edilmişdir: kişilər saxsı qab hazırlayır, qadınlar isə yun təmizləyir, bayırda anbarlara taxıl tökürlər, anbar yanında diz üstə oturan mirzə qəbul olunmuş taxılın hesabını aparır. Bunlar elamlıların gündəlik məşğul olduqları əmək prosesini gerçək əks edən təsvirlərdir.

Elam sənətkarlığının gözəl nümunələrindən biri uzunsov qədəh hesab edilir. Onun üzərində dağ keçisinin əndamı ümumi şəkildə cızılmışdır. Dağ keçisinin yay kimi burulmuş buynuzlan belinə kimi çatdırılmışdır. Keçi təsvir olunan hissə çərçivəyə alınmış, onun üstündən isə sanki sıçrayışa hazırlaşan tazı təsvirləri verilmişdir. Yuxarı hissədə boğazı nazik və uzunsov quşlar təsvir olunmuşdur. Təsvirlərin hamısı ümumi incəlik və gözəl uyğunluq yaradır. Təsvir öz gerçəkliyi ilə fərqlənir. Nazik səthi olan güldana isə qıvrılıb qalxan ilan təsviri vurulmuşdur. İlan müxtəlif rənglərdə işlənmişdi. İlan Elam mədəniyyətinin ana xəttini təşkil edirdi. Elamlıların təsəvvürünə görə, ilan məhsuldarlığı təmsil edirmiş. Bitişik qoşa ilan təsvirlərinə rast gəlinir. Qoşa ilanlar məhsuldarlıq rəmzini bildirirmiş. Qoşa ilan mövzusu Misirə də sirayət etmişdi. Elamlılar ilanı ilahiləşdirmişdilər. Eyni zamanda ilana insan sifəti verilirdi. İnsan başlı ilan Elam mədəniyyətinə xas olan cəhətdir. Belə təsvirlər İkiçayarasında da məlum deyildi.

Metaləritmə və metalişləmə sənəti Elamda yüksək inkişaf səviyyəsinə qalxmışdı. Hökmdar qadın Napirasunun heykəli buna bir nümunədir. Heykəl çox böyük əzəmətə malikdir. Heykəldə hökmdar dadının uzun barmaqları, qəddi-qaməti böyük bir incəliklə işlənmişdi. Abidənin ağırlığı 1800 q çatırdı. Hökmdar Untaş-Napirişaya məxsus tunc balta tapılmışdır. Baltanın tiyəsi aslanın geniş açılmış ağzına yapışdırılmış, əl tutacağının sonu isə vəhşi qaban fiquru formasında qızıldan tökülmüşdü. Bununla əlaqədar Luristan tunc əşyalarının kökünü Elam metallurgiya sənətində axtarırlar.

Memarlıq sahəsində də Elam sənətkarları öz üslubları ilə fərqlənirdilər. Dur-Untaş məbədi özünün əzəməti ilə, inşaat texnikası ilə İkiçayarası məbədlərinə oxşamırdı. Bu qülləli məbəd (zikkurat) beş mərtəbədən ibarət idi. Tikintidə çiy və bişmiş kərpicdən istifadə olunmuşdu. Minlərlə işçi qüvvəsi, bənna və memar tikintidə çalışırdı. Məbəd ətrafına qala divarı hörülmüşdü. Divarın yeddi darvazası vardı. Bəzi darvazaların önündə müxtəlif Elam allahlarına mənsub kiçik məbədlər tikilmişdi. Elam qonşu xalqlar mədəniyyətinə xeyli təsir göstərmişdi.

Qədim fars təqvimi isə Babil qəməri-şəmsi (günəş-ay) təqvim sisteminə uyğun tərtib olunmuşdur. Təqvim 12 və bir əlavə aydan ibarət idi. İranda Zərdüşt təqvimi də işlədilirdi. Bu təqvim, adətən, ayları allahların adı ilə bildirirdi. İl 365 gündən ibarət idi. Babilistanda olduğu kimi, il 12 aya, hər ay 30 günə bölünürdü. İlə 5 gün əlavə edirdilər.

Haxamaniş dövlətinin yaranması və yüksəlişi dövründə İran mədəniyyəti imperiyaya daxil olan xalqlara güclü təsir göstərmişdi və eyni zamanda, əks təsirə də məruz qalmışdı.

İranın ən qədim əhalisi müxtəlif allahlara sitayiş edirdi. Elamda artıq müəyyən panteon sistemi yaradılmışdı. Qaynaqlar Urmiyyə gölü hövzəsi sakinlərinin dini dünyagörüşü barədə çox cüzi təsəvvür yaradırlar. Burada çoxallahlılıq, bütlərə sitayiş mövcud olmuşdur. Assurilər dəfələrlə Manna allahlarını (təsvirlərini) qənimət kimi aparmışdılar.

İranın cənubunda farslar arasında zərdüştlük təlimi yayılmışdı. Herodotun verdiyi məlumata görə, farslar məbəd tikməzdilər, ibadəti açıq havada keçirirdilər. Onlar müxtəlif təbiət qüvvələrinə sitayiş edirdilər. Günəş, su, ay, külək və s. sitayiş obyektinə çevrilmişdi.

Ehtimala görə, zərdüştlük e.ə. VII əsrdə meydana gəlmişdir. Zərdüştlüyün müqəddəs kitabı Avesta hesab edilir. Avestanın mətnlərindən göründüyü kimi, bu dinin banisi Zərdüşt (Avestada Zaratuştra) olmuşdu. Zərdüştün yaşadığı dövr və dini təlimə başladığı yer mübahisəlidir. Zərdüştün e.ə. VII əsrdə yaşaması ehtimalına üstünlük verilir. Belə hesab edirlər ki, Zərdüşt dini Orta Asiyada, yaxud Şərqi İranda meydana gəlmiş və İranın digər yerlərinə yayılmışdı. Lakin bu müddəa daha çox ümumi mülahizələrdən ibarətdir. İran ərazisində qədim dövrlərdən Anuramazdaya sitayiş əks olunmuşdu. Fərz edirlər ki, Astiaqın dövründə zərdüştlük Midiyada rəsmi dinə çevrilmişdi. Zərdüşt tarixi şəxsiyyət hesab edilir.

İran panteonuna işıq, həqiqət və müqavilə allahı Mitra, su ilahəsi Anahit daxil idilər. Bu allahlara irandilli tayfalar sitayiş edirdilər. Avestada və Haxamanişlər dövründə Ahuramazda (Hörmüzd) qabaqcıl mövqeyə malik idi və baş allah hesab edilirdi. Avestada kainatın və həyatın yaradılması Ahuramazdanın əməli kimi qiymətləndirilir. Haxamaniş kitabələrində isə deyilir: "Böyük allah Ahuramazda bu torpağı yaratdı, bu səmanı yaratdı, insanı yaratdı". Ahuramazda müqəddəs ruhu (Spanta-manyu), Anqro-manyu

(Anqro-maynyu) isə şər ruhu təmsil edirdilər. Bunlar əkiz qardaş hesab olunurdular. Anqro-manyu (sonrakı Əhriman, Əhliman) div (dev) adlanan şər allahlarına başçılıq edirdi. Həqiqətin və xeyrin təcəssümü olan Ahuramazda ilə şər qüvvələri təmsil edən Anqro-manyu arasında əbədi mübarizə gedirdi. Onlar hər ikisi zaman allahı Zrvananın övladları idilər. İnsanlar Anqro-manyu və onun köməkçiləri olan divlərə qarşı mübarizə aparmalı idilər. Zərdüşt təliminə görə, şər ilə xeyir, yalan ilə həqiqət arasında ölüm-dirim mübarizəsi gedirdi. Zərdüştlük dininin ehkamları Avestanın müxtəlif bölmələrində əks olunmuşdur.

Avestanın ən qədim hissəsini qatlar təşkil edir. Qatlar Avestanın Yasna bölməsində təmsil olunmuşlar. Qatlar Zərdüştün təlimindən ibarətdir. Ehtimala görə, qatlar ilk əvvəl şifahi şəkildə ifa olunurdular. Onların yazıya alınmasını Haxamanişlərdən sonrakı dövrə aid edirlər. Zərdüştün təlimində təkallahlıq tərənnüm edilir. O, Ahuramazdanı yeganə ali allah kimi təbliğ edirdi. Zərdüştün təsvirinə görə, xeyir və şər dünyanın əvvəlindən mövcud olmuş və onların arasında mübarizə gedir. İnsanlar həyatda xeyri, yaxud şəri seçməkdə sərbəstdirlər, lakin son məqamda xeyir və həqiqət üçün imkan tapır. Avestada əks olunmuş dialekt leksikasına və ümumi mülahizələrə əsaslanaraq Zərdüştün vətənini Orta Asiyada, yaxud Əfqanıstanda yerləşdirirlər. Bu mülahizə özü mübahisəli qalmaqdadır. Sonrakı İran ənənəsi Rey şəhərini, yaxud Azərbaycanı Zərdüştün vətəni hesab etmişdilər. Qatların dili asanlıqla anlaşılmır. Onun bir çox parçaları müxtəlif cürə başa düşülür, çətinliklə izah olunur.

Yasna maldarlıq təsərrüfat sahəsini təbliğ edir. Zərdüşt "peyğəmbər" kimi çıxış edir, Ahuramazdanı mal-qaranın yaradıcısı kimi qələmə verir. Qatda yazılır: "Biz Ahuramazdanı tərifləyirik, çünki o, mal-qaranı və Artanı, suyu və bitkiləri, işıq və torpağı, bütün nemətləri yaratdı... Mal-qaraya dinc otlaq və yem verməyə çağırırıq". Zərdüştün təliminə görə, mal-qaranın canıyanan sahibi olmalıdır, buna görə Ahuramazda çoban yaratdı. Lakin divlərə (qədim farsca "dayva") sitayiş edənlər çobana zorakılıq edirlər, evləri, kəndləri, vilayətləri və ölkələri talayırlar. Onlara qarşı silahla vuruşmaq, mal-qaranı zorakılıq və qəddarlıqdan qorumaq lazımdır. Yalançılar ölkədə mal-qaranın çoxalmasını istəmirlər. Hakimiyyəti onların əlindən almaq lazımdır.

Qatlar əhalinin maldarlıqla məşğul olduğu dövrü əks etmişlər. Ara müharibələrim nəticəsində əhalinin mal-qarası, davarı, əmlakı talan edilirdi. Burada müharibə törədənlər yalançı, div, Anqromanyunun tərəfdarları kimi şər qüvvələrə şamil edilmişdir. Qatlar, şübhəsiz, sinfi cəmiyyət və müharibələr şəraitini əks etmişlər. Məlum olduğu kimi, İran ərazisi tez-tez İkiçayarası hökmdarlarının basqınlarına məruz qalırdı, ölkə talanırdı, mal-qara aparılırdı. Ölkədə yaranan narazılıq və ehtiyac yeni təlimlərin meydana gəlməsinə şərait yaradırdı, çoxallahlılıqdan tək allaha ibadət bərqərar olurdu. Zərdüşt təliminin İran ərazisində, xüsusilə maldarlıqla məşğul olan dağ əhalisi arasında meydana gəlməsi üçün tarixi şərait mövcud idi. Ola bilsin ki, Zərdüşt təlimi buradan şərqə doğru yayılmışdı. Bu təlimin mahiyyətini xeyir və şərin mübarizəsi təşkil edir: guya varlığın əvvəlində xeyirxah və bədxah ruhlar öz əməllərinə, sözlərinə və təfəkkürünə görə fərqlənirmişlər, biri həyat qururmuş, digəri onu dağıdırmış. Onların arasında "nə fikir, nə təlim, nə arzu, nə əqidə, nə söz, nə əməl, nə inam, nə ruh uyğun gəlmirdi". Təlimə görə, son məqamda yalançılar, şər qüvvələr zülmət padşahlığına, həqiqət tərəfdarları, xeyirxah qüvvələr işıqlı padşahlığa düşəcəkdilər. Qatlarda sinfi cəmiyyətdə mülki bərabərsizliyin, haqsızlığın törətdiyi ziddiyyətlər dini boyalarla və fəlsəfi mühakimələrlə öz əksini tapmışdır.

Zərdüşt bu ziddiyyətlərdən özü üçün çıxış yolu tapır. O, özünü Ahuramazdanın pərəstişkarı elan edir, bu məsləkə sahib olan kəndlərin talanmasını, mal-qaranın oğurlanmasını və aparılmasını pisləyir. Yasnada deyilir: "Mən bu torpaqda mal-qara saxlayan hər bir sahibkara sərbəst hərəkət və azad həyat təmin edirəm... Mal-qaranı tutub aparmaqdan, Mazda məsləkli kəndlərə ziyan vurub talamaqdan imtina edirəm... Mən alçaq, ziyankar, yalançı, bədxah divlərlə birgə olmaqdan imtina edirəm, divlərdən və onların tərəfdarlarından, cadugərlərdən və onların tərəfdarlarından, canlı məxluqa zorakılıq işlədənlərdən imtina edirəm". Nəhayət, Zərdüşt öz təliminə uyğun olaraq yeni əməllərinə sadiq qalacağına and içməli olur: "Mən Mazda inamına sadiq olmağa and içirəm, çünki o, hərbi basqınlara son qoymağa, silahı yerə qoymağa, özününkülər ilə nikah bağlamağa çağırır".

Çox güman ki, Zərdüşt təlimi Midiya irandilli tayfalarının siyasi yüksəlişi zamanı, e.ə. VII əsrdə meydana gəlmiş və formalaşmışdı. Bu təlim yerli (div, dayva) dini dünyagörüşü saxlayan etnoslara qarşı yönəldilmişdi, onlar dinsiz qələmə verilirdi, bütün bəd əməllər onların adına çıxılırdı. Zərdüştün təlimini qəbul etməyənlər, yalançı və şər qüvvə tərəfdarı elan edilirdi. Ahuramazdaya sitayiş edənə axirət dünyasında işıqlı həyat vədi verilirdi. Zərdüşt qədim dini dünyagörüşündən imtina edərək yeni siyasi şəraitə uyğun olaraq Ahuramazdaya inamı və ibadəti seçmişdi.

Avestanın digər bölməsi "Yaşt" adlanır. Burada ayrı-ayrı ilahələrə həsr olunmuş himn və mahnılar toplanmışdı. Biri Mitra allahıdır. Qədim hind-Avropa tayfaları Mitraya sitayiş edirdilər. Lakin yaştlar Mitranın yaradılmasını Ahuramazdanın əməli kimi qələmə verirlər. Mitra çoxlu otlaqlara malik olan ilahi adlandırılır. Mitra insanları qələbəyə aparan, onları dinc və yaxşı həyatla təmin edən qüvvə kimi təsvir edilir. Ahuramazda peyğəmbər Zərdüştə Mitraya sitayiş etməyi tövsiyə edir: "Ey Spitama, Mitraya ibadət eylə. Şagirdlərinə (onun barəsində) danış. (Ey Mitra) sənə Mazda tərəfdarları xırda və iri heyvanları, qanad vuran

ləlәkli quşları ilә birlikdә ehtiram göstәrәcәklәr".

Yaştlar eyni zamanda, Qayamarta (Qaya-Martan) sitayiş etmәyi tövsiyә edir. Qayamart Ahuramazdanın yaratdığı ilk insan olmuşdur. Qaynaq qeyd edir ki, Qayamart "Ahuramazdanın fikrini vә tәlimini birinci eşitmişdi". Qayamart Əhriman (Anqru-manyu) ilә döyüşdә yaralanır, can verәndә "toxumu" tökülür, torpağa çökür. Qırx ildәn sonra torpaqdan Martiya vә Martyanaq göyәrmiş vә insan görkәmi almışlar. Onlardan da Ahuramazda, guya ari torpaqlarını vә etnoslarını törәtmişdi.

Yaştlarda Zәrdüştün şәrәfinә mәdh söylәnilmişdi. Zәrdüşt ilk xeyirxah fikir sahibi, ilk kahin, döyüşçü vә maldar, divlәrdәn (köhnә dinlәrdәn) birinci üz döndәrәn, Ahuramazdaya birinci sitayiş edәn kimi qәlәmә verilmişdir. Zәrdüşt köhnә dinlәr mövcud olan şәraitdә yeni dinin yaradıcısı kimi çıxış edir. İlk zamanlar onun tәliminin әsasını maldarlığı inkişaf etdirmәk vә bununla әlaqәdar şәr qüvvәlәrә qarşı mübarizә aparmaq müddәası tәşkil edirdi.

Avestanın üçüncü bölmәsi Videvdat (Vendidad) adlanır. Bu hissә nisbәtәn sonrakı dövrlәrdә meydana gәlmişdir. Burada zәrdüştlük dininin ehkamları, ayin vә mәrasimlәri әks olunmuşdur. Eyni zamanda, bu hissәdә qәdim әsatirlәr, rәvayәtlәr, hüquq qaydaları özünә yer tapmışdır. Zәrdüşt dindarlarının gündәlik mәrasimlәrdә istifadәsi üçün "Xırda Avesta" tәrtib edilmişdi. Qeyd etmәk lazımdır ki, Videvdat artıq oturaq hәyatı, әkinçilik tәsәrrüfat sahәsini, bolluq yaratmağı tәbliğ edirdi. Mәtn Zәrdüştün suallarına Ahuramazdanın cavabı şәklindә tәrtib olunmuşdur. Sualların birinә ki, harada yaxşıdır, Ahuramazda cavab verir: "Hәqiqәtәn orada ki, ey Spitama Zaratuştra, nә zaman ki, dindar әr әlindә odun, ağac budaqları, süd, hәvәng, dinә inam barәdә müqәddәs söz deyә-deyә, geniş otlaqlı Mitraya vә xoş otarma bәxş edәn Ramana müraciәt edә-edә hәrәkәt edir... Orada yaxşıdır ki, mömin әr ev tikmişdir, onu odla, südlә, arvad-uşaqla, (ev heyvanları) sürüsü ilә tәmin etmişdir. Orada yaxşıdır ki, nә zaman ki, xeyli әkirlәr, taxıl, ot, barlı bitkilәr becәrirlәr, susuz yerә su çәkirlәr, bataqlığı qurudurlar... çoxlu buynuzlu xırda vә iri heyvan saxlayırlar... xırda vә iri buynuzlu heyvanlar çoxlu peyin verirlәr". Zәrdüşt tәlimi dinә sitayiş etmәyә, әkinçiliklә mәşğul olmağa, ailә qurmağa, bir sözlә, zәhmәt çәkmәyә dәvәt edir, torpağa qulluq elәmәyә çağırır. Qaynaq yazır: "Uzun müddәt әkilmәyәn vә әkinçidәn becәrilmәni gözlәyәn, bunun üçün kәndlidәn yaxşılıq arzulayan torpaq qane deyildir, necә ki, uzun müddәt övladsız qalmış qәddi-qamәtli cavan qadın bunun üçün әrindәn yaxşılıq arzulayır... Kim bu torpağı becәrmirsә, o, yaşamaq üçün çarә axtaranlar arasında başqasının qapısına söykәnir, lakin ağız suyu axıdan (yәni dadlı) hәr bir xörәyi onun yanından aparıb, onsuz da hәr şeyi kifayәt qәdәr olana verәcәklәr... Kim әkir, taxıl becәrirsә, o, hәqiqәt әkir (yaradır), Mazda inamını aşılayır, Mazda inamına çörәk verir... Qoy evdә hәmişә un xörәyi olsun ki, divlәri lәrzәyә salsın".

Sonra Zәrdüşt hansı ölkәlәrin yaşayış üçün yaxşı olduğunu Ahuramazdadan soruşur. Ahuramazda belә ölkәlәr cәrgәsindә Ariyanam vayca (Orta Asiyada), Qava-soqdalar diyarı, Margiana, Baktriya, Nisaya (Baktriya vә Margiana arasında), Areya, Araxoziya, Raqa, Varna, Yeddi hind vilayәti, Ranhi ölkәsi vә başqalarının adını çәkmişdir. Bu siyahıda әsasәn irandilli tayfaların, qismәn dә türk etnoslarının yayıldığı, yaxud mәskunlaşdığı әrazilәr vә ölkәlәr tәmsil olunmuşdur. Midiya (Raqa şәhәrindәn başqa), Azәrbaycan burada öz әksini tapmamışdır. Demәli, bu zaman Zәrdüşt tәlimi nә Midiyada, nә dә Azәrbaycanda geniş yayılmamışdı. Lakin İranın başqa ölkәlәrindә olduğu kimi, burada da, dini ayin vә mәrasimlәri kahinlәr yerinә yetirirdilәr. Haxamanişlәrin hakimiyyәti illәrindә kahinlәr maq adını daşıyırdılar.

Çox güman ki, maqlar dini mәrasimlәri keçirәn, ayinlәri qoruyan kahinlәr idilәr. Qaynaqların mәlumatına görә, Midiya tayfalarının birini maqlar tәşkil edirdi. Lakin maqlar din xadimlәri kimi müәyyәn ictimai tәbәqәyә daxil idilәr. İlk maqlar nә Midiyada, nә dә İranın cәnubunda zәrdüştlük dininә xidmәt etmirdilәr. Ehtimal edirlәr ki, mәhz e.ә. VI әsrin sonunda maqlar zәrdüştlük dininә dә xidmәt etmәyә başladılar. Avestada Zәrdüşt kahinlәri atravan adlanırdılar. Atravan "od saxlayan" mәnasını daşıyır. Lakin erkәn zәrdüştlük oda sitayişi әsas müddәa kimi qәbul etmәmişdi. Güman etmәk olar ki, zәrdüştlüyә qәdәrki kahinlәr oda sitayiş edirmişlәr, yәni atәşpәrәst idilәr. Kahinlәr atәşpәrәstlik ehkamını zәrdüştlüyә tәxminәn e.ә. V-IV әsrlәrdә gәtirmişdilәr. Atәşpәrәstlik, qәdim dini ayin kimi, İranda tәmsil olunmuşdu. E.ә. VIII әsr mixi yazılarında od ilә әlaqәdar toponimlәr adı çәkilmişdir. Persepol elam mәtnlәrindә "od saxlayan" kahinlәr yad edilirdi. İlk atәşpәrәstlәr müxtәlif etnik mәnsubiyyәtә malik imişlәr. Bәzi tәdqiqatçılar Midiya maqlarını İran mәnşәli yox, turan (türk) tayfalarına mәnsub edirdilәr. Zәrdüştlüyün yayılması ilә әlaqәdar onun tәlimini qәbul etmiş maqlar İran dillәrini dә bilmәli idilәr, çünki Avesta dili İran dillәri qrupuna aid idi.

Maqlar Haxamaniş şahlarının rәsmi kahinlәri imişlәr. Buna baxmayaraq belә hesab edirlәr ki, Haxamanişlәr zәrdüştlüyü qәbul etmәmişdilәr. Başqa bir mülahizәyә görә, onlar Zәrdüşt dininә sitayiş edirdilәr, çünki I Daradan başlayaraq Haxamanişlәr Ahuramazdanı yeganә böyük allah hesab edirdilәr. Güman edirlәr ki, әhali arasında zәrdüştlük kök salmamışdı. Herodotun mәlumatına görә, farslar mәbәd tikmәzmişlәr, ibadәti açıq havada keçirәrmişlәr. Haxamanişlәr, o cümlәdәn farslar ölünü dәfn edirdilәr, lakin maqlar meyiti basdırmırdılar. Onun qurd-quşa yem kimi qoyurdular, sonra sümüklәri torpağa quylayırdılar. Bu ayin zәrdüştlüyün ilk mәrhәlәsinә xas deyildi. Farslar köhnә allahlara da sitayiş edirdilәr. Erkәn zәrdüştlük dini ayinlәri mәbәddә yox, açıq sәma altında keçirilirdi. Lakin yerli İran әhalisi arasında mәbәdlәrdә oda sitayiş etmәk dini ayini mövcud idi. Yәqin ki, yerli dinlәrin Zәrdüşt dini ayinlәrinә vә

mərasimlərinə təsiri olmuşdu. Maqların oda sitayiş etməsi və sönməz odu məbədlərdə qoruması ayini qədim olmuş, sonralar məbədlərdə oda ibadət zərdüştlüyə də keçmişdir. Ehtimala görə, I Daranın hakimiyyətindən başlayaraq Haxamanişlər erkən zərdüştlüyü qəbul etmişdilər, çünki e.ə. Vl-V əsrlərdə zərdüştlük ehkamları hələ tam formalaşmamışdı.

Maddi istehsal və ixtisaslaşdırma ticarətin genişlənməsinə şərait yaradırdı. Hər vilayət özünəməxsus məhsul ilə tanınırdı. Maqadha metal və düyü ilə məşhur idi. Ölkənin şimal-qərb hissəsi at və arpa, cənubu qiymətli daş, mirvari və şirniyyat ilə, qərbi pambıq və pambıq parçalar ilə fərqlənirdi. Dövlət ticarət işindən böyük gəlir götürürdü. Buna görə dövlət yolların çəkilməsi, bazarda qayda-qanun yaradılması, çəki daşlarının dəqiqləşdirilməsi və ticarət müqavilələrinin bağlanmasına qayğı göstərirdi. Ticarətin inkişafı pul dövriyyəsini genişləndirdi.

Ən geniş yayılmış pul vahidi pana idi. Ölkənin şimal-qərbində Haxamaniş və yunan pul vahidləri də işlədilirdi. Sələmçilik ölkədə vüsət almışdı. Borcun illik faizi müxtəlif idi. Borc faizi 15-60 %-ə çatırdı.

Sənətkarlıq kənd və şəhərlərdə təmsil olunmuşdu. Əsl sənətkarlıq mərkəzləri şəhərlərdə cəmləşmişdi. Burada qara və əlvan metallurgiya inkişaf tapmışdı. Şəhərlərdə dəmirçilik, silah hazırlama, zərgərlik işi, ağac, daş və sümükişləmə, dulusçuluq sənətkarlığı, ətriyyat hazırlama və s. peşə sahələri geniş yayılmışdı. Müxtəlif peşə sahələrinin ittifaqı (şreni) yaranmışdı. Hökmdara, ayrı-ayrı varlılara məxsus sənətkarlıq emalatxanaları vardı.

Qədim İran mədəniyyəti qonşu xalqların mədəniyyətində, bütövlükdə bəşər mədəniyyətinin inkişafında əvəzolunmaz iz buraxmış, onun inkişafına güclü təsir göstərmişdir.


QANADLI ÖKÜZ. II ARTAKSERKSİN SUZA SARAINDA RELYEF. E.Ə. VI ƏSR.


II ARTAKSERKSİN ELAM DÖYÜŞÇÜSÜ. SUZA SARAINDA RELYEF. E.Ə. VI ƏSR.


İRAN DÖYÜŞÇÜLƏRİ.


QANADLI SFİNKS TƏSVİRLƏRİ. SUZA SARAYINDA MİNALI KƏRPİCDƏN PANNO. E.Ə. VI ƏSR.



BİSÜTUN QAYASI ÜZƏRİNDƏ DARANIN TƏSVİRİ. RELYEF.



PERSEPOLDA SARAY KOMPLEKSİNİN XİYABANI. E.Ə. VI ƏSRİN SONU-V ƏSRİN ƏVVƏLİ.



PERSEPOLDA KSERKSİN QANADLI ÖKÜZLƏR ŞƏKLİNDƏ ZƏFƏR DARVAZASI. E.Ə. V ƏSR.



TERRAKOTDAN (GİL) ŞİR BAŞI. DƏYİRMİ MƏBƏDİN FRİZİ. E.Ə. II-I ƏSRLƏR.



QƏDİM NİSA. FİL SÜMÜYÜNDƏN RİTON FRİZİ. E.Ə. II-İ ƏSRLƏR.



FİL SÜMÜYÜ LÖVHƏSİNDƏ HÖKMDAR TƏSVİRİ. E.Ə. II-I ƏSRLƏR.



MƏNSUR TƏPƏ. SAXSI QIRIĞI ÜZƏRİNDƏ KİŞİ SİMASI TƏSVİRİ. E.Ə. II-I ƏSRLƏR.



**NİSA. FİL SÜMÜYÜNDƏ DÜZƏLDİLMİŞ RİTON. E.Ə. I ƏSR - B.E. I ƏSRİ.**

## QƏDİM AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

Müəyyən edilib ki, Azərbaycanda ibtidai icma quruluşu artıq 1.5 mln il qabaq yaranıb, yəni Azərbaycan dünyada ən qədim mədəniyyət ocaqlarından biridir. Bütövlükdə ibtidai icma dövrü 3 dövrə - daş, tunc və dəmir dövrlərinə ayrılır. İbtidai insanların ən qədim məskənləri Qarabağ, Qazax, Naxçıvan, Kəlbəcər, Lerik və Yardımlıda aşkar edilib.

Qarabağda bunlar Azıx, Tağlar, Kəlbəcərdə - Zər mağara məskənləri, Qazaxda - Daşsalahlı və Damcılı, Naxçıvanda - Qazma, Lerikdə Buzeyr mağaralarıdır.

Fizuli şəhəri yaxınlığında Quruçay dərəsindəki Azıx mağarasında alt paleolit (2.5-2.0 mln il-100 min il) yaxşı öyrənilmişdir. Burada ən dərin laylarda Olduvay çınqıl alətlərinə oxşar çaylaqdan düzəldilmiş alətlər tapılmışdır. Bunlar universal alətlər idi. Onlarla kəsir, çapır və digər işlər görürdülər. Bu mağara məskənini M. Hüseynov kəşf edib və uzun illər boyu tədqiq edib. Azıx tapıntıları əsasında Azərbaycanda yaşı 1.5 mln il olan qədim Quruçay arxeoloji mədəniyyətinin mövcudluğu əsaslandırılmışdır.

Min illər ötdü, kobud əl çapacaqları, sonralar isə nacaq, bıçaq, ərsin, biz kimi forma və təyinatına görə müxtəlif alətlər meydana çıxdı. Onları nukleusdan - iri daş özəyindən qopardırdılar.

Daş alətlərlə yanaşı ov obyekti olan çoxdan nəsli kəsilmiş heyvanların sümükləri tapılmışdır. Əsas məşğuliyyət növü yığıcılıq və ovçuluq idi. Həyat insanları kollektivlərdə birləşməyə məcbur edirdi. Bunlar ibtidai insan sürüsü və ya ilk icma adlanan qeyri-sabit birliklər idi. Azıxda yaşı 700 min il olan ocağın izləri aşkar edilib. 1968-ci ildə Azıxda yaşı 350-400 min il olan ibtidai insanın (azıxantrop) alt çənəsinin fraqmenti tapılıb. Bu, dünyada qədimliyinə görə dördüncü olan ibtidai insan fraqmentidir. Beləliklə, Azərbaycan ərazisi ibtidai insanın formalaşdığı qurşağa daxildir.

Azıxantrop tədricən tikinti vərdişləri qazandı, onda dini təsəvvürlər əmələ gəldi (üzərində xüsusi nişanlar olan ayı kəllələri tapılıb), ibtidai incəsənət yarandı. Alt paleolitin sonunda çaxmaq daşından və bazalt daşdan düzəldilən alətlərlə yanaşı obsidiandan (vulkanik-şüşə) düzəldilən alətlər peyda oldu. Obsidiandan dişli ərsin tiyə düzəldirdilər. Alt paleolitin sonunda insan sürüsünü və ilk icmanı daha sabit olan nəsil icması əvəz edir.

Təxminən 100 min il bundan qabaq orta paleolit (mustye) dövrü başlanır və b. e. əvvəl 40-cı minilliyə qədər davam edir. İnsanlar Kiçik Qafqaz, Naxçıvan, Qarabağ və Qazaxın daha geniş ərazilərində məskən salır. Qarabağın Tağlar, Qazaxın Damcılı, Naxçıvanın Qazma mağaralarında külli miqdarda daş alət nümunələri tapılmışdır. Orta paleolit dövründə neandertal adam tipi formalaşır. Orta paleolit dövründə də ovçuluq və yığıcılıq başlıca məşğuliyyət növü olaraq qalırdı. Qafqaz maralı, mağara ayısı və boz ayı, dağ keçisi və vəhşi at-kulan ovlayırdılar. Həmin dövrdə dini təsəvvürlərdə dəyişikliklər baş verir, o dünyaya inam, totemizm, ovsun və bir çox başqa ibtidai din formaları yaranır. Orta paleolitdə insan sürüsünü tədricən nəsil icması başqa cür desək, qəbilə icması əvəz edirdi.

Üst paleolit dövrü e. ə. 40-cı minillikdən XII minilliyə qədər davam edir. Mülayim rütubətli iqlim hökm sürür, fauna və flora dəyişir. Bu dövrün izlərinə Qarabağ və Qazax mağara məskənlərində təsadüf olunur. Təkmilləşdirilmiş ərsin, biz, kənarları diş-diş edilmiş alətlər, uzunsov, dəyirmi və üçbucaq şəkilli alətlər üzə sıxdı. Bu zaman "homo sapiyensin" (ağıllı insan) formalaşması sona yetdi. Nəsil icmasını qəbilə icması əvəz etdi və ana xətti üzrə nəsil-qəbilə icması qəti surətdə yer aldı. Bu, matriarxat dövrü idi. E. ə. 12 minillikdən 8-ci minilliyə qədər mezolit dövrü davam etdi. Bu zaman kaman və oxun kəşf edilməsi ilə ov birinci yerə çıxdı, heyvanları əhliləşdirməyə başladılar, bu da gələcəkdə maldarlığa keçidin əsasını qoydu.

Mezolit dövrünün sonunda ibtidai əkinçiliyin ünsürləri əmələ gəldi, istehsal edən təsərrüfatın əsası qoyuldu, neolit dövründə isə onun formalaşması başa çatdı. Azərbaycanda mezolit dövrü başlıca olaraq Qobustan abidələrində Cəfərqulu Rüstəmov, Firuzə Muradova tərəfindən tədqiq edilmişdir. Qobustanlılar burada 12 min il əvvəl məskən salıb. Ovçuluq, balıqçılıq, yığıcılıqla məşğul olub. Burada, "Öküzlər", "Ana zağa", "Firuz" və digər mağaralarda külli miqdarda çaxmaq daşı, sümük, və obsidiandan düzəldilmiş bıçaq, ərsin, biz, qırmaq, nizə və ox ucluqları və mikrolit alətlər tapılıb. Qobustanda külli miqdarda mezolit dövrünə aid qaya rəsmləri mövcuddur. Onlar totemizm təsəvvürləri, ov səhnələrini və s. təsvir edir. Qobustanın ən qədim qaya rəsmləri mezolit dövrünə aiddir. Mezolit dövründə mərhumun qəbrinə o dünyada istifadə etmək üçün müxtəlif əşyalar qoymağa başladılar. Belə qəbirlər "Firuz" məskənində aşkar edilib. Qobustanda qaya rəsmlərini İ. Cəfərzadə aşkar edib. Mezolit dövrünə aid əmək alətləri və mikrolit alətlər Qazaxda Damcılı mağarasında tapılıb. E.ə. 7-ci minillikdə Azərbaycanda neolit dövrü başlanır. Onun əsas cəhəti istehsal edən təsərrüfatın təşəkkülü və inkişafıdır. Bunu neolit inqilabı adlandırırlar. Azərbaycanda bu proses eneolit dövründə, yəni e. ə. V-IV minillikdə tamamilə başa çatır. İnsan təbiətdən daha az asılı olur. Azərbaycanda əkinçilik və heyvandarlığın inkişafı üçün zəruri şərait mövcuddur. Neolit dövründə Azərbaycanda dulusçuluq və toxuculuq meydana gəlir. Neolit dövründə alətlər əsasən çaxmaq daşından idi. Neolit dövrünün başlıca abidələri Gəncə tərəfdə, Təbriz yaxınlığında və Bakı yaxınlığında Qobustanda aşkar edilib. Qazax rayonunda daş toxa, oraq içlikləri, balta və gürzlər tapılıb. Alətlər əsasən çaxmaq daşı və obsidiandan

düzəldilib. Çaxmaq daşından kənd təsərrüfatı alətləri və obsidiandan səpin və biçin alətləri külli miqdarda Gəncə yaxınlığındakı məskəndə tapılıb.

Eneolit dövründə istehsal edən təsərrüfat daha çox inkişaf edir. İnsanlar ilk dəfə metalla - mislə tanış olur. Lakin daş alətlər hələ də üstünlük təşkil edirdi. Eneolit dövründə əhali surətlə artır. Əsas məşğuliyyət toxa əkinçiliyidir. Gəncə-Qazax, Mil-Qarabağ, Muğan və Naxçıvan bölgələrində, habelə Cənubi Azərbaycanda Urmiya gölü yaxınlığında və Təbriz ətrafında külli miqdarda neolit dövrü yaşayış məskənləri qeydə alınıb. Eneolit dövründə insan çay sahillərində kiçik məskənlərdə yaşayırdı. Çiy kərpicdən tikilmiş evlər dəyirmi formada idi. Evlərdə ocaq və həsir var idi. Kiçik evlər icma torpağında öz sahəsi olan təknikahlı ailə, ər-arvad üçün nəzərdə tutulmuşdu. Əkinçilik və maldarlıqla yanaşı ovçuluq və balıqçılıqla məşğul olmağa davam edirdilər. Sənətlərdən dulusçuluq, toxuculuq, daş və sümük emalı yaxşı inkişaf etmişdi. Toxa əkinçiliyi hökm sürürdü, taxılı qurma oraqlarla biçir, qablarda və ya xüsusi çalalarda saxlayırdılar. Maldarlıq inkişaf edirdi. Həm xırda, həm də iri buynuzlu heyvan, e. ə. V əsrdən başlayaraq at saxlayırdılar. Cəlilabadda Əlikəmək təpəliyində əhliləşdirilmiş at sümükləri tapılıb. Həmin dövrdə misdən yalnız bəzi alətlər düzəldirdilər. Ondan əsasən zinət əşyaları hazırlayırdılar. Qadın əvvəlki kimi cəmiyyətdə aparıcı rol oynayır. Eneolit matriarxatın çiçəklənmə dövrüdür. Külli miqdarda gildən düzəldilmiş qadın fiqurları tapılıb. Eyni zamanda icmanın həyatında ağsaqqallar şurası əhəmiyyətli rol oynamağa başlayır. Dəfn mərasiminə böyük diqqət yetirilirdi. İnsanları evlər arası ərazilərdə, uşaqları isə evin içində döşəmənin altında dəfn edirdilər. Dini mərasimlərdə ovsun böyük yer tuturdu. Qobustandakı bəzi rəsmlər də həmin mərasimləri təsvir edir.

E. ə. IV minillikdə eneolit dövrünü tədricən patriarxata təkan vermiş tunc dövrü əvəz edir. Bu dövr e. ə. II minilliyə qədər davam edir. Azərbaycanda külli miqdarda mis filizi yataqları var ( Naxçıvan, Daşkəsən, Qarabağ, Gədəbəy və b.). Lakin misdən düzəldilən alətlər davamsız olurdu. Misə arsen, sürmə, nikel, sonralar isə qalay kimi müxtəlif aşqarlar əlavə edən insanlar bürünc kimi möhkəm qatışıq əldə etdilər. Ondan başlıca əmək alətləri, silah və zinət əşyaları istehsal etməyə başladılar. Cəmiyyətdə əhəmiyyətli dəyişikliklər baş verdi. Yeni təsərrüfat sahələri yaranır, ictimai və mülki bərabərsizlik artırdı. Azərbaycanda qəbilələr və qəbilə ittifaqları kimi iri etnos-mədəni birliklər yarandı. Azərbaycanda tunc dövrü üç mərhələyə bölünür. Birinci mərhələ (e. ə. IV minilliyin II yarısı - III minillik) Kür-Araz mədəni dövrü kimi məlumdur. Bu dövrün başlıca abidələri məhz burada, Kür və Araz çaylararası ərazidə aşkar edilib. Qarabağ, Naxçıvan, Qazax, Xaçmaz, Şəmkir və Qobustanda həmin dövrün abidələri tədqiq edilib.

Əhali həmin ərazidə sürətlə artırdı. Əgər neolit və eneolit dövrlərində əhali yalnız düzənliklərdə yaşayırdısa, alt tunc dövründə insanlar dağətəyi və dağlıq bölgələrdə məskən saldılar. Sahəsi 3-5 ha olan iri məskənlərdə yaşayırdılar. Adətən çay sahillərində, düşməndən müdafiə üçün əlverişli yerlərdə məskən salırdılar. Bəzi məskənlərdə hətta güclü müdafiə istehkamları mövcud idi. Belə məskənlər Fizulidə, Təbriz yaxınlığında və Urmiya gölü tərəfdə aşkar edilib.

Neolit və eneolit dövrlərində olduğu kimi Kür-Araz mədəni dövründə də evləri çiy kərpicdən, lakin artıq çaylaq daşlarından bünövrə üzərində tikirdilər. Naxçıvandakı II Gültəpəni belə məskən nümunəsi kimi göstərmək olar. Divarlarına ustalıqla mala çəkilmiş, mehrablı, xüsusi böyük ibadət binaları meydana gəldi. Belə ibadətgahlar Naxçıvanda Gültəpə, Xaçmazda Sərkərtəpə, Qazaxda Babadərviş məskənlərində aşkar edilib. Əkinçilik surətlə inkişaf edirdi. Toxanı xış əvəzlədi. Əkin əraziləri genişləndi, süni suvarma meydana gəldi. Şumlamada heyvanlardan istifadə etməyə başladılar. Biçin, üyütmə alətləri təkmilləşir. Yığılma lövhə oraqlar ilə yanaşı bütöv bürünc oraqlar da meydana gəlir. Taxılı nəhəng küplərdə və xüsusi çalarlarda saxlayırdılar. Daş həvəng və dən üyüdənlər meydana gəldi. Maldarlıq da surətlə inkişaf edirdi. Mal-qaranın sayı, cinslərinin çeşidi artır, atdan geniş istifadə olunur, yaylaq və qışlaqlardan istifadə ilə əlaqədar mal-qaranın otlaqlara köçürülməsi yer alır. Birinci ictimai əmək bölgüsü, əkinçiliyin maldarlıqdan ayrılması baş verir. Əmək məhsuldarlığı artımı artıq məhsul ehtiyatlarının əmələ gəlməsinə səbəb oldu, bu da məhsul mübadiləsinə təkan verdi. Maldarlar arasında təbəqələşmə sürətlənir. Mil düzənliyinin Üçtəpə yüksəkliyində aşkar edilmiş qəbilə başçısının məzarı buna sübutdur. Məzar yüksəkliyinin yaşı III minilliyin II yarısı kimi müəyyən edilib. Alt tunc dövründə sənətlər arasında dulusçuluq, metal emalı və toxuculuq daha surətlə inkişaf edirdi. Dulusçuluqda parıltılı və naxışlı qab növləri meydana gəldi. Babadərviş məskəni qazıntılarında dulusçu sobaları, tökmə qəlibləri aşkar edilib. Üstünlük təşkil edən bürünc alətlərlə yanaşı daş və sümükdən düzəldilmiş alətlər də işlənirdi. Qoyunçuluğun inkişafı toxuculuğun da inkişafını sürətləndirdi. Eneolit dövründən fərqli olaraq Kür-Araz alt bürünc mədəni dövründə mərhumları məskənlərdən kənarda dəfn edirdilər. Qəbirlər üzərində təpəliklər yüksəldirdilər. Meyitləri yandırma və kollektiv dəfn etmə mərasimləri meydana gəldi. Əkinçilik, maldarlıq və sənətlərin inkişafı ictimai münasibətləri dəyişdirdi.

İstehsalat daha çox qüvvə və dözüm tələb etməyə başladı. Xış arxasına kişi keçdi, o sürü otarır, dəmirçilik, dulusçuluq edirdi. İqtisadiyyatda aparıcı rola kişi sahib oldu. Beləliklə patriarxat dövrü başladı, kişi ailənin, nəslin başçısı oldu.

E. ə. III minilliyin əvvəlində Azərbaycanda orta tunc dövrü başladı. Bu dövrdə burada ayrı-ayrı etnos-mədəni birliklər meydana gəldi. İctimai və mülki bərabərsizlik gücləndi. Məskənlər daha böyük, qəbilələr

arası əlaqələr isə daha sabit oldu. Naxçıvanda II Gültəpə, Ağdam rayonunda Üzərlik təpə, Göytəpə və Çinartəpə məskənləri, Naxçıvanda Oğlan qala və Çalağan təpə qalaları, Borsunlu, Gəncəçay və digər məzar təpəlikləri həmin dövrün tətbiq edilmiş abidələridir. Artıq 3500 il bundan əvvəl ( e. ə. II minilliyin ortası) Naxçıvan şəhəri meydana gəlmişdir. O, qədim Şərqin şəhər-dövlətlərini xatırladır. Hazırda o, Naxçıvançay və Ceyrançay arasındakı ərazidə yerləşən II Kültəpə kimi məlumdur. O, 10 ha ərazini tutur. Azərbaycanın ilk şəhər-dövlətlərindən birinin mərkəzi olub. Üzərliktəpə, Oğlanqala və Qarakəpəktəpə kimi məskənlərdə güclü müdafiə istehkamları aşkar edilmişdir. Onlar nəhəng daş bloklarından tikilib. Bu məskənlərdəki bəzi binalar bir neçə otaqdan ibarətdir. Ehtimal ki, bu evlər kübar ailələrə məxsus olub. Orta tunc dövründə bağçılıq, bostançılıq, üzümçülük və şərabçılıq meydana gəldi. Süni suvarma qurğuları yaradıldı, əmək alətləri təkmilləşdirildi, xırman lövhələri icad olundu, onlara heyvan qoşurdular. Həmin dövrün məskənlərində iri gil küplərində arpa, buğda və darı qalıqları tapılmışdır. Maldarlıqda xırda buynuzlu heyvan üstünlük təşkil edirdi. Atdan qoşqu və minik məqsədilə geniş istifadə olunurdu. Yun parçaların istehsalı artırdı. Orta tunc dövründə sənət ayrıca fəaliyyət növünə çevrildi. Sənətin kənd təsərrüfatından ayrılması ilə ictimai-icma dövründə ikinci ictimai əmək bölgüsü baş verdi. II Kültəpə məskəninin qazıntılarında da bütöv sənətkar məhəllələri və dulusçu sobaları aşkar edilmişdir. Dulusçuluqda həm oyma, həmdə mineral boyalar çəkmə üsulu ilə müxtəlif naxışlar bəzədilmiş yüksək bədii üslublu məmulatlar yaradıldı. Metaləritmədə mislə qalayın xəlitəsi olan klassik bürünc meydana gəldi. Dəmirçilər tökmə, döymə, qaynaq, basmaqəlib və s. üsullara yiyələndilər. Qızıl və gümüş məmulatlar meydana gəldi. Metaldan silah, alət, məişət əşyaları istehsal edirdilər. Böyük məharətlə işlənmiş külli miqdarda tayı olmayan bürünc məmulatlar tapılmışdır. Qazıntılar zamanı iplikbənd, iynə, cida kimi toxuculuğa aid çoxlu əmək alətləri aşkar edilib. Gürz, dən üyüdən, həvəng və bu kimi daşdan düzəldilmiş bəzi əşyalar da qorunub saxlanırdı. Ovçuluq və balıqçılıq təsərrüfat fəaliyyətinin yardımçı sahəsi kimi qalırdı. Qəbilə başçıları və nəsil ağsaqqallarının hökmranlığı sürətlə güclənirdi. Qəbilə ittifaqları meydana gəldi. Məzarlar güclü təbəqələşmənin mövcudluğuna dəlalət edir. Başçıların məzar təpəliklərindəki dəfn əşyaları zəngin və çeşidlidir. Mərhumların üzərinə çox vaxt qırmızı oxra boyası səpələyirdilər, yandırma mərasimi də geniş vüsət almışdı. Dində şamançılıq və ovsun geniş yayılmışdı. Qobustan, Gəmiqaya və İstisu abidələrinin bir çox rəsmləri buna dəlalət edir. İbtidai incəsənət əhəmiyyətli dərəcədə inkişaf etmişdi. Məmulat zəngin surətdə heyvan, insan təsvirləri ilə, bitkivari və həndəsi naxışla bəzədilirdi.

II minilliyin II yarısından başlayaraq Azərbaycanda ibtidai icma quruluşunun inkişafında son mərhələ başlandı. Onu iki hissəyə - e. ə. XIV-XII əsrlər üst tunc və e. ə. XI –VIII əsrlər alt dəmir dövrlərinə ayırırlar. Dəmirin tətbiqi cəmiyyətdə kənd təsərrüfatının sürətli inkişafı, mübadilənin genişlənməsi, qonşu ölkələrlə əlaqələrin möhkəmlənməsi, qəbilə icmasının süqutu, sinfi cəmiyyətə keçid kimi bir çox dəyişikliklərə gətirib çıxardı. Artıq eneolit dövründə Şərqin bir çox ölkələrində (Misir, Çayarası ərazi) sinfi cəmiyyətin yarandığı məlumdur. Qarabağ, Naxçıvan, Gəncə-Qazax və Şəki-Zaqatala bölgələrində üst bürünc və alt dəmir dövrlərinə aid olan külli miqdarda təpəlik və digər (daş yeşiklər, torpaq qəbirlər) tipli məzarlar aşkar edilib. Burada çoxlu silah, kənd təsərrüfatı alətləri, sənətkar alətləri, zinət əşyaları və s. tapılıb. Həmin dövrün məskənləri də geniş ərazilərdə yerləşirdi. Təsərrüfatda yarımköçəri maldarlıq ön plana çıxır. Maldarlar dağlara qalxır, burada məskən salır və nəhəng qurğular tikirdilər. Atın minik və yük daşıma vasitəsi kimi əhəmiyyəti sürətlə artırdı. Ata sitayiş mərasimləri meydana gəlir, dəfn edilənlərin məzarlarında atları da basdırırdılar. Məzarlarda dəvə skeletləri də tapılıb, bu isə dəvəçiliyin də mövcudluğuna dəlalət edir. Əkinçilik də inkişaf edirdi, suvarma arxları qurulur, şumlama və məhsul yığımı alətləri təkmilləşdirilirdi. Buğda, yarma, darının bir neçə növü becərilirdi. Ehtiyatları nəhəng küplərdə saxlayırdılar. Qazax rayonunun Sarıtəpə kəndində içində taxıl və un qalıqları olan qablar aşkar edilib. Qazıntılar vaxtı üzüm, nar, gilas, şaftalı tumları tapılıb, bu da bağçılığın inkişafına dəlalət edir. Saxsı istehsalatında dulusçuluq kürəsi meydana gəldi, metallurgiyada naxış basma, naxış açma, qaynaq üsulları mənimsənildi. Qızıl və gümüş zinət əşyalarının istehsalı artırdı. Toxuculuq sürətlə inkişaf edirdi. Dəmirin rolu tədricən artır və e. ə. VII əsrdən başlayaraq onun geniş tətbiqi yer alır. Sənətkarlar arasında yalnız alverlə məşğul olan şəxslər meydana gəlir. Beləliklə tacir-alverçilər meydana gəldi. Əvvəllər olduğu kimi evlər çaylaq daşından olan özül üzərində çiy kərpicdən tikilirdi. Ağdamda Qaratəpə kəndi kimi bir çox yaşayış məskənləri qala divarları ilə əhatə olunmuşdu. Kiçik Qafqaz bölgəsində və Naxçıvanda isə nəhəng qala qalıqları qalmışdır. Bütövlükdə memarlığın səviyyəsi həmin dövr üçün çox yüksək idi.

Qəbilə başçılarının hakimiyyətinin güclənməsi onların ilahiləşdirilməsi ilə nəticələnir. Onların məzarı üzərində hündür təpəliklər yüksəldir, ölümündən sonra da onlara sitayiş edirdilər. Bu məzarlar məişət əşyaları, bürünc, qızıl, gümüş əşyalar, külli miqdarda xarici məmulat, bahalı silahlar, zinət əşyaları ilə olduqca zəngin idi. Çox vaxt başçılarla yanaşı onların nökər, kəniz və arvadlarını, habelə sevimli atlarını, bahalı yəhər-yüyənləri ilə birgə basdırırdılar. İnsanlar bütün bunların o dünyada başçıya gərək olacağına inanırdılar. Üst bürünc və alt dəmir dövrünün dini təsəvvürlərində oda, suya, dağlara, meşələrə, bəzi ağac növlərinə, günəşə, aya, ulduzlara sitayiş mövcud idi. Həmin dövrdə Azərbaycan qəbilələrinin qonşu xalqlar və qəbilələrlə əlaqələri genişləndi. Cins mal-qara, sənət məmulatı, ərzaq mübadilə vasitəsinə çevrilir.

Beləliklə, üst bürünc və alt dəmir dövrü ibtidai icmanın süqutu və sinfi cəmiyyətə keçid dövrüdür. Şimalı Azərbaycandan fərqli olaraq Cənubi Azərbaycanda bu proses daha sürətlə gedirdi, burada dövlətlər də daha əvvəl meydana gəldi. Cəmiyyətin alt bürünc dövründə başlamış mülki və ictimai təbəqələşməsi üst bürünc və alt dəmir dövründə güclənir. Azərbaycanın şimalında iri qəbilə birlikləri yaranır. Güclü qəbilələr geniş məhsuldar torpaqları və örüşləri zəbt edirdi. Qəbilə daxilində də təbəqələşmə gedir, zəngin ailələr başqalarından seçilirdi. Dəmir və bürünc alətlərin tətbiqi daha bol ərzaq məhsulları əldə etməyə imkan yaratmışdı. Belə alətlərə malik ailə əvvəllər bütün qəbilənin gördüyü işi yerinə yetirməyə qadir idi. Sürətlə qonşu icması formalaşmağa başladı. Zəngin ailələrin çox otaqlı evləri, çoxlu mal-qarası var idi, onların məzarlarında müxtəlif ləvazimat aşkar olunub. Əksinə, icma üzvlərinin əksəriyyəti müflisləşmişdi. Onların məzarlarında, demək olar ki, heç bir əşya yoxdur. Varlı ailələr məzlumları əlavə işçi qüvvəsi kimi muzdurluğa götürürdü. Qəbilə arası toqquşmalarda əsir alınmış insanlardan da bu məqsədlə istifadə edirdilər. Beləliklə, qullar meydana gəldi. Çox vaxt onları amansızcasına qətlə yetirir və sahibləri ilə yanaşı basdırırdılar. Cəmiyyətin həyatında müharibə böyük yer tuturdu. Odur ki, məzarlarda külli miqdarda qılınc, nizə və ox ucluqları, döyüş baltaları, toppuzlar kimi silahların tapılması təsadüfi deyil. Üst bürünc və alt dəmir dövrünün, demək olar ki, bütün məskənləri güclü qala istehkamlarına malik idi. Qüdrətli qəbilələr zəiflərə zəfər çalaraq onları özlərinə tabe edirdilər. Bu, hərbi demokratiya dövrü idi. E.ə. II minillikdə hökm sürmüş Assuriya çarı Adadnirarinin adı həkk edilmiş muncuğun Xocalıda aşkar edilməsi Şimali Azərbaycan qəbilələrinin başqa ölkələrlə, o cümlədən Ön Asiya ölkələri ilə əlaqələrindən xəbər verir. Daha əlverişli təbiət-iqlim şəraiti, Ön Asiya mədəni mərkəzlərinin yaxınlığı və təsiri, bu mərkəzlərlə daimi əlaqələr Cənubi Azərbaycanda nəsil icmasının süqutunu Azərbaycanın şimal bölgələrindən xeyli əvvəl sürətləndirdi, artıq e. ə. III minilliyin əvvəli, II minilliyin sonunda burada ilk, hələ ibtidai sinfi cəmiyyətlər yarandı. Azərbaycanın şimalında isə bu zaman hələ də qəbilə və qəbilə ittifaqları qalmaqda davam edirdi. Cənubi Azərbaycanın cənub qərb hissəsində sinfi münasibətlər daha sürətlə təşəkkül tapırdı. Burada artıq e. ə. III minillikdə Mesopotamiyanın şəhər-dövlətləri ilə sıx əlaqələri olan ilk dövlət qurumları yaranır.

Beləliklə, Birinci ictimai əmək bölgüsü, şumluq əkinçilik, mal-qara artımı, şumluq torpaqlar və örüşlər uğrunda mübarizə güclü qəbilə birliklərin yaranması prosesini sürətləndirdi. Şumer dastanları və mixi yazı nümunələrində Azərbaycan qəbilələri haqqında ilk yazılı məlumatlarda Mil-Qarabağ bölgəsində yaşayan qarqarlar qəbilələrindən, Urmiya gölündən Cənubda yaşayan lullubi, su, turukki, ondan qərbdə məskən salmış kuti qəbilələrindən bəhs edilir.

Lullubilər döyüşkən qəbilə idi. Bu qəbilə birliyinə su, turukki və başqaları daxil idi. Maldarlıqla məşğul olduqlarından mal-qaranı taxıla dəyişirdilər. Onlar günəşə, aya, məhəbbət və məhsuldarlıq ilahəsinə sitayiş edirdilər.

Aratta. Aratta dağlıq ölkə idi. Türk xalqlarının işlətdikləri Alataa, Alatuu, Alatau, Aladağ və s. sözlər dağ, dağ silsiləsi mənasındadır. Aratta bu sözlərin erkən forması olmuşdur.

Aratta Azərbaycan ərazisində yaranmış ilk qədim dövlət qurumu idi. Onun torpaqları Urmiya gölünün cənub-şərqində yerləşirdi. Aratta dövləti e.ə. III minilliyin birinci yarısında mövcud olmuşdur. Mesopotamiyanın Şumer şəhər-dövlətləri ilə iqtisadi, siyasi və mədəni əlaqələri olmuşdur. Aratta ölkəsini "en", yaxud "ensi" rütbəsi daşıyan hökmdar idarə edirdi. Şumerdə en, yaxud ensi ali kahini-hökmdarı bildirirdi. Aratta hökmdarı türk mənşəli sülaləyə mənsub idi. Ölkənin əsas şəhəri Aratta adlanırdı. Dini idarələrə maşmaş adlanan kahin başçılıq edirdi. Aratta hökmdarı yanında hərb məsələləri üzrə şura fəaliyyət göstərirdi, lakin son qərarı hökmdar özü verirdi.

Şumerdə olduğu kimi, Arattada da çoxallahlılıq mövcud idi. Məbədlər tikilirdi. Arattada ilahə İnannaya sitayiş edirdilər. İnanna Şumerdə məhəbbət və bərəkət ilahəsi sayılırdı.

Lullubi dövlət qurumu. E.ə. III minilliyin ikinci yarısında Azərbaycanın cənubunda, Urmiya gölündən cənubda Lullubi tayfa birliyi yaranmışdır. Artıq e.ə. XXIII əsrdə Lullubi tayfa birliyi dövlət qurumuna çevrilmişdi və ona hökmdar başçılıq edirdi.

Lullubilər Assuriyanın Nuzi şəhərində də məskunlaşmış və yerli hürri tayfası ilə yaxın əlaqədə olmuşlar. Bu şəhərdə həm lullubi, həm də hürri qullarının əməyindən istifadə olunurdu.

Azad lullubilər muzdlu döyüşçü kimi orduda xidmət edirdilər.

Hürrilər onları nullu (nullahhi), yəni yadelli adlandırırdılar. Lullubilərin döyüş məharəti qonşularda vahimə yaradırdı. Bəzən urartulular lullubi etnik adını "düşmən" mənasında işlədirdilər.

Kuti (yaxud Quti) dövlət qurumu. Urmiya gölündən qərbdə və cənub-qərbdə Kuti tayfa birliyi yaşamışdır. E.ə. III minilliyin ikinci yarısında Kuti (yaxud Kutium) dövlət qurumu yaranmışdır.

E.ə. XXII əsrin əvvəlində kutilər Akkad dövlətini süquta uğratmışlar. Bu zaman Kuti dövlətinin sərhədləri şimalda Urmiya gölünün qərbindən cənubda İran körfəzinə qədər uzanmışdır. Kutilər Şumer və Akkadda mövcud olan idarə sistemini saxlamışlar. Ölkə canişinlər vasitəsi ilə idarə edilirdi. Kutilərə tabe olan Şumer şəhər hakimləri ensi rütbəsini saxlamışdılar.

Kuti hökmdarlarının şərəfinə yazılmış qısa mətnli kitabələr akkad dilində tərtib olunurdu. Kutilərin hakimiyyəti illərində Mesopotamiyada şəhərlərarası toqquşmalara son qoyulmuşdur. Yuxarı dənizdən

(Urmiya gölü), Aşağı dənizə (İran körfəzi) qədər uzanan ticarət yollarında əmin-amanlıq yaranmışdır. Mesopotamiyaya xarici hücumların arası kəsilmiş, Urmiya gölü hövzəsi ilə dinc əlaqələr yaranmışdır. Şumer və Akkad gəncləri kuti qoşunlarına xidmətə cəlb olunmuşlar.

Kutilər Mesopotamiya (İkiçayarası) mədəniyyətinə cəlb olunmuşdular. Kuti hökmdarlarının qısa mətnli kitabələri mixi yazılar ilə tərtib olunurdu.

Kutilər Ay allahına, məhəbbət, bərəkət və məhsuldarlıq ilahəsinə sitayiş edirdilər. Onlar Şumerdə ənənəvi məbəd tikintisini davam etdirir, yaxud sökülmüş məbədləri bərpa edirdilər. Kutilər və onların hökmdarları türk mənşəli idilər.

E.ə. III minilliyin sonunda Kuti və Lullubi dövlətləri xırda vilayətlərə parçalandılar.

E.ə. III minillikdə Mesopotamiyada əvvəl Şumer şəhər-dövlətləri, sonra da Akkad dövləti mövcud olmuşdur. Bu dövrdə qədim Azərbaycanın ərazisində yaranmış dövlət qurumları daha çox Mesopotamiya dövlətləri ilə hərbi münaqişələrə girməli olurdular. “En-Merkar və Aratta hökmdarı” dastanına görə Aratta ilə Şumer arasında münasibətlər tez-tez dəyişir, gah düşmənçiliyə, gah dostluğa çevrilirdi. verilmişdir.

E.ə. XXVIII-XXVII əsrlərdə Şumerdə Uruk şəhər-dövləti yüksək inkişaf mərhələsinə çatmışdır.

Lullubi hökmdarları Akkada qarşı döyüşlər aparmışlar. Şumer şəhər-dövlətləri Akkadın hakimiyyəti altında birləşdirilmişdir. Odur ki, lullubilər Akkad müdaxiləsinin qarşısını almaq üçün Mesopotamiyaya hücumlar etmiş, geniş ərazidə ağalıq uğrunda mübarizə aparmışlar. Akkad dövlətinin işğalçı siyasətinə qarşı hərbi ittifaqlar yaranmışdır.

İşğalçılara qarşı uğurlu mübarizə aparmaq üçün Lullubi ərazisindəki xırda dövlət qurumlarını birləşdirmək lazım idi.

E.ə. XXIII əsrin sonu-XXII əsrin əvvəlində Urmiya gölündən cənubda güclü Lullubi dövləti yaradılmışdır.

Hökmdar Anubanininin dövründə dövlət daha da qüvvətlənmişdir. Anııbanininin uğurları “Daş sütun” üzərində mixi yazılarla həkk olunmuşdur. Anubanini böyük dövlət yaratmışdı. Bu dövlət Urmiya gölünün cənub və cənub-şərq bölgələrini əhatə edirdi.

Urmiya gölü yaxınlığında dövlət yaratmış kutilər də Mesopotamiyada baş verən hadisələrə qarışırdılar. Onlar daha çox Akkad ilə hərbi münaqişələrə girirdilər. Kutilər Şumer şəhərləri ilə müttəfiqlik edir, bəzən də onların köməyinə gəlirdilər. Akkad hökmdarı Naram-Suen kuti tayfalarına qarşı düşmənçilik siyasəti aparırdı.

Kuti hökmdarları Mesopotamiyaya yürüşlər edirdilər. E.ə. XX əsrin əvvəlində kutilərin hökmdarı Yarlaçaş Mesopotamiyaya hücum edib Akkad dövlətinə süquta yetirdi. Mesopotamiya 100 ilə yaxın kutilərin hakimiyyəti altında qaldı.

Mesopotamiyada sonuncu Kuti hökmdarı Tirikana qarşı Uruk şəhərində qiyam olmuşdur. Tirikan döyüşdə əsir düşdü. E.ə. XXII əsrin sonunda Mesopotamiyada kutilərin hakimiyyətinə son qoyuldu. E.ə. III minilliyin sonunda Kuti dövləti tədricən zəifləmiş və siyasi qurum kimi süqut etmişdir.

Mesopotamiyada kutilərin hakimiyyəti tənəzzülə uğradıqdan sonra burada III Ur Şumer sülaləsinin hökmdarlığı bərqərar oldu. Bu sülalənin hökmdarları Lullubilər ölkəsinə və qonşu ərazilərə dəfələrlə dağıdıcı yürüşlər etmişlər. Kutilərin cənub torpaqları bu sülalənin siyasi təsiri altına düşmüşdür. Ur hakimlərindən biri “Kutium canişini” və “Su ölkəsinin hökmdarı” rütbəsini daşıyırdı. Lakin e.ə. 2003-cü ildə su tayfaları Elam ilə birlikdə III Ur sülaləsini devirdilər. Su ölkəsi müstəqil oldu. Turukki və su tayfaları Mesopotamiyada baş verən hadisələrə qarışmağa başladılar.

Turukkilər Urmiya gölünün cənubunda yaşamışlar. Onlar Kuti və Lullubi dövlətlərinin tərkibinə daxil idilər. Bu dövlət qurumları süquta uğradıqdan sonra turukki tayfaları müstəqil siyasət yürüdürdülər. Həmin tayfalar Zaqros dağ keçidləri vasitəsilə Mesopotamiyaya daxil olmuşlar.

Aşağı Zab çayının (Dəclə çayının qolu) yuxarı axarında yerləşən ərazilərə gələnlər (kutilər, lullubilər və turukkilər) burada yaşayan tayfalarla ünsiyyətə girərək, həmin torpaqlarda məskunlaşmışlar. Lakin Mesopotamiyanın şimalında yaranmış Assuriya dövləti bu ərazini işğal etmək istəyirdi. Turukkilər müqavimət göstərərək öz torpaqlarını müdafiə etdilər, əks-hücuma keçib assuriyalıların nəzarəti altında olan Şuşarra vilayətini tutdular.

E.ə. II minilliyin əvvəllərində Azərbaycan tayfalarını ayrı-ayrı başçılar, yaxud xırda hökmdarlar idarə edirdilər. Bu dövrdə kuti, lullubi və turukkilərin tayfa birliyi yaranmışdı. Onların ardı-arası kəsilməyən hərbi təzyiqi Assuriya dövlətini zəiflətmişdi. Babilistan hökmdarı Hammurapi (e.ə. 1792-I750) təhlükəni öz ölkəsindən sovuşdurmaq üçün Mesopotamiyanın şimalında baş verən hadisələrə qarışmalı oldu və həmin tayfalara qalib gəldi. Buna baxmayaraq, turukkilər tədricən Babilistan ərazisində də məskunlaşdılar. Qədim Babilistan sənədlərində burada yaşayan tayfalar arasında turukkilərin də adı çəkilir.

E.ə. XIV əsrin sonundan Assuriyanın qüdrəti yenidən artdı. Assuriya hökmdarı I Adadnirari (e.ə. 1307-1275) Azərbaycan ərazisinə bir neçə yürüş etmiş, lakin ölkənin içərisinə girə bilməmişdi. Yerli tayfalar arasında birlik yox idi. Kutilər bir müddət Adadnirarinin hakimiyyətini tanımağa məcbur oldular. Az sonra kutilər üsyan qaldırdılar. Lakin Assuriya hökmdarı I Salmanasar (e.ə. 1274-1245) kutilərin üsyanını yatırdı.

E.ə. II minillikdə qədim Azərbaycan tayfaları turukkilər, lullubilər, kutilər və onlara yaxın olan şubarlar (subirlər) Assuriyanın işğalçılıq siyasətinə qarşı çıxmış və müstəqillik uğrunda mübarizə aparmışlar. Tayfa başçıları və xırda hökmdarlar vahid dövlət halında birləşməmiş, buna görə də Assuriyaya güclü müqavimət göstərə bilməmişlər. Lakin müharibələr qədim Azərbaycan tayfalarının yenidən dövlət halında birləşməsini zəruri edirdi. E.ə. II minilliyin sonu-I minilliyin əvvəlində qədim Azərbaycan yeni dövlət qurumlarının meydana gəlməsi ərəfəsində idi.

Bütün xalqlar özlərinin mədəniyyətlərini yaratmışlar. Xalqların mədəniyyətlərini «zəngin» və yaxud kasıb» mədəniyyətlərə bölmək düzgün olmazdı. Bir sıra mədəniyyətlər ciddi tədqiq edildikdən sonra onların nə qədər zəngin olduğu aşkar olur. Elmi ədəbiyyatda ən çox öyrənilən Misir, Hindistan, Çin, İran, Yunan mədəniyyətləri ilə yanaşı, öyrənilməyən, yaxud da az öyrənilən, ona görə də az təbliğ olunan, tarix, ədəbiyyat və s. dərsliklərə düşməyən mədəniyyətlər də vardır. Belə mədəniyyətlərdən biri də Azərbaycan mədəniyyətidir. Azərbaycan mədəniyyət tarixinin ümumtürk mədəniyyəti kontekstində öyrənilməsi olduqca məqsədəuyğundur. Coğrafi amil də nəzərdən qaçırılmamalıdır. Məlum olduğu kimi, türk xalqlarının böyük əksəriyyəti (türk dilinin bu və ya digər dialektində danışan xalqların ümumi sayına görə təxminən yarısı) keçmiş SSRİ ərazisində yaşayır.

Şübhəsiz, Şərqi Sibirdən Baltik dənizinə qədər uzanan ərazilərdə məskən salıb yaşayan bütün böyük və kiçik türk xalqları bir ana kök üzərində meydana gəlmişdir. Ana türk (prototürk) cəmiyyəti parçalanıb dağıldıqdan sonra yaxın-uzaq ölkələrə yayılmış, vahid siyasi, iqtisadi, mədəni əlaqələr kəsilmiş, hər bir türk qəbiləsinin tədricən özünəməxsus mədəniyyəti, iqtisadiyyatı və siyasi dünyagörüşü formalaşmağa başlamışdır. Nəticədə qədim türk xalqları həm əsarətə aldıqları, həm də əsarətinə düşdükləri xalqların dinləri, adət-ənənələri və s. ilə tanış olmuş, onların mühüm mədəni ünsürlərini mənimsədikləri kimi, özlərinin də mədəniyyətini onlara mənimsətmişlər. Qonşu xalqlarla qarışmaq nəticəsində onların bütün mədəni-mənəvi sahələrində olduğu kimi, hətta antropoloji quruluşlarında belə ciddi dəyişikliklər baş vermişdir. Bütün bunlara baxmayaraq, bir ana kökdən ayrılan həmin qohum türk qəbilə və xalqlarını birləşdirə biləcək ən qədim xüsusiyyətlər məhz onların dilində, folklorunda və mifologiyasında qorunub saxlanmışdır.

Azərbaycan mədəniyyəti dörd inkişaf mərhələsi keçmişdir. Birinci mərhələ ümumtürk, ümumbəşəri, arxaik-totemistik inkişaf mərhələsidir. Burada mifologiyada bir sıra heyvanlar, xüsusilə öküz mifi başlıca yer tutur. İkinci mərhələ qurd görüşünün öküz mifizmi ilə çarpazlaşması mərhələsi adlandırmaq məqsədəuyğundur. Mədəniyyətin həmin inkişaf mərhələsi həqiqətlərlə yarımhəqiqətlər şəklində bizə gəlib çatan erkən xaqanlıq-anaxaqanlıq və ataxaqanlıq, eləcə də daş kitablar və abidələrdə tarixi iz qoymuş xaqanlıq əxlaqi-fəlsəfi dünyagörüşü ilə bağlıdır. Mədəniyyətin üçüncü inkişaf mərhələsi zərdüştlük - maqların dini təlimi - xeyir və şərin əbədi mübarizəsi dövrü ilə əlaqələndirilməlidir.

Dördüncü inkişaf mərhələsi islamın Azərbaycanda yayılmasından başlanır. Həmin dövrləri bir neçə mərhələyə də bölmək mümkündür.

Azərbaycan ərazisində Manna, Midiya, Atropatena və Albaniya dövlətləri fəaliyyət göstərmişdir. Lakin hələ dövlət meydana gələnə qədər Azərbaycanın ilk sivilizasiya mərkəzi olması arxeoloji qazıntılar sayəsində sübut edilmişdir. Quru-çay və Azıx mağarası sakinlərinin hazırladıqları ilk əşyalar kobud çapacaqlar, müxtəlif qəlpələrdən düzəldilmiş qazıyıcı və deşici alətlər olmuşlar. Onların bir çoxunun ağırlığı 4-5 kq-dır.

Arxeoloqlar Qazax rayonunda Damcılı, Daşsalahlı, Tağlar mağaralarında yüz səksən-iki yüz min il bundan öncə, insana daha çox bənzəri olan məxluqların yaşadığını aşkar etmişlər. Azərbaycan ərazisində şüurlu insan (homo sapiyens) otuz-qırx min il bundan qabaq təşəkkül tapmışdır. Bu dövrdə insanlar daha mükəmməl ov aləti - ox ilə yayı icad etmişdilər. Şüurlu insanlar hələ on min il bundan əvvəldən başlayaraq Qobustan qaya rəsmlərini yaratmışlar. Qayaların üzərində yaradılmış müxtəlif rəsmlər - ov səhnəsi, yallı getmək və s. həmin dövrdə yaşayan insanların şüurunun yüksək səviyyədə olmasını göstərir. Qobustan uzun dövr ərzində yaşayış məskəni olaraq qalmışdır. Maldarlığın, əkinçiliyin meydana çıxdığı (VI minillikdən) və ondan sonrakı dövrdə bu insanların qayalar üzərində qoyub getdikləri misilsiz qiymətə malik dilsiz şahidləri onların dənizçiliklə də məşğul olduqlarını göstərir. Qayalar üzərindəki qayıq rəsmi, qayığın baş tərəfində günəş təsviri bu torpağın aborigenlərinin dünyanın ən qədim mədəni xalqlarından biri olan şumerlərlə bilavasitə əlaqədə olduqlarına dəlalət edir. Abşeronda, qədim Naxçıvanda, Gəmiqayada, Kəlbəcər ərazisində qaya rəsmləri kifayət qədərdir.

Oddan istifadənin başlanması, ilk geyimlər, ilk yaşayış yerinin salınması, ilk nəqliyyat vasitələrindən istifadə olunması, müxtəlif əmək alətlərinin hazırlanması, gil qablar, heyvanların əhliləşdirilməsi və s. sivilizasiyaya doğru böyük addımların atılması hesab olunmuşdur.

Azərbaycan dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Qobustan qaya rəsmləri e.ə. XIII-X minilliyə aiddir. Onlar siluet şəklində ön, arxa və yan tərəfdən təsvir edilmiş, kürəklərində kaman olan ovçuların sxematik təsvirlərindən ibarətdir. Son mezolit dövründə (e.ə. X-VIII minilliklər) yaradılmış əzəmətli öküzlərin realistik qaya təsvirləri də diqqətəlayiqdir. Bu təsvirlər təxminən öküzlərin özü boyda cızılırdı.

İbtidai insanların primitiv şəkildə silahlanması və vəhşi öküzlərin qüvvətli heyvan sayılması ovçuları gələcək ovlara çox diqqətlə hazırlaşmağa və sonsuz məşqlər keçirməyə məcbur edirdi. Bu məşqlər isə sonralar ayinlərə çevrilirdi. Dini görüşlər formalaşdıqdan sonra həmin ayinlər sehrbazlıq ayinlərinə çevrilirdi. Əcdadlarımızın ibtidai qəbilə quruluşundakı totemistik təsəvvürləri, ayrı-ayrı heyvan və bitkilərin ilahi qüvvəsinə insanlıq əqidəsi, eneolit dövründən, mis-daş dövründən başlayaraq yayılmışdır. Totemizm ibtidai insanları canlı obyektiv real varlıq ilə, heyvanlar aləmi ilə möhkəm surətdə bağladı. Ruhlar kimi totemlər də toxunulmaz idi. Totemizm ideyaları qədim əcdadlarımızın yaradıcılıq təfəkkürünə təsir göstərmiş, heykəltəraşlıq və folklor sahəsində, bir sıra maraqlı sənət əsərlərinin yaranmasına səbəb olmuşdur. Qədim türk qəbilələrində hər totemin plastik obrazı yaradılırdı. Həmin fiqur çadırın yuxarı başında asılırdı. Bu ilahi fiqurlarda bəzən zoomorf və antropomorfik ünsürlərin birləşdiyi özünü göstərir, yəni fiqurlarda həm heyvani, həm də insani xüsusiyyətlər vardır. Belə totem fiqurlarında insan şəklinin görünməsi göstərir ki, onlar xalis heyvan fiqurlarına nisbətən daha sonralar, eramızın ilk əsrlərində yaradılmışdır.

Totemizm qədim xalq teatrı tamaşasına böyük təsir göstərmişdir. Bunlardan biri kəndirbaz oyunu idi. Adətən oyunçular heyvan dərisi geyərdilər. Novruz-Bahar bayramlarında geniş yayılmış kos-kosa oyununu götürək. Kos-kosa tamaşasının mənşəyi b.e. birinci əsrlərinə aparıb çıxarır. O vaxtlar belə tamaşalar qəbilə miqyasında daha əzəmətli dini ayin mərasimlərində keçirilərək məhsuldarlıq, bolluq, artım və su təsərrüfatı ilahəsi olan Anahitə həsr edilirdi. Kos-kosa oyunu bizə gəlib çatmış həmin ayin mərasiminin bir hissəsini təşkil edir. Qədim Azərbaycanda müxtəlif totemlərin heykəlləri, o cümlədən bolluq ilahəsinə həsr olunmuş heykəllər də yapılırdı.

Qədim Azərbaycanda animizm də xeyli yayılmışdı. Mürəkkəb xarakterli dini əqidə hesab edilən animizm totemizm dini mərhələsindən sonra yetişmiş, mücərrəd təfəkkürün məhsuludur. Animistik təsəvvürlər ruhun varlığını, ruhun daimliyini və onun hərəkətdə olduğunu əsas tutur. Əslində ruhlara inanmaq kimi sadəlövh, ibtidai fikirlər çox sonralar yaranmış mürəkkəb xarakterli dinlərin (atəşpərəstlik, islam və s.) ideyaları üçün başlanğıc və möhkəm bünövrə olmuşdur.

Magiyalar – sehrbaz təlimləri daima iki istiqamətdə inkişaf etmişdir: ağ sehrkarlıq, yəni xeyir qüvvələrə xidmət edən sehrbazlıq və qara sehrkarlıq, yəni şər qüvvələrə kömək edən sehrkarlıq. Əcdadlarımız ruhları mühüm keyfiyyətləri olan, xarakterik rəngləri və hətta cinsləri olan konkret obrazlar kimi təsəvvür edirdilər.

İbtidai dinlər inkişaf edərək Azərbaycanda atəşpərəstlik formasında yayılmağa başlamışdır. Bu din ibtidai icma quruluşunda yaranmış və sonrakı quldarlıq dövründə inkişaf etmişdir. O, ilk feodalizm dövründə qədim İran Azərbaycanı ərazisində hakim dövlət dini səviyyəsinə qədər yüksəlmişdir.

Azərbaycanda Zərdüştiliyin inkişafı əsrlərlə davam etmişdir. «Avesta»da baş allah, xeyir allahı Ahura Məzda, şər ahı isə Anqra Manyu adlanır. Qədim yunan alimləri bu allahların adlarını təhrif edərək, yunanlaşdıraraq, onları bütün dünyaya Hörmüz və Əhrimən adları ilə tanıtdırmışlar.

Zərdüştlüyün qalıqları indinin özündə də Azərbaycanda yaşamaqdadır. VII əsrdən başlayaraq Azərbaycanda İslam dini yayılmağa başlamışdır. Bu dövrdə ərəbdilli, farsdilli ədəbiyyatla yanaşı, türkdilli ədəbiyyat da geniş surətdə inkişaf etdirilmişdir.

Memarlıq, heykəltəraşlıq, rəssamlıq, musiqi və mədəniyyətin digər növləri böyük inkişaf yolu keçmişdir. Qədim dövrlərdə Azərbaycanın cənub və şimal hissəsi iqtisadi və siyasi cəhətdən müxtəlif inkişaf yolları keçmişdir. Belə ki, Azərbaycanda məhsuldar qüvvələrin yüksəlişi və nəsli quruluşun parçalanıb bölünməsi sürətlə baş verdiyindən orada qəbilə birləşmələri daha erkən yaranmışdı. E.ə. III minilliyin sonunda meydana gəlmiş Manna qəbilələrinin ittifaqı əsasında e. ə. IX əsrdə Urmiya gölünün ətrafında qüdrətli Manna dövləti yaradılmışdır. Paytaxtı İzurtu şəhəri olmuş bu dövlət ə. e. IX-VII əsrlərə qədər davam etmiş və Assuriya, Urartu kimi dövlətlərlə siyasi və mədəni əlaqədə olmuşdur. Mannalılar yüksək səviyyəli mədəni nailiyyətlər əldə etmiş, onların yaratdığı mədəniyyət və incəsənət qonşu xalqlara, xüsusilə midiyalılara və köçəri skif tayfalarına öz qüvvətli təsirini göstərə bilmişdi. Midiya dövlətinin mövcud olduğu vaxtda da (e. ə. VII-VI əsrin ortaları) Manna incəsənətinin bədii ənənələri davam etdirilmişdir. Bu xüsusiyyəti nəinki Midiya incəsənətində, həmçinin qədim İranın Əhəmənilər sülaləsi mədəniyyətində də izləmək olur.

İranın qədim yunanlarla müharibələri (e.ə. V əsr) və daha sonralar İranın makedoniyalı İsgəndər tərəfindən zəbt edilməsi nəticəsində Şərq və antik ölkələrinin mədəniyyəti bir-birinə xeyli yaxınlaşdı. Bu zaman Şimali Azərbaycan istər iqtisadi və istərsə də siyasi inkişaf baxımından ölkənin cənub hissəsindən xeyli geridə qalırdı. Həmin gerilik, söz yox ki, mədəni inkişafda da özünü göstərirdi.

Yunan tarixçiləri ilk dəfə e. ə. IV əsrdən başlayaraq qədim Alban qəbiləsinin fəaliyyəti haqqında yazmağa başlamışlar. Bu qəbilənin adı ilə əlaqədar olaraq Şimali Azərbaycan (Dağıstanın cənub hissəsi daxil olmaqla) Albaniya adlanmağa başlayır. Sonralar tədqiqatçılar bu ölkəni Qafqaz Albaniyası adlandırmışlar. Qafqaz Albaniyası münbit torpaqlara, suvarma arxları üçün bol su verən çaylar və başqa təbii zənginliklərə malik olmuşdur. Bu ölkədə qəbilə ittifaqları e. d. I minilliyin ortalarında yaranmağa başlayır ki, bunun nəticəsində dövlət quruluşu Cənubi Azərbaycana nisbətən xeyli gec vaxta - e. ə. I əsrə təsadüf edir.

Qədim Azərbaycan incəsənətinin tarixi bu ölkədə dövlətin yaranması tarixindən daha qədimdir. Müxtəlif incəsənət növləri ilə tanışlıq bizi uzaqlara, ibtidai icma quruluşunun dərinliklərinə aparıb çıxarır. Qədim Azərbaycan incəsənətinin inkişafı üç böyük dövrü əhatə edir: 1. Alban dövründən əvvəlki incəsənət (e. ə. IV əsrə qədər); 2. Alban dövrü incəsənətinin ilk, klassik mərhələsi (e.ə. IV-e. I əsri); 3. Alban dövrü incəsənətinin ikinci mərhələsi (I-VII əsrlər).

Alban dövrünün incəsənəti daha qədim dövrlərin incəsənətindən doğduğuna baxmayaraq, yeni tarixi şəraitlə əlaqədar olaraq, mədəniyyətimizi yeni keyfiyyətlərlə zənginləşdirmişdir. Bu dövrün incəsənəti tarixdə ilk dəfə dini təsəvvürlərin zəncirini qırmış, sənətə yeni, dünyəvi və nikbin xüsusiyyətlər gətirmişdir.

Alban dövrünün mühüm xüsusiyyətlərindən biri də sənətkarların müxtəlif növ yeni materiallara cəsarətlə müraciət etməsidir. Daha qədim mərhələlərin dini səciyyəli təsvir motivləri bu dövrdə dekorativ-ornamental motivlərə çevrilməyə başlamışdır. Alban dövrü incəsənəti özünün bir sıra mütərəqqi sənət ənənələri və yaradıcılıq prinsipləri ilə orta əsr incəsənətimizin inkişafı üçün möhkəm bünövrə yaratmışdır. Bütün bunlara görədir ki, bu dövr qədim Azərbaycan incəsənəti tarixində əsas və başlıca mərhələ kimi qəbul edilir və incəsənətimizin daha qədim inkişaf mərhələləri hələlik, şərti olaraq, «Alban dövründən əvvəlki incəsənət» kimi öyrənilir.

Alban dövründən əvvəlki incəsənət XII minillikdən başlayaraq, e. ə. IV əsrə qədər olan uzun bir mərhələni əhatə edir. Həmin dövrün başlanğıcında (Mezolit dövründə) yaşamış qədim insanlar ibtidai icma quruluşunun ilk pilləsində baş vermiş tarixi hadisələrin şahidi olmuşlar. Onlar madərşah-ana nəsli dövrünün daş alətləri ilə vidalaşmamış mis-daş dövründə (eneolit) yeni kəşflərə nail olmuşlar. Sonrakı tunc dövründə (e. d. III minilliyin ikinci yarısı və II minillik) isə qədim əcdadlarımız pədərşahi-ata nəsli dövrünün qanunlarına tabe olmuş, metaldan qüdrətli istehsal alətləri yarada bilmişlər. Dəmir dövründə (e. ə. I minillik) bu alətlər daha da təkmilləşmiş, tuncdan, əsasən, dini əşyaların yaradılması və bəzək məqsədləri üçün istifadə edilmişdir. Bu dövrdə Azərbaycanın qədim sakinləri məhsuldar qüvvələrin inkişafı, əmək alətlərinin təkmilləşməsi nəticəsində ibtidai icma quruluşu ilə tədricən vidalaşmışlar. Nəzərdən keçirdiyimiz bu uzun dövr ərzində qədim qəbilələr yaşayış məskənləri və müdafiə tikintiləri yaratmışlar ki, bu da əcdadlarımızın memarlıq sahəsindəki ilk təcrübələri olmuşdur. Onlar eyni zamanda rəssamlıq sahəsində də bacarıqlarını sına-yaraq, qayalar üzərində heyvan və insan təsvirləri cızmışlar. Yurdumuzun ibtidai insanları əşyaların davamlılığına və gözəlliyinə diqqət yetirərək ürəyəyatan, gözəgəlimli dulusçuluq məmulatı, bəzəkli metal alətləri və s. hazırlamışlar. Qədim həmyerlilərimiz özlərini bəzəməyi də yaddan çıxarmamışlar. Onların yaratdığı tunc kəmərlər və nəfis zərgərlik şeyləri qiymətli sənət əsərləridir. Əcdadlarımızın minilliklər ərzində tərtib etdikləri piktoqrafik, təsvirli yazılar ölkəmizdə ibtidai insan cəmiyyətinin mədəni inkişafını əyani surətdə göstərən ən yaxşı nümunələrdir. həmin piktoqrafik yazılar yazı mədəniyyətimizin tarixini mis dövründən (e. ə. IV minillikdən) başlamağa imkan verdiyi üçün dünyəvi əhəmiyyətə malik tarixi abidələrdir.

Azərbaycanın coğrafi mövqeyi və təbii zənginlikləri memarlığın təşəkkülünə və inkişafına müsbət təsir göstərmiş amillərdəndir. Ölkədə müxtəlif növ inşaat materiallarının, cürbəcür daşların və ağacların, gil, əhəng və gəcin bolluğu tikinti işləri üçün şərait yaratmışdır.

Mağaralar. Azərbaycan ərazisində tapılmış mağaralar ən ibtidai və ən qədim insan məskənləri kimi qiymətlidir. Belə abidələrə misal olaraq, Qazax rayonunda Aveydağda tapılmış iki mağaranı və Fizuli şəhərinin yaxınlığındakı Azıx mağarasını göstərmək olar. 215-220 m uzunluğunda olan Azıx mağarası Azərbaycan ərazisində ən böyük mağaradır. Onun böyük otaqlarında çoxlu qaya rəfləri vardır ki, bunlardan bəzilərinin altında 100-150 adam yerləşər. Bu əzəmətli mağaranın divarlarını çoxlu təbii stalaktit formalar bəzəyir ki, bunlardan sonralar orta əsr memarlığımızda da geniş surətdə istifadə edilmişdir.

Qobustanın «Böyükdaş» deyilən hissəsində də mağaralar vardır. Burada təbii mağaralarla yanaşı, qayaların irəliyə doğru uzanmış çıxıntılarının əmələ gətirdiyi süni mağaralar da tapılmışdır. Bu tipli mağaraların qara dam yaşayış evlərinin ən ibtidai forması olduğu güman edilir.

Daş dövrü üçün xarakterik olan təbii və süni mağaralar Gəncəçay ətrafında, Qubadlı, Zəngilan, Qonaqkənd, Zuvand, Mərəzə və başqa yerlərdə aşkar edilmişdir.

Meqalitik abidələr. Yunanca meqa - böyük, litos - daş deməkdir. Ona görə də böyük qaya parçalarından qurulmuş qədim abidələrə meqalitik abidələr deyilir. Meqalitik abidələrin bir çox növləri vardır. Onlardan menhirləri, dolmenləri, kromlexləri, daş qutuları, daş xiyabanları, qalereyaları göstərmək olar. Bəzən siklopik tikintiləri də meqalitik abidələrə aid edirlər.

Meqalitik abidələr Avropanın bir çox ölkələrində və Krımda aşkar edilmişdir. Qafqaz ərazisində də meqalitik abidələrin müxtəlif tipləri tapılmışdır. Belə abidələr Azərbaycan ərazisində də çox yayılmışdır. Əksər hallarda onlar dəfn kultu ilə əlaqədar olaraq yaradılmışdır. Belə nəhəng abidələrin daşlarının ağırlığı 40, 100, 300 ton olduğunu nəzərə alsaq, onların yaradılmasında külli miqdarda insan qüvvəsinin sərf edildiyi aydın olar. Ona görə də onların icma abidələri olduğu və ictimai xüsusiyyət daşıdığı güman edilir. Meqalitik abidələr daş dövrünün sonunda meydana çıxmış, tunc dövründə isə daha çox yayılmış memarlıq nümunələridir.

Menhirlər şaquli olaraq yerə basdırılmış daşlara deyilir. Menhir fransız sözü olub, (men-daş, hir-uzun)

uzun daş mənasında işlənir. Azərbaycanda çoban daşı adı ilə məşhur olan belə abidələrə dağ və dağətəyi zonalarında rast gəlmək olur. Onların hündürlüyü əksər hallarda bir metr və bəzən də daha çox olur. Menhirlərə ancaq qəbiristanlıqda təsadüf edilir. Arxeoloqlar müəyyən etmişlər ki, menhirlər tunc dövründən sonra öz əhəmiyyətini itirmiş tarixi abidələrdir. Qədim qəbiristanlıqlarda cərgələrlə düzülmüş bu şaquli, yonulmamış daşlar ölülər kultu ilə əlaqədar olmuşdur. Belə güman edilir ki, hər daş ölən adamı təmsil edərək onu bu dünyada guya əbədi olaraq yaşadacaqmış. Göründüyü kimi, menhirlər ilk insan heykəlləridir, xatirə səciyyəli abidələrdir. Maraqlıdır ki, tədqiqatçılar belə daşlar arasında, ibtidai şəkildə olsa da, kişi və qadın heykəllərinə rast gəlmişlər.

Qədim Azərbaycanda uzun zaman istehsal alətlərinin sabitliyi, ictimai formasiyaların dəyişməməyi nəticəsində əmələ gəlmiş konservatizm, köhnəliyə, keçmişə pərəstiş əhval-ruhiyyəsi qüvvətli şəkil alır və ibtidai insanların mənəvi aləminə, şüuruna, ideologiyasına təsir edirdi. Bunun nəticəsində ortaya çıxmış atalar kutu ibtidai icma, qəbilə ağsaqqallarına, başçılarına qarşı daimi hörmət və pərəstişi qanuniləşdirmişdi. Ağsaqqallara sözsüz tabelik və pərəstiş onlar öləndən sonra da davam edirdi. Tez-tez onların qəbrinə yemək qoymaq, çətin günlərdə məsləhət almaq üçün onların qəbrinə müraciət etmək atalar kultunun, əcdad kultunun nəticəsi idi. Odur ki, qədim insanlar qəbiristanlıqdakı menhirlərin altında dəfn edilmiş babaların köməyinə inanır, torpağın münbitliyi, yağışın çoxluğu, məhsulun bolluğu işində onların iradəsinin həlledici roluna etiqad edirdilər. Bu etiqad ikinci bir əqidəni - ölülər kultunu yaratmış oldu. Ənənəvi olaraq davam etmiş bu ideologiyanın, konservatizmin təsirinin nəticəsidir ki, Azərbaycanın bir çox rayonlarında qədim menhirlər müqəddəsləşdirilmiş və indi də pir kimi tanınmaqdadır.

Menhirlərin Azərbaycanda dəmir dövrünün sonunda (e. ə. I minilliyin sonu, eramızın ilk əsrləri) yaradılmış insan heykəlləri ilə müəyyən yaxınlığı vardır. Bunu aydınlaşdırmaq üçün bir daha ulu babalarımızın yaratmış olduğu və Şamaxı rayonundan (Xınıslı, Dağkolanı və digər kəndlərdən) tapılmış daş heykəlləri nəzərdən keçirək. Belə heykəllər döyüşçülərin qəbri üstündə qoyularmış. Menhirlərdə olduğu kimi, bu heykəllər də ölmüş döyüşçünün özünü təmsil edirdi. Bu heykəllərin qoyulmasından məqsəd elən adamın ruhunun gəlib həmin daş fiqurda qərar tutması üçün şərait yaratmaq idi. Beləliklə, qədim dəfn ayininə əsasən mərhumun özü də öz dəfn mərasimində iştirak edə bilirdi.

Göründüyü kimi, menhirlər ilə qədim türk heykəllərinin ideoloji əsası eynidir. Hər ikisi animistik təsəvvürə, insan öləndən sonra onun ruhunun əbədi yaşayacağı təsəvvürünə əsaslanır. Bu baxımdan güman etmək olar ki, haqqında danışdığımız oğuz heykəlləri daha qədim olan menhirlərin davamıdır. Menhirlər və daş heykəllər xalqımızın ən qədim memorial-xatirə abidələrindəndir.

Azərbaycan ərazisində menhirlərə bənzər, lakin başqa kult ilə, fallos kultu ilə əlaqədar olaraq yaradılmış daşlar da vardır. Fallekolit daşlara Ağdam rayonunda təsadüf edilir. Onlar su arxları, bərəkət və məhsuldarlıq əqidəsi ilə bağlı abidələrdir.

Balıq kultu Azərbaycanda ən qədim kultlardandır. O, su təsərrüfatı və əkinçiliyin inkişafı ilə əlaqədar olaraq ortaya çıxmışdır. Balıq bolluq, bərəkət və var-dövlət simvolu kimi həmişə bahar və məhsuldarlıq bayramında süfrəmizin bəzəyi olmuşdur.

Qədim menhirlər və fallekolit daşlar sonralar yaranmış, hər dərdin əlacını «verən», hər arzunu yerinə «yetirən» pirlərin ideoloji əsası və onların ilk ibtidai formaları olmuşdur. Belə «müqəddəs» abidələrin şərəfinə qurban kəsmək ənənəsinin də kökləri çox qədimdir.

Dolmenlər daşların şaquli vəziyyətdə yerə basdırılması nəticəsində yaranmış, hər tərəfi bağlı düzbucaq qəbirlərdir. Onların üstü sal daşla örtülür. Dolmen termini tol (masa) və men (daş) fransız sözlərinin birləşməsindən alınmışdır. Onların qurulmasında 10 t ağırlığı olan nəhəng daşlardan istifadə edilmişdir. Bu qəbirlər tək, ikimərtəbəli və dəhlizlə birləşən qəbirlər sırası şəklində olur. Belə abidələr tunc və ilk dəmir dövrünün maraqlı memarlıq tiplərindəndir. Dolmenlərdən ibtidai icma quruluşunun məbədləri kimi də istifadə edilmişdir. Dolmenlər icma ağsaqqallarının axirət evi kimi yaradılmışdır. Ona görə də onların ön tərəfindəki daşda dairəvi və ya oval şəkilli çox kiçik bir pəncərə nəzərə çarpır. Ölülərin ruhu guya bu pəncərədən həm içəri girib çıxırmış, həm də buradan onlara yemək və içmək verilirmiş. Güman edilir ki, qədim insanlar dolmenlərdən yaşayış mənzili kimi də istifadə edirmişlər.

Belə abidələrə Avropa, İran, Hindistan, Koreya, Yaponiya, Krım, Qafqazın Qara dəniz sahilində və Azərbaycanda rast gəlmək olur. Fransız alimi Jak de Morqan Lənkəran rayonunun Görükdi kəndi yaxınlığında ikimərtəbəli dolmenləri tapmış və ilk dəfə onların elmi, tarixi və dini mahiyyəti haqqında məlumat vermişdir.

Dolmenlərin yaradılması üçün əsas olmuş axirət dünyasına və ruhun ölməzliyinə inanmaq ideyası ənənəvi olaraq zəmanəmizə qədər gəlib çıxmışdır. Buna misal olaraq Şamaxıdakı «Dədə-günəş» pirinə gəlmiş ziyarətçilərin gedərkən balaca daşlardan evlər tikməsini göstərmək olar. Guya bu evlər xəstələrin öləndən sonra axirət dünyasında yaşamasına xidmət edəcəkmiş.

Bu pirin adı təsadüfi olaraq «Dədə-günəş» adlandırılmamışdır. Günəş kultu Azərbaycanın ən qədim kultlarındandır. Bu kult tunc dövründə çox böyük tərəqqi tapmışdı. Dədələr (atalar) kultu ortaya çıxandan sonra, dədələr də günəş qüdrətli, onun kimi himayəkar hesab edilir və ona görə də onların adı çox zaman

günəş sözü ilə yanaşı çəkilirdi. Sonralar pir şəklinə düşmüş qədim abidənin hər iki kultun adı ilə adlanması göstərir ki, onlar çox yaxın və bir-birini əvəz edən ən qədim kultlar olmuşdur.

Kromlexlər neolit və başlıca olaraq tunc dövründə yaradılmış çevrə boyu, şaquli şəkildə əzəmətli daşlardan düzəlmiş abidələrdir. Kromlex fransızca krom (çevrə) və lex (daş) sözlərinin birləşməsindən alınmışdır. Onlar bir çevrə və yaxud bir neçə konsentrik çevrələr formasında olur. Belə abidələrin hündürlüyü 6-7 metr, diametri isə 100 metrə qədərdir. Bəzən kromlexlərin ortasında dolmen və yaxud menhir də olur. Kromlexlərin yanında menhirlər sırasına da rast gəlmək olur. Kromlexlərin sahəsi qazılarkən qəbirlər, daş baltalar, gil qablar, əl dəyirmanı daşı və s. tapılır. Belə abidələr Asiya, Amerika, Avropa və Zaqafqaziyada aşkar edilmişdir. Güman edilir ki, kromlexlər dəfn mərasimlərinin icra edilməsi və yaxud dini ayinlərin keçirilməsi üçün icma tərəfindən qurulmuş abidələrdir. Onların günəş kultu ilə əlaqədar olması və günəş məbədi vəzifəsini daşıması haqqında da nəzəriyyə mövcuddur. Kromlexlərin çevrə formasında olması, görünür, onların günəş kultu ilə olan yaxınlığından irəli gəlmişdir.

Kromlexlərə Azərbaycan ərazisində də təsadüf edilir. Qobustanın «Böyükdaş» adlanan hissəsində qayalıqların ətəyində nisbətən düzənlik sahədə diametri 21 m olan belə bir abidə mövcuddur. Onun mərkəzində tək daş, ətrafında isə çevrə boyu daşlar qoyulmuşdur. Hələlik bu abidənin daxilində və ətrafında arxeoloji qazıntı işləri aparılmadığından onun haqqında ətraflı danışmaq mümkün deyil, Belə kromlexlər Abşeronda, Şüvəlan kəndinin kənarında, «Ağ daş» deyilən yerdə daha çox tikilmişdir. Bir-birinə yaxın məsafədə qurulmuş bu kromlexlərin daşları üzə-rində müxtəlif ayinlərlə əlaqədar olan cızma üsulu ilə çəkilmiş heyvan və insan rəsmləri vardır.

Siklopik tikintilər Azərbaycanda daha geniş miqyasda yayılmış meqalitik abidələrdir. Belə abidələr qədim Yunanıstanda da çox olmuş və yunan əsa-tirləri ilə əlaqələndirilmişdir; guya bu əzəmətli tikintilər siklop adlanan nəhəng və təkgöz (təpəgöz) insanlar tərəfindən yaradılmışdır. Elə buna görə də həmin tikintilər siklopik tikintilər adlanır. Siklopik tikintilər inşaat məhlulu işlədilmədən çox böyük daşlardan əmələ gəlmişdir. Daşların uzunluğu bəzən 2 metrə qədər olur.

Siklopik tikintilərə dünyanın hər yerində, o cümlədən Zaqafqaziyada, Krımda, Tacikistan və Sibirdə rast gəlmək olar.

Zaqafqaziyadakı ən qədim siklopik tikintilər tunc dövrünə (e. ə. III-II minilliklər) aid edilir. Urartu dövlətinin Tuşpa, Topraqqala, Teyşebaini və s. siklopik abidələri isə ilk dəmir dövrünün (e. ə. X-IX əsrlər) məhsuludur.

Azərbaycanın dağlıq rayonlarında 120-yə qədər, əsasən, dairəvi formada, nəhəng daşlardan, suvaqsız tikilmiş siklopik abidələr nəzərdən keçirilmişdir. Onlar Naxçıvan, Gədəbəy, Şəmkir, Tovuz rayonlarında daha çox yayılmışdır. Xalq arasında belə tikintilərə «qalaça», «qalacıq», «hörük» və «hörükdaş» deyilir. Həmin tikintilər bəzən bir, bəzən də iki-üç divarla əhatə olunur. Azərbaycan ərazisindəki siklopik tikintilər yonulmamış kobud daşlardan hörülmüşdür. Lakin nadir hallarda yonulmuş daşlarla sıx hörülmüş abidələrə də rast gəlirik. Bu tipli abidələrin daha sonralar (dəmir dövrünün ortalarında və eramızın başlanğıcında) tikildiyini güman etmək olar.

Azərbaycanın siklopik tikintilərinin nə məqsədlə tikildiyi haqqında müxtəlif fikirlər vardır. Arxeoloqlarımız bu abidələri üç qrupa bölmüşlər:

1. həcmcə çox böyük olan istehkamlardan dinc dövrdə yaşayış məskəni kimi, müharibə zamanı isə əhalinin və mal-qaranın müdafiəsi üçün istifadə edilmişdir.

2. həcmcə kiçik olan siklopik tikintilər müharibə vaxtı qala vəzifəsini görüb, müdafiə xarakteri daşımışdır.

3. Dağ yerlərində müvəqqəti məqsədlərə xidmət etməkdən ötrü yaradılmış kiçik siklopik abidələrdən isə mal-qaranı saxlamaq, qorumaq üçün bir ağıl (çəpər) kimi istifadə edilmişdir.

Daş qutu qəbirlər. Yuxarı Qarabağda, Gədəbəy, Lənkəran və başqa rayonlarda yayılan 3 min illik tarixə malik olan bu abidələr meqalitik abidələrin xüsusi bir növüdür. Bu nəhəng qəbirlərin içərisi səliqə ilə yonulub sandıq halına salınmış və üstü tava daşla örtülmüşdür. Güman etmək olar ki, bu qəbirlər ilk siklopik tikintilərlə bir zamanda yaradılmışdır. İbtidai icma quruluşunun adamları yaşamaq, dini mərasim keçirmək, müdafiə olunmaq üçün əzəmətli tikintilər yaradarkən elə təsəvvür edirdilər ki, onların ölüləri də axirət dünyasında belə nəhəng daş evlərdə yaşamalıdırlar. Bunun nəticəsidir ki, qədim əcdadlarımız ölülərini nəhəng daş qutularda dəfn etməyi lazım bilirdilər. Belə daş qutu qəbirlərin üstündə isə daha əzəmətli görünən kurqanlar tikirdilər.

Kurqanlar. Kurqan türk sözüdür. O öz mənşəyinə görə kor (qəbir), qurğu, qoruq sözləri ilə əlaqədardır. Kurqanlar ölülərin qəbirləri («axirət evləri») üzərində ucaldılmış konusvarı təpələrdən ibarətdir. Qədim Azərbaycanda belə bir formanı əldə etmək üçün içərisində bir və bir neçə meyit dəfn edilmiş qəbrin divarları düzbucaqlı formada daşla tikiləndən sonra onun üstünə kvadrat şəkilli ağac haşiyələr qoyulurmuş. Belə ki, kurqanın konusvarı formada alınması üçün aşağıdan birinci haşiyə böyük, onun üstündəki haşiyələr isə yuxarı getdikcə daha kiçik ölçülü olmalı idi. Nəticədə əmələ gəlmiş pilləli ağac konus əvvəlcə taxta ilə, daha sonra isə torpaqla örtülürdü. Konusvarı kurqanlar bizə qədim Misir piramidalarını xatırladır. Yuxarı

Qarabağda üstü çay daşı ilə örtülmüş kurqanlara da rast gəlirik. Onların hündürlüyü müxtəlifdir. Çox zaman hündür bir kurqanın ətrafında alçaq kurqanların yerləşdiyi də müşahidə olunur.

Azərbaycanın dağətəyi və düzənlik yerlərində geniş yayılmış kurqanlar müxtəlif dövrlərin məhsuludur. İctimai dövrlər dəyişdikcə bu qəbirlərin forması da bir qədər dəyişilmiş və yeniləşmişdir. Məsələn, eneolit, mis-daş dövrünün (e. z. IV minillik. və III minilliyin birinci yarısı) kurqanlarında qəbirlər dairəvi şəkildə qazılandan sonra divarları daşla hörülərdi və xəndəklə əhatə olunardı. İlk tunc dövründə (e. ə. III minilliyin ikinci yarısı) kurqanların içindəki qəbirlər kvadrat şəklini almış, son tunc dövründə (e. ə. II minilliyin ikinci yarısı) isə qazıma qəbirlər əvəzinə süni qəbirlər-kvadrat formalı qazıma daxmalar yaradılmışdır. Həmin daxmalar bəzən bir neçə mərtəbəli olurdu, birinci mərtəbədə ölü dəfn edildiyi halda, ikinci, üçüncü mərtəbələrdə mərhumun «axirət dünyasında» rahat yaşaması üçün lazım olan avadanlıq qoyulurdu. Bu dövrün kurqanlarında qəbirlərdən başqa qurban qoyulan yerlər-qurbangahlar üçün də xüsusi yerlər ayrılırdı ki, bu da daşla haşiyələnmiş kvadratşəkilli çalalardan ibarətdir. Bu qurbangahlarda əcdadların, ölülərin ruhu və xeyirxah ruhlar üçün yemək, içmək şəklində qurbanlar qoyularmış.

Azərbaycanda rast gəldiyimiz kurqanların hündürlüyü I metrdən 14-16 metrə qədər olduğu halda, onların diametri əksər hallarda, 2-3 metrdən 18-22 metrə qədər çatır. Nadir hallarda isə onların hündürlüyü 25 metrə çatır.

Kurqanlar «axirət dünyası» ideyasına xidmət edən memarlıq abidələridir.

Arxeoloq Y. İ. Hummel Xanlar rayonunun kurqanlarını tədqiq edərkən, onların səpələnmiş halda deyil, müəyyən ərazidə toplanmasına diqqət yetirmişdir. O, qərara gəlmişdir ki, bütün qəbirlər müəyyən bir nöqtə ətrafında - günəş şüasının çevrə boyu yayılması istiqamətində tikilmişdir. Onun kəşf etdiyi bu qanunauyğunluq «şəfəq sistemi» adını almışdır. Alimlər bu sistemin Orta Asiya kurqanlarına da aid olduğu fikrini irəli sürmüşlər.

Maraqlı cəhət burasıdır ki, kurqanların quruluşu, ağac haşiyələrlə və onun üstündən də torpaq ilə örtülməsi, onları Azərbaycanda geniş yayılmış qaradam adlı yaşayış evləri ilə bağlayır. Ayrımların yaşayış evi olan qaradamların üstünün bu üsulla örtülməsi göstərir ki, onlar da kurqanlar qədər qədim tikintilərdir. Məlum olur ki, qədim əcdadlarımız ilk qaradamlarda yaşadıqları vaxtlarda «axirət evlərini» - qəbirlərini, kurqanlarını da qaradama bənzətməyə çalışmışlar. Ruhun əbədiliyinə, ölməzliyinə inanan ibtidai insanlar qəbirləri öləndən sonra özləri üçün daimi mənzil hesab edirdilər.

Yaşayış tikintiləri. Arxeoloqlar müəyyən etmişlər ki, Azərbaycanın qədim yaşayış binaları qazıma və qara-damlardan ibarət olmuşdur.

Tunc dövründə, eramızdan min il əvvəl tikildiyi güman edilən qazımaların yarısı torpağın altında yerləşirdi. Divarları və arakəsmələri yonulmamış çay daşından tikilmiş bir qazıma aşkar edilmişdir. Bu binanın içərisi çox böyük, yəni uzunluğu 17-18 m olduğu üçün onu «çox-ailəli» evlər tipinə daxil etmişlər. Lakin həmin qazmanın ancaq bir giriş yolu olması onun bir ailəyə məxsus olduğunu göstərir. Binanın dörd bölmədən ibarət tikilməsi orada yaşamış ailənin böyüklüyünə, ailə başçısının oğlanları ilə birlikdə yaşamasına işarədir.

Süni mağaralardan yarandığı güman edilən qaradamların Azərbaycanda yayılması tunc dövrünə təsadüf edir. Çiy kərpicdən tikilmiş belə binalar Mingəçevirdə tapılmışdır. Onların 3500-4000 illik qədim bir tarixi vardır.

Qaradam tipli yaşayış evlərinin qalıqlarına indi də rast gəlmək olar. Onların qaradam adlanması güman ki, evin içərisinin qaranlıq olması ilə əlaqədardır. Belə evlərdə xarici mühitlə əlaqə ancaq qapı və baca vasitəsi ilə yaradılırdı. Evlər bir qayda olaraq yoxuşa söykəndiyindən xaricə pəncərə açmaq mümkün olmurdu. Bu tip evlərin tikilməsində yerin relyefindən istifadə edilməsi, onların təpələrə söykədilməsi mənzilin yayda sərin, qış-da isə isti olmasına kömək etmişdir. Qaradamın təpə şəkilli damından aşağı axan yağış sularının evə tökülməməyi üçün qapının üstündə xüsusi örtük qoyulurdu.

Tunc dövründə, eramızdan iki min il əvvəl Azərbaycanda çiy kərpicin geniş yayılmış inşaat materialı kimi işlədilməsini göstərən tikintilər də tapılmışdır. Ağdamın «Üzərliktəpə» deyilən yerindən qazılıb çıxarılmış tikintinin qalıqlarını buna misal göstərmək olar. Onun 20 metrə qədər uzanan enli divarları vaxtilə buranın yaşayış yeri olduğunu göstərir. Divarların çiy kərpiclə tikilməsində məhluldan istifadə edilmişdir.

Şimali Azərbaycanda olan qədim tikintiləri öyrənmək üçün yaşayış binalarının tikinti qalıqlarından əlavə qaya təsvirlərinə, müxtəlif tipli modellərə də müraciət etmək lazımdır. Bu cəhətdən Mingəçevirdən tapılmış tunc dövrünün araba modelləri səciyyəvidir. həmin modellərdə o dövrün yaşayış binalarının bir çox əsas xüsusiyyətləri əks olunmuşdur. Bu modellərdən görünür ki, ikitəkərli arabaları quraşdırarkən insanlar yaşadıqları evlərin xüsusiyyətlərini nəzərə almışlar.

Mingəçevir araba modellərinin quruluşu, əksəriyyətlə, konus şəklində olub, alaçıqları xatırladır. Onların aşağı hissəsində qapısı, yuxarısında isə baca kimi istifadə olunan sivri formalı damı vardır. Gildən hazırlanmış belə araba modellərinin xarici səthi dairəvi cızma xətlərlə bəzədilmişdir.

Daha sonrakı Midiya dövləti dövründə (e. ə. VII-VI əsrlər) Cənubi Azərbaycanda nəhəng və bəzəkli müdafiə tikintiləri ilə yanaşı saraylar və yaşayış binaları da yaradılmışdır.

Qədim yunan tarixçisi Herodotun verdiyi məlumata görə, Midiyanın paytaxtı Ekbatan (indiki Həmədan) şəhərində əzəmətli bir saray var imiş. Bu sarayda hündür taxta sütunlardan, memarlıq ünsürlərinin bəzəyində qızıl və gümüşdən istifadə edildiyindən bina olduqca cazibədar bir görkəmə malik idi.

Mütəxəssislər güman edirlər ki, bu dövrdə ant tipli yaşayış binaları yaranmağa başlamışdır. Qarşısında eyvan olan evlərə ant tipli binalar deyilir. Bu tikintilərdə eyvanların əmələ gəlməsi üçün fasadda ön tərəfdən kənar divarlar irəliyə doğru uzadılmışdır. Sonrakı dövrlərdə ant tipli binalar Azərbaycanda çox geniş yayılaraq bir və ikimərtəbəli eyvanlı yaşayış evlərinin ortaya çıxmasına səbəb olmuşdur. Bundan başqa, qülləvarı yaşayış evləri də tikilirmiş. Məsələn Kişessu adlı Midiya şəhəri qülləli binalardan ibarət olmuşdur.

Qədim Midiya ərazisində çox geniş yayılmış tikintilərə misal olaraq, qaya məqbərələrini və atəşpərəstlik məbədlərini də qeyd edə bilərik.

Qayalarda qazılmış məqbərələrin fasadı ant tipli yaşayış binalarını xatırladır. Onların divarları insan təsvirlərindən ibarət olan qabartmalarla bəzədilirdi. Məqbərənin qarşı tərəfində yerləşən dəhlizdən sərdabə hissəsinə daxil olmaq üçün yol düzəldilirdi. Bəzi qaya məqbərələrinin dəhlizində sütunlar qoyulurdu. Onların yuxarısı, yunan memarlığında olduğu kimi, antablement hissə ilə bitirdi.

Midiya atəşpərəstliyin mərkəzi hesab edilirdi. Bununla əlaqədar olaraq dini binalar-məbədlər, atəş ibadətgahları o vaxtın çox yayılmış memarlıq tikintilərindən hesab edilir. Belə ibadətgahlar kiçik kürsülük üzərində ucalırdı. İbadətgahın ön tərəfində bir taxça tikilir və taxçanın yuxarısı karniz şəklində olurdu. Dini mərasimlər, ayinlər belə atəşgahların qarşısında, açıq havada keçirilirdi.

Midiya ərazisində çoxlu şəhər olması, orada şəhərsalma işlərinin geniş miqyasda aparıldığını nəzərə çarpdırır. Yunan tarixçilərinin əsərlərində Ekbatan (paytaxt), Zombis, Patiqran, Qazata (ərəb mənbələrində Ğənzə), Kiropolis, Evron, Arzakiya (yaxud Riqa) və Herakleya kimi Midiya şəhərlərinin adları çəkilir.

Qaya təsvirləri. Qaya təsvirlərinə petroqlif deyilir. Bu termin yunan dilində petros-daş, qlif- oyma, cızma sözlərinin birləşməsindən əmələ gəlmişdir. Petroqliflərə Orta Asiyada, Sibirdə, Uralda, Krımda, Azərbaycanda, digər yerlərdə rast gəlmək olar. Petroqliflər bizi qədim əcdadlarımızın yaşayış yerləri, təsərrüfat formaları, həyat tərzi, məişət xüsusiyyətləri, dini təsəvvürləri və bədii təfəkkür səviyyəsi ilə tanış edir.

Qobustan qayalıqlarından və Abşeronun Şüvəlan qəsəbəsindən, Ordubad yaylaqlarından və Kəlbəcər dağlarından tapılmış qaya təsvirləri bu rayonlarda yaşamış qədim insanların qoyub getmiş olduğu dəyərli mədəniyyət və incəsənət abidələridir.

Qobustan-Baş Qafqaz sıra dağlarının cənub-şərq qurtaracağında yerləşmişdir. Buradakı qaya təsvirləri bir-birindən uzaq, ayrı-ayrı yerlərdə yerləşmiş qayalıqlar üzərində iti daşla cızılmışdır. Bu qayalıqlara yerli əhali «Böyükdaş», «Kiçikdaş», «Cingirdağ», «Şonqardağ», «Şıxqaya» və «Daşqışlaq» adı vermişdir. Həmin qayalıqlar Bakıdan 50-60 km cənubda, Xəzər dənizinin yaxınlığında yerləşir.

Bu qaya təsvirləri haqqında alimlər tərəfindən müxtəlif fikirlər irəli sürülmüşdür. Bəziləri onların dini ayinlərin keçirilməsində mühüm vasitə olduğunu göstərir, digərləri isə bu təsvirləri ovda müvəffəqiyyət qazanmaq üçün icra edilən iş magiyası (sehrkarlığı) ilə əlaqələndirərək onların incəsənət mahiyyətini inkar edirlər.

Petroqliflərin anlaşılması üçün onlara öz dövrlərinin tələbləri, ehtiyacları cəhətdən yanaşmaq lazımdır. Daş dövründə insanların başlıca məqsədi qida əldə etmək idi. İbtidai insanlar artıq qidalanmaq üçün mübarizənin, yaxşı atıb, sərrast vurmağın başlıca şərt olduğunu dərk edə bilmişdilər. Odur ki, ən ibtidai şüur səviyyəsində olanda belə ağıllarından, hiylələrindən çox, qollarının gücünə və gözlərinə arxayın olurdular. Buna görə də qədim əcdadlarımız ovlayacaqları heyvanın gücünü, qaçmaq bacarığını yaxşı öyrəndikdən sonra onunla mübarizəyə hazırlaşırdılar. Bu hazırlıq dövründə ovu uzaqdan yaxşı müşahidə etmiş ovçular qaya üzərində onun konturlu şəklini çəkirdilər. Beləliklə də, onlar ovlanacaq heyvanı daha yaxşı öyrəndikcə, ovun müvəffəqiyyətli keçəcəyinə daha çox inanırdılar. Bu ideyadan ruhlanan ibtidai adamlar ovun şəklini nizə, yaxud oxla vuraraq qəbilə qarşısında ovda necə iştirak edəcəyini nümayiş etdirirdilər. Bu proses əslində ova gedəcək adamların «döyüş» məşqi idi. Söz yox ki, bu məşqlərin böyük mənəvi-ruhi xeyrindən başqa, təcrübə əhəmiyyəti də var idi. Ovçular bu hazırlıqda sərrast atmağı və vurmağı da öyrənirdilər. Təsadüfi deyil ki, Qobustanın bu dövrə aid böyük öküz rəsmlərində nizə və ox izləri indi də görünür.

Hər dəfə belə məşqlər keçəndən sonra ovda müvəffəqiyyət qazanan ibtidai insanlar getdikcə bu fikrə gəlmişlər ki, heyvanın rəsmi qayada cızılmasaydı, o ovlanmayacaqdı. Beləliklə, əvvəllər heyvan rəsmlərinin cızılmasına gələcək ov səbəb olmuşdusa, sonralar bu məsələ tərsinə dərk edilir, yəni heyvanın şəkli çəkilməyincə, ovun baş tutacağına ümid olmurdu. Ancaq bu ikinci mərhələni iş, istehsal magiyası hesab etmək olar. Lakin belə magik, sehrli təsəvvürün əmələ gəlməsi üçün əcdadlarımızın nə qədər uzun bir dövr keçmiş olduğunu nəzərə almaq lazımdır. Bu sehrkarlıq mis-daş dövrünün məhsulu idi.

Daş dövrünün rəsmlərində öküzlər kontur cizgiləri vasitəsi ilə çəkilirdi. Siluet rəsm üsulu insan təsvirlərində görünür, kişilər əlində ox, kürəyində kaman olduğu halda, əzəmətli surətlər şəklində rəsm edilirdi. Petroqliflərdə kişilər kobud, lakin hündür və döyüşkən bir vəziyyətdə əks edilmişdir.

Bu rəsmlərdən bilinir ki, insanların qiyməti onların ibtidai icma quruluşuna verdikləri əməli fayda ilə

müəyyən edilirmiş. Onların hər şeydən çox istehsal bacarıqları qiymətləndirilirmiş. Bu göstərir ki, daş dövrünün rəssamları yaşadıqları dövrün dünya görüşünə uyğun olaraq mühüm əlamətləri seçib təsvir etməyi bacarmışlar. Əlbəttə, bu rəsmlərin nöqsanları - şərtiliyi, sxematikliyi, səthiliyi və s. dövrün iqtisadi-mədəni geriliyindən irəli gəlirdi.

İnsan rəsmlərində siluet formasından geniş istifadə edilmişdir. Tək dayanmış ovçuların rəsmi, adamların əl-ələ verərək qrup şəklində rəqs etməsini göstərən təsvirlər siluet (kölgə) formasındadır. Bu rəsm üsulu da dövrün məhsulu idi. Burada ibtidai insanların müvəffəqiyyətli ovdan sonra şadlanaraq rəqs etmələri, yaxud təbiət qüvvələri ilə mübarizədə qalib çıxmış adamların sevinci və məşəl ətrafında hərlənmələri təsvir edilmişdir. Belə rəsmlərdə insanlar bir-birindən fərqlənmir.

«Yallı» tipli qrup rəqsləri daş dövründə heç bir dini səciyyə daşımırdı. Lakin sonrakı dövrlərdə qəbilə dini ayinlərində bu rəqslərdən geniş surətdə istifadə edilmişdir.

Bəzi alimlər daş dövrünün petroqliflərini incəsənətlə heç bir əlaqəsi olmayan dini səciyyəli sehrkar magiya rəsmləri kimi qələmə verməyə çalışırlar. Onlar bu təsvirlərdə incəsənət üçün mühüm xüsusiyyət olan hissi emosional keyfiyyətlərin olmamağını əsas dəlil kimi irəli sürürlər ki, bu da tamamilə yanlış fikirdir.

Bu qaya təsvirlərinə əsasən biz daş dövrün adamlarının idrak proseslərini öyrənir, cəmiyyətin məhsuldar qüvvələri ilə tanış olur, insanların geyimləri, silahları və s. haqqında məlumat toplayırıq. Demək, bu rəsmlər obyektiv varlığı müəyyən dərəcədə əks etdirir və beləliklə də, incəsənətin ictimai vəzifələrini yerinə yetirir. İbtidai insanların rəsmlərində emosional xüsusiyyətlər axtarmaq yersizdir. Çünki kontur xətli təsvirlərdən hissi keyfiyyətlər tələb etmək olmaz. Belə təsvirlərdə biz insanların sevincini, kədərini və s. emosional keyfiyyətlərini görməsək də, təsəvvür edirik.

İbtidai sənət əsərlərində konkretlikdən uzaq, ümumi və mücərrəd xüsusiyyətlərə malik insan surətləri yaradılırdı. Burada kişi rəsmləri təxminən bir-birini təkrar edirdi. Bu cəhət heyvan təsvirlərində də öz əksini tapır. Daş dövrünün rəssamından təsvirlərdə surətin konkret xüsusiyyətlərini ifadə etmək bacarığını gözləmək olmazdı. Yuxarıdakıları nöqsan hesab edərək qədim təsvirlərin incəsənətdən uzaq olduğunu iddia etmək düzgün deyil. Nəzərə almaq lazımdır ki, qaya təsvirləri keçmişdəki konkret varlıqların xətti obrazı kimi müasirlərimizin diqqətini cəlb edir. Həcmlərin konturlu xətlərlə ifadə edilməsi, heyvanların dinamik vəziyyətdə verilməsi və s. xüsusiyyətlər, söz yox ki, ibtidai insanlarda bədii təfəkkürün fəaliyyəti ilə əlaqədar olmuşdur. Bütün bunlar petroqliflərin incəsənət əsərləri olduğunu iddia etməyə haqq qazandırır.

Eneolit (mis-daş) dövründə öküz rəsmlərində ağız, göz kimi xırda detallar və dinamika, hərəkət kimi yeni xüsusiyyətlər də ortaya çıxır. Bu mərhələdə keçi təsvirləri də cızılmağa başlayır. Çox vaxt onların rəsmləri düz xətlərlə kəsilmiş halda verilir. Belə əlavə xətlər magik təsəvvürün ifadəsi idi. Belə ki, ovçu bu sehrkar xətləri çəkməklə gələcək ovu tilsimə saldığına və onu mütləq ovlayacağına inanırdı. Bu sehrkarlıq ayinini icra edərkən ovçu, yəqin ki, niyyət edir, heyvanın neçə və hansı şəraitdə vurulacağı haqqında öz arzusunu bildirir, ya da ürəyində təkrar edirdi.

Keçilərin rəsmləri bütünlüklə əyri xətlərin birləşməsindən ibarətdir. Bunun nəticəsində təsvirlərin bədii-estetik keyfiyyəti xeyli yüksəlmişdir. Qobustanda qaya təsvirlərinin tənəzzül etdiyi orta əsrlərdə isə əksinə, petroqliflər düz xətlərlə cızıldığından daha az cazibədar olmuşdur.

Qaya təsvirlərinin müxtəlif dövrlərdə müxtəlif məqsədlərə xidmət etdiyi şübhəsizdir. Lakin təsvirlər hansı ideallara əsasən yaranırsa yaransın, həmişə qədim rəssamın bacarığından, bədii təfəkkürünün, yaradıcılıq fantaziyasının qüvvətli və ya zəif olmasından asılı olaraq, müasirlərimizə incəsənət əsəri kimi çox və ya az təsir göstərə bilir.

Qaya təsvirlərindən ibtidai cəmiyyətdə yazı vasitəsi kimi də istifadə edilmişdir. Yəni qaya rəsmləri təsvirli yazılar-piktoqramlar kimi çox mühüm bir rol oynamışdır.

Qobustan piktoqramları üç qrupa bölünür. Birinci qrup təsvirli yazıların məzmunu xronika xarakteri daşıyır. Belə piktoqramlarda qədim «rəssam» qəbilənin gündəlik həyatında baş vermiş hadisələrdən xəbər verir. Bu yazılarda qəbilə üzvlərinin vəzifələrindən, qurban vermək ayinlərindən və s. bəhs edilir. Bu qrupa daxil olan tunc dövrünün piktoqramında iki süvarinin bir maralı ovlaması təsvir edilmişdir. Onların arxasında, hərənin özünə aid olan düzbucaqlının içində üfqi xətlər çəkilmişdir. Bu göstərir ki, hər ovçu sol tərəfdə silindrik şəkildə, şərti surətdə göstərilmiş qəbilə ocağına doqquz heyvan verməlidir. Sol tərəfdəki süvari ovçu 8 heyvan vermişdir (bunu aşağıda olan düzbucaqlıdakı xətlərin sayından bilirik). Sağ tərəfdə nizə atan süvari isə öz borcunu ödədiyi üçün rəssam bu haqda heç bir şey göstərmir.

Qobustan piktoqramlarının ikinci qrupuna yaddaş vəzifəsini görən dini xarakterli yazılar daxildir. Bu tip təsvirlər gündəlik dini ayinləri yerinə yetirmək üçün əyani vəsait kimi təcrübi əhəmiyyətə malik olmuşdur. Tunc dövrünün belə bir piktoqramında heyvanların qurban kəsilməsi ayininin icrası göstərilir.

Üçüncü qrup yazılara qəbilənin gündəlik təsərrüfat həyatı ilə bağlı olan piktoqramlar daxildir. Ovçuluq, maldarlıq və ov məşqləri ilə əlaqədar süjetli təsvirlər bu qrupa mənsubdur. Ov məşqlərinin necə keçirilməsini nəql edən, daş dövrünə aid bir təsviri nəzərdən keçirək. Dağda cızılmış böyük öküz rəsminə ox atmaqla ov məşqi keçmək üçün ovçular bir cərgədə düzülmüşlər. Onların üzü öküz təsvirinə və arxaları bizə tərəf olduğundan qolları və əlləri görünmür, kürəklərindəki kaman və geydikləri enli dəri şalvarları isə aydın

görünür. Qədim rəssam icma üzvlərinin ovdan əvvəl necə məşq etdiklərini bu əsərində nəql edir. Bu piktoqram göstərir ki, ən qədim qaya təsvirlərimiz daş dövründə əcdadlarımızın ov təsərrüfatlarına, ovdan əvvəl məşq keçmələrinə və s. həsr edilmişdir.

O dövrün ox və kamanları ibtidai olduğu üçün uzaq məsafədən vəhşi öküzləri ovlamaq olduqca çətin idi. Odur ki, qədim əcdadlarımız daş dövründə çox mühüm bir kəşf etmiş və onun nəticəsində də heyvanlara yaxınlaşmaq üçün müvəffəqiyyətli bir hiylə işlədə bilmişlər. Onlar uzun müşahidələrin nəticəsində kəşf etmişdilər ki, vəhşi heyvanlar özlərinin qüvvətli iybilmə qabiliyyətlərinə yox, çox zəif görən gözlərinə inanırlar. Odur ki, heyvanların bu zəif cəhətindən istifadə edən əcdadlarımız heyvan cəmdəklərindən düzəltdikləri gizləncəklərin arxasında gizlənərək, vəhşi öküzlərə asanlıqla yaxınlaşır və onları yaxından vura bilirdilər. Vəhşi heyvanlar isə bu gizlənckləri özlərinə oxşadığı üçün heyvan bilib yaxına buraxırdılar. Qobustan qayalarında bu gizlənəcklərə həsr edilmiş petroqliflər çoxdur.

Qobustanın qaya təsvirləri daş dövründən başlamış XIX əsrə qədər olan bütün dövrlərin təsviri sənət və yazı mədəniyyətini əhatə edir. Odur ki, Azərbaycan təsviri sənətinin mənşəyini öyrənmək üçün bu qədim rəsmlər qalereyası tədqiqatçılara zəngin material verir. Ölkəmizdə incəsənət, din, estetika kimi mühüm ictimai elm sahələrinin tarixini araşdırmaqda Qobustan petroqliflərinin əvəzedilməz əhəmiyyəti vardır.

Dulusçuluq. Qədim Azərbaycan ərazisində iki tip bədii dulusçuluq məmulatı istehsal edilirdi. Birinci tip-qırmızı gil keramikadır ki, bu, ölkənin cənub rayonları (xüsusilə, Naxçıvan zonası) üçün səciyyəvidir. Cilalanmış qara rəngli qablardan ibarət olan ikinci tip keramika isə Qafqaz Albaniyasına xas idi.

Birinci tip keramika polixrom, əlvan rəngli olduğu üçün ona boyalı keramika adı verilmişdir. Bu tipli qabların saxsısı dulusçuluq kürəsində bişəndən sonra qırmızı və sarı rəng alır. Belə gil məmulatın üzərində bir qayda olaraq sarı, göy, qara, çox zaman qəhvəyi boyalarla çəkilmiş quş, heyvan və insanların stilizə edilmiş təsvirlərinə rast gəlirik.

Boyalı keramika nümunələri Naxçıvan, Qarabağ, Mil düzü, Xanlar və Qazax rayonlarında olan qədim yaşayış yerlərindən və qəbirlərdən tapılmışdır.

Azərbaycanda boyalı qablar istehsalı tunc dövründə (e. ə. II minillikdə) inkişaf tapmışdır. Azərbaycanda boyalı keramika sənətinin inkişafı qədim İran qəbilələri ilə iqtisadi-mədəni əlaqələrin qurulması nəticəsində meydana çıxmışdır.

Azərbaycanda tunc dövrünün boyalı keramikası iki üsulla-əl ilə və dulusçuluq dəzgahında hazırlanırdı. Bu qabların üzərində təsvirlərdən əlavə dalğavarı sınıq və mürəkkəb şəkilli düz xətlərdən ibarət naxışlar da çəkilirdi.

Boyalı keramika mədəniyyəti orta tunc dövründən dəmir dövrünə qədər dörd inkişaf mərhələsi keçmişdir. Birinci mərhələ qabların üzərində monoxrom (birrəngli) rəsmlərin çəkilməsi ilə səciyyələnir. Belə məmulatın üstü qırmızı anqob ilə (xüsusi gil məhlulu ilə) örtüldüyündən parıltılı səthə malik olurdu. Onların üzərindəki həndəsi naxışlar (üçbucaq, romb), quşların rəsmi qara boya ilə çəkilirdi. Hündür formalı belə qablar Kültəpədə (Naxçıvan), Culfada, Zurnabadda (Xanlar rayonu) və Mil-Qarabağ düzlərində tapılmışdır.

İkinci mərhələnin qabları daha kiçik, həm də girdə şəkildə hazırlanırdı. Naxçıvan rayonundan tapılmış belə qabların üzərindəki insan, heyvan və quş rəsmləri qara, qırmızı, ağ, qəhvəyi, sarı və s. boyalarla çəkilir, üstü qırmızı, sarı və ağ anqobla örtülürdü. Dolça və dövrə şəklində olan bu qab-ların ornamentləri qara və qırmızı boyalarla çəkilirdi. Naxışlar isə düzbucaqlı, üçbucaqlı və romb kimi motivlərdən tərtib edilirdi. Qobustan petroqliflərində gördüyümüz «yallı» tipli rəqs təsvirlərinə bu keramikada da rast gəlirik. Şahtaxtıdan tapılmış polixrom rəsmli böyük qab (e. ə. XVIII-XVII əsrlər) da bu mərhələyə aiddir. Tovuz, keçi, at, vəhşi heyvan və quşların rəsmləri ilə bəzənmiş kürəvi qabın üstü qırmızı anqobla örtülmüşdür. Qabın çiynindəki tovuzlar sırası sarı rəngli zolağın üstündə təsvir edilmişdir. Təsvirlərdə realist əlamətlərlə yanaşı dekorativliyə də geniş yer verilmişdir.

Üçüncü mərhələnin qabları (Culfa-da, Kültəpədən tapılan nümunələr) çaydan, nimçə, kasa formasındadır. Onların üzərində qırmızı, qəhvəyi boyalarla çəkilmiş insan, heyvan və quş rəsmləri həndəsi naxışlarla haşiyələnmiş və qablar qırmızı, ağ anqobla örtülmüşdür.

Dördüncü mərhələ dəmir dövrünün başlanğıcına təsadüf edir. Bu vaxt boyalı təsvirli keramika tənəzzülə uğrayaraq ortadan çıxır. Dördüncü mərhələnin boyalı qabları dolça, çaydan və kasa formasında olub, dalğavarı cızma üsullu ornamentlərlə bəzədilir, naxışlar isə tünd-qırmızı boyalarla da çəkilirdi. Bu dövrün kürədə bişən-dən sonra qırmızı rəng alan nimçələri günəşi andıran qabarıq ornamentlərlə bəzədilmişdir. Onların içərisi qırmızı, çölü isə sarı anqobla örtülmüşdür. Çaydanlar bu dövrdə də hazırlanırdı. Onların üçbucaq, yanakı xətlər tipli naxışları cızma üsulu ilə hazırlanırdı. Boz rəngli silindrik piyalələr də bu dövrün bədii məhsulu idi.

Boyalı keramika mədəniyyəti qədim qəbilələrdə estetik zövqün tərbiyəsində əvəzedilməz, mütərəqqi bir rol oynamışdır. Əslində bu mədəniyyət orta əsrlərdə Azərbaycanda şirli keramika sənətinin yaranması üçün maddi və mənəvi əsas olmuşdur.

Qədim Azərbaycanın ikinci növ keramikası - cilalanmış qara rəngli keramika, əsasən, eneolit dövründən yaranmağa başlamış, tunc dövründə isə inkişaf zirvəsinə çatmışdır.

İlk qara rəngli gil qablar eneolit dövründə hazırlanmışdır. Lakin dulusçular bu dövrdə kürələrdə yüksək istilik əldə edə bilmədiklərindən və qara keramikanın texnologiyası hələ lazımınca məlum olmadığından ilk nümunələr olduqca nöqsanlı idi. Onların plastik forması yöndəmsiz, qara rəngləri ala-tala, dekorativ motivləri isə son dərəcə ibtidai şəkildə alınırdı. Bununla belə eneolit dövrünə aid qablarda qabarıq şəkildə olan qəribə naxışlar diqqəti daha çox cəlb edir. Belə naxışlı qablardan Qazax rayonunun Babadərviş adlı qədim yaşayış məskənində də tapılmışdır. E. ə. IV minilliyin eneolit qabları üzərindəki qabarıq işarələr həm bəzək məqsədi ilə vurulan naxış, həm də təsvirli yazılar-piktoqramlar olduğu haqda fərziyyələr mövcuddur. Piktoqrafiya eneolit dövrünü əhatə edən Kür-Araz mədəniyyətinin mühüm əlamətlərindəndir. Bu dövrə aid piktoqrafik dulusçuluq nümunələri Naxçıvan ətrafında və Gürcüstanda da tapılmışdır.

Piktoqrafiya - təsvirli yazı başqa xalqlarda olduğu kimi, Azərbaycanda da yazı mədəniyyətinin ilk mərhələsini təşkil edir.

İki Babadərviş piktoqramını nə-zərdən keçirək. Birinci nümunədə iki qabarıq rəsm verilmişdir. Soldakı təsvir iki heyvan buynuzunun düz xətlərdə birləşməsindən əmələ gəlmişdir.

Alban dövrünün fiqurlu keramikasında da belə rəsmlərə rast gəlirik. Onlar tam plastik heyvan fiqurlarının tənəzzülə uğraması, konkret mahiyyət-dən uzaqlaşması nəticəsində ortaya çıxmışdır. Biz bu nəticəyə əsaslanaraq piktoqramda təhrif edilmiş iki buynuzlu heyvan surəti görürük. Əkər dövr nəzərə alınarsa, güman etmək olar ki, piktoqramda iki keçi təsvir edilmişdir. Lakin sağ tərəfdəki rəsmin sağ qurtaracağında ucu iti, yuxarısı isə əyri şəkildə olan əlavə bir rəsm də diqqəti cəlb edir. Bu, oxu, yuxarıdakı əyri xətt isə kamanı ifadə edir. Ox şəkli, ox sözü qədim zamanlarda ovçunu, döyüşçünü təmsil edər, onun şərti rəmzi kimi işlənərdi. Təsadüfi deyil ki, qədim türklərdə bir çox qəbilələrin adları ox ilə əlaqədar olaraq «Üç ox», «On ox» və s. qoyulmuşdu. O vaxt ox istehsal aləti kimi fetişləşmiş-ilahiləşdirilmişdi.

Piktoqramda ox rəsminin ovçunu bildirdiyini qəbul etsək, onda məzmun anlaşılar: bu təsvirli yazıda bir ovçu iki keçi öldürmüşdür. Belə bir məzmun bizə qəribə gəlsə də, mis-daş dövrünün adamları üçün bu fövqəladə bir hadisənin xəbər verilməsi kimi zəruri və lazım idi. Piktoqramın yazılmasından məqsəd ovçunun igidliyini qəbilə üzvlərinə bildirmək idi.

Babadərvişdən tapılmış ikinci piktoqram nümunəsi «M» şəklində və onun üstündə üçbucaq formasında olan iki təsvir elementindən ibarətdir. Üçbucağın yuxarı uzadılmış yan xəttinə əlavə üç üfqi xətt uzadılmışdır. Belə əlavə xətlər rəsmin yanlarına da çəkilmişdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, piktoqramın bu iki rəsmi də mücərrəd təfəkkürün, konkret varlıqların rəsmlərinin mücərrədləşdirilməsi əsasında yaradılmışdır. Aşağıdakı rəsm quşu, yuxarıdakı isə keçini təmsil edir. Sağ tərəfdəki dairəvi girinti günəşin simvoludur. Buradan anlaşılır ki, piktoqrafik yazı kosmoqonik (səma cisimlərinə əsaslanan) təsəvvürün təsiri altında cızılmışdır. Nəzərə almaq lazımdır ki, qədim rəssamlar, səma cisimlərini simvolik mənalı rəsmlərlə göstərirdilər. Buna əsasən deyə bilərik ki, piktoqramdakı quş təsviri göyü, keçi rəsmi isə yeri, torpağı təmsil edir. Bizə elə gəlir ki, bu yazıda təbiətin iki hissəsi, iki qüvvəsi (yer və göy) qarşılaşdırılmış, onların bir-birindən asılılığı əyani surətdə göstərilmişdir. Burada qədim «rəssam» torpağın göyə qarşı olan sitayişindən, yağışa olan təmənnasından danışır, sehrkarlıq işinə xidmət edir.

Sonrakı tunc və alban dövrlərində yazılmış Qobustan və dulusçuluq piktoqramları isə konkret təfəkkürə əsaslandığından insan və heyvanların real təsvirlərindən yaradılmışdır.

Tunc dövründə İran Azərbaycanında olduğu kimi, Şimali Azərbaycanda da, xüsusilə Qafqaz Albaniyası ərazisində qara keramika mədəniyyətinin inkişafı yüksək səviyyəyə çatır.

Cilalı qara keramika Azərbaycanın Xocalı, Mingəçevir, Çovdar, Xanlar kimi yerlərində yayılmış qədim məişətlə və dəfn ayinləri ilə əlaqədar inkişaf etmişdir. Belə məmulatın yaradılmasında əksər hallarda dulusçuluq dəzgahından istifadə edildiyindən, qabların plastik quruluşu yüksək estetik keyfiyyətə malikdir. Misal üçün, Çovdardan (Daşkəsən yaxınlığında) tapılmış qabda gövdənin yuxarıya və aşağıya doğru daralan bikonik şəkildə həll edilməsi onun plastik gözəlliyi üçün əsas yaratmışdır. Gövdənin dairəvi və zərif dayaq üzərində qurulması, çiyinlərin ritmik şəkildə olan üç qulp ilə tamamlanması gözəl siluetli qabın hündür görünməsinə səbəb olmuşdur. Bu qabın gövdəsi üzərində təkrar edilən ritmik şaquli xətlər və boğazı bəzəyən cızma üçbucaqlar dulusçunun məharətinə dəlalət edir.

Ustalar məmulata dekorativ forma vermək üçün dulusçu dəzgahından bacarıqla istifadə etmişlər. Bunu Xanlar rayonundan tapılmış şaquli kompozisiyalı qabda aydın görürük. Burada oturacaq konus şəklində həll edildikdən sonra, gövdə dəzgahın köməyi ilə qabarıq çevrələrə bölünmüşdür. Yuxarıya doğru daralan gövdənin plastik formasını həmin dekorativ ünsürlər kəskin surətdə nəzərə çarpdırır. Demək, asan bir üsulla çox mürəkkəb estetik keyfiyyət əldə edilir.

Belə qabların qara rəngli və cilalanmış olması onların bədii keyfiyyətinə müsbət təsir göstərmişdir. Odur ki, tədqiqatçılar uzun zaman bu tip keramikanın texnologiyasını öyrənmək üzərində çalışmışlar. Bu haqda keçən əsrin 30-cu illərində Türkiyə keramisti Nuru paşa ilk müvəffəqiyyətli nəticələr əldə etmişdir. Dulusçular qədim keramik məmulatı qara rəngə boyamaq üçün adi hisdən bacarıqla istifadə etmişlər. Bu məqsədlə onlar açıq havada qurudulmuş gil qabları əvvəlcə hamar sümük və yaxud başqa bərk çisimlə yaxşıca sürtərək onun üzərindəki məsamələri doldurub bərkidirdilər, bunu ona görə edirdilər ki, qab kürədə

bişəndən və qara rəng alandan sonra, həm də cilalanmış və parıltılı olsun. Bu qayda ilə hazırlanan qablar tamamilə qara rəngli və cilalanmış olur. Lakin elə qablara da rast gəlirik ki, onların gövdəsi boz, üzərindəki həndəsi naxışlar isə tünd-qara rəngli və parıltılıdır. Belə hallarda həmin qablar bişirilməmişdən qabaq yuxarıdakı üsul ilə hazırlanır. Fərq ancaq orasındadır ki, bu tip məmulatın bütün səthi deyil, ancaq naxışları sürtülüb bərkidilir. Nəticədə qab bişəndən sonra onun sürtülmüş naxışları tünd-qara və cilalı, ornamentin yerliyi isə boz rəngdə olur.

Qablar germetik şəkildə bağlanmış kürələrdə 800-900 dərəcə istilikdə bişirilirdi. Onlar yaxşı bişəndən sonra kürənin bacası açılaraq istilik 400 dərəcəyə endirilir, kürə yenidən möhkəm bağlanır, ocağında yaş odun yandırmaqla onun qablar bişən yuxarı mərtəbəsinə istilik deşikləri vasitəsi ilə his verilirdi. Həmin his qabların daxili və xarici səthinə, gilə hopurdu. Tüstülənmə prosesində istidən genişlənmiş gil qabların səthi doyunca his qəbul edərək qara rəng alırdı. Bundan sonra kürənin ocağı tamamilə söndürülür, istilik getdikcə azalırdı. İstilik azaldıqca qablar soyuyur və xarici səthi yığılır, nəticədə, qara his (duda) qabların divarlarında həmişəlik olaraq qalırdı. Qablar soyuyandan sonra təmizlənir, üzəri mumla örtülərək yumşaq parça ilə sürtülüb cilalanırdı. Bu prosesdən sonra qablar qara və parıltılı olurdu. Kürədə 800-900 dərəcə istilik olanda ona tüstü verilmirdi. Əks təqdirdə, duda yanar və qaralama prosesi baş tutmazdı.

Bu dövrdə İran Azərbaycanında da qara cilalı keramika həmin üsulla hazırlanırdı.

Qaralama texnologiyasını biləndən sonra kürə şəkilli Xocalı qabının mürəkkəb naxış kompozisiyasının necə hazırlanması aydın olur. Burada qabın çiyinlərini bəzəyən günəş təsvirinin qara sivri ucları qab bişməmişdən qabaq bərkidilib cilalanmış olduğundan qabın ümumi boz rəngindən fərqlənir.

Gil məmulatları hisə verirkən müxtəlif səbəblər üzündən, məsələn, kürədə (sobada) istiliyin azlığından qabların divarları zəruri qədər genişlənmir, nəticədə kifayət qədər his qəbul etmədiyindən qablar qara deyil, boz rəng alır. Gillərin tərkibində olan dəmir duzlarının bu və ya digər dərəcədə olması ilə əlaqədar olaraq qaralama prosesindən keçirilməmiş qablar bişəndən sonra sarı, açıq-qırmızı, tünd-qırmızı, qırmızı-kərpici rəngi və s. rənglər alır. Buna səbəb, qablar bişərkən həmin dəmir duzlarının dəmir oksidinə çevrilməsidir. Dəmir oksidi isə qırmızı boyaq maddəsi kimi məşhurdur.

Qara keramikanın bədii şəklə düşməsi üçün tunc dövrünün dulusçuları başqa vasitələrdən də istifadə etmişlər. Onlar qabların cızma təsvirlə bəzədilməsinə, cızma rəsm və naxışların ağ maddə ilə inkrustasiya edilməsinə və nəhayət, fiqurlu keramikanın yaradılmasına da əhəmiyyət vermişlər.

Ağzı gen olan qabların üzərində heyvan, insan və ov səhnələrinin rəsmləri cızma üsulu ilə çəkilmişdir. Bu tip keramika Xanlar rayonu üçün səciyyəvidir. Belə qabların üzərindəki təsvirlər bir qayda olaraq ağ maddə ilə doldurulur. Rəsmlərin çəkilməsi və onların inkrustasiya edilməsi prosesi, adətən, qara rəngli qablar bişəndən sonra yerinə yetirilirdi, əks təqdirdə, ağ maddə kürədə yanıb külə dönərdi. Belə qablara misal olaraq Xanlar rayonundan tapılmış bir nümunəni göstərmək olar. Burada ritmik olaraq yerləşdirilmiş iki ovçu və iki keçi təsviri ağ maddə ilə doldurulmuşdur. Ağ rəngli rəsmlər qara cilalı qabın üstündə daha yaxşı görünür. Keçi rəsmləri Qobustan petroqliflərini xatırladır. İnsan surəti sxematik şəkildə olub, iki üçbucağın birləşməsindən düzəldilmişdir. Fiqur qarşı tərəfdən göstərilir. İnsanın sağ əlinin üstündə başı-aşağı üçbucaq formasında olan on bir nöqtə onun qələbələrinin sayını göstərir. Bu, ya düşmən qəbilə, yaxud da heyvanlar üzərində qazanılan qələbədir. Həmin nöqtələr onun neçə övlad arzu etdiyini də göstərə bilər. İnsan və heyvan fiqurları çoxlu nöqtələrlə doldurulmuşdur. Bu onların sayca çoxalmasını, artmasını, günəş allahından təmənna etməsini göstərir. Fiqurlar yuxarıda, qoşa əyri xətlər arasında verilmiş, günəş təsviri altında yerləşdirilmişdir. Heyvan və insan təsvirləri ilə günəş şəkli nöqtələrlə əlaqələndirilmişdir. Burada ovçu da, keçi də günəş allahının himayəsində verilmişdir.

Biz bu nümunədə xronika səciyyəli piktoqramla rastlaşırıq. O, ya ovçunun qələbəsi, ya ölümü, ya da məhsuldarlıq, artım, çoxalma bayramı və ayini münasibəti ilə konkret bir şəxsə həsr edilərək yazılmışdır. Həmin şəxs öləndə piktoqram da onu qəbirdə müşayiət etmişdir.

Piktoqram özünün bütün təsvir vasitələri ilə artma, çoxalma ideyasına həsr edildiyini göstərir və konkret bir ovçunun nailiyyətlərindən danışır.

Piktoqramın hər tərəfdən oxunması üçün qabın xarici səthində insan və keçi fiquru iki dəfə təkrar edilmişdir. Bu prinsipi alban dövrünün keramik piktoqramlarında da görürük.

Qeyd etmək lazımdır ki, qara cilalı keramikanın ağ maddə ilə bəzədilməsi qədim Zaqafqaziyada ancaq Azərbaycan dulusçularına xas olan bir xüsusiyyət idi.

Fiqurlu keramika bu dövrdə özünün ən nadir nümunələrini yaratmışdı. Fiqurlu qablar məlum texnologiyaya əsasən cilalanmış qara və boz rənglərdə olurdu.

Tunc dövrünə aid fiqurlu qabların çoxu quş şəklindədir. Bu, o dövrün dini əqidələri ilə bağlıdır. Həmin dövrdə hazırlanmış tunc quş fiqurları Xanlar, Çovdar və başqa yerlərdən tapılmışdır. Bu içi boş quşlar ölülərin ruhunun simvolik ifadəsi olub, onların saxlanması üçün ən etibarlı yer idi. Ola bilsin ki, bu fiqurlar hami ruhlara da aid olmuşdur. Ruhların yerləşməsindən başqa, onların qidalanmasını da nəzərə alaraq qəbirlərə quş formalı gil su qabları qoyulurdu. Belə qablar ənənəvi olaraq Alban dövründə də düzəldilirdi.

Onların ən yaxşı nümunəsi Füzuli rayonunun Molla Məhərrəmli kəndindən tapılmışdır. Həmin

nümunədə quşun gözləri muncuqdandır, onlar üst tərəfdən qabarıq xətlə haşiyələnmişdir. Şərti formada düzəldilmiş bu fiqurda qanadlar maili qabarıq xətlərlə göstərilmişdir.

Bu dövrdə üstündə bir neçə quş başı olan qablar da yaradılmışdır.

Dəmir dövrünün əvvəllərində (e. ə. VIII-VI əsrlərdə) fiqurlu keramikanın daha yeni bir tipi ortaya çıxır. Bu, öküz başı şəklində olan qablardır. Onlardan biri Gədəbəydə, ikincisi Anadoluda (xetlərə aiddir), üçüncüsü isə Gürcüstanda qazılıb çıxarılmışdır. Güman etmək olar ki, maye bu su qablarından süzülərək bədxah ruhlardan təmizlənirmiş. Alban dövründə bu tip qablara rast gəlmirik. Lakin onları əvəz edən, onların vəzifəsini görən yeni zoomorf qablar ortaya çıxır. Bu yeni tipli fiqurlu qablar zoomorf keramikanın ikinci qrupunda nəzərdən keçirilir. Üçüncü qrupa daxil olan Mingəçevir ritonu da həmin vəzifəyə xidmət etmişdir.

Öküz başlı fiqurlu qabları Türkiyə tədqiqatçısı Remzi Oğuz yunan ritonlarının ən qədim tipləri hesab edir. Dəmir dövrünün başlanğıcında bu tipli keramikanın ortaya çıxması öküzü totem saymaq əqidəsi ilə bağlıdır.

Daha sonralar (e. ə. VII-V əsrlərdə) tufit daşından yonulmuş geniş ağızlı və oturacaqlı qabın qoşa qoyun başı ilə bəzədilməsi də totemizm, xeyir və bərəkət əqidəsi ilə əlaqədardır. Bu qabın daxilindəki qoyun rəsmləri və meandr naxışı gümüşlə inkrustasiya edilmişdir. Belə tipli qabın tunc dövrünə adi naxışsız, tək qoyun başlı nümunəsi qədim Gəncə tərəflərdə, indiki Qasım İsmayılov kəndində tapılmışdır.

Dəmir dövründə bədii cilalı qara keramikanın nisbətən zəiflədiyi özünü göstərir. Lakin alban dövrünün birinci inkişaf mərhələsində tunc dövrü bədii ənənələrinin yenidən dirçəldiyi nəzərə çarpır. Bu dirçəlmə isə cəmisi 5-6 əsrdən çox çəkmir.

Bədii metal. Qədim Azərbaycanda eneolit dövründə mis kəşf ediləndən sonra metal ibtidai icma cəmiyyətinin iqtisadi, təsərrüfat, ictimai və mədəni həyatında görkəmli rol oynamağa başlayır. Bu zaman başqa metallar da tapılıb müəyyənləşdirilir. Misal üçün, qurğuşun, qalay, marqanes metallarının kəşfi Azərbaycan tarixində yeni və mütərəqqi bir dövrün, tunc dövrünün başlanması ilə bağlıdır.

Tunc dövründə qədim əcdadlarımız bu yeni metalların hər birini mislə əridərək təzə keyfiyyətli və daha bərk olan tuncu kəşf etdilər. Tunc yeni dövrün açarı oldu. Tunc istehsal aləti, silah və kult əşyalarının yaradılması üçün daha əlverişli və daha davamlı bir metal idi. Onun ictimai həyatda törətdiyi inqilab ibtidai insanlarda metala qarşı yeni ülvi münasibətlər yaratdı. Onlar metalın ilahi bir qüvvə olmasına inandılar. Tuncun böyük istilik nəticəsində yarandığını, yəni oddan doğduğunu görən ibtidai insanlar onu günəşin töhfəsi kimi, günəş qüdrətli bir varlıq kimi qarşıladılar. Beləliklə, metal kultu ortaya çıxdı. İnsanlar ona həm pərəstiş edir, həm sığınır, həm də ondan kömək diləyirdilər. Odur ki, bədxah ruhlara qarşı mübarizə üçün hazırlanmış tunc zənglərin cingiltili səsindən istifadə olunur, ikibaşlı baltalara müraciət edilirdi. Bu xüsusiyyət Azərbaycan xalqının etnoqrafiyasına və folkloruna da daxil olmuşdur. Xəstələrin başı altına bıçaq, qayçı və ya başqa metal şey qoymaq, yaxud Günəş və Ay tutulanda sinc çalmaq (iki metal lövhənin bir-birinə vurulması) və s. metal kultunun izləridir. Folklorumuzda bu kultla bağlı olan bir sıra motivlər vardır. Yaxın keçmişə aid olan əfsanələrimizdə deyilir ki, insanlara ziyan verən çox qüvvətli və əzəmətli qulyabanını almaq və tabelikdə saxlamaq üçün onun tüklü dərisinə metal (sancaq) sancmaq lazımdır. Bu sancaq onun bədənində olduğu müddətdə qulyabanı insanların hər cür əmrlərini yerinə yetirir və çox müti olur. Sancağı çıxaran kimi isə böyük ziyanlar verərək qaçır. Bu əfsanədə metalın qüdrəti, onun qoruyucu xüsusiyyəti təbliğ olunur.

Tunc dövründə təsərrüfat və hərbi əhəmiyyəti olan çoxlu tunc məmulatı istehsal edilmişdi. Bədii keyfiyyətli nümunələr isə əksər hallarda dini səciyyə daşıyırdı. Onlardan biri Xanlar rayonunda tapılmış tunc məmulatdır. Onun yarıdan iki hissəyə bölünmüş bərabərtərəfli üçbucaq forması və aşağı üfqi haşiyəsi qoşa spirallarla, döymə üsulu ilə bəzədilmişdir. Bu ornamentlər ay allahı ilə əlaqələndirilərək kişi cinsinin qüdrətini təmsil etməklə, guya bəd nəzərdən də mühafizə edirmiş. Üçbucaq hissə aşağı haşiyə ilə 6 simmetrik saya qollarla birləşir. Aşağı haşiyənin zəncirlərindən içi boş və şəbəkəli gövdəsi olan, tökmə üsulu ilə hazırlanmış dörd quş fiquru asılmışdır. Çovdar qəbirlərindən də belə quşlar tapılmışdır.

Bir neçə ölünün dəfn edildiyi ümumi qəbirdən tapılmış (Xanlar rayonu) tunc məmulat bədxah ruhlara qarşı animistik və magik səciyyə daşıyır. Həmin quşların içi boş bədənlərində ölülərin ruhu guya əbədi «rahatlıq tapacaqmış». Tunc fiqurun solundan və sağından isə bədxah ruhları qovmaq üçün iki zınqırov asılmışdır.

Eramızdan əvvəl birinci minilliyin əvvəlində, yəni dəmir dövrünün başlanğıcında da tunc dövrü ənənələri özünü göstərməkdə idi. Buna misal olaraq Qarabağın Dolanlar kəndindən tapılmış ikibaşlı maral fiqurunu nəzərdən keçirək. Bu nadir metal fiqur tökmə üsulu ilə hazırlanmışdı. Maral bu dövrdə qədim azərbaycanlıların pərəstiş etdikləri totem-himayəkar allah idi. Tunc maral fiquru həmin totemə həsr edilmişdir. Bu dövrə aid İranda və Gürcüstanda tapılmış ikibaşlı at və sair heyvan fiqurları da xeyir və bərəkət kultuna həsr edilmişdir.

Sxematik şəkildə tunc təbəqədən hazırlanmış fiqurdan onşəbəkəli zınqırov, onların ortasında isə birşəbəkəli qoza asılmışdır.

Bu dövrün çox yayılmış maraqlı məmulatının bir tipini də tunc kəmərlər təşkil edir.

Üzərində cızma üsulu ilə heyvan, quş, insan, naxış və s. rəsmlər çəkilmiş bu kəmərlər qədim Azərbaycan incəsənətinin səciyyəvi nümunələrindəndir. Bu kəmərlərin üzərində kosmoqonik ideyalar, kainatın od, torpaq, hava, su kimi dörd əsas amildən ibarət olduğunu göstərən təsəvvürlər simvolik təsvir motivləri vasitəsilə verilmişdir.

Tunc kəmərlərin bir qrupunu da üzərində piktoqrafik təsvirlər cızılmış əsərlər təşkil edir. Onların ən tipik nümunəsi kimi Gədəbəydən tapılmış tunc kəmərin piktoqramına nəzər salaq. Burada bir-birini izləyən beş heyvan rəsmi verilmişdir. Sol tərəfdən birinci, üçüncü və beşinci yerdə üstündə günəşin svastika şəklində simvolik təsviri verilmiş şir fiqurları cızılmışdır. Heç bir işarə olmadan məlumdur ki, şir rəsmi bu dövrdə günəş və od rəmzi kimi işlənirdi. İkinci və dördüncü yerdə isə tək buynuzlu fantastik heyvan rəsm edilmişdir. Bu heyvanı hər yerdə ilan rəsmi müşayiət edir. İlan rəsmi özlüyündə axirət dünyasının simvolu olduğu üçün bu heyvan da yeraltı ölülər dünyasının simvolu kimi qəbul edilir. Beləliklə, yazı iki heyvanın: günəşi, işığı təmsil edən şirlə, qaranlıq dünyanın rəmzi olan tək buynuzlu heyvanın mübarizəsi nəql edir. Piktoqramda işıqla qaranlığın, həyatla ölümün mübarizəsi təsvir edilmiş və odun, işığın, həyatın qalib gələcəyi göstərilmişdir. Qədim rəssam bu fikri qəbilə üzvlərinə çatdırmaq üçün yazını günəş işarəli şirin təsviri ilə başlayıb, onun mübarizədə qalib gəlmiş əzəmətli şəkli ilə qurtarmışdır. Sol tərəfdə, birinci şirin arxasında dirilik ağacı təsvir edilmişdir. O, günəşin himayəsində olan həyatı təmsil edir. Bu piktoqramda şir xeyir allahı Hörmüzdü, tək buynuzlu heyvan isə şər allahı Əhriməni təmsil edir.

Kəmərin sol və sağ uclarında suyun, bolluğun qoşa spiraldan ibarət rəmzi işarələrini də görürük. Həmin işarələr məhsuldarlığı, xoşbəxt həyatı təmsil edir, kəməri isə bəd nəzərlərdən hifz edirmiş. Bu işarələr ikiqat şəkildə kəməri haşiyələyir.

Piktoqramın məzmununu nəzərə alaraq demək olar ki, bu tipli tunc kəmərlər qəbilə vuruşmalarında, ölüm-dirim döyüşlərində qalib gələn, fərqlənən igidlərə verilirmiş.

Həmin dövrdə İran Azərbaycanında bədii metal emalı daha yüksək səviyyəyə çatmışdı. Bu, Man dövlətinin siyasi və mədəni tərəqqisi ilə əlaqədar idi. Bu mədəni inkişafın parlaq nümunəsini Ziviyə zərgərlərinin işlərində görürük. Eramızdan əvvəl VIII əsrə aid olan bu cür əsərlərdə Zərdüşt dininin təsiri görünməkdədir.

Məşhur Ziviyə xəzinəsi təsadüfi olaraq tapıldıqdan və yerli əhali tərəfindən vəhşicəsinə talan edildikdən sonra bəzi metal əşyalar, zərgərlik və zinət nümunələri Luvr muzeyində toplanmışdır. Onlardan qızıl yaxalıq, qızıl bilərzik, gümüş nimçə bütün dünyaya məlumdur. Bu əsərlərdə dini-mifoloji motivlərə geniş yer verilmişdir. Lakin onların mühüm xüsusiyyətləri bədii formaların kamilliyin-dən, qüvvətli estetik təsirə malik olmasından ibarətdir.

Aypara şəklindəki qızıl yaxalıqda təsvirlər iki qatda, iki zolaqda verilmişdir. Yuxarı zolaqda, mərkəzdə dirilik ağacı, ondan sola və sağa simmetrik olaraq dağ keçisi, daha sonra isə qanadlı məxluqlar - insan başlı şirlər və adi şirlər, aşağı qatda, dirilik ağacının yanında (keşiyində) dayanan qanadlı şirlər, onlardan sonra isə qanadlı məxluqlar, insanlar, qrifon, qoç başlı və insan başlı şirlər döymə üsulu ilə təsvir edilmişdir. Hər iki zolağın sonunda dovşan təsvir edilmişdir. Bütün bunlar dini-mifoloji məxluqlardır.

Burada dirilik ağacı qədim cəmiyyətin müqəddəs atributu-nişanı kimi kompozisiyanın mərkəzində, görkəmli yerdə verilmişdir. Onun keşiyində isə dağ keçiləri dayanmışdır. Belə heyvan təsvirlərini (üstündə günəş nişanı olmaq şərti ilə) Sasani qablarında da görürük. Bu, onların günəş kultunu təmsil edən günəşin simvolu olan bir heyvan surəti olduğunu göstərir. Beləliklə, yaxalıqda təsviri verilmiş dirilik ağacının günəşi təmsil edən heyvanlar tərəfindən qorunması aydınlaşır. Bu ona görə maraqlıdır ki, biz belə bir xüsusiyyəti tunc dövrünə aid Xanlar keramikasında da görürük və daha sonralar, alban dövrü heykəltəraşlığında da buna rast gəlirik.

Qızıl bilərzik günəş təsviri altında üzbəüz yerləşmiş dörd şir fiquru ilə bəzədilmişdir.

Bütün Ziviyə əsərlərində dövrün ideoloji xüsusiyyətləri, günəş kultunun təbliği, onun atributları, Zərdüşt dinindən gələn əfsanəvi varlıqlar və s. əks etdirilmişdir.

İran Azərbaycanında, Urmiya gölünün cənubunda yerləşən Həsənli adlı qədim yaşayış məntəqəsindən tapılmış gümüş güldan və qızıl cam da diqqətəlayiq görkəmli sənət əsərləridir. Onlar e. ə. birinci minilliyin əvvəllərinə aid olub, döymə üsulu ilə hazırlanmışdır.

Gümüş güldanın xarici səthini qızıla tutulmuş qabartma təsvirlər bəzəyir. Təsvirlərdə piyada və süvarilərin döyüşü, at, öküz və şirəoxşar heyvanları qovan insan surəti öz əksini tapmışdır.

Qızıl camın qabartmaları isə iki cərgədə yerləşmişdir. Yuxarı cərgədə (soldan) araba sürən ay, günəş və göy allahlarının şərəfinə qurbanlıq qoyunların gətirilməsi göstərilir. Aşağı cərgədə qoşa qoç üstündə çılpaq vəziyyətdə, yanlara açılmış əlləri ilə örtüyünü tutmuş halda su, xeyir və bərəkət ilahəsi Anahid, yenicə doğulmuş uşağın kahin tərəfindən dualanması, düşmən üzərində qələbəni xəbər verən carçı və s. təsvir edilmişdir. Atəşpərəstlik məbədinə məxsus olan bu camdan quraqlığa, sonsuzluğa və s. məhrumiyyətlərə qarşı keçirilən dini-sehrkarlıq ayinlərində istifadə edilərmiş.

Beləliklə, qədim Azərbaycanda bədii metal istehsalı ilk növbədə cəmiyyətin ülvi məqsədlərinə, ideoloji tələblərinə, dini təsəvvürlərinə xidmət etmişdir. Eyni zamanda, sənətkarlar təbliğ etdikləri ideyalara

uyğun bədii formalar tapmaqda böyük məharət göstərdikləri üçün yaratdıqları əsərlərin qüvvətli estetik təsir bağışlamasına da nail ola bilmişlər.

Alban dövrü incəsənəti. Alban dövrünün incəsənəti iki inkişaf mərhələsi keçmişdir. Birinci mərhələ e. ə. IV-I əsrləri, ikinci mərhələ I-VII əsrləri əhatə edir.

Birinci mərhələdə bədii keramika, zərgərlik və s. sənətlər inkişaf tapmışdır. Bu dövrdə memarlıqda güman etmək olar ki, yuxarıda haqqında danışdığımız meqalitik tikintilər, qazımalar, qaradamlar və konusvarı alaçıq formalı yaşayış evləri ənənəvi olaraq davam etdirilmiş və bunlardan istifadə olunmuşdur.

Bir çox qədim şəhərlərimizin də bünövrəsi bu dövrdə qoyulmuşdur.

Bədii keramika Qafqaz Albaniyası incəsənətinin birinci dövründə (e. ə. IV-I əsrləri) layiqincə inkişaf tapmış yeganə sənət növüdür. Bu dövrdə ənənəvi olaraq tunc dövründən gəlmiş bir çox dulusçuluq növləri geniş miqyasda istehsal edilirdi. Bununla bərabər dövrün iqtisadi-mədəni inkişafı ilə əlaqədar olaraq yeni keramik formalar da ortaya çıxırdı. O zamanın dekorativ bəzək üsulları həm ənənəvi, həm də yeni səciyyə daşıyırdı.

Daha qədimlərə aid dulusçuluq nümunələrinə misal olaraq, fiqurlu və birləşmiş qabları, bir və üç ayağı olan vaza tipli məmulatı göstərmək mümkündür. Belə dulusçuluq nümunələri dini əqidələrlə əlaqədar olaraq yaradılırdı.

Fiqurlu keramikanın bu dövrdə çox yayılmış növü zoomorf qablardır. Belə qabları zahiri formalarına görə beş qrupa bölmək olar. Birinci qrupa maral, keçi, xoruz, tovuz və s. heyvan və quş şəklində olan fiqurlu qablar daxildir. İkinci qrupda isə qabların çiyni ilə boğazı qoyun və at fiqurları vasitəsilə birləşdirilir.

Bəzi qablar da var ki, onların gövdəsi üzərində maral, qoyun, təkbuynuzlu heyvanların yarım fiquru və ya ancaq başı düzəldilmişdir. Qorelyef formalı bəzəyi olan belə qablar üçüncü qrupa aiddir. Dördüncü qrupa daxil olan qabların üzərində maral, dovşan, qoyun kimi heyvanların qabartma formalı şəkilləri verilirdi. Belə qabartmalar son dərəcə sxematik olurdu. Bu qrupda fiqurlu keramikanın tənəzzülə uğradığını əyani şəkildə görürük. Tənəzzül beşinci qrupun nümunələrində özünü daha qabarıq şəkildə büruzə verir. Bu qrupun qablarında heyvanlar müxtəlif əyri, qabarıq xətlər şəklində təsvir edilir. Artıq ornamental forma almış bu təsvirlər qabların qulpunu, gövdəsini, lüləyini bəzəyir. Bu nümunələr göstərir ki, dövrün sonunda fiqurlu keramika tamamilə tənəzzülə uğramışdır. Bununla belə, ayrı-ayrı hallarda bu tipli qablar ikinci dövrdə də (I-IV əsrlər) yaradılırdı.

Nəzərdən keçirdiyimiz fiqurlu keramika tunc dövründə olduğu kimi bu dövrdə də su, şərab və sair mayelərin saxlanması üçün lazım olurdu. Qablara bədxah ruhların daxil olmamağı üçün onlar totemlərin-himayəkar heyvanların müxtəlif şəkilli təsvirləri ilə bəzədilirdi. Belə dini təsəvvür, dövrün inkişafı ilə əlaqədar olaraq ortadan çıxdıqca totemlərin plastik təsviri də, beşinci qrupda gördüyümüz kimi, təhrif edilərək, ornamental şəkil almış və ikinci dövrdə itib getmişdir.

Fiqurlu qablar heyvanları təmsil etdiyinə görə onlara zoomorf keramika, zoomorf qablar da deyilir. Mingəçevir, Xınıslı və s. yerlərdən tapılmış qara və qırmızı rəngli fiqurlu keramika təsvirlərin sxematikliyinə baxmayaraq, o dövrün plastika sənətində özünəməxsus mühüm yer tutur.

Qafqaz Albaniyasında birləşmiş qablar istehsalı da ənənə şəkli almışdı. Tunc dövründə belə qabların içərisində birləşdirici yollar olurdusa, bu dövrdə artıq qablar süni şəkildə, zahiri forma etibarı ilə birləşir. Belə dəyişiklik qədim ayinin bu dövrdə ortadan çıxması ilə izah edilməlidir. Birləşmiş qablar deşmə nöqtələrlə bəzənsə də, onların əsil gözəlliyi orijinal formalarında və plastik cazibədarlığındadır. Qırmızı rəngli belə keramika nümunələri Mingəçevirdə və Yaloylutəpədə tapılmışdır.

Vaza tipli qablar qara rəngli, bir və ya iki qulplu olub, bir və ya üç ayaq üstə dayanır. Bu tipli qablar Mingəçevir, Yaloylutəpə, Xanlar, Xocalı kimi qədim mədəniyyət yerlərindən tapılmışdır. Onların özünəməxsus plastik gözəlliyi vardır. Lentvarı qulplar, gövdəni bəzəyən şiş qabartmalar, qablara şaquli istiqamət verən mütənasib dayaqlar və nəhayət, iki dairəvi lövhədən düzəldilmiş gövdələr vaza tipli qabların bədii keyfiyyətini qüvvətləndirir.

Bu cür vaza tipli qablar e. d. IV-I əsrlərdə də yaradılmışdır. Onlar əvvəlki mərhələlərdə olduğu kimi, bu dövrdə də dini məqsədlərə xidmət etmişdir. Həmin qablarda qurban kəsilmiş heyvanların qanı və müxtəlif nəzirlər saxlanılırdı. İkinci dövrdə bu tip qablara rast gəlmirik.

Qafqaz Albaniyasında maldarlıq və əkinçiliyin inkişafı ilə əlaqədar olan matraları (flyaqaları) və Yaloylutəpə tipli qabları göstərə bilərik.

Mingəçevir, Xınıslı, Yaloylutəpə və s. yerlərdən tapılmış matralar əkinçilərin, maldarların yanlarında gəzdirdikləri su qablarının müxtəlif formalarda olmasına dəlalət edir. Bu qablar təkqulplu, bir və ikiağızlı, şaquli və üfqi gövdəli olub, müxtəlif dekor ünsürləri ilə bəzədilmişdir. Belə su qablarının üstündə düymələr, gözlüklər, cızma xətlər, eşmə formalı qabarıq çevrələr görünür. Üfqi şəkilli ikiqulplu Mingəçevir və Yaloylutəpə matralarında isə qabın boğaz və sinə tərəflərində narın cızma naxışlara rast gəlirik. Belə qabların plastik forması və naxışları göstərir ki, onlar mənşə etibarilə tuluqlardan əmələ gəlmişdir.

Matraların bir tipi də onun zoomorf fiqurlu keramikadan əmələ gəldiyini göstərir. Belə qablara zoomorf matra deyilir. Onlar quyruğu saxlanmış başsız quş şəklində olan zoomorf qablardır ki, matra kimi

işlənmişdir. Belə matralar da zoomorf keramikanın tənəzzülünü izləməyə imkan verir.

Yaloylutəpə tipli qablar ilk dəfə 1937-ci ildə arxeoloq D. Şərifov tərəfindən Qutqaşen rayonunun Yaloylutəpə deyilən qədim yaşayış məskənindən tapılmışdır. Bununla əlaqədar olaraq sonralar Mingəçevir, Qəbələ, Molla İsaqlı, Torpaqqala, Gəncə, Qazax və digər yerlərdən tapılmış eyni şəkilli qablara Yaloylutəpə tipli məmulat deyilmişdir. Bu keramika qırmızı-kərpici rəngdə olub, gövdəsinin bikonik şəkli, ağzının uzunluğu və tək qulpunun yanda olması ilə fərqlənir. Onların bir qrupu oturacaqsız, digər qrupu isə yastı oturacağı olan silindrik dayaq üzərində yerləşir. Bu qab-ların boğazları bəzən qabartma halqalar, gövdələri isə üç ədəd gözlük naxışlarla bəzənir. Qabartma halqalar qabdakı mayeni bədxah ruhlardan, gözlük şəkilli naxışlar isə bədnəzərdən mühafizə edirmiş.

Yaloylutəpə qabları şərabçılıq təsərrüfatı ilə əlaqədar olaraq istehsal edilmişdir. Həmin qablar formalarının mütənasibliyi və plastik gözəlliyi ilə qədim Azərbaycan keramikasında xüsusi yer tutur.

Bu dövrün keramikasındakı dekorativ bəzək xüsusiyyətləri ənənəvi və yeni tipli olması ilə iki qrupa bölünür.

Tunc dövründən gəlmə ənənəvi bəzək üsullarına misal olaraq, cilalanmış qara rəngli naxışları, az maddə ilə həkk edilmiş ornamentləri göstərmək olar. Bundan əlavə, şaquli girintilər şəklində olan kannelyurlar, gil düyməciklər və qabartma xətlər də daha qədimdən gəlmiş dekorativ formalardır. Belə ənənəvi bəzək ünsürlərindən biri də məhsuldarlıq kultu ilə əlaqədar olan taxıl dənələrinin dekorativ motiv kimi işlədilməsidir.

Bu dövrün keramikasında yeni bəzək üsulları və motivləri də özünü göstərir. Misal üçün, Yaloylutəpə qablarında iki-iki, üç-üç yerləşmiş düymələrin və cızılmış naxışların sadəliyinə baxmayaraq, onlar məmulatın keramik forması ilə o dərəcədə ahəngdardır ki, qabların plastik nöqsanlarını hiss etdirmədən gizlədir, gözəl quruluş cəhətlərini isə nəzərə çarpdırır. Bu hal Qafqaz Albaniyası dulusçularının əsas yaradıcılıq prinsiplərindən birini təşkil edir.

Tunc dövründə qara cilalı qabları bəzəyən qabarıq bəzək motivləri bu dövrdə daha kəskin şəkil alır, daha çox plastikləşmiş halda nəzərə çarpdırılır. Bu motivlər və onlarla yanaşı işlənən kannelyurlar ikinci dövrdə torevtika sənətində də öz əksini tapır.

Bu dövrün astral kultu ilə əlaqədar olaraq istər qara, istərsə də qırmızı rəngli keramikada dini səciyyəli günəş və ay tipli naxışlar meydana çıxır.

Mingəçevir və Yaloylutəpə ustaları keramikada qabarıq - ayşəkilli naxışlar yaratmağa xüsusi fikir vermişlər. Ayı təmsil edən naxışlar bu dövrdə dini təbliğat məqsədi daşımışdır. İkinci dövrdə isə ay naxışları ornamental motivlərə çevrilmiş və ay kultu tənəzzülə uğradıqca, bu yeni bəzək forması da ortadan çıxmışdır.

Ay kultu axirət dünyası ideyaları ilə sıx surətdə bağlı olmuşdur. Odur ki, axirət dünyası haqqında təlimatlar, göstərişlər yazılırdı. Bu yazılar təsvirli yazılar-piktoqramlar olub, qırmızı boya ilə kərpici rəngli qablar üzərinə yazılırdı. Üzərində piktoqram olan belə qablar Mingəçevirdən tapılmışdır.

həmin piktoğramların məzmunundan aydın olur ki, bu dünyanın dindarları o dünyada-axirət dünyasında da günəş və ay allahları qarşısında müqəddəs borclarını yerinə yetirməlidirlər, onların yolunda qurban verməyi unutmamalıdırlar.

Qafqaz Albaniyasının bədii keramikası ikinci dövrdə tənəzzülə uğrasa da, bu mərhələdə inkişaf tapmış bütün dekorativ sənət növləri üçün tükənməz yaradıcılıq mənbəyi olmuşdur.

Alban incəsənətinin ikinci mərhələsində memarlıq, bədii şüşə, torevtika (bədii metal emalı), zərgərlik, həkkaklıq, heykəltəraşlıq və bədii oyma kimi sənətlər tərəqqi tapmışdır.

Memarlıq. Bu dövrün memarlığı üçün müdafiə-qala istehkamları, xristian məbədləri və saraylar xarakterik sayılır. Müdafiə tikintiləri xalqımızın yadelli istilaçılara qarşı mübarizə tarixi ilə əlaqədardır. Belə tikililər ilk növbədə qədim şəhərləri müdafiə məqsədi ilə yaradılırdı. Eramızdan əvvəl I əsrdə salınmış Qəbələ şəhərinin qala istehkamlarını buna misal göstərmək olar. Qəbələ Qafqaz Albaniyasının paytaxt şəhərlərindən biri idi. Bu şəhər XIV əsrdə monqol istilası zamanı tamamilə dağılmışdır.

Qəbələ Selbir və Qafır adlı iki qaladan ibarət olmuşdur. Beşbucaqlı şəklində tikilmiş Selbir qalasının qalın divarları ara-sıra tikilmiş bürclərlə daha da möhkəmləndirilmişdi. Qafır qalasının cənub tərəfindəki bürc və darvazalar indiyə kimi qalmışdır. Yarımdairə şəklində olan bürclərin hündürlüyü 9-10, diametri isə 15 metrdir. Divarların qalınlığı 4 metrə çatır. Bütün bunlar göstərir ki, vaxtilə Qəbələ şəhərinin bişmiş kərpicdən tikilmiş qala istehkamlarının əzəmətli görkəmi olmuşdur. Qəbələnin sakinləri kommunal ehtiyaclara da xüsusi diqqət yetirmiş, saxsı borulardan istifadə edərək şəhəri su ilə təchiz etmişlər.

Müdafiə tikintilərinin görkəmli nümunələrindən biri də V-VII əsrlərdə tikilmiş Dərbənd divarlarıdır. Dərbənd keçidində uzanan bu divarlar «Uzun divarlar» adı ilə məşhurdur. Bu əzəmətli abidə yonulmamış daşdan və kərpicdən tikilərək, şimaldan axın-axın gələn köçəri tayfaların qarşısını kəsən bir sədd vəzifəsini görmüşdür. O, bir sıra müdafiə tikintilərinin kompleksindən ibarətdir. Bu kompleksə bir neçə böyük qala da daxildir. Onlardan ən məşhuru, hündür qaya üzərində tikilmiş «Çıraqqala»dır. Bu qalanın qarşısında geniş müşahidə sahəsi açılır; onun böyük müdafiə imkanları vardır.

Dərbənddə belə mürəkkəb müdafiə sisteminin ümumi uzunluğu 120 km, divarların qalınlığı 8 m,

hündürlüyü isə 18-20 metrə qədərdir. Bu abidənin müdafiə sistemində heykəltəraşlıq əsərlərinə də böyük yer verilmişdir. Heykəllər insan və heyvan surətlərindən ibarət olub, dairəvi və barelyef şəklində yonulmuşdur. O vaxt şəhərin əhalisi bu heykəllərə müdafiə tikintilərinin tilsimi kimi baxırdılar. Guya qala divarlarının və qapılarının taleyi, möhkəmliyi bu tilsimli heykəllərdən asılı imiş. Şəhərdə su mənbələrinin üstündə, ovdanlarda da belə heykəllər qoyulurmuş. Dərbənd qala qapısının üstündə indi də şir başı barelyefi qalmaqdadır.

IV əsrdən başlayaraq xristian dininin yayılması ilə əlaqədar olaraq Azərbaycanda xristian məbədləri tikilir.

Qax rayonunun Ləkit kəndindəki dairəvi məbəd indi dağınıq bir haldadır. Onun divar və sütunlarının ancaq aşağı hissəsi salamat qalmışdır. Məbədin tikintisində çaydaşı, bişmiş qırmızı kərpic və yonulmuş əhəngdaşı işlədilmişdir. Abidənin ümumi quruluşu dairəvi şəkildədir. Şimal, cənub-şərq və qərb tərəflərdə dörd giriş qapısı vardır. Qapılar zahirdən portal şəklindədir. Binanın daxili quruluşu diqqəti daha çox cəlb edir. Məbədin mərkəzi hissəsini örtən günbəz 4 qüvvətli dayaq və onların arasındakı sütunlar üzərinə yatan tağlar üstündə yerləşmişdir. Mütəxəssislər binanın plan quruluşuna əsasən onun IV-V əsrlərdə ikimərtəbəli tikildiyini güman edirlər.

Bu abidəni bəzi tədqiqatçılar xristian məbədi, digərləri isə aya sitayiş məbədi kimi qəbul edirlər. Onun ay məbədi olmasını güman etməyə də əsaslar çoxdur. I əsrdə Şəki yaxınlığında belə bir ay məbədi var imiş. Yunan tarixçisi Strabon həmin məbəddə insanın qurban verilməsi ayinini «Coğrafiya» əsərində ətraflı təsvir edir.

Həmin dövrdə Azərbaycanda ay kultu çox geniş yayılmışdı. Qədim əcdadlarımız aya həm su və məhsuldarlığın, həm də axirət dünyasının himayəkarı, tanrısı kimi pərəstiş edirdilər. Mingəçevir və Yaloylutəpə keramikasında üzərində ay şəkilli qabartma olan qırmızı və qara rəngli su qabları bu kultla əlaqədar olaraq yaradılmışdır.

Qax rayonunun Qum kəndindəki məbəd bazilika tiplidir. Bu növ binalar sırf xristian məbədləri hesab olunur. Məbədin VI əsrdə, yonulmuş böyük çaydaşılarından tikildiyi müəyyən edilmişdir, Binanın daxilində iki sıra sütun qoyulmuşdur. Sütunların əmələ gətirdiyi mərkəz hissə daha hündür olduğu halda, kənar hissələr alçaq tikilmişdir. Bu da bazilika tipli məbədlər üçün səciyyəvidir. Orta hissənin sonunda dairəvi formada absida (mehrab) deyilən yer ayrılmışdır. Sütunların əmələ gətirdiyi üç nef məbədin absida olmayan tərəfində üstüörtülü eyvanlar yaratmağa imkan vermişdir. Midiya dövründə ant tipli binalarda rast gəldiyimiz eyvan memarlıq forması bu abidədə daha kamil şəkildə tətbiq edilmişdir. Məbədin tağları nalvarı formadadır.

Mingəçevir məbədi də tipik xristian məbədidir. V-VII əsrlərdə çiy kərpicdən tikilmiş bu binanın damı bişmiş böyük kirəmitlərlə örtülü imiş. Arxeoloji qazıntı nəticəsində aşkar edilmiş bu abidə bir neçə dini səciyyəli binadan ibarətdir. Binalardan birinin qurtaracağında absida var imiş.

Məbədin divarlarında həndəsi və nəbati naxışlardan ibarət divar rəsmləri çəkilmişdir. Məbədin içərisində heykəltəraşlıq əsərləri də tapılmışdır. Onlardan kəc üzərində işlənmiş süvari qabartmasını və böyük daş (üst səthi 78X69 sm, alt səthi 67X62 sm, hündürlüyü 4.5 sm) üzərində yonulmuş iki tovuz quşunu göstərmək lazımdır. Təsvirlərdən yuxarıda, daşın bütün kənar haşiyəsi boyu cızma yazılar verilmişdir. Bu yazıların qədim alban və yaxud qədim türk yazısı olduğunu iddia edən iki fikir vardır. Daşın üst tərəfdən diametri 19 sm olan bir girintisi vardır. I

Sarayların memarlığı haqqında məlumatımız çox müxtəsərdir. Tarixçilərin göstərdiyinə görə, qədim alban padşahlarının əzəmətli sarayları olmuşdur. VII əsrdə hökmranlıq etmiş Cavanşir saray tikintisinə xüsusi diqqət yetirmiş, öz sarayını təmtəraqlı görkəmə saldırmışdı.

Bu dövrdə əhalinin köçəri vəziyyətdən oturaq həyata keçməsi ilə əlaqədar olaraq şəhərsalma işləri xeyli inkişaf etmişdi. II əsrdə yaşamış yunan coğrafiyaşünası Klavdi Ptolemey Qafqaz Albaniyasının 29 şəhər və kəndinin adını çəkir. I-III əsrlərə aid tarixi mənbələrdə Naxçıvan, Qəbələ, Şamaxı kimi şəhərlərin adına rast gəlirik. Daha sonralar III-VII əsrlərin salnamələrində həmin şəhərlərdən başqa yeni şəhər adlarına da təsadüf edirik. Onlardan Dərbənd, Şabran, Şirvan (Şarvan), Çola, Şake (Şəki), Beylakan, Bərdə, Xalxal, Kalankaytuk, Alven, Minkiçavır (Mingəçevir) kimi şəhərləri göstərmək lazımdır.

Bədii şüşə sənəti. Azərbaycanda şüşə sənətinin yaranması alban dövrü incəsənətinin inkişafının birinci mərhələsinə təsadüf edir. Lakin şüşə ustaları bu dövrdə ancaq bəzək şeyləri (bilərzik, müxtəlif muncuqlar və s.) yaratmaqla kifayətlənmişlər. Şüşə qablar istehsalı isə ikinci dövrün məhsulu idi.

Qədim Azərbaycanda şüşə istehsalının inkişafı, birinci növbədə, ölkənin təbii zənginlikləri ilə bağlı olmuşdur. Azərbaycan torpağında kvars qumunun, soda və əhəng yataqlarının olması şüşənin yerli materialdan bişirilməsi üçün imkan yaratmışdır. Bu işdə başlıca şərtlərdən biri də yanacaq mənbəyi olan meşə materialının bolluğu idi. Doğranmış ağaclardan yüksək dərəcədə istilik verən yanacaq, onların külündən isə tərkibində natri və kali duzları və hətta əhəng də olduğundan, xammal kimi istifadə edilirdi. Bundan başqa, şüşə materialının əridilməsi üçün odadavamlı gildən kiçik tiyanlar hazırlamaq vacib idi. Belə gillər isə Azərbaycanda çox olub, dulusçuluqda da tətbiq edilirdi.

Bədii şüşə məmulatı Mingəçevirdə, İsmayıllı rayonunun Qalagah, Şamaxı rayonunun Xınıslı, Qax

rayonunun Torpaqqala kəndlərində və habelə qədim Azərbaycanın başqa yerlərində tapılmışdır.

İkinci dövrdə şüşədən ən çox bədii effektə malik material (şəxsi möhürlər, bəzək əşyaları və s.) kimi, habelə maye qablarının hazırlanması üçün istifadə edilirdi.

Mingəçevir şüşə möhürlərində dekorativ elementlərlə yanaşı, insan başı və yarımfiquru da cızılırdı.

Mingəçevir ustaları şüşədən qadın bəzəyi üçün müxtəlif formalı muncuq, hamar və eşmə bilərziklər hazırlamışlar. Bilərziklər abı, yaşıl, qəhvəyi, qara, sarı və başqa rənglərdə istehsal olunurdu. Bilərziklərin belə rəngarəng alınması üçün müxtəlif metal oksidlərindən istifadə edilmişdir. Bəzən şüşə bilərziklərin ucları gümüş bilərziklərdə olduğu kimi ilan başı formasında düzəldilirdi. Bu, ilan kultunun incəsənətə göstərdiyi təsirlə izah edilir. Uzun əsrlər boyu ilan axirət dünyasının simvolu kimi ibtidai insanların şüurunda yaşamış və bu anlayış nəsildən-nəslə keçmişdir. Lakin eramızın ilk əsrlərindən etibarən qədim Azərbaycanda ilan kultu və digər totemistik təsəvvürlər ay kultu tərəfindən sıxışdırılır. Bunun nəticəsində ilan və başqa totemistik motivlər dulusçuluqda olduğu kimi getdikcə ideya əhəmiyyətini və təsvir tamlığını itirir, şəkilcə təhrif olunaraq ornamental formaya çevrilir. Belə ideoloji dəyişiklik kənd təsərrüfatının, xüsusilə suvarma kanalları şəbəkəsinin genişləndirilməsi ilə əlaqədardır. Belə ki, əvvəllər dinə görə axirət dünyasının allahı sayılan Ay, sonralar suvarma sisteminin hamisi hesab edilirdi.

Qədim Azərbaycanda şüşə istehsalının mövcud olduğunu sübut edən arxeoloji abidələrə misal olaraq Torpaqqalada (IV-VI əsrlər) və Qəbələdə (VII-VIII əsrlər) tapılmış şüşə bişirən emalatxanaların qalıqlarını göstərmək lazımdır.

Şüşə məmulatı içərisində kiçik qablar öz bədii keyfiyyəti ilə diqqəti daha çox cəlb edir. Azərbaycan Dövlət Tarix muzeyində saxlanan şüşə qabları zahiri görkəminə görə altı qrupa bölmək olar.

Birinci qrupun qabları küpə şəklindədir. Onlar əksər hallarda bəzəksiz olur. Lakin bəzi qabların üzərində şüşə saplarının gəzdirilməsindən alınan naxışlara da rast gəlirik. Buna misal olaraq I-III əsrlərdə yaradılmış Mingəçevir qabını göstərə bilərik. Onun gövdəsi ilanyolu-sınıq xətlərlə bəzədilmişdir. Həmin dövrdə türk tayfaları belə ziqzaq xətlərin fövqəladə sehrkar qüvvəsinə inanırdılar. Belə xətlər gecənin zülmətini dağıdan şimşəyin, göyləri lərzəyə salan ildırımın timsalı kimi qəbul edilmişdi. Xalq belə xətlərdən bədxah qüvvələrə, bədnəzərə qarşı mühafizəedici bir nişan kimi istifadə edir, onların sehrkar qüvvəsinə inanırdı. Buna görə də o dövrün gil qablarında, metal əşyalarında, taxta və sümük daraqlarda ziqzaq xətlərə tez-tez təsadüf edirik.

Mingəçevirdən tapılmış bu qrupun nümunələri içərisində gövdəsi kannelyurlarla bəzədilmiş bənövşəyi rəngli qablara da təsadüf edirik. Onların bəziləri I-II, bəziləri isə IV-VIII əsrlərdə yaradılmışdır. Ədəbiyyatda bu tip qabların qədim Finikiyadan gətirildiyi qeyd edilir. Lakin bunların Azərbaycanda geniş miqyasda işlədildiyini və buna görə də yerli ustalar tərəfindən təqlid edildiyini də inkar etmək olmaz.

İkinci qrupa aid olan şüşə qablar armudu formada olduğu halda, üçüncü qrupun nümunələri özünün şaquli kompozisiyaları ilə fərqlənir.

Üçüncü qrupa daxil olan qablar, əsasən, Mingəçevirdə tapılmışdır. Onları gövdələrinin zahiri formalarına görə üç tipə bölmək olar. Birinci tip qabların gövdəsi küpə şəklində olduğu halda, ikinci tip qablarda gövdə uzunsovlaşmış şəkil almışdır. Üçüncü tip qablar isə konik formaları ilə fərqlənirlər. I-III əsrlərə aid olan bu üç tipdən başqa Mingəçevirdə IV-VIII əsrlərin dördkünc prizma şəkilli şüşə qabları da tapılmışdır.

Dördüncü qrup qablar müxtəlif formalı dekorativ-ornamental bəzəkləri ilə fərqlənir. Onlardan III-IV əsrlərdə hazırlanmış uzunsov naxışlı qabları göstərmək olar. Belə naxışlar Mingəçevirin I əsrə aid keramik qablarında da vardır. Bu növ şüşə qablar Mingəçevirdə IX-XIII əsrlərdə də istehsal edilmişdir. Şüşə qabların badamı çıxıntılarla bəzədilməsi onlara metal məmulatının görkəmini verir.

Beşinci qrupa zərif, dairəvi oturacağı olan şüşə piyalələr daxil edilir. Bu tipli qablar İsmayıllı rayonunun Qalagah və Şamaxı rayonunun Xınıslı kəndlərindən tapılmışdır. Onlar I-II əsrlərə aiddir. Bu qabların zahiri bəzəyində qabartma ünsürlərə tez-tez rast gəlirik.

Sonuncu, altıncı qrupa şaquli formalı piyalələr aiddir. Bir qayda olaraq, onların dairə şəkilli alçaq dayaqları olur.

Şüşə sənəti Qafqaz Albaniyasının digər dekorativ sənətləri ilə (məsələn, keramika və torevtika sənətləri ilə) sıx əlaqədə yaranmış və inkişaf etmişdir. Bu sənət ölkədə maddi mədəniyyətin formalaşmasında görkəmli rol oynamış və orta əsrlərdə Azərbaycanda orijinal şüşə sənətinin yaranması üçün zəngin mənbə olmuşdur.

Qədim incəsənətimizin ikinci inkişaf dövründə (I-VII əsrlər) bədii şüşə sənəti bir çox səbəblərə görə tənəzzülə uğramış dulusçuluğun zəifləməsini daha da sürətləndirmişdir. Bu yeni sənət ikinci dövrün ictimai amillərinə daha çox uyğun idi; bu vaxt dini təsəvvürlər getdikcə zəifləyir, feodal saraylarında eyş-işrət, əyləncə məclisləri adi hal alır və şəhər həyatı korlanmağa başlayır. Odur ki, şüşə istehsalına olan ehtiyac dövrün ictimai zərurəti kimi ortaya çıxır.

Şüşə sənətinin inkişafı VIII əsrdən etibarən Azərbaycanda şirəli dulusçuluq məmulatının istehsalı üçün texnoloji baza yaratmışdı. Belə ki, şüşə və keramika üçün şirələrin istehsalı, təxminən, eyni texnoloji

proseslər və eyni xammal tələb edirdi.

Qədim Azərbaycanın şüşə məmulatı qəlibə salmaq və üfürmək kimi iki üsulla hazırlanırdı. Bu dövrdə ustalar şüşənin hələ tamamilə ağ rəngdə alınmasına nail ola bilməmişlər. Xammalın (qum, soda, əhəng) tərkibində olan dəmir qatışıqları şüşənin yaşılımtıl rəng almasına səbəb olurdu.

Şüşə məmulatı içərisində göy, yaşılaçalan göy və abı rəngli qablara da rast gəlirik.

O vaxt ustalar hələ dəmiri və misi lazımlı əsas materialdan ayıra bilmirdilər. Təmiz ağ rəngli şüşə alınması üçün qumu tərkibində müxtəlif metal oksidləri olan duzlardan ayırmaq lazım idi.

Şüşə kürələrində xammalın bişməsi üçün 1500°-yə qədər istilik tələb olunurdu. İstənilən istiliyi əldə etmək üçün isə meşələrdə olan bol və yararlı ağaclardan istifadə edilirdi. Lakin ibtidai şəkildə qurulmuş kürələrdə istiliyin çox hissəsi ətrafa dağılır və itib gedirdi. Əldə edilən istiliyin kifayət etməsi üçün şüşə xəmiri ibtidai və kiçik qazanlarda bişirilirdi. Nəzərə almaq lazımdır ki, qazandan götürülən şüşə xəmiri tez soyuyur, soyuq halda isə ona forma vermək olmurdu. Bütün bu çətinliklərin nəticəsidir ki, o dövrdə ancaq kiçik həcmli qablar istehsal etmək mümkün olmuşdur.

Alban dövründə bədii şüşə istehsalının inkişafı iki mərhələdə (I-IV və IV-VII əsrlər) baş vermişdir. İkinci dövrdə qabların həcminin nisbətən böyük olması, yəqin ki, şüşə bişirən kürələrin təkmilləşməsindən irəli gəlmişdir. Bu texniki tərəqqi isə həmin dövrdə dəmirçiliyin inkişafı və dəmirçi kürələrinin daha məqsədəuyğun şəkildə qurulması ilə əlaqədardır. Dəmirçiliyin tərəqqisi isə, şübhəsiz ki, istehsal alətlərinin istehsalı və müharibələrlə sıx surətdə bağlı idi.

Bədii metal. Zərgərlik.

Qədim Azərbaycanda bədii metal sənətinin inkişafı alban dövründə yeni mərhələyə qədəm qoyur. Bu sənət artıq, əvvəlki dövrlərin dini təsəvvürlərin-dən azad olaraq, əsasən, məişət ehtiyac-larına və həyati ideyalara xidmət etməyə başlayır. Bədii metal ustaları tunc və gümüşdən məişətdə lazım olan qablar hazırlayırlar. Bədii metal sənətinin bu növünə torevtika deyilir. Qafqaz Albaniyasında torevtika sənəti xüsusilə I-VII əsrlərdə geniş surətdə yayılır.

Bu dövrdə Mingəçevirdə, Torpaqqalada və Qafqaz Albaniyasının ərazisinə daxil olmuş Cənubi Dağıstanda torevtika nümunələri istehsal edən emalatxanalar fəaliyyət göstərmişdir. Bu emalatxanaların məhsulu sırf praktik əhəmiyyət daşısa da, qabların bəzəyində əvvəlki dövrlərin dini təsəvvürlərindən doğan motivlər yenə də qalmaqda idi. Lakin bu ünsürlər getdikcə dini əqidələrdən uzaqlaşır və dekorativ-ornamental motivlərə çevrilirdi. Bu baxımdan Mingəçevir və Torpaqqaladan tapılmış gümüş camlar çox maraqlıdır. I-II əsrlərə aid Mingəçevir camı ritmik olaraq dörd dəfə təkrar edilən dörd barmaq naxışla bəzədilmiş, bu qruplaşmış naxışların arasındakı boşluqlar isə cüt üzüm salxımı qabartmaları ilə doldurulmuşdur.

Üzüm salxımları birinci dövrdə məhsuldarlıq, bərəkət kultunun əlamətlərindən biri sayıldığı halda, bu mərhələdə qabın dekorativ bəzək ünsürünə çevrilmiş ornament motivi kimi qəbul edilir.

Torpaqqaladan tapılmış III əsrlərə aid gümüş camın içində maralı yıxıb parçalayan qanadlı şirin təsviri cızılmışdır. Heyvanların təsviri realist səpkidə yaradılmışdır. Burada qanadlı şirin rəsmi atəşpərəstlik kultu ilə əlaqədardır. Şir od və günəşin ilahiləşmiş qüdrətini təmsil etdiyi halda, maral təslim olmuş, ölümə məhkum, köməksiz bir varlığın obrazıdır. Həmin təsvirlər simvolik səciyyə daşıyır.

Cənubi Dağıstanda yaradılmış VI-VII əsrlərə aid tunc su qablarının təsvirləri də ənənəvi olaraq davam edən qədim motivlərdəndir. Həmin motivlər əvvəlki dövrlərdə sırf dini səciyyə daşıdığı halda, bu dövrdə artıq dekorativ bəzəklərə çevrilmişdir. Rusiya Federasiyası Dövlət Ermitajında belə metal qab nümunələrindən ikisi saxlanılır.

Armudu şəkilli, təkqulplu birinci qabın üstündə müqəddəs ağacın rəsmi, onun iki tərəfində isə tovuz quşunun təsvirləri döyülmüşdür.

Tovuz quşunun müqəddəs sayılan təsviri zaman keçdikcə atəşpərəstliyin ortadan çıxması ilə əlaqədar olaraq öz formasını dəyişib sadələşmiş və nəhayət, «buta» şəklinə düşmüşdür. Buta isə türk xalqlarında başlıca ornament motivi kimi qəbul edilmiş və sonralar başqa qonşu xalqların da incəsənətinə daxil olmuşdur.

Qulpsuz, armudu şəkilli tunc su qabının döymə üsulu ilə bəzədilmiş gövdəsi nəbati naxışlarla örtülmüşdür. Naxışların üstündə yerləşdirilmiş qoşa butalar naxışlarla üzvi surətdə əlaqələndirilmişdir. Təsvirdə butaların tovuz quşundan əmələ gəldiyini göstərən bir ünsür özünün arxaik xüsusiyyətini yaxşı saxlamışdır: bu, butaların aşağısında görünən və tovuz quşunun quyruğunu xatırladan rəsmdir.

Bu dövrün tunc qablarında xalis bəzək elementi kimi işlənmiş naxış motivlərinə də rast gəlirik. Onlardan ən təsirlisi kannelyur ornament motividir. Kannelyurlar qabın gövdəsinin döymə üsulu ilə ritmik şəkildə yan-yana düzülmüş şaquli batıqlara bölünməsindən alınır. Bu motiv Azərbaycan torevtikasına Qafqaz Albaniyasının bədii keramikasından keçmişdir.

Torevtikanın inkişafı ölkənin Sasani dövləti tərəfində Bizans dövlətinə qarşı vuruşması faktı ilə də əlaqədardır. Çünki müharibə edən ölkəyə çoxlu silah və zirehli geyimlər lazım idi. Bu isə qədim Azərbaycanda dəmirçiliyin geniş yayılmasına kömək etmiş, bundan əlavə, hərbi qənimət ki-mi əldə edilən

antik torevtika nümunələri də bu sahədə mədəni əlaqələrin genişlənməsinə, qabaqcıl texnikanın və yunan bədii formalarının mənimsənilməsinə səbəb olmuşdur. Antik dövr sənət xüsusiyyətlərinin Qafqaz Albaniyası ustaları tərəfindən qəbul edildiyini göstərən nümunələrə tez-tez rast gəlirik. V-VII əsrlərə aid olan iki tunc Dağıstan məcməyisini buna misal göstərə bilərik. Hər iki məcməyidə antik təsvir formalarının təsiri görünür.

Torevtika sənətinin inkişafı göstərir ki, qədim Azərbaycan incəsənəti bu dövrdə dönüş mərhələsi keçirib dini əqidələrdən uzaqlaşır və dünyəvi ideyalarla sıx surətdə bağlanır.

Alban dövründə zərgərlik sənəti iki inkişaf mərhələsi keçmişdir. Birinci mərhələ e. ə. IV-I əsrlərini, ikinci mərhələ isə I-VII əsrləri əhatə edir.

Birinci mərhələdə Mingəçevirin və Yaloylutəpənin qədim zərgərləri tərəfindən üzüklər, sırğalar, baş bəzəkləri (cütqabağı), qol bilərzikləri, arpa şəkilli qızıl muncuqlar və s. hazırlanmışdır. Bu bəzək məmulatının əksəriyyəti alban dövründən də əvvəl qədim azərbaycanlıların məişətində işlənmiş və ənənəvi olaraq sonrakı dövrlərdə davam etdirilmişdir.

Birinci mərhələdə bəzəklərin əksəriyyəti dini səciyyə daşıyırdı. Bu baxımdan qızıl sırğalar və bilərziklər birinci mərhələ üçün səciyyəvi sayılan əşyalardır.

Sırğaların asma hissəsi hansı formada olursa-olsun halqalarının ucları, bir qayda olaraq, ilan başını təmsil etməli idi. Bu, birinci mərhələdə ilan kultunun çox qüvvətli olmasından, hətta bəzəklərə də öz təsirini göstərməsindən irəli gəlirdi.

Bir sıra qızıl və gümüş sırğalar da vardır ki, onların asma hissəsi dənlərdən tərtib edilmiş bərabərtərəfli üçbucaqlar şəklindədir. Belə sırğalardakı dənlər taxılı, digər dənli bitkiləri və üzümü təmsil edir. Demək, bu tip bəzək şeyləri bərəkət, məhsuldarlıq kultuna həsr edilmişdir. Yaloylutəpənin aypara şəkilli qızıl sırğalarının aşağı hissəsində də üç dən yerləşdirilir. Görünür ki, bunlar da bərəkət kultu ilə əlaqədar olmuşdur.

Qol bilərzikləri tuncdan və gümüşdən düzəldilirdi. Onların ucları ilan və qoyun başları formasında tökmə üsulu ilə hazırlanırdı. Güman etmək olar ki, ölüləri axirət dünyasına göndərmək ayinində ilan başlı qol bilərziklərindən də istifadə edilmişdir. İbtidai insanların etiqadına görə, qolunda belə bilərzik olan ölülər axirət dünyasında bədxah ruhların əzabından xilas olurlar.

Qol bilərziyində qoyun başının olması totemizmin əlamətidir. O vaxtlar hər qəbilənin bir totemi-himayəkar heyvanı vardı. Belə totemlərin surətlərini özləri ilə boyunlarında, qollarında gəzdirən qədim insanlar elə zənn edirdilər ki, artıq hər cür bədbəxt hadisələrdən qorunacaqlar, onlara bədxah ruhlar heç vaxt toxuna bilməyəcək. Belə bilərziklərdə ilan və qoyun başlarının ünsürləri-gözləri, ağzı və burnu kəsmə üsulu ilə dəqiqləşdirilmiş, başların yan tərəfləri isə narın kəsilmiş xətlərlə bəzədilmişdir.

Birinci dövrün texnoloji və bədii nailiyyətlərindən görünür ki, qədim ustalar tökmə, döymə (çekan) və basma (ştamp) kimi üsullardan müvəffəqiyyətlə istifadə etmişlər. Onlar lövhə şəkilli Mingəçevir sırğalarında qırmızı rəngli daşlar tətbiq etməklə qədim Azərbaycan zərgərliyinə yeni texnoloji xüsusiyyət və əvəzedilməz bədii estetik keyfiyyət gətirmişlər.

İkinci mərhələnin zərgərlik məmulatı dini təsəvvürlərdən uzaqlaşaraq, dünyəvi ideyalara, dekorativ məqsədlərə xidmət etmişdir.

Bu dövrdə Qafqaz Albaniyasının Mingəçevir, Xınıslı, Qalagah (İsmayıllı rayonu) və Torpaqqala (Qax rayonu) kimi zərgərlik mərkəzləri olmuşdur. Belə qədim şəhərlərdən tapılmış bəzək şeyləri formalarının orijinallığı ilə fərqlənir. İkinci dövrdə hazırlanan qızıl məmulatı sayca çox və bədii keyfiyyətcə daha yaxşı olduğu üçün, bu dövr zərgərlik sənətinin yüksəliş dövrü hesab edilir.

I-VII əsrlərdə zərgərlər sırğa, belbağı toqqası, qızıl muncuqlar, bilərziklər, sancaqlar və üzüklər hazırlamaqla bərabər silahları da bəzəyirdilər.

Birinci mərhələdə qeyd etdiyimiz üç dənli qızıl sırğalar bu dövrdə daha da təkmilləşmişdir. İndi dənlərin sayı daha da çoxalmış, onlar birbaşa halqaya yox, halqaya bənd edilmiş qızıl kürəciyə yapışdırılırdı. Mingəçevirdə belə sırğalardan çox tapılmışdır. Onların içərisində elələri də var ki, qızıl kürəcik əvəzinə qırmızı əqiq-dən muncuq qoyulmuşdur.

Bu dövrün zərgərlik işlərində təbii daşlardan, xüsusilə qırmızı rəngli daşlardan geniş surətdə istifadə olunurdu. Belə daşlar həm üzüklərdə, həm də sırğalarda tətbiq edilirdi. Məsələn, Torpaqqaladan tapılmış sırğada dörd üçbucaq çərçivə içərisinə qırmızı daşlar yerləşdirilmişdir. Eyni tipli, lakin daha mürəkkəb quruluşlu sırğa Qalagahdan tapılmışdır.

İkinci mərhələdə zərgərlər daha sadə və daha zərif məmulat yaratmağa çalışırdılar. Onlar sadə konstruktiv formalardan, ornamental dekor elementlərindən istifadə edirdilər. Bundan əlavə, aydın görünür ki, zərgərlik sənətinin inkişafı bir tərəfdən texnoloji proseslərin təkmilləşməsindən, digər tərəfdən isə estetik zövqün yüksəlməsindən asılı olmuşdur. Nəticədə, zərgərlik işlərində yüngül ornamental formalara daha çox yer verilmiş və beləliklə də, sonralar inkişaf edən şəbəkə üsullarının əsası qoyulmuşdur:

Həkkaklıq və heykəltəraşlıq. Gil, daş, metal, qiymətli daş, şüşə kimi cisimlər üzərində müxtəlif rəsmlərin iti uclu alətlər vasitəsi ilə oyulması heykəltəraşlıq və həkkaklıq sənətini yaratmışdır. Cəmiyyət tarixinin və eləcə də incəsənətin inkişaf mərhələlərinin öyrənilməsində bu sənət etibarlı mənbələrdən hesab

edilir.

Ədəbiyyatda üstü təsvirli daşlara gemma deyilir. Gemma iki cür olur: üzərindəki təsvir cızılmış olanda i n t a l i y a, qabarıq olanda k a m ey a adlanır.

Azərbaycan ərazisində tapılmış həkkaklıq (qliptika) nümunələri e. ə. I minilliyin başlanğıcından eramızın XX əsrinə qədər olan uzun bir dövrün müxtəlif mərhələlərində yaradılmışdır. Onların əksəriyyəti alban dövrünə aid olub, Mingəçevir, Xınıslı, Torpaqqala, Qəbələ, Örənqala, qədim Gəncə kimi yerlərdən tapılmışdır.

Həkkaklıq nümunələrinin köməyi ilə ayrı-ayrı dövrlərdə oyma sənəti ilə məşğul olmuş rəssamların ustalıq səviyyəsini öyrənmək olur.

Azərbaycan ərazisində tapılmış həkkaklıq nümunələrini üç qrupa bölmək olar. Birinci qrupa yunan-Roma sənətkarlarının yaratdığı nümunələr, ikinci qrupa Sasani sənətkarlarının əsərləri və üçüncü qrupa qədim Azərbaycanın oyma ustalarının kiçik cisimlər üzərindəki rəsmləri daxildir.

Antik həkkaklıq nümunələri Azərbaycana hələ e. ə. IV-III əsrlərdə İrandan gətirilmişdir. Lakin antik oyma əşyalarının ardıcıl olaraq Azərbaycana gətirilməsi, e. ə. I əsrin ortalarında (66-65-ci illərdə) Lukull və Pompeyin rəhbərlik etdiyi Roma qoşunlarının Qafqaza hücumu ilə əlaqədardır. Bu tipli antik nümunələrin Romadan asılı vəziyyətdə olan Qafqaz Albaniyasına gətirilməsi IV əsrə qədər davam etmişdir.

Roma gemmalarında allahların, dini kult əşyalarının rəsmləri və simvolik səciyyəli təsvirlər verilmişdir. Onların içində əlində nizə və qalxan tutmuş müharibə allahı Marsın, məhəbbət allahı Erotun, günəş allahı Heliosun, məhəbbət və gözəllik ilahəsi Beneranın rəsmlərinə rast gəlirik. Simvolik səciyyəli təsvirlər də diqqəti cəlb edir. Misal üçün, məhsuldarlıq və əmin-amanlıq simvolu olan lalənin sünbül ilə birlikdə rəsmi, yaxud məhəbbət, dostluq və razılıq ifadə edən iki əlin bir-birini sıxması da Roma həkkaklığı üçün xarakterikdir.

III əsrdən başlayaraq Qafqaz Albaniyası ilə Roma arasındakı ticarət və mədəni əlaqələr getdikcə zəifləyir. Azərbaycanın Sasani dövləti ilə siyasi və mədəni münasibətləri isə getdikcə qüvvətlənir. Bununla əlaqədar olaraq, III əsrdən sonra Sasani həkkaklıq nümunələri Azərbaycana daha çox gətirilirdi. Onlar şəxsiyyəti bildirən möhürlər kimi işlədilirdi. Bu möhürlərin çərçivəsi tunc, gümüş və qızıldan, qaşı isə əqiq, xalsedon, lazurit, dağ bülluru kimi daşlardan, bəzən də metaldan düzəldilirdi. Möhürlərin rəsmlərində insanlar, dini ayinlərin icrası, fantastik varlıqlar, heyvanlar, quşlar, nəbatat, astral işarələr və yazılar təsvir edilirdi. Bu təsvirlərin əksəriyyəti atəşpərəstliklə əlaqədardır.

Qədim azərbaycanlılar e. ə. I minilliyin ilk əsrlərindən etibarən həkkaklıq texnikasına yaxşı bələd idilər.

Yerli ustaların yaratdıqları ilk həkkaklıq nümunələri e. ə. IV-III əsrlərə aiddir. Bunlar çaxmaqdaşı kimi adi daşlar üzərində cızılmış sxematik rəsmlərdən ibarətdir.

Parfiya-Sasani dövründə isə yerli möhürlərdə heyvan, nəbatat, səma cisimlərinə (Günəş, Ay) və müxtəlif işarələrdən ibarət rəsmlərə rast gəlirik. Onlarda Zərdüşt dininin təsiri də özünü göstərir.

Ustalar daş möhür qaşlarını müxtəlif metalların çərçivəsinə salırdılar ki, onların təsvirlərini hər hansı bir materialın üzərinə köçürmək asan olsun. Çox zaman işin texnoloji prosesini sadələşdirmək üçün daş əvəzinə, tunc və gümüş üzüklərin dairəvi və düzbucaqlı möhürlüyündən istifadə edirdilər. Metal rəsmlərdə ay motivinin müxtəlif variantları cızılmışdır.

Uçar rayonunda III əsrə aid olan maraqlı bir gemma parçası tapılmışdır. Onun üzərində ağacda oturub fleyta çalan heyvanabənzər bir varlıq təsvir edilmişdir.

Qədim Azərbaycanda həkkaklıqdan mal sahibini göstərən möhür, insanları bədxah ruhlardan qoruyan tilsim və bəzək kimi də istifadə edilirdi. Tilsim olan gemmalarda ilahi qüvvələrin, qədim totemlərin, allahların, xeyirxah ruhların təsvirləri verilirdi.

Həkkaklıq sənəti qədim Azərbaycanda təsviri sənətin inkişafını və səciyyəvi xüsusiyyətlərini əyani surətdə göstərən mötəbər mənbələrdəndir.

Heykəltəraşlıq Qafqaz Albaniyası incəsənətinin ikinci dövründə (I-VII əsrlər) tərəqqi tapmışdır. Qədim plastik sənətin müxtəlif nümunələrini üç qrupda ümumiləşdirmək olar. Birinci qrupa qabartma tipli təsvirlər, ikinci qrupa dairəvi heykəllər, üçüncü qrupa isə qəbirüstü abidələr daxil edilir.

Birinci qrupu Mingəçevirdən tapılan ucları qoyun, ilan başı şəklində oyulmuş gümüş bilərziklər, daşdan, kəcdən hazırlanmış əsərlər və gildən yoğurulmuş keramik nümunələr təşkil edir.

Zərgərlik sənəti bəhsində deyildiyi kimi, bilərziklər ən qədim dini əqidələrdən olan totemizmlə əlaqədar olaraq heyvan başları ilə bəzədilmişdir. Belə bilərziklər e. ə. IV-I əsrlərə və e. I əsrinə aiddir. Lakin daha əvvəlki dövrlərdə tunc bilərziklər metal kultu ilə əlaqədar olaraq insanları qorumaq «qüdrətinə» malik idi. Odur ki, qədim azərbaycanlılar belə bilərzikləri həm qollarına həm də qıçlarına salırdılar. Bu ayin qədim insanların metala, tunca oddan törəmiş, od qüvvəsinə malik ilahi bir varlıq kimi pərəstiş etmələrinin nəticəsi idi. Lakin zaman keçdikcə əcdadlarımız metalların sirrinə daha çox bələd olur və dərk etməyə başlayırdılar ki, tunc, gümüş adi şəkildə insanı qoruya bilməz, onlarda ilahi qüvvə yoxdur, çünki onları insan özü yaradır və şəkildən-şəklə salır. Ulu babalarımızın bu «kəşfindən» sonra ustalar tunc və gümüş bilərziklərə və eləcə

də başqa metal əşyalara totem allahların surətini əlavə etməklə, onların ilahi «qüvvəsini» bərpa etmiş oldular.

V-VI əsrlərə aid Mingəçevir daş qabartmasında müqəddəs ağacın sol və sağında üzbəüz dayanmış iki tovuz quşu əks edilmişdir. Daşın xarici səthinin çopurlaşmasına baxmayaraq, qabartmanın təsvirlərində plastik ifadə və dürüst rəsm özünü göstərməkdədir. Quşların boğazlarındakı lentlər (qüdrət və hökm nişanəsi) kompozisiyanın dinamikliyini və plastikliyini artırır.

Maraqlı burasıdır ki, qabartmada tovuz quşları dirilik ağacının, həyat ağacının keşiyində durmuş vəziyyətdə təsvir edilir. Xanlar rayonundan tapılmış tunc dövrünün qara gil qablarında da buna bənzər cızma rəsmlər vardır. Orada dirilik ağacı svastika şəkilli iki günəş təsvirinin əhatəsində verilmişdir. Belə müqayisə göstərir ki, günəş, od əcdadlarımızın təsəvvürünə görə həmişə həyatın xidmətində olmuş, onu himayə etmişdir. Daşın yuxarı hissəsində onun bütün perimetri boyu yazılar vardır. Bu yazıların qrafik quruluşunu və dövrün tarixi şəraitini nəzərə alaraq onların alban və ya qədim türk yazıları olduğu ehtimal edilir. Nəticə etibarı ilə qeyd etmək lazımdır ki, qabartmalı daşın yaradılması sasani-atəşpərəstlik ideyalarının Azərbaycanın türk qəbilələri arasında təbliğ edildiyi bir vaxta təsadüf etmişdir.

Kəc üzərində hazırlanmış süvari təsviri isə VIII əsrə aiddir. Bu qabartmada süvarinin başı və atın qıçları qalmamışdır. Heykəltəraş ən kiçik əşyaları belə təfərrüatı ilə verməyə çalışmışdır. Bunun nəticəsində süvarinin geyimi və qoşqu alətlərinin ornament bəzəkləri yaxşı nəzərə çarpır. Əsər bədii təsirə malik olmaqla, kəc üzərində ən qədim Azərbaycan qabartması kimi çox qiymətlidir.

İkinci qrupa daxil olan dairəvi heykəllər plastika sənətinin bu dövrdə daha çox inkişaf etdiyini sübut edir. Bu qrupa gil, tunc və daş heykəllər daxildir. Əksər hallarda qadın fiqurlarından ibarət olan sxematik və kobud gil heykəlciklər Mingəçevir və Xınıslı kimi qədim mədəniyyət mərkəzlərində, İsmayıllı, Şəmkir, Qutqaşen və s. rayonlarda tapılmışdır. Onları dörd qrupa bölmək olar. Birinci qrupa daxil olan heykəlciklər ölü ilə birlikdə qəbirə basdırılırdı ki, axirət dünyasında mərhumun bütün əziyyətlərini çəksin ona xidmət etsin (tunc dövründə bu məqsədlə qulları öldürüb qəbirlərə basdırırdılar, alban dövründə isə onlar gil heykəlcikləri ilə əvəz edilirdi). İkinci qrupa daxil olan fiqurlar da dini animistik təsəvvürlər nəticəsində yaranmışdır. Ölü ilə yanaşı qəbirə qoyulmuş bu heykəlciklərdə guya dəfn edilmiş adamın ruhu əbədi olaraq yaşayacaqmış. Axirət dünyasında ölüləri əyləndirmək məqsədi ilə yaradılmış heykəlciklər üçüncü qrupu təşkil edir. Dördüncü qrupda isə müxtəlif allahları təmsil edən, xəstəlik «köçürülmüş» və s. fiqurlar cəmlənir.

Tunc və daş heykəllərdə daha mürəkkəb kompozisiya, müxtəlif plastik forma və bədii xüsusiyyətlərə rast gəlirik. Mum qəliblərdə tökülmüş tunc heykəllər içərisində Mingəçevirdə tapılmış maral (I əsr), Cənubi Dağıstandan tapılmış tovuz, keçi və qaz fiqurları (V-VII əsrlər) xüsusi yer tutur. Bu heykəllər məişətdə müxtəlif vəzifələr daşımışdır: maral öz zəngi ilə bədxah ruhları qovub dağıdan və qəbiləyə himayəkarlıq göstərən ilahi qüdrətli totemin fiqurudur, tovuz fiquru isə ətirli tüstü verən qab kimi işlədilmişdir. Belə qablarda yandırılan bitkilərin tüstüsü guya evi bədxah ruhlardan, bəd nəzərlərdən qoruyurmuş (bu cür bitkilərdən biri də üzərlikdir). Keçi və qaz heykəllərindən su qabı kimi istifadə edilmişdir.

Naxçıvanda tapılmış tunc süvari heykəli (VII əsr) Azərbaycan hökmdarı Cavanşirin yeganə plastik obrazıdır. Bu əsərdə Cavanşir zərif bir gəncin surətində təsvir edildiyi halda, Azərbaycan dövlətinin rəmzi olan at fiquru daha əzəmətli və daha qüdrətlidir.

Daş heykəllərdə monumentallıq kimi yeni plastik keyfiyyət ortaya çıxmışdır. Bunu, Xınıslıdan tapılmış heykəllərdə aydın görürük. Belə heykəllər e. d. I minilliyin sonunda və eramızın ilk əsrlərində yaradılmışdır. Şamaxı rayonunun Dağkolanı kəndindən tapılmış heykəl də bu qrupa daxildir. Bu vaxta qədər Xınıslı heykəlləri qədim bütlərin, allahların heykəli hesab edilirdi. Yeni fərziyyəyə görə isə bu əsərlər qədim türk ayinlərindən birinə - ölünün ruhunun onun qəbri üstündə qoyulmuş heykəlində yaşaması əqidəsinə həsr edilmişdir.

Tovuz rayonunun Qəribli kəndindən tapılmış qadın heykəli (I-VII əsrlər) məhsuldarlıq, bərəkət ilahəsinin obrazıdır. Belə heykəlləri o vaxt hər evdə qoyurmuşlar ki, evdən ruzi əskik olmasın.

VI əsrdə tikilmiş Dərbənd qala divarlarının yanında tikintinin tilsimi hesab edilən şir qorelyefi, ovdan üstündə isə insan və şir heykəlləri qoyulmuşdu ki, bunlar şəhəri və suyu düşmənlərdən və bədxah ruhlardan qorusunlar. Ərəb tarixçilərinin dediyinə görə, bu qədim sənət əsərləri X əsrə qədər yaşamışdır. Heykəlləri memarlıqda belə tətbiq etmək ənənəsi orta əsrlərdə də özünü göstərir.

Üçüncü qrupa daxil olan qəbirüstü abidələr at və qoyun heykəllərindən ibarətdir. Bu abidələrin üzərində çox zaman ov təsvirlərinə rast gəlirik. Belə qəbirüstü heykəllər türk qəbilələrinin maldarlıq təsərrüfatı ilə bağlı olaraq yaranan dini əqidə və təsəvvürlər əsasında doğmuş, XV-XVI əsrlərdən başlayaraq oğuzlar bu fiqurlardan «ölülərin ruhunu cənnətə aparan» vasitə kimi istifadə etmişlər.

Beləliklə, ərəb istilasına qədər uzun bir inkişaf dövrü keçmiş qədim heykəltəraşlıq sənətimiz xalqımızın mənəvi zənginliyi, qəbilələrin ənənəvi ayinləri və əqidələri əsasında yaranaraq böyük bir mədəniyyətə çevrilmişdir.

***F. Ağasıoğlu,***

***filologiya elmləri doktoru, professor***

2500 il öncə Qarabağda toxunmuş Bərdə (saqa-oğuz) xalısı

Keçən əsrin ortalarında Altayda yerli türklərin Pazırıq (Basırıq) dediyi yerdə qazıntı aparan rus arxeoloqları qədim kurqandan hamını heyrətə salan əşyalar aşkar etdilər. Saqa (iskit) boylarına məxsus bu sənət əsərləri içərisində salamat qalmış və rəngini itirməmiş bir xalı da vardı. “Pazırıq xalısı” adı ilə bu gün Ermitajda saxlanan bu xalının yaşı m.ö. V əsrə aid edilir, çünki mütəxəssislərin rəyinə görə, bu xalının tapıldığı kurqanda aşkar olunan digər əşyalar və onların kimyəvi analizi onların 2500 il əvvəl bu məzara (basırığa) qoyulduğunu əks etdirir. Bu qədim xalının kurqanın altında salamat qalmasının səbəbi vaxtilə basırıqda açılmış bir oyuqdan məzarın dibinə sızan suyun buz bağlaması və xalının buzun içində qalması idi.

180 x 200 sm ölçüdə olan dünya şöhrətli bu xalının üzərindəki naxışların, at və maralların, ortadakı çərçivədə 24 xananın anlamı bir çox alimin tədqiqat mövzusuna çevrilmişdir. Əksər tədqiqatçılar burada verilən simvolların saqa (skit) sənət əsərlərindəki “heyvan üslubu” ilə üst-üstə düşən və ayrılan cəhətlərinə də toxunmuşlar. 1960-cı illərdən şüşə arxasında saxlanan bu xalının toxunma üsulu haqqında da müxtəlif fikirlər vardır: bəziləri onu ilməkli, bəziləri də bukle (dolama, sarma, lülə) üsulu ilə toxunduğunu qeyd etmişlər.

Başqa-başqa ölkələrdə yaşayan bir neçə alim Pazırıqda ortaya çıxan xalının Türkmənistan, Azərbaycan və Anadoluda geniş yayılmış oğuz (türkmən) xalıları ilə eyni tipdə olması haqqında bir-birindən xəbərsiz olaraq, eyni qənaətə gəlmişlər. Bu xalı ilə türkmən xalıları arasındakı tipoloji yaxınlıqla bərabər, istifadə olunmuş toxuma üsulları, eyni naxışlar, eyni boya (rəng) çalarları vardır.

Xalçanın tapıldığı kurqanda saqa elbəyi (hökmdarı) basdırıldığı fikri irəli sürülmüş və bu bunu əksər tədqiqatçılar qəbul etmişlər, belə ki, kurqanın möhtəşəmliyi, oradakı əşyaların zənginliyi və xalçanın üzərindəki simvollar da həmin fikri təsdiqləyir. Kurqanın aid olduğu tarixdə (m.ö. V əsr) heyvandar, yarımköçəri saqa boyları Azov dənizindən Altaya qədər olan ərazilərdə müxtəlif dövlətlər qurmuşdular. Bu durum şərq və qərb qollara ayrılan hunlar və sonralar Göy-Türk xaqanlığı çağlarında da davam etmişdir.

Quzey Qafqazdan m.ö. VII əsrin əvvəllərində Azərbaycana qayıdan saqa boyları indiki Ermənistanı da içinə alan və Dərbənddən Urmu gölünə qədər uzanan bir ərazidə, qədim Azərbaycanda çox qüdrətli bir dövlət qurmuşlar. Antik çağ yazarları burada oturan Saqa elbəylərinin qonşu ölkələrdən bac-xərac, vergi aldığını və bəzən uzaq ellərə yürüş etdiklərini, hətta Misirə qədər getdiklərini yazmışlar. Buradakı saqa elbəylərindən biri də haqqında əfsanələr yaranmış məşhur Əfrasiyab (Tunqa Alp Ər) idi. Urmu gölü yaxınlığında öldürülən bu türk başbuğunun yas törənində yazılmış “Tunqa Alp Ər öldümü?” misrası ilə başlanan ağıtı XI əsrdə M. Kaşğari yazdığı “Türk dillərinin lüğəti” kitabında yad etmişdir.



ATLILAR. BƏRDƏ (SAQA-OĞUZ) XALISINDAN FRAQMENT. E.Ə. 2500.



DAMĞA. BƏRDƏ XALISINDAN FRAQMENT. E.Ə. 2500.



MARAL. BƏRDƏ (SAQA-OĞUZ) XALISINDAN FRAQMENT. E.Ə. 2500.



QRİFON. BƏRDƏ (SAQA-OĞUZ) XALISINDAN FRAQMENT. E.Ə. 2500.

Sonralar qonşu Urartu və Mana dövləti İlə birlikdə Saqa dövləti də süqut etmiş, əraziləri Mada (Midiya) dövlətinin tərkibinə qatılmışdır. Son dəfə Saqa elinin adı m.ö. VI əsrin əvvəlində (593-cü ildə) Tövratda çəkilir. Artıq bu çağlarda saqa boylarının bir hissəsi Azərbaycandan çıxıb Azov yaxasına qayıtmış, sonra



XIX ƏSR ŞİRVAN XALÇASI. BÜTÖV GÖRÜNÜŞÜ VƏ FRAQMENT.



BUKLE (NOPPEN) TOXUMA ÜSLUBU.

orada böyük Saqa dövləti qurmuşdular. Oradakı elbəylər Qonur, Savlı, Ata kimi türk adları daşıyırdı. Üzərində 90 yaşında Makedoniyalı İsgəndərin atası ilə döyüşdə ölmüş saqa elbəyi Atanın (m.ö. III əsr) adı və rəsmi olan bu sikkə də elmə bəllidir.

Saqa (skit) adı altında müxtəlif xalqlar vardı, lakin Azərbaycanda dövlət quran saqa boyu oğuz türkləri idi, çünki antik çağ yazarlarının qələmə aldığı elbəyi saqaların (царские скифы) soy şəcərəsində və mifologiyasında keçən adlar oğuz türkcəsində olub, sonrakı Oğuznamələrdə təkrar olunur.

İki əsrdən sonra Saqa elinin (dövlətinin) yerində alpan/aran adlı türk boylarının qurduğu Alban (Aran) dövlətinin tərkibində həmin saqa boylarından qalanlar da vardı. Alban çağında Sakasena bölgəsi onların adı ilə bağlı idi. Şəki, Şaqan, Pir-Saqat və çoxlu Sahatlı yer adları həmin atlı saqa boylarından qalmadır.

Beləliklə, m.ö. VII əsrdə Quzey Azərbaycanda hakimiyyətdə olan saqa (oğuz) boyları buradakı xalçaçılıq sənətinin və xalçalar üzərində yabanı heyvanların stilizə olunmuş saqa boylarına məxsus “an üslubu” (звериный стиль) gələnəyinin inkişafına təkan vermişdir. Bu baxımdan, Altayda ölən saqa elbəyinin dəfnində istifadə edilən Pazırıq xalısının m.ö. V əsrdə Qarabağda toxunduğunu irəli sürən xalçaşünaslar haqlıdır. Lakin bəzi alman alimlərinin bu xalını Qarabağ ermənilərinə aid olduğunu yazması isə acı gülüş doğurur. Elmdən və gerçək durumdan çox uzaq olan bu yanlış fikrə aşağıda qayıdacağıq, hələlik xalının əsas atributlarına baxaq:

1. Toxunma üsulu. Xalının zahiri görünüşü ilməkli-xovlu xalçalara bənzədiyi üçün əvvəllər güman edilirdi ki, gördes ilməyi (güllabi ilmə) üsulunda toxunmuşdur. Doğrudur, bu üsuldan Quba, Qarabağ və Şirvan xalçalarında geniş istifadə olunur, lakin Pazırıq xalısının sonrakı tədqiqi (K. Erdmann, F. Tekçe və b.) göstərdi ki, o, bukle (Noppen) üsulunda toxunmuş xovsuz xalıdır. Tanınmış xalçaşünas Lətif Kərimov Azərbaycanda xovlu xalçaların iki üsulla, xovsuz xalçaların isə yeddi növ texnologiya ilə toxunduğunu qeyd edir. Xalının bukle üsulu ilə toxunduğunu yazan məşhur xalçaşünas alim prof. Kurt Erdmann “İlməkli şərq xalısı” adlı əsərində bunu Noppen türü adlandıraraq yazır: “Bu cür toxumada çözgü teli (arış) arasından keçirilən atqı ipliyi (arğac) həm də çözgü üzərinə yerləşdirilmiş incə çubuqlara da sarılır. Çubuqları çəkəndə Noppen türü alınır və artıq ortadan yarılanda ilməkli xalının xovuna bənzər görüntü yaranır”.

2. Rənglər. Azərbaycanda ta qədim çağlardan bitki kökündən və yarpağından təbii boya alınması gələnəyi vardı. Haqqında danışdığımız xalının toxunduğu əsrdə yaşayan Herodot Qafqazda yarpağını əzib suda qarışdıranda boya alınan ağac növü olduğunu yazır və özəlliklə bu boyanın solmadığını, hopduğu parça yuyulanda itmədiyini vurğulayırdı. Qarabağ xalçaları mis rəngi, qırmızı, al, palıdı, qızılı sarı, mavi rəngləri və bu rənglərin çalarları ilə seçilir. Pazırıq xalısında da bu rənglərdən istifadə olunmuşdur.

3. Naxışlar. Xalının orta bölümündə 24 ədəd hun gülü deyilən nilufər çiçəyinin simvolu vardır. Bu naxışın azacıq fərqli variantı ilə üçüncü zolağın içi də bəzədilmişdir. Nilufər çiçəyi işıqda deyil, qaranlıq düşəndə açıldığı üçün onun qaranlıq dünyada yaşam simvolu vardır. Oğuz xalçalarında bu naxışdan geniş istifadə olunur. Soldakı şəkildən göründüyü kimi, həmin naxışı Qarabağ xalçaları da yaşadır.

4. Süjet və simvolika. Xalıdakı digər naxışlar, onların simvolik anlamı və bunların oğuz xalçalarında yaşaması haqqında geniş bilgi verməyə lüzum yoxdur. Burada qısa da olsa, yalnız səkkiz guşəli damğa, at və marallara aid simvolika üzərində dayanmaq gərəkdir, çünki bunlar əsas atributlar olub, həmin xalının hansı məqsədlə toxunduğunu açıq sərgiləyir:

a) Atlar olan ikinci bölmədə yuxarı sol tərəfdə iki təkər və ya səkkiz guşəli (✳) ulduz şəkli vardır. Bunlar əgər təkərdirsə, onda elbəyin araba ilə basdırılmasına (bu kurqanda araba qalığı vardı) işarə və bu araba ilə o biri dünyaya gedəcəyinin simvoludur. Lakin xalıda araba şəkli olmadığı üçün bu versiya inandırıcı deyil.

Əgər bunlar təkər yox, səkkiz guşəli damğadırsa, onda bu damğanın hələ şumer çağından tanrı simvolikası olub, elə dingir (tengri) kimi oxunan sözün işarəsidir. Ön Asiyada mixi yazıdan istifadə edən xalqların (şumer, akkad, het, urartu və s.) hamısı bu işarəni həmin mənada işlətmişlər. Bu baxımdan, xalıdakı damğanın məhz quyruğu düyünlü atlar olan bölmədə verilməsinin mənası aydınlaşır. Belə ki, burada sıralanmış atlar elbəyin yolunda tanrıya qurban veriləsidir.

b) Şəhid olan türk döyüşçüsünü atı ilə birlikdə basdırmaq gələnəyi Azərbaycanda hələ m.ö. II minilin son əsrlərinə aid Şahtaxtı və Xaçbulaq kurqanlarında görünməkdədir. Orta əsrlərdə isə artıq atı yox, onun daşdan yonulmuş heykəlini qəbrin yanında qoyurdular. Belə gələnək oğuzlarda geniş yayılmışdı. Bunun örnəyinə Azərbaycanın hər bölgəsində rast gəlmək olur.

Saqa atlılarından başlayaraq türklərdə görünən atın quyruğunu düyünləyib savaşa girmək gələnəyi özü ilə birlikdə atının da “şəhid” olmağa hazırlanması idi. Atın quyruğunu düyünləməyə at çərmətmək, dullamaq və M. Kaşğarinin qeyd etdiyi kimi düymək deyilirdi. Çinlilər daş oymalarda təsvir etdikləri qonşuları atlı türklərin atının quyruğunu düyünlü şəkildə verirdilər. Mahmud Kaşğari də savaşa gedən döyüşçülərin atının quyruğunu düyünlədiyini əks etdirən “Kudruk katığ tügdimiz” (Quyruğu qatı düyünlədik) misrası ilə başlanan bir şeir parçası vermişdir. Bu gələnək orta əsrlərdə də davam etmişdir, belə ki, Alp Arslan atının quyruğunu düyünləyib Malazgird savaşına girmişdi.

Saqa və türk savaş atlarında olduğu kimi Pazırıq xalısındakı yalı kəsilən bu atlar maralların hərəkətinə

tərs yöndə düzülmüş və quyruqları da düyünlənmişdir:

Solda verilən Təbriz və özəlliklə Şirvan xalçasında da atların quyruğu eyni formada düyünlənmişdir. Göründüyü kimi, aradan min illər keçsə də, Azərbaycan xalça toxuyanları savaş atının quyruğuna eyni formada düyün vururlar.

Qarabağda toxunub, Pazırıqda ortaya çıxarılan xalıdakı atların quyruğuna düyün vurulması bir daha göstərir ki, xalı yas törəni üçün hazırlanmışdır.

Keçmişdə atın sahibi öləndə onun yəhərini bir neçə gün
tərsinə qoyardılar ki, adamın ruhu qayıdıb evdəkilərə xətər toxundurmasın. Bu inancla bağlı "Yəhərin tərsə çevrilsin!" qarğışı da yaranmışdır. Bu baxımdan, xalıda maralların hərəkətinə tərs istiqamətdə atların düzümü də yas törəninin simvolik göstəricisinə çevrilir.

c) Ən qədim çağlardan prototürklər yazın (yeni ilin) gəlməsini və payızın düşməsini qoç və maral timsalında simvollaşdırmış və sonralar bir sıra türk boyları onların şəkilini soy-boy damğası kimi istifadə etmişlər. Bu boyların təsviri sənətində yazın gəlməsi yeni qoç və ya maralın doğulması, payızda soyuqların düşməsi isə onların yırtıcı heyvan tərəfindən parçalanması kimi verilmişdir. Saqa rəsmlərindəki an üslubunun əsasını təşkil edən də bu motivlərdir.

d) Xalının ən kənar şöbəsi olan zolaqda və 24 iç xana ilə 24 maral arasındakı zolaqda yerləşən qrifonlar saqa an üslubunda gördüyümüz dördayaqlı heyvan bədənli, quş başlı və quş qanadlı yırtıcı heyvan şəklində verilmişdir. Lakin burada qrifon maralı və ya qoçu parçalayan pozada deyil, yalqız durumda verilmişdir. Qanadlarını və quyruğunu yuxarı qaldırıb geriyə baxan bu qrifonların da hərəkətində gərginlik yox, bir durğunluq var. Olsun ki, bu kiçik ölçülü qrifonların ən kənar zolaqda kiçik haşiyələr içində hərəkətsiz durumda verilməsi payıza hələ çox vaxt qaldığını əks etdirir.

Beləliklə, Pazırıq xalısında eyni istiqamətdə düzülüb sakit otlayan marallar burada həyat (yaşam) simvoludur. Maralların sayının da simvolik anlamı vardır. Belə ki, burada verilən 24 maral Mete çağında hunların və Oğuznamələrdə oğuzların bəlli 24 boyunu əks etdirir. Xalının simvolik "dilində" yaşam simvolu olan maralın sayı ilə (24) xalının orta bölümündə nilufər gülü (hun gülü) naxışı ilə yer alan 24 saqa-oğuz boyuna və Dədə Qorqud eposunda "24 sancaq bəyi" deyimi ilə xatırlanan boy başçılarına sanki "baş sağlığı" verilib, onlara yeni yaşam arzulanır.

Saqa an üslubunda adətən heyvanlar dinamik və gərgin hərəkətli pozada verilir. Bu xalıdakı at və maralların hərəkətində isə gərginlik yox, bütöv kompozisiyaya uyğun bir həzin sakitlik və yas ovqatı vardır. Məhz bu fərqi duya bilməyən bəzi yazarlar yanlış olaraq, buradakı təsvirin saqalara yad olduğunu söyləmişlər.

5. Toxunma yeri. Qarabağ qədimdən xalça sənətinin mərkəzlərindən idi və bu gələnək günümüzə qədər davam etmişdir. X əsrdə əl-Müqəddəsi yazırdı ki, "misli olmayan" xalçalar Qarabağda toxunub Bərdə bazarında satılır. Yuxarıda verilən müqayisələr göstərir ki, m.ö. V əsrdə Altayda saqa elbəyinin yas törəni üçün Azərbaycandan göndərilmiş "saqa-oğuz xalısı" sonrakı Qarabağın bir hissəsini (o cümlədən Bərdəni) içinə alan o çağın Sakasena bölgəsində yaşayan saqalar tərəfindən toxunmuşdur.

Beləliklə, istifadə olunmuş rənglərdən tutmuş, toxunma üsuluna, naxış və simvollara qədər Qarabağ, o cümlədən türkmən xalçaları ilə genetik və tipoloji bənzərliyi ilə ortada olan bu əvəzsiz sənət əsəri saqa-oğuz xalısıdır. Bəs, bu xalının erməni (hay) xalqına mənsub olduğunu söyləyənlər hansı elmi-tarixi faktlara əsaslanır?

Vaxtilə xalı ticarəti ilə məşğul olmuş məşhur xalçaşünas alman alimi Ulrix Şürman "Pazırıq, mənşəyi və yozumu" adlı kitabında Pazırıq kurqanının m.ö. V əsrdə qərbdən Çinə qədər uzanan ipək yoluna və ucsuz-bucaqsız bozqırlara nəzarət edən önəmli bir saqa (skit) kralına aid olduğunu qeyd edir. O, yas törəni üçün toxunmuş Qafqaz mənşəli xalıdakı səkkiz guşəli naxışın araba təkəri olduğunu basırıqdakı arabanın qalıqları ilə bağlayır. Xalının türkmənlərə deyil, ermənilərə aid olduğunu yazan, lakin qədim tarixdən elementar bilgisi olmayan bu yazara görə, guya bu sənət əsəri ona görə türkmən xalısı ola bilməz ki, o çağlarda Altaydan bu yana türklər yox imiş, ermənilər isə Qafqaz dağlarının güney ətəyindən tutmuş ta Assurun quzey sınırına qədər böyük bir ərazidə yaşayırmış. Yazar kitabını bu son cümlə ilə bitirir: "Dəfn mərasimi üçün toxunmuş Pazırıq xalısı bütün əlamətlərinə (?) görə erməni sənətinin bir şedevr əsəridir".

Tarixdən bəllidir ki, Van gölü yaxınlığında m.ö. V əsrdə Ermən (Armeniya) bölgəsi Urartu çağından qalan və öncə Mada, sonra Əhəməni dövlətinin kiçik bir əyaləti idi. Bu bölgəyə haylar xalının toxunduğu çağdan bir neçə əsr sonra Suriyanın quzeyindən gəlib yerləşmiş və obyektiv erməni alimlərinin yazdığına görə, daha sonralar bir xalq kimi burada formalaşmışlar. Buradan çox sadə bir sual ortaya çıxır, saqa xalısının toxunduğu çağdan bir neçə əsr sonra formalaşan bir xalq bu xalını necə toxuya bilərdi?

Başqa bir başabəla "alim" Volkmar Gantshorn elmi dərəcə almaq üçün yazıb Kölndə çap etdirdiyi irihəcmli "Xristian Şərq xalısı" (1990) adlı kitabında bu xalını ermənilərə aid etməklə kifayətlənmir, Altaydakı Pazırıq kurqanının da ermənilərə məxsus olduğunu yazır. Bu yazara görə, hətta türk xalçaçıları xalı-xalça toxumağı ermənilərdən öyrənmişlər. Bu sərsəm fikrin cavabını bir gürcü alimin sözləri ilə vermək yerinə düşər. 1886-cı ildə Şuşaya gələn gürcü tədqiqatçısı Zedgenidze yazırdı ki, burada xalçalar

azərbaycanlı ailələrdə toxunur, "ermənilər xalça toxumağı onlardan öyrənməlidir".

Bəzi yazarlar xalının üzərində olan orta xanaların fərqli rənglərdə yox, eyni rəngdə olduğunu nəzərə almadan onun bir dama oyunu üçün və ya xalının toxunduğu vaxtdan bir əsr əvvəl yaşamış Əhəməni şahı Daraya hədiyyə kimi, yaxud şahların oturduğu taxtın üzərinə salmaq üçün toxunduğunu qeyd etsələr də, bu fikirləri təsdiq edəcək əsaslı elmi dəlillər gətirə bilməmişlər. Saqa boylarının mifoloji dünyagörüşünə və bunun saqa tətbiqi sənətində simvolik təsvirinə uyğun olan bu xalının Saqa elbəyinin yas törəni üçün Azərbaycanda toxunması fikrini isə əksər ciddi alimlər dəstəkləyir. Odur ki, Ermitajda "Pazırıq xalısı" adı ilə saxlanan Azərbaycan xalça sənətinin bu şah əsərini Qarabağ xalçaçılıq məktəbinin "Saqa-Oğuz xalısı" adlandırmaqla tarixi gerçəkliyi bərpa etmiş və bununla 2500 il əvvəl bu xalını toxuyan azərbaycanlının ruhunu da şad etmiş olarıq.

**QOBUSTAN. BÖYÜKDAŞ, KİÇİKDAŞ, CİNGİRDAĞ VƏ YAZILITƏPƏDƏ QAYAÜSTÜ TƏSVİRLƏR.**



**QOBUSTAN. BÖYÜKDAŞ, KİÇİKDAŞ, CİNGİRDAĞ VƏ YAZILITƏPƏDƏ QAYAÜSTÜ TƏSVİRLƏR.**





**QOBUSTAN. BÖYÜKDAŞ, KİÇİKDAŞ, CİNGİRDAĞ VƏ YAZILITƏPƏDƏ QAYAÜSTÜ TƏSVİRLƏR.**





**QOBUSTAN. BÖYÜKDAŞ, KİÇİKDAŞ, CİNGİRDAĞ VƏ YAZILITƏPƏDƏ QAYAÜSTÜ TƏSVİRLƏR.**





**QOBUSTAN. BÖYÜKDAŞ, KİÇİKDAŞ, CİNGİRDAĞ VƏ YAZILITƏPƏDƏ QAYAÜSTÜ TƏSVİRLƏR.**



**QOBUSTAN. BÖYÜKDAŞ, KİÇİKDAŞ, CİNGİRDAĞ VƏ YAZILITƏPƏDƏ QAYAÜSTÜ TƏSVİRLƏR.**





**QOBUSTAN. BÖYÜKDAŞ, KİÇİKDAŞ, CİNGİRDAĞ VƏ YAZILITƏPƏDƏ QAYAÜSTÜ TƏSVİRLƏR.**



**QƏDİM AZƏRBAYCAN İNCƏSƏNƏTİ.**



ZİVİYƏ. PEKTORAL (SİNƏBƏND). E.Ə. VIII ƏSR.



TUNC MARAL FİQURU. DƏMİR DÖVRÜ.



ZİVİYƏ. PEKTORAL (SİNƏBƏND). E.Ə. VIII ƏSR.

QƏDİM AZƏRBAYCAN İNCƏSƏNƏTİ.



MƏRLİK CAMI. E.Ə. XI-IX ƏSRLƏR.



MİNGƏÇEVİR. MARAL BAŞI FORMASINDA RİTON. E.Ə. II MİNİLLİK.



QAZAX. DAŞ SÜTUN ALTLIQLARI. E.Ə. IV-III ƏSRLƏR.



HƏSƏNLİ CAMI. E.Ə. VIII-VII ƏSRLƏR.



HƏSƏNLİ CAMI ÜZƏRINDƏKI TƏSVIRDƏN FRAQMENT.



HƏSƏNLİ CAMI ÜZƏRINDƏKI TƏSVIRDƏN FRAQMENT.



ŞAXTAXTI KƏNDİDƏN BARDAQ. E.Ə. II MİNİLLİK.



HƏSƏNLİ CAMI ÜZƏRINDƏKI TƏSVIRDƏN FRAQMENT.

## QƏDİM HİNDİSTAN MƏDƏNİYYƏTİ



Mohenco-Daro heykəlcikləri

Qədim Hindistan eyni adlı yarımadada yerləşirdi. Himalay sıra dağları Hindistanı başqa ölkələrdən ayırır. Hindistan yarımadası yayladan ibarətdir. Yayla ilə Himalay sıra dağları arasında ovalıq yerləşir. Hindistan ovalığının qərbində Hind, şərqində Qanq çayı axır. Bu çaylar başlanğıcını Himalay dağlarından götürür.

Arxeoloji tapıntılar Hindistanda hələ daş dövründə qədim məskənlərin mövcud olduğuna dəlalət edir. Hindistanın qərbində eneolit və tunc dövrlərində özünəməxsus protohind mədəniyyəti yaranır. Onun çiçəklənmə dövrü e.ə. III-II minilliklərə təsadüf edir. Pəncabda müasir Harappa yaxınlığında və Sinddə Mohenco-Daro yaxınlığında aşkar edilmiş şəhər qalıqları bu qədim sivilizasiyanın başlıca mərkəzləri olmuşdur. Bu mədəniyyətin daşıyıcıları dravid və ya dravidlərə qədər yaşayan qəbilələr olmuşlar. Arxeoloqlar e.ə. III minillikdə salınmış şəhər aşkar etmişlər. Qazıntı zamanı qala, onun içərisində saray, üçmərtəbəli evlər, tunc, qızıl əşyalar, hələ də oxunması mümkün olmayan yazılar tapılmışdır. E.ə. II minillikdə naməlum səbəbdən əhali şəhəri tərk etmişdir.



Mohenco-Daro məskənində quyu

E.ə. II minilliyin sonunda Hindistana şimal-qərbdən racələrin başçılıq etdiyi köçəri ari tayfaları gəldilər. Onlar oturaq həyata keçib yerli əhali ilə qaynayıb qarışdılar. Ari dili əsasında Hindistanda sanskrit ədəbi dili yarandı. Hindlilər eramızdan min il əvvəl dəmirdən istifadə etməyə başladılar. Onlar cəngəllikləri qırıb dənli bitkilər becərir, hələ bir çox xalqlara məlum olmayan pambıq, şəkər qamışı, çəltik əkirdilər. Fili ilk dəfə hindlilər əhliləşdirmişdilər.

E.ə. I minillikdə Hindistanda dövlət yarandı. Dövlət başçısı racə adlanırdı. E.ə. III əsrdə bütün Hindistan racə Aşokanın (e.ə. 268-231) hakimiyyəti altında birləşdi. Onun ölümündən sonra bu dövlət dağıldı. Hindistanda bərabərsizlik dində də öz əksini tapmışdı. Tanrı Brahma dünyanın və insanın yaradıcısı hesab olunurdu. Hind kahinlərinə brahman deyirdilər. Hind kahinləri Brahma tərəfindən müəyyən olunmuş qaydaları tərtib etmişdilər. Guya Brahma insanları kastalara bölmüşdür. Ən yüksək kastaya brahmanlar daxil idi. Guya allah onları ağzından yaratmışdı. Onların allah adından danışmağa ixtiyarı vardı. İkinci kastaya brahmanın əlindən yaradılmış əsilzadələr və döyüşçülər daxil idi. Üçüncü kastaya brahmanların budlarından yaradılmış kəndlilər, sənətkarlar, tacirlər daxil idi. Dördüncü kastaya daxil olan Şudralar (nökərlər) Brahmanın palçıqlı ayaqlarından yaradılmışdı. İnsan ömrü boyu mənsub olduğu kastada qalırdı. Kastalardan heç birinə daxil olmayanlara "toxunulmaz adamlar" deyirdilər. Onlar və onların övladları doğulduğu gündən murdar sayılırdılar. Onlar natəmiz yerləri təmizləyirdilər.

Qədim hindlilərin dini etiqadları və qanunları Veda adlı məcmuədə toplanmışdır. İnsanların kastalara bölünməsini ədalətsiz sayan adamlar da var idi. Buna görə də yeni din olan budda dini yarandı. Onun banisi şahzadə Siddharta Qautama (e.ə. 566-486) olmuşdur. Budda deyirdi: "Mənim etiqadım sevgi, yardım və şəfqət yoludur".

E.ə. I minilliyin ortalarından etibarən Hindistan şəhərləri yeni inkişaf mərhələsinə qədəm qoydu. Bir çox kəndlər böyüyüb şəhərə çevrildi. Bəziləri dövlət tərəfindən inşa edilirdi. Antik müəlliflər Hindistanda şəhərlərin çoxluğuna məəttəl qalırdılar. Onların məlumatına əsaslanıb demək olar ki, Maqadhanın paytaxtı Pataliputranın (indiki Patnaj) əhalisi bir milyona çatırdı. Şəhər sahəsi 25-30 $km^2$ olan ərazidə yerləşirdi.

Təsərrüfatın müxtəlif sahələrində qul əməyindən istifadə olunurdu. Qulu bildirən "Dasa" sözü məfhum kimi hələ də işlədilirdi. Qul əməyi və onun bəhrəsi ağanın ixtiyarında idi. Ağa istəsə qulu alar, satar, girov qoyar, hədiyyə verər, lap öldürə də bilərdi. İqtisadi və sosial münasibətlər inkişaf etdikcə qulun da vəziyyəti dəyişilirdi. Bəzən qul məhkəmədə şahid sifəti ilə çıxış edirdi. O, özü üçün əmlak toplaya bilərdi. Bu dövrdə evdə anadan olmuş qulların sayı artırdı. Əsirlərin kölə halına salınması və borc köləliyi davam edirdi. Müflisləşmiş adamlar özlərini, yaxud övladlarını köləliyə satırdılar. Azad adamları oğurlayıb qul vəziyyətinə salma hallarına da rast gəlinirdi. Hər bir ailə qurumunun bir neçə qulu ola bilərdi. Varlı ailələrdə onların sayı daha çox idi. Dövlətin çöl təsərrüfat işlərində qul əməyindən geniş istifadə olunurdu.

Müflisləşmiş təbəə iqtisadi müstəqilliyini və vətəndaşlıq hüququnu itirdiyindən qullar sinfinə daha çox

yaxın idi. Quldar təsərrüfatına ucuz işçi qüvvəsi cəlb olunurdu. Onları karmakara adlandırırdılar. Karmarkaralar qullar ilə yanaşı hökmdar və fərdi təsərrüfatlarda işləyirdilər. Onlar əvvəlcədən qoyulmuş şərt əsasında əmək haqqı alırdılar. Əslində karmarkaralar muzdlu əmək ilə məşğul olurdular. Qədim Hindistanda azad icma təbəqələrinin olması mövcud ictimai quruluşun xüsusiyyətlərindən birini təşkil edirdi. Onlar istehsal vasitələrinə malik olmaqla təsərrüfatla müstəqil məşğul olurdular. İcmalar dövlətin siyasi həyatı ilə bağlı deyildilər. Mübahisəli məsələlərin əksəriyyəti icma yığıncağında həll olunurdu. İcmaların varlığı xüsusi torpaq mülkiyyətinin, ictimai və əmlak bərabərsizliyinin inkişafına maneçilik törədirdi. Eyni zamanda varlı şudra təbəqələri yaranmışdı. Onlar xidmətçi və qul saxlayırdılar. Hətta kşatri və brahman silki nümayəndələri onların təsərrüfatına xidmətə daxil olurdular. Şudralardan hökmdar sülalələri də meydana gəlmişdi.

Qədim Hindistanda mədəniyyətin müxtəlif sahələri inkişaf tapmışdı. Ədəbiyyat, incəsənət, xüsusilə memarlıq, təbiət elmləri, fəlsəfə sahəsində müəyyən nailiyyətlər əldə edilmişdi. Burada müxtəlif dini ehkamlar və təsəvvürlər mövcud idi. Erkən dövrdə dini əsatirlər meydana gəlmişdi.

Lap qədim dövrlərdə hind əhalisi arasında günəşə, aya, çaylara, bitkilərə inam və sitayiş mövcud idi. Hələ hind-İran birliyi dövründə hindlilərin iranlılar ilə oxşar dini anlayışı vardı. Oda, suya, əcdadlara, eyni adlı ilahi qüvvələrə inam həm hind, həm də irandilli etnik birləşmələr üçün səciyyəvi idi. Hindlilərin erkən dini təsəvvürləri Riqvedada əks olunmuşdur. Riqvedaya görə qədim hind panteonun başında İndra dururdu. O, baş allah olmaqla ildırım saçan və fateh hesab edilirdi.

Əfsanəyə görə ilk əvvəldən yer üzündə asura adlanan vücudlar, iblislər yaşayırmış. Hind əsatirlərində asura şər qüvvələri təmsil edirdi. İrandilli ənənədə isə onun müqabili olan ahura xeyirxah allahı təcəssüm edirdi. İran div ehkamının əksinə olaraq hindlərdəki div xeyirxah əməllərin sahibi idi. Vritra adlı iblis (asura) şər qüvvələrin başçısı kimi təsvir olunmuşdur. Aditi xeyir və şər qüvvələri təmsil edirdi. Vritranın silahdaşları Danava adlanırdı. Aditilər Danava ilə mübarizə aparırlarmış, lakin həmişə məğlubiyyətə uğrayırmışlar. Belə halda Aditilər İndranı başçı seçirlər. İndra göyün və yerin oğlu kimi qələmə verilmişdir. Guya o, anasının böyründən "doğulmuşdu". Anadan olandan sonra İndra bir müddət gizli yaşamış, sonra soma içkisini dadmış, nəticədə bədheybət bir nəhəng görkəminə düşmüşdü. Bundan vahiməyə gələn qoşa göy və yer əks tərəflərə ayrılmış, arada yaranmış fəza İndranın məskəni olmuşdu. İndra allahların başçısı kimi Vritra ilə döyüşə girir. İndra iblisi öldürür. Kosmik sular və ilahi analar guya Vritranın qarnından azadlığa çıxırlar. Hamilə sular günəşi dünyaya gətirilər. Sonra Sat, yəni varlıq aləmi yaradılır. Bura allahların və insanların məskəninə çevrilir. Asat, yəni qeyri-varlıq Satdan təcrid edilir. Asat yerin dərinliyini, o dünyanı təmsil edirdi. Kosmik sular göydə yerləşdirilir ki, oradan yerə vaxtaşırı rütubət göndərsinlər. Varuna qanunlara nəzarət edirdi. İndra dünyanı bu cür yaratdıqdan sonra rəqsə başlayır. Eyni zamanda, erkən dini təsəvvürlərdə od və ev himayədarı Aqni, günəş allahı Surya müəyyən yer tuturdu. E.ə. I minilliyin sonunda Brahma, Vişna və Şiva allahlarına ibadət genişləndi. Müxtəlif allahlar Vişnanın əksi kimi qələmə verildi. Bunlar Krişna, Rama və hətta Budda hesab olunurdu. Hindistanın bir çox allahlarının məbədləri Vişnanın müxtəlif təcəssümü kimi qəbul edilir.

Avestada bu içki haoma adlanır və onun güclü təsiri qatlarda pislənir, sonrakı hissələrdə isə təriflənirdi.

Rama bitki aləmi allahı kimi məlum idi. Onun arvadı Sita (mənası "şum yeri") məhsuldar torpağı təmsil edirdi. Onların haqqında müxtəlif məzmunlu əsatirlər yaradılmışdı. Rama və Sitanın taleyinə iblis Ravana mənfi təsir göstərmişdi. Əsatirin birində deyilir ki, Ravana Lankada (Seylon) hökmranlıq edirdi. Brahman onu allah və iblislər tərəfdən məğlubedilməz etmişdi. Ravana isə müqəddəs kahinlərin qurban ayinlərini yerinə yetirmələrinə maneçilik törədirdi. Allahlar Brahmaya şikayət edirlər. Brahma Ravananı məğlub etmək üçün çıxış yolu tapır. O, Vişnaya məsləhət görür ki, o, Aydoxa hökmdarının oğlu Ramanın cildinə girsin. Rama gənc ikən gözəl Sitaya evlənmişdi. Atası Daşaratha onu özünə varis təyin etdi. Lakin hökmdar qadın hakimiyyətə Brahatanı məsləhət bildi. Rama 14 il müddətinə sürgünə göndərildi. Sürgündə o, koma tikib Sita ilə dolanırdı. Bir gün Ravananın iblis bacısı Ramanı gördü və ona məhəbbətini bildirdi. Rama onu rədd etdi. Bunu eşidən Ravana Ramaya qarşı çoxlu iblis göndərdi, lakin onlar məğlub oldular. Ravana hiylə işlədib Sitanı qaçırdı. Rama çox macəralardan sonra Lankaya gəldi, Ravananı öldürdü və Sitanı azad etdi, lakin onu yaxına buraxmadı. Sita pak olduğuna and içdi, Rama ona inanmadı. Sitanın göstərişi ilə tonqal qaladılar. O, paklığını sübut etmək üçün yanan tonqala girdi, lakin allah Brahma alovu Sitanadan uzaqlaşdırdı. Sita tonqaldan salamat çıxdı. Od allahı Aqni onu Ramaya qaytardı. Rama Sita ilə birlikdə Aydoxaya qayıdır, atasının taxt-tacına sahib olur və on min il hökmranlıq edir. Bundan sonra Rama Vişna görkəminə qayıdır. Hindistanda bir çox məbədlər Ramaya həsr olunmuşdur.

Qədim hind allahı Krişna həmçinin Vişnanın təcəssümü kimi təzahür etmişdi. Onun haqqında xeyli əfsanə yaradılmışdı. Krişnanın uşaqlıq və gənclik illəri əfsanələrdə öz əksini tapmışdı. Uşaq ikən o, meşəyə gedib çobanlıq edirmiş. Onun tütəyinin səsi naxır otaran oğlan və qızları valeh edirmiş, hətta inəklər bundan zövq alırmışlar. Bir gün Krişna çayda çimən naxırçı qızların pal-paltarlarını oğurlayıb ağacın başında gizlənir. Qızlar ona çox yalvarırlar. Krişna paltarı bir şərtlə qaytarır ki, qızlar onunla rəqs etsinlər. Krişna qızlar ilə rəqs edir, sonra yoxa çıxır. Bir xeyli keçmiş o, qayıdır, nigaran qalmış qızları sevindirir. Krişna öz

simasını, yaxud görkəmini çoxaldır. Qızların hər birinə elə gəlir ki, Krişna onunla oynayır. Krişnanın hamıdan çox xoşuna Radha gəlirdi. Guya Radha Vişnanın arvadı Lakşminin ifadəsi imiş. Krişna isə ancaq Radha ilə öz görkəmində oynayırdı. Krişna ilə Radhanın məhəbbətinə dair xeyli incəsənət əsəri yaradılmış, ona mahnılar qoşulmuşdur. Krişna əfsanələrdə məhəbbət vurğunu və özünə qarşı sevgi, məhəbbət yaradan allah təcəssümü kimi təsvir edilmişdir. Krişnanın eyni zamanda, çoxlu düşməni varmış. O, hamını valeh edən cazibədarlıq ilə yanaşı qeyri-təbii qüvvəyə malik imiş.

Əfsanələrin birində deyilir ki, Uqarsen adlı hökmdarın arvadını iblis yoldan çıxarıbmış. İblis Uqarsenin görkəminə giribmiş və bunu da arvadı bilmirmiş. O, Kansanı doğmuş, Kansa isə hakimiyyəti zəbt edibmiş. O, camaata böyük əzab-əziyyət verirmiş, yer üzünü onun zülmü bürüyürmüş. Buna dözməyən Yer kürəsi inək görkəmində kömək üçün İndraya müraciət edir. İndra əlac tapmaq üçün allahların yanına gedir və nəhayət, Vişna Krişnanın görkəminə düşür. Krişna Kansanı öldürməli idi. Lakin Kansanın taleyini yozub deyirlər ki, onu ancaq bacısı oğlu öldürə bilər. Belə halda Kansa göstəriş verir ki, bacısı Devakanı öldürsünlər. Lakin bacısı əri Kansanı bu qərarından çəkindirir və anadan olan körpələri ona verəcəyini vəd edir. Beləliklə, Kansa altı körpəni öldürür, lakin yeddi və səkkizincidən xəbəri olmur. Bunlardan biri Krişna, digəri onun qardaşı Balarama imiş. Qardaşlar möcüzə ilə Devakanın bədəninə yeridilirlər və bununla Kansanın caynağından xilas olurlar. Kansa Krişnanın üstünə cürbəcür vücudlar göndərir. İblisə Puntana bədəninə zəhər sürtüb, təmtəraqlı geyimdə körpə Krişna olan evə gəlir. O, südünü körpəyə əmizdirir ki, uşaq zəhərlənib ölsün. Lakin körpə Krişna iblisənin bütün həyatını əmir və o qədər böyüyür ki, ilanın qarnı partlayır. Bir çox macəralardan sonra Krişna Kansaya qalib gəlir və onu öldürür. Uqarsen yenidən öz taxt-tacına sahib olur.

Krişna obrazı Mahabharata dastanında da verilmişdi. Burada o, cəsur döyüşçü kimi təsvir olunur. Döyüş zamanı o həm hiyləyə əl atır, həm də hərbi bacarıq və qabiliyyət nümayiş etdirir. O, Pandavlar tərəfindən Kaurav qardaşlarına qarşı çıxış edirdi. Krişna deyirmiş ki, xeyir naminə ədalətli döyüşdə əl titrəməməlidir. O, həyatın mənasını allahı dərk etməkdə görür və özünü allah kimi qələmə verirdi. Allahı dərketmə üsullarından biri ona sadiq məhəbbət bəsləməkdən ibarət imiş. İnsanın sevən ürəyi olmalıdır.

O, öz ürəyi vasitəsilə biliyə sahib olmağa, çətinlikləri keçib allahı dərk etməyə qabildir. Allaha məhəbbət göstərən və onu dərk edənlərə həyatda xüsusi imtiyazlar bəxş edilir. Krişna deyirdi: "Mən bütün canlılara eyni cür baxıram. Mənim üçün nə qərəzkar var, nə də istəkli. Lakin kim ki, mənə sədaqət və məhəbbətlə sitayiş edir, o mənim daxilimdədir, mən də onların".

Qədim hind əsatirlərində allah Şiva və onun arvadı Parvati müəyyən yer tuturdu. Şiva Himalay dağlarında məskən salıbmış. O, Brahma allahını cəzalandırıbmış, çünki o, qan-qarışıq nikahına yol veribmiş. Şiva rəqs hökmdarı kimi də qələmə verilirdi. O rəqs "edəndə dördəlli təsvir olunur. Onun rəqsi dünyanın yaradılmasını, inkişafını və məhv olmasını əks edirmiş. Dünyanın sonunda Şiva hər şeyi udan bədheybət Alov yaradıbmış. Alov varlığı məhv etmiş və Şivanın iradəsi ilə dünyanı yenidən yaradıbmış. Şivaya öküz Nanda xidmət edirmiş. Şiva və arvadı Parvati köçəri həyat sürürmüşlər, bədbəxt adamlara və yoxsullara köməyə gəlirmişlər. Şiva üçün çətənədən məstedici içki hazırlayarmışlar. Bəlkə də bu "saoma" içkisi imiş. Şivanın arvadı Parvati əfsanələrdə ilahə ana kimi təsvir edilmişdir. Böyük ilahə ana qeyri-ari tayfalarına mənsub olmuş, sonralar hind dini tərəfindən mənimsənilmişdi.

Qədim hind panteonunda yüzlərlə allah cəmləşdirilmişdi. Onlara da insan əməlləri və güzəranı xas idi. Qədim allahların ailəsi vardı, onlar yeyib içərdilər, saraylarda yaşayardılar, döyüşlərdə iştirak edərdilər. Həm qəzəblənər, həm sevib-sevilər, həm də ölüm-itimlə rastlaşardılar. İnsanlar allahları və onların yaşayışını öz həyat tərzinə oxşar yaradırmışlar. Qədim hindlilərə görə, kainat yer kürəsindən, fəzadan və səmadan ibarət idi. Allahlar müvafiq surətdə kainatın bu və ya digər sahəsində yaşayırdılar. Mitra, Varuna, Aditya, Surya, Vişna və b. səma allahları hesab olunurdular. Fəzada İndra, Maruta, yerdə Aqni, Soma və b. ağalıq edirdilər.

Qədim hindlilər axirət dünyasına inanırdılar. Ölülər allahı Yama mərhumları o dünyada qəbul edər, sağlıqlarındakı əməllərinə görə onların canını (ruhunu) cənnətə, ya da cəhənnəmə göndərərdi. Tədricən axirət dünyası anlayışı da dəyişikliyə uğramışdı. Belə təsəvvür yaranmışdı ki, guya insan öləndən sonra məhv olmur, başqa bir görkəmdə yenidən yaranır. Bu təlimə görə, insanlar öz əməllərinə uyğun yenidən varlı ya yoxsul, quldur ya üçün daxili müvazinəti itirməməli, düz danışmalı, yalan və böhtandan imtina etməli, düzgün əməl sahibi olmalıdır.

Budda təliminə görə, hər bir dindar bu yüksək məqsədə, yəni əzab-əziyyətdən xilas olma yoluna qədəm qoymalı idi. O, ancaq şəxsi səyi nəticəsində xilas olmaya çata bilərdi. Buna görə o, nirvanaya nail olmalı idi. Nirvana həyatın eyş-işrətindən azad olmuş insan ruhunun vəziyyətini bildirirdi. Nirvanaya çatmış adam bir daha törəmirdi, ancaq onun ruhu başqa şəxsiyyətə keçə bilərdi. Nirvana heç də insanı bu dünyada xoşbəxt etmirdi, əksinə o bu dünyada insanı hər bir arzu, istək, həvəs və ehtirasdan "xilas" edirdi. Nirvanaya çatmaq üçün hər bir kəs ailədən, mülkiyyətdən, varnalara mənsubiyyətdən əl çəkməli və dindarlar icmasına daxil olmalı idi.

Buddizm silki fərqləri rədd edirdi. İctimai və silki mövqeyindən asılı olmayaraq hər bir kəs nirvanaya can ata, Budda dininin ardıcılı ola bilərdi. Eyni zamanda, buddizm mərasim keçirmə, qurban kəsmə, dua

oxuma dini ayinlərindən imtina etmişdi. Buddizm allahların varlığını qəbul edirdi, lakin onların da dəyişməyə məruz qaldıqlarını bildirirdi. Onlar da nirvanaya nail olmalı idilər. Budda nirvanaya birinci çatdığı üçün allahlardan üstün sayılırdı. Buna baxmayaraq Budda ardıcılları belə arzuların yerinə yetirilməsi üçün qədim allahlara müraciət edirdilər. Qədim allahların özləri də, guya Buddaya sitayiş edirlərmiş.

Buddizm brahmanizmdən fərqli olaraq adamları eyni hüquqlu sanır, lakin ictimai münasibətlərin dəyişdirilməsinə çağırmırdı. Buddizmə görə, bütün insanlar əzab-əziyyət içində yaşayırlar, buna uyğun olaraq onlar bərabər hesab edilirdilər. Əslində insanların bərabər olması və azadlığa çıxması (xilas olmağa can atması) dini ehkamlara tabe edilmişdi. Bu, adamların mənəvi aləminə təsir göstərir və buddizmi cazibədar edirdi. Əslində buddizm mövcud olan vəziyyətlə barışmağı, mövcud sosial münasibətlərlə qane olmağı təbliğ edirdi. Buddizm Hindistanın özündə əsas dinə çevrilmədi, Hindistandan kənarda daha geniş yayıldı.

Mədəniyyətin digər sahələri. Erkən dövr Hindistan ədəbiyyatı barədə məlumat qalmamışdır. O zaman şifahi xalq yaradıcılığı üstünlük təşkil edirdi. Bu dövrdə yaranmış dastanlar sonralar yazıya köçürülmüşdü. Bunlardan biri Mahabharata dastanıdır. Dastanda Brahtanın nəslinə mənsub olan yaxın qohumlar hakimiyyət uğrunda mübarizə aparırlar. Bu qohumlar əmiuşağı imişlər. Mübarizə vuruşan qohumların hamısının həlak olması ilə nəticələnir. Digər dastan "Ramayana" adlanır. Burada şahzadə Ramanın macəraları və nəhayət, hakimiyyətə sahib olması barədə danışılır. Hadisələr ilə yanaşı bu dastanlarda qədim əsatirlər, ibrətamiz və fəlsəfi mühakimələr, dini rəvayətlər əks olunmuşdur. Bunlar eramızın əvvəlinə kimi şifahi icra olunurdu. Hər iki dastan yazıya elə həmin vaxtlar köçürülmüşdür. İlk zamanlar vedlər də yazıya köçürülməmişdi. Onlar da şifahi ifa olunurdu.

Piktoqrafiyadan başqa digər qədim hind yazı növləri aşkar edilməmişdir. Lakin e.ə. IV əsrə kimi Hindistanda yazının olması ehtimal edilir. Qədim hind alimləri Panini (e.ə. V-IV əsrlər), Katyayana və Patancali (e.ə. II əsr) sanskrit dilinin qrammatikasını yazmışdılar. Vedlər də sanskrit dilində tərtib olunmuşdu. E.ə. III əsrdə Aşokanın göstəriş və qanunları artıq yazıda əks olunmuşdu. Brahmi yazı növündən istifadə edirdilər. Hindistanda arami və yunan yazı sistemi də tətbiq olunurdu.

Qədim Hindistanda səhnə tamaşası qoyulurdu. Daimi tamaşa göstərən dəstələrdə ixtisaslı xanəndələr, musiqiçilər, aktyor və rəqqaslar iştirak edirdilər. Qədim hind memarlıq abidələri cərgəsinə qülləli tikintilər, mağara məbədləri daxildir. Qədim hind incəsənətinə Haxamaniş və yunan mədəniyyətin təsir göstərmişdi. Riyaziyyat və astronomiya sahəsində nailiyyətlər barədə erkən məlumat qalmamışdır. Nisbətən son vaxtların məlumatları göstərir ki, qədim hindlilər Pifaqorun adını daşıyan teoremi bilirdilər. "Sıfır" rəqəmi ilk dəfə Hindistanda işlədilmişdi. Onluq say sistemi mövcud idi. "Ərəb rəqəmləri" qədim Hindistanda məlum idi. Bu rəqəmləri ərəblər hindlilərdən mənimsəmiş, Şərqdə və Avropada yaymışdılar. Riyaziyyat sahəsində dördbucaq və kub kökləri çıxara bilirdilər, dördbucaq müstəvini hesablayırdılar. Yer kürəsini şar şəklində təsəvvür edirdilər. Qədim hindlilər şəmsi təqvimi yaratmışdılar, lakin aylar qəməri təqviminə uyğunlaşdırılmışdı. 12 qəməri ayı belə halda 354 günə bərabər olurdu. Qəməri ili şəmsi ilə uyğunlaşdırmaq üçün əlavə aydan istifadə edirdilər. Fəlsəfə sahəsində materialist müddəalar irəli sürülürdü. Biliyin yeganə mənbəyi təcrübə hesab olunurdu. Ruhun yerdəyişməsi, yenidən törəməsi inkar edilirdi. Ruh bədənin bir hissəsi kimi qəbul edilirdi. Hind mədəniyyətinin özünəməxsus inkişaf yolu ölkəni qədim dünyanın mədəniyyət mərkəzlərindən biri səviyyəsinə qaldırmışdı. Hindistan mədəniyyəti Şərqi Asiya və dünya ölkələrinə böyük təsir göstərmişdi.

Qədim hindlilər “Mahabharata” və “Ramayana” dastanlarını yaratmışlar. Onlar Finikiya əlifbası ilə tanış idilər. Onlar özləri üçün əlifba tərtib etmişdilər. Rəqəmləri ilk dəfə hindlilər yaratmışlar. Ərəblər bu rəqəmləri qəbul etmiş, avropalılar da həmin rəqəmləri ərəblərdən götürmüşlər. Onlar bu rəqəmləri ərəb rəqəmləri adlandırmışlar. Hindistan şahmat oyununun vətənidir. Padşah Aşoka dövründə Hindistanda abidələr əsasən möhtəşəm sütunlardan ibarət idi. Daş sütunların yuxarısında möhtəşəm heyvan, insan heykəlləri qoyulurdu. Aşoka dövründə möhtəşəm sütun üzərində 4 şir heykəli qoyulmuşdu. Onların hər biri müxtəlif tərəfə baxır. Bu təsvir indi Hindistan Respublikasının gerbidir.

Hindistanda isə vəziyyət başqadır. Bu ölkəyə gələn ilk avropalılar yerli sakinlərin öz keçmişlərini əla bildiklərinin şahidi olmuşlar. Sakinlər onlara izah edirdilər ki, mövcud ənənələr min illərlə heç bir ciddi dəyişikliyə məruz qalmamışdır. Hər bir sıravi hindliyə bu gün də məlum olan əfsanə və miflərdə adları çəkilən rəhbər və qəhrəmanlar min il bundan qabaqkı hindliyə necə məlum idisə, eləcə də öz varlığını saxlamışdır. Hazırda gündəlik ibadətlə məşğul olan Brəhmən 3 min il əvvəl yaradılmış himnləri yenidən təkrar etməkdə davam edir. Faktiki olaraq Hindistan dünyada ən qədim mədəni ənənələrlə zəngin olan bir ölkə kimi məlumdur. XVIII əsrin ikinci yarısına kimi avropalılar Hindistanın keçmişini o qədər də ciddi şəkildə öyrənməyə çalışmırdılar. Onun qədim tarixi isə yunan və Roma müəlliflərinin əsərlərində adda-budda qalmış fraqmentlərdən məlum idi. Ölkəyə gəlib çıxmış bir sıra fərasətli missionerlər isə Hindistanın həmin dövrdəki həyatı ilə dərindən tanış olmuş, xalq dillərini dərindən öyrənmişdilər. Lakin bütün bunlara baxmayaraq, içərisində yaşadıqları xalqın əsil tarixi keçmişini və mədəniyyətini başa düşmək istəmirdilər. Onlar bu mədəniyyəti qədim hesab etsələr də, onları dərindən öyrənməyə cəhd etmirdilər. Hindistanın qədim

tarixinə dair həmin missionerlərin tədqiqatları əsaslandırılmamış uydurmalarla zəngindir. Çünki onlar hindliləri Nuhun nəsli ilə və qeyb olmuş Bibliya çarlıqları ilə əlaqələndirirdilər. Bu isə, sözün həqiqi mənasında, uydurmadan başqa bir şey deyildir. Bunu müəyyən mənada Hind mədəniyyətinə də aid etmək olar. Lakin sonralar haqq öz yerini tutmağa başladı. Dünyanın görkəmli tədqiqatçıları Hindistanın tarixi, mədəniyyəti və mifologiyası haqqında obyektiv fikirlər söyləmişlər. Bəzi müəlliflər Hindistanda yaranmış mədəni sistemi üç əsas tipə bölmüşdür. Həmin müəlliflərdən Braunun fikrincə, birinci tip mədəni sistem induist mədəniyyətin təsirinə məruz qalmayan, hələ indiyə qədər öz yazısı olmayan qəbilə, tayfa mədəniyyətidir. Bu, induist mədəniyyəti ilə mifologiyanın ünsiyyətin ilkin mərhələsində durur. Onlar özlərinin xüsusi yerli allahlarına etiqad edirlər, hinduizmin böyük allahlarının mövcudluğu haqqında heç bir təsəvvürə malik deyillər. Elə buna görə də onların həmin allahlarla bağlı miflərlə də tanışlığı yoxdur. Həmin qəbilə və tayfaların mədəniyyəti və dini konsepsiyaları haqqında məlumatlar yeni dövrdə etnoqraflar, folklorçular, missionerlər, məmurlar, məktəb müəllimləri və başqalarının topladıqları faktlara əsaslanır. «Qəbilə-tayfa» mədəniyyətini çox çətinliklə sistemləşdirmək mümkündür. Onlar fraqmentar xarakter daşıdığından tədqiqatçılara onları qruplaşdırmaq olduqca çətindir. Əgər bu mədəniyyət klassik Hind mifologiyası ilə bəzi əlaqəsini göstərsə də, əksər hallarda müstəqilliyini nümayiş etdirir.

Hind mədəniyyət sisteminin ikinci tipi konkret şəxsiyyətlərin əsasını qoyduğu etiqad təlimləri ilə qırılmaz əlaqəsi olan mifləri əhatə edir. O kateqoriyalara buddizm və çaynizm daxildir. Buddizm mifologiyasında mərkəzi yeri Buddanın tarixi şəxsiyyəti tutur. Budda (sanskritdə hərfən-həqiqətlə nurlanmış, ağıllı) buddizmdə mütləq kamilliyə çatmış və başqalarına nicat yolunu göstərməyə qadir olan şəxsdir. Bu qədim dinin banisi əfsanəyə görə, e.ə. VII-VI və ya VI-V əsrlərdə Qanq vadisinin mərkəzi hissəsində yaşamış Sidihartha Qautama Şəkya Munidir. Buddanın həyatı və moizəçilik fəaliyyəti haqqında natamam məlumatlar buddizmin kanonik ədəbiyyatında verilmişdir. Qautama Şəkya-Muninin həyatının daha müfəssəl təsvirləri bizim eranın II-III əsrlərində tərtib edilmişdir. Mövcud təsvirlərdə ehtimal ki, buddist vaizlərinin həyatından götürülmüş əfsanələr, dini miflər və hadisələr sıx surətdə çulğalanmışdır. Buddanı-Qautamanı bəzən “Asiyanın işığı” hesab edirlər.

Çaynizm e.ə. VI əsrdə Hindistanda buddizmlə bir vaxtda Kasta, Silk quruluşunu təsvir etmiş Brəhmənizmə müxalif olaraq meydana gəlmiş dindir. Çaynizm qədim Hind cəmiyyətinin mütərəqqi təbəqələrinin mənafeyini ifadə edirdi. Çaynizmin davamçıları 24 peyğəmbərə sitayiş edirlər. Bunlardan da sonuncusu guya çaynizmin əfsanəvi banisi, Cina (sanskritcə qalib) təxəllüsü olan Mahavira Vardharana olmuşdur. Cina və onun ardıcılları haqqında əhvalatlar kanonik çaynist dini ədəbiyyatını (Sitddhanta) təşkil etmişdir. Çaynizmə görə, Cina 5 həqiqəti təbliğ etmişdir: adam öldürmə, yalan danışma, oğurluq etmə, dünyəvi şeylərə bağlanma, bakirəliyini saxla (rahiblər üçün). Çaynizm Brəhmənizmin bir sıra ünsürlərini-ruhların şəkildən şəklə düşməsinə etiqadı, karma haqqında, peyğəmbərlərin vaxtaşırı zühur etmələri haqqında təlimi saxlamışdır. Çaynizm, habelə buddizm Brəhmənizmin kasta quruluşunu və ayinlərini, iztirablardan fərdi şəkildə xilas olunması haqqında təlimi, Vedin müqəddəsliyini inkar edirdilər. Çaynizm ayinlərində allah kimi Cinaya, həmçinin onun şagirdlərinə sitayiş edilməsi, müqəddəs mətnlərin oxunması, camaat qarşısında tövbə etmək daxildir. Bütövlükdə Çaynizm mifologiyası o qədər dəqiq formalaşmışdır ki, orta əsrdə yaşayan rahib Hema Çandra (1089-1173) onu böyük bir kitabda ümumiləşdirə bilmişdir. Onun əsəri «Trişaş-tişalakapuruşaçarita» və yaxud «altmış üç görkəmli insanın həyatının təsviri» adlanır.

Nisbətən vahid şəklə salınmış, dəqiq formalaşdırılmış buddist və çaynist mifologiyalarının əksi olaraq Hind mədəniyyət sisteminin üçüncü tipi hinduizm mədəniyyəti hesab olunur. Hinduizm dinə nisbətən daha geniş anlayışdır. O, özünün tam məzmunu ilə həyat tərzi olub, adət və ənənələri, etiqadı, əxlaq, davranış normalarını, müxtəlif xalqlarda tarixən ən qədim dövrlərdən formalaşmış ictimai institutları özünə daxil edir. Hinduizm e.ə. VI-IV əsrlərdə buddizmin və çaynizmin yayılmasına cavab olaraq meydana gəlmişdir. Hinduizm Hindistanda quldarlıq münasibətlərinin cəmiyyətin kastalar üzrə bölgüsünü təsdiq etmiş feodal münasibətləri ilə əvəz olunması dövründə (IV-VI əsrlərdə) möhkəmlənmişdir. Hinduizm yekcins din deyildir, onda vahid ehkamçılıq və ayinçilik, mütəşəkkil məbəd sistemi yoxdur.

Brəhmənizm ünsürlərindən başqa hinduizmə ved və yerli dinlərin ünsürləri, ibtidai dini etiqadlar: suya (məsələn, Qanq çayına), heyvanlara (ilanlara, meymunlara, fillərə, inəyə) sitayiş, əcdadlar ayini daxildir. Eyni zamanda hinduizm bütlərə sitayiş ünsürlərinə malik olan dindir. Bütün hinduizm cərəyanları üçün ümumi cəhət Vedin müqəddəs kitablar kimi qəbul edilməsi, sansara haqqında, öləndən sonra Karma qanunlarına uyğun olaraq müxtəlif varlıqlarda yenidən canlanmış ruhun sərgüzəştləri haqqında təlimdir. Bu qanun kasta qaydalarına və ya dharmaya əməl edilməsi və ya edilməməyi ilə müəyyən edilir. Hinduizmdə insanların allah qarşısında bərabərsizliyi, kasta bölgüsünün ilahiliyi haqqında təlim mühüm yer tutur. Hinduizmin dini-fəlsəfi təsəvvürləri üçün təbiətə qarşı duran atman haqqında, allahın zühur etdiyi insan ruhu haqqında və brəhmən (dünya ruhu) haqqında, mənəvi mahiyyətlər haqqında təlim olduqca səciyyəvidir. Hinduizmə görə, insan həyatının məqsədini (buddist nirvanasından fərqli olaraq) atmanın təbiətdən azad olması və brəhmənlə birləşməsi təşkil edir. Buna da dharmanın yerinə yetirilməsi vasitəsilə nail olunur. Bundan başqa başlıca allah yaratma (Brəhmə), hifz etmə (Vişna), məhv etmə (Şiva) xassələrini özündə

təcəssüm etdirən, üç sifətə malik vahid allah mövcuddur. Brəhməyə faktiki olaraq sitayiş etmirlər. Vişnuya və Şivaya (bunlarla bir sırada digər allahlara) sitayiş edirlər. Pərəstiş obyektindən asılı olaraq bu dində iki əsas və olduqca mühüm hesab olunan cərəyan: vişnuizm və buddizm bir-birindən fərqlənir. Məlum olduğu kimi, hinduizmin bir cərəyanı olan Vişnuizmdə avatarlar haqqında Vişnanın allahlarda, insanda və ya heyvanlarda vaxtaşırı təcəssüm etməsi haqqında təsəvvür ön sırada durur. Məsələn, Budda Vişnanın avatarası hesab olunur. Bütün bunlar isə hinduizmin universallığını, yəni digər dini etiqadlara, xüsusilə buddizmə uyğunlaşa bilməsi imkanını sübut edir. Hinduizm bir din kimi bütün etiqad növlərinin, o cümlədən primitiv animizm etiqadlarından tutmuş, incə fəlsəfi buddizmə qədər hamısının mövcudluğunu qəbul edir. Teoloji baxımdan hinduizm vahid din olmayıb müxtəlif dinlərdən təşkil olunmuş kimi özünü göstərir.

Şərt olaraq üç tipə ayrılan Hind mədəniyyət sistemində Hind mifologiyası olduqca zəngin və mürəkkəbdir. Hind mədəniyyəti qədim Hindistanda mövcud olan bir sıra mifoloji sistemlərin (o cümlədən, miflərin və orada iştirak edən personajların məcmusudur. Dini-mifoloji təsəvvürlərin mənşəyi ən qədim, ibtidai dövrlərə gedib çıxır. Qəbilə-tayfa mifologiyası həmin sıradandır. Bunlar çox vaxt yerli əhalinin adı ilə dravid mifologiyası da adlanır. Bəzən «protodravid» sivilizasiyasını da oraya daxil edirlər. Mohenco-Daro və Harappa arxeoloji qazıntıları ən qədim dövr mədəniyyəti haqqında ətraflı məlumat verir. Keçən əsrin 20-ci illərində aparılan arxeoloji qazıntılar yüksək mədəniyyət mərkəzlərini aşkar etmişdir. Harappa mədəniyyəti dövrünün adamlarının dini-mifoloji təsəvvürləri protohind mifologiyasını təşkil edir. Qeyri-hind, qeyri-ari xalqları, tayfa və qəbilələrinin yaratdığı bu mifologiya sistemi ilə yanaşı, Hind mifologiyasının ünsürlərini vedlərin mifologiyası, hinduizm mifologiyası, buddizm mifologiyası, çaynizm mifologiyası və s. təşkil edir. Məlum olduğu kimi, brəhmənizm qədim hindlilərin quldarlıq cəmiyyətinin təşəkkülü dövründə vedizm dininin daha da inkişaf etdirilməsindən ibarət olan dindir. Vedlər və bunların e.ə. VIII-VI əsrlərdə tərtib olunmuş geniş şərhləri («brəhmənlər», «aranyakilər» və «upanişadlar») daxildir. Brəhmənizm ciddi kasta bölgüsü üzrə dini cəhətdən əsaslandırılmış brəhmənlərin varnasını (silkini) təşkil edən peşəkar kahinlərin imtiyazlı vəziyyətlərini təqdis etmişdir. 4 varnadan onların (brəhmənlər, kşatrilər, vayşilər, şudralar) hər biri üçün xüsusi davranış qaydaları, hüquqlar, vətəndaşlıq və dini vəzifələr (dharma) müəyyən edilmişdi.

Dörd kastaya (varnaya) bölünmə Qədim Hindistan cəmiyyətinin səciyyəvi cəhətidir. Bu kastalar 1) brəhmənlər (ağlar) - yəni əqli əməklə məşğul olan kahinlər; 2) kşatrilər (qırmızılar) - hərbçilər; 3) vayşilər (sarılar) - əkinçi, sənətkar və ticarətlə məşğul olanlar; 4) şudralar (qaralar) - ən aşağı, ağır işləri icra edənlər, nökərlər. Ari irqinə mənsub olan birinci üç kastada mənəviyyat brəhmənlərə, əməli (faktiki) hakimiyyət kşatrilərə məxsus idi, vayşilər əməkçi xalq kütlələri, maddi nemətləri yaradanlar, şudralar isə qullar, nökərlər, ən ağır əməklə məşğul olanlar idi.

Qədim Hindistanda yaranan primitiv fəlsəfi baxışlarda, sonralar isə fəlsəfi sistem və məktəblərdə göstərilən ictimai bölgülərdəki mühüm və kastaların ictimai-siyasi mövqelərində müqayisəli nöqteyi-nəzər öz fəlsəfi təcəssümünü tapa bilmişdir. Həmin kasta sistemi eyni zamanda bütün dinlərdə də bu və ya digər dərəcədə əksini tapsa da, brəhmənizmdə daha geniş şəkildə əks olunmuşdur.

Bu din öyrədirdi ki, vedizm dini allahları ilə yanaşı ən ali mütləq olan yaradıcı Brəhmən allahı mövcuddur. Onun hissələrindən ibarət olan bütün canlı varlıqların ölməz ruhları onunla qovuşmağa can atmalıdır. Bu məqsədə çatmaq üçün ruhun köçürülməsinin sonsuz sırası durur. Bu ruh da bitkilərdən və heyvanlardan tutmuş brəhmənlərə, padşahlara və hətta səma sakinlərinə qədər müxtəlif formalarda zühur edə bilər. Ruhun hər bir yeni doğulmasının forması insanın özündən, onun sağlığındakı əməllərindən (karma qanunu), onun möminliyinin dərəcəsindən asılıdır. Brəhmənlərə sözsüz tabeçilik, hakimiyyətin ilahiləşdirilməsi, öz varnasının drahmasını yerinə yetirmək, bu varna tərəfindən müəyyən edilmiş ayinlərə əməl edilməsi brəhmənizmə görə, ən mühüm fəzilətlər, xeyirxahlıqlar hesab olunurdu. Bu göstərişlərin yerinə yetirilməsi guya ruhun yeni, daha yaxşı köçürülməsinə səbəb olur, dharmanın tələblərinin pozulması isə yeni bədbəxt hadisələrə, pozulmalara gətirib çıxarmışdır. Brəhmənlərin təlimi onların müqəddəs varlıqlar sifətində qəbul edilərək hakim təbəqə mövqeyini qoruyub saxlamağa xidmət etmişdir. Bütövlükdə isə hinduizm mifologiyası brəhmənizm mifologiyasından bəhrələnmişdir. Brəhmənizm isə özlüyündə Vedlərdən qidalanmışdır. Vedlər dini, yaxud Vedizm Hindistan əhalisinin xeyli hissəsinin e.ə. II-I minilliyin əvvəllərində təşəkkül tapmış və müqəddəs mətnlər külliyyatları olan Vedlərdə (hərfi - bilik) yazılı şəkildə tərtib olunmuş dini etiqad və ayinlərdir. Vedlər ən qədim himnlərdən, dualardan, qurbanlıq qaydalarından və cadularından ibarət olan 4 külliyyatdan (samhidlərdən) - Riqveda, Yacurveda, Samaveda və Atharvavedadan ibarətdir. Vedizm dininin allahları ilk vaxtlar təbiət qüvvələrinin və hadisələrinin antropomorf şəkildə canlandırılmasından ibarətdir. Aqni - od allahı, İndra - atmosfer, yağış və tufan allahı, Surya - Günəş allahı, Dyaus (Varuna) - göy allahı, Soma - Ay və məstedici içki allahı, Vritra - quraqlıq allahı və s. İbtidai cəmiyyətin dağılması, sinfi cəmiyyətə keçid, dövlətlərin meydana gəlməsi ilə adları çəkilən allahların da funksiyaları mürəkkəbləşir. İndra müharibə allahına, allahların padşahına və Yer allahının hamisinə, Varuna allah hakiminə çevrilir və s. Ayinin əsası qurbanvermə mərasimlərindən ibarət idi. Bununla da təsəvvür edilirdi ki, qurbanvermə yer üzərindəki həyatda insanlara allahın köməyini, ölənlərin ruhlarının isə səma səltənətində (cənnətdə) dirilməsini təmin edir. Qurban verilməsinə əvvəllər tayfaların, icmaların, ailələrin

başçıları, sonralar isə peşəkar kahinlər-brəhmənlər rəhbərlik edirdilər.

Hind mifologiyasının üç əsas sistemində mifoloji personajların hər biri özünün müstəqilliyi və böyük fərqləri ilə bir-birindən seçilir. Vedizm mifologiyası Şimal-Qərbi Hindistanda ari tayfaları arasında e. I-ı minilliklərdə formalaşmışdır. Vedizm mifologiyasının əsas cəhəti çoxallahlılıq-politeizmdir. Hinduizm mifologiyası sonralar, ari tayfalarının kütləvi surətdə Cənub və Şərqə doğru hərəkət etməsi şəraitində formalaşmışdır. Onlar yerli mədəniyyətlərə əhəmiyyətli təsir göstərməklə yanaşı, həmin mədəniyyətlərdən çox şeyi mənimsəmişdilər. Vedizm mifologiyasının davamçısı və transformasiyası olan hinduizm mifologiyası kedlərin ali bilik mənbəyi nüfuzu qəbul etmişdilər. Lakin bununla yanaşı onlar monoteist təsəvvürlərə doğru böyük təkamülə uğramışdılar. Bunlar isə bütün varlığın ilk yaradıcısı ideyasının aktuallaşdırılmasında, qaydaya salınmış ilahi üçlüyün yaradılmasında, universallıq iddiasında olan böyük dinlərə xas cizgilərin işlənib hazırlanmasında özünü göstərirdi. Vedizm mifologiyası sadəcə olaraq hinduizm mifologiyasına transformasiya edilməmişdir. O, müəyyən dərəcədə hinduizm mifologiyası ilə yanaşı mövcud olmuş, bir sıra mərasimlərdə öz mövqeyini saxlamışdır. Müqəddəs hesab edilən «Riqedada», «Yacurveda» və s. mətnlərindən isə özünü müdafiə kimi istifadə etmişdir. Qədim Vedizm və hinduizm mifologiyasının bir çox cəhətləri Şimalda deyil, dravid Cənubda daha yaxşı saxlanılmışdır.

Ortodoksal, brəhmənilşdirilmiş vedizm və hinduizm miologiyasından fərqli olaraq e.ə. VI əsrdə Hindistanın Şimal-Şərq vilayətlərində yaranan buddist mifologiyası brəhmən mahiyyətindən uzaq olub, həm sanskrit, həm də yerli orta Hindistan dialektlərini birləşdirən dilə malik olub əhalinin daha geniş təbəqələrini əhatə edir. Cəmiyyətin bu təbəqələri sosial mülkiyyət və etnik münasibət cəhətdən bir-birindən köklü surətdə fərqlənən təbəqələr olmuşdur. Vedizm və hinduizm mifologiyaları bir sıra personajları və süjetləri götürən, mənimsəyən Buddizm öz dini-fəlsəfi prinsiplərinə müvafiq olaraq mifologiyaya məhdud, ikinci dərəcəli yer vermiş, öz tərkibinə mifoloji təbəqəni daxil etməyə isə yüksək nəzəriyyə və xalq etiqadları arasında bir növ kompromis kimi baxmışdır.

Hind mifologiyasının səciyyəvi cəhətlərindən biri onun müxtəlif təcəssümlərinin (vedizm, hinduizm, brəhmənizm, buddizm və s.) olmasında deyil, onların məkan və zamanda yanaşı mövcudluğu və mifoloji sistemlərin üzvi şəkildə varisliyindədir. Çox zaman Hind mifologiyası vahid mifoloji sistem kimi təqdim olunur və onun komponentlərinin mövcudluğu ikinci dərəcəli bir hal kimi verilir.

Ən qədim dövrlərdən Hindistanda zəngin və spesifik elm inkişaf etmişdir. Hələ e.ə. III minilliyin ortalarında yazı meydana çıxmışdır. Metalın işlənməsi, təbabət, həndəsə, şahmatın kəşfi və s. Hindistanda mədəniyyətin tarixi qədimliyini bir daha sübut edir. Bu dövrdə Hind alimləri onluq hesab sistemini kəşf etmişdir. Triqonometriya, hesab, cəbrin nailiyyətləri, yerin şar şəklində olması, ayların 12, ayın 30 gün və s. kəşflər də hindlilərə məxsusdur.

II-I minilliklərdə Ved ədəbiyyatı, «Mahabharata» ensiklopedik əsəri, qədim Hind dramaturgiyası «Kalidasa», dini ədəbiyyat, Buddanın həyatının «təsviri» geniş yayılmışdır. Musiqi Hindistanın mədəniyyətinin ayrılmaz bir hissəsidir. Rəssamlıq, məbədlərin tikintisi, təsviri sənət, din fəlsəfəsi, fəlsəfi məktəblər də Qədim Hind mədəniyyətinin mühüm elementləridir.

Qədim Hindistanın maddi və mənəvi mədəniyyəti dünya sivilizasiyası tarixində mühüm yer tutur.

## QƏDİM ÇİN MƏDƏNİYYƏTİ

Şərqi-Çin düzənliyində Xuanxe və Yantszı çayları axır. Bu çaylar dağlardan başlayır və dənizə tökülür. Gur yağışlar yağan zaman Xuanxe daşır və ətrafı basır. Torpaq üzvi maddələrlə zənginləşir. Belə torpaqları şumlamaq asan olurdu. Əhali bu məhsuldar torpaqlarda məskunlaşırdı.

E.ə. II minillikdə Xuanxe çayı vadisində ibtidai icma quruluşu dağıldı, quldarlar, kəndli və qullar sinifləri və dövlət meydana gəldi. Əkinçilik, maldarlıq, sənətkarlıq inkişaf etdi. E.ə. VI-V əsrlərdə çinlilər dəmirdən istifadə etməyə başladılar. Çəltik becərilməsi genişləndi. Qədim Çin təsərrüfatında ipəkçilik xüsusi yer tuturdu.



İn dövrünə aid tunc və sümükdən düzəldilmiş alətlər

Çin hunların hücumuna məruz qaldı və vahid Çin-parçalandı. Kiçik dövlətlər yarandı. Onlar arasında müharibələr başlandı. E.ə. IV-III əsrlər Çün tarixində "vuruşan padşahlar" dövrü adlanır. E ə. III əsrdə Sin padşahlığı Çində ən qüdrətli dövlət oldu. Çin hökmdarı İn-Çjen bütün Çini hakimiyyəti altında birləşdirdi. O, e.ə. 221-ci ildə özünü Sin-Şi-Xuandi adlandırdı və bu da "Birinci Sin imperatoru" deməkdir. Beləliklə, vahid və mərkəzləşdirilmiş Çin dövləti yarandı. Sin-Şi-Xuandi hunların hücumundan müdafiə olunmaq üçün ölkənin şimalında Böyük Çin. səddi çəkdirməyə başladı. Səddin üstündə beş araba yanaşı gedə bilərdi. Bu tikinti fasilələrlə min il davam etmişdi. Səddin uzunluğu 5 min km-dən çox, hündürlüyü isə 6.6 m, bəzi yerlərdə 10 m idi.

Çindən qərbə gedən "Böyük ipək yolu" bütün Asiyanı yarıb keçir, Aralıq dənizinə doğru uzanırdı. "Böyük ipək yolu" e.ə. II əsrdə kəşf edilmişdir.

Çin yazısında heroqliflərdən istifadə olunurdu. On minlərlə heroqlif var idi. Çinlilər yazı materialı kimi bambuk lövhəciklərdən, ipək parçadan istifadə edirdilər. Eramızın başlanğıcında çinlilər cındırdan, ağac qabığından, bambukdan kağız düzəltdilər. Kağız ucuz başa dəlirdi. Çində biliklər yüksək inkişaf etmişdi. Əkinçilərin səma cisimlərinin müşahidəsi nəticəsində astronomiya elmi yaranmışdı. Çinlilər yeri nəhəng yumurta şəklində təsəvvür edirdilər. Onlara görə yer yumurta sarısı, göy isə qabığıdır, göy cisimləri ona bərkidilib. Onlarla birlikdə göy Yer ətrafında fırlanır.

Kənd təsərrüfatına aid əsərlərdə torpağı becərmək və suvarmaq, ipək qurdu bəsləmək, çay kollarını becərmək qaydalarından bəhs olunurdu. Çay sözü Çin mənşəlidir. Əvvəllər xəstənin qüvvəsini mühafizə edən dərman kimi işlənmiş, sonralar isə içki kimi istifadə olunmuşdur. Dəniz səyyahlarının və karvan başçılarının müşahidəsindən coğrafiya elmi yarandı. Uzaq səyahətlərə çıxanlar kompas ixtira etmişlər. E.ə. II əsrdə və birinci əsrin əvvəllərində yaşamış Çin tarixçisi Sıma Tsyan ən qədim dövrdən ömrünün sonuna qədər olan dövrü əhatə edən "Tarixi qeydlər" əsərini yazmışdır. O, hər bir hadisəni düzgün yazmağa çalışmışdı. Elə buna görə də o, padşah tərəfindən cəzalandırılmışdı.

Çin e.ə. VII əsrdə yaranmış Vyetnam dövləti ilə əlaqə saxlayırdı. Çinlə qərb ölkələri arasında əlaqə zəif inkişaf etmişdi. Çində kağızın istehsalı, çaydan istifadə, ipək istehsalı, kompasın ixtirası yüz illərlə avropalılara məlum olmamışdır.

Qədim Çin mədəniyyəti müxtəlif sahələrdə inkişaf etmİşdİ. Din ilə bağlı təsəvvürlər öz əksini əfsanələrdə tapmışdı. Qədim Çin əfsanələri e.ə. VI əsrdən başlayaraq yazıya köçürülmüşdü. Əfsanələrə görə, ilk əvvəl qarma-qarışıq Aləm (materiya) mövcud imiş. Sonra bu aləmdən işıq və qaranlıq bildirən ünsürlər ayrılmışdı. Birinci kişi, ikinci qadın xəttini təmsil edirmiş. Dünyanın möcüzə yolu ilə də yaranması əfsanələrdə əks olunmuşdur. Quraqlıq göydə yeddi günəşin peyda olması ilə əlaqələndirilir. Əfsanədə ilahə tərəfindən insanın gildən yaradılması aşılanır. Daşqın və onun faciəvi nəticəsi, quraqlıq və ondan doğan aclıq, qəhrəman adamlar və onların cəsurluğu əfsanələrin başlıca mövzusunu təşkil edir. Digər qədim Şərq əfsanələrində olduğu kimi, daşqın allahın qəzəbi kimi qələmə verilir.

Qədim çinlilər əcdadlara və axirət dünyasına inanırdılar Konfusi təliminin yayılması əcdadlara

sitayişi möhkəmləndirdi və səmaya sitayişi genişləndirdi. Səma allahı təcəssüm edirdi. Allaha (di) inam tədricən səma ibadətinə çevrilmişdi. II-III əsrlərdə Çində Buddizm yayıldı. Qədim çinlilərin təsəvvürünə görə ilk Budda sutraları Çinə ağ at üstündə gətirilmişdi.

Qədim Çin erkən yazı növləri "fal kitabələrində" əks olunmuşdur. İn dövründə inkişaf etmiş heroqlif yazı forması mövcud idi. İn dövrünün yazı növü müasir Çin heroqliflərindən o qədər də fərqlənmir. Xan dövründə yazı daha da təkmilləşir.

Ən qədim Çin nəzm ədəbiyyatı e.ə. XI-VI əsrlərə aid tunc qablar üzərində əks olunmuşdur. "Şiszin" əsəri 305 poetik hissədən ibarətdir. Bu, qədim Çin poeziyasının qiymətli əsəridir. Qədim Çində musiqi, memarlıq, təsviri incəsənət geniş inkişaf tapmışdı. Elmi biliklərin meydana gəlməsi praktiki tələbatdan doğurdu. Xüsusilə riyaziyyat inkişaf etmişdi. E.ə. II əsrdə "Doqquz kitablı riyaziyyat" adlı traktat tərtib olunmuşdu. Bu kitab torpaqölçənlər, astronomlar, məmurlar və b. üçün zəruri vəsait idi. Astronomiya və təqvim sahəsində irəliləyiş vardı. II əsr astronomu

və riyaziyyatçısı Çjan Xenin əsərində 124 ulduz bürcü barədə məlumat verilmişdir. Planetlər üzərində müşahidələr aparılırdı. E.ə. 104-cü ildə ilin davamiyyəti hesablandı. İl 365.25 günə bərabərləşdirildi. Bu yeni təqvim 85-ci ilə qədər tətbiq olundu. Bu təqvimə görə il 12 aydan ibarət idi. Təbabət inkişaf edirdi. Hələ e.ə. IV-III əsrlərdən iynəbatırma ilə müalicə metodundan istifadə edirdilər. Təbabətə aid əlyazmaların birində 52 xəstəliyin (məsələn, qıcolma, əsəb pozğunluğu, qızdırma, yırtıq, qadın və uşaq xəstəlikləri və s.) 280 müalicə üsulu göstərilirdi. Çin qədim tarixi, mədəniyyəti, fəlsəfəsi olan bir ölkədir. Hələ e.ə. Şan-in dövlətində təsərrüfatda quldarlıq münasibətləri hökm sürürdü. Döyüşlərdə əsir tutulan qul əməyindən əsasən maldarlıqda, müəyyən qədər əkinçilikdə, həmçinin ev təsərrüfatında və tikintidə istifadə olunurdu. Həmin dövrdə əkinçilikdə qan qohumluğuna əsaslanan icmalar (patronimiya) mühüm rol oynayırdı. Şan-İn dövründə və onun yerinə gələn Çjou sülaləsi dövründə dini-mifoloji dünyagörüşü hökm sürürdü. Artıq qeyd etdiyimiz kimi, Çin miflərinin fərqləndirici cəhətlərindən biri oradakı allahların və ruhların zoomorf xarakteri idi. Ona görə də qədim Çin allahları heyvanlar, quşlar, balıqlar ilə çox oxşar idi və əksəriyyəti yarım heyvan və yarım insan şəklində təsvir olunurdu. Həmin panteonda əsas yeri Şan-Di tuturdu. Bütün allahlar və ruhlar ona tabe idi. Onun iradəsi qarşısında külək, yağış, bulud və şimşək ruhları aciz hesab olunurdular. Lakin Şan-di təkcə baş allah olmayıb, qədim çinlilərin təsəvvürünə görə onların əcdadları və hamiləri idi. Miflərə görə İn tayfasının əcdadı Şan-di olmuşdur.

Çox vaxt Şan-di obrazında səmanın şəxsləndirilmiş ilahi qüvvəsi təcəssüm tapırdı. Qədim çinlilər belə hesab edirdilər ki, dünyada hər şey Səmanın iradəsindən asılıdır və eyni zamanda «səmanın iradəsi» fala baxmaq və digər əlamətlərlə müəyyən edilir. Dini-mifoloji təsəvvürlər icma əyanlarının ağalığı sistemini təbliğ edirdi. Hakim öz təbəələri qarşısında səma oğlu kimi tanınırdı. Qədim çin dinlərində əcdadlara, qəhrəmanlara etiqad mühüm yer tuturdu. İnsanların ruhlarla və əcdadlarla «əlaqəsi» çox ciddi şəkildə nizamlanaraq nəzarət altında saxlanılırdı. İnsanlarla allahlar və ruhlar arasında birinci vasitəçi hökmdar özü idi.

Miflərdə əcdadlar kultunda və totemizmdə cəmiyyətin qəbilə-tayfa təşkilinin əlaqələri öz əksini tapmışdır. Mifologiyada dünyanın, təbiətin yaranmasının öz izahı, şərhi mövcud olmuşdur. Ən qədim dövrlərdə, nə səmanın, nə də yerin olmadığı dövrdə kainat formasız qaranlıq xaos kimi təsəvvür edilirdi. Bir mifə görə, həmin formasız qaranlıqda iki ruh (yaxud allah) - İn və Yan yarandı və onlar dünyanı qaydaya salmağa başladılar. Sonralar, bu ruhlar bir-birindən ayrıldılar. Yan ruhu səmanı, İn ruhu isə yeri idarə etməyə başladı. Belə hesab edilir ki, onlar qaranlığın kobud hissəciklərindən heyvanları, quşları, balıqları və digər canlıları, yüngül hissəciklərdən isə insanları yaratmışlar. Digər mifə görə isə insanlar allah Fu-si ilahə Nyuyva tərəfindən yaradılmışdır. Üçüncü bir mifə görə isə ilk mifik insan Panqu balta ilə qaranlığa zərbə endirir və nəticədə bütün yüngül və təmiz olanlar yuxarı qalxan səmanı yaradırlar, ağır və çirkli şeylər isə aşağı enərək yeri yaradır.

Kainatın mənşəyi haqqımda miflərdə naturfəlsəfənin ilk, qaranlıq və bəsit də olsa belə rüşeymləri görünür. Hakim mifoloji şüur (təfəkkür) e.ə. birinci minilliyə qədər hökm sürmüşdür.

İbtidai icma cəmiyyətinin dağılıb öz yerini yeni bir cəmiyyətə verməsi nəticəsində belə miflər aradan çıxmadı. Bir sıra miflər qədim Çin kosmoqonik konsepsiyalarının tərkib hissəsinə çevrilmişdir. Bu, hər şeydən əvvəl, İn və Yan ruhlarına dair yayılmış miflərə aiddir. Artıq İn və Yan kainatın yaranması və inkişafında mühüm rol oynayan qüvvələrə çevrilirlər.

Bir sıra mifoloji obrazların sonrakı fəlsəfi traktatlarda mühüm yer tutması heç də təsadüfi deyildir. E.ə. V-III əsrlərdə yaşayan filosoflar tez-tez miflərə müraciət edirdilər. Onlar həqiqi idarəçilik və insanın düzgün davranış normaları haqqında öz konsepsiyalarmı yaratmaq üçün miflərdən istifadə edirdilər.

Bununla yanaşı, konfusiçilər miflərin tarixiləşməsini həyata keçirirlər. Buraya qədim miflərin süjet və obrazlarım mifdən azad edib, tarixi don geydirmək də daxildir. «Qədim Çin mifləri» kitabının müəllifi Yuan Ke yazırdı ki, konfusiçilərin əsas məqsədi bütün mifoloji personajların hərəkətlərini insaniləşdirmək idi ki, bu da miflərin tarixiləşməsi kimi başa düşülməlidir. Mifoloji əfsanələri öz təlimlərinə uyğunlaşdırmağa cəhd edən konfusiçilər ruhların insanlara çevrilməsinə çox səylə girişmiş, miflərin və əfsanələrin rasional izahı

üçün də az iş görməmişlər.

Burada miflər ənənəvi tarixin bir hissəsinə çevrilmişdir. Bambuk lövhələrə mifləri köçürərkən onun ilkin mənası təhrif edildiyindən, insanlar ancaq yazılanlara inanmağa başladılar. Tədricən isə ağızdan-ağıza keçən miflər unudulmağa başladı.

Nəticədə səmərələşdirilmiş miflər fəlsəfi ideya və təlimlərin tərkib hissəsinə çevrilmiş, miflərin personajları isə konfusi təlimlərinin təbliğində istifadə edilən tarixi şəxsiyyətlər kimi çıxış etmişlər. Xüsusilə mifik padşahlar Yao Şun, Yuy qədim dövrün ideal hakimlərinə çevrildilər. Onların hakimlik dövrü isə Çin tarixinin «Qızıl əsri» elan edildi. Amansız və qəddar hökmdarlar Tsze, Çjou obrazları da uyğun şəkildəyişməyə məruz qalıbdır. Onlar Yao, Şun və Yuyun antipoduna - tiranlara çevrilmişlər. Bütün bunlar miflərdə öz əksini tapmış, xalq ənənələrindən hakim sinfin mənafeyinə uyğun şəkildə istifadə etmək məqsədinə xidmət etmişdir. Qədim dövrün bütün fəlsəfələrinin tarixi sübut edir ki, qəbilə-tayfa quruluşunun mifoloji baxışları elmi biliklərin yaranması prosesinə böyük təsir göstərmişdir. Fəlsəfə öz bünövrəsini mifoloji təsəvvürlər zəminindən götürmüş, onun materialından əsaslı şəkildə istifadə etmişdir. Bu mənada qədim Çin fəlsəfəsi Çin mifologiyasından geniş şəkildə bəhrələnmişdir. Başqa xalqların fəlsəfəsi kimi mifologiya ilə sıx bağlı olan Çin fəlsəfəsi bir sıra spesifik xüsusiyyətlərə malik olmuşdur. Bu spesifik xüsusiyyətlər Çin mifologiyasının öz spesifikasından doğur. Çünki Çin mifləri, hər şeydən əvvəl, keçmiş sülalələr haqqında, «Qızıl əsr» haqqında tarixi əfsanələrin məcmusundan ibarətdir. «Şi tszin» «Dəyişikliklər kitabı», «Şi tszin» «Nəğmələr kitabı», «Şu tszin» «Tarix kitabı» və s. əksər hissələri qədim miflərə əsaslanır. Bu əsaslanma isə bir sıra kitablar «Şi tszin» sübutu üçün ən nüfuzlu arqumentlər hesab olunur. Çin mifləri qədim çinlilərin dünya baxışmı əks etdirən materiallarla o qədər də zəngin deyildir. Ona görə Çin fəlsəfəsində naturfəlsəfə ideyaları mühüm yer tutmamışdır. Lakin başlanğıc haqqında, «böyük hüdud haqqında» - in və yan qüvvələri haqqında, hətta dao təlimi öz mifoloji və qədim çinlilərin səma, torpaq haqqında bayağı dini baxışlarından götürür.

Əsasında in və yan qüvvələri duran kosmoqonik müddəalarla yanaşı, «beş ilkin stixiya» ilə əlaqədar olan sadəlövh materialist konsepsiyalar da yaranıb inkişaf etmişdir. Təbiət qüvvələrinin canlı şəkildə ilkin qavranılması cəhdləri qədim Çin mütəfəkkirlərini bir-biri ilə qarşılıqlı şəkildə əlaqədar olan ilkin başlanğıclar - su, metal, torpaq, ağac kimi ünsürləri qəbul etməyə gətirib çıxarmışdır. Səma 5 ilkin başlanğıcı yaratmış, xalq onların hamısından istifadə edir. Onlardan biri məhv edilərsə, həyat qeyri - mümkün olar».

«Şu Tszin» kitabının «Xun fan» («Böyük plan») fəslində deyilir: «Birinci başlanğıc - su, ikinci - od, üçüncü - ağac, dördüncü - metal və beşinci - torpaqdır. Su - yaş olub, üzü aşağı axmalıdır; od - yanmalı və yuxarı yüksəlməlidir; ağac - əyilməli və düzəlməlidir; metal - xarici təsirə tabe olmalı və dəyişilməlidir. Torpaq o vaxt özünü təzahür etdirir ki, əkilir və məhsul verir.

Yaş olub üzü aşağı axan duzu olanı yaradır. Yanan və yuxan qalxan acı yaradır; əyilən və düzələn isə turş olam yaradır; tabe olan və dəyişilən isə kəskin (iti) olanı yaradır; əkini qəbul edib məhsul verən isə şirin olanı yaradır».

Əvvəllər in və yan qüvvələri və 5 ilk başlanğıc səma ilə (ruhlarla) əlaqədar idi. Lakin xeyli müddətdən sonra Tszou Yan dini təsəvvürlərlə bağlı olan bu naturfəlsəfə sxemində əlaqəni kəsir. Artıq bu zamanlar təbiət və cəmiyyətdəki baş verən dəyişikliklərin müşahidəsi ümumi yaranma və dəyişilmə haqqında fikirlərin formalaşmasına əsas vermişdir. Bu fikir olduqca dəqiq şəkildə «İ-tszin» (e.ə. VIII-VII əsrlər) adlı mətndə öz əksini tapmışdır. Kitabın adı da belə idi: «Dəyişikliklər haqqında traktat (kitab)». «İ-tszin» qrafik simvollardan və onların izahından ibarətdir. Onun əsasında 8 triqram durur. Tszian (səma), çen (dağ), li (od), çjen (ildırım), su-yun (külək, ağac), duy (nohur, hovuz), gün (torpaq), kan (su) həmin səkkizliyə daxil idi. Bu triqramlar əslində o predmet və hadisələri ifadə edirdi ki, qədim çinlilər onlarla gündəlik praktikada rastlaşırdılar və xaosdan onları ayıra bilmək qabiliyyəti onların dünya baxışma xas idi. Nəticədə triqramın maksimum mümkün uyğunlaşdırılmış 64 heksaqram və 64 qrafik simvolu yaranmışdır. Hər bir simvol və hər bir heqsaqram müəyyən dərəcədə uzlaşdırılmış üfqi xətlərdən fasiləsiz - yan və fasiləsiz – in-dən ibarətdir. Məsələn, birinci heqsaqram tsayan (yaradıcılıq), ikinci heqsaqram gün (ifa edilmə) müxtəlif xətlərlə ifadə olunur. Hər bir heksaqram gerçəkliyin müəyyən vəziyyətinin ifadəsi, mahiyyəti heksaqramda aşkarlanan müəyyən həyat durumunun ifadəsidir. «Dəyişikliklər kitabı»nın nəzəriyyəsinə görə, bütün dünya vəziyyətlərin növbə ilə dəyişilməsindən ibarətdir. Bu dəyişilmə isə işıq və qaranlıq qüvvələrinin qarşılıqlı təsirində meydana gəlir.

«Dəyişikliklər kitabı»nın fikrincə, bir vəziyyətdən digərinə keçid varlığın dinamikasını açmalı idi. «Dəyişikliklər kitabı» Çin mədəniyyəti tarixində böyük bir hadisə olub, qədim şamanlar, saray adamları və mirzələr dairəsində yaradılıb yayılmışdır.

«Dəyişikliklər kitabı»nın məzmunu və əhəmiyyəti haqqında müxtəlif baxışlar mövcuddur. Bir qrup «Dəyişikliklər kitabı»nı romantik kitab hesab edir; ikinci qrup o qədər də əsassız olmayaraq belə hesab edir ki, burada mühüm fəlsəfi fikirlər tapmaq mümkündür. Üçüncü qrup bu kitabı məntiq dərsliyi sayır, dördüncü qrup mənəviyyatsız kitab hesab edir, beşinci qrup isə bunu fallik kosmoqoniya hesab edir və s.

E.ə. VI-III əsrlərdə qədim Çinin ideya həyatında keyfiyyətcə yeni hadisələr meydana gəlməyə başladı.

Həmin dövrdə Çinin iqtisadi və ictimai həyatında mühüm dəyişikliklər baş vermişdir. Torpaq üzərində xüsusi mülkiyyət bərqərar olur, yeni sənət sahələri yaranır, kənd təsərrüfatında yeni dəmir alət və əşyalardan istifadə olunur. Torpaqdan istifadə edilməsi üsulları təkmilləşdirilir.

O dövrdə siyasi həyatda da mürəkkəb hadisələr baş vermişdir. Tsin, Çu, Tsi, Vey, Tszin, Çjao, Xan dövlətləri arasında müharibələrin ardı-arası kəsilmir, dövlətlərin öz daxilində sosial partlayışlar baş verir. Vahid Çjou dövləti faktiki olaraq dağılır və bir sıra yerli hakimlər özlərini müstəqil elan etməyə çalışdılar. Onlar özlərini müstəqil elan edib, çox vaxt mərkəzi hakimiyyəti tanımırdılar.

Dərin sosial gərginlik və ziddiyyətlər güclü ideoloji mübarizə ilə müşayiət olunurdu. Elə buna görə də sosial-siyasi çaxnaşmalar dövründə belə Çində mədəniyyət və fəlsəfənin inkişafı dayanmır, əksinə daha da tərəqqi edirdi.

Zadəganlar və məmurlar «Səma», «Tale» ideyasını daha da inkişaf etdirməyə cəhd edirdilər. Bu da təsadüfi deyildir. Çünki həmin ideya onların hakimiyyətinin saxlanılması üçün zəmanət verirdi.

Aristokratiyaya qarşı müxalifət kimi formalaşan yeni sosial qruplar öz baxışlarını irəli sürərək səmaya etiqad ideyasına qarşı çıxırdılar. Onlar səma ideyasına tamamilə yeni bir məna və məzmun verməyə çalışırdılar. Həmin təlimlərdə tarixi təcrübənin düzgün anlaşılmasına cəhd edilir, idarəçiliyin «ideal qanunu» axtarılır, müxtəlif sosial qruplar arasında qarşılıqlı münasibətlərin yeni qaydaları irəli sürülür, ayrı-ayrı adamların və ölkələrin dünyada yeri müəyyənləşdirilir, insanın təbiətlə, (səma ilə), dövlətlə və digər adamlarla münasibətlərini aşkarlamağa səy göstərilirdi.

«Şi Tszin», «Şu Tszin» kimi ədəbi-tarixi abidələrdə bilavasitə adamların əmək və ictimai tarixi praktikasını ümumiləşdirən müəyyən fəlsəfi ideyalara rast gəlmək mümkündür. Lakin Çin fəlsəfəsi və mədəniyyətinin çiçəklənməsi e.ə. VI-III əsrlərə təsadüf edir. Ona görə də həmin dövrün Çin fəlsəfəsinin «qızıl dövrü» adlanması tamamilə həqiqətə uyğundur. Əslində elə həmin dövrdə fəlsəfi və sosioloji fikir haqqında mühüm əsərlər o cümlədən, «Dao-de tszin», «Lun yuy», «Mo-tszı», «Men-tszı», «Çjuan-tszı», «Quan-tszı», «Li-Tszi» və s. əsərlər yaranmışdır. Elə həmin dövrdə öz konsepsiyası və ideyaları ilə Lao-tszı, Konfusi, Mo-tszı, Çjuan-tszı, Men-tszı, Syun-tszı, Şan-Yan və Xan Feyt-tszı kimi mütəfəkkirlər yaşayıb yaratmışlar. Elə həmin dövrdə Çin fəlsəfə məktəbləri - daosizm, konfusiçilik, moizm, legizm, naturfilosoflar yaranıb inkişaf etmişlər.

Qeyd etmək lazımdır ki, Şan və Çjou sülalələri dövründə siyasi sistem getdikcə daha da təkmilləşdirilmişdir. Quldarlıq quruluşu inkişaf etdikcə quldar-aristokratların tanınmış nəsilləri daha da zənginləşirdi. Şan sülaləsi dövründə Tszin nəsli həmin aristokrat-quldurların başında dururdusa, Çjou sülaləsi dövründə hakim Tszi nəsli başda dururdu. Şan və Çjou vanları ali hakimlər hesab olunurdular. «Şi-tszin»də deyilir: «Bütün səma altında elə bir yer yoxdur vana məxsus olmasın, yerin sonuna qədər elə bir adam yoxdur ki, vanın qulu olmasın». Bütün bunlar bir daha sübut edir ki, Şan və Çjou sülalələri dövründə quldarlıq quruluşunun əsası torpaq və qullar üzərində dövlət mülkiyyəti, daha doğrusu hakimin mülkiyyəti təşkil edirdi. Şan və Çjou sülalələri dövründə ictimai həyat şəraiti fəlsəfədə iki kəskin xüsusiyyəti bir-birindən fərqlənirdi. İlk növbədə ideologiya sahəsində başlıca yeri dini ideologiya tuturdu. Şan sülaləsi dövründə hər şeyi yaradan baş ilahi Şan li (ali imperator) hesab olunurdusa, Çjou sülaləsi dövründə isə «səma iradəsi» təsəvvürü hakim oldu. Bu dini təsəvvürlər quldarlar tərəfindən ağalıqlarını möhkəmləndirmək üçün mənəvi silah kimi istifadə olunurdu. Fəlsəfə din formasında işlənir və inkişaf etdirilirdi. Dini baxışlar cəmiyyətdə əsas yeri tutur.

Fal sümüklərindəki yazılarda səma ancaq «di», yaxud da «şandi» (allah) kimi verilir. Burada «tyan» (səma, allah) termini göstərilmir. «Tyan» heroqlifi «da» (böyük) kimi göstərilir. O isə səmanı ifadə etmirdi. Ancaq «Şanşu» kitabının «Pan Gen» fəslində səma termini - yan «şandi» və həmçinin «tyan» mənasını verir. Lakin söhbət təkcə terminologiyada deyildir. Əsas məsələ dövrün mahiyyətini ifadə edən baxışların məzmunundadır.

İkincisi, fəlsəfə Şan və Çjou sülalələri dövründə siyasi və əxlaqi təsəvvürlərlə sıx şəkildə bağlı idi. Quldarlıq cəmiyyətində hakim təbəqələr allahın adı ilə öz iradəsini aşağı təbəqələrə yeritməyə çalışırdılar. Öz ağalığını möhkəmləndirməkdən ötrü quldarlar təkcə siyasi qüvvələrə deyil, həmçinin əxlaqi kateqoriyalara da ehtiyac hiss edirdilər. Həmin kateqoriyalarda insanların cəmiyyətdə hüquq və vəzifələri, pis və yaxşı əməlləri öz əksini tapmışdır. «Çjuan-tszı» əsərinin «Səma altı» fəslində göstərilirdi ki, fəlsəfə bu dövrdə səmanı başlıca - müsbət məziyyətli əsas hesab edirdi. Bu isə real tarixi şəraitə uyğun gəlir. Həmin fikir bir daha sübut edirdi ki, söhbət gedən dövrdə fəlsəfə din və əxlaq bir-biri ilə qırılmaz tellərlə bağlı idi.

İn hakimi Pan-gen xalqı xəbərdar edirdi ki, mənim üçün yaxım və uzaq fikri yoxdur. Kim cinayət törədirsə, ölümə məhkum olunacaq, kim xeyirxahlıq (yaxşılıq) edərsə, öz əməlinə görə şöhrətləndiriləcəkdir. Deməli, burada hakimlik, yüksək nəsildən olmaq, qohumluq və s. əsas yerdə durmur, əsas yerdə əxlaqi normalar durur. Bütün bunlar bir daha göstərir ki, Şan sülaləsi xüsusilə Çjou sülaləsi dövründə artıq ibtidai, siyasi, əxlaqi fəlsəfə yaranmağa başlamışdır ki, bu barədə də Çin mifologiyasında material tapmaq mümkündür. Öz məzmununa görə quldarlıq sinfinin əxlaqi etik normaları sürətlə mürəkkəbləşməyə başladı. Nəticədə həmin normalarda hakim sülalənin mənafeyi ön plana çıxarıldı. Yəni Pan-Genin və sonrakı bir sıra

hökmdarların dedikləri tezliklə unudulmağa başladı.

Həmin xüsusiyyətlər təkcə Şan və Çjou dövrünün fəlsəfəsinə xas olan cəhət deyildir. Təxminən bütün qədim Çin fəlsəfəsi siyasi-əxlaqi baxışlarla sıx əlaqədar olmuş, həmin əlaqə nəsli-iyerarxiya sistemi ilə bağlı olmuşdur. Bu əlaqə təkcə quldarlıq dövründə deyil, feodal münasibətlərin dövründə də mövcud olmuşdur. Mifoloji bazaya əsaslanan qədim Çin fəlsəfəsi elə əvvəldən siyasi-əxlaqi xarakter daşımışdır.

Qədim Çin mədəniyyəti əski dövrlərdən yazılı mənbələrlə zəngin olmuşdur. Hələ e.ə. XV əsrdə Çində heroqlifik yazı sistemi mövcud olmuşdur. Burada 2 min-dən çox heroqlifdən istifadə olunmuşdur. Çinlilər uzun əsrlər boyu ipək üzərində natural rənglərlə yazmışlar. Bizim eraya yaxın onlar mürəkkəb və kağızı kəşf etdilər. Bu dövrdə heroqliflərin sayı üç mini ötdü. Bizim eranın ikinci əsrində 10 minə, III əsrdə isə on səkkiz minə çatdı. Rəssamlıq, sənətkarlıq və s. geniş inkişaf etmişdir. İki-üç mərtəbəli evlərin tikilişi, büllur qablar istehsalı və s. bu qəbildəndir. Məbədlər və qəsrlərin tikilişi davam etdirildi. E.ə. III əsrdə Çində külli miqdarda imperator sarayı tikilmişdir.

Riyaziyyat, astronomiya, ulduz kataloqu, təbabət, musiqi alətləri və s. böyük inkişaf yolu keçmişdir. Qədim çinlilər oxlu texniki kəşflər etmişlər. Maqnit cihazı, kompasın ilk nümunəsi, su dəyirmanı, maşınnasos və seysmoqrafiya çinlilərin adı ilə bağlıdır. Ən böyük tarixçi çox cildlik «Tarixi qeydlər»in müəllifi də çinli Sıma Syandır. Məşhur «Böyük Çin səddi» də ən böyük memarlıq nümunəsidir. Hindistan dünyanın qədim sivilizasiya mərkəzlərindən biridir. Qədim Hindistan sivilizasiyası Misirin, Mesopotamiya və Yunan sivilizasiyalarından fərqlənir. Onun ənənələri bizim günlərə qədər saxlanılaraq, əslində çox cüzi dəyişikliklərə uğramışdır. Arxeoloji qazıntıların aparılmasına qədər Misir, yaxud İraq kəndliləri öz əcdadlarının mədəniyyətləri haqqında, demək olar ki, heç nə bilmirdilər. Yunan əhalisi isə Perikl zamanındakı Afinanın şöhrəti haqqında dumanlı təsəvvürlərə malik idi. Hər iki halda keçmişlə əlaqənin kəsildiyi görürük.

## ORTA ASİYA XALQLARI

E.ə. I minilliyin ortalarında Orta Asiyada əkinçi və köçəri sak və massaget tayfaları yaşayırdı. Bu tayfalar haqqında fars və yunan mənbələri məlumat verir. Yunan tarixçisi Herodot massagetlərin Xəzər dənizi və Sırdərya çayı arasında, sakların isə Amudəryadan şərqdə Pamir və Tyan-Şan dağlarına qədər olan ərazidə yaşadıqlarını qeyd edirdi. Onlar əsasən köçəri həyat keçirirdilər. Sak və massagetlərin həyat tərzi iskitlərin (skiflərin) həyat tərzinə yaxın idi. Onların bir hissəsi oturaq həyat tərzi keçirirdi. Bu xalqlarda dəmir alətlərin və suvarma sisteminin yaranması ilə sinifli cəmiyyət meydana gəldi. Artıq e.ə. VI-IV əsrlərdə Orta Asiyada Xarəzm, Baktriya, Margiana (Səmərqənd), Soqd, Parfiya və s. kimi dövlətlər yarandı. Bu dövrdə Orta Asiya İran (Əhəməni) dövlətinin hücumuna məruz qaldı. E.ə. 512-ci ildə I Dara Aral dənizinin şimalında sakları məğlub etdi. Əhali işğalçılara qarşı müqavimət göstərirdi. Şirak adlı bir sak İran ordusunu susuz səhraya aparmış, özü və İran ordusu məhv olmuşdu.

Makedoniyalı İsgəndər İranı məğlub edəndən sonra Orta Asiyaya hücum etdi. E.ə. 330-327-ci illərdə burada müharibə apardı. Soqd hökmdarı Spitamen kiçik dəstələrlə İsgəndərin qoşununa hücum edib ona tələfat verirdi. Spitamen tutuldu, boynu vuruldu, başı İsgəndəriyyəyə göndərildi. Soqd əyanı Oksiart alınmaz qalaya çəkildi. Lakin İsgəndərin 300 döyüşçüsü divarı aşıb qalaya daxil oldular. Oksiart məğlub oldu. İsgəndər onu Soqda satrap təyin etdi, onun gözəl qızı Roksana ilə evləndi.

İsgəndərin ölümündən sonra Orta Asiya Selevkilər dövlətinə daxil oldu. E.ə. III əsrin ortalarında Baktriya və Parfiya Selevkilərdən ayrıldı. Yeni Yunan-Baktriya çarlığı yarandı. Buraya Baktriya, Soqd, Fərqanə və başqa ərazilər daxil oldu. Orta Asiya xalqlarının azadlıq mübarizəsi və köçərilərin hücumu nəticəsində e.ə. 140-130-cu illərdə Yunan-Baktriya çarlığı dağıldı.



QIZIL TAC. TİLLƏ-TƏPƏ.
E.Ə. V-IV ƏSRLƏR.



QIZIL BOYUNBAĞI. TİLLƏ-TƏPƏ.
E.Ə. V-IV ƏSRLƏR.









BAKTRİYA BEQRAM XƏZİNƏSİ. FİL SÜMÜYÜNDƏN ZİNƏT ƏŞYALARI.
E.Ə. III-II ƏSRLƏR.



KUŞAN ŞAHLIĞI. MƏRMƏRDƏN TANRI HEYKƏLİ. E.Ə. III ƏSR.



"AYXANIM". QIZIL SUYUNA ÇƏKİLMİŞ GÜMÜŞ DİSK ÜZƏRİNDƏ CƏNG ARABASINDA ƏYLƏŞMİŞ İLAHƏ TƏSVİRİ. E.Ə. III-II ƏSRLƏR.



FULLOL XƏZİNƏSİ. QIZIL VƏ GÜMÜŞ QABLARIN FRAQMENTLƏRİ. E.Ə. V-IV ƏSRLƏR.



BEQRAM XƏZİNƏSİNDƏN QIZIL ZİNƏT ƏŞYASI. E.Ə. II-II ƏSRLƏR.

## İSKİTLƏR (SKİFLƏR)

Yunan tarixçisi Herodotun məlumatına görə, iskitlər (skiflər) Dunay çayının dənizə töküldüyü yerdən Don çayına qədər bütün Şimali Qara dəniz sahillərində yaşayırdılar. Şimali Qara dəniz sahillərində və şimali Qafqazda yaşayan xalqları yunanlar iskit (skif), Orta Asiya və Cənubi Qafqaz, Yaxın Şərqdə yaşayanları farslar saklar, assurlar aşquz, işquz adlandırmışlar. Skiflər e.ə. VII əsrdə kimmerləri məğlub edib Dunay çayından Don çayına qədər ərazidə, yəni Qara dənizin şimalında məskunlaşmış və eramızın III əsrinə kimi burada yaşamışlar. Skiflər Dərbənd keçidi vasitəsilə Azərbaycana və Yaxın Şərqə yayılmışlar. Onlar Kür və Araz çayları arasında skif çarlığı yaratmış, burada böyük siyasi qüvvəyə çevrilmişlər. Midiyalıları da öz hakimiyyətləri altına almışlar. Lakin 593-cü ildə Midiya hökmdarı Kiaksar onların ağalığına son qoydu. Onların bir hissəsi Şimali Qafqaza çəkildi, bir hissəsi isə yerli əhali ilə qaynayıb qarışdı.

E.ə. 512-ci ildə İran şahı I Dara Qara dənizin şimal sahillərində yaşayan iskitlərin (skiflərin) üzərinə hücum etdi. Onlar I Daranı aldadıb tələyə saldılar və onu məğlub etdilər. Bu qələbədən sonra iskitlərin (skiflərin) siyasi birliyi möhkəmləndi.

E.ə. IV əsrin ortalarında Dunay çayından Don çayına qədər ərazidə hökmdar Ateyin başçılığı altında İskit (skif) çarlığı yarandı. Atey dövlətin ərazisini qərbə doğru genişləndirməyə başladı, nəticədə Makedoniya hökmdarı II Filipplə üz-üzə gəldi. E.ə. 339-cu ildə baş vermiş döyüşdə skiflər məğlub oldular, 90 yaşlı Atey öldürüldü. Makedoniyalı İsgəndərin Frakiyadakı canişini Zopirion e.ə. 331-ci ildə Skif dövlətinə soxuldu, lakin skiflər onu məğlub etdilər. E.ə. II əsrdə sarmatlar skiflərə qalib gəldilər. Onlar Krıma sıxışdırıldılar. III əsrdə Ostqotlar Skif dövlətinin varlığına son qoydular.

Skiflərin əsas məşğuliyyəti əkinçilik, maldarlıq, sənətkarlıq və ticarət olmuşdur. Əkinçi skiflər taxıl əkməklə bərabər sarımsaq, sodan və s. becərirdilər. Onlar istehsal etdikləri taxılın bir hissəsini yunanlara satırdılar. Köçəri skiflər qoyun, keçi, donuz, qaramal, at və s. bəsləyirdilər. Evləri arabalarda yerləşirdi, qadın və uşaqlar arabalarda yaşayırdılar. Skif kurqan qəbirləri zənginliyi ilə adamı heyran edir. Arxeoloji qazıntılar zamanı Küloba, Soloxa, Çertomlıq və s. kurqanlardan çoxlu döyüş ləvazimatı, mis, gümüş, qızıl qablar, zərgərlik məmulatı və s. tapılmışdır. Böyük kurqanlarda çar, onun arvadları, xidmətçiləri dəfn olunmuş, oraya çoxlu döyüş ləvazimatı, qiymətli əşyalar qoyulmuşdur. Skiflər böyük ərazidə yayılmalarına baxmayaraq onların dəfn adətləri, dini inamları və mədəniyyətləri ümumi cəhətlərə malik idi. Onlarda çoxallahlılıq yayılmışdı. Onlar özlərinə məxsus incəsənət nümunələri yaratmışlar. Skif kurqanlarından çoxlu incəsənət nümunələri tapılmışdır. "Skif-Sibir" incəsənət nümunələri hesab edilən "heyvani üslubda" hazırlanmış fiqurları, rəsmləri, daşdan yonulmuş insan heykəlləri bu baxımdan daha çox maraqlıdır. Qara dəniz sahillərində yaşayan skiflərin mədəniyyətlərində yunanların təsiri duyulur.

## SKİF ZİNƏT ƏŞYALARI. E.Ə. IV ƏSR.



ZAPOROJYE. QAYMAN KURQANINDA TAPILMIŞ GÜMÜŞ CAM.



QAYMAN KURQANI. QIZIL LÖVHƏDƏ QRİFON TƏSVİRİ.



QAYMAN KURQANI. QIZIL LÖVHƏDƏ MENADA TƏSVİRİ.

## SKİF ZİNƏT ƏŞYALARI. E.Ə. IV ƏSR.



ZAPOROJYE. QAYMAN KURQANINDA TAPILMIŞ GÜMÜŞ CAM. FRAQMENT.



DNEPROPETROVSK. DƏYİRMİ KURQANDA TAPILMIŞ QIZIL BAŞ ÖRTÜYÜ.



ZAPOROJYE. GÜNOVKA KURQANI. QORİTİ (OXQABINI) BƏZƏYƏN QIZIL LÖVHƏ ÜZƏRİNDƏ TƏSVİR.



GÜNOVKA KURQANI. QORİTİ BƏZƏYƏN QIZIL LÖVHƏDƏ TƏSVİR. FRAQMENT.

SKİF ZİNƏT ƏŞYALARI. E.Ə. IV ƏSR.



DNEPROPETROVSK. DƏYİRMİ KURQANDA TAPILMIŞ QIZIL PEKTORAL (SİNƏBƏND).



QIZIL PEKTORAL (SİNƏBƏND). FRAQMENT.



QIZIL PEKTORALIN (SİNƏBƏND) BƏNDİ.

## SKİF ZİNƏT ƏŞYALARI. E.Ə. IV ƏSR.



**ZAPOROJYE. GÜNOVKA KURQANINDA TAPILMIŞ QIZIL LÖVHƏDƏ OV TƏSVİRİ.**



**DƏYİRMİ KURQANDA TAPILMIŞ QIZIL BİLƏRZİK.**



**DƏYİRMİ KURQANDA TAPILMIŞ QIZIL BİLƏRZİK.**

## SKİF ZİNƏT ƏŞYALARI. E.Ə. IV ƏSR.



ZAPOROJYE. GÜNOVKA KURQANINDA QIZIL LÖVHƏ ÜZƏRİNDƏ İKİ QRİFON TƏSVİRİ.



ZAPOROJYE. MELİTOPOL KURQANINDA QIZIL LÖVHƏDƏ HÖRÜMÇƏK VƏ EŞŞƏKARISI TƏSVİRİ.



ZAPOROJYE. MELİTOPOL KURQANINDA QIZIL LÖVHƏDƏ ŞİR VƏ PANTER TƏSVİRİ.

## SKİF ZİNƏT ƏŞYALARI. E.Ə. IV ƏSR.



ARXANGEL SLOBODASI KURQANI. QIZIL LÖVHƏDƏ MARAL TƏSVİRİ.



ARXANGEL SLOBODASI KURQANI. QIZIL LÖVHƏDƏ İT TƏSVİRİ.



XERSON. OĞUZ KURQANI. QUŞ FORMASINDA QIZIL TANA.

## SKİF ZİNƏT ƏŞYALARI. E.Ə. IV ƏSR.



KERÇ. ÜÇ QARDAŞ KURQANI. QIZIL BİLƏRZİK.



ZAPOROJYE. BELOZERKA KURQANI. QIZIL TANA ÜZƏRİNDƏ MEDUZA QORQONA TƏSVİRİ.



DNEPROPETROVSK. XOMA KURQANI. AT YÜYƏNİ ÜÇÜN GÜMÜŞ ALINLIQ.

## SKİF ZİNƏT ƏŞYALARI. E.Ə. IV ƏSR.



DNEPROPETROVSK. XOMA KURQANI. QIZIL QABAN FİQURU.



ÇERKASSK. SAXNOVKA KURQANI. QIZIL DİADEMA (ÇUTQABAĞI).



ZAPOROJYE. BELOZERKA KURQANI. QIZIL QILI XƏNCƏR.

# QƏDİM YUNAN MƏDƏNİYYƏTİ

Avropada ən qədim dövlət. Yunanıstan Balkan yarımadasının cənubunda yerləşir. Dağlıq ölkədir. Daşlı-kəsəkli yamaclarda kolluqlar və seyrək ot bitirdi. Dağlar arasında münbit torpaqlı kiçik düzənliklər yerləşirdi. Yunanıstanda dəmir, mis, gümüş, mərmər yataqları var idi. Onun şərq sahili Egey dənizi ilə əhatələnir, girintili-çıxıntılıdır, liman üçün əlverişlidir. Burada qış qısa olur. Yayda çayların suyu quruyur Yunanlar yola saldıqları adamlara deyirdilər: "Yaxşı yol, sərin su". Yunanıstan təbii surətdə üç hissəyə bölünürdü. Cənubi Yunanıstan və ya Peloponnes yalnız dar bir bərzəx vasitəsilə Orta Yunanıstanla birləşir. Orta Yunanıstanı və Şimali Yunanıstanı bir-birindən sıra dağlar ayIrır, ancaq sahildə dağlarla dəniz arasında dar Fermopil keçidi vardır. Egey dənizində çoxlu adalar var. Onların ən böyüyü Krit adasıdır.

E.ə. XIX əsrdə arxeoloqlar Krit adasında e.ə. III-II minilliklərə aid daş ev, yoxsul komaları, saray qalıqları anbarlar, tuncdan silah, qızıldan bəzək əşyaları və s. aşkar etdilər. Kirtlilərin öz yazıları var idi Onu hələlik heç kəs oxuya bilməmişdir. Onlar Misir, Finikiya vasitəsilə Babil ilə ticarət aparırdılar. Beləliklə, e.ə. III-II minilliklərdə Avropada ilk sinfi cəmiyyət və dövlət yarandı. Kritdən şimalda kiçik adada vulkan püskürmüş, Krit mədəniyyəti məhv olmuşdu. Buraya gələn yunanlar Kriti asanlıqla tuta bildilər.

Krit mədəniyyəti ilə bağlı mədəniyyət e.ə. II minillikdə Peloponnesdə Miken şəhərində yarandı. Mikenlilər kritlilərin yazısını öz dillərinə uyğunlaşdırdılar. Miken şəhərində axey tayfaları məskunlaşmışdı. Miken Akropolu (yunanca "yuxarı şəhər) düzənliyin ortasındakı hündür təpədə yerləşirdi. Burada saray qalıqları, sərdabələr, ölünün üzünə qoyulan qızıl maska, bəzək əşyaları, silah və s. aşkar edilmişdir Beləliklə, e.ə. II minillikdə Yunanıstanın daha münbit vilayətlərində quldarlıq quruluşu təşəkkül tapdı və dövlət yarandı. E.ə. XII əsrdə şimaldan gələn dori tayfaları Yunanıstanı tutub özlərindən əvvəlki mədəniyyətə sön qoydular. Dorilərin mədəniyyəti Miken mədəniyyətindən aşağı idi. Dorilər Yunanıstanı tutub özlərindən əvvəlki mədəniyyəti məhv etdilər. Hətta bir neçə əsr daşdan binalar tikilmədi, təsərrüfat tənəzzül etdi, yazı unuduldu, sənət əşyaları kobudlaşdı, yaranmış kiçik dövlətlər məhv edildi. Axeylər Anadoluya köçdülər, burada yüksək mədəniyyət mərkəzləri yaratdılar. Dorilər Yunanıstana özləri ilə dəmir gətirdilər.

Yunan əfsanələri. Homer. Qədim Yunanıstanda ölkənin keçmişindən bəhs edən çoxlu əsatirlər və nəğmələr yaranmışdır. Bu əfsanələrin bir hissəsi dövrümüzə qədər gəlib çatmışdır. Şair-müğənnilər lirada nəhənglər, allahlar, qəhrəmanlar haqqında mahnılar oxuyurdular. Bu mahnı və əfsanələrdə uydurmalar olsa da, onlar yunanların məşğuliyyəti adətləri, əmək alətləri, hansı ölkələrdə olmaları, hansı allahlara inanmaları haqqında məlumat verir. Alimlər əfsanələrdən tarixi mənbə kimi istifadə edirlər. Yunanlar "Dedal və İkar", "Tesey", "Arqonavtlar", "Herakl", "Prometey", "Demetra və Persefona" və b. əfsanələr yaratmışlar. Bu əfsanələrin hər biri yunanların keçmişi, tarixi, insanları və onların qəhrəmanları haqqında iftixar hissi tərbiyə edirdi. Bu əfsanələr müasir dövrdə də maraqla oxunur.

Troya müharibəsi e.ə. 1200-cü ildə yunanlarla troyalılar arasında Anadolunun Egey dənizi sahillərində olan Troyada olmuşdur. Yunanlar Troya müharibəsi haqqında çoxlu əfsanələr, əsərlər yaratmışlar. Bunlar arasında "İlliada" nə "Odisseya" poemaları xüsusi yer tutur. Rəvayətə görə bu poemaları kor şair Homer yazmışdı. Cuman edilir ki, poemalar e.ə. VIII əsrdə tərtib edilib, e.ə. VI əsrdə isə qələmə alınıb. Poemada yunanların adət ənənələri, etiqadları, həyat tərzi haqqında geniş məlumat verilir. Bu poemaların əhəmiyyəti tarix üçün o qədər böyükdür ki, e.ə. XI-IX əsrlər Homer dövrü adlanır Yunanıstanın erkən qədim tarixini öyrənmək üçün Homerin poemaları etibarlı mənbə sayılır. Arxeoloji qazıntılar nəticəsində Homerin "İlliada" və "Odisseya" poemalarında təsvir olunmuş hadisələrin tarixən, olduğu sübut edilmişdir.

Yunanlar Troya şəhərini İlion adlandırırdılar. "İlliada" poemasının adı da buradan götürülmüşdür. Poema Troyanı mühasirəyə almış yunanların 10 ilik savaşdan usanmasından bəhs edir. Sıravi döyüşçü Tersit əsilzadələri suçlayır. Odissey onu susmağa məcbur edir. Yunanlar arasında Axilles, troyalılar arasında çar Priamın oğlu Hektor yaxşı döyüşçü sayılırdı. Onların təkbətək döyüşündə Axilles zəfər çalıb Hektoru öldürür. Döyüşdə Axillesin dostu Patrokl həlak olur, onun dəfn mərasimi təsvir olunur. Axillesin anası ilahə Fetida onu körpəlikdə dabanından tutub yeraltı Stiks çayının "sehrli" sularında çimizdirirmiş, nəticədə dabanından savayı bütün bədəni guya dişbatmaz olur. Parisin atdığı ox Axillesin dabanına sancılır. Yunanıstanın ən məşhur qəhrəmanı həlak olur. "Zəif yer" anlamını bildirən "Axillesin dabanı" ifadəsi buradan əmələ gəlmişdir. Hiyləgər Odissey Troyanı tutmaq üçün taxtadan nəhəng at düzəltdirir və içərisində yunan döyüşçülərini yerləşdirir. Troyalılar atı çəkib şəhərə aparırlar. Döyüşçülər gecə atdan çıxıb darvazaları açırlar, şəhərə soxulan yunanlar troyalıları məğlub edirlər. "Troya atı" ifadəsi buradan meydana gəlmişdir. Bu isə, hədiyyənin qəbul edən üçün təhlükəli olması deməkdir.

"Odisseya" poemasında Troyanın alınmasından sonra yunanların Odisseyin başçılığı altında vətənə dönmələri və yolda onların başına gələn hadisələr, Odisseyin öz doğma şəhəri İtakaya gəlməsi təsvir olunur. Odissey İtakaya gəlib evində ağalıq edən əsilzadələri qırır və əvvəlki hakimiyyətini bərpa edir. Hər iki əsər dahi ədəbi əsər olmaqla yanaşı zəngin tarixi mənbədir.

Homer dövründə (e.ə. XI IX əsrlər) yunanlar maldarlıq, əkinçilik, sənətkarlıq və ticarətlə məşğul

olurdular. Onlar e.ə. IX əsrlə dəmir emal etməyə başladılar. Bu da əmək məhsuldarlığının artmasına səbəb oldu. Yunanıstanda torpaq bütün tayfaya məxsus idi. Hər bir ailənin torpağı, mal-qarası var idi. Adlı-sanlı adamlar torpağın yaxşısını özlərinə götürürdülər. Onlar əvvəllər torpağı özləri becərirdilər, sonradan günəmuzdçuları işlətdilər, daha sonra qullardan istifadə etdilər. Beləliklə, e.ə. XI-IX əsrlərdə ibtidai icma quruluşundan quldarlıq quruluşuna tədricən keçid başlandı.

Dünyanın başqa xalqları kimi yunanlar da təbiət hadisələrinin səbəbini bilmir, ondan qorxurdular. Onlara görə təbiəti allahlar nə ilahələr idarə edirdilər. Rəvayətə görə baş allah Zevs, Poseydon və Aid dünyanı öz aralarında bölüşdürmüşdülər. Zevs yer və göyün, Poseydon dənizin, Aid isə yeraltı padşahlığın allahı olmuşdu. Zevsin iradəsi ilə şimşək çaxıb yağış yağırdı. Dəniz allahı Poseydon üçbaşlı əsası ilə dənizdə fırtına qoparır, gəmiləri batırırdı. Yeraltı padşahlığın allahı Aidin ayağı altında üçbaşlı köpək oturub, yerin altına gedənləri geriyə işıqlı dünyaya buraxmırdı. Nur və incəsənət allahı Apollon qızıl arabası ilə səfərə çıxandı gün başlanırdı. Aid münbitlik ilahəsi Demetranın qızı Pesefonanı oğurlayır və anasının yanına buraxmır. Demetra kədərlənir, hər şey solur, təbiət təravətini itirir. Zevs Aiddən xahiş edir ki, Persefonanı bir neçə aylığa anasının yanına buraxsın. Qız anasının yanına gələndə yaz gəlir, yeraltı dünyaya gedəndə anası kədərləndiyinə görə qış gəlir. “Demetra və Persefona” əfsanəsi də buradan yaranmışdı.

Yunanlar meşə allahlarını satirlər adlandırırdılar. Onlar keçi ayaqlı və qulaqlı adamlar kimi təsvir olunurdular. Bulaq ilahələri olan nimfalar gənc qız kimi təsvir olunurdular. Yunanlarda əkinçilik, maldarlıq, ovçuluq, sənətkarlıq və b. sahələr yarandıqca onları himayə edən allahlar da yaradılırdı. Şərabçılıq allahı Dionis idi. Onun şərəfinə yazda üzümlüklərdə iş başlayanda, payızda şərab hazır olanda bayramlar təşkil edilirdi. Hefest dəmirçilik allahı idi. Yunanlar belə hesab edirdilər ki, vulkanlar onun dəmirçixanasının çıxış yollarıdır. Ticarət meydana gələndən sonra onu himayə edən Hesrmes meydana çıxdı.

Yunanlar belə güman edirdilər ki, allahlar yüksək dağ olan Olimpdə yaşayırdılar. Onları Olimp allahları adlandırırdılar. Allahların həyatı adlı-sanlı adamların həyatına bənzəyirdi. Allahlar alovun sirrini insanlardan gizlədirdilər. Lakin cəsur titan Prometey odu oğurlayıb insanlara verir. Zevsin əmri ilə Hefest onu Qafqaz dağına zəncirləyir. Zevsin göndərdiyi qartal hər gün onun ciyərlərinin bir hissəsini qoparır. Hər səhər ciyər bərpa olunur. Prometey bu işgəncəyə dözür, lakin Zevsə boyun əymir. “Prometey” əfsanəsi də buradan yaranmışdı.

Afinada quldarlıq quruluşu. Orta Yunanıstanın cənub-şərqində Attika adlı böyük yarımada yerləşir. Burada geniş düzənliyin ortasında sıldırım təpədə e.ə. II minillikdə Afina şəhəri salınmışdır. Təpənin zirvəsində ətrafına hasar çəkilmiş Akropol adlanan qala yerləşirdi. Afinalılar əsasən zeytun nə üzüm becərir, şərab və zeytun yağı və şərab saxlamaq və daşımaq üçün amfora adlanan küp qayırırdılar. Akropolun yaxınlığında bazar meydanı - aqora yerləşirdi. Burada dulusçuluq, toxuculuq və kənd təsərrüfatı məhsulları satılırdı. Attika yarımadasının cənubunda gümüş mədənləri var idi. Afinada gümüş sikkə kəsilməyə başladı.

Afinada əvvəllər varlılar torpaqlarını özləri becərirdilər. Sonra onlar günəmuzdçulardan, daha sonra isə qullardan istifadə etməyə başladılar. Afinada köləliyin əsas mənbələri dəniz quldurluğu, müharibədə əsir götürmək, borca görə adamları qul etmək, qul qadınlardan doğulan uşaqları qul etmək idi. Qullar bazarda satılır, onları əsasən mədənlərdə, sənətkar emalatxanalarında, kənd təsərrüfatı işlərində, ev işlərində xidmətçi kimi işlədirdilər.

Afinada adlı-sanlı adamlar torpağın yaxşısını ələ keçirdilər. E.ə. VIII əsrdə onlar Afinanın bütün əhalisini özlərinə tabe etdilər. Adlı-sanlı yunanlar mövcud üsul idarəni aristokratiya, yəni “yaxşıların hakimiyyəti” adlandırırdılar.

E.ə. VII əsrdə Afinada sənət və ticarət gur inkişaf etməyə başlayır. Evpatritlər (aristokratlar) düzən yerlərdə məhsuldar torpaqları ələ keçirib geomorları (icmanın sıravi üzvlərini) dağətəyi daşlıq torpaqlara sıxışdırırdılar. Evpatritlərin bir hissəsi artıq emalatxanalar açıb istehsalla məşğul olurdu, bir hissəsi ticarətə girişmişdi. Aristokratların bu təbəqəsinin maraqları demosun varlı təbəqəsinin maraqları ilə üst-üstə düşürdü. E.ə. 640-cı ildə Afinada olduqca məşhur olan, Olimpiya oyunlarının qalibi Kilon demosla aristokratlar arasında ziddiyətlərin gərginləşməsindən istifadə etdi. O, Zevsin şərəfinə keçirilən bayramda özünə tərəfdar toplayıb Akpopolu tutdu. Lakin demos hələ aktiv fəaliyyətə hazır deyildi. Arxont Meqaklın qoşunu Akpopolu mühasirəyə alıb üsyançıları təslim olmağa məcbur etdi. Kilon qaçmağa müvəffəq oldu, onun tərəfdarları isə öldürüldülər.

Bir müddətdən sonra aristokratlar demosun varlı təbəqəsinin təzyiqi altında güzəştə gedib külliyyat şəklində yazılı qeydiyyatına razılıq verdilər. Həm aristokratlar, həm də demos üçün ümumi olan qanunların qəbulu mütərəqqi hadisə idi. e.ə. 621-ci ildə arxont-fesmofet Drakont tərəfindən sərt qanunlar toplusu tərtib edilmişdi. Buna “Drakont qanunları” deyirdilər. Bu qanuna görə hətta bir salxım üzüm dərənə ölüm cəzası verilirdi.

Afinada kənlilər aristokratlardan borc və ya faizlə pul alırdılar. Aristokratlar verdiyi borcu kəndlinin tarlasının kənarında borc daşına yazırdılar. Buraya borcun miqdarı, faizi, verildiyi və qaytarıldığı müddət qeyd edilirdi. E.ə. VII əsrdə demək olar, bütün kəndlilər borca düşdülər.

Afinada kəndlilər, sənətkarlar, günəmuzdçular, dənizçilər demos, yəni xalq adlanırdılar. E.ə. VII əsrdə

demosun bir hissəsi varlanmışdı. Onlar yenə də aristokratların hakimiyyəti altında idilər. Beləliklə, e.ə. VIII-VII əsrlərdə Afinada quldarlıq quruluşu və dövlət təşəkkül tapırdı.

Sparta quldarlıq dövləti. Yunanıstanın cənubunda Peloponnes yarımadasının cənub-şərqində Lakonika, cənub-qərbində isə Messeniya vilayəti yerləşirdi. Bu ərazinin torpağı çox münbit idi. E.ə. II minillikdə dorilər hücum edib Lakonikanı tutdular, Sparta şəhərinin əsasını qoydular. Doriləri spartalılar adlandırırdılar. Spartalılar messeniyalıları tabe etmək uzun müddət müharibələr aparmışdılar. E.ə. VII əsrdə spartalılar messeniyalılara qalib gəldilər. Messeniyalılar dağlara çəkildilər. Üç gün danam edən vuruşmadan sonra spartalılar müharibəni dayandırdılar və onlara ölkədən çıxıb getməyə icazə verdilər Spartalılar yerli əhalinin əksəriyyətini qula çevirdilər. Qulları ilotlar adlandırırdılar. Azad adamlar kimi qalmış perieklər spartalılara vergi verirdilər. Spartalılar xalq yığıncaqlarında ahıl adamlardan ağsaqqallar şurası seçirdilər. Dövləti 60 yaşına çatmış 28 ağsaqqal və 30 yaşı tamam olmuş 2 çarın daxil olduğu gerusiya idarə edirdi. Spartalılar ancaq hərbi işlə məşğul idilər Qanun onların başqa işlə məşğul olmasına icazə vermirdi. Döyüş vaxtı onlar bir cərgəyə düzülüb nizələrini qabağa uzadır, irəli yeriyirdilər. Sanki divar hərəkət edirdi. Belə düzülüş falanqa adlanırdı.

Spartalılar uşaq yaşlarından sərt tərbiyə alırdılar. Yeni doğulmuş körpənin taleyini gerusiya müəyyən edirdi. Zəif və xəstə görünən uşaqlar məhv edilirdi, sağlam uşaq 7 yaşına qədər ailəsində tərbiyə alır, sonra hərbi məktəbdə təlim keçirdi. E. IV əsrdə Sparta Peloponnes ittifaqına daxil oldu. 30 il davam edən Peloponnes müharibəsində (e.ə. 431-404) qalib gəlmiş, bütün Yunanıstana hakim olmuşdu. E.ə. 146-cı ildə Romadan asılı vəziyyətə düşdü.

Yunan koloniyalari. Yunan şəhərlərində sənətkarlıq və ticarət inkişaf edirdi Tacirlər sənətkarlıq məmulatlarını Aralıq dənizi və ona bitişik olan dənizlərin sahillərində satırdılar. Kiçik Asiyadakı Milet şəhərində yun parça, Korinf şəhərində ən yaxşı silah, Afinada əla dulusçuluq məhsulu istehsal olunurdu. Yunanlar keyfiyyətli şərab və zeytun hazırlayır və xaricə göndərirdilər.

Yunanıstanda demosun artması ilə aristokratlarla demos arasında mübarizə gücləndi. Aristokratlar qalib gəldikdə demos, demos qalib gəldikdə aristokratlar ölkədən qovulurdu. Qovulmuş aristokrat demişdi: “Mən öz dəbdəbəli evimi qaçqın gəmisinə dəyişdim”. Yunanıstanın ticarət şəhərləri Aralıq dənizi və Qara dəniz sahillərində daimi koloniyalarını yaratdılar. Hər bir şəhər öz koloniyalarına hərbi və ticarət gəmilərindən ibarət donanma göndərirdi. Köçüb gələnlər Yunanıstanın müxtəlif vilayətlərindən idilər, onlar kolonistlər adlanırdılar. Koloniyalara tacirlər, sənətkarlar, doğma yerlərini tərk edən, adamlar gəlirdilər. Qara dəniz sahillərində Pantikapey, Olviya, Xersones, Feodosiya, Fasis, Sinop və başqa yunan şəhər-dövlətləri yarandı. Onlar yerli əhali ilə alver edir, bəzən onları qula çevirir, qulların bir hissəsini Yunanıstana göndərirdilər. Beləliklə, e.ə. VIII-VI əsrlərdə Qafqazdan tutmuş İspaniyaya qədər dəniz sahillərində çoxlu yunan koloniyaları əmələ cəldi. Bu koloniyalar yunan şəhərləri ilə əlaqə yaradır və əlaqə saxladıqları həmin şəhərləri ana şəhər adlandırırdılar.

Koloniyalarla ticarət Yunanıstanda sənətkarlıq və ticarətin inkişafına təkan verdi. E.ə. VIII-VI əsrlərdə Yunanıstanın bütün şəhərlərində və koloniyalarında şəhər quldarlıq dövlətləri yarandı, Hər bir şəhər-dövlətinin qoşunu, hökuməti, xəzinəsi, pulu var idi. Onların bəzisini demos, bəzisini isə aristokratlar idarə edirdilər.

Qədim yunanlar yad ölkələrdə məskunlaşsalar da, özlərini vahid xalq hesab edirdilər. Onlar özlərini ellinlər, vətənlərini Ellada adlandırırdılar. Harada yaşadıqlarından asılı olmayaraq, ellinləri ümumi dil, adət-ənənələr, qədim əfsanələr, din və vahid yazı birləşdirirdi.

Qədim yunanlar özlərinə qədər şərqdə yaranmış elmlə tanış olur, təbiət üzərində müşahidələr aparırdılar. Bir çox ölkələrə səyahət etdilər və təbiət haqqında elmi inkişaf etdirdilər. E.ə. VII əsrdə Milet şəhəri nə Egey dənizinin şərqində yerləşən İoniya vilayətinin şəhərləri elmin mərkəzi idi. İoniya alimləri təbiət hadisələri üzərində müşahidələr aparır, onları izah etməyə, onların səbəblərini aşkar etməyə çalışırdılar. İoniya alimləri dünyanın mənşəyini də izah etməyə cəhd göstərirdilər. Bir qrup alimlər təbiətin başlanğıcını suda, bəziləri havada, torpaqda, digərləri odda görürdülər.

E.ə. V əsrdə yunan elminin mərkəzi Afina oldu. Burada İoniya alimlərinin işini Demokrit (e.ə. 460-370) davam etdirdi. O, belə bir fikir söyləmişdir ki, bütün dünya ən xırda zərrəciklərdən-atomlardan ibarətdir. Demokrit insanlarda ruhun ölməzliyini inkar edirdi. Dinin yaranmasını insanların təbiətin qorxunc hadisələri qarşısında aciz qalmaları və qorxusu ilə izah edirdi. Demokrit materialist olduğuna görə onu cəzalandırmaq istəyirdilər.

Demokritin ardıcılı Hippokrat (e.ə. 460-377) olmuşdur. Onun fikrincə həkim xəstənin bədənindən xəstəliyi qovmamalı, bədənin xəstəliyə qarşı müqavimətini artırmalıdır. Onun tibb elminin inkişafında böyük xidməti olmuşdur. Həkimin mənəvi davranışı normaları olan “Hippokrat andı” onun adı ilə bağlıdır.

Aristotel (e.ə. 384-322) qeyri adi biliyə malik alim idi. İsgəndərin müəllimi olmuşdur. Şərqdə Aristotelə Ərəstun deyirdilər. O, bütün bilikləri ayrı-ayrı sahələrə böldü, elmlərə ad verdi. Botanika yunanca “bitki”, fizika - təbiət, politika - dovlət sözlərindən götürülmüşdür. E.ə. IV əsrdə Aristotel qabaqcıl alimlərlə birlikdə belə hesab edirdi ki, Yer kürə şəklindədir, dünyanın mərkəzində yerləşir, Günəş və ulduzlar isə onun

ətrafında fırlanır.

E.ə. V əsrdə Yunanıstanda tarix elminin əsası qoyulmuşdur. həmin dövrdə yunan tarixçisi Herodot (e.ə. təqribən 490-425) "Tarix" əsərini yazmış, Plateya savaşına qədər olan dövr haqqında məlumat verir O, bir çox ölkələri gəzmiş, əsərində müxtəlif xalqların tarixi, adət-ənənəsi, mədəniyyəti, rəvayətləri və s. haqqında məlumat toplamışdı. "Tarix" əsərində İran-yunan müharibəsində iştirak edən bütün xalqlar haqqında tarixi, etnoqrafik materiallar şərh olunmuşdur. Midiya əfsanələrini ilk dəfə Herodot yazıya köçürmüşdü. Kitabda Azərbaycan ərazisində yaşayan xalqlar barədə maraqlı faktlar var. Siseron onu "tarixin atası" adlandırmışdı.

Yunanlar e.ə. II minillikdə unutduqları öz yazılarına bir daha qayıtmadılar. Onlar Homer dövrünün sonlarında finikiyalıların əlifbasına saitlər əlavə edib 24 hərfdən ibarət yunan əlifbasını tərtib etdilər. Onlar papirus, gil lövhə, üstünə mum çəkilmiş taxta parçası üzərində metaldan düzəldilmiş ucu şiş çubuqla yazırdılar.

Yunan uşaqları 7 yaşından məktəbə gedirdilər. Sənətkar və kəndli uşaqları ibtidai məktəbdə, dövlətli uşaqları 18 yaşınadək gimnaziyada oxuyurdular. Onlar Homerin, Hesiodun və başqa yazıçıların əsərlərini əzbər bilirdilər. Şagirdlər məktəbdə şəkil çəkmək, rəqs etmək, oxumaq və lirada çalmağı öyrənirdilər. Qızlar və qullar oxumurdular.

E.ə. VI əsrin sonu-V əsrdə Afinada açıq havada tamaşa göstərmək üçün ilk teatrlar tikildi. Yunan sözü olan "teatr" "tamaşa yeri" deməkdir. Xorun çıxış etdiyi yerə "orxestra", aktyorların oynadığı yerə "skena" deyirdilər. Qədim Yunanıstanda şərab allahı Dionisin şərəfinə təşkil edilmiş bayramlar, bu haqda əfsanələrin nümayiş etdirilməsi nəticəsində qədim yunan teatrının əsası qoyuldu.

Yunanıstanda əfsanələr əsasında tragediyalar adlanan pyeslər yarandı. Tragediya "keçi mahnısı" deməkdir. Tragediyada qəhrəmanlar arasında gərgin mübarizə gedir, sonra isə qəhrəmanlar öz ideyaları uğrunda həlak olurlar. Afinada tragediyanın banisi "Zəncirlənmiş Prometey" tragediyasının müəllifi Esxil olmuşdur. E.ə. V əsrdə yaşamış Sofokl "Antiqona" faciəsinin müəllifidir.

Yunanıstanda komediyalar şən, məzəli və gülməli səhnəciklərdən ibarət olurdu. Komediya sözü "şən sakinlər mahnısı" deməkdir. Komediyalar adamları düşünməyə məcbur edirdi. Aristofan (e.ə. 445-385) məşhur komediyalar müəllifi idi. O, "Quşlar", "Buludlar", "Atlılar", "Barışıq", "Qadınlar xalq yığıncağında" komediyalarının müəllifidir "Atlılar" komediyasında o, Afina demosunun başçısı Kleonu, "Buludlar" komediyasında isə Sokratı lağa qoyur. Onu "komediyanın atası" adlandırırdılar.

E.ə. VI əsrdə təmsil ustadı Ezop yaşayıb yaratmışdır. Rəvayətə görə o, sərsəm çolaq qul kimi təsvir edilir. Guya böhtanın qurbanı olmuş, günahsız edam edilmişdir. Antik dövrdən məlum olan təmsillərin az qala hamısını Ezopun adına çıxırlar. Fedr, Babri, Lafonten, Krılov və b. yaradıcılıqlarında onun mövzularından istifadə etmişlər.

E.ə. VI-V əsrlərdə Yunanıstanda memarlıq, heykəltəraşlıq, və rəssamlıq inkişaf edib özünün yüksək səviyyəsinə çatmışdı. Ölkədə çoxlu ictimai binalar tikilmişdi. Talvarlar-portiklər bir və bir neçə cərgə sütunlar üzərində tikilirdi. Yunanlar bu portiklərin kölgəsində istirahət edirdilər. E.ə. VI-V əsrlərdə Yunanıstanda iki növ sütun var idi. Dori sütunları sanki daş döşəmədən çıxan və yuxarıda adi sal daşla tamamlanan möhtəşəm sütunlar idi. Bəzəkli məbəd tikintisində sütunların yuxarısında əyri qoç buynuzuna bənzər qıvrım naxışlar olurdu. Afinada ən məşhur məbəd Akropol idi. Akropol mərmər sütunlardan ibarət portiklərlə əhatə olunmuşdu. Akropolun girəcəyində Fidi Afinanın heykəlini qoymuşdu. Burada Afinanın şərəfinə Parfenon məbədi tikilmişdi. Parfenonun qarşısında qurbanlar kəsilirdi. heykəllərlə bəzədilən məbədlərdə xəzinə saxlanılırdı.

Yunanlar heykəlləri ağacdan, tuncdan və mərmərdən canlı və cazibədar düzəldirdilər. Heykəltəraşlar insan bədəninin hərəkətini də təsvir etməyi bacarırdılar. Heykəltəraş Miron e.ə. V əsrdə "Diskatan" heykəlini belə yaratmışdı. Allahların, qəhrəmanların və başqalarının heykəllərini yaradan Praksitel dahi yunan heykəltəraşı idi.

Qədim Yunanıstanda vaza rəssamlığı və gil heykəllər geniş yayılmışdı. Rəssamlar vazalar üzərinlə yunanların həyatını, qəhrəmanları, Homerin əsərlərindən səhnələri təsvir edirdilər. E.ə. V əsrdə ellin incəsənəti özünün yüksək mərhələsinə çatmışdı. İncəsənətin əsas mərkəzi Afina şəhəri idi. Fidi Afinada Akropolu inşa etmişdi.

Olimpiya oyunları. Peloponnes vadisindəki Olimpdə keçirilirdi. Yunanlar əsas idman növləri üzrə 4 ildən bir keçirilən Olimpiya oyunlarında yarışırdılar. 4 at qoşulmuş arabada yarış daha təhlükəli idi. 12 dəfə dövrə vurmaq lazım gəlirdi. Hakimlər qalib idmançıları zeytun ağacının budaqlarından düzəldilmiş çələnglə mükafatlandırırdılar. Olimpiya oyunlarında ancaq varlılar iştirak edə bilirdilər, çünki yoxsulların bu yarışa hazırlaşmaq imkanları olmurdu. Spartalı qadınlar istisna olmaqla qadınlar yarışlarda iştirak etmirdilər. Olimpiya oyunlarına on minlərlə adam gəlirdi. Buraya koloniyalardan da tamaşaçılar və iştirakçılar gəlirdilər. Olimpiya oyunları keçirilən dövrdə Yunanıstanda müharibələr dayandırılırdı.

Olimpiya yunanlar üçün müqəddəs yer idi. Onun mərkəzində Zevs məbədi, bu məbəddə Zevsin nəhəng heykəli yerləşirdi. Bu heykəl dünyanın 7 möcüzəsindən biri sayılırdı. İlk Olimpiya oyunları e.ə. 776-

cı ildə keçirilmişdi. Yunanların il hesabı həmin ildən başlanırdı. 1896-cı ildə Fransanın ictimai xadimi baron Pyer de Kubertenin (1863-1937) təşəbbüsü ilə Olimpiya oyunlarının keçirilməsi bərpa edildi. İndi hər dörd ildən bir Olimpiya oyunları keçirilir. Oyunların harada keçirilməsindən asılı olmayaraq onun məşəli Olimpiyada günəşdən yandırılmış alovla yandırılır.

Yunan mədəniyyətinin müasir dövrümüz üçün misilsiz əhəmiyyəti var. Yunan əlifbası bir çox əlifbalar üçün əsas olmuş, onlar elmin inkişafında nailiyyətlər qazanmış, onların əsərləri müasir dövrdə əksər xalqların dillərinə tərcümə edilmiş, onların yaratdıqları heykəllər və tikililər sonrakı dövr üçün nümunə olmuşdur.

Quldarlıq demokratiyası azad yunanların elm və incəsənətlə məşğul olmasına şərait yaratdı və bu da dünyada elmin və incəsənətin tərəqqisinə təkan verdi. Yunanlar ellin mədəniyyətini yaratmaqla başqa xalqların da elm və mədəniyyətini mənimsəyirdilər.

Qədim Yunanıstan ərazisində ən qədim sivilizasiya Krit-Miken adı ilə tanınır. Onun mərkəzi Krit adası və yunan materikindəki Miken şəhəri olmuşdur. Krit mədəniyyətinin (yaxud da Minos mədəniyyətinin) yaranması Kritin əfsanəvi hökmdarı Minosun adı ilə bağlıdır və e.ə. III-I minilliklərə təsadüf edir. Yüksəliş və tənəzzül dövrü keçirən Krit mədəniyyəti təqribən e.ə. 1200-cü ilə qədər davam etmişdir. Kritdə bütün həyat saraylar adlanan binalar ətrafında cərəyan etmişdir. Arxeoloji qazıntılar nəticəsində Knosda (adanın mərkəzi hissəsində) Krit saraylarından birincisi, Minos sarayı tapılmışdır. Bu saraydan Minotavr - insan bədənli və öküz başlı canlı haqqında yunan mifində təsvir olunan labirint başlanır. Əslində Krit sarayları doğrudan da labirintə bənzəyir. Bütün bunlara baxmayaraq saraylar vahid arxitektura ansamblı kimi qəbul olunur. Diqqəti çəkən budur ki, divarlarda olan rəsmlər olduqca zəngindir. Freskalarda heyvanlar, güllər, saray sakinlərinin həyatından səhnələr, əsas Minoy kultlarından biri olan allah-öküz kultuna aid olan «öküzlərlə oyunlar» rəsmi diqqəti daha çox çəkir. Allah-öküz kultları öküz obrazında təbiətin dağıdıcı qüvvələri öz təcəssümünü tapmışdır. Təbiətin əbədi təzələnməsi, analıq, qadınlıq simvolu - Böyük ilahə Minoy allahlar panteonunda mərkəzi fiqurdur. Kritin həyatında din böyük rol oynamışdır. Kritdə hakimiyyətinin xüsusi forması-teokratiya yaranmışdı. Bu idarə formasında dini və dünyəvi rəhbərlik bir nəfərin əlində olmuşdur. Çar sarayı universal funksiyanı yerinə yetirərək eyni zamanda həm dini, həm siyasi-inzibati, həm də təsərrüfat mərkəzi rolu kimi fəaliyyət göstərmişdir.

Minoy mədəniyyətinin çiçəklənməsi e.ə. XVI əsr və XV əsrin birinci yarısına təsadüf edir. XV əsrin ortalarında bu mədəniyyət Fera (indiki Santorin) adasında püskürən vulkan, eləcə də döyüşkən axey yunanların adaya soxulması nəticəsində tamamilə dağıdılmışdır. Bundan sonra Krit mədəniyyəti əvvəlki şöhrətini bərpa edə bilməmişdir. Sivilizasiyanın mərkəzi materik Yunanıstana keçmişdir. Hələ e.ə. 1700-cü ildə burada Miken (yaxud Axey) mədəniyyəti formalaşmağa başlamışdı. Əvvəllər bu mədəniyyət Krit sivilizasiyasının güclü təsiri altında olmuşdur. Onlardan bir sıra allahların adları, su kəməri, kanalizasiya, geyim fasonları, freska təsvirləri və s. mənimsənilmişdi. Lakin bütün bunlara baxmayaraq, Miken sivilizasiyasında da spesifik, yalnız onlara məxsus cəhətlər inkişaf etdirilmişdir. «Şaxta qəbirləri» bu mədəniyyətin ən qədim abidələrindəndir. Qəbirlərdə ölülərin sümükləri ilə yanaşı bəzək şeyləri, qablar, paltarlar, silahlar, qızıl maskalar və s. də tapılmışdır. Burada da mədəniyyət mərkəzləri saraylarda cəmlənmişdi. Onlar Miken, Korinf, Pilos, Afina və s. şəhərlərdə olmuşdur. Krit saraylarından fərqli olaraq Miken-Axey sarayları möhkəmləndirilmiş saraylar idi. Onların möhtəşəm divarlarını sonrakı dövrlərdə görən yunanlar onları təkgöz nəhəng sikloplarla əlaqələndirərək siklopik adlandırmışlar. Burada saray divarlarında külli sayda döyüş səhnələri təsvir olunmuşdu. Axeylər e.ə. XV əsrdə Kriti tutaraq onlardan yazını mənimsədilər. E.ə. XIII əsrdə şimali Balkan barbarları (onların içərisində dori yunan qəbilələri mühüm yer tuturdu) Yunanıstanı başdan-başa işğal etdi. Axeylərdən dəmir silahlarına görə üstünlüyə malik olan dorilər Krit-Miken mədəniyyətinə son qoydular, e.ə. XII-XI əsrlərdə Yunanıstanda dəmir əsrinin başlanğıcına təkan verdilər.

Yunan tarixinin sonrakı dövrünü adətən Homer dövrü adlandırırlar. Homerin e.ə. VIII əsrdə yaratdığı «İlliada» və «Odisseya» kimi gözəl poemaları həmin dövr haqqında mühüm informasiya mənbəyidir. Lakin bu əsərlərdə daha qədim dövrlərin haqqında da məlumat əldə etmək mümkündür. Homerin qəhrəmanları - çarlar, əyanlar çox vaxt Krit-Miken saraylarına bənzəməyən ağac evlərdə yaşayırdılar.

Homer dövründən bizə az abidə gəlib çatmışdır. Əsas tikinti materialları - ağac və bişməmiş kərpicdir. Monumental heykəltəraşlıqda da ağacdan istifadə edilmişdir. Həndəsi ornamentlə yazılmış vazalar, bişmiş gildən və bürüncdən hazırlanmış heykəlciklər parlaq incəsənət abidələridir.

Homer dövrü mədəniyyəti yunan cəmiyyətinin arxaik və klassik dövrünün ilkin şərtlərini yaratmışdır. Yunan mədəniyyətinin və tarixinin arxaik dövrü e.ə. VIII-VI əsrləri əhatə edir. Bu dövr böyük müstəmləkəçilik dövrüdür. Yunanlar Qara dəniz, Aralıq dənizi və Mərmərə dənizi sahillərini öz təsir dairəsinə alırlar. Bu dövrdə yunanlar başqa xalqlardan çox şey öyrənmişlər. Lidiyalılardan pul kəsməyi öyrənmiş, finikiyalılardan əlifbanı götürmüş, sonralar onu təkmilləşdirmişlər. Yunanlarda elmin, xüsusilə astronomiya və həndəsənin inkişafı Misir və Babilistanın təsiri altında olmuşdur. Yunan incəsənətinə Misir və Yaxın Şərq memarlıq və heykəltəraşlığı böyük təsir göstərmişdir. Arxaik dövrdə ibtidai icma cəmiyyəti

dağılmış, antik polis "şəhər-dövlətləri" yaranmışdır. Vətəndaş icması-şəhərətrafı kənd təsərrüfatı ərazisi ona aiddir. Bu dövrdə ən böyük polislər Afina, Sparta, Korinf, Arqos, Fivada yaranmışdı. Bütün yunan dünyası Ellada adlanırdı. Qədim Şərq dinləri kimi Yunanıstanda da politeizm-çoxallahlılıq hökm sürürdü. Yunanlara görə əvvəllər əbədi, hüdudsuz, qaranlıq, xaos mövcud idi. Dünyanın həyat mənbəyi onda idi. Hər şey-bütün dünya və ölməz allahlar xaosdan yarandı. Yer ilahəsi Geya da xaosdan yaranmışdır. Həyat mənbəyi olan xaosdan qüdrətli, hər şeyi canlandıran məhəbbət - Eros yüksəlmişdir. Hüdudsuz xaos əbədi qaranlıq - Erebi və qaranlıq gecə - Nyuktu doğurmuşdur. Gecə və qaranlıqdan isə əbədi İşıq-Efir və şən işıqlı Gün - Gemera yaranmışdır. Qüdrətli, bərəkətli torpaq (Yer), hüdudsuz, mavi səma - Uran yaranmış və səma Yer üzünü örtmüşdür. Geyadan yeraltı dünya Tərtər, səma (Uran) doğulmuşdur. Allahların ikinci nəsli Geya və Uranın uşaqları-titanlar olmuşdur. Uşaqlarının onun əlindən hakimiyyəti alacaqlarından qorxan Uran titanları yerin altında saxlamışdır. Lakin titanlar azad ola bilmiş, atalarmı devirmiş, onlardan biri Kron dünya üzərində ağalıq etməyə başlamışdır. Onun özünü də kiçik oğlu Zevs devirmişdir. Onun qardaşı Poseydon dəniz allahı, Aid - yeraltı dünyanın allahı, işıq və poeziya allahı Apollon (onu doqquz muza-incəsənət və elmin hamisi müşayiət edir), Afrodita - gözəllik allahı, od və dəmirçilik allahı Hefest, Ares müharibə allahı, Afina-müdriklik allahı, Demetr - əkinçilik hamisi, Afina-toxuculuq hamisi, üzümçülük hamisi - Dionisi, ticarət hamisi Hermes və s. idi. 776 - cı ildən başlayaraq hər dörd ildən bir Zevsin şərəfinə Olimpiya oyunları keçirilirdi. Antik dövrün ilk fəlsəfi sistemi - naturfəlsəfə həmin dövrdə yaranmışdır. Həmin sistemin filosoflarından Fales suyu bütün şeylərin əsası, Anaksimandr - apeyronu ilk materiya, Anaksimen - havanı ilkin əsas kimi götürürdü. Pifaqor (e.ə. VI əsr) dünyanın ilkin səbəbi kimi sayı, rəqəmi götürürdü. Bu dövrdə Heraklit kimi filosof da yaşayıb yaratmışdır. Məşhur Hesiod (e.ə. VIII-VII əsr) «Teoqoniya», «Əməklər və illər» əsərlərini yaratmışdır. Bu dövr ədəbiyyatında epos tədricən öz yerini lirik poeziyaya verir. İnsana, onun daxili aləminə diqqət müasiri olduqları həyat hadisələrin xarakterinin təhlili Arxiloxun (e.ə. VII əsrin ikinci yarısı), Solonun (e.ə. 635-559), Alkeyin (VII əsrin sonu - VI əsrin birinci yarısı), Anakreontun (570-478) və s. yaradıcılığında öz əksini tapmışdır. Safonun (e.ə. V11-VI) poeziyası indi də gözəlliyini saxlamaqdadır. VIII-VII əsrlərdə Yunan tarixşünaslığı yaranır. Loqoqraflar ilk dəfə olaraq mifoloji süjetlərin real əsaslarını aşkar etməyə cəhd edirdilər. Yunan xoru və teatrı yaranır. Dramatik tamaşalardan, xordan iştirakçı şəxslərdən birinin ayrılması - aktyorun seçilməsi əlamətdar bir hadisə idi.

Arxaik dövrdə incəsənət inandırıcı forma axtarışları həm cismani, həm də ruhən gözəl olan estetik idealın-polis vətəndaşının təcəssümü mühüm yer tutmuşdur. Özünəməxsus arxaik yunan mədəniyyəti klassik mədəniyyətin çiçəklənməsi üçün təməl rolunu oynamışlar. Bu da öz növbəsində dünya sivilizasiyasının inkişafında böyük əhəmiyyətə malik olmuşdur.

Yunan-İran müharibələri dövrü (500-449) ilə antik polisin - arxaik dövrün formalaşması başa çatır və klassik dövr başlanır. Yunanların qələbəsi, klassik quldarlığın tam formalaşması, polis demokratiyasının inkişafı Yunanıstanın iqtisadi, siyasi yüksəlişini şərtləndirmiş, mədəniyyətin çiçəklənmə mərhələsinə daxil olmağına kömək etmişdir. Bu dövrdə, xüsusilə Periklin idarəçiliyi dövründə Yunan mədəniyyətinin mərkəzi Afina hesab olunurdu. İlk dəfə bölünməz hissəciklər-atomlar nəzəriyyəsini elmə Demokrit (e.ə. V əsr) gətirmişdi. O, belə hesab edirdi ki, dünyada atomlardan və boşluqdan başqa heç nə yoxdur. Əgər Demokrit idrakın obyektiv xarakterini etiraf edirdisə, sofistlərə görə nə qədər həqiqət vardısa, o qədər də insanlar vardır. Sofistlərin ən görkəmli nümayəndəsi Sokrata (469-399) görə mütləq həqiqət vardır, lakin bu yalnız allaha məxsusdur.

E.ə. ədəbiyyatda əsas janr faciə olmuşdur. Klassik yunan faciəsinin yaradıcısı Esxilin (525-456) «Zəncirlənmiş Prometey» faciəsi çox məşhur olmuşdur. «Oresteya» trilogiyası da bu qəbildəndir. İkinci böyük faciə ustası Sofokl (497-406) olmuşdur. Ən məşhur faciəsi əfsanəvi hökmdar Edip haqqındadır. Psixoloji dramın yaradıcısı Evripid (480-406) «Medeya» və «Fedra» əsərlərini yazmışdır. Bu dövrün ən böyük komediya ustası Aristofan (445-385) «Dünya», «Atlılar», «Lisistrat» kimi əsərlərində komediyaya siyasi ruh və gündəlik düşüncə tərzi gətirmişdir. E.ə. V əsrdə tarixşünaslıq surətlə inkişaf edir. «Tarixin atası» Herodot (484-470) məşhur «Tarix» əsərini yazmışdır. Əsas süjet Yunan-İran müharibələri olsa da dünyanın digər xalqları haqqında da xeyli məlumatı həmin əsərdə tapmaq mümkündür. İkinci böyük tarixçi Fukidid (460-400) «Pelopennes tarixi» adlı əsərində ilk dəfə olaraq elmi-tənqidi metoddan istifadə etmişdir.

E.ə. V əsrdə güclü, enerjili, ləyaqətli, səmimi ruha malik insanın düzgün təsviri yunan incəsənətinin əsas vəzifəsinə çevrilir. Bu insan Yunan-İran müharibəsinin qalibi, polisin azad vətəndaşı olmalıdır. Bu dövrdə realist heykəltəraşlıq inkişaf etmişdir. Fidi həmin dövrün ən qüdrətli heykəltəraşı olmuşdur. «Döyüşçü Afina», «Afina Parfenos», Olimpdəki məbəd üçün «Zevs» və s. onun əsərləri sırasında mühüm yer tutur. Heykəltəraş Miron «Diskobol», heykəltəraş Poliklet qızıl və fil sümüyündən hazırladığı Heranın heykəli, Dorifor «Nizə atan», «Yaralı amazonka» və s. əsərləri ilə çox şöhrət qazanmışdır. Təsviri sənətdə Poliqnot və Apollodor maraqlı əsərləri ilə diqqəti cəlb edir. Məbəd tikintisi çiçəklənmə dövrünü yaşayır. Olimpdə Zevsin məbədi, Afinada baş məbəd Parfenon diqqətəlayiqdir. Sonralar məşhur Afina Akropolu öz əzəməti ilə seçilməyə başlanmışdır. Çiçəklənmə dövründən sonra böhran, tənəzzül dövrü gəlir. Əslində e.ə. IV əsr Yunan tarixində polisin böhranı tarixidir. Bu böhranın ilkin əlamətləri hələ Afina ilə Sparta arasında

gedən Pelopennes müharibələri (431-404) dövründə meydana çıxmışdır. Yunan polisinin böhranı qanunauyğun bir hal idi. Əmtəə-pul münasibətlərinin inkişafı torpaq üzərində xüsusi mülkiyyətin yaranmasına, antik mülkiyyət forması şəhərlərin iqtisadi bazasının ləğvinə gətirib çıxardı. Bu dövrdə Makedoniya II Filippin və onun oğlu İsgəndərin dövründə güclənməyə başladı. Kinik fəlsəfi məktəbi - Antisfen (e.ə. 450-360) Sinodlu Biogen (e. 414-323) inkişaf edirdi. Kinliklərə görə insan cəhdinin son məqsədi xeyirxahlıqdır. Böhran dövründə iki dahi filosof Platon (e.ə. 427-348) və Aristotel (e.ə. 384-322) yaşayıb yaratmışlar. Platon Sokratın şagirdi idi və onun ölümündən sonra Afinada xüsusi məktəbini-Akademiyanı yaratmışdı. Dünyanı idealist mövqedən izah edən Platon cəmiyyəti üç təbəqəyə bölürdü:

1. hakimlər-filosoflar;
2. hərbçilər;
3. kəndlilər, sənətkarlar, tacirlər.

Platonun şagirdi Aristotel müəllimi öldükdən sonra öz məktəbini - Likeyi yaratmışdır. O, siyasət, biologiya, fizika, mexanika, botanika, riyaziyyat və s. dair əsərlər yazmışdır. Aristotelin təlimində forma və materiyanın qarşılıqlı münasibəti əsas məsələsidir. Forma başlanğıcıdır. O, formasız, ölü materiyaya müəyyənlik verir. Bu dövrdə natiqlik sənəti inkişaf etmişdir. Onların başında Demosfen (e.ə. 384-322) dururdu. IV əsrin ən görkəmli tarixçilərindən biri Ksenofont (e.ə. 430-354) olmuşdur. «Anabasis», «Yunan tarixi» əsərləri ilə hələ sağlığında böyük şöhrət qazanmışdı. Bu dövrdə teatr, heykəltəraşlıq da yüksək inkişaf etmişdir.

Makedoniyalı İsgəndərin (356-323) Şərqə yürüşü ellinizm mədəniyyətinin inkişafına imkan yaratmışdır. Bu dövrdə Arximed (e.ə. 287-212), Evklid (e.ə. III əsr), Eratosfen (e.ə. 276-194), Samoslu Aristarx (e.ə. IV-III əsr, Yerin öz oxu ətrafında fırlandığını göstərmişdir), İsgəndəriyyəli Hipparx (e.ə. 180-125) və Heron (e.ə. I əsr) böyük elmi kəşflər etmişlər. Bu dövrdə bir sıra şəhərlərdə məşhur kitabxanalar yaranırdı. Onlardan ən məşhuru İsgəndəriyyə və Perqam kitabxanaları idi. Realist məişət komediyası ustası Menandr (e.ə. 343-291), eposu diriltməyə cəhd edən Rodoslu Apolloni (e.ə. 295-215), poema, himn, lirik şeirlər müəllifi Kallimax (e.ə. 310-240), idilliyanın banisi Feokrit (e.ə. IV-III əsrlər), tarixçi Polibi (e.ə. 200-120), filosof Epikur (e.ə. 341-270), Zenon (e.ə. 336-264) və b. böyük şöhrət qazanmışdır. Eklektizm, bir sıra cərəyanların birləşdirilməsi, etik istiqamət, sinkretizm, stoisizm və s. geniş yayılmışdır. Həmin dövr mədəniyyətin sintezi kimi tarixdə əvəzsiz rol oynamışdır.

Ellin mədəniyyətinin şərq mədəniyyəti ilə yaxinlaşması. İsgəndər öləndən sonra onun imperiyası parçalandı Makedoniyada Antiqonlar padşahlığı, Misir Ptolemeyləri çarlığı, Suriya Selevkilər çarlığı yarandı Yunanlar və makedoniyalılar şərqə axışmağa başladılar. Şərqin köhnə şəhərləri böyüdü. Nil çay deltasında e.ə. III əsrdə salınmış İsgəndəriyyə Misirin paytaxtı, dünyanın ən zəngin şəhəri oldu. Nil çayını Qırmızı dənizlə birləşdirən kanal çəkilmişdi Buradan başlanan karvan yolu İran körfəzinə, oradan da Hindistana gedirdi. İsgəndəriyyəyə Misirdən taxıl və papirus, Nubiyadan qızıl və fil sümüyü, Avropadan və Asiyadan müxtəlif mallar gətirilirdi Şəhərin qarşısındakı Faros adasında 140 m hündürlüyündə mayak tikilmişdi. Bu dünyanın yeddi möcüzəsindən biri idi. İsgəndəriyyədə dəbdəbəli padşah sarayları, gimnaziyalar, rəsədxana, kitabxana və s. var idi. Burada Musey, yəni muzaların ibadətgahı yerləşirdi. E.ə. III əsrin əvvəllərində yaradılmış musey antik dünyanın əsas elm mərkəzlərindən biri idi. Burada görkəmli alimlər (Arximed, Evklid və b.), filosoflar, şairlər işləyib yaratmışdılar. Burada olan kitabxananın fondunda 700 min kitab var idi. Alimlər demək olar ki, elmin bütün sahələrində çalışırdılar. E.ə. 47-ci ildə İsgəndəriyyə kitabxanası yanmış, sonra bərpa edilmişdi. Eramızın 391-ci ilində fanatik xristianlar kitabxananı dağıtmış, VII-VIII əsrlərdə ərəblər kitabxananı tamamilə məhv etmişdilər.

Elmi əsərlər əsasən dana və quzu dərisindən düzəldilmiş perqament üzərində yazılırdı. Bu dəri Kiçik Asiyadakı Perqam şəhərində hazırlanırdı və şəhərin adı ilə adlanırdı.

Beləliklə, e.ə. III-II əsrlərdə Aralıq dənizi sahillərində elm ən yüksək inkişaf səviyyəsinə çatmışdı. E.ə. III əsrdə İsgəndəriyyədə məşhur alim, İsgəndəriyyə məktəbinin ilk riyaziyyatçısı Evklid (e.ə. III əsr) çalışırdı. Evklid alqoritmi, Evklid fəzası, Evklid həndəsəsi onun adı ilə bağlıdır. Arximed (e.ə. 287-212) Siciliyadan buraya işləməyə gəlmişdi. “Mənə dayaq nöqtəsi verin, yeri tərpədim”, “evrika” kəlamları onun adı ilə bağlıdır. Arximed qanununu o kəşf etmişdir. Sirakuz şəhərinin müdafiəsi zamanı II Pun müharibəsində öldürülmüşdür.

Sadə dori üslubu dəbdəbəli padşah saraylarını memarlıq cəhətdən təmin etmirdi. E.ə. III-II əsrlərdə yaraşıqlı Korinf sütunları geniş yayıldı İncəsənətdə insanın daxili aləmini açmaq, onu canlı göstərmək cəhdi əsas yer tuturdu. Şərq incəsənət mərkəzlərindən biri Perqam şəhəri idi. Burada Olimp allahlarının Nəhənglər üzərində qələbəsini təsvir edən 140 m uzunluğunda, 2 m hündürlüyündə relyef yaradılmışdı. Burada insan surətləri çox canlı təsvir olunmuşdur.

Beləliklə, e.ə. III-II əsrlərdə yunan mədəniyyəti ilə şərq mədəniyyətinin qovuşması nəticəsində “ellin mədəniyyətin” yarandı. Bu mədəniyyətdə yunan və şərq mədəniyyətlərin ən gözəl xüsusiyyətləri öz əksini tapmışdır.

Qədim Yunanıstanın görkəmli mədəniyyət xadimləri

| | | |
|---|---|---|
| E.ə. | 525-456 | Dramaturq Esxil |
| | 500-431 | Heykəltəraş Fidi |
| | 484-425 | “Tarixin atası” Herodot |
| | 497-406 | Dramaturq Sofokl |
| | 480-406 | Dramaturq Evripid |
| | 460-395 | Tarixçi Fukidid |
| | 430-355 | Tarixçi Ksenofont |
| | 471-399 | Filosof-idealist Sokrat |
| | 460-370 | Filosof-idealist Demokrit |
| | 450-388 | Dramaturq Aristofan |
| | 436-337 | Natiq, yazıçı-publisist İsokrat |
| | 427-347 | Filosof-idealist Platon (Əflatun) |
| | 384-322 | Filosof Aristotel (Ərəstun) |
| | 341-270 | Filosof-materialist Epikur |
| | 384-322 | Natiq Demosfen |
| | 390-315 | Natiq Esxin |
| | 370-334 | Heykəltəraş Praksitel |
| | 342-292 | Dramaturq Menandr |
| | III əsrin ortaları | Riyaziyyatçı Evklid |
| | 282-212 | Riyaziyyatçı, fizik Arximed |
| | III əsr | Fizik Straton |
| | 310-230 | Samoslu astronom Aristarx |
| | 275-208 | Coğrafiyaşünas, astronom, riyaziyyatçı Erastofen |
| | Təqr. 300 | Təbib Herofil |
| | 200-120 | Tarixçi Polibi |



**MİKEN. AQAMEMNONUN MASKASI.**
**E.Ə. XVI ƏSR.**



**MİKEN. QILINC DƏSTƏSİ.**
**E.Ə. XIV ƏSR.**



**MİKEN. QADIN BÜSTÜ.**
**E.Ə. XIII ƏSR.**



**MİKEN. AMFORA.**
**E.Ə. XIV ƏSRİN ƏVVƏLİ.**



KRİT. KNOSS SARAYINDAN QAB.
E.Ə. XVII ƏSR.



KRİT. FEST SARAYINDAN KRATER.
E.Ə. XIX ƏSRİN ƏVVƏLİ.



KRİT. PALEKASTRO
SARAYINDAN QAB.
E.Ə. XVI ƏSR.



KRİT. KNOSS SARAYINDAN
ÖKÜZ BAŞI FORMASINDAQAB.
E.Ə. XVI ƏSR.



**KRİT. KNOSS SARAYININ İNTERYERİ.
E.Ə. XVII ƏSR.**



**KRİT. MALLİYA SARAYINDA NƏHƏNG PİFOS (TAXIL, SU, ŞƏRAB SAXLANAN BARDAQ). E.Ə. XVI ƏSR.**



**KRİT. FEST SARAYININ PİLLƏKƏNİ.
E.Ə. XVI ƏSR.**



**KRİT. QIZIL ÜZÜK ÜZƏRİNDƏ MÜQƏDDƏS ÖKÜZ TƏSVİRİ.
E.Ə. XVI ƏSR.**



KRİT. KNOSS SARAYININ GÖRÜNÜŞÜİ.
E.Ə. XVI ƏSR.



KRİT. KNOSS SARAYINDA İŞIQ QUYUSU.
E.Ə. XVI ƏSR.



KRİT. KNOSS SARAYINDA İŞIQ QUYUSU.
E.Ə. XVI ƏSR.



KRİT. KNOSS SARAYI DİVARINDA FRESKA.
E.Ə. XVI ƏSR.



KRİT. KNOSS SARAYININ CƏNUB QALEREYASINDA "MÜQƏDDƏS ÖKÜZ BUYNUZU" SƏCGƏDAHI.
E.Ə. XVI ƏSR.



KRİT. KNOSS SARAYI DİVARINDA FRESKA. FRAQMENT. E.Ə. XVI ƏSR.



KNOSS SARAYINDA ÇAR TAXTI. E.Ə. XVI ƏSR.



KAHİN-ÇAR. KNOSS SARAYINDA FRESKA. E.Ə. XVI ƏSR.



KNOSS SARAYINDA ÇARİÇA İQAMƏT GAHININ İNTERYERİ. E.Ə. XVI ƏSR.



MİKENA. YERALTI MƏQBƏRƏDƏN QIZIL LÖVHƏLƏR. E.Ə. XVI ƏSR.





ÜZÜK ÜZƏRİNDƏ VAĞ QUŞU TƏSVİRİ. E.Ə. V ƏSR.

TERRAKOT (GİL) ZINQIROV. E.Ə. VIII ƏSR.





XALSEDON (KVARS) ÜZÜK. E.Ə. V ƏSR.

TERRAKOT (GİL) KENTAVR. E.Ə. X ƏSR.



AKROPOL. KORA (QIZ HEYKƏLİ) HEYKƏLİNİN BAŞI. E.Ə. VI ƏSR.



DELOS. "ŞİR XİYABANINDA" ŞİR HEYKƏLİ. E.Ə. 620.



AKROPOL. ŞƏRQ FRONTONU. DETAL. E.Ə. 570.



MOSXOFOR. E.Ə. 570.



KORİNF. APOLLON MƏBƏDİ. E.Ə. 540.



QORTİNADAN QADIN HEYKƏLLƏRİ.
E.Ə. VII ƏSR.



POLİMED. KLEOBUS VƏ BİTOPUN
HEYKƏLLƏRİ. E.Ə. VI ƏSR.



QAÇAN NEREİDALAR. PESTUMDA
HERA MƏBƏDİNDƏ METOPA (LÖVHƏ).
E.Ə. VI ƏSR.



OKSERLİ XANIM.
E.Ə. VII ƏSR.



KORİNFDƏN ARİBALL
(ƏTRİYYAT QABI).
E.Ə. VII ƏSR.



"QANİMED". KRATER (İRİ DƏRİN QAB).
E.Ə. 490-480.



QARA OYNOXOYA (SƏHƏNG).
E.Ə. VI-V ƏSRLƏR.



KAMİROS (RODOS). PELİKA (KUZƏ) ÜZƏRİNDƏ PELEYİN FETİDANI QAÇIRMASI SƏHNƏSİ. E.Ə. 340-330.



RODOS. XALI ÜSLUBLÜ DİNOS (BARDAQ). E.Ə.VII ƏSR.



ATTİKA NƏQQAŞI BRİQ. "MENADA". KİLİK (YASTI QAB) ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. 490.



DİPİLON NEKROPOLU (QƏBRİSTAN). HƏNDƏSİ NAXIŞLI AMFORA. E.Ə. IX ƏSR.



DİPİLON NEKROPOLU (QƏBRİSTAN). AMFORA. E.Ə. 760-750.



RODOS. MENELAYIN HEKTORLA DÖYÜŞÜ. QAB ÜZƏRİNDƏ TƏSVİR. E.Ə.VII ƏSR.



GEMATİTDƏN (ÇUĞUN) KNOSS MÖHÜRÜ. E.Ə. 1450.



İLAHƏ NİKA. AMFORA ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. VI ƏSR.



HƏNDƏSİ NAXIŞLI AMFORA. E.Ə. 760.



ƏQİQ DAŞINDAN KNOSS MÖHÜRÜ. E.Ə. 1450-1400.



VAZA NƏQQAŞI YEVFİMİD. AMFORA ÜZƏRİNDƏ "GEKTORUN HƏRBİ YÜRÜŞƏ HAZIRLAŞMASI" SƏHNƏSİ. E.Ə. 510.



VULÇİ KUZƏSİ. E.Ə. 500.



VAZA NƏQQAŞI DURİS. PSİKTER. E.Ə. 480.



VAZA NƏQQAŞI YEVFRONİ. KRATER ÜZƏRİNDƏ "GƏNCLƏR PALESTRADA" (GİMNASTİKA MƏKTƏBİ) TƏSVİRİ. E.Ə. 510-500.



YEVFRONİ. KİLİK (YASTI QAB) ÜZƏRİNDƏ "ATLI" TƏSVİRİ. E.Ə. 510.



YEVFRONİ. KRATER ÜZƏRİNDƏ "GƏNCLƏR PALESTRADA" TƏSVİRİ. E.Ə. 510-500.



**BEOTİYA VAZI ÜZƏRİNDƏ RƏQQAS TƏSVİRİ. E.Ə. VI ƏSR.**



**TESEYİN MİNOTAVRLA DÖYÜŞÜ. E.Ə. VI ƏSR.**



**TESEY VƏ MİNOTAVR. KİLİK ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. 550.**



**VULLÇİ VAZASI ÜZƏRİNDƏ AXİLLESİN CƏSƏDİNİ ÇİYNİNDƏ APARAN AYAKS. E.Ə. VI ƏSRİN SONU.**



PERİKL. E.Ə. 490-429.



PRAKSİTEL. HERMES. E.Ə. 360-340.



HERAKLN NEMEY ŞİRİ İLƏ DÖYÜŞÜ.
AMFORA ÜZƏRİNDƏ TƏSVİR.



DİOSKUR POLİDEVK VALİDEYNLƏRİ İLƏ.
AMFORA ÜZƏRİNDƏ TƏSVİR.



APOLLON VƏ ARTEMİDA NİOBANIN ÖVLADLARINI QƏTLƏ YETİRİRLƏR. KRATER ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. V ƏSR.



ORFEY. NOLA AMFORASI ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. V ƏSR.



HERAKL. VULÇİ AMFORASI ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. V ƏSR.



HERAKLIN HERİONLA DÖYÜŞÜ.
AMFORA ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. 540.



EKZEKİ. DİONİS OĞLU
OYNOPİON İLƏ. E.Ə. 525.



KENTAVRLARLA DÖYÜŞ. AMFORA ÜZƏRİNDƏ TƏSVİR.



EKZEKİ. AXİLLES VƏ
PENTESİLEYA.



OLTOS. XİRON VƏ AXİLLES. E.Ə. 520.



OLTOS. SİLENİN MENADA İLƏ
DÖYĞŞÜ. E.Ə. 520.



PERSEYİ TƏQİB EDƏN QORQONA.
AMFORA ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. V ƏSR.



QORQONADAN QAÇAN PERSEY.
AMFORA ÜZƏRİNDƏ TƏSVİR.
E.Ə. V ƏSR.



ARTEMİDA VƏ AKTEON. KRATER
ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. 450.



MENADA. KRATER ÜZƏRİNDƏ
TƏSVİR. E.Ə. 490-480.



YUNANLARIN AMAZONKALARLA DÖYÜŞÜ.
KİLİK ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. 460.



HERAKL, NESS VƏ DEYANİRA.
KİLİK ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. 420.



ORFEY FRAKİYADA. KRATER ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. 450.



DURİS. MEMNONUN CƏSƏDİNİ APARAN EOS.
KAPUYA KİLİKİ ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. 490.



VULÇİ KİLİKİ ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. 490.



DOLONUN ƏSİR DÜŞMƏSİ. KRATER ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. 380.



ODİSSEY VƏ TİRESİNİN KÖLGƏSİ. KRATER ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. IV ƏSR.



**SİLEN VƏ YATMIŞ OĞLAN. E.Ə. IV ƏSR.**



**ANTİKİTERA. CAVAN OĞLAN. E.Ə. 340.**



**TEATR TAMAŞASINDAN SƏHNƏ.**
**KRATER ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. IV ƏSR.**



**DİONİS PANTER BELİNDƏ. MOZAİKA. E.Ə. IV ƏSR.**



**FETİDANIN KAMİROSLU PELEY**
**TƏRƏFİNDƏN QAÇIRILMASI SƏHNƏSİ.**
**PELİKA ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. 340-330.**



PATROKLUN DƏFN TONQALI. APULİYA KRATERİ ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. IV ƏSR.



OREST VƏ ERİNİYA. APULİYA KRATERİ ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. 370-360.



TROYA SAVAŞINDAN SƏHNƏ. APULİYA KRATERİ ÜZƏRİNDƏ TƏSVİR. E.Ə. 340-330.





FİDİ VƏ ŞAGİRDLƏRİ. ATLILAR.
PARFENONDA FRIZ DETALI.



FİDİ VƏ ŞAGİRDLƏRİ. ATLILAR.
PARFENONDA FRIZ DETALI.



FİDİ VƏ ŞAGİRDLƏRİ. QURBANLIQ KƏLLƏRİ SÜRƏN GƏNCLƏR. PARFENONDA FRİZ DETALI.



FİDİ VƏ ŞAGİRDLƏRİ. QURBANLIQ APARAN GƏNCLƏR. PARFENONDA FRİZ DETALI.



"ŞİR OVU". MAKEDONİYALI İSGƏNDƏRİN MƏQBƏRƏSİ. DETAL. E.Ə. IV ƏSR.



"QRANİK ƏTRAFINDA DÖYÜŞ". MAKEDONİYALI İSGƏNDƏRİN MƏQBƏRƏSİ. E.Ə. IV ƏSR.





POLİORKET. "İSGƏNDƏR". MAKEDONİYALI İSGƏNDƏRİN MƏQBƏRƏSİ. E.Ə. IV ƏSR.



MİRON. "DİSKOBOL".
ROMADA YAPILMIŞ SURƏT.



İDMANÇI QIZ. ROMADA YAPILMIŞ SURƏT.



AGESANDR, AFİNODOR, POLİDOR.
"LAOKOON". E.Ə. 40.



BENEVENTODAN EFEB BAŞI. E.Ə. IV ƏSR.





**YUNAN MEMARLARI İKTİN VƏ KALLİKRAT. PARFENON. E.Ə. 447-438.**



**AFİNA. DİONİSƏ QURBAN VERMƏ MƏRASİMİ.
DİONİS TEATRINDA HEYKƏL QRUPU.**



**EPİDAVR ŞƏHƏRİNDƏ TEATR.**



**NİZƏYƏ SÖYKƏNMİŞ AFİNA.
AKROPOLDA RELYEF. E.Ə. 460.**



**SALAMİNDƏN YENİYETMƏNİN QƏBRİNİN
BAŞDAŞINDA RELYEF. E.Ə. V ƏSR.**

# QƏDİM ROMA MƏDƏNİYYƏTİ

Roma haqqnda əfsanə. Romada dövlətin yaranması. Avropanın cənubunda, Balkan yarımadasının qərbində Apennin yarımadası yerləşir. Apennin yarımadasını şimalda Avropanın qalan hissəsindən Alp dağları ayırır. Alp dağlarından başlayaraq Siciliya adasına qədər uzanan sıra dağlar yarımadanı iki yerə ayırır. Alp dağları Apennin yarımadasını soyuq şimal küləyindən qoruyur. Burada iqlim mülayimdir, yağış Yunanıstana nisbətən daha çox yağır, zəngin bitki və heyvanlar aləmi var. Yunanlar bu zənginliyə heyran olmuş və yarımadanın cənub hissəsini İtaliya, yəni "buzovlar ölkəsi" adlandırmışlar. Sonralar bu ad bütün yarımadaya verilmişdir. Apennin yarımadasının cənubunda iqlimi isti, bitki örtüyü daha zəngin olan Siciliya adası yerləşir.

Apennin yarımadasının orta hissəsindən Tibr çayı axır. Tunc dövründə Avropadan quru yolla Apennin yarımadasına İtalik tayfaları axışdı. E.ə. X-VIII əsrlərdə isə buraya dəniz yolu vasitəsi ilə etrusklar gəldilər. Tibr çayı ətrafındakı düzənliklərdə latın tayfaları yaşayırdı. Bu çayın mənsəbindən 25 km aralı Roma şəhəri salındı. Əfsanəyə görə latın şəhərlərindən birinin padşahı qardaşı qızının əkiz oğlan uşaqlarını Tibr çayına atdırır. Uşaqlar olan səbət ağaca ilişir. Bir dişi canavar onları südü ilə bəsləyir. Uşaqları çoban tapıb tərbiyə edir. Uşaqlardan birinin adı Romul, o birinin adı Rem idi. Şəhər salmaq və onun kimin idarə etməsi üstündə mübahisələri düşür. Romul Remi öldürür. Romul çobanın onları tapdığı yerdə şəhər salır və Roma adlandırır. Beləliklə, e.ə. 753-cü ildə Roma şəhəri salınır. Romalılar öz tarixlərini bu ildən başlayırlar. Romada Kapitoli təpəsində dişi canavarın heykəli qoyulmuşdu.

Romanın ən qədim əhalisinin nəslindən olanlar patrisilər adlanırdılar. İlk əvvəl əhali 3 qəbilə (triba) ittifaqından, hər triba öz növbəsində boy birliklərindən (kuriya) ibarət idi. Latınca "pater" ata deməkdir. Boy birliklərinin üzvləri (patrisilər) Roma icmasının ilk tam hüquqlu vətəndaşları sayılırdılar. Onlar icma torpaqlarından istifadə edir, məsul vəzifələrə seçilirdilər. Onlar işi əsasən özləri görür, əvvəllər qullarla bir süfrə başına otururdular.

Patrisilərə latınca "senat" adlanan qocalardan ibarət ağsaqqallar şurası rəhbərlik edirdi. Senatın tərkibi boy başçılarından formalaşırdı. İcmada 300 boy mövcud olduğundan erkən senat 300 üzvdən ibarət idi. Senatın üzvləri senator adlanırdı. Romanı padşah və senat idarə edirdi. E.ə. VI əsrin başlanğıcında Romada dövlət yarandı. Romalılar qonşuluqda olan şəhərləri tutur, əhalisini Romaya köçürürdülər. Romadakı təpələr arasında olan təpələr qurudulmuş və forum deyilən bazar yaradılmışdı. Romanın sonuncu padşahı Məğrur Tarkvin çox qəddar olduğuna görə romalılar e.ə. 509-cu ildə onu qovmuş və padşah hakimiyyətinə son qoymuşdular. Bundan sonra hər il xalq yığıncağı patrisilər sırasından iki konsul və onların köməkçilərini seçir, onlar isə bir il Romanı idarə edirdilər. Konsullar bütün məsələlərdə senatla məsləhətləşirdilər. Romada seçkili üsul-idarəni patrisilər latınca "res publika", yəni "ümumi iş" adlandırırdılar. Respublika müəyyən müddətə seçilmiş adamlar tərəfindən idarə olunan dövlət deməkdir. Konsullar Romanı idarə edir, məhkəmə işlərinə baxır, müharibə vaxtı orduya komandanlıq edirdilər.

Plebeylərin seçkili vəzifə tutmaq hüququ da yox idi. Plebeylər patrisilərlə bərabər hüquqa malik olmaq üçün e.ə. V-III əsrlərdə mübarizə aparırdılar. E.ə. V əsrin əvvəllərində plebeylər onların hüquqlarını müdafiə edən tribunların seçilməsinə nail oldular. Tribun senatın nə konsulun plebeylərin mənafeyinə zidd olan istənilən qərarını ləğv edə bilərdi. Onun "veto", yəni "qadağan edirəm" deməsi kifayət idi. Vəzifəsinin icrası müddətində tribun toxunulmazlıq hüququna malik idi. E.ə. 451-ci ildə plebeylər mövcud qanunvericiliyin "Qanunlar toplusu" şəklində qeydiyyatına nail oldular. E.ə. 449-cu ildə qanunlar toplusu həkk olunmuş 12 mis lövhə Forum meydanında qoyuldu. E.ə. 326-cı ildə plebeylər borca görə borclunun kölə kimi satılması qanununun ləğv edilməsinə nail oldular. Plebsin ticarət-sənətkar dairələrinin mənafeyi üçün 312-ci ildə senzor olmuş Appi Klavdinin fəaliyyəti böyük əhəmiyyət kəsb edirdi. O, torpaq mülkiyyəti olmayan plebeylərə şəhər və kənd tribalarında qeydiyyata düşmək, yəni vətəndaş hüququ almaq imkanı yaratdı. Appi Klavdi Romadan Kapuya şəhərinə qədər uzanan, ticari və hərbi əhəmiyyət kəsb edən yol saldı. E.ə. III əsrin əvvəllərində plebeylər Romanın tam hüquqlu vətəndaşı oldular. Onlar seçkili vəzifə tutmaq, icma torpaqlarından bəhrələnmək ixtiyarı qazandılar. Hər bir Roma vətəndaşı dövlət vəzifəsinə seçilə bilərdi, lakin respublika vəzifəyə görə məvacib vermirdi, odur ki, seçkili vəzifələrə yalnız varlılar irəli sürülürdü. Romanın vəzifəli şəxsləri magistrat adlanırdı. Bir illik müddətə seçilən iki konsul və pretorlar, 5 ildə bir dəfə 1.5 illik müddətə seçilən iki senzor, xalq tribunları ali, kvestor və edillər kiçik magistratlar sayılırdı.

E.ə. II-I əsrlərdə Romada quldarlığın inkişafı. Romalılar əmək alətlərini canlı və cansız alətlərə, canlı alətləri isə danışan və danışmayan alətlərə bölürdülər. Danışan alətlər dedikdə qullar nəzərdə tutulurdu.

Roma ordusunun əyalətlərdən qarət etdiyi sərvətlər Roma quldarlarının əlinə keçirdi. Quldarlar bu vəsaitlə bağlar və üzümlüklər salır, mal-qara sürüləri saxlayırdılar. Roma imperiyasının hər yerində qul bazarı var idi. Qullardan təsərrüfatın bütün sahələrində, tikintidə, ev işlərində, gəmiçilikdə istifadə edilirdi. Roma aristokratları icma torpaqlarını ələ keçirir, kəndlilərin torpaqlarını satın alırdılar.

Romada daha çevik və güclü olan qullara xüsusi həbsxana-məktəblərdə silah işlətməyi öyrədir, onları

bir-biri ilə vuruşmağa məcbur edirdilər. Belə qulları qladiator adlandırırdılar. Romada qladiator döyüşləri geniş yayılmışdı. Bu məqsəd üçün sirklərə oxşar amfiteatr tikilirdi. Amfiteatrın mərkəzi olan meydança arena adlanırdı. Məğlub olub sağ qalan qladiatorun taleyi tamaşaçılardan asılı idi. Onlar əllərinin baş barmaqlarını aşağı salanda məğlub qladiator öldürülməli idi. Baş barmaqlar yuxarıya tuşlananda isə qladiatora rəhm edilirdi.

Qədim Romada çox qul var idi. Qədim dünyanın heç bir ölkəsində bu qədər qul yox idi. E.ə. II əsrdə Roma əyalətlərində qulların üsyanı baş verdi. Siciliyada baş vermiş üsyan 6 il davam etdi. Quldarlar üsyanı zorla yatırdılar. Romanın apardığı müharibələr ölkəyə qul axınını çoxaltdı Kəndli əməyi ucuz qul əməyi tərəfindən sıxışdırılırdı. Varlı quldarlar var-yoxdan çıxmış kəndlilərin torpaqlarını dəyər-dəyməzinə satın alırdılar. Kəndlilər şəhərlərə, ilk növbədə Romaya axışır, iş tapmırdılar. İşsiz, evsiz-eşiksiz qalanların sayı artırdı.

Roma imperiyası. Romadan min kilometrlərlə uzaqlıqda gedən müharibələrə hər il seçilən konsullar başçılıq edə bilmir, komandanlıq təcrübəli hərbi rəislərə tapşırıldı. Bu da Romada sərkərdələrin nüfuzunun artmasına səbəb olurdu. Quldarlar belə hesab edirdilər ki, senat və konsullara nisbətən hərbi sərkərdələr yoxsul və qulların müqavimətini daha yaxşı qırar və itaətdə saxlaya bilər. E.ə. I əsrdə Korneli Sullanın diktaturası da respublika üsul-idarəsinə ağır zərbə vurmuşdu. Marinin muzdlu könüllülərdən təşkil etdiyi qoşun Romada hakimiyyəti ələ keçirmək üçün istənilən hərbi liderin əlində alətə çevrilə bilərdi. Pompey və Krass təkhakimiyyətlik uğrunda mübarizədən çəkinməyən belə sərkərdələr idilər.

Romada quldarlıq təsərrüfatının tənəzzülü. I-II əsrlərdə ən qüdrətli zirvəsinə çatan Roma imperiyasında II-III əsrlərdən başlayaraq quldarlıq quruluşunda tənəzzül başlandı. Qul əməyi getdikcə əhəmiyyətini itirirdi, nəzarətsiz qul yaxşı işləmirdi. Qullar üçün yaxşı işləməyin əhəmiyyəti yox idi. Onlara ancaq yemək verilir, paltar alırdılar. Qullara nəzarətçilər, keşikçilər, quldarların özləri nəzarət edirdilər. Quldarlıq təsərrüfatının inkişafı üçün əngələ çevrildi. Qədim Romada su dəyirmanı ixtira edildi, gavahınlı mürəkkəb kotan, öküzlə hərəkətə gətirilən biçin aləti, bağlarda işləmək üçün biçin aləti ixtira edilmişdi. Lakin bu alətləri qullara etibar etmirdilər. Onlara yenə sadə kobud alətlər verirdilər, bu alətləri sındırmaq çətin idi. Qulların marağı olmadığına görə torpaqlar tez gücdən düşür və məhsul vermirdi.

Quldarlar da başa düşürdülər ki, artıq qul əməyi daha sərfəli deyil. Buna görə də bəzi quldarlar qullara kiçik torpaq sahələri, əmək aləti, toxum, iş heyvanı verir, onlara ev tikməyə, ailə qurmağa icazə verirdilər. Bu qullar əldə etdikləri məhsulun bir hissəsini quldara verirdilər. Belə qullara "daxmalı qullar" deyirdilər.

İri torpaq sahibləri öz torpaqlarını kiçik hissələrə bölüb azad kəndlilərə icarəyə verirdilər. Romada belə xırda icarədarları kolonlar adlandırdılar. Kolonlar öz əməklərinin nəticəsində maraqlı idilər. Qula nisbətən yaxşı işləyirdilər. II-III əsrlərdə kolonlar qismən qulları əvəz etdilər, onların sayı sürətlə artdı.

Lakin qul və kolonların vəziyyəti ağır olaraq qalırdı. Əyalətlərin əhalisi üzərinə böyük vergilər qoyulmuşdu. Bu səbəbdən də imperiyada üsyanlar başlandı. Üsyanda qullar və kolonlar iştirak edirdilər. III əsrdə üsyan bütün Qalliyanı bürüdü. Üsyançıları "Baqaudlar", yəni mübarizlər adlandırırdılar. Roma quldarları üsyanı qan içərisində yatırdılar.

Romalılar və yunanlar dillərini başa düşmədikləri xalqları barbar adlandırırdılar. II-III əsrlərdən başlayaraq barbarların Roma imperiyası üzərinə hücumları güclənməyə başlandı. İmperiyanın zəngin şəhərləri və varlı kəndləri barbarları cəlb edirdi. Əsas barbar tayfaları dörd qrupa bölünürdü. German tayfaları Müasir Almaniya ərazisində yaşayırdı. Qot alman tayfaları Polşadan Ukraynaya qədər olan ərazidə yaşayırdılar. Qotlar ostqotlara (şərq qotları) və vestqotlara (qərbi qotlara) bölünürdülər. Elba çayından şərqdəki torpaqlarda slavyan tayfaları yaşayırdı. IV əsrdən başlayaraq şərqdən gəlmiş hun tayfaları Roma imperiyasının sərhədlərinə yaxınlaşdılar. Bu tayfaların hücumu Roma imperiyasının tənəzzülünü sürətləndirdi. III əsrin ortalarında Qalliya, İspaniya, Misir, Asiya və Aşağı Dunay Romadan ayrıldı.

Roma imperiyasında legionerlər böyük rol oynayırdılar. Onlar istədikləri adamı imperator taxtında oturdurdular. Legionerlər tərəfindən hakimiyyətə gətirilən imperatorlara "əsgər imperatorları" deyirdilər Zəifləmiş imperiya sərhədlərini qoruya bilmirdi. Barbarlar hücum etdikləri ərazidə hər şeyi məhv edirdilər. Roma imperiyasında quldarlar möhkəm imperator hakimiyyəti yaratmaq istəyirdilər. Bu məqsədlə 284-cü ildə legionerlərin köməyi ilə Diokletianı imperator elan etdilər. O, yoxsul ailədən çıxmış, adi legionerdən imperator səviyyəsinə yüksəlmiş qətiyyətli bir adam idi. Diokletian qiyamçı döyüşçülərə divan tutdu, intizamlı ordu yaratdı, Qalliyada baqaudları məğlub etdi, barbarları imperiya ərazisindən qovdu, sərhədləri möhkəmləndirdi, keşikçi qüllələri tikdirdi. Bu qüllələri dərin xəndəklər əhatə edirdi. Roma legionerləri və muzdlu barbarlar sərhədləri qoruyurdular.

Diokletian 21 il (284-305) hakimiyyətdə oldu, imperiyanın bütövlüyünü təmin etdi. O, özünü Yupiterin oğlu adlandırırdı. O, imperiyanın şərq hissəsində gözəl saraylar tikdirdi və orada yaşadı, qüdrətli ordu yaratdı. Ordunu, məmurları və xəfiyyələri saxlamaq üçün əhali üzərinə ağır vergi qoydu. Dominant idarəçilik sistemini yaradan Diokletian 293-cü ildə inzibati, 301-ci ildə maliyyə islahatları apardı. Qiymətlərin tənzimlənməsi haqqında fərman verdi. 303-304-cü illərdə xristianlığa qarşı fərmanlar imzaladı. Xristianların kütləvi surətdə təqib və edam edilməsinə rəvac verdi.

Roma Aralıq dənizi sahillərində olan ən böyük şəhər idi. Eramızın ilk əsrində burada bir milyon əhali yaşayırdı. Şəhər Tibr çayının hər iki sahilində yerləşirdi. Buraya dağ bulaqlarından 11 kəmərlə öz axarı ilə su gətirilirdi. Sezardan başlayaraq Roma forumu ətrafında abidələr ucaldılır, məbəd və saraylar tikilirdi. Roma imperatorlarının heykəlləri qoyulurdu. Trayan Dunay qələbələrinin şərəfinə Forumda 40 m hündürlüyündə sütun ucaltmış, onun üstündə özünün heykəlini qoydurmuşdu.

Romada zəfər tağları geniş yayılmışdı. Triumf mərasimlərində imperatorlar bu tağların altından keçirdilər. Əvvəllər adi bazar olmuş Forum paytaxtın ən gözəl yerinə çevrilmişdi. Onun yaxınlığında Palatin təpəsi yerləşirdi. Burada imperatorların gözəl sarayları yerləşirdi. İmperator saraylarının yaxınlığında quldarların evləri yerləşirdi. Onların evlərinin divarları freskalarla bəzədilir, döşəmələri mozaika ilə örtülürdü. Otaqlara bəzəkli mebellər, həyətdə, bağlarda gözəl heykəllər qoyulurdu. Varlı romalılara xidmət edən qullar içərisində savadlı həkimlər, müəllimlər, musiqiçilər, rəssamlar var idi. Varlıların alaqapısında it əvəzinə zəncirlənmiş qul otururdu.

Romada zəngin həyat tərzi keçirənlərlə yanaşı, yoxsul, ehtiyac içində yaşayan on minlərlə dilənçi var idi. Onların narazılığının qarşısını almaq üçün onlara imperatorun adından çörək və pul paylayırdılar. Romada 200 min adam pulsuz çörək alırdı. İmperatorun əmri ilə termlər (hamamlar) tikilmişdi. Yoxsul azad adamlar buradan pulsuz istifadə edirdilər. Burada kitabxana, istirahət otaqları var idi. Onlara pulsuz tamaşalar göstərilirdi. "Çörək və tamaşa" xalqın narazılığının qarşısını almaq üçün verilirdi. Həm quldarlar, həm də yoxsul azad adamlar zəhmət çəkməyi qulların işi hesab edir, özləri işləmək istəmirdilər.

Romada ilk teatrı yunan teatrı nümunəsində Pompey tikdirmişdi. Həm quldarlar, həm də yoxsul azad adamlar ən çox qladiator döyüşlərini və döyüş arabalarının qaçış yarışlarını xoşlayırdılar. I əsrdə Romada 50 min tamaşaçı tutan Kolizey tikilmişdi. Amfiteatr Roma ixtirasıdır. O, tribunalarla əhatə olunmuş ellips formalı meydandan ibarətdir. Burada qanlı qladiator döyüşləri keçirilir, yırtıcı heyvanların boğuşması nümayiş etdirilirdi.

Romada bir neçə amfiteatr var idi, lakin 64-cü ildə baş vermiş yanğından sonra yeni qurğuya ehtiyac duyulurdu. 69-cu ildə Roma imperatoru Vespasian yeni amfiteatrın tikilməsinə qərar verdi.

Yeni amfiteatr əvvəlcə Flavi amfiteatrı adlanırdı. VII əsrdən başlayaraq onu Kolizey adlandırırdılar.

Kolizeyin perimetri 500 m, hündürlüyü 48.5 m-dir. Kolizey əhəngdaşı, tuf və kərpicdən tikilib.

80-cı ildə onun təntənəli açılışında Vespasianın varisi Tut iştirak edirdi. Bu mərasimdə romalılar üçün 5000 yırtıcı heyvanın boğuşması tamaşasını nümayiş etdirilmişdi. Lakin tikinti hələ başa çatmamışdı. Amfiteatrın ən yüksək tribunası imperator Domisian dövründə tikilib başa çatdı.

Tikili çoxmərtəbəli tribunalar sistemindən ibarətdir. Mürəkkəb pilləkənlər sistemi tribunalara gediş-gəlişi asanlaşdırırdı. Tribunalar eyni zamanda 50000 tamaşaçı qəbul edə bilirdi. Vəhşi heyvanlar yeraltı keçidlər və qaldırıcı qurğular vasitəsi ilə birbaşa meydana çıxarılırdı.

Zəngin texniki təchizatına görə Kolizey öz dövrünü xeyli qabaqlamış qurğu hesab olunur.

Romalılar yunan memarlığından geniş istifadə edirdilər. Roma tikintiləri dövlətin əzəmət və qüdrətini nümayiş etdirməli idi. Onlar memarlığa bir sıra yeniliklər gətirdilər. Betonu ixtira etdilər. Beton Tağ və qübbə tikməyə imkan verirdi. Tağ (Arka) qövs şəklində örtüyə deyilir. Tağdan Zəfər tağlarında, körpü, bina, su kəməri tikintisində geniş istifadə olunurdu.

Qübbə qövs şəklində tavana deyilir. Günbəz tərsinə çevrilmiş cam şəklində tavana deyilir. Allahların məbədi sayılan və indiyə qədər qalan Panteon günbəzin ən gözəl nümunəsidir.

Romada heykəltəraşlığın özünəməxsus xüsusiyyəti var idi. Onlar yunanların və şərqdən gətirdikləri heykəllərin surətini çıxarır və yenilərini yaradırdılar. Onlar Olimp allahlarına sitayiş edir, amma onların adlarını dəyişirdilər. Məsələn, Zevsi Yupiter, dəniz allahı Poseydonu Neptun, Hefesti Vulkan adlandırırdılar.

Roma ədəbiyyatı yunan ədəbiyyatı ilə bağlı idi. E ə I əsr və eramızın I əsri Roma poeziyasının "qızıl dövrü" adlanırdı. İmperator Avqust şairləri himayə edirdi. Onun dostu, varlı Mesenat şairlərə qayğı göstərirdi. Onun evi şairlərin üzünə açıq idi, onlardan səxavətini əsirgəmirdi. Sonralar "mesenat" sözü varlı incəsənət himayəçisi mənasında işləndi.

Roma şairlərindən biri Vergili (e.ə. 70-19) idi Onun 12 cilddən ibarət olan "Eneida" poeması Troyanın müdafiəçisi, ilahə oğlu, romalıların atası sayılan Eneyin başına gələn hadisələrdən bəhs edir. Eney yanan Troya şəhərindən qoca atasını çıxarır, bir müddətdən sonra İtaliyaya-Romaya gəlir və burada məskən salır. Eney atasının ruhu ilə görüşmək üçün yeraltı səltənətə gedir. Atasının ruhu ona xəbər verir ki, onun nəsli Romanın əsasını qoyacaq. Eney özünün gələcək nəslini və onların arasında Romaya dinclik gətirəcək Avqustun təntənəsini görür. Vergili poemasında Avqustun və onun dövrünü təsvir etmiş, bunun üçün qədim əfsanələrdən məharətlə istifadə etmişdi.

E.ə. I əsrdə yaşamış Tit Lukresi Kar "Əşyaların təbiəti haqqında" fəlsəfi poemasını şerlə yazmışdı. Görkəmli şair və alim olan Lukresi bu əsərində insanın və təbiətin tarixi haqqında o dövrün qabaqcıl ideyalarını əks etdirmişdir. Onun fikrincə, təbiət atomlardan ibarətdir. O, insanların həyatını və təbiət hadisələri qarşısında onların acizliyini canlı təsvir etmişdi. O, bu qənaətə gəlmişdi ki, insanın təbiət hadisələri qarşısında acizliyi dinin meydana gəlməsi ilə nəticələnmişdir. Onun dediyinə görə, əkinçilik, od,

incəsənət, yazı allahın insanlara mərhəməti sahəsində verilməmişdir, insan bütün bunları zəhməti bahasına əldə etmişdir.

Romada əsas yazı materialı papirus idi. Kitabların çoxu lülə şəklində bükülü olub mücrülərdə saxlanırdı. Romalılar perqamentdən müasir şəkildə kitablar buraxırdılar, dəridən üzlük çəkirdilər. Kitabların üzü köçürülürdü. Bir nəfər diktə edir, onlarla qul kitabın üzünü köçürürdü, bu yolla kitablar çoxaldılırdı. Qədim Romada bədii əsərlər, tarixə, coğrafiyaya, kənd təsərrüfatına, incəsənətə, memarlığa və s. aid kitablar buraxılırdı. Romanın ən məşhur natiqi Siseron idi. O, gözəl nitq söyləməklə yanaşı, bir sıra elmi əsərlər də yazmışdı.

Böyük Plininin yazdığı "Təbiət tarixi" əsəri 37 kitabdan ibarətdir və dövrümüzə qədər gəlib çatmışdır. Bu kitablarda Roma, Şərq, Yunanıstan alimlərinin astronomiyaya, təbabətə, kənd təsərrüfatına və başqa sahələrə aid yazılmış əsərlərin məzmunu verilmişdir. Kitabda I əsrdə Aralıq dənizi sahillərindəki ölkələrin elmi bilikləri verilmişdir. Plini e.ə. 79-cu ildə baş vermiş Vezuvi vulkanını öyrənmək üçün ona yaxınlaşmış və həlak olmuşdur.

Roma mədəniyyəti böyük tarixi əhəmiyyətə malikdir. Bu mədəniyyət Roma imperiyasının hər yerində yayılmışdı. İmperiyanın əyalət əyanları özlərini romalılara oxşadırdılar, onların dilini öyrənirdilər. Roma nümunəsində şəhərlər salınır, yollar çəkilir, körpülər tikilirdi. Latın dili və yunan əlifbası əsasında tərtib edilmiş latın əlifbası geniş yayılmışdı. Latın dili uzun müddət elm dili olaraq qalmış, Avropanın bütün əhalisi bu dildə oxuyub yazmışlar. Tibbdə indi də bu dil işlənir. Latın dili italyan, fransız, rumın və digər xalqların dilləri üçün təməl olmuşdur.

Yuli Sezarın tapşırığı ilə İsgəndəriyyədə təqvim tərtib edilmişdi. Bu təqvim indi də bəzi dəyişikliklərlə işlənir. İndiki ayların adında latın adları qalmaqdadır. İyul ayı Yuli Sezarın, avqust ayı imperator Avqustun şərəfinə adlandırılmışdır.

Yunanıstan mədəniyyəti Roma mədəniyyətinə böyük təsir göstərmiş, romalılar Yunanıstanın məktəblərində oxuyur, onların dilini öyrənirdilər. Roma şairi yazmışdı: "Əsir. alınmış Yunanıstan Romaya incəsənət gətirməklə vəhşi qalibləri əsir etmişdi". Romalılar yunan mədəniyyətini inkişaf etdirmiş, ona bir sıra yeniliklər gətirmişlər. Yunan və Roma mədəniyyətini antik mədəniyyət, yəni qədim mədəniyyət adlandırırlar. Bu mədəniyyət dünyanın bir sıra ölkələrinə yayılmış, Avropanın və bütün dünyanın gələcək mədəniyyətinin inkişafı üçün zəmin olmuşdur.

E.ə. IV əsrdə yaranan Ellin dövlətləri nisbətən çox ömür sürməmişdir. Artıq e.ə. II-1 əsrlərdə onların əksəriyyəti Roma tərəfindən işğal olundu. Bu zamandan başlayaraq antik mədəniyyətin mərkəzi müasir İtaliya ərazisinə keçdi.

Appenin yarımadası ərazisində ən qədim sivilizasiya Etrusk mədəniyyəti adı ilə tarixə düşmüşdür. E.ə. I minillikdə Orta və Şimali İtaliya ərazisində etrusklar şəhər-dövlətlərinin federasiyasını yaratmışlar. Onların şəhərləri üçün daş divarlar və küçələrin düzgün planlaşdırılması səciyyəvi hal idi.

Arxeoloji qazıntılar etruskların çoxsaylı mədəniyyət abidələrinin aşkar edilməsinə imkan vermişdir. Buraya divarları yazılmış məqbərələr, sarkofaqlar, silahlar, zərgərlik şeyləri, ev-məişət əşyaları, heykəltəraşlıq və s. daxildir. Realizm-yəni insan cizgilərinin düzgün verilməsi səciyyəvidir. Etrusk təsiri nəticəsində «Roma portreti» yaranmış, mükəmməlliyə çatmışdır. Çoxlu yazılar tapılsa da hələ də etrusk yazıları oxunmamışdır. Etruskların dinində heyvanların daxili orqanlarına, quşların uçuşuna əsasən fala baxılması, təbiətin qeyri-adi hadisələrinə şərh mühüm yer tutmuşdur. Etruskların allahlar panteonu yunanlarınkı kimi olsa da, onlarda çoxlu xeyir və şər iblislərə etiqad mövcud olmuşdur.

Etrusk mədəniyyətinə Böyük müstəmləkəçilik (VIII-VI əsrlər) dövründə yunanların təsiri böyük olmuşdur. Etruskların yunan mifologiyası və Homer eposlarının obrazlarını mənimsəməsi faktı məlumdur. Öz növbəsində etruskların İtaliya xalqlarına, xüsusilə romalılara təsiri böyük olmuşdur. Bu təsir Qədim Romanın memarlığında, heykəltəraşlığında, dinində özünü göstərmişdir. Roma tarixi ənənəyə görə e.ə. 753-cü ildən başlanır. Çarlıq dövrü e.ə. VIII-VI əsrləri əhatə edir. Onun sonuna yaxın Roma şəhər-dövlət kimi formalaşmağa başladı. Əfsanəyə görə Romanı yeddi çar idarə edirmiş. Son üç çar etrusk mənşəli olmuşdur. Onların zamanında şəhərə daş hasar, kanalizasiya çəkilmiş, qladiator oyunları üçün sirk tikilmişdir. Romalılar etrusklardan sənət və tikinti texnikasını, yazını, Roma şifrləri adlanan yazını, quşun uçma və heyvanın daxili orqanlarına əsasən fala baxmağı, toqa adlanan geyimi, daxili həyəti olan evlərin memarlığını götürmüşlər.

Qədim Romada dini animistik - yəni müxtəlif ruhların mövcudluğuna inam hökm sürürdü. Eyni zamanda totemizm elementləri də mövcud idi ki, bu da özünü Roma şəhərinin təməlini qoyan Romul və Rem qardaşlarını yedirdən «Kapitoli yalquzağına» sitayişlə əlaqədar olmuşdur. Lakin tədricən yunanlar kimi allahı insan simasında qəbul edən etruskların təsiri altında romalılar antropomorfizmə keçmişlər. Romada Kapitoli təpəsində Yupiterə həsr olunmuş məbədi etrusk ustaları tikmişlər.

Əfsanəyə görə Romada etrusk ağalığı e.ə. 510-cu ildə başa çatmışdır. Ayağa qalxan xalq sonuncu çar Tarkvini e.ə. 533-510-cu illər) devirmişdir. Bu vaxtdan başlayaraq Romada əsilzadələrin quldarlıq respublikası yaranmışdır. İlkin respublika dövrü e.ə. VI-III əsrləri əhatə etmişdir. Roma bu dövrdə bütün

Appenini öz hakimiyyəti altında birləşdirə bilmişdir.

Əvvəllər Romanın bir sıra vilayətləri yunanların işğalı altında olduğundan onlar qabaqcıl yunan mədəniyyətini mənimsəmişlər. E.ə. VI-V əsrlərdə Roma cəmiyyətinin yuxarı təbəqələrində yunan dili geniş yayılmışdı. Bu dövrdə saqqalın qırxılması, saçın qısa vurulması, mis pul və s. geniş yayılmışdı. Respublika dövründə natiqlik sənəti, Roma teatrı inkişaf etmişdir. E.ə. III əsrin 60-cı illərindən başlayaraq Roma Aralıq dənizində ağalıq uğrunda əsas rəqibi olan Karfagenlə mübarizə aparırdı. O, Karfageni dağıtdıqdan sonra Yunanıstanı və Makedoniyanı öz əyalətlərinə çevirdi. Lakin e.ə. II əsrdən başlayaraq Romada daxili çəkişmələr gücləndi. Sulla müvəqqəti hərbi diktaturası (138-78) dövrü, yaxud da Sezar (100-44) dövrü ptinsipat dövrü ilə əvəz olunur. Prinsipat isə respublika örtüyü altında irsi diktatura idi. Bu dövrdə Roma allahları Yunan allahları ilə eyniləşdirildi. Yupiter Zevslə, Neptun-Poseydonla, Pluton-Aidlə, Mars-Areslə, Venera-Afrodita ilə, Yunona-Hera ilə, Serera-Demetra ilə, Vulkan-Hevestlə, Minerva-Afina ilə, Merkuri-Hermeslə, Diana-Artemida ilə eyniləşdirilmişdi. Apollon kultu e.ə. V əsrdə mənimsənilsə də onun analoqu yox idi. Sırf İtaliya allahlarından biri Yanus ikiüzlü təsvir olunurdu. O hər cür başlanğıcın həm girişi və həm də çıxışını ifadə edirdi. Qədim İtaliya allahlarından ev allahları - Lara, Genşi, Penatya da tanınırdı.

Roma allahlar panteonu qapalı deyildi. Əksinə, o başqa xalqların allahlarını da özünə daxil edirdi. Romalıların fikrincə, başqa xalqların allahları onların qüdrətini daha da artırırdı.

Yunan ədəbiyyatı Romaya böyük təsir göstərmişdir. İlk Roma yazıçı və şairləri yunanlar olmuşdur. Məsələn, ilk Roma şairi yunan Livi Andronik hesab olunur. O, yunan faciə və komediyalarını, o cümlədən Homerin «Odisseya»sını latın dilinə çevirmişdi.

Ən görkəmli Roma yazıçısı Tit Maksi Plavt (e.ə. III-II əsrlər) olmuşdur. Onun əsərlərinin ("Eşşəklər", "Küp", "Lovğa döyüşçü") qəhrəmanları yunan adları daşısalar da, Roma reallığını əks etdirirdilər. Öz komediyalarında ("Hərəmağası", "Androslu qız") ənənəvi məzhəkə sxemlərindən xeyli kənara çıxan Publi Terensiusun (e.ə. 195-159) yaradıcılığı Avropa dramaturgiyasına böyük təsir göstərmişdir. Roma faciələri əslində təqlidçiliklə məşğul idi. E.ə. I əsrdə yaşamış məşhur Roma yazıçısı və filosofu Tit Lukresi Kar «Şeylərin təbiəti haqqında» poemasında Epikurun təlimini şərh etmişdir. Qay Valeri Katull (e.ə. 87-54) lirik poeziya ustadı olmuşdur.

Latın dilində ilk nəsr əsəri olan "Kənd təsərrüfatı haqqında" traktat Böyük Katona (e.ə. 234-149) mənsubdur. Varronun (e.ə. 116-27) «Allah və insanın əməllərinin qədimliyi» əsəri bir növ tarixi-coğrafi və dini ensiklopediya təsirini yaradır. Görkəmli dövlət xadimi, məşhur natiq, hüquqşünas, filosof, yazıçı Mark Tulli Siseronun (e.ə. 106-43) əsərləri ("Dövlət haqqında", "Vəzifə borcu haqqında" və s.) hələ antik dövrdə klassik və ya "qızıl" latın ədəbiyyatının ən gözəl nümunələri olmuşdur.

«Katilinanın qəsdi», «Yuqurta müharibəsi», "Tarix" və s. əsərlərin müəllifi Qay Salyusti Krisp (e.ə. 86-35) respublika dövrü tarixşünaslığında böyük rol oynamışdır. Böyük sərkərdə Qay Yuli Sezar "Qall müharibələri haqqında qeydlər", "Vətəndaş müharibəsi haqqında qeydlər" əsərlərinin müəllifidir.

Romada fəlsəfə tam şəkildə yunan fəlsəfəsinin təsiri altıda olmuşdur. Ona görə də müstəqil Roma fəlsəfi sistemləri yaradılmamışdır.

Roma memarlığı yunan memarlığının güclü təsirinə məruz qalmışdır. Lakin oradakı tikililər özünün əzəməti, bəzəyi və s. ilə seçilmişdir. E.ə. II-I əsrlərdə beton və s. istifadə edilirdi. Orada tikilən «Zəfər darvazaları» diqqəti daha çox cəlb edir. Həmin dövrdə külli miqdarda portret heykəlləri yaradılır. Görkəmli adamların büstləri yaradılır. Eyni zamanda memarlıq, hüquq elmlərinə dair əsərlər meydana çıxır.

E.ə. 31-ci ildən başlayaraq Roma tarixinin yeni səhifəsi-imperiya dövrü başlanır. Roma ən qüdrətli imperiyaya çevrilir. Bu imperiya öz tərkibinə şərqi Aralıq dənizi, Şimali Afrika, Avropanın xeyli hissəsini daxil etmişdir. Roma imperiyasında fəlsəfənin öyrənilmə mərkəzi Afina olaraq qalırdı. Bu dövrdə stoisizm yayılmışdır. Onun nümayəndələri Seneka (e.ə. 4 - b.e. 65) və imperator Mark Avreli (121-130) olmuşdur. Cəmiyyətin aşağı təbəqələri içərisində gəzən səyyar filosoflar-kiniklər böyük hörmətə malik idilər. Ölümündən sonra ilahiləşdirilən imperator kultu və ilahə Roma kultu kimi yeni kultlar prinsipat dövrünün dini üçün səciyyəvi hadisə idi. İlahə Roma bütün Roma imperiyasının hamisi hesab olunurdu. Bu dövrdə xilaskar allah kultları da geniş yayılmışdı. Həmin allahlar guya ölümə qalib gəlir və dindarlara axirət dünyasında ölməzlik bəxş edirdilər. Roma, İsgəndəriyyə, Afina, Karfagen kimi iri şəhərlər Roma imperiyasının elm mərkəzləri idi. I-II əsrlərdə coğrafiya elminə daha çox diqqət yetirilirdi. Strabonun (e.ə. 64/63 – b.e. 23/24) traktatları, Klavdi Ptolemeyin (90-160) traktatları və fiziki coğrafiyanın, botanika, zoologiya və mineralogiyanın ensiklopediyaçısı olan Böyük Plininin (23/24-79) «Təbət tarixi» əsəri, həkim Qalenin (130-200) təcrübələri və s. bu dövrə aiddir.

İlkin imperiya dövrünün ədəbiyyatı da diqqəti cəlb edir. Apuley (b.e.125-180) «Metamorfozlar» (və yaxud «Qızıl eşşək»), kiçik Plini, satiriklər Yuvenal (60-127), Petroni (?- 66), Lukian (120-190), Vergili (e.ə. 90-19), Horasi (e.ə. 65- b.e. 8), Ovidi (e.ə. 43-b.e. 18) kimi yazıçı və şairlər Roma mədəniyyətinə dünya şöhrəti gətirmişlər. Bu dövrdə Roma tarixşünaslığı özünün zirvəsinə çatmışdır. Tit Livi (e.ə. 59-b.e. 17), Böyük Plini (23/24-79), İosif Flavi (37-100), Publi Korneli Tasit (58-117) və s. həmin dövrün tarixçiləridir. I-II əsrlərdə iki məşhur tikili - antik dünyanın ən böyük amfiteatrı Kolizey və bütün allahların şərəfinə

Panteon tikilmişdir. Roma təsviri sənətinin gözəl nümunələri 79-cu ildə Vezuvi vulkanının püskürməsi nəticəsində kül altında qalmış Pompey, Herkulanum və Stabya şəhərlərində saxlanılmışdır.

395-ci ildə Roma imperiyası paytaxtı Konstantinopol olmaqla Şərqi və Qərbi Roma imperiyasına bölündü. Bu dövr də xristianlıq bütün Roma imperiyasına yayılmağa başlamışdı. Əvvəllər xristianlar təqib olunsalar da sonralar həmin ərazilərdə xristianlıq hakimi mütləq dinə çevrildi. Antik dövrün sonunda xristian ədəbiyyatı yayılmağa başladı. Bu dövrdə Avzani və Klavdian (375-404) kimi yazıçılar və tarixçi Ammian Marselin (330-400) yaşasalar da, onların xristianlıqla heç bir əlaqəsi olmamışdır. Xristian təlimi hər iki imperiyada geniş yayılmışdı. Qərbi Roma imperiyası 476-cı ilə qədər Şərqi Roma imperiyası isə 1453-cü ilə qədər mövcud olmuşdur.

## QƏDİM ROMANIN GÖRKƏMLİ MƏDƏNİYYƏT XADİMLƏRİ

| | | |
|---|---|---|
| E.ə. | 253-184 | Dramaturq Tit Maksi Plavt |
| | 190-159 | Dramaturq Publi Terensi Afra |
| | 239-169 | Şair, tarixçi Enni |
| | 234-149 | Tarixçi, yazar, aqronom Mark Porsi Katon |
| | 180-100 | Şair Qay Lusili |
| | 116-27 | Ensiklopedist alim Terensi Varron |
| | 106-23 | Hüquqşünas, natiq, yazar Mark Tulli Siseron |
| | 87-54 | Şair Qay Valeri Katul |
| | 98-54 | Filosof, şair Tit Lukresi Kar |
| | 86-35 | Tarixçi, yazar Qay Salyusti Krips |
| | 70-19 | Şair Publi Vegili Maron |
| | 65-8 | Şair Kvint Horasi Flakk |
| | E.ə. 59- b.e. 17 | Tarixçi Tit Livi |
| | E.ə. 65-b.e. 25 | Coğrafiyaşünas Strabon |
| | E.ə. 43-b.e.17 | Şair Publi Ovidi Nazon |
| B.e. | 23-79 | Ensiklopedist alim Böyük Plini Sekund |
| | 37-90 | Tarixçi İosif Flavi |
| | 39-65 | Şair Anney Lukan |
| | 42-102 | Şair Mark Valeri Marsial |
| | 46-126 | Tarixçi, yazar Plutarx |
| | 54-120 | Tarixçi Korneli Tasit |
| | ?-70 | Tarixçi Appian |
| | 62-114 | Yazar Kiçik Plini |
| | 70-160 | Tarixçi Qay Svetoni Trankvil |
| | 90-160 | Astronom Klavdi Ptolemey |
| | 120-180 | Satirik şair Lukian |
| | 125-180 | Yazar Apuley |
| | 129-200 | Təbib Qalen |
| | 155-235 | Tarixçi Dion Kassi |
| | 263-340 | Xristian tarixçisi Yevsevi |
| | 314-393 | Natiq Libani |
| | 330-400 | Tarixçi Ammian Marselin |
| | 354-430 | Xristian yazarı Avqustin |

Xristianliğin meydana gəlməsi. Qədim Romada məzlumların üsyanı amansızlıqla yatırılırdı. Qullar, kəndlilər “dəmir legionları” məğlubedilməz, imperiyanı isə sarsılmaz hesab edirdilər. Onlar köhnə allahlara inanmır, azadlıq gətirəcək, zülmkarları cəzalandıracaq allahı səbirsizliklə gözləyirdilər. I əsrdə Fələstində Romanın ağalığına və yerli yəhudi əyanlarına qarşı olan üsyan amansızlıqla yatırıldı. Nəticədə insanlarda “rəhmdil allah” ümidi meydana gəldi. Belə bir şəraitdə Fələstində İsa haqqında əfsanə yarandı. Deyilənə görə İsa eramızın birinci ili ərəfəsində Fələstində Nəsirə qəsəbəsində anadan olmuşdur. Anası yəhudi qızı Məryəm idi. Xristianlar onun atasının allah olduğuna inanırlar. İsa otuz yaşına çatanda yeni bir din yaradır. Yunanlar onu İisus Xristos adlandırırdılar. Bu dinə inananlara xristian, dini xristianlıq adlandırdılar. Sağlığında ona iman gətirmiş 12 nəfər şagirdi İsanı daim müşayiət edirdi. Onlara “apostol” (övliya) deyirdilər. Xristianların dini kitabı “İncildə” deyilir ki, allah İsanı insanları yer üzündə zülmdən xilas etmək üçün göndəribmiş, lakin yəhudilər romalılara İsanın yeni bir din yaratdığını və yeni bir dövlət yaradacağını xəbər verirlər. Romalılar İsanı çarmıxa çəkib edam etmişdilər. İsa üç gündən sonra dirilib göylərə

çəkilmişdir. Bütün əzablara dözmüş İsa vəd edir ki, yer üzünə qayıdacaq, insanları əməlinə görə mühakimə edəcək. Yer üzündə əzab-əziyyətə dözən, İsanı allah kimi qəbul edən axirətdə mükafatlandırılacaq, cənnətdə əbədi xoşbəxt olacaq. Onu inkar edən cəhənnəmdə əbədi əzab-əziyyətə məhkum olacaq. İsa haqqındakı bu rəvayət ölən və dirilən allahlar haqqında olan əfsanəyə bənzəyir. Beləliklə, I əsrin sonu və II əsrdə İsa haqqında əfsanələr yazıldı və bunların hamısı yoxsulların səbirsizliklə gözlədikləri xoş xəbərlər idi. Əvvəlcə qullar və yoxsullar İsa haqqında əfsanəyə inanıb xristian oldular. Xristianlıq bütün Roma imperiyasına yayıldı, xristianlar icmalarda birləşib gizli fəaliyyət göstərirdilər. Onlar qədim dini bayramlardan bir çox ayinlər mənimsəyib öz dini bayramlarını qeyd edirdilər. Günün uzanmağa başladığı 25 dekabr İsanın anadan olduğu gün kimi qeyd edir. İsanın dirildiyi günü yazda təbiətin oyandığı bir vaxtda bayram edirlər. Xristianlar allahın yeri altı günə yaratması, insanı palçıqdan düzəldib ona ruh verməsi haqqındakı əfsanəni də qəbul etmişlər. Xristianlar gizli zirzəmilərdə və köhnə daş karxanalarında yığıncaqlar keçirir, ibadət edirdilər.

Roma imperiyasının dağılması ilə elm və maarif tənəzzül etdi. Üsyanlar, qiyamlar, barbarların hücumları insanlarda sabaha ümidsizlik yaratmışdı. Əhalinin həyatı və var-yoxu təhlükə altında qalmışdı. Belə bir şəraitdə xristian dini varlılar üçün əlverişli idi. Xristianlıq xalqı səbirli və itaətkar olmağa çağırırdı. Varlılar da xristian dinini qəbul etdilər. İcma rəhbərləri, keşişlər yepiskoplar
varlılardan seçilirdi. Yüzlərlə dini icmalar yepiskoplar tərəfindən idarə olunurdu. İcmaları birləşdirən və yepiskoplar tərəfindən idarə olunan təşkilata kilsə deyilirdi. Kilsə həm də xristianların ibadət etdiyi bina idi. Xristianlığı qəbul etmiş ilk Roma imperatoru Konstantin olmuşdur. Onun anası xristian idi. Konstantin Milan fərmanı ilə 313-cü ildə xristianlığa rəsmən icazə verdi. Bu dövrdən başlayaraq xristianlar dini yığıncaqlarını açıq keçirir, məbədlər tikməyə başlayırlar. Varlılar kilsəyə maliyyə yardımı göstərirlər. Kilsə imperatora tabe idi. İmperatorlar hakimiyyətlərini möhkəmləndirmək üçün xristian dininə arxalanırdılar. İmperatorlar və xristian din xadimləri dünyanın və insanın yaradılması, İsa haqqında əfsanələrə zidd məlumatları məhv etməyə başladılar. Qədim dünyanın ən gözəl incəsənət əsərlərini, binaları, əsərləri məhv edirdilər. Kitablar yandırılır, məbədlər dağıdılırdı. İsgəndəriyyə kitabxanası məhv edildi, alim qadın İpatiya öldürüldü. Xristianlar Misirdə Osiris məbədini dağıtdılar, Olimpiya oyunlarının keçirilməsini qadağan etdilər. Afinada Parfenon və Romada Panteon məbədində xristian ibadətləri keçirilirdi. IV əsrin sonunda Roma imperiyasında xristian dinindən başqa bütün dinlər qadağan olundu.



ETRURİYA. ANSEDONİYADA POCO-BUKO MƏQBƏRƏSİ. E.Ə. VII-VI ƏSRLƏR.



ETRURİYA. TARKVİNİYADA ÖKÜZLƏR MƏQBƏRƏSİNDƏ TƏSVİR. E.Ə. VI ƏSR.



ETRUSKLAR DƏFN MƏRASİMİNDƏ.



ETRURİYA. SENYADA DARVAZA. E.Ə. IV ƏSR.



UZANMIŞ ETRUSK. DƏFN URNASININ QAPAĞI. E.Ə. IV ƏSR.



REM VƏ ROMULU ƏMİZDİRƏN KAPİTOLİ DİŞİ CANAVARI. E.Ə. 480.



QAZAN BƏZƏYİ. E.Ə. VII ƏSR.



QANADLI ATLAR. ARA DELLA REGİNA MƏBƏDİNDƏ HEYKƏL QRUPU. E.Ə. IV ƏSR.



FLORENSİYA. ARETSO ƏJDAHASI. E.Ə. V ƏSR.



VETULONİYA. QIZIL QOLBAQ. E.Ə. VII ƏSR.



TARKVİNİDƏ NƏHƏNGLƏR MƏQBƏRƏSİNDƏ TƏSVİR. E.Ə. IV ƏSR.



TARKVİNİDƏ AKROBATLAR MƏQBƏRƏSİNDƏ TƏSVİR. E.Ə. VI ƏSR.



AĞI DEYƏNLƏR.
TARKVİNİDƏ AVQURLAR MƏQBƏRƏSİNDƏ TƏSVİR.
E.Ə. VI ƏSR.



ROMA. QƏDİM APPİ YOLU.
E.Ə. IV ƏSR.



TARKVİNİLƏR SƏRDABƏSİ ÜZƏRİNDƏ TƏSVİR.
E.Ə. IV ƏSR.



DƏFN ÜÇÜN URNA-KANOPA.
E.Ə. VII ƏSR.



BOKKORİS MƏQBƏRƏSİNDƏN
SİTULA (BÜRÜNC QAB). E.Ə. VIII ƏSR.



ETRUSK-KORİNF ÜSLUBUNDA
BALZAMQABI. E.Ə.VII ƏSR.



AYAĞINDAN TİKANI ÇIXARAN OĞLAN.
ROMA. KAPİTOLİ MUZEYİ. E.Ə. I ƏSR.



İMPERATOR AVQUST. E.Ə. 20.



KALİQULA. B.E. 30.



ROMA. FLAVİ AİLƏSİNDƏN
GƏNC QADIN. B.E. 80-90.



ROMA FORUMUNDA BAŞ MƏBƏD. E.Ə. II-I ƏSRLƏR.



ROMA. SESİLİYA METELLİN MƏQBƏRƏSİ E.Ə. I ƏSR.



ROMA. "KƏL" FORUMUNDA DƏYİRMİ MƏBƏD. E.Ə. I ƏSR.





**KOLİZEY. ROMADA FLAVİLƏR AMFİTEATRI. XARİCİ VƏ DAXİLİ GÖRÜNÜŞÜ. B.E. 75-80.**



ÇERVETRİ SƏRDABƏSİ ÜZƏRİNDƏ HEYKƏL QRUPU. E.Ə. IV ƏSR.



MARK AVRELİNİN ZƏFƏR SÜTUNUNUBƏZƏYƏN RELYEF.



QNEY POMPEY. E.Ə. 106-48.



İMPERATOR KONSTANTİN. (B.E. 285-337)
SİKKƏ ÜZƏRİNDƏ TƏSVİR.



QLADİATOR.



ƏSİR QADIN HEYKƏLİ.



İMPERATOR TRAYANIN ZƏFƏR SÜTUNU. B.E. 111-114.



POMPEY ŞƏHƏRİNDƏ FORUM.



İMPERATOR KONSTANTİNİN ZƏFƏR TAĞI.



QƏDİM ROMADA MALİKANƏ TƏSƏRRÜFATI.

# XÜLASƏ

Qədim dünya mədəniyyəti və incəsənəti tarixinin tədqiqi müasir sivilizasiyalar və mədəniyyətlərin keçdiyi inkişaf yollarının öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Odur ki, qədim dünya mədəniyyəti və incəsənətinin kulturologiya elminin tədqiq obyekti kimi ön plana çəkilməsi dövrün zəruri tələbi kimi əsas prioritetə çevrilir. Paleolit dövründən başlayaraq Qədim Şərqdə ilk insan sivilizasiyalarının yaranması və inkişafı, Qərbdə antik mədəniyyətin və incəsənətin çiçəklənməsi dövrlərinin tədqiqi və təsviri, ilk insan icmalarında yaranmış ibtidai inanclardan başlayaraq Qədim Şərqdə və Qədim Qərbdə formalaşmış mürəkkəb fəlsəfi cərəyanların təsnifatı, müxtəlif xalqların dini təsəvvürləri ilə bağlı olan mifologiyaların öyrənilməsi bu dərsliyin əsasını təşkil edir.

Qədim dünya mədəniyyəti və incəsənətinin sonrakı dövrlərin, o cümlədən müasir dövrün mədəniyyəti və incəsənətinə təsiri olduqca böyükdür. Yüksək İntibah incəsənətinin Leonardo da Vinçi (1452-1519), Mikelancelo Buonarotti (1475-1564), Rafael Santi (1483-1520) və s. kimi sənətkarları antik sənət nümunələrindən ilhamlanmış və bəşəriyyəti valeh edən şah əsərlərini yaratmışlar. Uyğun təzahürə şərq ölkələrində, məsələn, Təbriz Miniatür məktəbi ustadlarının yaradıcılığında da təsadüf etmək olar. Müasir Çin, yapon, Tailand, hind sənətkarları min illərlə yaşı olan milli mədəniyyət və incəsənət nümunələrindən uğurla bəhrələnir, qədim adət-ənənələrin gələcək nəsillərə ötürməyin əhəmiyyətini gözəl dərk edirlər.

Dərslikdə bəşəriyyətin minilliklər ərzində yaratdığı, qoruyub saxladığı, zənginləşdirdiyi, bir-birinə verdiyi və gələcək nəsillərə çatdırdığı mənəvi sərvətlərin və dəyərlərin öyrənilməsi və mənimsənilməsi problemləri müqayisəli kulturologiya baxımından araşdırılır, milli adət və ənənələrin, dini xüsusiyyətlərin, beynəlxalq mədəni əlaqələrin, qədim dövrün mədəniyyət və incəsənət abidələrinin tədqiqinə geniş yer verilir. Dərsliyin müxtəlif qədim sivilizasiyalar və mədəniyyətlərə aid 400-dən çox tarixi-mədəni abidənin fotoşəkilləri ilə zənginləşdirilməsi, illüstrasiyalardan hər birinə annotasiya verilməsi onun elmi dəyərini artırır, tədris prosesinə zəruri əyanilik gətirir.

# ЗАКЛЮЧЕНИЕ

При изучении этапов развития современных культур и цивилизаций исследование древней истории мировой культуры имеет исключительное значение, следовательно, изучение культуры древнего мира в качестве объекта исследования культурологи становится основным приоритетом современной науки.

Исследование процессов зарождения древней культуры начиная с эпохи палеолита до этапов становления и развития на Древнем Востоке зрелых цивилизаций включительно, классификация религиозных представлений разных народов, начиная с культов, возникших в первобытных общинах, до сложных философских течений, сформировавшихся на Древнем Востоке и Западе, изучение связанных с верованиями мифологических построений составляет основу настоящего учебника.

Древняя культура оказала огромное влияние на культуру последующих исторических этапов. Гениальные художники эпохи Высокого Возрождения Леонардо да Винчи (1452-1519), Микеланджело Буонаротти (1475-1564), Рафаель Санти (1483-1520), черпавшие вдохновение из шедевров античного искусства, создали свои шедевры, предмет гордости всего человечества. С аналогичным явлением сталкиваемся в работах мастеров Тебризской школы миниатюрной живописи. Современные китайские, японские, таиландские, индийские художники, вдохновленные созданными тысячелетия назад образцами традиционного искусства, прекрасно осознают необходимость сохранения и развития древних национальных искусств.

В контексте сравнительной культурологи в учебнике рассматриваются проблемы изучения и освоения духовных богатств и ценностей, созданных, обогащенных и переданных человечеством будущим поколениям, изучаются национальные традиции и обычаи, международные культурные сношения, памятники древней культуры и искусства.

В учебник включены более 400 аннотированных фотоиллюстраций памятников древней культуры и искусства, что значительно повышает научную ценность издания и привносит в процесс обучения необходимую наглядность.

# SUMMARY

Research of the history of the ancient world culture and art is of special importance from the standpoint of studying of modern civilizations' ways of development. That's why being the object of the research of cult urology science, putting in the forefront the ancient world culture and art has become a main priority as an important demand of the time.

The base of the textbook includes studying of creation and development of the first human civilizations in the ancient East beginning from the pal eolith epoch; investigation and depiction of the flourishing epochs of the ancient culture and art in the West; classification of the complex philosophical tendencies formed in the ancient East and ancient West beginning from the primary believes created in the first human communities; myths related with religious ideas of different peoples.

Influence of the next epoch's culture and art on the modern epoch culture and art is great enough. Masters of the Renaissance art like Leonardo, Michelangelo, Rafael and others were inspired by examples of the ancient art and created masterpieces which charmed the mankind. Similar fact is met in the Eastern countries, for example in the creative work of masters of Tabriz miniature school. Modern China, Japan, Thailand and Indian masters successfully derive benefit from examples of the thousand-year culture and art and realize importance of handing down ancient customs and traditions to future generations.

In the textbook the problem of studying and mastering of moral values created, kept, enriched and handed down by the mankind during thousand-years is researched from the point of comparative cult urological view. The wide place is given to the research of the ancient epoch monuments of culture and art, national customs and traditions, religious features and international cultural relations. The textbook is enriched with photos of more than 400 historical-cultural monuments which belong to different ancient civilizations and cultures. Annotation given to each illustration raises scientific importance of the textbook.

**"QƏDİM DÜNYA MƏDƏNİYYƏTİ"**
fənni üzrə
**PROQRAM**
II kursun III-IV semestrləri üzrə
(Cəmi 120 saat: 60 saat mühazirə, 60 saat seminar )

| *Mövzular* | *Mühazir* | *Semina* |
|---|---|---|
| FƏNNİN PREDMETİ VƏ ONUN ƏSAS | 2 saat | 2 |
| İBTİDAİ DÖVRÜN MƏDƏNİYYƏTİ | 4 saat | 4 |
| QƏDİM MİSİR MƏDƏNİYYƏTİ | 4 saat | 4 |
| HET MƏDƏNİYYƏTİ | 2 saat | 2 |
| FƏLƏSTİN | 2 saat | 2 saat |
| MESOPOTAMİYA MƏDƏNİYYƏTİ | 4 saat | 4 saat |
| QƏDİM FİNİKİYA | 2 saat | 2 saat |
| QƏDİM ASSURİYA MƏDƏNİYYƏTİ | 4 saat | 4 saat |
| QƏDİM URARTU DÖVLƏTİ | 2 saat | 2 |
| QƏDİM MİDİYA DÖVLƏTİ | 2 saat | 2 |
| QƏDİM MANNA DÖVLƏTİ | 2 saat | 2 |
| QƏDİM İRAN MƏDƏNİYYƏTİ | 4 saat | 4 |
| QƏDİM AZƏRBAYCAN MƏDƏNİYYƏTİ | 6 saat | 6 saat |
| QƏDİM HİNDİSTAN MƏDƏNİYYƏTİ | 4 saat | 4 |
| QƏDİM ÇİN MƏDƏNİYYƏTİ | 4 saat | 4 |
| ORTA ASİYA XALQLARI | 2 saat | 2 |
| İSKİTLƏR (SKİFLƏR) | 2 saat | 2 |
| QƏDİM YUNAN MƏDƏNİYYƏTİ | 4 saat | 4 |
| QƏDİM ROMA MƏDƏNİYYƏTİ | 4 saat | 4 |
| ***CƏMİ:*** | ***60 saat*** | ***60*** |

## ƏDƏBİYYAT

Ağasıoğlu F. 2500 il öncə Qarabağda toxunmuş Bərdə (saqa-oğuz) xalısı.
Allahverdiyev S. və b. Ümumi tarix. B., 1997.
Apdin Əlizadə. Estetik mədəniyyətdə varislik. Təknur, Bakı, 2005.
Azərbaycanın tarixi abidələri. MEA,. Bakı, 1958.
Bakı, Qafqaz universiteti nəşri, 2002.
Cəfərzadə İ. Qobustan. Qayaüstü rəsmlər. B., 1999.
Əfəndiyev R. Azərbaycanın bədii sənətkarlığı dünya muzeylərində. B., 1980.
Əfəndiyev T. Azərbaycan Mədəniyyəti və İncəsənəti. İran, 2003.
Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri. Ağrıdağ, Bakı, 2006.
Əmirxanov S. Hüseynov İ. Dünya muzeyləri və tarixi mədəniyyət abidələri. "Mars-print" NPF, 2008.
Haqverdiyev T. Ş. Abidələr tarixin sirdaşıdır. Bakı, 1982.
Hüseynov İ. Tətbiqi kulturologiya. Mars-Print, Bakı, 2004.
Hüseynov İlqar, Əmirxanov S. Kulturologiya və onun əsas istiqamətləri. Bakı, ADMİU, 1996.
Hüseynov İlqar. Adət və ənənələr mənəvi-əxlaqi dəyərlər kimi. Nərgiz, Bakı, 2000.
Hüseynov İlqar. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti, Bakı, Mars-Print, 2002.
Hüseynov İlqar. Kulturologiya və onun əsas istiqamətləri, ADMİU, Bakı, 1996.
Kulturologiya (dərslik) Bakı, Mars-Print, 2003.
Qədim Şərq ədəbiyyatı. İ.Vəliyev, N.Səfərov, E.Ağaoğlu. Bakı. 1999.
Mahmudov F.R. Əlikömək təpəsinin boyalı qabları və onların bəzi cənub paralelləri. - "Qədim və orta əsr Şərqi və Aralıq dənizi hövzəsi" məcmuəsi. B., 1985.
Manafova M. Mədəniyyət tarixi və nəzəriyyəsi. B., 2006
Məmmədova F. Azərbaycanda ibtidai icma quruluşu. B., 2007.
Məmmədova İ. Zərgərlik sənəti ilə tanışlıq. B., 2006.
Mirzəyev M.N. Kassilərin hakimiyyəti dövründə Babilin Misirlə əlaqələri haqqında. - "Qədim və orta əsr Şərqi Aralıq dənizi hövzəsi". Məcmuəsi. B., 1989.
Nağıyev Cəlil. Qədim Şərq ədəbiyyatı. Bakı, 2004.
Sultanlı Ə. Antik ədəbiyyatı tarixi. B., 1958.
Şükürov A. Kulturologiya. Adiloğlu, Bakı, 2003.
Tağıyev Ə., Əliyev Q. Kulturologiya, Bakı, Təbib, 1997.
Vəliyev S. Qədimdən-qədim Azərbaycan. Bakı, 1995.
Yeni mədəni-maarif jurnalı, 2008, № 4-10.
Yusifov Y. Qədim Şərq tarixi. B., 2005
Yusifov Y.B. Qədim Azərbaycan tarixinin tarixşünaslığı. I Aratta dövlətinin tarixşünaslığı. - Tarix və onun problemləri. 1997, №1, s 236-245, № 2, s. 118-130.

## *ЛИТЕРАТУРА*


Абрамова З. А. Изображение человека в палеолитическом искусстве Евразии. М. - Л., 1966.
Авдиев В.И. История Древнего Востока М., 1948, 1953, 1970.
Алиев И. История Мидии. Б., 1960.
Алпатов М. А. Художественные проблемы искусства Древней Греции. М., 1987.
Альберти Л. Б. Десять книг о зодчестве. В 10 тт. М., 1937. Т. 1-2.
Аммиан Марцеллин. История. Киев. 1906.
Ардзинба В.Г. Ритуалы и мифы древней Анатолии. М., 1982.
Арриан. Поход Александра. М., 1963.
Афанасьев В.К. Гильгамеш и Енкиду. М., 1979.
Бархин Г. Б. Архитектура театра. М., 1947.
Белицкий М. Забытый мир шумеров. М., 1980.
Белов Г. Д. Пракситель. Л., 1973.
Берлев. О.Д. Общественные отношения в Египте эпохи Среднего Царства. М., 1978.
Бернхарт К.Х. Древний Ливан. М., 1982.
Бикерман Э. Хронология древнего мира. М., 1975.
Блаватская Т. В. Ахейская Греция во втором тысячелетии до н. э. М., 1966.
Блаватская Т. В. Греческое общество второго тысячелетия до новой эры и его культура. М., 1976.
Блаватский В. Д. Античная археология Северного Причерноморья. М., 1961.
Блаватский В. Д. Искусство Северного Причерноморья античной эпохи. М., 1947.
Блаватский В. Д. История античной расписной керамики. М., 1953.
Богословский Е.С. "Слуги" фараонов, богов и частных лиц. М., 1990.
Бойс М. Зороастрийцы. Верования и обычаи. М., 1987.
Бокшанин А.Г. Древняя Греция и древний Рим. М., 1952.
Бонгард-Левин Г.М. Индия эпохи Маурьев. М., 1973.
Бонгард-Левин Г.М., Ильин Г.Ф. Индия в древности. М., 1985.
Бретаницкий Л.С., Веймарн Б.В. Искусство Азербайджана. М., 1976.
Быков В. Е. Античные принципы композиции театрального здания. Вопросы теории архитектурной композиции. 1958. № 4.
Валъдгауэр О. Ф. Лисипп. Берлин, 1923.
Вальдгауэр О. Ф. Мирон. Берлин, 1928.
Васильев Л.С. История религий Востока. М., 1988.
Васильев Л.С. Проблемы генезиса китайского государства М., 1983.
Веллард Дж. Вавилон. Расцвет и гибель города чудес. М., 2003.
Вигасин А.А., Самозванцев А.М. Артхашастра: проблемы социальной структуры и права. М., 1984.
Витрувий. Десять книг об архитектуре: В 10 тт. Т. 1. М., 1936.
Всеобщая история архитектуры: В 5 тт. Т. 2. М., 1973.
Вулли Л. Забытое царство. М., 1986.
Вулли Л. Ур халдеев. М., 1962.
Гамкрелидзе Т.В., Иванов В.В. Индоевропейский язык и индоевропейцы. т. I-II. Тбилиси, 1984.
Ганина О.Д. и др. Музей исторических драгоценностей УССР. К., 1984.
Гафуров Б.Г. Таджики. Древнейшая, древняя и средневековая история. М., 1972.
Герни О.Р. Хетты. М., 1987.
Геродот. История. М.-Л., 1972.
Гиоргадзе Г.Г. Очерки по социально-экономической истории Хеттского государства. Тбилиси, 1973.
Горбунова К. С, Передольская А. А. Мастера греческих расписных ваз. Л., 1961.
Грановский Э.А. Иран и иранцы до Ахеменидов. М., 1998.
Грант Майке. История древнего Израиля. М., 1998.
Дандамаев М.А. Политическая история Ахеменидской державы. М., 1985.
Дандамаев М.А. Рабство в Вавилонии VIII-IV вв. до н.э. М., 1974.
Дандамаев М.А., Луконин В.Г. Культура и экономика древнего Ирана. М., 1980.
Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа. Б., 1956.
Диодор. Историческая библиотека. М.-Л. 1962.
Доблъхофер Э. Знаки и чудеса. М., 1963.
Древние цивилизации. Под.ред. Г.М.Болгард-Левина, М., 1989.
Дьяков Н. и др. История древнего мира. М., 1962.
Дьяконов И.М. Ассиро-вавилонские источники по истории Урарту. - Вестник древней истории (ВДИ), 1951, № 2-3.
Дьяконов И.М. Люди города Ура. М.,1990.
Дьяконов И.М. Общественный и государственный строй древнего Двуречья. Шумер. М., 1959.

Дьяконов И.М. Община на древнем Востоке в работах советских исследователей. - Вестник древней истории (ВДИ), 1963, № 1.
Дьяконов И.М. Проблемы собственности. О структуре общества Ближнего Востока до середины II тыс. до н.э. - Вестник древней истории, 1967, № 4, 1968, №1, 3, 4.
Дьяконов И.М. Языки древней Передней Азии. М., 1967.
Дюмезиль Ж. Верховные боги индоевропейцев. М., 1086.
Ельницкий Л. А. Элементы религии и духовной культуры древних этрусков.
Заблойка Ю. История ближнего Востока в древности. М., 1989.
Законы Ману. М., 1960.
Замаровский В. Тайны хеттов. М., 1968.
Златковская Т.Д. У истоков европейской культуры. М., 1961.
Иванова А. П. Искусство античных городов Северного Причерноморья. М.-Л., 1953.
Иосиф Флавий. Иудейские древности. СПб., 1900.
Иосиф Флавий. О древности иудейского народа. Против Апиона. СПб., 1898.
Исмаилов Г.С., Алекперова М.И. К вопросу о преемственности традиций куро-аракcской культурно-исторической общности в материальной культуре Восточного Средиземноморья. - "Qədim və orta əsr Şərqi və Aralıq dənizi hövzəsi" məcmuəsi. B., 1989.
История Востока. Т. I. Восток в древности. Отв. ред. В.А.Якобсон, М., 1979.
История древнего Востока. Под Редакцией В.И.Кузищина. М., 1988.
История древнего Востока. Тексты и материалы. Под.ред. В.И.Кузина. М., 2002.
История древнего мира. Т. I-III. М., 1982.
История Ирана. М., 1977.
Картер Г. В. Гробница Тутанхамона. М., 1959
Качановский Ю.В. Рабовладение, феодализм или азиатский способ производства? М., 1971.
Кашкай С. Из истории Маннейского царства. Баку, 1977.
Квинт Курций Руф. История Александра Македонского. М., 1963.
Кинк Х.А. Египет до фараонов. М., 1964.
Китай. История, культура и историография. М., 1977.
Кленгель - Брандт Э. Путешествие в древний Вавилон. М., 1959, 1979.
Клочков И. С. Духовная культура Вавилонии. М., 1983
Клочков И.С. Духовная культура Вавилонии. Человек, судьба, время. М., 1983.
Кобылина М. М. Аттическая скульптура VII-V вв. до н.э. М., 1953.
Колпинский Ю. Д. Великое наследие античной Эллады. М., 1970, 1977.
Колпинский Ю. Д. Искусство Древней Греции. М., 1961.
Колпинский Ю. Д. Искусство Эгейского мира и Древней Греции. М., 1970.
Колпинский Ю. Д., Братова Н. Н. Искусство этрусков и Древнего Рима. М., 1982.
Коростовцев М.А. Религия древнего Египта. М., 1968.
Косидовский 3. Библейские сказания. М., 1987.
Кошеленко Г.А. Родина парфян. М., 1977.
Крамер С. История начинается в Шумере. М., 1965, 1991.
Крюков М.В., Переломов Л.С., Софронов М.В., Чебоксаров Н.Н. Древние китайцы в эпоху централизованных империй. М., 1983.
Крюков М.В., Софронов М.В., Чебоксаров Н.Н. Древние китайцы: проблемы этногенеза. М., 1978.
Ксенофонт. Киропедия. М., 1976.
Культура древнего Египта. М., 1976.
Культура древней Индии. М., 1975.
Кун Н.А. Легенды и мифы древней Греции. М., 1976.
Лесницкая М. М. Римский портрет в собрании Эрмитажа. М., 1960.
Ллойд С. Реки-близнецы. М., 1972.
Лосева Н. М,, Сидорова Н. А. Искусство Этрурии и Древней Италии. М., 1988.
Луконин В.Г. Древний и раннесредневековый Иран. М., 1987.
Маккуин Д. Хетты и их современники в малой Азии. М., 1983.
Мамедова Ф. Кавказская Албания и албаны. Б., 2006.
Массой В.М. Первые цивилизации. М., 1989.
Массой В.М. Средняя Азия и Древний Восток. М.-Л., 1964.
Машкин Н.А. История древнего Рима. М., 1956.
Межгосударственные отношения и дипломатия на Древнем Востоке. М., 1987.
Меликишвили Г.А. К вопросу о характере древнейших классовых обществ. - Вопросы истории, 1966, №11.
Меликишвили Г.А. Наири-Урарту. Тбилиси, 1954.
Меликишвили Г.А. Урартские клинописные надписи. М., 1960.

Мелларт Дж. Древнейшие цивилизации Ближнего Востока. М. 1982.
Менабде Э.А. Хеттское общество. Тбилиси, 1965.
Мирзоев М.Н. Цены на движимое имущество в касситской Вавилонии XIV-XИвв. - Вестник древней историй (ВДИ), 1982, №3.
Мириманов В. Б. Первобытное и традиционное искусство. М., 1973.
Мирон и Поликлет: Альбом. Вступ. ст. Г. Соколова. М., 1961.
Мифология древнего мира. М., 1977.
Мифы народов мира. Энциклопедия. Т. I-II. М., 1987.
Михайлов Б. П. Витрувий и Эллада. Основы античной теории архитектуры. М., 1967.
Михайловский И. Б. Теория классических архитектурных форм. М., 1944.
Монте Пьер. Египет Рамсесов. М., 1989.
Немировский А. И. Идеология и культура раннего Рима. Воронеж, 1964.
Никифоров В.Н. Восток и всемирная история. М., 1975, 1977.
Нюберг С. Н. Фидий. М., 1941.
Опенхейм А. Древняя Месопотамия. Изд 2-е. М., 1990.
Павлов В. В. Египетский портрет I-IV вв. М., 1967.
Пендлбери Дж. Археология Крита. М., 1950.
Перепелкин Ю.Я. История древнего Египта. Санкт-Петербург, 2000.
Перепелкин Ю.Я. Тайна золотого гроба. М., 1968.
Перепелькин Ю.Я Кэйе и семнех-кере. К исходу солнцепоклонничкского переворота в Египте. Москва. 1979.
Пиотровский Б.Б. Ванское царство (Урарту). М., 1959.
Полевой В. М. Искусство Греции. Древний мир. М., 1970.
Полибий. Всеобщая история. М., 1890.
Постовская Н.М. Изучение древней истории Ближнего Востока в Советском Союзе (1927-1959гг.). М., 1961.
Расулов М.М. Связи древнего Азербайджана со средиземноморским миром (античний период). - "Qədim və orta əsr Şərqi və Aralıfq dənizi hövzəsi" məcmuəsi. B., 1989.
Редер Д. Г. История древнего мира. М., 1985.
Редер Д.Г., Черкасова Е.А. История древнего мира. Часть I. М. 1979, 1985.
Ривкин Б. И. Античное искусство. Малая история искусств. М., 1972.
Роговин Н. Е. Пропилеи Акрополя в Афинах, М., 1940.
Савельева Т.Н. Как жили египтяне во времена строительства пирамид. М., 1971.
Самозванцев А.М. Мифология Востока. М., 2000.
Сарианиди В.И. Протозороастрийский храм в Маргиане и проблема возникновения зороастризма. - Вестник древней истории (ВДИ), 1989, №1.
Сетон Ллойд. Археология Месопотамии. М., 1984.
Сидорова Н. А., Чубова А. П. Искусство Римской Африки. М., 1979.
Сидорова Н.А. Искусство Эгейского мира. М., 1972.
Соколов Г. И. Акрополь в Афинах. М., 1968.
Соколов Г. И. Искусство Древнего Рима. М., 1971.
Соколов Г. И. Искусство этрусков. М., 1990.
Соколов Г. Эгейское искусство. Альбом. М., 1972.
Солкин В. В. Египет – вселенная фараонов. М., 2001, СЭС. М., 1991
Страбон. География. М., 1963.
Стучевский И. А. Рамсес N и Херихор. Из истории древнего Египта эпохи Рамсесидов. М., 1984.
Сыма Цян. Исторические записки. Т. 1-5. М.,1972-1987.
Таскина В.С. Гоюй (Речи царств). М., 1987.
Темкин Э.Н., Ерман В.Г. Мифы древней Индии. М., 1982.
Три великих сказания древней Индии. Литературное изложение. М., 1978.
Фрай Р. Наследие Ирана. М., 1972.
Хинц В. Государство Элам. М., 1977.
Хрестоматия по истории Древнего Востока. Под ред. В.В. Струве и Д.Г.Редера. М., 1963.
Хрестоматия по истории Древнего Востока. Под ред. М.А.Коростовцева, И.С.Кацнелъсона, В.И.Кузишша. Ч. 1-2. М., 1980.
Церен Э, Библейские холмы. М., 1986.
Цирес А. Г. Архитектура Колизея. М., 1940.
Циркин Ю. От Ханаана до Карфагена. М., 2001.
Чайлд Г. У истоков европейской цивилизации. М., 1952.
Чубова А. П. Этрусское искусство. Альбом. М., 1972.
Чубова А. П., Иванова А. П. Античная живопись. М., 1958, 1966.
Чубова А. П., Каспeравичюс М. М. и др. Искусство Восточного Средиземноморья I-IV веков. М., 1985.
ЧубоваА. П. Скопас. Л.-М., 1959.
Шарма Р.Ш. Древнеиндийское общество. М., 1987.
Шебель Г. Олимпия и ее игры. Лейпциг, 1971.

Шифман И.Ш. Культура древнего Угарита (XIV-XIII вв. до н.э.). М., 1987.
Шицзин. Книга песен. Избранное. М., 1986.
Шуринова Р. Коптские ткани. Собрание ГМИИ им. А. С. Пушкина. Л., 1967.
Щетенко А.Я. Первобытный Индостан. Ленинград. 1979.
Юань Кэ. Мифы древнего Китая. М., 1987.
Юсифов Ю.Б. К вопросу об эламском престолонаследии. - Вестник древней истории (ВДИ), 1974, №3.
Юсифов Ю.Б. Киммеры, скифы и саки в древнем Азербайджане. - Кавказско-Ближневосточный сборник. Тбилиси, 1988.
Юсифов Ю.Б. О языках древнейших насельников Азербайджана (III тыс. до н.э.) - Вопросы Азербайджанской филологии. Б., 1983.
Юсифов Ю.Б. Об актуальных проблемах этнической истории Азербайджана. - Проблемы изучения источников по истории Азербайджана. Б., 1988.
Юсифов Ю.Б. Ранние контакты Месопотамии с северо-восточными странами (Приурмийская зона). - Вестник древней истории (ВДИ), 1987, №1.
Юсифов Ю.Б. Хозяйственные документы из Суз и хронология ранних ахеменидов. - Вестник древней истории (ВДИ), 1958, №3.
Юсифов Ю.Б. Элам. Социально-экономическая история. М., 1968.
Юсифов Ю.Б. Эламские хозяйственные документы из Суз. - Вестник древней истории (ВДИ), 1963, №2, 3.
Янковская Н.Б. Клинописные тексты из Кюль-тепе в собраниях СССР. М., 1968.